# HEYDƏR ƏLİYEV

## MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

*on üçüncü kitab*

***oktyabr, 1997 - dekabr, 1997***

**AZƏRNƏŞR**

**BAKI-2004**

BBK 32
Ə-56

Buraxılışına məsul

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV HEYDƏR**
**Ə 56 Müstəqilliyimiz əbədidir.** B., Azərnəşr, 2004, 520 s.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin çoxcildlik əsərlərinin bu cildinə 1997-ci ilin oktyabrından dekabr ayına qədər olan dövrdəki çıxışları, nitqləri, bəyanatları, müsahibələri, məktubları, müraciətləri, fərmanları daxil edilmişdir. Burada respublika Prezidentinin Azərbaycan yazıçılarının X qurultayı ərəfəsində ədəbiyyatımızın yaşlı və gənc nəslinin nümayəndələri ilə görüşləri, qurultayda yalnız ədəbiyyat və mədəniyyətin deyil, bütövlükdə müasir Azərbaycanın problemlərini əks etdirən parlaq nitqi, Xəzər dənizinin Azərbaycan sektorunda xarici şirkətlərlə birgə işlənilən «Çıraq» neft yatağından ilkin neftin çıxarılmasına həsr olunmuş mərasimin materialları, Tehranda İslam Konfransı Təşkilatının VIII zirvə görüşündə İslam ölkələrinin dövlət və hökumət başçıları ilə apardığı dərin məzmunlu danışıqları, müxtəlif səviyyəli görüşlərdəki söhbətləri, bəyanatları öz əksini tapmışdır.

Cildə daxil edilmiş materiallarda həmçinin Azərbaycan ilə MDB ölkələri arasındakı ənənəvi dostluq əlaqələrinin möhkəmlənməsi və genişlənməsi, müstəqil dövlətimizin Milli Ordusuna ümumxalq qayğısı və diqqətinin artırılması, respublikamızın ictimai-siyasi və iqtisadi-mədəni həyatının vacib məsələləri, daxili və xarici siyasətinin başlıca istiqamətləri əks edilir.

**BBK-32**

Ə **0801000000**
**M-651(07)- 2004**

**© Azərnəşr, 2004**

## KİTABIN İÇİNDƏKİLƏR


AZƏRBAYCAN YAZIÇILARININ X QURULTAYI ƏRƏFƏSİNDƏ YAŞLI NƏSİLDƏN OLAN YAZIÇILARIN BİR QRUPU İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ
*28 oktyabr 1997-ci il*............................................................ 10
AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN SƏDRİ ANARIN ÇIXIŞI 11
XALQ ŞAİRİ QABİLİN ÇIXIŞI............................................................ 12
YAZIÇI ƏKRƏM ƏYLİSLİNİN ÇIXIŞI............................................................ 13
RESPUBLİKA MƏTBUAT VƏ İNFORMASİYA NAZİRİ, YAZIÇI SİRUS TƏBRİZLİNİN ÇIXIŞI............................................................ 14
XALQ ŞAİRİ MİRVARİD DİLBAZİNİN ÇIXIŞI............................................................ 17
ŞAİR SABİR RÜSTƏMXANLININ ÇIXIŞI ............................................................ 19
YAZIÇI ELÇİNİN ÇIXIŞI............................................................ 24
YEKUN SÖZÜ
*28 oktyabr 1997-ci il*............................................................ 26

YUSİF MƏMMƏDƏLİYEV ADINA NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNƏ
*28 oktyabr 1997-ci il*............................................................ 30

AZƏRBAYCAN YAZIÇILARININ X QURULTAYI ƏRƏFƏSİNDƏ GƏNC NƏSİLDƏN OLAN YAZIÇI VƏ ŞAİRLƏRİN BİR QRUPU İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ
*29 oktyabr 1997-ci il*............................................................ 31
AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN SƏDRİ ANARIN ÇIXIŞI…........... 31
TƏNQİDÇİ VAQİF YUSİFLİNİN ÇIXIŞI............................................................ 32
ŞAİR RÜSTƏM BEHRUDİNİN ÇIXIŞI............................................................ 35
YEKUN SÖZÜ
*29 oktyabr 1997-ci il*............................................................ 37

AZƏRBAYCAN YAZIÇILARININ X QURULTAYINDA NİTQ
*30 oktyabr 1997-ci il* ............................................................ 43

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HÖRMƏTLİ CƏNAB HEYDƏR ƏLİYEVƏ
*4 noyabr 1997-ci il*............................................................ 57

ŞEYX ŞAMİLİN 200 İLLİYİ MÜNASİBƏTİLƏ MAHAÇQALADA KEÇİRİLƏN TƏNTƏNƏLİ YUBİLEYİN İŞTİRAKÇILARINA TƏBRİK MƏKTUBU
*4 noyabr 1997-ci il* ............................................................ 58

ŞEYX ŞAMİLİN 200 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ GECƏDƏ NİTQ
*4 noyabr 1997-ci il*............................................................ 59

M.F.AXUNDOV ADINA AZƏRBAYCAN DÖVLƏT KİTABXANASINDA «AZƏRBAYCAN QAÇQINLARI» FOTOALBOMUNUN TƏQDİMATI MƏRASİMİNDƏ N İ T Q
*5 noyabr 1997-ci il*............................................................ 62

AZƏRBAYCAN RESPUBLİKASININ TELEVİZİYA VƏ RADİO İŞÇİLƏRİNƏ
*6 noyabr 1997-ci il*............................................................ 65

ƏLİLLƏRİN III RESPUBLİKA YARADICILIQ SƏRGİ-MÜSABİQƏSİNİN AÇILIŞINDA ÇIXIŞ
*6 noyabr 1997-ci il*............................................................ 66

**XALQ ARTİSTİ TOFİQ QULİYEVƏ**
*7 noyabr 1997-ci il*........................................................................................ 68

**XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏNİN «HARA GEDİR BU DÜNYA?!» PYESİNİN TAMAŞASINDAN SONRA YARADICI KOLLEKTİVİN ÜZVLƏRİ İLƏ GÖRÜŞÜ**
*7 noyabr 1997-ci il*........................................................................................ 69

**DÖVLƏT MÜKAFATLARI LAUREATI, GENERAL - LEYTENANT KƏRİM KƏRİMOVA**
*10 noyabr1997-ci il*........................................................................................ 72

**AZƏRBAYCAN RESPUBLİKASININ ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT XADİMLƏRİNƏ DÖVLƏT QAYĞISININ ARTIRILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

*10 noyabr 1997-ci il*........................................................................................ 73

**«ÇIRAQ - I» PLATFORMASINDA İŞƏ BAŞLANILMASI, NEFTİN ALINMASI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ**
*12 noyabr 1997-ci il*........................................................................................ 74

**XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA XARİCİ ŞİRKƏTLƏRLƏ MÜŞTƏRƏK İŞLƏNİLƏN NEFT YATAQLARINDAN İLKİN NEFTİN ÇIXARILMASI MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ**
*12 noyabr 1997-ci il*........................................................................................ 75
**YEKUN SÖZÜ**
*12 noyabr 1997-ci il*........................................................................................ 81

**AZƏRBAYCAN PREZİDENTİ ADINDAN XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA XARİCİ ŞİRKƏTLƏRLƏ BİRGƏ İŞLƏNİLƏN NEFT YATAQLARINDAN İLKİN NEFTİN ÇIXARILMASI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK ETMƏK ÜÇÜN AZƏRBAYCANA GƏLMİŞ QONAQLARIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBULDA ÇIXIŞ**
*12 noyabr 1997-ci il*........................................................................................ 82

**BAKININ 6-cı MİKRORAYONUNDA ŞƏHİD AİLƏLƏRİ VƏ QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİ ÜÇÜN İNŞA EDİLMİŞ YAŞAYIŞ BİNASININ İSTİFADƏYƏ VERİLMƏSİ MÜNASİBƏTİLƏ KEÇİRİLMİŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ**
*15 noyabr 1997-ci il*........................................................................................ 83

**VOKALÇILARIN BÜLBÜL ADINA BİRİNCİ BEYNƏLXALQ MÜSABİQƏSİNƏ**
*17 noyabr 1997-ci il*........................................................................................ 87

**GÖRKƏMLİ BƏSTƏKAR, AZƏRBAYCANIN XALQ ARTİSTİ TOFİQ QULİYEVİN 80 İLLİYİNƏ HƏSR EDİLMİŞ YUBİLEY GECƏSİNDƏ ÇIXIŞ**
*19 noyabr 1997-ci il* ........................................................................................ 88

**AMERİKADA NƏŞR EDİLƏN «AZƏRBAYCAN İNTERNƏŞNL» JURNALININ BEŞ İLLİYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ**
*20 noyabr 1997-ci il* ........................................................................................ 89

**XALQ YAZIÇISI HÜSEYN ABBASZADƏYƏ**

*22 noyabr 1997-ci il*.......... 92

AZƏRBAYCAN YAZIÇILARINA DÖVLƏT QAYĞISININ ARTIRILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*24 noyabr 1997-ci il*.......... 93

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ PETRU LUÇİNSKİNİN BİNƏ HAVA LİMANINDA QARŞILANMA MƏRASİMİNDƏ BƏYANAT
*26 noyabr 1997-ci il*.......... 94

PETRU LUÇİNSKİNİN BƏYANATI
*26 noyabr 1997-ci il*.......... 94

MOLDOVA PREZİDENTİ PETRU LUÇİNSKİ İLƏ TƏNTƏNƏLİ GÖRÜŞ-DƏKİ SÖHBƏTDƏN
*26 noyabr 1997-ci il*.......... 95

MOLDOVA PREZİDENTİ PETRU LUÇİNSKİYƏ BAKI DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ
*26 noyabr 1997-ci il*.......... 96

İKİTƏRƏFLİ SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ BAŞA ÇATDIQDAN SONRA AZƏRBAYCAN VƏ MOLDOVA PREZİDENTLƏRİNİN BƏYANATLARI VƏ BİRGƏ MƏTBUAT KONFRANSI
*27 noyabr 1997-ci il*.......... 99

AZƏRBAYCAN PREZİDENTİ ADINDAN MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ PETRU LUÇİNSKİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ
*27 noyabr 1997-ci il*.......... 105

YENİ AZƏRBAYCAN PARTİYASININ YARADILMASININ 5-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ
*29 noyabr 1997-ci il*.......... 108

VOKALÇILARIN PROFESSOR BÜLBÜL ADINA BİRİNCİ BEYNƏLXALQ MÜSABİQƏSİNİN QALİBLƏRİNƏ MÜKAFAT VƏ DİPLOMLARIN TƏQDİM EDİLMƏSİ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ ÇIXIŞ
*1 dekabr 1997-ci il*.......... 119

ÜZEYİR HACIBƏYOV ADINA AZƏRBAYCAN DÖVLƏT SİMFONİK ORKESTRİNİN FƏALİYYƏTİNİ YAXŞILAŞDIRMAQ TƏDBİRLƏRİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
*2 dekabr 1997-ci il*.......... 120

AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİNİN GÖRKƏMLİ XADİMİ, PROFESSİONAL VOKAL SƏNƏTİMİZİN BANİSİ BÜLBÜLÜN ANADAN OLMASININ 100 İLLİYİ MÜNASİBƏTİLƏ MÜĞƏNNİNİN BAKIDAKI XATİRƏ EV-MUZEYİNDƏ ÇIXIŞ
*3 dekabr 1997-ci il*.......... 121

AZƏRBAYCAN PROFESSİONAL VOKAL SƏNƏTİNİN BANİSİ BÜLBÜLÜN ANADAN OLMASININ 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİNDƏ NİTQ
*3 dekabr 1997-ci il*.......... 123

YAZIÇI ƏKRƏM ƏYLİSLİYƏ
*5 dekabr 1997-ci il*........................................................................................................ 125

XALQ ARTİSTİ RAUF ABDULLAYEVƏ
*6 dekabr 1997-ci il* ........................................................................................................ 126

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BORİS NİKOLAYEVİÇ YELTSİNƏ
*7 dekabr 1997-ci il* ........................................................................................................ 127

İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ DEKABRIN 9-11-də TEHRANDA KEÇİRİLƏCƏK VIII ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN İRAN PAYTAXTINA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*8 dekabr 1997-ci il*........................................................................................................ 128

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*8 dekabr 1997-ci il*........................................................................................................ 129

TÜRKMƏNİSTAN PREZİDENTİ SAPARMURAD NİYAZOV İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*8 dekabr 1997-ci il*........................................................................................................ 130

MİSİR ƏRƏB RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ƏMİR MUSA İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*8 dekabr 1997-ci il*........................................................................................................ 131

İNDONEZİYANIN XARİCİ İŞLƏR NAZİRİ ƏLİ ALATAS İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*8 dekabr 1997-ci il*........................................................................................................ 132

BEYNƏLXALQ ƏRZAQ TƏŞKİLATININ (FAO) PREZİDENTİ JAK DÜFÜ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*8 dekabr 1997-ci il*........................................................................................................ 134

İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ İZZƏDDİN LARAKİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*8 dekabr 1997-ci il*........................................................................................................ 135

FƏLƏSTİN RƏHBƏRİ YASİR ƏRƏFAT İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*8 dekabr 1997-ci il*........................................................................................................ 136

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*9 dekabr 1997-ci il*........................................................................................................ 137

SURİYA PREZİDENTİ HAFİZ ƏSƏDLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*9 dekabr 1997-ci il*........................................................................................................ 138

LİVAN PREZİDENTİ İLYAS HƏRƏVİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*9 dekabr 1997-ci il*........................................................................................................ 139

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN XARİCİ İŞLƏR NAZİRİ RƏŞİD ABDULLA ƏL-NƏİMİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*9 dekabr 1997-ci il*........................................................................................................ 140

**İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN RƏHBƏRLƏRİNİN VIII ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQ**
*10 dekabr 1997-ci il*........................................................................................ **141**

**İRANIN «ƏHRAR» QƏZETİNİN MÜXBİRİ İLƏ MÜSAHİBƏ**
*10 dekabr 1997-ci il*........................................................................................ **143**

**İRANIN «İQTİSADİYYAT DÜNYASI» QƏZETİNİN VƏ İRNA AGENTLİYİNİN MÜXBİRLƏRİNƏ MÜSAHİBƏ**
*10 dekabr 1997-ci il*........................................................................................ **144**

**İRANIN «ƏSR-E AZADİ» QƏZETİNİN REDAKTORU DOKTOR VAHİD PEYHANIN SUALLARINA CAVABLAR**
*10 dekabr 1997-ci il*........................................................................................ **145**

**TACİKİSTAN PREZİDENTİ İMAMƏLİ RƏHMANOVLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*10 dekabr 1997-ci il*........................................................................................ **147**

**ƏRƏB ÖLKƏLƏRİ CƏMİYYƏTİNİN BAŞ KATİBİ İSMƏT ƏBDÜL MƏCİD İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*10 dekabr 1997-ci il*........................................................................................ **148**

**QAZAXISTAN DİPLOMATLARI İLƏ GÖRÜŞDƏ SÖHBƏT VƏ ARZULAR**
*10 dekabr 1997-ci il*........................................................................................ **149**

**İRAN İSLAM RESPUBLİKASININ ALİ DİNİ RƏHBƏRİ AYƏTÜLLAH SEYİD ƏLİ XAMNEİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*10 dekabr 1997-ci il*........................................................................................ **150**

**PAKİSTANIN BAŞ NAZİRİ NƏVAZ ŞƏRİF İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*10 dekabr 1997-ci il*........................................................................................ **151**

**İKT-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN VIII ZİRVƏ GÖRÜŞÜNDƏ XARİCİ VƏ YERLİ JURNALİSTLƏRİN SUALLARINA CAVABLAR**
*11 dekabr 1997-ci il*........................................................................................ **152**

**SURİYANIN TV-2 KANALININ DİREKTORU DOKTOR YƏHYA ƏL-ƏRİZİ İLƏ MÜSAHİBƏ**
*11 dekabr 1997-ci il*........................................................................................ **155**

**ERMƏNİSTAN MİLLİ RADİOSUNUN MÜXBİRİ İLƏ MÜSAHİBƏ**
*11 dekabr 1997-ci il*........................................................................................ **156**

**LİVANIN BAŞ NAZİRİ RAFİQ ƏL-HƏQİQİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*11 dekabr 1997-ci il*........................................................................................ **157**

**SƏUDİYYƏ ƏRƏBİSTANININ ŞAHZADƏSİ ABDULLA İBN ƏBDÜL ƏZİZ AL SƏİD İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*11 dekabr 1997-ci il*........................................................................................ **158**

**İRAN İSLAM RESPUBLİKASI MƏSLƏHƏT ŞURASININ SƏDRİ ƏLİ ƏKBƏR HAŞİMİ-RƏFSƏNCANİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*11 dekabr 1997-ci il*........................................................................................ **159**

**TƏBRİZ ŞƏHƏRİNİN VALİSİ YƏHYA MƏHƏMMƏDZADƏ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*11 dekabr 1997-ci il*........................................................................................ **160**

BMT-nin BAŞ KATİBİ KOFİ ANNAN İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*11 dekabr 1997-ci il*.......... 161

İKT-nin VIII ZİRVƏ GÖRÜŞÜ BAŞA ÇATDIQDAN SONRA VƏTƏNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL TEHRANA SƏFƏRİNİN YEKUNU İLƏ ƏLAQƏDAR BƏYANAT
*11 dekabr 1997-ci il*.......... 162

İKT-nin VIII ZİRVƏ GÖRÜŞÜNDƏN VƏTƏNƏ QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA SƏFƏRİN YEKUNLARI BARƏDƏ JURNALİSTLƏRİN SUALLARINA CAVABLAR
*11 dekabr 1997-ci il*.......... 163

BƏSTƏKAR EMİN SABİTOĞLUNA
*12 dekabr 1997-ci il*.......... 164

UŞAQLARIN BEYNƏLXALQ TELEVİZİYA VƏ RADİO GÜNÜ MÜNASİBƏTİLƏ «UŞAQLAR DÜNYANIN SEVİNCİDİR» DEVİZİ ALTINDA KEÇİRİLƏN ŞƏNLİKDƏ ÇIXIŞ
*14 dekabr 1997-ci il*.......... 165

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İMAMƏLİ RƏHMANOVA
*16 dekabr 1997-ci il*.......... 167

1948–1953-cü İLLƏRDƏ AZƏRBAYCANLILARIN ERMƏNİSTAN SSR ƏRAZİSİNDƏKİ TARİXİ-ETNİK TORPAQLARINDAN KÜTLƏVİ SURƏTDƏ DEPORTASİYASI HAQQINDA FƏRMANI
*18 dekabr 1997-ci il*.......... 168

XALQ RƏSSAMI MİKAYIL ABDULLAYEVƏ
*18 dekabr 1997-ci il*.......... 169

HEYKƏLTƏRAŞ ÖMƏR ELDAROVA
*20 dekabr 1997-ci il*.......... 170

SOSİAL-İQTİSADİ PROBLEMLƏRİN HƏLLİNƏ, ƏHALİNİN TƏCHİZATINI YAXŞILAŞDIRMAQ MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ
*23 dekabr 1997-ci il*.......... 171
«AZƏRENERJİ» SƏHMDAR CƏMİYYƏTİNİN PREZİDENTİ MÜSLÜM İMANOVUN ÇIXIŞI.......... 171
AZƏRBAYCAN DÖVLƏT NEFT ŞİRKƏTİNİN PREZİDENTİ NATİQ ƏLİYEVİN ÇIXIŞI.......... 175
«AZƏRİQAZ» SƏHMDAR CƏMİYYƏTİNİN SƏDRİ VƏZİFƏSİNİ İCRA EDƏN ƏLİHÜSEYN CAMALOVUN ÇIXIŞI.......... 181
BAKI ŞƏHƏR İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI RƏFAEL ALLAHVERDİYEVİN ÇIXIŞI.......... 182
QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ GÜLABBAS QƏHRƏMANOVUN ÇIXIŞI.... 187
SUMQAYIT ŞƏHƏR İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ŞAKİR ABIŞOVUN ÇIXIŞI.......... 189
YEKUN NİTQİ
*23 dekabr 1997-ci il*.......... 191

QEYDLƏR.......... 195

ŞƏXSİ ADLAR GÖSTƏRİCİSİ.......... 212

**COĞRAFİ ADLAR GÖSTƏRİCİSİ.......................................................................... 216**

## AZƏRBAYCAN YAZIÇILARININ X QURULTAYI ƏRƏFƏSİNDƏ YAŞLI NƏSİLDƏN OLAN YAZIÇILARIN BİR QRUPU İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ

*Prezident sarayı*

*28 oktyabr 1997-ci il*

Adətən biz bu salonda dövlət işləri ilə əlaqədar olan məsələləri müzakirə etməyə toplaşırıq. Ancaq mənim burada olduğum zamanda ilk dəfədir ki, yazıçıların böyük bir nümayəndə heyəti ilə görüşürəm. Bunu özüm üçün çox əlamətdar hadisə hesab edirəm.

Sizin, demək olar, hamınızla uzun illərdir ki, şəxsən tanışam, bir yerdə yaşamışıq, işləmişik, bir yerdə çox işlər görmüşük. İndi də bir yerdəyik, ancaq tez-tez görüşməyə imkan olmur. Sizin də imkanınız olmur, başınız qarışıqdır, mənim də imkanım olmur. Ancaq indi hadisələr məcbur edibdir. Siz istəsəniz də, istəməsəniz də, mən də istəsəm də, istəməsəm də görüşmək lazımdır. Çünki siz yeni, növbəti qurultayın ərəfəsindəsiniz.

Mən düşünürəm ki, Azərbaycan xalqının müsbət xüsusiyyətlərindən biri də odur ki, mədəniyyətə, ədəbiyyata daim diqqət, qayğı göstərib və hörmət edibdir. Bilmirəm, bəlkə səhv edirəm, ancaq yazıçıya, şairə, mədəniyyət xadiminə bizim Azərbaycandakı kimi hörmət və ehtiram bəlkə də az yerlərdə tapılar. Bunun kökləri var. Çünki bizim ədəbiyyatımız da, mədəniyyətimiz də zəngindir, ədəbiyyatı[5-6]mızı, mədəniyyətimizi və tariximizi zənginləşdirən dahi şəxsiyyətlərimiz də olubdur. Ona görə də xalq bu şəxsiyyətlərlə həmişə fəxr edərək, onların yaratdıqlarını həmişə sevə-sevə oxuyaraq mədəniyyətə, ədəbiyyata hörməti nəinki saxlayıb, hətta artırıbdır.

Biz məmnun olmalıyıq ki, həyatımızın bu keçid, ağır dövründə də bu hissiyyatlar, münasibətlər dəyişməyibdir. Mən belə hesab edirəm. Şübhəsiz, mədəniyyətə, ədəbiyyata həm xalq, insanlar, həm də dövlətlər tərəfindən qayğı həmişə lazımdır. Bu qayğı mənəvi nöqteyi-nəzərdən keçmiş zamanlara nisbətən bəlkə indi də azalmayıbdır. Amma ola bilər bəzi maddi imkanlar nöqteyi-nəzərindən o qədər deyildir. Ancaq bunlar hamısı keçicidir, daimi deyildir. Hesab edirəm bizim ədəbiyyatımız, mədəniyyətimiz əsrlər boyu çox ağır sınaqlardan, mərhələlərdən keçərək, yaşadığı kimi, bu gün də bu çətin dövrü birlikdə yaşayıb keçəcəyik. Güman edirəm ki, sizin qurultayınız da bu məsələlər ətrafında fikir mübadiləsi aparacaqdır.

Şübhəsiz ki, mən sizin qurultayın işlərinə qarışmaq fikrində deyiləm və bilirsiniz ki, keçmiş zamanlarda da qarışmamışam. Keçmiş zamanlarda, totalitar rejim dediyimiz vaxtda ən toxunulmaz yerlərdən biri bizim yazıçılar, mədəniyyət sahəsi olubdur. O vaxt bizim mədəniyyətdə, ədəbiyyatda, ümumiyyətlə, bu mühüm mədəni sahədə bir ideoloji xətti-hərəkət vardısa, indi bu da götürülübdür, yoxdur. Bir partiyanın ideologiyası yoxdur, bir hakim ideologiya yoxdur. Hamımızın bir ideologiyası var: Azərbaycan müstəqilliyi və müstəqilliyin əbədiliyi. Ona görə də indi yazıçılar və Yazıçılar Birliyi daha da sərbəst, müstəqildir. Ancaq buna baxmayaraq, sizin bir oxucunuz kimi, eyni zamanda ədəbiyyatı sevən adam kimi, bir də ki, dövlət başçısı olaraq bu məsələlərdən kənarda qalmamaq üçün bu gün bu görüşə gəlmişəm. Sizi dinləmək istəyirəm. [6]

## AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN SƏDRİ ANARIN ÇIXIŞI

Hörmətli cənab Prezident!

Hörmətli görüş iştirakçıları!

İki gündən sonra, ayın 30-da Azərbaycan yazıçılarının X qurultayı toplaşacaq. Mən bugünkü görüşü tarixi görüş hesab edirəm. Ona görə ki, X qurultay olsa da, Azərbaycan yazıçıları ilk dəfə müstəqil Azərbaycanda öz qurultaylarına toplaşırlar və bu qurultayda ilk dəfə olaraq müstəqil Azərbaycanın Prezidenti iştirak edəcəkdir.

Son 25 ildə, bizim V qurultaydan, yəni 1971-ci ildən başlayaraq, hörmətli Heydər Əliyev istisnasız olaraq yazıçıların bütün qurultaylarında iştirak və çıxış edibdir. Amma bu dəfə o, ilk dəfə olaraq müstəqil Azərbaycanın Prezidenti kimi müstəqil Azərbaycanın yazıçılarının qurultayında iştirak edəcək və mən çox arzu edərdim ki, çıxış da eləsin.

Cənab Prezident, qurultay ərəfəsində bizi topladığınız üçün Sizə təşəkkür edirəm. Şübhəsiz, burada fikir mübadiləsi olacaqdır. Mən demək istədiklərimi, bütün fikirlərimi burada açıqlayıb Sizin vaxtınızı, görüş iştirakçılarının vaxtını almaq istəmirəm. Çünki qurultayın açılışında çıxış edəcək, Yazıçılar Birliyinin fəaliyyəti haqqında orada daha ətraflı danışacağam.

Yalnız onu demək istəyirəm ki, on ildir mən Yazıçılar Birliyinə rəhbərlik edirəm. Birinci dəfə 1987-ci ildə plenumda birinci katib, sonra–1991-ci ildə sədr seçildim. Hər işdə olduğu kimi, yəqin ki, bizim işimizdə də nöqsanlar, çatışmayan cəhətlər də vardır. Amma birincisi, ən başlıcası onu hesab edirəm ki, mən və Yazıçılar Birliyinin rəhbərliyi, katibliyi, [7-8] ağsaqqallar şurası əsas bir işə nail olduq ki, Yazıçılar Birliyi parçalanmadı, Moskvada, başqa respublikalardakı kimi bir-biri ilə əmlak, fond davası, mətbuat davası üstündə parcalanmış bir təşkilata çevrilmədi, öz bütövlüyünü saxladı.

İkincisi, biz jurnallarımızı saxlaya bildik. Ən çətin vaxtda, dövlətin köməyi olmayanda belə, binamızın müəyyən mərtəbələrini kirayə verməklə jurnallarımızı saxladıq. Son illərdə isə Sizin qayğınız nəticəsində jurnallarımızdan ikisi «Azərbaycan» və «Qobustan», «Ədəbiyyat qəzeti» dövlət büdcəsinə qəbul olundu. Bununla da ədəbiyyatımızı yaşatdıq. Çünki nəşriyyatlarımız çox vaxt məcburən kommersiya qanunları ilə işləməli olur və ədəbi meyarlarla, ölçülərlə işləyən yeganə nəşr forması bizim ədəbi orqanlarımız «Azərbaycan», «Literaturnıy Azerbaydjan», «Ulduz», «Qobustan» jurnalları və «Ədəbiyyat qəzeti»dir.

Cənab prezident, vaxtilə 30-cu illərdə belə bir absurd şüar vardı: «Əmək qabaqcılları-ədəbiyyata!», yəni, sən yaxşı çilingər, yaxşı inşaatçısansa, gərək roman, yaxud poema yazasan. Çox cəfəng fikir idi. Düzdür, o adamların içərisindən də istedadlılar çıxdı, amma şüarın özü absurd idi. İndi də elə bir dövr gəlib, belə bir şüar ortaya çıxıb ki, «Kimin pulu var-ədəbiyyata!», kitabını çap etdirməyə kimin pulu var, buyurub gəlsin, roman adı ilə cızma-qara yazsın, nə bilim nə yazsın, beləliklə də həqiqi yazıçılar, doğrudan da xalqın ədəbiyyatını yaradanlar kənarda qalsın.

Bu cəhətdən bizim jurnalların, qəzetin büdcəyə daxil edilməsi ədəbiyyatımızı, dilimizi, mədəniyyətimizi yaşadır.

Bəzən məsələ qalxır ki, əvvəlki Yazıçılar Birliyi ilə indiki Yazıçılar Birliyi arasında uçurum var, ya yoxdur, əvvəl elə idi, indi belədir. Mən buna cavab versəm deyərdim, bəli, uçurum var, ona görə ki, əvvəl Yazıçılar Birliyi sovet sistemində yaranmış təşkilat idi, o sistemin qanunları ilə yaşayırdı, o qanunlarla imtiyazları vardı, imtiyazlar verə [8-9] bilirdi. Təəssüf ki, indi bu imtiyazlar yoxdur. Sizinlə söhbətimiz zamanı da mən dedim ki, biz bu on il ərzində 100-dən artıq yazıçıya mənzil vermişik. Amma indi 15 yazıçımız növbədədir və sizin yardımınızla onların da mənzil şəraiti düzəlsə, bu, xüsusilə cavan yazıçıların problemlərini aradan qaldıra bilər.

Deməyə söz çoxdur, qurultayda çıxışımda da deyəcəyəm. Hələlik isə Sizə bir daha təşəkkür etmək istəyirəm. Başqa yoldaşlarımı dinləmək istəyirəm, lazım olsa axırda bir də çıxış edərəm. Çox sağ olun.

**Heydər Əliyev:** Şübhəsiz ki, əsas söhbət qurultayda gedəcək. Mən istəməzdim bizim bugünkü görüşümüz elə olsun ki, söhbət aparılsın, qurultaya söz qalmasın. Ona görə elə etmək lazımdır ki, əsas sözlər qurultaya qalsın. Amma bu gün, sadəcə, sərbəst söhbətdir, fikir mübadiləsidir. Birincisi, buraya toplaşanlar bizim xalq şairlərimizdir, - ikincisi, hörmətli, - bəlkə də xalq şairi adı almayıblar, amma alacaqlar, mən belə düşünürəm, - şairlərimiz, ədəbiyyatda çox böyük xidmət göstərmiş insanlardır. Ona görə belə bir görüş keçirilir. Mən Anardan xahiş etdim ki, əgər etiraz olmasa, mümkün olsa, sabah da gənc yazıçılarla, şairlərlə görüşmək istərdim. Çünki burada oturanların bir çoxu bir otuz il bundan qabaq gənc idilər. O vaxtkı yaşlılardan, deyəsən, heç kim qalmayıb, təkcə Mirvarid xanım buradadır. Vaxtilə Anar, Yusif, Elçin və başqaları ilə gənc nəslin nümayəndələri kimi görüşürdük. Mən hesab edirəm, indi də gəncdirlər, çünki özüm də gəncəm. Ancaq necə olur-olsun, özümüzü nə qədər gənc hiss etsək də, yaş özünü göstərir, gün keçir, ay keçir, il keçir, yaş üst-üstə gəlir.

Onu demək istəyirəm ki, sizinlə tanışam, amma gənclərin əksəriyyəti ilə tanış deyiləm. Bəlkə də bəzilərinin yazılarını oxumuşam, amma üz-üzə görüşməmişəm. Ona görə də xahiş etmişəm ki, imkan olsa, onlarla da görüşək. [9-10]

Kimin sözü, arzusu varsa, buyursun. Mən də hesab edirəm ki, bizim Yazıçılar Birliyinin ən böyük nailiyyəti ondan ibarətdir ki, bu keçid, sınaq dövründən itkisiz keçibdir. Yəni, Birlik dağılmayıb, pozulmayıbdır. Bunun özü böyük şeydir. Birlik nə vaxt, hansı ictimai-siyasi quruluş zamanı yaranıbdır, - bu o qədər əhəmiyyətli deyildir. Amma bunun yaranması böyük bir müsbət hadisədir, yaşaması da böyük nailiyyətdir. Keçid dövründə ki, Birlik özünü saxlayıb, parçalanmayıb, dağılmayıbdır və yaşayır, - güman edirəm, bundan sonra daha da yaxşı yaşayacaqdır, - bunun özü böyük nailiyyətdir. Şübhəsiz ki, bu sizin hamınızın xidmətidir.

Ancaq nə etmək lazımdır ki, Birlik bundan sonra daha da yaxşı yaşasın? Kitabların çapı ilə əlaqədar Anar tamamilə doğru deyir. İndi vəziyyət belədir. Məsələn, bir neçə vaxt bundan öncə görürəm ki, keçmişdə rayon prokuroru olmuş adam haqqında böyük bir kitab yazılıbdır. Şübhəsiz, hər adam haqqında kitab yazmaq olar. Ancaq o adamlar ki, həqiqətən böyük xidmətləri olub, gərək onların haqqında yazılsın, sonra da o biriləri haqqında. Amma nə təhər olur? Çünki indi onun ya oğludur, ya da kimidir, - qohumudur-əqrəbasıdır, - imkanı, pulu var, kitabı yazıb, çox da yaxşı, keyfiyyətli çap etdiribdir. Bunun zərəri, şübhəsiz, ondan ibarətdir ki, subyektiv xarakter daşıyır. Məsələn, oğuldur, ya nə bilim, qohum-qardaşdır, prokuror atası haqqında elə şeylər yazıb ki, elə bil Azərbaycanı yaradanlardan biri budur. Şübhəsiz ki, bunlar zərərli şeylərdir. Məsələn, hərdənbir mən televizorda görürəm, qəzetlərdə hərdənbir rast gəlir, - qəzetlərə daim baxa bilmirəm, - bizim elm, mədəniyyət xadimləri, həyatlarını dəyişmiş insanlar, yazıçılar haqqında verilişlər verir, yazılar yazırlar. Bunlar yaxşıdır, mən bunu müsbət hal hesab edirəm. Bəziləri var ki, o qədər də məşhur olmayıblar, amma müəyyən xidmətləri olubdur, onu xalqa göstərirlər. Bunun özü yaxşıdır. Amma orada-burada rayon [10-11] prokuroru işləmiş, prokuror da pis vəzifə deyil, adam haqqında böyük bir kitab yazılsın, bizim dəyərli yazıçılar, elm, mədəniyyət xadimləri haqqında isə kitabların yazılması çətin olsun, ya mümkün olmasın - əlbəttə ki, bu, qeyri-normal vəziyyətdir. Ancaq bunlar da keçicidir, keçəcəkdir, hamısı keçəcəkdir.

Qabil, sən deyəsən danışmaq istəyirsən.

**Q a b i l:** Məndə o cəsarət ola bilməz.

**H e y d ə r Ə l i y e v:** Nə cəsarət, burada cəsarətli olmaq üçün böyük bir şey yoxdur ki.

## XALQ ŞAİRİ QABİLİN ÇIXIŞI

Möhtərəm prezidentimiz Heydər müəllim!

Düzdür, Siz qeyd edirsiniz ki, Azərbaycanın müstəqilliyi şəraitində ilk dəfədir yazıçıları qəbul edirsiniz. Bu, öz yerində. Amma bu qəbul məsələsi Sizin şəxsiyyətinizdən, fitrətinizdən gəlir.

Siz 1976-cı ildə də bu ölkənin rəhbəri idiniz. O dövrün imkanları, verdiyi səlahiyyətlər daxilində Azərbaycanın rəhbəri idiniz. Partiya Mərkəzi Komitəsinin birinci katibi rəhbər sayılırdı. Siz bizi yığdınız, bu bina yox idi. Bir detal yadıma gəlir, - bilmirəm deyim, ya deməyim, - çay gətirirdilər, qoca bir rus arvad çay paylayırdı.

**H e y d ə r Ə l i y e v:** Bu gün çay yoxdur? Demək istəyir ki, indi niyə çay yoxdur. Görün çay niyə yoxdur?

**Q a b i l:** Siz buyurdunuz ki, mən qəsdən bu arvada çay paylatdırıram ki, fikriniz ayrı yerdə qalmasın, diqqətlə qulaq asasınız. Siz orada dediniz ki, yazıçıların qurultayı başlayacaq, sözünüzü, dərdinizi, arzularınızı, qayğılarınızı indi deyin, şərti şumda kəsək ki, xırmanda yabalaşmayaq.

İndi o şəkildə olmasa da, mən hamının adından Sizə təşəkkür edirəm. Bu həqiqətdir, tərif deyil, faktdır. Siz, ümu[11-12]miyyətlə, yazıçıları həmişə qaldırırsınız. Siz Müslüm Maqomayevin yubileyində Nəbi müəllimin şerini dediniz, ona «bizim gözəl şairimiz» deməklə o sözü hamımıza dediniz. Bu, quruluşdan irəli gəlmir, Sizin şəxsiyyətinizdən, fitrətinizdən gəlir. Ona görə də mən Sizə bir daha təşəkkür edirəm. Sizin qayğılarınızı, xidmətlərinizi, Bəxtiyar müəllimə, Nəbi müəllimə, bəndeyi-həqirə, Balaş müəllimə, Məmməd Araza göstərdiyiniz qayğıları sadalamıram, - bunlar hamısı öz yerində. Sizə dönə-dönə təşəkkür edirik.

Anar müəllim çox doğru dedi ki, indi kimin maddi imkanı varsa, dədəsi, babası, özü haqqında kitab çap edir. Siz demişkən, bəlkə babası da, dədəsi də yaxşı adamdır. Yazıçılar Birliyi vacib təşkilatdır. Siz onu da çox düzgün qeyd elədiniz ki, nə şəraitdə, haçan yaranmasından asılı olmayaraq, Yazıçılar Birliyi bizim böyük limanımızdır, körpüdür, gəlib mənəviyyatımızla ona yan alırıq. Yazıçılar Birliyini möhkəmləndirmək, onun əleyhinə olan danışıqları yığışdırmaq lazımdır. Bütün müxalifət qəzetlərində Yazıçılar Birliyinin əleyhinə yazırlar. Mən qəbul komissiyasının üzvüyəm, axın-axın cavanlar Birliyə qəbul olunmaq istəyirlər.

**H e y d ə r Ə l i y e v:** Varmı? Bu çox gözəldir.

**Q a b i l:** Bir tərəfdən də deyirlər ki, Yazıçılar Birliyi lazım deyildir. Yazıçılar Birliyinin maddi bazasını möhkəmləndirmək, poliklinikasını dövlət büdcəsinə keçirmək lazımdır. Yazıçılar Birliyinin nəzdində nəşriyyat açılmalıdır ki, adlı-sanlı, ancaq təkcə ad-sanına görə yox, yaxşı əsərinə görə tanınan yazıçılar kitablarını çap etdirə bilsinlər, qapı-qapı düşməsinlər. Mənim son iki-üç əsərimi dövlət nəşriyyatları çap edibdir. Hamı mən yaşa gəlməyib, cavan adam da kitabını görmək istəyir. Mən yaşda adi adamın, mənim qədər tanınmayan adamın da mənəvi haqqı var ki, kitabını görsün. Yazıçılar Birliyinin nəşriyyatı olsa, o kitablar çap olunar. [12-13]

Demək də olmur, bilirsiniz ki, yazıçıların Yaradıcılıq evi qaçqınlara verilib. O gün olsun onlar yerlərinə-yurdlarına qayıtsınlar. Yaradıcılıq evindən istifadə edə bilmirik, oranı təmir etmək lazımdır. Bunlar vacib söhbətlərdir.

Məclis məni tutub, bilmirəm sözümün dalını necə deyim. Xülaseyi-kəlamla onu demək istəyirəm ki, yazıçılar hər dövrdə bütün nazirlərdən qiymətli olublar. Yazıçılar Birliyinin birinci katibləri, sədrləri hər hansı bir nazirdən hörmətli, qiymətli olublar. Çünki yazıçı xalqın düşünən beyni, ürəyi, danışan dili, mənəvi aləmidir. Rəssamın şəklinə baxırsan - əladır, amma sözü qalır ürəyində, bəstəkar musiqi bəstələyir - əladır, amma danışmağa gələndə...

Özümlə əlaqədar bir söz deyim. 71 yaşım var. Üzr istəyirəm, təvazökarlıqdan uzaq olmasın, mənim «Nəsimi» kitabımı dövlət mükafatına təqdim etmiş, gətirib Sizin qarşınıza qoymuşdular. Rusca demişdiniz ki, «bu, bütöv bir kitabxanadır, bunu yazmağın özü böyük şeydir». Mənim kitabımı və «Nəsimi» filmini, - çox gözəl filmdir, - bir yerdə müzakirəyə qoymuşdular. Orada dedilər ki, filmin lentləri pozula, qalmaya, rəngləri dəyişə bilər, amma bu, şair haqqında kitabdır, min il yaşayacaq, vərəqləri cırılsa da qalacaqdır.

Ona görə yenə demək istəyirəm ki, yazıçıya qiymət Sizin başınızın ucalığıdır, savab işdir. Yazıçı xalqın danışan dilidir. Biz həmişə Sizə, Sizin fəaliyyətinizə xeyir-duaçıyıq. Hamımız televizora baxırıq. Görürük ki, bir dəqiqə vaxtınız yoxdur - o gedir, bu gəlir, onu qarşıla, bunu yola sal, təyyarədən düş, təyyarəyə min. Siz iki daşın arasında bu gün bizi qəbul etdiniz və açıq söhbətə cəlb edirsiniz. Ona görə də Sizə dərin təşəkkürümü bildirirəm. Sağ olun. [13-14]

## YAZIÇI ƏKRƏM ƏYLİSLİNİN ÇIXIŞI

Düzü, heç bilmirdim ki, bu gün bu məclisdə olacağam. Təxminən bir saat bundan qabaq məlumat aldım. Uzun fasilədən sonra, hazırlıqsız çıxış olduğundan bir az ehtiyat edirəm. Amma mənə elə gəlir ki, bugünkü gündə danışmaq üçün böyük hazırlığa ehtiyac yoxdur.

Ötən yazıçılar qurultayından altı il keçibdir. Elə-belə baxanda altı il böyük vaxt deyil. O biri qurultaylar arasında da dörd-beş il vaxt keçirdi. Əlbəttə, onda vaxtı bu cür hiss eləmirdik. Mən elə bilirəm, bəlkə də bunu sonradan dərk edəcəyik ki, bu altı ildə bizim varlığımızdan, mənəviyyatımızdan, insani taleyimizdən və xalqımızla bir yerdə həyatımızdan nə boyda bir epoxa keçibdir. Çünki bu məzmunda, bu mündəricədə, bu dərəcədə faciəli, kədərli, bu dərəcədə sevincli altı il, bilmirəm, hansı nəslin həyatında ola bilər. Bu, böyük altı il idi.

Biz bu altı ildə hamımız bir yerdə, - mən heç kəsi ayırmıram, - çox inandığımız şeylərdən uzaqlaşdıq, çox inandığımız şeylərin boşluğunu gördük. Varlığımızda həddən çox bir yeniləşmə baş verdi. İnanın ki, bəlkə insan 50 il yaşayıb bu duyğuları keçirə bilməzdi.

Altı il bundan qabaq Azərbaycan yazıçılarının qurultayında mən çıxış elədim. Hörmətli Prezidentimiz, bizim hamımızın həmişə qayğısını çəkən Heydər Əliyev də həmin qurultayda iştirak edirdi, zalda oturmuşdu. Hamısı yadınızdadır, - filarmoniyanın binası idi. Mən orada bir söz dedim. Çıxışımı yazmamışdım, yadımda deyil. Amma bir fikrim yadımdadır ki, belə bir söz dedim. Zala üzümü tutub dedim ki, bir vaxt deyirdiniz ki, gəlin Heydər Əliyevin ətrafında birləşək, indi deyirsiniz ki, gəlin Mütəllibovun ətrafında birləşək. Bəs haçan biz Allahımızı tapacağıq, o Allahın altında bir yerə yığışacaq və bir amala, bir məqsədə, bir məzhəbə qulluq edəcəyik? [14-15] Həmin qurultayda belə bir söhbət oldu. Dediklərimdən əlavə, bir fikir yadımda qalıbdır. Hətta o da yadımdadır ki, indiki hörmətli prezidentimiz o vaxt mən çıxış edəndən sonra, - müşahidə etdiyim budur, inanmıram ki, səhv edəm, özünün də nadir yaddaşı var və bilir, zalı tərk elədi. Sonra Rəfiq Zəka deyəcəkdi ki, mən çıxdım, cangüdən kimi müdafiə elədim və yola saldım.

Bu bizim taleyimizin, həyatımızın olaylarıdır, gündəlik işləridir. Bilirsiniz, indi heç kəs inkar eləmir ki, Azərbaycanda böyük quruculuq həyatına qayıdış başlayır, yəni dağıntılardan bezmiş bir millət öz taleyini qurmağa başlayır. Məlum məsələdir ki, bu işin başında kim gedir, bu işə kim rəhbərlik edir, o dağıntılardan üzümüzü quruculuğa kim döndərir. Məsələn, mən abadlığı görəndə daxilən abad oluram, hamımız da daxilən abad oluruq. Yəni, fiziki, məişət abadlığı, gündəlik abadlıq mənəviyyatımızı da abadlaşdırır. Evdən çıxıb işə gedincə yolda beş-altı yerdə görürəm ki, kimsə bağda gül əkir, kimsə bulvara torpaq tökür, kimsə nə iləsə məşğuldur və biz Azərbaycanımızı quruculuğa qaytarırıq.

Zaman göstərir ki, mənəviyyat quruculuğu daha çətindir. Hərdən mənə elə gəlir ki, bəlkə də səhv edirəm, mənəviyyat quruculuğumuzu dürüst, yəni o sökülməz, dağılmaz, möhkəm bina üstündə qura bil-

mirik. Mənim daxili narahatlığım həmişə bundan ibarət olubdur. Elə bilirəm ki, mənəviyyatımızı da möhkəm, dönməz şəkildə, gələcəkdə kimlərisə özümüzə güldürmədən, güclü əsaslar üstündə qurmalıyıq və mənə elə gəlir ki, buna dürüst yol da göstərilir. Fəqət bir çox hallarda özümüz bu düz yolu əyə-əyə harasa aparıb çıxarırıq.

Əlbəttə, ürəyimdə söz çoxdur, bolluca söz var. Onlardan bəzisini pərakəndə də olsa, deyirəm. Hörmətli Prezident, yaradıcı adamlar və bütün bədii yaradıcılıq adamları harmoniya adamlarıdır. Yəni onlar harmonik dünyada daha fəal, güclü yaradıcılıqla məşğul ola bilirlər. Hamı kimi, [15-16] Azərbaycan xalqının bir övladı, bir vətəndaşı kimi mən Azərbaycanda ictimai sabitliyin bərpa olunması sahəsində gördüyünüz böyük işlərə, yəni yuxusuz gecələrinizə, kəfəni çiynində bu xalqın meydanına çıxıb onu böyük fəlakətlərdən qurtardığınıza görə Sizə minnətdarlığımı bildirirəm. Siz Azərbaycanda bu ictimai sabitliyi bərpa etməklə bizim hamımıza, hər kəsin öz işini görməyinə böyük şərait yaratdınız. Əlbəttə, bunun arxasında ictimai harmoniyanı yaranmış hesab etsək, dalınca mütləq sosial həyatın harmonik quruluşu başlanmalıdır. Sosial həyatımızda bunu başlamaq, güman ki, gələcəyin işidir və inanıram ki, Azərbaycan xalqı Sizin rəhbərliyiniz altında bu böyük işə, çətinliklə də olsa, gec-tez mütləq nail olacaqdır.

Hörmətli prezident, hörmətli dostlar. Mən Gertsenin bir fikrini demək istəyirəm. Onun məşhur fikri var, yazıçılar haqqında deyir ki, biz həkim deyilik, ağrıyıq. Biz cəmiyyətin ağrısıyıq. Ağrılarımız müxtəlif şəkildə təzahür edir. Biz cəmiyyətin ağrıyan yerləriyik və bizim ağrılarımızı duyan, yazıçı ağrısını, diaqnozunu dəqiq müəyyən edən rəhbərlər, mənə elə gəlir ki, heç vaxt öz siyasətlərində uduzmurlar, xalqın gələcəyini qurmaq üçün ciddi yollar aça bilirlər.

Son olaraq qurultay barədə bir-iki kəlmə demək istəyirəm. Hamı - burada oturanlar da, oturmayanlar da bilir ki, əgər mülkiyyəti yoxdursa, ictimai bir şeyə nail ola bilməyəcəkdir. Bilirsiniz ki, indi Azərbaycanda mülkiyyət bölgüsü gedir və bu, təbii işdir. Biz ha deyək ki, bizim mülkiyyətimiz əsərlərimizdir, böyük dahiyanə əsərlər yaradırıq, bu dünyanı qurub qoymuşuq. Mən bir dəfə yazmışdım ki, Füzulinin ölümündən Vaqifin doğulmasına qədər 160 il vaxt keçib,160 ildə ədəbiyyat ölməyib, ədəbiyyat ölmür. Mən Yazıçılar Birliyinin üzvüyəm, nə isə dağı-dağ üstə qoyuram, bizdən yalnız əsərlər qalacaq. Ona görə də indi ha hap-gop edək ki, bizim mülkiyyətimiz əsərimizdir, bu zəmanədə bu mümkün [16-17] deyildir. Mənə elə gəlir ki, əgər qurultay Yazıçılar Birliyinin mülkiyyətinin nədən ibarət olduğunu özü üçün aydınlaşdırsa, yaxşı olar. Məsəl var ki, fərli oğul neynir ata malını, fərsiz oğul neynir ata malını. Fərli oğula onsuz da ata malı lazım deyil, gedib özü qazanacaq, fərsiz oğul da ata malını dağıdacaq. Mən arzu edərdim ki, biz fərsiz oğullar olmayaq.

Sizə dərin təşəkkürümü bildirir və güman edirəm ki, fərsiz oğulların içərisindən fərli oğulları seçməyə istedadınız kifayət qədər çatar. Mən Sizin qarşınızda çox çıxış etmişəm. Naxçıvanda da iki dəfə görüşünüzdə olmuşam. Güman edirəm ki, əgər Azərbaycan yazıçıları Sizin onlara göstərdiyiniz qayğının iştər fəlsəfi, istər siyasi, istərsə də estetik-etik mahiyyətini dərk etsələr, bizim işdə xeyli irəliləyiş ola bilər. Çox sağ olun, diqqətiniz üçün təşəkkür edirəm.

## RESPUBLİKA MƏTBUAT VƏ İNFORMASİYA NAZİRİ, YAZIÇI SİRUS TƏBRİZLİNİN ÇIXIŞI

Mən qurultaya getməyəcəyəm, ona görə də sözlərimi burada demək istəyirəm. Qurultaya getməməyimin də çox əsaslı, tutarlı səbəbi var.

Bu gün burada məndən əvvəl çıxış edənlər öz təşəkkürlərini bildirdilər ki, dünyanın ən böyük siyasətçilərindən biri vaxt tapıb qurultayqabağı Azərbaycanın yazıçıları ilə görüşür. Axı əslində yazıçı özü də siyasətçidir, xalqın ən ağır vaxtlarında əvvəl öz yolunu müəyyən edir ki, kiminlədir. Yadınızdadır, faşizm baş qaldıran dövrdə Qorkinin böyük bir məqaləsi var idi: «Kiminləsiniz, ədəbiyyat, incəsənət xadimləri?». Yazıçı özünü müəyyən edəndən sonra insanları, xalqını, millətini düz yola aparmalıdır.

Bizim qonşumuz Gürcüstanda Zviad Qamsaxurdianı prezident seçən ərəfədə gürcü xalqının böyük filosofu Merab Ma[17-18]mardaşvili elan etdi ki, mənim xalqım Zviad Qamsaxurdiaya səs versə, xalqımın əleyhinə çıxacağam. O zaman qara qüvvələr Merab Mamardaşvilini Gürcüstandan qovdular, getdi, Moskvada hava limanında ürəyi partladı. Amma gürcü xalqı bu gün onun qarşısında baş əyir. Ona görə də Şevardnadze tez qayıtdı Gürcüstana, çünki Merab Mamardaşvili kimi ziyalılar var idi.

Bəs bizdə nə baş verdi? Əkrəmin bir cümləsinə görə ona təşəkkür edirəm ki, heç olmasa, cəsarəti çatdı, etiraf elədi ki, bir çox inandıqlarımızdan dönməyə məcbur olduq. Bəli, Əkrəm Əylisli, sən Əbülfəzə də inanırdın. Sənin cümlən idi, yazırdın ki, mən bu iqtidara pənah gətirmişəm. Mən bir ziyalı kimi fəxr edirəm ki, Əkrəm, o zaman sənə zəng edib dedim ki, kimə pənah gətirmisən, Pənah Hüseynova? Bilirsən ki, sənə nə boyda hörmətim var. Sən səhv edirdin və sənin səmimiyyətinə inanıram. Amma bəziləri səhv yox, riyakarlıq edirdilər və bu gün də edirlər.

**H e y d ə r  Ə l i y e v:** Sirus, bir balaca sakit danışa bilərsənmi? Mən istəyirəm söhbətimiz mülayim keçsin.

**Sirus Təbrizli:** 1983-cü ildə məni yazıçı danosu ilə işdən çıxardıblar. Mən o qurultaya necə gedə bilərəm? Kimlər çıxardıblar - Sizdən ev alanlar, orden, medal alanlar. Dedilər ki, Siz Nəbi Xəzrini gözəl şair adlandırdınız. Mən istərdim ki, o gözəl şair ağır günlərinizdə Sizin yanınızda olaydı. Budurmu ədəbiyyat? Bizim Mirzə Cəlilimiz, Sabirimiz olub. Biz məəttəl qalırdıq. Mən oxuyanda ki, Fikrət Qocanı Heydər Əliyev az qala o dünyadan qaytarıb, - özü yazır, - təəccüb edirdim: Bəs bu hadisələr baş verəndə, heç nə yox, bir ziyalı kimi zəng edəydi ki, ay Sirus, sən çox düz eləyib, bu işləri görürsən.

**Heydər Əliyev:** Sirus, bir dəqiqə dayan, xahiş edirəm. Azərbaycanda yaxşı bir söz var: Keçənə güzəşt deyərlər. [18-19]

**Sirus Təbrizli:** Mən Sizinlə razıyam. Amma bunun gələcəyi var.

**Heydər Əliyev:** İndi əgər biz burada keçmişimizi qurdalasaq, qaldırsaq, - nə təhər oldu, nə cür oldu, bunlar bizə xeyir gətirməyəcəkdir. Allaha şükür olsun ki, müstəqil dövlətimiz var. Allaha şükür olsun ki, ictimai-siyasi sabitlik yaranıbdır. Allaha şükür olsun ki, tam sülh olmasa da, sülh şəraitində yaşayırıq. Allaha şükür olsun ki, hamımız bir yerdəyik. Vaxtilə kimin başına nə gəlib, nə təhər olub, filan olub - bunlar keçmişdə qalıbdır. Mən bunları unuduram. Xahiş edirəm siz də unudasınız.

**Sirus Təbrizli:** Siz unudursunuz, biz gələcək naminə bunları unutmamalıyıq. Mən Sizinlə razıyam. İstəmirəm qurultaya gəlib orada bu sözləri danışam, amma burada deməliyik. Nəyə görə? Çünki bu gün də yazıçı qəzetdə müsahibə verir, ondan soruşurlar ki, dünyada siyasətçi kimi sən kimi qəbul edirsən, deyir ki, Kolu, bir də İsa Qəmbəri.

**Heydər Əliyev:** Bu, onun fikridir. İndi fikir azadlığıdır.

**Sirus Təbrizli:** Azadlıqdır, amma fikrin dalınca gedənlər var. Bu fikrin dalınca getdilər, sonra Azərbaycan düşdü belə bəlaya.

**Heydər Əliyev:** Sirus, qardaş, qulaq as, bu fikir azadlığı mütləq olmalıdır. Fikir azadlığı, söz azadlığı keçmişdə bizdə olmayıb, amma indi, bundan sonra da olmalıdır. İndi sən heç kəsə hökm edə bilməzsən ki, sənin kimi fikirləşsin. Kimi dedin, - Kol, bir də kim, - İsa Qəmbərov? O, elə fikirləşir, istəyirsən ki, sənin kimi fikirləşsin? Bu ola bilməz, axı mümkün deyil.

**Sirus Təbrizli:** O fikirlə biz gəldik, faciəyə düşdük axı. Bəs sabahı nə olacaq?

**Heydər Əliyev:** Yaxşı, düşdün, düşdün də. Bilirsən, Sirus, sən özün demokratiya tərəfdarısan, elədir? [19-20]

**Sirus Təbrizli:** Bəli. Mən demokratiya tərəfdarıyam, özü də demokratam. Bunu Siz də bilirsiniz, burada oturanlar da bilir.

**Heydər Əliyev:** Bəli, sən o vaxt Azərbaycanda milli azadlıq hərəkatının qabaqda gedənlərindən birisən, elədirmi? Meydanlarda söz deyirdin, çıxış edirdin. O vaxtlar sənin dediyin sözlərlə razı olmayanlar var idi, - Azərbaycanın rəhbərləri, elədirmi? Amma yaxşı ki, onlar səni həbs eləmədilər, sağ qaldın.

**Sirus Təbrizli:** Onlar bu demokratlardan çox kişi çıxdılar. Bugünkü demokratlar həbs nədir, Siz bilirsiniz ki, Naxçıvanda bizim başımıza nə oyun gətirdilər.

**Heydər Əliyev:** Bilirəm, bilirəm. Ona görə bu fikir azadlığı, söz azadlığı bizim həyatımızın əsasını təşkil etməlidir. Kim nə cür düşünür, o cür də düşünsün. Heç kəsi məcbur etmək olmaz. Sadəcə, biz çalışmalıyıq ki, öz fikrimizin daha da doğru, düzgün olduğunu sübut edək və insanları bu fikrə şüurlu inandıraq. Amma hökm etmək ki, sən bunu demə, onu de, onu demə, bunu de - bu, artıq indi mümkün deyildir. Keçmiş kommunist rejimində də, - mən o dövrdə işləmişəm, - məhz o vaxtda da çalışırdım ki, insanlar sərbəst danışsınlar. Mənim o vaxtda da fikrim belə olub. Ancaq onda bir adamın, iki adamın fikri ilə ümumi şərait yaratmaq olmazdı.

Amma indi bizdə demokratik dövlətdir. Biz Konstitusiya qəbul etmişik və Konstitusiyamızda yazmışıq ki, söz azadlığı, mətbuat azadlığı, fikir, vicdan azadlığı, insanların bütün azadlıqları bizim həyatımızın əsas prinsipləridir. Ona görə biri deyir ki, Kolu ən yüksək siyasətçi hesab edir, sabah o birisi deyəcək ki, Sirus Təbrizlini ən gözəl şair hesab edir. Onda adam gərək ondan incisin?

Bunlar xırda məsələlərdir. Gəlin vaxtımızı bunlara sərf etməyək. Gəlin vaxtımızı ona sərf edək ki, bundan sonra nə [20-21] edək? İndiyədək nə olub, hamısı geridə qalıb. Yenə də deyirəm, keçənə güzəşt etmək lazımdır, irəliyə baxmaq lazımdır.

Bu gün buraya, bu salona Azərbaycanın ən mötəbər adamları toplaşıblar. Bu, tarixi bir hadisədir. Mənim üçün də tarixi hadisədir. Hər birimiz yaşayırıq, gedirik. Bəli, mən 1997-ci ildə, əsrin sonunda Azərbaycanın ən mötəbər şairləri, yazıçıları ilə görüşürəm. Bu mənim üçün tarixi bir hadisədir. Dəfələrlə demişəm, vaxtilə mən, məsələn, Səməd Vurğunun şerlərini oxuyurdum, sonra onun üzünü görəndə yadımda saxlayırdım, yoldaşlarıma dəfələrlə deyirdim ki, mən Səməd Vurğunu görmüşəm. Hələ əl verib görüşməmişdik, amma mən deyirdim ki, Səməd Vurğunu görmüşəm. Bunun özü böyük bir hadisə idi.

Ona görə bugünkü görüş də bir hadisədir. Çünki burada oturanlar Səməd Vurğunun yolunu bu gün də davam etdirən, Azərbaycan ədəbiyyatını onun kimi inkişaf etdirən insanlardır. Ona görə də gəlin bu azadlıqları heç kimin əlindən almayaq. Hamı azad olsun. Kim nə fikir söyləyir - söyləsin, kim nə deyir - desin. Ancaq bu azadlıq nəticəsində - fikir azadlığı, söz azadlığı nəticəsində biz həqiqətə gələ bilərik.

Bağışlayın, mən üzr istəyirəm, istədim ki, istiqaməti bir balaca dəyişim.

**S i r u s  T ə b r i z l i:** Çox sağ olun. Bilirsiniz ki, Sizin fikirləriniz bütün ziyalılar kimi, mənim üçün də həmişə meyardır. Siz təkcə fikir adamı deyilsiniz, həm də bir şəxsiyyət kimi əməl adamısınız və dediklərinizə sadiq bir insansınız. Mən də dünənə boylanıb narahatçılıqdan bu çıxışı edirəm, özü də burada edirəm.

**H e y d ə r  Ə l i y e v:** Bilirsən, Sirus, bağışla, yenə üzr istəyirəm. İndi yadına saldın ki, o vaxt səni işdən çıxartdılar?

**S i r u s  T ə b r i z l i:** Bəli.

**H e y d ə r  Ə l i y e v:** Yazıçılar İttifaqından?

**S i r u s  T ə b r i z l i:** Bəli, yazıçının danosu ilə yazıçılar məni işdən çıxartdılar. [21-22]

**H e y d ə r  Ə l i y e v:** Yaxşı. Əlbəttə, hər bir adam üçün onun işi çox əzizdir. Əgər onu işdən ədalətsiz çıxardıblarsa…

**S i r u s  T ə b r i z l i:** Sonra da Sizi işdən çıxartdılar.

**H e y d ə r  Ə l i y e v:** Yaxşı, səni işdən çıxartdılar. Axı məni də işdən çıxartdılar. Mən neyləyim ki, çıxartdılar da. Məni işdən çıxartdılar, əziyyət çəkdim. Amma indi, bu gün səmimi dostyana danışırıq. Vallah, billah, fikirləşirəm ki, nə yaxşı çıxartdılar!

**S i r u s  T ə b r i z l i:** Mən də elə fikirləşirəm ki, nə yaxşı məni işdən çıxartdılar. Döyülə-döyülə bərkidik.

**H e y d ə r  Ə l i y e v:** Bəli, məni işdən çıxartdılar, o günləri, o çətinlikləri gördüm, onların hamısına dözdüm. Bunlar hamısı həyatdır. Həyatın yüksəlişi də olur, aşağıya düşməyi də olur, enişi də, yoxuşu da, çətinliyi də, gözəl günləri də olur. Nə olar ki, işdən çıxartdılar, indi sən millət vəkilisən, nazirsən. Görürsən!

**S i r u s  T ə b r i z l i:** İnanın ki, o keçmişə görə mən sevinirəm. Mən o anları gözümün qabağına gətirirəm, fikirləşirəm ki, Heydər müəllim, Sizin kimi güclü insanlar bu cür təzyiqlərə dözürlər. Həyat bəzilərini döyür Koroğlu edir, bəzilərini döyür Keçəl Həmzə edir, bəzilərini də tamam məhv edir. Amma danoslardan, haqsızlıqlardan nə qədər insanlar məhv oldular. Bu, bu gün də davam edir, var.

İcazə verin mən çıxışımı bir-iki kəlmə ilə qurtarım. Həqiqətən də həyatımda Yazıçılar İttifaqında, o mənəviyyat ocağında mənə qarşı haqsızlıq edildi. Özü də əgər mənim bir günahım olsaydı, əgər mən gedib kimdənsə rüşvət alsaydım, haradasa yalan danışsaydım, ikiüzlülük etsəydim - bu, başqa məsələ. Hamı bilirdi, burada Ayaz Vəfalı oturub, o da bilir ki, mən o qəzetdə necə işləyirdim. Nə üçün, özü də yazıçının danosu ilə yazıçılar mənə divan tutdular?

Mən çox təəssüf edirəm ki, bu gün Mirzə İbrahimov, İsmayıl Şıxlı sağ deyillər. Mən onların gözlərinə bir baxmaq [22-23] istərdim. Nəhayət, bu, bu gün də davam edir. Niyə davam edir? Cənab prezident, mən deyim. Sizin gözünüzün qabağında olubdur. Mən partiya biletimi verəndə o vaxtkı kommunist rejimi məni təqib edibdir, mənim Yazıçılar İttifaqım məni müdafiə etməyibdir. Mən Naxçıvanda olanda İskəndər çıxıb qışqırırdı ki, Sirusu Bakıya buraxmayacağam. Mən gözləyirdim, mənim Yazıçılar Birliyim bir bəyanat versin ki, Sirusdan nə istəyirsiniz? Mən yenə də tək qaldım. Yəni Yazıçılar Birliyində məni müdafiə edən adam tapılmadı. Bir yazıçı, qələm dostum demədi ki, axı bu yol düz yol idi. Ona görə də Siz məni bağışlayın, mən bunu deməliyəm. Bu kiçik məclisdə demək istəyirəm ki, bu bizim dərdimizdir.

Ona görə mən çıxışımı bu sözlərlə qurtarmaq istəyirəm ki, hər dəfə qurultaylarda müəyyən adamlar barədə müəyyən qruplar arasında müəyyən çəkişmələr gedir ki, kim olacaq, rəhbərliyə kim seçiləcək. Bu, həmişə olubdur. Mən bu intriqaları həmişə görmüşəm. Hiss edirəm ki, elə bu ərəfədə də bu cür söhbətlər gedir. Məsələ kimin olmağında deyil. Mən belə başa düşürəm ki, biz özümüz daxilən dəyişməliyik. Çünki Azərbaycan artıq müstəqil dövlətdir. Müstəqil dövlətin yazıçıları, ziyalıları xalqı düz yola aparmalıdır, xalqın ağır vaxtında ona düz söz deməlidirlər, dünən birini, bu gün bir başqasını…Bayaq Əkrəmin dediyi çox cəsarətli söz idi. Bəli, biz yaratdığımız həmin totemlərdən, bütlərdən sonra boyun qaçırmalı oluruq. Ancaq mən yazıçılarımıza daxilən dəyişməyi arzulayıram.

Bu gün Siz kitablardan danışırsınız. Mən kitab siyasəti ilə məşğul olan nazirlikdəyəm. Mənim kitabım yoxdur. Mən fəxr edirəm ki, mənim kitabım yoxdur. Çünki o dövrdə ki, mən yaşamışam, əksəriyyət məcbur idik ki, görək nə yazaq. Bir dəfə mən Tarkovskinin bir sözünü eşitdim, - «kitab iş deyil, əməldir». Yazıçı öz həyatı ilə hərəkət etməlidir. Özü olmayanın sözü olmur. Mən belə bir mötəbər binada, belə bir [23-24] şəxsiyyətin yanında yalan danışa bilmərəm, ürəyimdə olanları gizlədə bilmərəm. Mən Sizə hörmət edib bu sözləri deyirəm. Cənab prezident, mən də ürəyimdə kin gəzdirmirəm. İndiyədək qoy biri desin. Fəxr edirəm ki, mən meydanda Nemət Pənahlı ilə ziyalıların üstündə tutuşurdum. Deyirdim ki, Nemət, Ziya Bünyadovu, Bəxtiyar Vahabzadəni sən millətin içində təhqir edə bilməzsən, onlar iş görəndə biz hələ əlimizə qələm almamışdıq. Mən bunlarla fəxr edirəm və Sizin qarşınızda alnım açıqdır.

Mən qələm yoldaşlarımızı bir şeyə çağırıram: xalqın ağır vaxtında yolumuzu müəyyən edək və xalqa düz söz deyək. Bunun üçün hər şey ola bilər. Bizdən əvvəl Mirzə Cəlilin, başqalarının başına nələr gəlməyibdir? Amma o düz sözlə qazanılan hörmət bütün vəzifələrdən yüksəkdir. Bu gün burada şəxsən mənim qələm dostlarım oturublar. Mən bu gün millət vəkiliyəm, nazirəm. Amma mən o qələmimlə qa-

zandığım hörməti hər şeydən üstün tuturam. Ona görə də bu qurultayda özüm olmasam da, kimin oturmağından asılı olmayaraq, rəhbər dəyişmək yox, özümüzü dəyişək. Sağ olun.

**Yusif Səmədoğlu** (Azərbaycan Yazıçılar Birliyinin birinci katibi): Heydər müəllim, mən bir arayış vermək istəyirəm. Olarmı?

**Heydər Əliyev:** Əlbəttə, olar. Bəli, sərbəst danışıqdır.

**Yusif Səmədoğlu:** Sirus tamamilə haqlıdır. O vaxt Yazıçılar İttifaqı onun əleyhinə çox haqsız iş gördü, onu «Ədəbiyyat qəzeti»ndən işdən çıxartdı. Sizin dediyiniz kimi, həmişə bir şeyin mənfi cəhətini də, müsbət cəhətini də demək lazımdır. Sirus, axı sən sonra «Azərbaycan» jurnalında işə qəbul olundun. Mən o vaxt səni işə qəbul etdim və uzun müddət orada işlədin. Yəni bir haqsızlığa görə bütün Yazıçılar İttifaqının üstündən qara xətt çəkmək düzgün deyil. [24-25]

**Heydər Əliyev:** Yəni əgər oradan çıxmasaydı, bu cür mötəbər jurnalda işə girə bilməyəcəkdi.

Mirvarid xanım, buyurun. Xahiş edirəm, oturub danışın. Qoyun mikrofonu sizə yaxınlaşdırsınlar.

## XALQ ŞAİRİ MİRVARİD DİLBAZİNİN ÇIXIŞI

Əziz Heydər Əliyev!

Sizin bir sözünüz mənim xəyalımda çox acı xatirələr əmələ gətirdi. Siz dediniz ki, yaxşı oldu, məni işdən çıxartdılar. Yadımdadır, mən Pirşağıda idim. Səhər tezdən dəniz qırağında dəhşətli bir partlayış oldu. Maşını yandırdılar, içindəki adamların hamısını öldürdülər. Sonra gedib həmin adamın evini partlatdılar. Onda xalqın səsi mənim yadımdadır. Onlar əllərini göyə tutub dedilər ki, ya rəbbi, bizə sözü kəsərli, sözü ötən bir başçı göndər, Heydər Əliyevi bizə başçı göndər. Sizi o vaxt respublikaya göndərsəydilər Azərbaycanın başına heç bir fəlakət gəlməzdi.

Çox pis oldu ki, o zaman Sizi işdən çıxartdılar. Sizi işdən çıxardan adamlar xalqın övladları deyildilər. Onlar bizim xalqımızı duya bilməzdilər. Sizi o vaxt işdən çıxartmasaydılar, heç Qarabağ faciəsi də olmayacaqdı.

**Heydər Əliyev:** Düzdür.

**Mirvarid Dilbazi:** Biz, uşaqlarımız küçələrə çıxa bilmirdik. Uşaqlar küçəyə çıxanda anaları deyirdi, ya rəbbi, bunlar necə qayıdacaqlar, nə vaxt qayıdacaqlar? Allaha çox şükür ki, Siz gəldiniz. Mənim ən böyük arzum odur ki, Sizin müharibəsiz yaratdığınız sülh müqaviləsi tezliklə bu stolun üstünə qoyulsun və bizi çağırın, Sizi təbrik edək.

Əziz Heydər Əliyev, tarixdə ən çox şairə yetirən xalq Azərbaycan olubdur. Heç bir yerdə Azərbaycan xalqı qədər [25-26] şairə yetirən xalq olmayıbdır. Lakin bu şairələrin taleyini Siz hamınız bilirsiniz. Mən heç kəsin qarşısında bu haqda danışmaq, məruzə etmək istəmirəm. XX əsrin əvvəllərindən, sovet quruluşu dövründə iki şairə yetişib. Onlardan biri Nigar xanım Rəfibəylidir, digəri Mirvarid Dilbazidir.

Azərbaycan Respublikasının 15 illiyində nümayəndələr göndərilirdi. Dedilər ki, şairələr də getsinlər. Fikirləşdilər ki, Mirvarid xanım, Nigar xanım əsil-nəcabətlərinə görə gedə bilməzlər. Sona xanım adlı bir təyyarəçi var idi, onun adına gözəl bir şer yazdılar, aparıb tribunaya çıxartdılar ki, Azərbaycan şairəsi gəlib. Odur ki, Sizin Azərbaycan şairələrinə - mənə verdiyiniz yüksək mükafat təkcə Mirvarid Dilbaziyə deyil, Azərbaycanın yetirdiyi şairələrin əməyinə verilən tarixi qiymətdir. Siz mənə ən böyük qiyməti verminiz.

Mən Sizə bütün ömrüm boyu təşəkkür edirəm. Camaat Sizin mənə orden verdiyinizi eşidəndən, göndərdiyiniz təbrik məktubunu oxuyandan bəri tez-tez mənə müraciət edir ki, bizim bu dərdimizi Heydər Əliyevə de. Cavab verirəm ki, ay balam, Heydər Əliyev bütün ömrünü Sizin dərdinizin həll olunmasına həsr edib. Bizim dərdimiz nədir? Millətimiz azad olsun, torpaqlarımız erməni əsarətindən xilas edilsin, əsirlərimiz qurtarsın, Vətənə qayıtsın. Heydər Əliyev bütün həyatını, ömrünü bunların uğrunda - dilimiz, dinimiz, torpağımız, bayrağımız uğrunda mübarizəyə həsr edibdir. Xırda-xırda məsələlərdən ötrü gedib onun vaxtını almağa dəyməz.

Heydər Əliyev, Allah Sizi var eləsin! Çox sağ olun!

Doğrudan da yaramaz ki, biz xırda məsələlərlə Sizin vaxtınızı alaq. Biz gərək Sizə ancaq böyük işlərdən danışaq. Hörmətli prezident, gördüyünüz böyük işlərə görə çox sağ olun.

Bilmirəm, hansı əsərdəsə göstərilir ki, balaca bir çaqqal öküzü parçalayır. Hiyləgərlər bizim də ətrafımızda vardır. Camaata demək lazımdır ki, ey camaat, aldanmayın. Axı [26-27] camaatımızın hamısı alim deyil. Bəzən elə adam elə söz danışır ki, elə bil ürəyimizə bıçaq sancılır. Xahiş edirəm, gəlin yalanların üstünü açaq.

Mən bu sözləri ona görə danışmıram ki, Siz mənə orden vermisiniz. Siz katib olan vaxt rüşvətxorluğa qarşı ciddi mübarizə aparanda mən Sizə neçə-neçə şer yazmışdım. Siz vəzifədə olduğunuza görə mən bunları nəşr etdirmədim.

Bir dəfə evimdə televizorun qarşısında oturmuşdum, yanımda da adı yadımdan çıxan mötəbər bir şəxs var idi. Televiziyaya bir kişi çıxartdılar. O nə orta yaşlı, nə də cavan deyildi. Heydər Əliyev, bax, o vaxtlar bir çox sarsaqlar, tutulanlar, rüşvətxorlar ermənilərə qoşulub Sizə ittihamlar yağdırırdılar. Televiziyada çıxış edəni belə təqdim etdilər ki, bax, bu, Heydər Əliyevin qurbanı olub. O da başladı boş-boş sözlər danışmağa.

Mənim yanımda oturan mötəbər kişi mənə dedi ki, ay başına dönüm, televiziyada bu danışanı mən yaxşı tanıyıram. O, rüşvətxorun, oğrunun biridir. Onun satmadığı bir obyekt qalmayıb. Görəsən Heydər Əliyevin günahı nədir?

O vaxt mən Sizə daha bir şer yazdım:

***Şücaətli əzizim!***
***Vətənimiz də birdir, torpağımız da bizim.***
***Üstü mavi zolaqlı bayrağımız da bizim…***
***İkiüzlü olanı iki yandan vurursan.***
***İkisözlü olanı bir sözlə susdurursan,***
***Amansızsan yalana, əliəyri olana.***

Bayaq da dedim, o vaxt mən Sizə neçə-neçə belə şerlər yazmışdım.

Vaqif müsəlman dininin müqəddəs ziyarətgahlarına öz məhəbbətini izhar edərək yazırdı ki, «Ey Kəbəm, Kərbəlam, Məkkəm, Mədinəm, bir zaman kuyidə ziyarətimdir». O, bu dini sevirdi, ona inanırdı. Hörmətli Prezident, Sizə də deyilən [27-28] sözlərin heç biri yaltaqlıq deyil, Sizə olan inamdır, Sizə olan məhəbbətimdir.

Hörmətli prezident, sağ olun, var olun. O gün olsun ki, sülh müqaviləsi ortaya qoyulsun, biz də gəlib Sizi təbrik edək.

**Heydər Əliyev:** Sağ olun, Mirvarid xanım. O şerləri mənə göndərin. Çox yaxşı şerlərdir. Yəqin ki, onlar məndə yoxdur.

**Mirvarid Dilbazi:** Sizə həsr etdiyim belə şerlər çoxdur.

O vaxt, Vaqifin qəbrini o vəziyyətdən çıxarıb gözəl məqbərə tikdirəndə mən Sizə böyük bir məktub yazmışdım. Atanın qəbri pis olanda oğullarını ittiham edirlər. Şairin qəbri pis olanda rəhbərləri ittiham edirlər. Neçə yüz il keçdi, tacirlər, milyonerlər, katiblər gəldi, heç yada salan olmadı ki, bəs bu kişinin qəbrinin torpaqlarını niyə küləklər aparır? Mən onda yazmışdım ki, onun varisi Heydər Əliyev 200 ildən sonra gəldi.

Hörmətli prezident, Siz vəzifədəsiniz. Mənim dünyada heç bir maddi təmənnam yoxdur. Bircə mənəvi təmənnam var ki, Siz bu milləti bu fəlakətdən xilas edəsiniz. Mənim bundan artıq deməyə sözüm yoxdur.

**Heydər Əliyev:** Sağ olun.

**Mirvarid Dilbazi:** Mənim bir şerim də var. Respublikada dövlət çevrilişinə cəhd göstəriləndə Siz qaçmadınız, qapınızda duran təyyarəyə minib başqa ölkəyə getmədiniz. Onda mən yazdım ki:

***Başın göyə dayaqdır, ayağın yerə,***
***Gərib gen sinəni sərt zərbələrə,***
***Çiyinlərin üstə Vətən torpağı,***
***Torpaqdan güc aldın anteysayağı.***
***Qoymadın tökülsün sən qardaş qanı,***
***Qurtardın bölümdən Azərbaycanı!***

Bunun davamı da var. Bu mənim Sizə olan məhəbbətimdir. Bunları mən ona görə çap etdirməmişəm ki, deməsinlər, [28-29] Mirvarid Dilbazi görəsən Heydər Əliyevdən nə istəyir? Mənə heç bir şöhrət də lazım deyil. Mənim həyatımın son günləri, son dəqiqələridir.

**Heydər Əliyev:** Yox, sonu deyil. Hələ qarşıda böyük həyatınız var.

**Mirvarid Dilbazi:** Çox sağ olun. Vaxt var idi ki, Natəvanın qəbrinin üstündən mərmər daşı çıxartmışdılar, - Siz bunu məndən yaxşı bilirsiniz, - amma sonra Siz orada gözəl bir abidə yaratdınız. Mən o abidəni görəndə elə bildim ki, Natəvan qarşıma çıxdı, - qarşısında qələmi, sanki kağız çıxarıb nəsə yazacaq. Onun mərmərdən tökülmüş büstü də gözəldir. Bunlar hamısı Sizin xidmətlərnizdir.

Səməd Vurğunun şerlərini dərs kitablarına salmırdılar. Siz Səməd Vurğun üçün çox iş gördünüz. Siz Qazaxda Səməd Vurğuna çox böyük bir müzey açdınız. Biz hər il oraya gedib-gəlirdik.

Siz Süleyman Rüstəmə yeni həyat verdiniz. Süleyman Rüstəmin «Təbriz şerləri» unudulmazdır. O, milli, xəlqi şair olubdur, millətinə nə qədər xidmət edibdir.

Vaxtınızı çox almaq istəmirəm. Hər bir şairin ideyası varsa, o da insandır. İdeyasız insan insan deyil.

Çox sağ olun. O dövrdə kişilər var idi - Süleyman Rüstəm, Rəsul Rza və başqaları. Çox sağ olun ki, Siz onları dərindən qiymətləndirirsiniz. Çox sağ olun, var olun.

**H e y d ə r Ə l i y e v:** İndi də kişilər var. Bu kişilər burada oturublar. Bizim gözəl qadınlarımız var, onların ən gözəllərindən biri də sizsiniz. Ona görə də o dövrdə də olub, bu gün də var.

**Mirvarid Dilbazi:** Çox sağ olun.

**H e y d ə r Ə l i y e v:** Adətən, insanlar öz yanında, gözünün qabağında olanı qiymətləndirmir, keçmişdəkini, yaxud uzaqda olanı qiymətləndirir. Amma həyatdır, heç birimiz burada daimi deyilik. Mən şübhə etmirəm ki, gələcək nəsillər bu gün [29-30] burada, bu salonda oturanların hamısını yüksək qiymətləndirəcəklər.

Səməd Vurğun 50 yaşında, 40 il bundan əvvəl vəfat edib. Biz onun 90 illiyini qeyd etdik. Amma Səməd Vurğun bəlkə də heç yaşadığı zaman, yaxud həyatdan gedəndən sonrakı ilk illərdə xalqın məhəbbəti nöqteyi nəzərindən bu qədər yüksək zirvələrə qaldırılmamışdı, nəinki indi qaldırıldı. Bilirsiniz, olur, tarixin elə zamanları olur ki, unudur, amma sonra xatirinə salır.

**M i r v a r i d D i l b a z i:** Əziz Heydər Əliyev, o vaxt Səməd Vurğun can verəndə Fadeyev demişdi ki, ancaq yüz illərdən bir belə istedadlar doğulur.

**H e y d ə r Ə l i y e v:** Tamamilə doğrudur.

## ŞAİR SABİR RÜSTƏMXANLININ ÇIXIŞI

Hörmətli Prezident!

Mən də bütün yazıçı yoldaşlarım kimi, bugünkü görüşə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Mənə elə gəlir ki, biz burada təkcə Yazıçılar Birliyindən, onun taleyindən, Yazıçılar Birliyinin ətrafında gedən məsələlərdən söhbət eləsək, onda bu görüşün heç bir mənası olmaz.

Söhbət müstəqil dövlətin müstəqil mənəviyyatından gedir. Yalnız mənəviyyat səviyyəsində söhbət qurulanda onda bu görüşün mənası daha aydın görünür. Çünki müstəqil dövlətimiz var, müstəqil dövlətimizin müstəqil ideologiyası var. Amma təəssüf ki, mənəviyyat məsələlərinin tam formalaşması, köhnə, totalitar rejimdən, imperiyadan qopub yeni müstəqil dövlətə keçiddə bu sərbəstliyə, müstəqilliyə, bu müstəqilliyin gətirdiyi əziyyətlərə dözmək və bunların bədii ifadəsini ədəbiyyata gətirmək çox çətin məsələdir. Halbuki bu çox zəruridir. Bizim təzə cəmiyyətimiz bunsuz formalaşa [30-31] bilməz. Ona görə də biz burada məsələlərə bir az açıq konteksdən yanaşmalıyıq, örtülü söhbətlər olmamalıdır. Burada Azərbaycan mənəviyyatı, ədəbiyyatı ətrafında açıq söhbət gedir.

Hörmətli prezident! Mən bir neçə məsələyə öz münasibətimi bildirmək istəyirəm. Burada oturanların hamısı işlədiyiniz dövrdə Sizin ədəbiyyata, mədəniyyətə münasibətiniz barədə danışır. Mən də bu barədə bir neçə kəlmə deməyi özümə borc bilirəm. Mən 1969-cu ildən bəri Azərbaycanda keçirilən bütün yubileyləri - yazıçıların, böyük mədəniyyət xadimlərinin yubileylərini yadıma salıram. Mən repressiya qurbanlarına Sizin verdiyiniz bəraətləri və bu işlərin son nəticəsi, zirvəsi, nida işarəsi kimi Naxçıvanda ucaldılan Hüseyn Cavid məqbərəsini, sülh şəraitində yaşayan heç bir dövlətin edə bilməyəcəyi bir səviyyədə Füzulinin müharibə şəraitində keçirilən 500 illik yubileyini, Səməd Vurğunun yubileyini və son vaxtlar keçirilən digər yubileyləri yadıma salıram. Eyni zamanda bizim mənəvi irsimizə münasibəti, «Kitabi-Dədə Qorqud» dastanının 1300 illiyinin qeyd olunması haqqında Sizin fərmanınızı, mədəniyyətimizlə bağlı başqa tədbirləri yadıma salıram və fikirləşirəm ki, kaş Siz Azərbaycana müharibə dövründə rəhbərlik etməyəydiniz. Kaş dinc vaxt olaydı və mən təsəvvür edirəm ki, onda mədəniyyətə, ədəbiyyata Sizin nə qədər böyük vaxtınız qalardı və Azərbaycan mənəviyyatı Sizin rəhbərliyinizlə nə qədər böyük uğurlar qazanardı. Çünki doğrudan da Siz fikirlərinizin bütün siyasi yönləri ilə yanaşı, əslində həm də böyük mədəniyyət adamısınız.

Azərbaycanın siyasi həyatında, belə deyək, Sizin siyasi mübarizənizlə son illər gözümüzün qabağında baş verən irəliləyişlər xalqımızın hazırki münaqişədən çıxmasına real mühit yaradır. Ona görə də hesab edirik ki, indi mədəniyyət [31-32] və mənəviyyat haqqında düşünməyə bir az daha çox vaxtımız qalacaqdır.

Mən bir faktı da demək istəyirəm. Son vaxtlar Moskvaya yolum düşmüşdü. Onlar Yazıçılar İttifaqında, ədəbiyyatçılar evində hələ o köhnə şəkilləri atmayıblar, divarlarda qalır. Orada olarkən baxdım ki, Azərbaycanın dörd şairinin və yazıçısının - Süleyman Rəhimovun, Mirzə İbrahimovun, Rəsul Rzanın və Süleyman Rüstəmin şəkilləri də Sosialist Əməyi qəhrəmanları sırasındadır. Bütün bunlar da Sizin xidmətlərinizdir və məhz Sizin vaxtınızda olubdur.

Sizin həmişə yazıçılarla çox isti bir münasibətiniz olub. Buradakı danışıqlarda o məsələlərə qayıdılır ki, vaxtında belə olub, kimsə bu cür, başqası ayrı cür münasibət göstərib. Mən də bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Şəxsən mən xalq hərəkatının ilk günündən onun içində olan adamlardan biri idim. Xalq hərəkatının qələbəsi də oldu, Azərbaycanın milli yaddaşını oyatdı, xalqın fikrini milli ideallarımıza yönəltdi. Azərbaycanın müstəqilliyinin təməlini qoydu, üçrəngli bayrağımızı qaytardı. Təbii

ki, onun içində qüsurlu, başa düşməyən, təcrübəsiz adamlar da var idi. Amma bu, milli yaddaşı qaytaran bir hərəkat idi. O hərəkatda iştirak edənlər arasında Sizi sevməyənlər də, bəyənməyənlər də var idi. Amma işin o gərgin vaxtında Sizi sevən adamlar da var idi.

Mən 1969-cu ildən bəri bütün yazılarımı gözümün qabağına gətirirəm. Orada Heydər Əliyev haqqında adicə bir soyuq cümləm də yoxdur. Amma bu gün Sizin qolunuzda-qanadınızda, üzr istəyirəm, ətrafınızda özünü sədaqətli göstərən adamlar var ki, vaxtilə meydanlarda Sizin haqqınızda çox açıq surətdə kobud danışırdılar. Həmin adamların bir hissəsinin bütün o köhnə tariximizin, köhnə illərin üstündən xətt çəkmək cəhdi, «bunların hamısı cəbhəçi idilər, onların heç biri Heydər Əliyevi bəyənmirdi və ona görə də bunlar hamısı [32-33] bu gün tarix səhifəsindən silinməlidir» deməlİ, məsələnin bu cür qoyuluşu düzgün deyil. Ona görə də mənə elə gəlir ki, bu məsələyə - irsiyyətə, keçmişə görə münasibət bəsləmək, keçmişdəkilərin hamısını eyni qiymətləndirib çölə tullamaq düzgün olmaz. Çox haqlı olaraq Siz bu məsələyə müdrikcəsinə yanaşırsınız.

Sizin yaddaşınız və məlumatınız güclüdür, - mən belə hesab edirəm ki, yazıçıların böyük əksəriyyəti bu illərdə Sizə mənəvi cəhətdən dayaq olubdur. Siz Moskvada, Naxçıvanda olanda da. Doğrudur, birinin buna imkanı olurdu, birininki olmurdu. Onlar niyə Sizə dayaq olublar? Mən Sizə açıq deyirəm, Azərbaycan yazıçısı mənəvi rahatlıq, öz torpağında əmin-amanlıq istəyir. Azərbaycan yazıçılarının böyük əksəriyyəti görür ki, bu siyasət meydanında Sizi əvəz edən adam yoxdur. Onlar bunu görüblər və haqqı müdafiə ediblər. Əslində burada Sizin müdafiənizdən söhbət getmir. Onlar ziyalılığı, Azərbaycanın gələcəyini müdafiə ediblər.

Bununla bağlı bir söz də demək istəyirəm. Təəssüf ki, bizim yazıçılarımızın bəzilərinə, o cümlədən, məsələn, bizlərə bu siyasətlə bağlı kim xalq hərəkatında iştirak eləyibsə, az-çox sözünü deyibsə, bu gün onların hamısına birmənalı şəkildə «bu, vaxtilə, 1988-ci ildə meydana çıxıbsa, demək, xalq düşmənidir» kimi yanaşırlar. Nə sənin yazıçılığın, nə dediyin sözlər nəzərə alınır. Əgər bizim adımız haradasa çəkilirsə, o saat min yerdən deyirlər ki, «Bu nədir? Bunlar Prezidentin dəstəsindən, komandasından deyil». Kim deyir ki, biz Prezidentin komandasından deyilik. Hansı sübutlar var? Xalq yığışanda, ən ağır günlərdə, dövlət çevrilişinə cəhdlər göstəriləndə, mən hamısını deyə bilmərəm, - yazıçılarımızın, ziyalılarımızın bir hissəsi kimi, biz həmişə Sizin yanınızda olmalıyıq. Ona görə də mən bu meyli özümə qarşı az qala mənəvi repressiya şəklində hiss etdiyim üçün bu narahatçılığımı Sizə bildirmək istəyirəm. İstəyirəm ki, bu [33-34] ögey-doğmalıq aradan götürülsün. Əgər kimsə günahkardırsa, hansı sözü deyibsə, millətin taleyində hansısa ağır bir iş görübsə - qoy onun cəzasını alsın. Yoxsa hamını bir yerdə götürüb ümumi şəkildə ləkələmək olmaz.

Mən hesab edirəm ki, Sizin qüvvənizin daha böyük potensialı arxa planda qalır. Azərbaycan cavanlarının, demokratik hərəkatının, lap o müxtəlif partiyaların içərisində Sizi sevən adamlar çoxdur. O adamların hamısının Sizin ətrafınızda toplaşmasına imkan yaratmaq lazımdır. «Elə bizik, başqası yoxdur» deməklə, üzr istəyirəm, Siz tərksilah olan deyilsiniz, amma Sizi tərksilah etmək, yalnız özlərini gözə soxmaq istəyən adamlar var ki, elə bilirəm, Siz onlardan qorunmalısınız.

Yenə də deyirəm, bu gün biz milli ideologiya və milli mənəviyyat barədə ciddi şəkildə düşünməliyik. Bu mənada Yazıçılar Birliyinin qorunması çox zəruridir. Bilirsinizmi, bizi onsuz da təkləyirlər. Torpağımızı parçalamaq söhbəti deyil, Azərbaycanın mənəviyyatında parçalanmalar var. Müxtəlif ideologiyalar, kənar ölkələrdən uzanan əllər, bir sıra dini və irqi şeylər - hamısı Azərbaycanı parçalamaq meylləridir. Bu parçalanma meyllərinin biri də Azərbaycanın vətəndaşları arasında ayrı-seçkilik salmaqdır, ziyalı nəsilləri, yazıçıları, düşünən adamları bir-birinə qarşı qoymaqdır, «bu, sovet dövründə yaşayıb, ona inanmaq olmaz. Bu, təzə yetişib» deyə, adamlara köhnə, neobolşevizm, proletar baxışla yanaşmaq olmaz. Adamları bu cür parçalamaq Azərbaycanın mənəviyyatına ağır zərbələr vurur. Mən bu mənada məhz yaradıcı birliklərin qorunub qalmasının tərəfdarıyam. O, bir mənəviyyat yuvasıdır və onun öz havası var. Bu hava Azərbaycanın gələcək böyük milli-mənəvi havasının təməl daşlarını yaradır. Əgər o birliklər dağılsa, onda Azərbaycanın bütün ziyalıları yalquzağa dönər. Mən demirəm ki, Yazıçılar Birliyi kimisə yazıçı edir. Amma o ittifaqlar köhnə şəkildə [34-35] olmasa da, müəyyən dəyişikliklərlə Azərbaycanın milli düşüncəsinin mərkəzi kimi həmişə yaşamalıdır. Mənə elə gəlir ki, Sizin bugünkü söhbətləriniz son dərəcə yerindədir və bu məsələlərdə bizə düzgün istiqamət verir.

Mən bir-iki xırda məsələni də demək istəyirəm. Sizin problemləriniz, işləriniz çoxdur. Üzr istəyirəm, bəzən biz son dərəcə ciddi məsələlərə - Azərbaycanın milli ideologiyası, milli təfəkkür, milli mədəniyyət məsələlərinə soyuq münasibət bəsləyirik.

Siz xarici ölkələrə gedirsiniz, harada azərbaycanlı varsa, onları başınıza yığırsınız, görüşlər keçirirsiniz. Azərbaycan diasporunun yaranması Sizin bir nömrəli qayğılarınızdan biridir. Amma həmin adamlar öz ayaqları ilə gəlib Azərbaycanda təhsil almaq, bizim təbliğçilərimiz kimi yetişmək istəyirlər, ali məktəblərə girmək istəyirlər. Xüsusən əslən azərbaycanlı olanlar - İrandan, Türkiyədən gedənlər. İnanın, onlara elə bir yad münasibət var, hamısından rüşvət tələb edirlər. Onların ali məktəblərə daxil olmasında bir problem var. Almaniyada yaşayan azərbaycanlılar Bakıda konsert verməyə gəlmişdilər, onları bir mədəniyyət evinə də yaxın buraxmadılar, küçədə qaldılar, qayıdıb çıxıb getdilər. Rəhman öz orkestri ilə, öz

qarmonu ilə gəlmişdi. Ondan sonra böyük rəssam İbrahim Əhrari gəldi, Gənc Tamaşaçılar Teatrının qabağında ağladı, - teatrın direktoru deyib ki, sizin bura gəlməyinizə icazə verilmir. Dünyanın müxtəlif ölkələrindən sənət adamları Bakıya gəlib, gedib hər yerdə demək istəyirlər ki, dünyada bu cür Azərbaycan sənəti, mədəniyyəti var. Onlar bizimlə qaynayıb-qarışmaq, bizə yaxınlaşmaq istəyirlər, biz isə qapıları onların üzünə bağlayırıq.

Bu günlərdə Cənubi Azərbaycanın mədəniyyət xadimlərinin iştirakı ilə Bakıdakı Şəhriyar adına Mədəniyyət Mərkəzində Almas İldırımın xatirəsinə həsr olunmuş gecə keçirildi. Mədəniyyət Nazirliyindən, Təhsil Nazirliyindən, [35-36] bizim rəsmi idarələrdən o görüşə bir nəfər də olsun gələn yox idi. Bizim ağsaqqal yazıçılarımızdan isə təkcə Qabil və Balaş Azəroğlu gəlmişdilər. Son dərəcə gözəl bir gecə keçdi. Həmin gecə Azərbaycanın milli vəhdətinin nümayişi idi. Dünyaya səpələnmiş azərbaycanlı sənət adamları oraya gəlmişdilər. Gözəl bir axşam idi. Amma nə olsun ki, bizim rəsmi dairələrin heç bir marağı və heç bir qayğısı yox idi.

**Heydər Əliyev:** Hansı axşam idi, nə axşamı idi?

**Sabir Rüstəmxanlı:** Almas İldırımın anadan olmasının 90 illiyi. O adam ki, müstəqillik uğrunda qurban gedib. Amma bu adamın gecəsində bizim rəsmi dairələrdən heç kim yox idi.

**Heydər Əliyev:** Bəs o gecəni kim keçirirdi?

**Sabir Rüstəmxanlı:** Onu respublika Elmlər Akademiyasının Milli Münasibətlər İnstitutu, Güney Azərbaycanın Aydınlar cəmiyyəti keçirdi, biz də kömək etdik. Biz istəmirik ki, dövlət hər şeyə qarışsın. Çünki dövlətin İranla öz müstəqil xarici siyasəti, diplomatik münasibətləri var. Amma bu tədbirləri mədəniyyət ocaqları keçirirlərsə, qonaq kimi gəlib oturmaq olar. Heç olmasa ona görə ki, o, ömrü boyu «Azərbaycan oy»-deyə-deyə sızıldayıb. Belə şeylər çoxdur.

Mən Sizdən çox-çox xahiş edirəm, bizim Cənubi Azərbaycanda, dünyada yaşayan azərbaycanlıların respublikamızda vətəndaşlıq alması məsələsinə, bu da mümkün deyilsə, onların ölkəmizdə təhsil alması məsələsinə kömək edəsiniz. Başqa ölkələr kənar adamları gətirib öz ölkəsində onlara təhsil verir ki, bunlar onun təbliğçisi olsun.

Nəhayət, milli mədəniyyət məsələsinə diqqət son dərəcə artırılsın. Bunlar bizim gələcək taleyimizdir. Azərbaycan təkcə Qüzey Azərbaycandan ibarət deyil. Hələ mən başqa şeyləri kənara qoyuram, amma bizim mənəvi vəhdətimiz yaranmalıdır. Mənəvi vəhdətin də bünövrəsi mədəniyyətdir və bu mədəniyyətə bir az diqqətlə münasibət göstərmək lazımdır. [36-37]

Mən Sizdən üzr istəyirəm, çox danışdım. Amma bunlar məni ağrıdan məsələlərdir. Mən bunları yazıçılar qurultayının kürsüsündən demək istəmirəm. İstəyirəm ki, məsələyə diqqət artsın. Çox sağ olun.

**Heydər Əliyev:** Birincisi, mən arzu edərdim ki, bizim bu söhbətimiz Yazıçılar Birliyinin problemləri ilə əlaqədar olsun. çox xahiş edirəm ki, mənim şəxsiyyətimlə, yaxud da ki, mənə münasibətlə əlaqədar məsələlər burada qaldırılmasın. Mən bunu dəfələrlə demişəm, bəlkə də bunu demək artıqdır, amma məcburam. Millətin, Azərbaycan xalqının, ziyalıların bütün dövrlərdə mənə olan müsbət münasibətindən çox razıyam. Heç kəsdən də narazılığım yoxdur. Heç kəsdən. Buna görə də heç kəs düşünməsin ki, məsələn, mənim üçün o ağır illərdə kimsə mənə əl uzatmayıb, yaxud kömək etməyib, bəlkə də qəlbində olan münasibəti göstərməyə imkan olmayıbdır, yaxud da ki, biganə qalıbdır, - bir dövlət başçısı kimi, bu mənim üçün bir əhəmiyyət kəsb edir, - yox, vallah, yox!

Bilirsiniz, mən Naxçıvandan seçilmiş deputat kimi 1991-ci ilin fevralında Ali Sovetin sessiyasında danışdım, orada da dedim. Dedim, mən Moskvada yaşaya bilmədim və buraya gəldim ki, öz xalqımın, millətimin içində olum və onunla bir yerdə olum. Belə hallarda bəziləri öz Vətənini tərk edir ki, gedib rahat yaşasın. O vaxt Moskvada mənim yaşamağım üçün çətinliklər də var idi. Ancaq hər halda, mən Vətəndən uzaqda idim, ola bilərdi, Vətənin problemləri də mənim qəlbimdə olaydı, amma mən ona cavabdeh deyildim. Lakin mən gəldim. Kimsə bunun qarşısını almaq istədi, kimsə buna mane oldu və sairə. Bunlar hamısı göz qabağında olan şeylərdir, keçib gedibdir. Ancaq sonra, 1993-cü ildə mən dəvət olundum, Bakıya gəldim, o vaxt dedim ki, heç kəs narahat olmasın. Bəzi qüvvələr, adamlar tərəfindən mənə [37-38] qarşı olan o ədalətsizliyə görə mən heç kəsdən, heç vaxt qisas almamışam, almaram.

Bu gün yenə də deyirəm, mən bunları çoxdan unutmuşam, bunları heç xatırlamaq lazım deyil. İrəliyə baxmaq, birləşmək lazımdır. Hamımız bir olmalıyıq. Həyatın müəyyən bir mərhələsində kimsə nəsə, bəlkə bundan da çox edə bilərdi, etməyibdir. Nə olsun? Amma indi biz hamımız bir yerdəyik. Dövlətimiz müstəqildir. İndi bütün bu çətinliklərin öhdəsindən gəlmişik.

Güman edirəm ki, biz müharibəyə də son qoyacağıq, işğal olunmuş torpaqlarımızın sülh yolu ilə azad edilməsinə də nail olacağıq, sülh də yarada biləcəyik. Mənim buna artıq daha da çox ümidim var. Ona görə də mən istəməzdim ki, bu məsələyə indi bir daha toxunaq, çünki bu bizi əsas mövzudan kənara aparır.

İkincisi, Sabir burada bir məsələyə toxundu. Mən buna öz münasibətimi bildirmək istəyirəm. Amma mən bunu əvvəllər də demişəm. Azərbaycanda xalqın 1988-ci ildən Ermənistanın Azərbaycana təcavüzü və Moskvanın, ittifaqın o vaxtkı dövlət başçılarının Azərbaycana ədalətsiz münasibəti ilə əlaqədar və o vaxt Azərbaycana başçılıq edənlərin, həmin o kommunist partiyasının rəhbərlərinin öz vətəninin,

ölkəsinin, xalqının problemlərinə lazımi qayğı göstərməməsi ilə əlaqədar, bəlkə də öz hərəkətləri ilə xalqına xəyanət etməsi ilə əlaqədar ayağa qalxmış insanlar, o meydana toplaşmış, mitinqlər aparmış insanlar və o illər, dövrlər, hadisələr bizim xalqımızın tarixinin parlaq səhifələridir.

Mən hesab edirəm ki, heç kəs onları başqa cür qiymətləndirməməlidir. Şəxsən mən bu cür qiymətləndirirəm.

Bilirsiniz, ora, həmin o meydana yüz minlərlə adam toplaşırdı. Onlar oraya niyə toplaşırdı? Axı onları zorla oraya aparmaq olmazdı. Demək, onların tam əksəriyyətinin qəlbində olan milli hissiyyat, torpaq, Vətən hissiyyatı və [38-39] ədalətsizliyə qarşı etiraz bu insanları oraya toplayırdı. O vaxt o mitinqləri aparanlar, xalqı bu işlərə daha da cəlb edənlər də, mən hesab edirəm ki, çox cəsarətli insanlar olublar və onların xidmətlərini heç vaxt unutmaq olmaz. Mən bunu həmişə qiymətləndirmişəm və qiymətləndirirəm. Həmin o mitinqlərdə burada oturan şəxslərin əksəriyyəti iştirak ediblər, - gəliblər, danışıblar, sözlərini deyiblər. Ona görə də mən hesab edirəm ki, bunların hamısı bizim xalqımızın qüdrətini, mənəviyyatını nümayiş etdirən səhifələrdir, hadisələrdir.

Siz gərək ki, unutmamısınız, - 1994-ci ilin yanvar-fevral aylarında Milli Məclisdə mənim təşəbbüsümlə məsələ qoydum, bilirdim ki, 20 Yanvar hadisələrinə siyasi qiymət verilməyibdir. Xatirinizdədir, mən Milli Məclisə məktub yazdım, təşəbbüs qaldırdım. Milli Məclis bu məsələni təxminən iki ay müzakirə etdi və biz 20 Yanvar hadisələri ilə əlaqədar qərar qəbul etdik. Xatirinizdədir, o vaxt bunların hamısı televiziya ilə verilirdi. Çoxlarınız da orada iştirak edirdiniz. O vaxtlar bəziləri istəyirdilər kimlərisə günahlandırsınlar ki, niyə 20 Yanvar gecəsi adamlar qırıldı. Çünki Nemət Pənahov, Etibar Məmmədov, yaxud da ki, Xalq Cəbhəsi, başqaları camaatı küçələrə çıxartdılar, adamlar ona görə qırıldı. Onları da günahlandırmaq istəyirdilər. Sabir, xatirindədir, onda sən Milli Məclisdə var idin. Onları günahlandırmaq, qərara yazdırmaq istəyirdilər. Sənin də, başqalarının da xatirindədir ki, mən bunun əleyhinə çıxdım. Dedim, onlar günahkar deyillər. Onlar öz Vətənini qoruyurdular, öz hissiyyatlarını bildirirdilər. Günahkar o tankları buraya gətirənlərdir, günahkar o tanrkları buraya göndərənlərdir. Ona görə də mən o vaxt dedim, - nə Nemət Pənahovu, nə Etibar Məmmədovu, nə Xalq Cəbhəsini, nə başqasını, heç birisini günahlandırmaq olmaz. O vaxt mən buna imkan vermədim. Bəli, o vaxt bəzi qüvvələr çalışdılar [39-40] qərara saldırsınlar və bunu tarazlaşdırsınlar ki, bəli, onların da, bunların da günahı var.

Amma mən o vaxt da belə fikirdə olmuşam, elə yanvar hadisələri zamanı Moskvada bunu eşidən kimi də bu fikirdə olmuşam, ondan sonrakı dövrdə də, bu gün də bu fikirdəyəm: Ayağa qalxmış xalq öz haqqını istəyirdi, öz sözünü deyirdi, onu basmaq, əzmək üçün tank göndərmək olmazdı. Bu, cinayət idi. Əgər küçədə öldü, əzildisə - bu onun günahı deyildi ki, küçəyə çıxmışdı. O, küçəyə hissiyyatını bildirmək üçün çıxmışdı. Bəziləri deyirdi xəbərdar etməli idilər ki, tanklar gələcək, küçədən çəkilin. 130, yaxud 200, yaxud da ki, 20 adam həlak oldu, - bunun fərqi nədir? Hər bir insan üçün bunun fərqi var, amma millət üçün bunun fərqi yoxdur. Millət üçün əsas odur ki, millətin mənəviyyatını əzdilər.

Ona görə də o xalq ki, ayağa qalxmışdı və öz haqqını tələb edirdi, o rejimin əleyhinə çıxırdı və Moskvanın, o vaxtkı kommunist rəhbərliyinin Azərbaycan xalqına qarşı ədalətsizliyinə öz protestini, etirazını bildirirdi, Azərbaycanın o vaxtkı rəhbərlərinin istefasını tələb edirdi, - hesab edirəm ki, bunlar hamısı tamamilə doğru-düzgün hərəkətlər olub. Bunları heç vaxt pisləmək olmaz. Onların iştirakçılarını heç vaxt günahlandırmaq olmaz. O cümlədən, Xalq Cəbhəsinin o vaxt yaranması və o dövrdə fəaliyyət göstərməsi, mən hesab edirəm ki, tariximizdə müsbət qiymətləndirilməlidir. Mənim fikrim həmişə belə olubdur.

O, başqa məsələ ki, sonra bəzi adamlar həmin o imkanlardan istifadə etdilər və cürbəcür qeyri-qanuni işlər gördülər, yaxud ki, cinayətlər etdilər. Bu, başqa məsələ. Məsələn, Rəhim Qazıyev Xalq Cəbhəsinin liderlərindən biri idi. Məlumdur, elədirmi? Ancaq Rəhim Qazıyev bu Xalq Cəbhəsinə hansı niyyətlə girmişdi? Xalq ona inanmışdı, amma o, xalqa nə qədər xəyanət etdi. Yaxşı, bu məlumdur. O, elə 20 Yanvar hədisəsində də xalqa xəyanət etdi. Şübhəsiz [40-41] ki, onu həbs edib Moskvaya aparandan sonra ələ keçirdilər və bundan sonra o, xalqın əleyhinə işləməyə başladı. Nəhayət, 1993-cü ilin hadisələri bunu göstərdi. Mən bəlkə də o vaxt belə düşünə bilməzdim. Çünki həmin Rəhim Qazıyev mən Naxçıvanda olarkən iki-üç dəfə Naxçıvana gəldi. Hələ o, burada heç müdafiə naziri deyildi.

Görüşdük, söhbət elədik. Mən ona hörmətlə yanaşırdım, çünki onu tanımırdım, içini bilmirdim. Amma hesab edirdim ki, o vaxtlar Yanvar hadisələrinə görə həbs olunub, həbsxanada yatıbdır, demək, xalq hərəkatının liderlərindən biridir. Mən ona belə münasibət göstərirdim, onun içini bilmirdim. Ancaq sonra nə təhər oldu? Sonra tamamilə xalqa xəyanət etdi və xarici ölkələrin xüsusi xidmət orqanlarına qulluq etdi. Təsadüfi deyil ki, bizim orqanlar burada həbs edəndən sonra onu təcridxanadan çıxaranlar haraya apardılar? Apardılar, onu Moskvada gizlətdilər. O, təlimatlarını elə oradan almışdı, oraya xidmət edirdi.

Amma günah eləyənlər təkcə Rəhim Qazıyev deyildi, başqaları da var idi. Günah etdilər, səhvlər etdilər. Amma ayrı-ayrı adamların günahları, yaxud da elə Xalq Cəbhəsinin hakimiyyətə gəldiyi zaman bir il müddətində buraxdığı səhvlər və nəhayət, ölkəmizi vətəndaş müharibəsinə gətirib çıxarması - bunların heç birisi Xalq Cəbhəsinin əvvəlki xidmətlərini inkar edə bilməz. Mən hesab edirəm, Xalq Cəbhəsinin

də dövrləri var. Məsələn, 1988, 1989, 1990-cı illərdə, lap elə 1991-ci ilin özündə də Xalq Cəbhəsinin fəaliyyətini mən yüksək qiymətləndirirəm və çox yüksək qiymətləndirirəm.

Ancaq hakimiyyətə gələndən sonra onlar, birincisi, hakimiyyəti saxlaya bilmədilər. İkincisi, hakimiyyətdən sui-istifadə etdilər. Üçüncüsü də Azərbaycanı parçalanmaq həddinə və vətəndaş müharibəsinə gətirib çıxartdılar. Bu da onların günahıdır. Ona görə yaxşıya yaxşı, yamana yaman demək lazımdır. [41-42]

Sabir, mən hesab edirəm ki, o vaxtlar həqiqətən xalqın oyanmasında, inkişaf etməsində fəaliyyət göstərmiş adamlara indi heç kəs mənfi münasibət göstərə bilməz və göstərməməlidir. Məsələn, şəxsən sənin özün haqqında danışsaq, mən o vaxtlar sənin fəaliyyətini çox heyranlıqla müşahidə edirdim. Mən Moskvada yaşayırdım, bəzən meydandakı mitinqi Moskva televiziyası göstərirdi. Səni orada tribunada görəndə mən sevinirdim. Çünki yadımdadır, mən burada işlədiyim zaman sən gənc yazıçı, şair kimi, ümumiyyətlə, bizim cəmiyyətdə, o cümlədən mənim nəzərimdə çox hörmətli bir adam idin. Görəndə ki, Sabir Rüstəmxanlı xalqın qarşısında çıxış edir və ədalətsizliyi ittiham edir, bu məni sevindirirdi.

Yaxud, Nemət Pənahovun özünü götürün. Düzdür, o vaxtlar mənim barəmdə daim kriminal axtarırdılar. Bəzi qəzetlərdə də yazırdılar ki, Heydər Əliyev Bakıda işləyəndə Nemət Pənahov onun bağında bağban olub, ona görə onun göstərişi ilə bu işləri görür. Amma bunlar hamısı uydurma sözlərdir. Mən Nemət Pənahovu qətiyyən tanımırdım. Bir də ki, mən Azərbaycandan gedəndə Nemət Pənahov yaşına görə yəqin ki, uşaq imiş. Çünki mən Azərbaycandan 1982-ci ildə getmişdim. Bu hadisələr 1988-ci ildə başlamışdı, o vaxtlar deyirdilər onun 25 yaşı vardı. Qəzet belə yazırdı, bilmirəm neçə yaşı vardı, amma belə yazırdı.

O vaxtlar həqiqətən Moskvada belə bir fikir var idi ki, bütün bu məsələləri təşkil edən Heydər Əliyevdir, Xalq Cəbhəsini təşkil edən Heydər Əliyevdir. Belə fikir var idi, məni günahlandırmaq istəyirdilər. Amma bir halda ki, bu barədə söhbət açılıb, mən Moskvada yaşayanda da, buraya gələndən sonra da bilirdim, - Xalq Cəbhəsi ilə mitinqlərə gedən adamların əksəriyyəti Heydər Əliyevə müsbət münasibət göstərən adamlar idi. Əksəriyyəti! Sən dedin ki, onların içərisində istəyən də , istəməyən də vardı. Sabir, əksəriyyəti istəyən idi. Bəlkə də bunu mənim özümün deməyim yaxşı [42-43] deyil, başqaları deməlidir. Bəlkə də onların əksəriyyəti o meydanlara elə mənim adımla gedibdir. Mənə qarşı ədalətsizliyə etiraz edərək o meydanlara gedirdilər. Ona görə o meydanlarda olan hadisələri özüm üçün doğma hesab eləmişəm. Bəli, doğma hesab eləmişəm.

Çox təəssüf edirəm ki, Xalq Cəbhəsində olan adamlar sonra o cür günahlar, o cür səhvlər etdilər. Bəlkə indi bunun yeri deyil, amma sən bu söhbəti saldın, mən məcburam deyəm. 1991-ci il sentyabrın 3-də Naxçıvanda yenə xalqın tələbi ilə meydana yığışdılar, iki gün tələb etdilər ki, mən Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə başçılıq edim. Razı olmurdum, məcbur oldum. İndi də hesab edirəm ki, nə yaxşı razı oldum, çünki Naxçıvan çox böyük fəlakət qarşısında idi.

Mən o vəzifəyə seçilənin sabahısı günü əksər vəzifələrə Xalq Cəbhəsinin nümayəndələrini təyin etdim. Bunu siz bilirsiniz ki! Mən baş nazir təyin etdim, - Becan Fərzəliyev var, indi Xalq Cəbhəsində onun yeri nə təhərdir, bilmirəm. Ancaq onu Naxçıvana gətirmişdilər. Xalq Cəbhəsinin üzvləri deyirdilər ki, Əbülfəz Elçibəyin sağ əlidir. Özü də mənim yanımdan neçə dəfə Əbülfəz Elçibəylə telefonla danışırdı və mənə verirdi, mən Əbülfəz Elçibəylə telefonla danışırdım. Onda hələ Mütəllibov hakimiyyətdə idi. Özümə iki müavini dərhal Xalq Cəbhəsindən təyin elədim, sən tanıyırsan - Asif Kələntərli, Qafar Məmmədov, Naxçıvan şəhərinə başçı Xalq Cəbhəsindən qoydum, Şərura, Ordubada, Babəkə, Culfaya başçıları - hamısını Xalq Cəbhəsindən qoydum, nazirlər təyin etdim, hamısını etdim. Niyə? Mən bunu açıq deyim, - çünki o vaxtlar, kommunist rejimi dövründə mənimlə işləyən kadrların bir çoxu, nə təhər deyim, dönük çıxdı. Ona görə də mən bu cavan adamları öz ətrafıma topladım, onlar da mənimlə bir müddət işlədilər, ancaq burada Xalq Cəbhəsi hakimiyyətə gələndən sonra, təəssüf ki, başladılar korlanmağa. [43-44]

Bu günlərdə televiziya ilə göstərirdilər, - oktyabrın 24-də gəldilər Naxçıvanda dövlət çevrilişi etməyə. Bilmirəm, görən oldu, yoxsa yox, - orada mənim bir çıxışımı göstərdilər. Bilmirəm, sizlərdən kimsə televizorda gördü, ya görmədi. Nə, gördünüz? 1992-ci il sentyabrın 28-i idi. O çıxış mənim özümün tamamilə yadımdan çıxmışdı. Ona baxdıqca fikirləşirdim, - yaxşı, o vaxt mən orada Xalq Cəbhəsini məhkum etdim. Əbülfəz Elçibəy burada prezident idi, onun ünvanına, başqalarının ünvanına dedim. Orada açıqca dedim ki, mən Əbülfəz Elçibəyə səkkiz dəfə telefon etdim ki, Əbülfəz bəy, sən həm prezidentsən, həm də Xalq Cəbhəsinin sədrisən, bu adamları buradan yığışdır. Amma nə qədər dedim, yığışdırmadı. Sonra gördüm ki, bunlar özləri təşkil ediblər. Bu mənim günahım deyil ki!

Bu, ayrı-ayrı şəxslərə olan münasibətdir, hərəkata, o təşkilata yox! Amma təəssüf ki, o təşkilatı əlinə alanlar bundan sui-istifadə etdilər. Təəssüf ki, mən deməliyəm, bu gün də onlar güzgün mövqedə deyillər. Müxalifətdir, qoy olsun. Ancaq düzgün mövqedə deyillər. Əgər düzgün mövqedə olsalar, indi Azərbaycan üçün nə lazımdır? Azərbaycanın müstəqilliyi lazımdır - Azərbaycanın müstəqilliyi var. Azərbaycanda islahatların keçirilməsi lazımdır - keçirilir. Azərbaycanda demokratik dövlət qurulması lazımdır - qurulur. Azərbaycanda iqtisadi islahatlar keçirilməlidir - keçirilir. Azərbaycanda iqtisadiyyat canlanır?

Canlanır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır - bəli, iş görülür və bunların əksəriyyəti göz qabağındadır.

Bunlar olan halda bunları görməmək, bunları tanımamaq, qiymətləndirməmək ədalətsizlikdir axı, sadəcə ədalətsizlikdir. Demək, söhbət ümummilli mənafedən getmir, ayrı-ayrı insanların ambisiyasından, hakimiyyət ambisiyasından gedir. Bunu qanunla, qayda ilə, nə təhər deyərlər, sivilizasiya prin[44-45]sipləri əsasında etmək lazımdır, silahla, filan-beşməkanla, terrorla etmək lazım deyil. Amma bu hallar da var.

Ona görə də hesab edirəm ki, şəxsən mənim vətəndaş kimi, eyni zamanda dövlət başçısı kimi, o dövrdə fəaliyyət göstərmiş adamların hamısına hörmətim var və bu gün də var, o cümlədən Sabir Rüstəmxanlıya. Sabir Rüstəmxanlının da xatirindən çıxmayıb ki, biz onun 50 illik yubileyini təntənə ilə keçirdik, bəli, hamımız birlikdə, siz də, mən də birlikdə. İndi az-az olur ki, 50 illik yubiley keçirilsin, elədir, yoxsa yox? Olmamışdır? Hər şeydə bir kosmonavt olmalıdır.

Bəlkə də bu sözlər artıqdır, amma Sabir Rüstəmxanlının bəzi fikirləri məni bu barədə danışmağa məcbur etdi. Ola bilər, lazım idi ki, mən bu fikirləri bir daha deyim, bir daha siz də biləsiniz, bütün cəmiyyət də bilsin. Mənim münasibətim belədir.

Əgər başqa elə bir mühüm fikir yoxdursa, bəlkə görüşümüzü uzatmayaq, necə baxırsınız? Mən sizinlə neçə saat istəyirsinizsə oturmağa hazıram. Çünki ədəbiyyatı o qədər sevirəm ki, ədəbiyyatla, şerlə, bizim mədəniyyətlə görüşmək mənim üçün həmişə çox xoşdur. Danışın, amma gəlin Yazıçılar Birliyinin problemləri haqqında danışaq. Deyəsən, Elçin danışmaq istəyir, buyursun.

## YAZIÇI ELÇİNİN ÇIXIŞI

Hörmətli Prezident!

Əziz qələm dostlarım!

Təbii ki, mən də bu görüşü, söhbəti çox yüksək qiymətləndirirəm və buna görə, cənab Prezident, Sizə dərin təşəkkür və minnətdarlığımı bildirirəm. Tale belə gətirib ki, vəzifəmlə əlaqədar bizim hörmətli Prezidenti müşahidə etmək imkanlarım qələm dostlarıma nisbətən daha artıqdır. Ona görə də bunu deməliyəm və bunu deməklə sizin üçün, -qələm dostlarımı nəzər[45-46]də tuturam, - yeni bir Amerika kəşf etmirəm. Azərbaycan Respublikasının prezidenti Azərbaycan xalqının inkişafını, rifahını, Azərbaycan Respublikasının çiçəklənməsini bəlkə də ilk növbədə, - ola bilər yanılıram, amma hər halda güman edirəm, təəssüratım məni aldatmır, - Azərbaycan mədəniyyətinin, mədəniyyəti böyük mənada, ədəbiyyat da daxil olmaqla deyirəm, çiçəklənməsi, inkişafı ilə, bu çətin vaxtda Azərbaycan mədəniyyəti naminə nəsə eləməklə ölçür, onunla görur.

Bir müşahidəmi də demək istəyirəm, - hörmətli Prezidentlə bəzən telefon danışıqlarında və yaxud bilavasitə danışıqlarda açıq-aşkar müşahidə etmişəm ki, dediyim geniş mənada mədəniyyətdən söhbət düşdükdə, ədəbiyyatdan söhbət düşdükdə məndə elə bir təəssürat yaranır ki, cənab Prezident elə bil mənən bir az dincəlir. Əgər bu iş-gücün, problemlərin çoxluğu içində «dincəlmək» sözü yerinə düşürsə. Həqiqətən belədir və bir qələm əhli, yazıçılıqla, yazı-pozu ilə məşğul olan adam kimi, sözsüz ki, buna mən daxilən çox sevinirəm, məndə daxilən böyük ruh yüksəkliyi əmələ gəlir.

Doğrudan da, burada qurultaylardan, cənab Prezident ilə Azərbaycan yazıçıları arasındakı münasibətdən söhbət getdi. Bunların hamısı mənim də gözümün qabağındadır. Bu münasibətlərdə ilk növbədə bir sabitlik var. Biz hörmətli Heydər Əliyevi o qurultaylarda həm xitabət kürsülərində görmüşük, həm rəyasət heyətində, həm də sadəcə parterdə oturan görmüşük.

Elə bilirəm ki, respublika miqyasında yeganə böyük toplantılar idi ki, Heydər Əliyev həm yuxarıda, həm aşağıda oturub, bilavasitə özü görüb, təmasda olub, bütün bu tədbirlərdə bilavasitə iştirak edibdir.

Qurultaylardan ki, söhbət düşdü, mənim də gözümün qabağına gəlir. Burada Anar dedi, 1971-ci ildən bu tərəfə olan qurultaylar - 1971-ci ildə, 1976-cı ildə, 1981-ci ildə, 1986-cı ildə, 1991-ci ildə olan qurultaylar gözümün qabağına gəlir. [46-47] Tam inamla deyirəm ki, şübhəsiz, Azərbaycan milli ictimai fikrinin formalaşmasında, Azərbaycanın milli özünüdərkində, milli özünüifadəsində bu qurultayların çox mühüm rolu olubdur.

Mən nəyi demək istəyirəm? İndi burada ən cavanı Vaqif Cəbrayılzadədir, bunlar hamısı onun da gözünün qabağındadır. Çingiz Abdullayev gülür, Çingiz yaşda ondan da kiçikdir. Bu qurultaylar, bu böyük toplantılar sovet dövründə, sovet Azərbaycanı dövründə çox zaman kosmopolit xarakter daşıyırdı. Kosmopolit xarakter deyəndə, həm dini nöqteyi-nəzərdən, həm ümumi Sovet İttifaqı qarşısındakı problemlər - təsərrüfat problemləri nöqteyi-nəzərindən deyirəm. Amma Azərbaycan yazıçılarının qurultayları həqiqətən milli özünüdərkin, özünüifadənin, milli münasibətin ifadəsi idi. Şübhəsiz, gün işığı kimi aydın həqiqətdir ki, burada da o dövrün rəhbərinin və rəhbərliyinin rolu var idi. Başqa cür mümkün deyildi.

Misal üçün, əgər 1971-ci ildə bu gün burada oturanların çoxundan yaş etibarilə cavan olan birinci katib, respublikanın rəhbəri Heydər Əliyev gəlib Azərbaycan dilində çıxış edirdisə, - o məruzə yadı-

nıza gəlir, - Azərbaycan problematikasını qaldırırdısa, bu, doğrudan da Azərbaycan ictimai fikrinin formalaşmasında böyük bir hadisə idi. Mənim yadıma gəlir, bunu bir neçə dəfə yazmışam və demişəm də, - doğrudan da hesab edirəm ki, mühüm məsələdir. 1981-ci ildə keçmiş Dzerjinski klubundakı qurultayda, - o, elə bir dövr idi ki, Azərbaycanda, Azərbaycan xalqının problematikasında onun gələcəyi üçün bir nömrəli problemlərdən olan Cənub mövzusu yasaq idi. Təbii ki, Moskvanın təzyiqi, istəyi və Qlavlitdən tutmuş bir sıra redaktorlara qədər Moskvanın dediyi ilə oturub-duran kiçik işçilərin iştirakı ilə bu, yasaq idi. Heydər Əliyev çıxışında, -hesab edirəm ki, doğrudan da tarixi çıxış idi, - Cənub məsələsini necə qaldırdı? Cənub məsələsinə Azərbaycan [47-48] yazıçılarının diqqətini necə cəlb etdi? Xüsusi bir vəzifə yaratdı ki, o da Yazıçılar İttifaqının katibi vəzifəsi idi və bizim hörmətli Balaş Azəroğlu da o vəzifəyə seçildi - Azərbaycan Yazıçılar İttifaqının Cənubi Azərbaycan ədəbiyyatı üzrə katibi.

Əlbəttə, bütün bunlar bir tərəfdən tarixi faktdır, hesab edirəm, Azərbaycanın yeni tarixinin son 30 ilinə yazdığı çox gözəl, qiymətli səhifələrdən biridir. O biri tərəfdən də, məsələn, şəxsən mənim üçün, burada «parlaq» sözünü işlətdim, - çox parlaq hadisələrdən biridir.

Amma bu gün bu barədə söhbət getdi, - biz müstəqil Azərbaycanın yazıçılarının ilk qurultayını keçiririk. Yəni, müstəqil Azərbaycan Respublikası öz yazıçılarının ilk qurultayını keçirir. Əslində bu, Azərbaycan Yazıçılar Birliyinin yox, Azərbaycan yazıçılarının qurultayıdır. Aradan keçən altı ili mən də gözümün qabağına gətirəndə, hesabat nöqteyi-nəzərindən bu illəri xatırladıqda Əkrəm Əylislinin dediyi bir fikirlə şərikəm ki, əslində bu altı ilin daxilindəki hadisələr, ziddiyyətlər, dramatik hadisələr, - gurultulu çıxmasın, hətta bəzi məqamlarda Şekspir qələminə layiq hisslər, həyəcanlar olan hadisələr - vaxt nöqteyi-nəzərindən, zaman etibarilə elə bil ki, altmış ilə bərabərdir.

Mən bu nöqteyi-nəzərdən ədəbiyyatımıza baxanda bir məsələyə diqqəti cəlb etmək istəyirəm. Bu da nədir? Ədəbiyyatımızın bu günü və gələcəyi naminə, qələm əhli kimi, şəxsən özüm daxil olmaqla, bizim yaratdığımız şərait - yəni biz nə eləmişik? Həm Yazıçılar Birliyi nə edib, həm mən - Elçin nə eləmişəm, deyək ki, həm Qabil, həm Fikrət Qoca nə eləyibdir? Yəni, daxili bir hesabat nə olub, necə olubdur. Bu nöqteyi-nəzərdən, birinci özüm daxil olmaqla, görürəm ki, ilk növbədə ədəbiyyata təəssübkeşlik hissiyyatı elə bil bir az arxa plana keçibdir. Başqa məsələlər, problemlər ədəbiyyat təəssübkeşliyini üstələyibdir. [48-49]

Üzr istəyirəm, vaxtı bir az çox alıram, amma bunları burada demək istəyirəm. Vaxtilə hakim bir ideologiya var idi. Bu hakim ideologiya xüsusən 30-cu illərdə, elə sonrakı dövrlərdə də istedadlı olub-olmamağından asılı olmayaraq, insanları istedadlı yazıçı vəzifəsinə təyin edirdi. Məsələn, deyirdi ki, sən dünənəcən tramvay sürəndin, bu gün təyin olunmusan istedadlı Azərbaycan yazıçısı vəzifəsinə. Yaxud, bir pyes yazmısan, xalq düşmənlərini ifşa eləmisən, onda sən təyin olunursan görkəmli Azərbaycan yazıçısı vəzifəsinə. O xalq düşmənini necə, hansı bədii estetik səviyyədə ifşa eləmisən, yaxud nə üçün ifşa eləmisən, bunun prokuroru, vəkili kimdir ki, bundan söhbət getmirdi.

Yaxud Sov.İKP Mərkəzi Komitəsi, deyək ki, camışçılığın inkişafı haqqında qərar qəbul edirdi. Artıq bunun ədəbiyyat nöqteyi-nəzərindən 50-ci illərə də, 60-cı illərə də, hətta bəzən sonrakı illərə də dəxli var. Sov.İKP Mərkəzi Komitəsi Nazirlər Soveti ilə birlikdə camışçılığın inkişafı haqqında qərar qəbul edirdi. Azərbaycan ədəbi tənqidi və yaxud Sovet ədəbi tənqidi nə edirdi? Sovet ədəbi tənqidi partiyanın qərarının bədii ədəbiyyatdakı təcəssümünü tələb edirdi. Bu zaman ədəbiyyata heç bir dəxli olmayan əsərlər meydana çıxırdı. Mən onların üzərində dayanmaq istəmirəm, hamınız bunu çox gözəl bilirsiniz. O əsərlərin qəhrəmanları, misal üçün, bir camışdan üç bala alırdısa, olurdu müsbət qəhrəman, gözəl, yüksək səviyyəli bir qəhrəman, yazıçının böyük nailiyyəti. Amma bu, hansı bədii-estetik səviyyədə idi - bunun fərqinə varan yox idi.

Şübhəsiz ki, o dövrdə eyni zamanda istedadlı ədəbiyyat da yaranırdı. O istedadlı ədəbiyyatın yaranması prosesi Azərbaycanda 70-ci illərdə özünü çox parlaq şəkildə büruzə verdi. Dissident ədəbiyyatından çox danışırlar. Düzdür, Azərbaycanda xüsusi demək olmaz ki, filan bir dissident roman yazdı, xaricdə çap olundu. Azərbaycanda çap olunmadı və yaxud [49-50] bir poema yazdı, xaricdə çap olundu, Azərbaycanda olunmadı. Amma mən bunun şahidiyəm, dostlarım da bilir, - Anar, Yusif, Əkrəm burada əyləşiblər, - hamısı şahiddir ki, biz o vaxt tez-tez Moskvaya, başqa respublikalara gedirdik, orada bizə deyirdilər ki, Azər Moskvada işləyirdi, bunu təsdiq edə bilər,- siz nə edirsiniz, Azərbaycanda nə baş verir? Yəni, o əsərlər ki, Moskvada dissident ədəbiyyatı nümunələri sayılırdı, o əsərlər Azərbaycanda, adlarını da bilirsiniz, kifayət qədər də həcmi olan əsərlər idi, həm şerdə, həm nəsrdə, hətta dramaturgiyada olan əsərlər idi, - həmin «Azərbaycan», «Ulduz» jurnallarında, «Ədəbiyyat» qəzetində çap olunur, Əzizbəyov adına teatrda tamaşaya qoyulurdu və s. Doğrudan da bu, olan bir şeydir və bunun üstündən keçmək olmaz. Ona görə keçmək olmaz ki, mümkün də deyildir. Çünki Azərbaycanın bugünkü özünüifadəsində bunun çox böyük rolu var.

Amma indi necə vəziyyət əmələ gəlib? İndi elə bil ki, qələm dostlarım da, - bu gün söhbət ədəbiyyatdan gedir, - ədəbiyyat adamları arasında, bəlkə səhv edirəm, elə bil ki, bir az özlərini itiriblər. Şübhəsiz ki, bunun böyük səbəbləri var. Həm də maddi səbəbi var.

Dünənə qədər əsərlər çap olunurdu, qonorarları alınırdı. Buna görə də yazıçıların heç bir vəzifədə və başqa yerdə işləməyinə ehtiyac yox idi. Bu qonorarlar onların ailələrini, özlərini yaşatmaq üçün kifayət idi.

Bu gün həm maddi, həm də mənəvi çətinliklər ortaya çıxıb. Hətta ən istedadlı, görkəmli yazıçı özünü axtarmağa başlayıbdır. Məsələn, Əkrəm Əylislinin çıxışı barədə bu gün burada söhbət açdılar. Əkrəm Əylislinin bu son altı ildə, hətta ondan əvvəlki illərdə - Yazıçılar İttifaqında işlədiyi dövrdən bugünkü günə qədər gəldiyi yolu nəzərə alaraq mən deyə bilərəm ki, bu yol tamamilə ziqzaqdan ibarət bir yoldur. Mən bunu pis mənada yox, yaxşı mənada deyirəm. Mən [50-51] bunu qələm dostumun özünü axtarışı kimi hesab edirəm. O, özünü, həqiqəti axtarır. Bu nöqteyi-nəzərdən elə bil yazıçılar özlərini itiriblər. Həm maddi cəhətdən böyük çətinliklərə, həm də dediyim həmin o altı ilin içərisinə sığmayan böyük problematika ilə, əgər belə demək mümkünsə, həmin altı ilin ehtivasına sığışmayan 60 ilin, bəlkə də 100 ilin problematikası ilə qarşılaşıblar. Əlbəttə, bu nöqteyi-nəzərdən Azərbaycan ədəbi prosesinin bugünkü zəifliyinin, hətta mən deyərdim ki, bugünkü ölgün vəziyyətin səbəbləri vardır. Şübhəsiz ki, burada Yazıçılar Birliyi, Nizami adına Ədəbiyyat İnstitutu daha artıq dərəcədə fəal olmalıdırlar. Amma ilk növbədə, mən özüm də daxil olmaqla, bizim hər birimiz fəal olmalıyıq.

Heydər Əliyeviç, mən Sizə deyim, bu gün ədəbi meyarlar, demək olar ki, itib, yəni bu gün ədəbiyyatda elə bir deqradasiya prosesi gedir ki, onun qarşısını almaq inzibati nöqteyi-nəzərdən mümkün deyildir. Onun qarşısını qərarlarla almaq mümkün deyil. Bunun qarşısını ancaq əsl ədəbiyyatın təəssübünü çəkməklə almaq mümkündür.

Məsələn, Siz də dediniz, bu gün bir nəfər prokuror haqqında kitab çıxır. Məlum olur ki, belə böyük-böyük kitabların Mətbuat və İnformasiya Nazirliyinə dəxli yoxdur. Kiminsə pulu var, gedib hansısa bir şəxsi nəşriyyatda çap etdirir. Məlum olur ki, bir yazıçı var imiş, sən demə, onun 10 romanı var imiş, Sovet İttifaqı, Sovet Azərbaycanı vaxtında bunu sıxışdırıblar, kitablarını çap etməyiblər. O bunları indi çap elətdirir, cildləri çıxır. Digər tərəfdən, şer naminə heç bir şey olmayan cild-cild, ensiklopediya boyda kitablar çap olunub. Təkrar edirəm, bunların qarşısını nə ilə almaq olar? Sovet dövrü deyil ki, qərar çıxarasan və yaxud digər işlər görəsən. İnzibati yolla buna nə deyəsən? Deyəsən, get onu tut ki, nə üçün bu kitabı çap etmisən? Burada nə etmək olar? Ancaq və ancaq ədəbiyyatın təəssübünü çəkmək. [51-52]

Mən, necə deyərlər, yeni Amerika kəşf etmirəm, ürəyimin içində olan sözləri deyirəm. Siz bunları məndən də yaxşı bilirsiniz. Amma bu məsələdə hər birimiz fərdi surətdə daha artıq dərəcədə fəallıq göstərməliyik. Düzdür, mən başa düşürəm ki, bu gün belə imkanlar azdır. Nə üçün? Ona görə azdır ki, dünən «Azərbaycan» jurnalının 76 min tirajı var idi, bu gün onun min nüsxə tirajı var. «Ədəbiyyat» qəzetinin dünən 56 min tirajı var idi, bu gün min nüsxə tirajı var. Deyək ki, mən - Elçin ədəbi proses barədə bir məqalə yazmışam, hansısa bir əsərə qiymət vermişəm, ya tənqid, ya da tərif vermişəm. Bir var bu, 76 min tirajlıq jurnalda çap olunsun, bir də var min nüsxə tirajı olan jurnalda. Qeyd etmək lazımdır ki, o da az əhəmiyyətli deyil ki, mənim bu məqaləm 76 min nüsxə tirajlıq jurnalda çap olunmuşdursa, onda mən qonorar alıram və növbəti məqaləmədək uşaqlarımı dolandırıram, daha sonra yeni bir məqalə yazıram. Amma bu, min nüsxə tirajlıq jurnalda çap edilirsə, əlbəttə, müəyyən məhdudiyyətlər ortaya çıxır.

Bütün bunlara baxmayaraq, burada oturanlardan hər birimiz - möhtərəm Prezident dedi ki, buradakılar bizim hörmətli qələm sahiblərimizdir - gərək bu altı ildə ədəbiyyatın təəssübünü çəkmək nöqteyi-nəzərindən edə bildiklərimizi etmişikmi? Heç bir şey etməmişik. Mən bunu birinci özümə deyirəm, - heç bir şey eləməmişik. Ona görə də o cür qrafoman ədəbiyyatı baş alıb gedir. Mən Sizi inandırıram, bu qrafoman ədəbiyyatının qarşısı alınmasa, bu deqradasiya bizi ən geridə qalmış ölkələrin səviyyəsinə aparıb çıxaracaq.

Mən çox arzu edirəm ki, bizim Yazıçılar Birliyinin qurultayında bu ətrafda söhbət getsin. Şübhəsiz ki, belə də söhbət gedəcəkdir. Mən çox arzu edirəm ki, Yazıçılar Birliyi də, Nizami adına Ədəbiyyat İnstitutu da, qəzet redaksiyaları da ilk növbədə «Ədəbiyyat» qəzeti, «Azərbaycan», «Ulduz» jurnalları bütün böyük çətinliklərə baxmayaraq, bu [52-53] qurultaydan sonrakı dövrdə daha artıq dərəcədə ədəbiyyatın təəssübünü çəkməyə diqqət yetirsinlər. Yenə də deyirəm, mən çox gözəl başa düşürəm ki, iclasda ədəbiyyat yaranmır, «yaxşı əsər yaz» deməklə heç kim gedib oturub yaxşı əsər yazmayacaq. Əgər yazıçının qabında bir şey varsa, ona heç nə demədən gedib yazacaq və gətirib verəcək. Amma bütün bunlarla bərabər, mən çox arzu edirəm ki, gələcəkdə daha artıq dərəcədə ədəbi disputlar keçirilsin, ədəbiyyat söhbəti getsin, ədəbiyyat müzakirəsi olsun, hətta mən bu sözü deməkdən çəkinmirəm ki, ədəbiyyat davası olsun, amma sağlam dava olsun. Çox sağ olun, təşəkkürümü bildirirəm.

## YEKUN SÖZÜ

Mən görüşümüzün əvvəlində dedim, - söhbətimiz elə olsun ki, qurultayda da deməyə söz qalsın. Yoxsa bunların hamısını burada desək, qurultaya gələcəyik, deyəcəklər ki, hər şeyi demişik. Ola bilər hələ

kimsə məni günahlandırsın ki, Heydər Əliyev bizi ora yığdı, sözlərimizi dedik, qurultaya qalmadı. Buna görə də gəlin sözlərimizi qurultaya da saxlayaq, əsas söhbəti qurultaya saxlayaq ki, o, həqiqətən mənalı, məzmunlu keçsin, dərin fikirlərlə dolu olsun. Amma bugünkü görüşümüzün əsas məqsədi ondan ibarətdir ki, ümumi bir fikrimizi cəmləyək.

Mən belə başa düşdüm ki, bu altı il müddətində bizim Yazıçılar Birliyi bütün bu çətin dövrü yaşayıb, bütün bu çətinliklərə baxmayaraq mövcuddur və bundan sonra da Azərbaycan yazıçılarını öz ətrafına toplayıb yeni-yeni əsərlər yazmağa şərait yaradacaqdır və kömək edəcəkdir. Mən belə düşünürəm. Ona görə də hesab edirəm ki, Yazıçılar Birliyi nə qədər nöqsanlar olmuş olsa da, bu müddətdə öz üzərinə düşən vəzifəni imkan dairəsində yerinə yetiribdir. [53-54]

Bir daha qeyd edirəm, Yazıçılar Birliyi dağılmayıbdır. Bizim yazıçılarımız bir-birindən nə qədər narazı olsalar da, parçalanmayıblar, qruplara, ayrı-ayrı dəstələrə bölünməyiblər. Hamısı bir yerdədir, birlik var. Bu, özü böyük bir hadisədir. İndi bizdə quruluş dəyişibdir. Dövlət quruluşu, ictimai-siyasi quruluş dəyişibdir. Biz müstəqil dövlətik. Ancaq keçmişdən bizə bu gün və gələcək üçün yararlı olan vasitələri, qurumları yaşatmalı, istifadə etməliyik.

Azərbaycanda Yazıçılar İttifaqı 1934-cü ildə yaranıbdır. İndi 1997-ci ildir, əsr sona çatır. Yazıçılar İttifaqının yaşamasında bir neçə nəsil öz xidmətlərini göstəribdir. Yazıçılar İttifaqı yazıçıların yaşaması, inkişaf etməsi, yaradıcılıqla məşğul olması üçün çox işlər görübdür.

Burada məlumat verildi ki, gənclərdən 100 nəfər Yazıçılar Birliyinə üzv olmaq istəyir. Bu, çox sevindirici haldır. Deməli, bu Birliyə inam, etibar var və insanlar bu Birlikdə olmaq istəyirlər.

Mən güman edirəm ki, bu qurultay açıq-aydın, aşkar, sərbəst şəraitdə keçməlidir. Mənim fikrim belədir. Hərə öz sözünü deməlidir, öz fikrini bildirməlidir. Fikir sərbəstliyi, azaldığı təmin olunmalıdır. Güman edirəm ki, qurultay bizim yazıçılarımızın, tək yazıçılarımızın yox, yazıçıların ətrafına toplaşan yaradıcı qüvvələrin bundan sonra daha da sıx olması və daha yaxşı fəaliyyət göstərməsi üçün imkan yaradacaqdır. Altı il elə bir dövrdür ki, bu altı il Azərbaycanın dövlət müstəqilliyinin yaşıdır.

Şübhəsiz ki, çətinliklər var, bunları demək lazımdır və bunları aradan götürmək lazımdır. Ancaq heç kəs güman etməsin ki, birincisi, bunlar asandır və ikincisi, bunları tezliklə aradan götürmək olar. Yox. Bilirsiniz, müstəqil dövlət qurmaq bir bina tikmək deyil. Böyük bir binanı da tikəndə buna üç-dörd il vaxt lazım olur. Xatirimdədir, mən bu binanı tikməyə başladım, onu qurtaranadək beş il vaxt keçdi. Amma [54-55] burada bir şey yoxdur, - daşdır, başqa tikinti materiallarıdır, - gətirib qurmaq lazımdır. Vaxt keçdi. Amma müstəqil dövləti qurmaq üçün nə qədər vaxt, zaman lazımdır. Bir də ki, uzun illər müstəqil yaşamamış bir xalq indi müstəqil yaşamalıdır, öyrənməlidir, keçmişin bir çox ənənələrindən uzaqlaşmalıdır, amma eyni zamanda millətimizə, xalqımıza xas olan ənənələri, adətləri yaşatmalıdır, inkişaf etdirməlidir.

Ayın 26-da axşam mən Türkiyənin TRT kanalına baxırdım. Türkiyənin prezidenti Süleyman Dəmirəlin bir icmalçı ilə söhbətini dinlədim. Söhbət çox maraqlı idi, iki saata qədər başdan axıradək dinlədim. Sonra mən ona telefonla zəng etmişdim, öz fikirlərimi söyləyirdim. Ayın 29-da Türkiyə Cümhuriyyətinin yaranmasının 74-cü il dönümüdür. Həmin söhbət bu münasibətlə idi və güman edirəm, Türkiyənin daxilində gedən proseslərlə əlaqədar çox maraqlı idi. Bu bizim üçün də çox əhəmiyyətlidir. Mən bunu dostumuz Süleyman Dəmirələ telefonda dedim. Çünki bu təcrübədir. Bu cümhuriyyət 74 ildir ki, yaşayır. Özü də o, boş yerdə yaranmayıbdır. Süleyman Dəmirəl bir neçə dəfə çox gözəl bir ifadə işlədib, o gün də bu ifadəni işlətdi. Deyir ki, Türkiyə Cümhuriyyəti Osmanlı imperatorluğunun içindən çıxıbdır. Amma Osmanlı imperatorluğu nə olubdur? O, dünyaya 700 il hökm oxuyan imperatorluq olubdur. 700 il Osmanlı imperatorluğu olubdur, bu dövlət olubdur. Özü də dünyanın bir çox hissəsini əlində saxlayıbdır. Neçə-neçə müharibələr, döyüşlər aparıbdır. Rusiya və başqa imperiyalarla döyüşlər, müharibələr aparıbdır, qalib olubdur. Həmin torpaqları da asanlıqla əlinə keçirməmişdi ki!

Həmin Osmanlı imperatorluğu bir tərəfdən Avropanın bir hissəsini, digər tərəfdən Afrikanın şimalını, Ərəbistanı tutmuşdu. Belə bir qüdrətli imperatorluq dağılandan sonra, Süleyman Dəmirəlin ifadəsi ilə desək, onun gülləri içindən Türkiyə Cümhuriyyəti çıxıbdır. Yəni demək istəyirəm ki, bu, [55-54] boş yerdən çıxmayıbdır, boş yerdən qalxmayıbdır. Bunun kökü var, özü də dərin kökü var. Amma bu 74 il içərisində, şübhəsiz ki, onun keçdiyi yol da asan olmayıbdır. Çox böyük imtahanlardan, sınaqlardan keçibdir. Amma indi nə qədər də problemləri vardır. Problemsiz deyillər. İndi Türkiyədə mübahisə gedir ki, 8-illik icbari təhsil olsun, olmasın. Cümhuriyyət 74 il mövcud olduğu halda, indi siz təsəvvür edin, onların sözü ilə desək, bu dövlət layiq dövlət olmalıdır. Yəni dünyəvi dövlət, yaxud dini dövlət olmalıdır, - mübarizə gedir.

Mən niyə bunu xatırlayıram? Çünki görün, belə bir qüdrətli imperatorluğun üzərində qurulmuş, bundan sonra 74 il yaşayan, böyük bir qüdrətə malik olan ölkə - yenə də dostum Süleyman Dəmirəlin dediyi rəqəmləri xatırlayıram - əhalisinin sayına görə Türkiyə dünyada 16-cı yeri tutur, ərazisinə görə dünyada 32-ci yeri tutur. Bilirsiniz, bu, böyük bir dövlətdir. Əhalisi 65 milyondur. Özü də dünyanın bütün beynəlxalq təşkilatlarının üzvüdür. Amma problemləri, çətinlikləri var. O, bu problemlər barədə danışırdı. Eyni zamanda, çox gözəl deyirdi ki, bu dövləti Mustafa Kamal Atatürk nə cür qurdu, yaratdı və onu nə cür inkişaf etdirdi.

Doğrudan da çox ağıllı siyasət aparıblar. Mən orada rəsmi ziyafətdə olarkən Türkiyə Böyük Millət Məclisindəki çıxışımda iki məqamı yada saldım. Birincisi, o vaxtlar Türkiyənin dövlət başçılarının ən ağıllı siyasəti ondan ibarətdir ki, onlar İkinci dünya müharibəsinə qarışmadılar. Doğrudur, onların faşist Almaniyası ilə ittifaqı var idi, müttəfiq idilər. Amma Türkiyə müharibəyə qarışmadı. Bu, Türkiyə Cümhuriyyəti tarixində ən böyük nailiyyətlərdən biridir. İkincisi də ondan ibarətdir ki, Sovetlər İttifaqı İkinci dünya müharibəsindən qələbə ilə çıxandan sonra Türkiyənin torpaqlarının bir qisminə iddia etməyə başladı. Türkiyə isə NATO-ya daxil oldu. Birincisi də, ikincisi də müdrik [56-57] siyasətdir. Amma bu gün problemləri var və bu problemlər haqqında danışırlar.

Azərbaycanda bir məsəl var, deyir, bərkiməmiş qatığıq. Bilmirəm, bu söz işlənir, yoxsa, yox! Qatığı çalanda bir var ki, gərək o tutsun, bir də var ki, bərkisin. Bu söz xalq arasında var.

Biz altı ildir müstəqilik. Amma bu altı ili gözünüzün qabağına gətirin. Biz nə yollardan keçmişik? Azərbaycanın birinci ən böyük bəlası odur ki, heç müstəqilliyi əldə etməmişdən Azərbaycanın torpaqlarının bir qismi işğal olunubdur və ölkəmiz bu hərbi təcavüzə məruz qalıbdır. Ən böyük bəla budur. Ondan sonra bizim daxilimizdə proseslər, çətinliklər olub. Amma bununla bərabər, indi görürsünüz, son illərdə Azərbaycan dünya miqyasında özünə layiq yerini tutur, artıq Azərbaycanla hesablaşırlar.

Dünən mən sərəncam vermişdim, elan olunubdur. Mən noyabrın 12-nə təyin etmişəm, - biz «Əsrin müqaviləsi»nin həyata keçirilməsi nəticəsində ilkin neftin hasil olunmasını təntənəli surətdə qeyd edəcəyik. Mən bu müqavilədə iştirak edən şirkətlərin təmsil olunduğu ölkələrin dövlət başçılarını dəvət etmişəm. Çoxları gələcəkdir. Hər halda, nümayəndələri gələcəklər. Böyük hadisədir. Üç il bundan əvvəl bu müqaviləni imzalayanda birincisi, buna inanmırdılar, ikincisi də buna nə qədər maneçilik göstərmək istəyənlər var idi. Biz, demək olar ki, tək idik. Həmin müqavilənin arxasında tək-təkinə durduq. Amma indi neft də çıxıb, boru kəməri də tikilibdir.

Mən 1996-cı ilin yanvarında Rusiyaya getdim və biz neftin nəql edilməsi barədə müqavilə imzaladıq. Amma bilirsiniz, Çeçenistanla əlaqədar onu həyata keçirmək nə qədər çətin oldu. Lakin üç gün bundan əvvəl həmin neft kəməri işə salındı. Artıq biz nefti Rusiyaya nəql edirik. Gündə 2500 ton neft gedir.

Biz Xəzər dənizini dünyaya yenidən açmışıq. Üç il bundan əvvəl biz ilk müqavilə imzalamışdıq. İndi artıq 10 müqavilə var. [57-58] Birincidən sonra doqquzunu da imzalamışıq. Burada 12 ölkədən 20 şirkət işləyir. Bunlar hamısı burada yerləşiblər, işləyirlər. Bütün bu müqavilələr Azərbaycanın gələcəyi üçündür. Bunların nəticəsini bizdən çox, gələcək nəsillər görəcəklər.

Yəni demək istəyirəm ki, baxın, bu kiçik zamanda nə qədər işlər görülüb və görülür. Bunlar da hamısı müstəqilliyin bəhrəsidir. Bizim xalqımız üçün müstəqillik o qədər qiymətlidir ki, bütün çətinliklərə dözməliyik, bütün məhrumiyyətlərə dözməliyik. Amma eyni zamanda biz bu qısa müddətdə müstəqilliyin Azərbaycan xalqını nə qədər qaldırmasının da şahidiyik, bunu da görürük.

Ona görə də bu altı il həm Azərbaycan xalqının həyatında bu müstəqilliyi əldə edəndən indiyə qədər gedən proseslər, başqa çətinliklər dövrüdür, eyni zamanda Yazıçılar Birliyinin həyatında, hesab edirəm, çox mürəkkəb bir dövrdür. Siz bu mürəkkəb dövrü yaşamısınız, Birliyi yaşatmısınız və hesab edirəm ki, bundan sonra da yaşatmalıyıq.

Dövlət qayğısı məsələsi. Bilirsiniz ki, bizim imkanlarımız əvvəlkinə nisbətən çox məhduddur. Amma buna baxmayaraq, jurnal, qəzet məsələsini biz həll etmişik. Mən dünən də, bu gün də bu qurultay yaxınlaşarkən düşünürəm - əlavə nə etmək olar? Sabah mən imkanlarımıza bir daha baxacağam, - nə etmək olar ki, dövlət qayğısını artıraq.

Doğrudur, indi sərbəst ölkələrdə, o cümlədən bizim dost Türkiyədə yazıçılara, ədəbiyyata, mənə elə gəlir ki, heç bir dövlət qayğısı yoxdur. Heç birisi yoxdur. Amma baxmayaraq ki, onların dövlətlərinin imkanları çox böyükdür. İş burasındadır ki, bizim adamlar başqa cür öyrəniblər. İndi baxın, biz o sovet quruluşunu bir tərəfdən söyürük, tənqid edirik, ikinci tərəfdən sovet quruluşunda əldə etdiyimiz o xasiyyətlərdən əl çəkə bilmirik. Bu da təbiidir. Mən heç kəsi qınamıram.

Hamı, o cümlədən siz də bilməlisiniz, millətimiz də bilməlidir ki, bu keçid dövrünün bir çox şeyləri təbiidir. [58-59] Onlardan qaçmaq mümkün deyil, bunları sadəcə olaraq yaşamaq, bunlara dözmək və bunların öhdəsindən gəlmək lazımdır. Ona görə də mən sabah düşünəcəyəm ki, görüm əlavə nə etmək olar.

Bir neçə ildir çox adamlar tərəfindən belə bir fikir irəli sürülür, mənim də beynimdə fırlanır ki, mənim adımla bağlı bir fond yaradaq. Bu, bir çox ölkələrdə var. Ümumiyyətlə, belə bir fond yaratmaq və bu fondun vasitəsilə mədəniyyətə, ədəbiyyata, bəzi başqa sahələrə kömək, himayə etmək fikrini, xatirimdədir, İtaliyadan geri dönərkən təyyarədə biz Anarla danışırdıq. Mən ona dedim, mənim çox şeylərə vaxtım çatır, amma bəzi şeylər var ki, o mənim şəxsi işlərimlə əlaqədardır, ona vaxtım çatmır.

**A n a r:** Mən Sizə dedim ki, bu Sizə yox, bizə lazımdır.

**H e y d ə r Ə l i y e v:** Yox, ola bilər, bu mənim adım olacaqdır, amma gərək bu fond tutarlı bir fond olsun ki, kömək edə bilsin, - bu sizə lazımdır. Yenə də deyirəm ki, belə bir təklif üç-dörd ildir meydana gəlibdir. Bu mənim də beynimdə fırlanır. Dünən, bu gün ədəbiyyat haqqında düşündükcə mən bir daha bu fikrə gəlirəm ki, yəqin belə bir fond yaratmaq lazımdır. Mən yəqin ki, yaxın vaxtlarda bu barədə bir

qərar qəbul edəcəyəm. Ola bilər onun vasitəsilə də ədəbiyyatımıza, mədəniyyətimizə gələcəkdə təsirli yardım etmək olar. Ancaq hələ mən bu gün fikirləşəcəyəm ki, dövlətin imkanları ilə nə etmək olar.

Siz bilirsiniz ki, bu mənzil məsələsi belədir, - indi biz ev tikmirik. Bilmirəm ki, indi mən bunu nə cür edim, nə təhər edim. Mən fikirləşim, bəlkə bir göstəriş verim fikirləşsinlər ki, burada nə etmək olar.

**A n a r:** Hörmətli prezident, bunun üçün şəraitli bir sahə ayrılsa, bəlkə orada bir şey tikmək olar?

**H e y d ə r Ə l i y e v:** Axı kim tiksin? Əlbəttə, pul olsa, tikmək olar. O qədər tikinti təşkilatları var ki. Amma iş [59-60] burasındadır ki, pul yoxdur. Hər halda mən bu barədə də fikirləşərəm ki, görək nə etmək olar.

Əgər etiraz etməsəniz, sabah gənc yazıçılarla görüşərəm. Ancaq mənzil barəsində istəyirəm bu gün elan edim ki, bizim iki xalq şairinə - Bəxtiyar Vahabzadəyə və Məmməd Araza kömək etmək qərarına gəlmişəm. Bir balaca imkanım var, istəyirəm onu da bunlar üçün istifadə edəm.

Vaxtilə, 1970-ci illərdə mən burada rəhbər işçilər üçün ev tikmişdim. Özüm də orada yaşayıram. Sonra oradan Moskvaya getdim, qayıdanda orada mənə ev vermədilər. O evləri gəlib tutdular. Biz indi orada iki mənzil boşaltmışıq. Ev yaxşı evdir, dördotaqlı mənzillərdir, yaxşı təmir olunub, lifti də var. Mən onların birini Bəxtiyar Vahabzadəyə, birini də Məmməd Araza verirəm. Çünki Bəxtiyar da, Məmməd Araz da hamımız üçün çox hörmətli adamlardır, böyük xidmət etmiş adamlardır. Bəxtiyar müəllim mənə danışır ki, beşinci mərtəbəyə qalxınca üç yerdə tənəffüs edir. Bu mənim bugünkü görüşə hədiyyəmdir. Qalan məsələlərə baxarıq.

Mən bu söhbətimizin sonunda ümidvar olduğumu bildirmək istəyirəm ki, bizim yazıçılarımız öz vətəndaşlıq borcunu daim layiqli yerinə yetirəcəklər, xalqla birlikdə olacaqlar, millətin qayğıları ilə yaşayacaqlar. Yazıçılar Birliyi də yaşayacaq, yazıçıları öz ətrafında daim sıx toplayacaqdır.

Siz özünüz bilərsiniz, qurultayı necə keçirəcəksiniz, rəhbərliyə kimi seçəcəksiniz. Amma hesab edirəm ki, bu altı il müddətində Yazıçılar Birliyini saxlayan və onu yaşadan rəhbərlər bu gün təşəkkürə layiqdirlər.

* * *

**A n a r** (*görüşün axırında*): Hörmətli Prezident, mən Sizə öz adımdan və hamımızın - buraya toplaşan ağsaqqalların, cavanların, bütün yazıçılarımızın adından dərin minnətdar[60-61]lığımı və təşəkkürümü bildirmək istəyirəm. Əvvəla, ona görə ki, - burada dəfələrlə deyilib, - Sizin bu cür gərgin iş rejiminiz var, dövlətimizin bu qədər qayğıları, problemləri var, bunun içində Siz vaxt tapıb burada bizimlə görüşürsünüz. İkincisi ona görə ki, Sizin bugünkü söhbətiniz, - bilirsiniz, mən qeyri-səmimi söz deyə bilmirəm, bunu tam səmimiyyətlə deyirəm ki, Sizin bizimlə bu gün olan söhbətiniz, yalnız bir prezidentin söhbəti yox, bizim yazıçılar ailəsinin bir üzvünün söhbətidir. Elə bil Siz, bizim yazıçılar ailəsinin üzvü kimi, həm problemlərimizi bilirsiniz, həm də kömək etmək üçün yollar axtarırsınız. Ona görə də mən Sizə təşəkkür edirəm. Nəhayət, Yazıçılar Birliyinin işinə verdiyiniz qiymət üçün də Sizə çox təşəkkür edirəm. Çox sağ olun.

**H e y d ə r Ə l i y e v:** Sağ olun, qurultayda görüşəcəyik. [61]

## YUSİF MƏMMƏDƏLİYEV ADINA
## NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNƏ

Sizi – Azərbaycanın mötəbər təhsil ocağı olan Naxçıvan Dövlət Universitetinin professor-müəllim heyətini və tələbələrini universitetinizin 30 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı, xoşbəxtlik və nəcib fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

Azərbaycanda elm, təhsil və mədəniyyətin inkişafında Naxçıvan Dövlət Universitetinin özünəməxsus yeri və böyük xidmətləri vardır. Zəngin maarifçilik ənənələrinin layiqli davamçısı olan bu universitet muxtar respublikanın ali təhsilli mütəxəssislərə olan ehtiyacını ödəyən müasir təhsil mərkəzidir. Fərəhli haldır ki, bu təhsil ocağının yetirmələri həm Naxçıvanın müxtəlif guşələrində, həm də onun hüdudlarından kənarda uğurla çalışırlar.

Ermənistanın ölkəmizə qarşı təcavüzü nəticəsində blokada şəraitində yaşayan Naxçıvanın dövlət müstəqilliyimizin əldə olunması və möhkəmləndirilməsi uğrunda mübarizəsində universitetin göstərdiyi xidmətlər xüsusilə qeyd olunmalıdır. Bu ali məktəb qonşu ölkələrin elm və təhsil mərkəzləri ilə geniş əlaqələr yaratmaqla bir daha Naxçıvanın Şərqin qapısı olduğunu nümayiş etdirir.

Bugünkü iqtisadi sıxıntılara baxmayaraq, həyatını gənc nəslin yetişdirilməsinə həsr edən, ömrünün mənasını xalqına, Vətəninə layiqli vətəndaş tərbiyə etməkdə görən Naxçıvan Dövlət Universitetinin professor-müəllim heyətinin fədakar əməyindən məmnun olduğumu bildirirəm. Əminəm ki, universitet adını daşıdığı böyük vətənpərvər alim Yusif [62-63] Məmmədəliyevin, xalqımızın görkəmli şəxsiyyətlərinin irsinə, bu qədim diyarın zəngin ənənələrinə layiq milli kadrlar yetişdirilməsi işində bundan sonra da var qüvvəsini sərf edəcəkdir.

Bu yubiley münasibətilə bütün təhsil işçilərini, bütün xalqımızı səmimi-qəlbdən təbrik edir, Azərbaycanımızın çiçəklənməsi və tərəqqisi naminə yeni nəslin tərbiyəsi işində Naxçıvan Dövlət Universitetinin kollektivinə böyük nailiyyətlər arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *29 oktyabr 1997-ci il*
[63]

## AZƏRBAYCAN YAZIÇILARININ X QURULTAYI ƏRƏFƏSİNDƏ GƏNC NƏSİLDƏN OLAN YAZIÇI VƏ ŞAİRLƏRİN BİR QRUPU İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ

*Prezident sarayı*

*29 oktyabr 1997-ci il*

Mən bu gün belə bir ifadə işlətmək fikrinə gəlmişəm: Bu günlər Azərbaycanda ədəbiyyat günləridir.

Dünən Yazıçılar Birliyinin rəhbərləri, üzvləri, xalq şairləri ilə, yaşlı nəslə mənsub şair və yazıçılarla görüşümüz oldu. Xahiş etdim ki, gənclərlə də görüşək. Bu mənim keçmişdə belə məsələlərə münasibətimlə müəyyən dərəcədə bağlıdır. Keçmiş zamanlarda da Yazıçılar İttifaqı ilə çox sıx əlaqədə olmuşam. Yazıçılarla vaxtaşırı görüşlərim olurdu, - yaşlılarla da, gənclərlə də görüşürdük. Şübhəsiz ki, birlikdə də görüşlərimiz olurdu. Bəzən gənclərin və yaşlıların öz problemləri olur. İndi kimin gənc və kimin yaşlı olduğunu demək çətindir. Mən bunu dünən dedim, - vaxtilə biz Anar, Elçin, Yusif və başqaları ilə gənc nəslin nümayəndələri kimi görüşürdük, indi isə onlar ədəbiyyatımızın ağsaqqalları da olmasa, hər halda yetkin nəslə, yəni yaşlı nəslə mənsub hesab olunurlar. Kiminin 50-dən yuxarı, kimininsə 60-a yaxın yaşı var. Bunlar gözlərimin qabağında böyüyüblər.

İki-üç gün bundan öncə mənə bir kitab göstərdilər. Baxıram, kitabda Elçinlə, hansısa bir şairlə, daha kiminləsə [64-65] mənim də şəklim var. Elçin o vaxt gənc idi, qara, qıvrım saçları vardı. Elçin, o şəkli görmüsənmi?

**E l ç i n:** Görmüşəm. Nizami Xudiyevin kitabında verilib. Yeri gəlmişkən deyim ki, yaxşı kitabdır.

**H e y d ə r Ə l i y e v:** Hə, Nizami Xudiyevin kitabıdır. Mən hələ oxuya bilməmişəm. Bilirəm, Azərbaycan dilinə həsr olunub. Bu da mənim üçün ən dəyərli mövzulardan biridir. Hardansa toplanmış nadir şəkillər kitabda verilmişdir. İndi belədir, həmişə cavan qalmaq olmur.

Əsrimizin sonunda Azərbaycanın gənc yazıçıları ilə görüşə gəlmişəm. Əksəriyyətinizlə şəxsən tanış deyiləm. Təəssüflər olsun ki, sizin əsərlərinizi oxuya bilməmişəm. Həqiqəti etiraf etməliyəm. Ancaq bilirəm ki, həyatımızın ən ağır illərində, əsrin əvvəllərində, yaxud Oktyabr çevrilişindən sonrakı dəyişikliklər dövründə, 1937-1938-ci illərin çətin repressiya şəraitində Azərbaycanda yazıçılar nəsli ara vermədən bir-birini əvəz edib. İtkilər, repressiyalar nəticəsində dünyasını dəyişənlər olubdur. Ancaq yazıçılar nəsli ardıcıl olaraq yaşayıb və inkişaf edibdir.

İndi də biz tariximizin çətin, mürəkkəb keçid dövrünü yaşayırıq. Çox sevindirici haldır ki, bu dövrdə də bizim yazıçılar nəsli daim yaşayır, yaradır, nəsillər arasında boşluq yoxdur.

Dünən mənə dedilər ki, Yazıçılar Birliyinə üzv qəbul olunmaq üçün 100-dən artıq müraciət var. Bu, sevindirici haldır. Çünki indi yazıçıların sosial vəziyyətinə qayğı və yaxud maddi imkanlar keçmişə nisbətən çətinləşib, yaxud da yox dərəcəsinə gəlib çatıbdır. Amma belə bir vəziyyətdə yazıçı və şair olmaq, özünü bu sənətə həsr etmək, yazıçılar ittifaqlarının bəzi yerlərdə, hətta dağıldığı halda bu ittifaqa qəbul olunmaq, ona üzv olmaq istəyən gənclər Azərbaycanda çoxdursa, bu, mədəniyyətimiz və ədəbiyyatımız üçün olduqca sevindirici haldır. [65-66]

Dünən səmimi söhbət etdiyimiz şəxslərin hamısı ilə tanışam. Çünki uzun illərdir ki, bir yerdə olmuşuq, vaxtaşırı görüşmüşük, onların əsərlərinin əksəriyyətini oxumuşam. Amma sizin çoxunuzla ilk dəfədir ki, üzbəüz görüşürəm. Bu da mənim üçün çox əhəmiyyətlidir. Cüman edirəm ki, yaşlı nəsillə olduğu kimi, sizinlə də aramızda əlaqələr yarana bilər və biz ədəbiyyatımızın inkişafı naminə bu əlaqələrdən istifadə edə bilərik. Hesab edirəm ki, görüşümüzün məqsədi bundan ibarətdir. Görüşümüzü konkretləşdirmək üçün indi kimsə nə isə deməli, məlumat verməlidir. Buyurun.

## AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN SƏDRİ ANARIN ÇIXIŞI

Möhtərəm Prezident!

Möhtərəm görüş iştirakçıları!

Hörmətli Prezidentimizin dediyi kimi və sizin bildiyiniz kimi, dünən belə bir görüş oldu. Belə gərgin vaxtda imkan tapıb bu görüşü keçirdiyinə görə dünən prezidentimizə hamımızın adından təşəkkür etdim və indi də gənc yazıçılarla görüşə görə təşəkkür edirəm. Burada ədəbiyyatımıza öz səsi ilə gələn iste-

dadlı şairlərimiz, nasirlərimiz, tənqidçilərimiz toplaşıblar. Bu o demək deyil ki, burada olmayanlar istedadsızdır, yaxud da az istedadlıdır. Hamını dəvət etmək mümkün deyil. Ona görə də istədik ki, Siz bir qrup ilə görüşəsiniz. Onlar qurultayda da iştirak edəcəklər.

Yazıçılar Birliyi cavanlarla bağlı müəyyən işlər görür. Vaqif Yusifli o qədər cavan deyil, amma gənclərin yaradıcılığı ilə məşğul olur. Mən ondan xahiş etdim ki, burada məlumat versin. Yazıçılar Birliyində bir müşavirə keçirdik, orada da tənqidçi, həmin Vaqif Yusifli cavanların yaradıcılığı haqqında danışdı. Sonra gənclərin özləri danışdılar. Cavan yazıçı [66-67] Rafiq Tağının və cavan şair Adil Mirseyidin əsərlərinin müzakirəsini keçirdik. Mən başa düşürəm ki, daha çox iş görmək olardı. Amma indi sezilən işlər bunlardır.

Bundan başqa, Yazıçılar Birliyinin Natəvan adına klubunda «Avanqard» adlı cavanlar birliyi toplaşır. Orada əsasən yaradıcılıq söhbətləri aparırlar, arabir Yazıçılar Birliyini də tənqid edirlər. Mən də bundan çox razıyam. Çünki demokratiyadırsa, tənqid də olmalıdır.

Güman edirəm ki, buraya toplaşanların taleyini heç kəs əvvəlcədən xəbər verə bilməz. Amma mən arzu edərdim ki, onların yaradıcılıq taleyi uğurlu olsun və gələn görüşlərdə, hörmətli Prezident, bugünkü gənclər Sizinlə artıq ağsaqqallar kimi görüşsünlər və onlardan sonra gənc nəsil gəlsin. Hələ ağsaqqal olana qədər onlar cavandırlar, burada çıxış edib öz sözlərini deyə bilərlər.

Mən xahiş edərdim ki, Vaqif Yusifli onların yaradıcılığı haqqında qısa məlumat versin.

### TƏNQİDÇİ VAQİF YUSİFLİNİN ÇIXIŞI

Hörmətli Prezident!

Hörmətli görüş iştirakçıları!

Çağdaş Azərbaycan ədəbiyyatının cavan nəsli ilə keçirilən belə bir görüş, heç şübhəsiz, ədəbitarixi bir görüşdü və belə bir missiyanın yerinə yetirilməsidir.

Hörmətli Prezidentimiz əvvəlki illərdə də cavanların yaradıcılığı ilə ciddi maraqlanmış, onların ayrı-ayrı əsərlərinə, bütöv yaradıcılıqlarına öz münasibətini bildirmişdir.

Yazıçıların X qurultayı ərəfəsində ədəbiyyatımızın gələcəyi olan istedadlı gəncliyin ölkə prezidentinin məsləhət və tövsiyələrini, xeyir-dualarını eşitməsi xoşdur. [67-68]

Qədim yunan filosofu Sokratın belə bir məşhur kəlamı var: «Bircə şey bilirəm ki, heç bir şey bilmirəm». Əslində bu müdrik kəlamı söyləyənə qədər Sokrat çox şey bilirdi, zəmanəsinin ən böyük filosofu səviyyəsinə yüksəlmişdi. Lakin çox bilməyi ilə öyünmürdü və bildiklərini bilmədiklərinin müqabilində dəryadan, ümmandan bir zərrə hesab edirdi.

Bu gün hər bir gəncin söz eşitməyə, öz yaradıcılığı barədə hansısa bir tövsiyəni eşitməyə doğrudan da böyük ehtiyacı vardır. Əlbəttə, onların istedadının, yaradıcılığının daha da çiçəklənməsi, üzə çıxması üçün belə bir görüşdən çox şey gözləyirlər. Hörmətli Prezident, onların adından Sizə öz minnətdarlığımızı bildiririk.

Mən əvvəlcə hörmətli prezidentimizi buradakı gənclərin adları ilə tanış etmək istəyirəm. Burada ədəbiyyatın müxtəlif janrlarında yazıb-yaradan gənclər əyləşiblər. Gənc nasir Mübariz Cəfərlinin bir neçə hekayə və povest kitabı çıxıb. Onun yanında oturan Orxan Fikrətoğlu gözəl şairimiz Fikrət Sadığın oğludur, bir neçə hekayələr kitabının müəllifidir. Daha sonra «Ulduz» jurnalının baş redaktoru, gözəl şairimiz Ələkbər Salahzadə, «Ədəbiyyat qəzeti»nin redaktor müavini, gənc tənqidçi Tehran Əlişanoğlu, gənc şair Əjdər Ol, orijinal yazıları ilə diqqəti cəlb edən gənc şair Salam Sarvan, Əlizadə Nuri, Saday Şəkərli, gənc tənqidçi Nizaməddin Mustafa, gənc şair Yalçın Qoca, gənc şair və tərcüməçi Mahir Qarayev, gənc tənqidçi, ədəbiyyatşünas Şəlalə Həsənova, gənc şairə Mahirə Abdullayeva, yaşı az olsa da öz elmi yazıları ilə professorluq səviyyəsinə çox tez yüksələn tənqidçi, ədəbiyyatşünas Nizami Cəfərov, özünü gənclikdən qətiyyən ayırmayan filologiya elmləri doktoru, professor Rafael Hüseynov. Bu tərəfdən əyləşənlər - Xeyrəddin Qoca, yaradıcılığa yeni başlayan Səyyad Aran.

**H e y d ə r Ə l i y e v:** O, yaşına görə cavan hesab olunur, yoxsa yaradıcılığına görə? [68-69]

**V a q i f Y u s i f l i:** Yaradıcılığına görə.

**H e y d ə r Ə l i y e v:** Yaradıcılığına görə. Ola bilər, yaşı 60 olsun, yeni yaradıcılığa başladığına görə gənc hesab olunsun.

**V a q i f Y u s i f l i:** Daha sonra – lap gənc, istedadlı şair, ilk şer kitabının müəllifi İlqar İlkin, adı çəkilən «Avanqard» ədəbi birliyinin rəhbəri Dəyanət Osmanlı, iki şairə bacımız - Səhər və Təranə, gənc şair Əkbər Qoşalı, cavan şair Mətləb Ağa, bu yaxınlarda 40 yaşını qeyd edən gözəl şairimiz Rüstəm Behrudi.

**H e y d ə r Ə l i y e v:** Neçə yaşını qeyd edib?

**V a q i f Y u s i f l i:** 40 yaşını.

**H e y d ə r Ə l i y e v:** Behrudi, tanıyıram, görüşmüşük.

**V a q i f  Y u s i f l i:** Daha sonra - gənc şair Maarif Soltan, Vaqif Bəhmənli, - o da gəncdir, gənc nasir Saday Budaqlı, tənqidçi Arif Əmrahoğlu, şair Akif Əhmədgil, bu tərəfdən – gənc şairlər Akif Səməd, Musa Urud, Əlabbas Bağırov, tənqidçi Cavanşir Yusifli.

Hörmətli Prezident, əlbəttə, ədəbiyyatı nəsillər üzrə təsnifləşdirmək, cavan, orta nəsil, yaşlı nəsil bölgüləri ilə bir-birindən seçmək, ayırmaq, fərqləndirmək heç bir zaman xeyir verməyib. Müxtəlif dövrlərdə ədəbiyyatda bu cür ayrı-seçkilik bəzən cavanların istedadları qarşısında bir sədd çəkib. Heç şübhəsiz, ədəbiyyatı nəsillər yox, müxtəlif nəsillərin yaratdığı əsərlər, ən yaxşı əsərlər tanıdıb. Yəni ən yaxşı əsərlərin nə cavanı, nə orta yaşlısı, nə də qocası olur. Ən yaxşı əsərlərin əbədisi olur, uzunömürlüsü olur. Amma bir fakt, bir həqiqət danılmazdır ki, ədəbiyyatda şərti mənada işlədilən «yeni nəsil» ifadəsi daha çox ədəbiyyatda yenilik, novatorluq məfhumu ilə çarpazlaşır. Yəni ədəbiyyata yeni nəsil gəlirsə, bu yeni nəsil gərək ədəbiyyata yeni səs, hava, çalar, yeni ideyalar gətirsin. Əgər o, yeni ideyalar gətirirsə, yeni səs ilə fərqlənirsə, bir üslub yeniliyi yaradırsa, fərdi dəsti-xətti ilə [69-70] seçilirsə, - bu, ədəbiyyatda yaşayır, əgər seçilmirsə yaşamır. Ədəbiyyat tarixindən buna çoxlu misal gətirmək olar.

20-ci illərin axırlarını, 30-cu illərin əvvəllərini xatırlamaq kifayətdir. Bu illərdə ədəbiyyata yeni nəsil - Azərbaycan sovet ədəbiyyatının yaradıcıları hesab olunacaq gənclər gəlmişdilər: Şairlərdən Səməd Vurğun, Süleyman Rüstəm, Mikayıl Müşfiq, Məmməd Rahim, Osman Sarıvəlli, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, nasirlərdən Mirzə İbrahimov, Mehdi Hüseyn, İlyas Əfəndiyev, Əbülhəsən, Ənvər Məmmədxanlı və başqaları.

**H e y d ə r  Ə l i y e v:** Rəsul Rzanı yaddan çıxartdın.

**V a q i f  Y u s i f l i:** Üzr istəyirəm, Rəsul Rza.

**A n a r:** Onu mən tapşırmışam, deməsin.

**Heydər Əliyev:** Niyə? Sənin ixtiyarın yoxdur bunu etməyə.

**V a q i f  Y u s i f l i:** Çox keçmədən, elə 30-cu illərin əvvəllərində onlar öz yaradıcılıqları ilə ədəbi mühitdə özlərinə yer tapdılar və bir nəsil kimi formalaşdılar. Müharibə illərində və sonrakı dövrdə ədəbiyyata ikinci bir nəsil gəldi - Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Hüseyn Arif, Qabil, İsmayıl Şıxlı, İsa Hüseynov, Sabir Əhmədli, Hüseyn Abbaszadə, Vidadi Babanlı, Adil Babayev. Çox keçmədən bu nəsil də öz istedadı sayəsində ədəbiyyatın aparıcı qüvvələrinə çevrilməyə başladı.

50-ci illərin ortaları, 60-cı illərin əvvəllərində Azərbaycan ədəbiyyatının müxtəlif nəsilləri içərisində yeni bir nəsil seçilməyə başladı – Əli Kərim, Məmməd Araz, Nəriman Həsənzadə, Xəlil Rza, Cabir Novruz, Fikrət Sadıq, Yusif Səmədoğlu, Anar, Fikrət Qoca, Əkrəm Əylisli, Tofiq Bayram, Fərman Kərimzadə, İsi Məlikzadə, Elçin, İsa İsmayılzadə, Ələkbər Salahzadə. Bu nəsil öz yaradıcılığı ilə ədəbiyyatımızı xeyli zənginləşdirdi.

Daha sonrakı onillikdə, 70-ci illərdə də ədəbiyyat beləcə - yeni səslər, nəfəslər, yeni hava ilə diqqəti cəlb etdi. Nəhayət, [70-71] bu gün buraya toplaşan ədəbi gəncliyi yeni nəsil hesab etməyə tam mənəvi haqqımız var. Mən bu gün bir tənqidçi kimi bu ədəbi nəsil haqqında bədgüman deyiləm. Yəni çağdaş Azərbaycan ədəbiyyatının bu cavan qolu sənətin sabahına, XXI əsrin ədəbiyyatına müəyyən dərəcədə bir inam yaradır. Bu inamı onlar öz yaradıcılıqları ilə, dünyaya, gerçəkliyə, həyata yeni, orijinal baxışları ilə yaratmışlar.

Onların içərisində ola bilsin, ədəbiyyat aləmində, sənət aləmində müəyyən mənada hələ öz cığırını çox çətinliklə tapan, hələ eksperimentlərə uyan, axtarışlar aparan gənclər var. Ümumiyyətlə, ədəbi proses, ədəbiyyat çox çətin, əzablı, üzüntülü prosesdir. Ədəbiyyatda möhkəmlənmək o qədər də asan deyil. Mən gənclərin yaradıcılığını sırf ayrıca bir kontekstdə, yaxud ədəbiyyatın ümumi kontekstində izləyəndə belə bir qənaətə gəlirəm ki, ölkədə, məmləkətdə baş verən bütün bu çətinliklərə, məhrumiyyətlərə, ağrılara baxmayaraq, bizdə maraqlı bir ədəbi nəsil yetişir. Bu cavan nəsil özündən əvvəlki ədəbi ənənələrə arxalanaraq, onlardan güc alaraq, faydalanaraq üzü gələcəyə doğru gedir, bu ənənələri yaşada-yaşada tarixi bir missiyanı yerinə yetirir. Bir tərəfdən bizim xalq şerimizə, aşıq şerimizə söykənən cavanlar var, - onlardan istifadə edirlər, aşıq şerini sanki yeni biçimdə, yeni formada dirçəldirlər. Bir tərəfdən klassik ədəbiyyatımıza üz tutulur. Bir tərəfdən uzun müddət bizdə yasaq edilmiş azərbaycanlılıq, türkçülük ideyaları haqlı şəkildə qabardılır. Bu şerlər bizi öz kökümüzə, ilkinliyimizə qayıtmağa səsləyir. Eyni zamanda Qərb ədəbiyyatından, Qərb poeziyası ənənələrindən istifadə edilir. Halbuki əvvəllər bir çox şairlərimizi buna görə qınayırdılar.

Azərbaycan ədəbiyyatı sırf özünə qapılmış ədəbiyyat deyildir. Azərbaycan ədəbiyyatı həm milli kökləri ilə, həm də başqa xalqların ədəbiyyatından istifadə yolu ilə yaşayan, özünü yaşadan, milli varlığını sübut edən bir ədəbiyyatdır ki, [71-72] bizim ədəbiyyatımızın cavan qolu bu ənənələri yaşada bilir. Əsasən 80-cı illərdə, 90-cı illərin əvvəllərində ədəbiyyata gələn bu gənclərin taleyi çox ağır, üzüntülü prosesdən keçdi. Onlar yazmaqdan, düşünməkdən daha çox, xalqın ağrı-acıları ilə yaşadılar, yurd itkisinə, torpaq ağrısına göynəyib, çörək dərdi çəkdilər. Onlar hətta şəhid verdilər. Bizim iki şəhid şairimiz (bəlkə də üçdür, üçüncüsünü bilmirəm) – Nizami Aydın, Ülvi Bünyadzadə kimi şairlərimiz vardı. Mən deyərdim heç bir ədəbi nəsil bu qədər mürəkkəb, dramatik, faciəli tale yaşamamışdır, həyat heç bir ədəbi nəsli bu qədər sıxmamışdır, sınağa çəkməmişdir. Ona görə də onların şerlərində, nəsr əsərlərində kədərin, hüzn və ələmin,

ağrının olması təbiidir. Nə yaxşı ki, bu ağrı, bu hüzn, ələm, bu kədər heç də sırf nostalgiyadan irəli gəlmir. Bu eyni zamanda dərdin böyüklüyündən, 20 Yanvar faciəsindən, Xocalı soyqırımından, məmləkətimizin düşdüyü ağır vəziyyətdən irəli gəlir və onların şerlərində yaşayır.

Ustad şairimiz Rəsul Rza vaxtilə yazmışdı:«Şer yazan cavanlar arasında ilhamla, istedadla ədəbiyyata gələnlər olduğu kimi, adicə həvəsə düşüb gələnlər də var». İnsanda mövcud olan bütün bacarıq və qüvvə, adətən, gənclik dövründə sürətlə üzə çıxır. Belə bir vaxtda ilk hekayəsini, şerini, mahnısını bəstələmiş, ilk lövhəsini çəkmiş bir gənc sənətkara kömək etmək, qayğı göstərmək lazımdır. Mən bir də ustad şairimizin «qayğı sözü, qayğı özü» məşhur kəlamını yada salmaq istəyirəm. Gənclərin yaradıcılığından söz düşəndə bu ifadə aforizm kimi səslənir. Bəzən «qayğı» sözünü işlədiblər, lakin gənclərə qayğı göstərməyiblər. Eyni zamanda bu sözü real və praktiki şəkildə həyata keçirmək barədə düşünüblər, bəzən də düşünməyiblər.

Hörmətli prezident, bu gün bilavasitə ədəbi gəncliyin qayğıları və problemləri ilə bağlı mən ancaq bir məsələni Sizin nəzərinizə çatdırmaq istəyirəm. Ola bilsin, bizim gənclərimiz – [72-73] cavan şairlər, yazıçılar onları düşündürən qayğılarla, problemlərlə əlaqədar öz sözlərini deyəcəklər. Qoqolun belə bir sözü var: «Gənclik ona görə xoşbəxtdir ki, onun gələcəyi var». Gələcəyimiz, yəni ədəbiyyatımızın gələcəyi doğrudan da bu gənclikdən asılıdırsa, onda bu gəncliyin ümumi yaradıcılıq problemlərinin həllinə yönəldilmiş səylər bir yerdə birləşməlidir. Vaxtilə bizdə «Ulduz» jurnalı nəşr olunurdu. İndi maliyyə çətinlikləri üzündən həmin jurnalın ildə bir nömrəsi çıxır.

60-cı illərin axırlarını, 70-ci illərin əvvəllərini yadımıza salaq. Həmin dövrdə ədəbiyyata gələn və indi onun aparıcı qüvvəsinə çevrilən Anar, Əkrəm Əylisli, İsi Məlikzadə, başqa yazıçılarımız, şairlərimiz məhz həmin jurnalda formalaşdılar, böyük ədəbiyyat meydanına gəldilər. «Azərbaycan» jurnalı da müəyyən mənada bu missiyanı yerinə yetirirdi. Ancaq «Azərbaycan» jurnalında daha çox yaşlı sənətkarların yazıları çıxırdı. «Ulduz» jurnalı isə ancaq gəncliyi öz ətrafında birləşdirirdi. Bu funksiyanı o, 1993-cü ilə qədər yerinə yetirdi. İndi həmin jurnal çox ağır vəziyyətdədir. Yəni tək «Ulduz» jurnalını demirəm. Gənclərin yaradıcılıq səylərini qiymətləndirmək üçün «Ulduz», belə bir jurnal mütləq lazımdır.

Mən Fikrət Qocanın 1995-ci ildə keçirilən yubileyini xatırlayıram, orada «Azərbaycan» jurnalından və «Ədəbiyyat qəzeti»ndən söz düşdü. «Azərbaycan» jurnalı 1992-ci ildən bəri fasilələrlə çıxırdı. 1995-ci ildə həmin jurnalın bir nömrəsi nəşr olundu. 1923-cü ildən bəri çıxan və Azərbaycan ədəbiyyatının güzgüsü adlandırılan həmin jurnal bu kökə düşmüşdü. Belə bir məqamda hörmətli prezidentimizin bir sözü ilə jurnal yenə öz axarına düşdü. «Ədəbiyyat qəzeti» də hər həftə çıxır. «Qobustan» jurnalı da daxil olmaqla bu üç ədəbi nəşrin çıxması ədəbiyyatın yaşaması deməkdir. Ədəbiyyat jurnallarda yaşayır, jurnal-qəzet ədəbiyyatın güzgüsüdür, saf aynasıdır. Məhz ədəbi gəncliyi də bu nəşrlər [73-74] ətrafında birləşdirmək, səyləri bu istiqamətə yönəltmək daha məqsədəuyğundur.

Mən çıxışımı hörmətli Prezidentə yenə də öz minnətdarlığımı bildirməklə bitirirəm. Böyük Hüseyn Cavidin bir misrası yadıma düşür:«Türkün nicatı - yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət». Mədəniyyətimizi yaşatmaq istəyiriksə, onun bir qolu da bizim cavan şairlərdir, yazıçılardır, sənətçilərdir, bəstəçilərdir. Ümid edirəm ki, mədəniyyətimiz yaşayacaq, XXI əsrdə də öz ənənələrini davam etdirəcəkdir.

**H e y d ə r  Ə l i y e v:** Çox yaxşı məruzə elədi. Hesab edirəm ki, bu, elə qurultayın məruzəsidir. Bu, sənin edəcəyin məruzənin əsasıdır.

**A n a r:** Mən məruzə etməyəcəyəm, giriş sözü deyəcəyəm. Dörd məruzə olacaq, onlardan ikisini cavanlar edəcəkdir.

**H e y d ə r  Ə l i y e v:** Yaxşı məruzə etdi, hesab edirəm, yaxşı məlumat verdi. Çox gözəl. Dünən söhbətimiz iki saatdan çox - iki saat yarım çəkdi.

**F a t m a  A b d u l l a z a d ə** (*Prezidentin İcra Aparatının şöbə müdiri*)**:**İki saat 45 dəqiqə.

**H e y d ə r  Ə l i y e v:** İki saat 45 dəqiqə. İndi bu gün də yəqin iki saat burada ola bilərik. Mən iki saat ayırmışam. Bəlkə də çox oldu. Amma elə edin ki, çox olmasın. Mənim başqa işlərim də var. Bunun özü qurultayın parçalarıdır. Kim söz demək istəyir, kimin sözü var?

Birincisi, dərhal «Ulduz» jurnalı haqqında demək istəyirəm. Dediniz ki, jurnal ildə bir dəfə çıxır. Niyə? Vəsait çatmır?

**A n a r:** Bəli, vəsait çatmır.

**H e y d ə r  Ə l i y e v:** Aydındır. İldə neçə dəfə çıxara bilərsiniz?

**V a q i f  Y u s i f l i:** On iki dəfə.

**H e y d ə r  Ə l i y e v:** Jurnalın bu qədər nömrəsini buraxmaq üçün əsərləriniz var? [74-75]

**A n a r:** Yox, on ikiyə çatmaz. Altı nömrə buraxmaq olar. Əgər vəsait olarsa.

**H e y d ə r  Ə l i y e v:** Altı nömrə. Yaxşı, bunu mən nəzərə alaram.

**E l ç i n:** Bunlar aylıq jurnallardır.

**H e y d ə r  Ə l i y e v:** Bilirəm, aylıq jurnallardır.

**E l ç i n:** «Ulduz» jurnalında, mən elə hesab edirəm ki, doğrudan da bir-birindən seçilən, müxtəlif istiqamətli, Vaqif Yusiflinin dediyi kimi, müxtəlif təmayüllərdə işləyən cavanlar var. Ələkbər Salahzadə «Ulduz» jurnalının baş redaktorudur. Əvvələn, çox istedadlı şairlərdən biridir, ikincisi də, bu işləri bilən

bir adamdır. Mən belə hesab edirəm ki, əgər Siz «Azərbaycan» jurnalına, «Qobustan»a, «Ədəbiyyat qəzeti»nə elədiyinizi «Ulduz» jurnalına da etsəniz, onda bu jurnalın ayda bir dəfə çıxmaq imkanı olar. Yəni 70-ci illərdə, Sizin o vaxtınızda yaranmış ənənə davam edə bilər.

**H e y d ə r  Ə l i y e v:** Axı dedilər ki, «Azərbaycan» jurnalı çıxır, lakin tirajı azdır. Elədirmi?

**E l ç i n:** Bəli, tirajı azdır.

**H e y d ə r  Ə l i y e v:** Niyə azdır? Kağız çatmırmı, yoxsa jurnal satılmır? Səbəbi nədir?

**A n a r:** Əvvələn, vəsait çatmır, ikincisi də maraq azalıb. Hətta jurnalın çıxan nömrələri bəzən satılmır. «Ulduz» və «Azərbaycan» jurnallarının ildə 12 nömrəsi buraxılsa daha yaxşı olardı. Amma mən reallığı bilirəm və deməliyəm ki, «Azərbaycan» jurnalı bədii meyarları nəzərə almaq şərtilə yalnız ildə altı nömrə buraxıla bilər. Əgər indiki ədəbi qüvvələrlə 12 nömrənin buraxılmasını təmin edə bilərlərsə, necə deyərlər, «kor nə istər, - iki göz, biri əyri, biri düz». Mən reallıqdan çıxış edərək bunu deyirəm.

**H e y d ə r  Ə l i y e v:** Mən belə bir fikrə gəlirəm ki, bəlkə də biz bu jurnalları, bu əsərləri televiziya vasitəsilə yaxşı təbliğ etmirik. Bir var ki, ayrı-ayrı əsərlər barədə ədəbi verilişlər [75-76] hazırlansın, bir də var ki, jurnalın hər bir nömrəsi təbliğ olunsun, orada dərc edilən əsərlərin məzmunu haqqında məlumat verilsin. Yəni insanlarda marağı artırmaq üçün. Televiziyada deyilsə ki, «Ulduz» jurnalı çıxıbdır, orada bu hekayə, şer dərc olunubdur, - onda oxucuların da marağı artacaqdır. Həyat keçən dövrə nisbətən çətindir. İnsanları da qınamaq olmaz, bəziləri necə yaşamaq haqqında fikirləşir. Ancaq mən hesab edirəm ki, biz bu təbliğatı da gücləndirsək yaxşı olar. Yaxşı, bu problemi mən həll edərəm.

**F a t m a  A b d u l l a z a d ə:** Cənab Prezident, başlıca şərtlərdən biri ondan ibarətdir ki, bu jurnalların poliqrafik səviyyəsi yüksəldilməlidir. Açıq deyək ki, müasir oxucu yüksək poliqrafik səviyyədə çap olunmuş jurnalları izləyir.

**H e y d ə r  Ə l i y e v:** Bəli.

**F a t m a  A b d u l l a z a d ə:** Vaxtilə qəzet kağızında çap olunan maraqlı bir romanı birnəfəsə oxuyurdular. Amma bu gün hansısa bir firmanın buraxdığı «Biznes daycest» poliqrafiya baxımından müqayisəolunmaz dərəcədə yüksək səviyyədə çıxır. Bu jurnallarla bağlı olaraq, poliqrafiyada dönüş yaranmalıdır.

**H e y d ə r  Ə l i y e v:** Daha kimin nə sözü var?

**T ə r a n ə  H a c ı l ı** (*«Qar çiçəyi» ədəbi birliyinin üzvü*): Möhtərəm Prezident, Siz qeyd etdiniz ki, ən populyar kütləvi informasiya vasitəsi kimi, televiziyanın bu sahədə mühüm rolu ola bilər. Mən bir təklif vermək istərdim. Ümumiyyətlə, indi televiziyada gənclik dedikdə daha çox rəssamlar, idmançılar, müğənnilər təbliğ olunurlar. Çox təsadüfi hallarda ədəbi gəncliyə yer verilir. Təklif edirəm ki, əgər mümkünsə televiziya verilişlərindən biri ədəbi gənclik üçün ayrılardı və bu televiziya verilişini ənənəvi qaydada diktorlar, yaxud telejurnalistlər deyil, ədəbi gəncliyin özü təqdim edəydi.

**H e y d ə r  Ə l i y e v:** Yaxşı təklifdir, çox gözəl təklifdir. Hesab edirəm ki, bunu etmək olar. Bunu da mən qəbul [76-77] edirəm, yəni mən bizim dövlət televiziyasına sərəncam verərəm. Mən 60-cı, 70-ci illəri xatırlayıram. O vaxt televiziyada bütün nəsillərdən olan, o cümlədən gənc nəsildən olan yazıçılarımız, şairlərimiz tez-tez çıxış edirdilər. Elə sizin özünüz televiziyada tez-tez çıxış edirdiniz, öz əsərləriniz haqqında, ümumiyyətlə, ədəbiyyat problemləri haqqında danışırdınız. Ədalət naminə demək lazımdır ki, son vaxtlar bizim televiziyanın işləri yaxşılaşıbdır. Mənim fikrim belədir. Gənclər haqqında cürbəcür çoxlu verilişlər verirlər. Hətta orada evlənmək problemi haqqında da maraqlı bir veriliş göstərildi. Televiziya belə məqamlara toxunursa, bu, çox gözəldir. Həyatda elə sahələr var ki, keçmişdə biz adətən bu barədə danışmırdıq. Guya ki, bundan danışmaq ayıbdır və ya insanlar utanırlar. Guya ki, heç kim evlənmir. Amma hər bir gənc sevir, hər bir gənc tanış olur - qız oğlanla, oğlan qızla, hər bir gənc evlənir. Belə olmasa həyat olmaz ki! Yaxşı. Bu, çox lazımlı mövzudur. İndi mən televiziyaya daim baxa bilmirəm. Təsadüfən bir-iki dəfə televiziyada gəncliklə bağlı belə verilişlərə baxarkən çox sevindim. Özü də adi adamları televiziyaya gətirirlər, onlar həyatları haqqında danışırlar. Bunlar çox gözəldir.

Yəni bu mənada deyirəm ki, bəlkə də mənim tam təəssüratım yoxdur, çünki hamısını əhatə edə bilmirəm. Amma gördüklərimdən belə nəticəyə gəlirəm ki, gəncliklə əlaqədar çox yaxşı verilişlər verilir. Bu, təkcə gəncliyə aid deyil. Hesab edirəm ki, bizim ədəbiyyatımızla, bədii əsərlərimizlə əlaqədar verilişlər verilməlidir. Özü də onlar daimi, silsilə verilişlər olmalıdır. Yaxşı olardı ki, burada deyildiyi kimi, şairlər, yazıçılar danışsınlar, özləri öz şerlərini oxusunlar, hekayələri haqqında məlumat versinlər, tənqidçilər, ədəbiyyatşünaslar bu verilişlərdə iştirak etsinlər. Bunu etmək lazımdır. Düzgün təklifdir. [77-78]

## ŞAİR RÜSTƏM BEHRUDİNİN ÇIXIŞI

Prezidentimiz dedi ki, məni tanıyır. Biz Naxçıvanda görüşmüşük.

**H e y d ə r  Ə l i y e v:** Behrudi, ordubadlısan da?

**R ü s t ə m  B e h r u d i:** Bəli, ordubadlıyam.

**H e y d ə r Ə l i y e v:** Özü də soruşdum ki, bu Behrudi nədir? Dedin ki, kəndimizin adıdır. Yadındadırmı?

**R ü s t ə m B e h r u d i:** Bəli, yadımdadır. Sizə o vaxt kitablarımı da bağışlamışdım.

**H e y d ə r Ə l i y e v:** Bağışlamışdın.

**R ü s t ə m B e h r u d i:** Siz o vaxt Türkiyədən gəlmiş valiyə dediniz, o məni Ankaraya apardı. İndi mən başqa məsələdən danışmaq istəyirəm. On il bundan əvvəl, bilmirəm, Anar müəllimin, yoxsa Əkrəm müəllimin Hollandiya ilə bağlı bir yazısını oxumuşdum.

**A n a r:** Mən Hollandiyada olmamışam.

**R ü s t ə m B e h r u d i:** Ola bilsin ki, Əkrəm müəllimin yazısı idi. Sizin nəsildən olan bir yazıçının sözləri idi ki, Hollandiyada bir hekayəsi çap olunan müəllif ölənə qədər dövlətin nəzarətinə götürülür və ona kömək edilir. Ola bilsin ki, orada istedadlı adam azdır, amma Azərbaycanda çoxdur. Anar müəllim, bir il bundan əvvəl Tofiq Qaraqayaya və Əlisəmid Kürə Yazıçılar Birliyi ev verib. Onlar məndən xahiş etdilər möhtərəm prezidentə deyim ki, onların mənzil məsələsi həll olunsun. Bütün ömürləri boyu kirayədə yaşayan bu adamların mənzillərini qaçqınlar tutublar. Mən özüm də qaçqın kimiyəm, heç vaxt evim-eşiyim olmayıbdır. Özümə ev istəmirəm, heç kimə ehtiyacım yoxdur.

**H e y d ə r Ə l i y e v:** Evin-eşiyin olmayıb, amma qaçqın deyilsən? [78-79]

**R ü s t ə m B e h r u d i:** Ordubadda evim var, istəsəm gedib orada yaşayaram. Ancaq bu adamlar məndən xahiş etdilər ki, mən bu sözü burada işlədim. Möhtərəm prezidentə deyim ki, bunu həll etsin. Bu onlar üçün çox böyük problemdir.

**A n a r:** Sən yaxşı mənim yadıma saldın. Mən ev məsələsini ona görə qaldırmadım ki, dünən prezidentlə bu barədə söhbət olub. Bu iki nəfər ki var - Əlisəmid Kür və Tofiq Qaraqaya, bunlara mənzil veriblər, qaçqınlar isə gəlib tutublar. Problem bundar ibarətdir.

**R ü s t ə m B e h r u d i:** Mənim xoşum gəldi ki, burada məddah şair, yazıçı görmədim. Mən bir dəfə qəzetdə yazmışdım ki, Azərbaycanın bütün məddah şairləri və yazıçılarının hamısının adından bu millətdən üzr istəyirəm. Bir də görürsən ki, küçədən keçənin biri götürüb Heydər Əliyevə şer yazır.

Mən ürəyimdən keçən sözləri demək istəyirəm. Prezidentimizin ona ehtiyacı varmı? Dünya-aləm bilir ki, Heydər Əliyev kimdir. Onu da bəyanirəm ki, prezidentin haqqında məddahlığa yol verməmək barədə rəsmi göstəriş var. Bütün nəsillər bilir ki, Heydər Əliyev kimdir. Çox sevinirəm ki, o məddahları burada görmədim.

Yazıçılar İttifaqının rolundan danışmaq istəyirəm. Mən dünyanın bir neçə ölkəsində - Almaniyada, Belçikada olmuşam, bu ölkələrdə kitablarım çıxıb. Orada Yazıçılar İttifaqı kimi dövlət səviyyəli heç bir qurum görmədim. Türkiyədə Yazıçılar Birliyi var, amma dövlətin deyil. Beş-on yazıçı bir yerə toplaşaraq belə bir cəmiyyət yaradır. Bəlkə bizdə də lazımdır, - mən belə fikirləşirəm. Bəlkə heç lazım deyil. Anar müəllimin vaxtında mən Yazıçılar İttifaqının üzvü olmuşam. Bu təşkilatdan heç nə görməmişəm…

Anar müəllim, mən bilmək istəyirəm, - bu Yazıçılar İttifaqı lazımdır, ya yox? Mən bunu Yazıçılar İttifaqının üzvlərindən soruşmaq istəyirəm. [79-80]

Müharibə dövründə mən cəbhəyə çox gedib-gəlirdim. Avtomatım da vardı. Sədərəyə getmişdim. Anar müəllim də orada idi. Cəbhədə bir nəfər şair və yazıçını döyüşçü kimi görmədim. Mən Tərtərdən vurub Qazaxdan çıxırdım. Əslində hamımız getməliydik. Mən üzr istəyirəm, əsgəri girdiyi torpaqdan yalnız əsgər çıxara bilər.

Bu gün Heydər Əliyev müharibəni saxlayıb, barışığa getmək istəyir. Amma barışıq yolu uzun bir yoldur.

Vətənimizin indiki ağır dövründə hər birimiz döyüşçü olmalıyıq. Hər bir şair döyüşçüdür, qabaqda getməlidir. Məsələn, rəhmətlik Rəsul Rza, Səməd Vurğun o vaxt cəbhəyə gedirdi. Bizim birimiz də cəbhədə ölmədik.

Öz yaradıcılığım barədə onu bildirmək istəyirəm ki, çoxlu kitablar yazmışam, bunlar alman, fransız dillərində də nəşr olunubdur.

Möhtərəm Prezident, qardaşımın öldürülməsi məsələsinin araşdırılmasında kömək göstərməyinizi xahiş edirəm.

Qələm dostlarımın məişət məsələlərinə toxunaraq demək istəyirəm ki, burada oturan cavanların çoxunun evi-eşiyi yoxdur. Anar müəllim, siz bunu bilirsiniz. Burada əyləşənlər Azərbaycanın milli sərvətidir. O adamlar hamısı küçədədir.

Mən bunlarla bir yerdə oturub-duran, onların halına yanan adamam. Bu adamlara kömək etmək lazımdır. Azərbaycanın gələcəyi bir sərhəddə keşik çəkən döyüşçüdən, bir də bu adamlardan asılıdır.* [80-81]

---

* Görüşdə şairə Mahirə Abdullayeva, şair Əjdər Ol, yazıçı-jurnalist Səyyad Aran, filologiya elmləri doktoru, prof.Nizami Cəfərov, tənqidçi Şəlalə Həsənova, yazıçı, filologiya elmləri doktoru, prof. Rəfael Hüseynov, şair Musa Urud, şair İlqar İlkin, Dəyanət Osmanlı, Salam Sarvan da çıxış etmişlər.

## YEKUN SÖZÜ

Burada söz deyən gənc yazıçılarımızın, şairlərimizin hamısı Azərbaycan ədəbiyyatının varlığı, onun bu günü və gələcəyi haqqında mülahizələrini bildirdilər. Mən bugünkü görüşdən belə bir nəticəyə gəlirəm ki, Azərbaycan ədəbiyyatı bizim həyatımızın, tariximizin bütün mərhələlərində olduğu kimi, bu mərhələdə də yaşayır və öz tarixi missiyasını yerinə yetirir.

Bizim xalqımız ən qədim zamanlardan ədəbiyyatla, ədəbiyyat nümunələri ilə tanınıbdır. Hətta Qərb ölkələrinin, inkişaf etmiş digər ölkələrin tarixini vərəqləyərkən görürük ki, xalqımızın yaratdığı ədəbi əsərlər, şerlər onlardan xeyli əvvəl yaranıbdır. Beləliklə də, bir daha aydın olur ki, xalqımızın tarixində ədəbiyyat qədim dövrlərdən öz yerini tutubdur və xalqımızın inkişafında çox böyük rol oynayıbdır.

Doğrudur, tarixin cürbəcür mərhələlərində ədəbiyyatın çox güclü inkişaf dövrü də, süqut dövrü də olubdur. Biz enişli-yoxuşlu bir tarix keçmişik, ancaq ədəbiyyatımız yaşayıbdır. Əgər indi biz «Kitabi-Dədə Qorqud» dastanının 1300 illiyini qeyd ediriksə və bunu bütün dünyaya bəyan ediriksə, demək, bizim bədii sözümüzün 1300 illik tarixi göz qabağındadır. Ədəbiyyatı, şeri, bədii sözü yaradan insanlar, şübhəsiz ki, fitri istedada malik olublar. Onlar xalqına, millətinə, dilinə, dininə, milli ənənələrinə sadiq insanlar olublar, yazıblar, yaradıblar. Ona görə də bizim ədəbiyyatımız daim yaşayacaqdır. Ayrı-ayrı dövrlərin çətinlikləri ədəbiyyatı heç vaxt nə söndürə bilər, nə öldürə bilər, nə də onu zəiflədə bilər.

İndiki dövr keçid dövrüdür. Biz bu keçid dövrünün çətinliklərini bütün sahələrdə hiss edirik, görürük. Şübhəsiz ki, bu çətinliklər mədəniyyət, ədəbiyyat sahəsində də var. Ancaq bu müvəqqətidir, tarixi nöqteyi-nəzərdən bir andır, müvəqqəti bir dövrdür. Biz bu dövrü keçib gedəcəyik. Biz sadəcə, buna dözməliyik, bu dövrün əzab-əziyyətini, ağrı-acısını çəkməliyik [81-82] ki, gələcəyimiz daha gözəl, parlaq olsun. Heç şübhə yoxdur ki, Azərbaycan xalqının gələcəyi gözəl, parlaq olacaqdır. Bunun əsas, bizim ən böyük tarixi nailiyyətimiz - Azərbaycanın müstəqil dövlət olmasıdır. İndi bəlkə də hər bir kəs bu müstəqilliyi lazımi qədər dərk edə, qiymətləndirə bilmir. Ancaq zaman gələcək, hamı anlayacaqdır ki, bu müstəqillik, milli azadlıq bizim xalqımız üçün nə qədər dəyərli və əvəzsizdir.

Xalqın gələcəyi, xalqın öz tarixini, keçmişini dərk etməsi və gələcək yaşayışını qurması üçün əldə etdiyimiz dövlət müstəqilliyi, milli azadlığımız əvəzsiz bir hadisədir. Ona görə də biz bunun naminə hər bir çətinliyə dözməliyik. Bu o demək deyil ki, biz müstəqillik naminə nəyi isə itirməliyik, yox. Biz bu dövrün imkanlarından istifadə edib işlərimizi daha da yaxşı qurmalıyıq, bu müstəqilliyin bütün sahələrdə bəhrələrini görməliyik. Ola bilər bu, bir sahədə bir az tez olsun, bir sahədə gec olsun,- bunun fərqi yoxdur, bu olacaqdır. Bu da yalnız və yalnız çalışmağın, gərgin işin, fədakarlığın nəticəsində ola bilər. Ədəbiyyat, mədəniyyət isə həmişə fədakarlıqdan doğan bir anlayışdır. Ədəbiyyatı, mədəniyyəti, bədii əsərləri, yüksək incəsənət əsərlərini yaradan insanlar həmişə fədakar olurlar. Onlar fitri istedadı ilə bərabər fədakar olmasalar, böyük sənətkar da ola bilməzlər.

Siz gənclər bunu bilirsiniz, amma daha dərindən bilməlisiniz ki, ən qədim dövrlərdən bizə gəlib çatmış, indi fəxr etdiyimiz ədəbiyyat əsərlərinin - Nizaminin, Nəsiminin, Füzulinin, Vaqifin, Mirzə Fətəli Axundovun, yaxud digərlərinin əsərlərinin heç birisi asanlıqla yaranmayıb. Heç də hamı bilmir ki, bu əsərlərin yaranması üçün onlar nə qədər zəhmət, əziyyət çəkiblər, nə qədər fədakarlıq göstəriblər.

Məsələn, bizim XX əsr ədəbiyyatımızda ən fəxr etdiyimiz şəxsiyyətlər Sabirdir, Cəlil Məmmədquluzadədir. Əgər biz Nizaminin, Füzulinin həyatını ətraflı bilmiriksə, nəyisə [82-83] mülahizə ediriksə, amma bunların ki, həyatını bilirik. Sabirin də, Cəlil Məmmədquluzadənin də, Cəfər Cabbarlının da, Hüseyn Cavidin də həyatını bilirik. Bunların hər biri öz fitri istedadı ilə böyük qəhrəmanlıqlar göstəriblər. Əsərlər yaradıblar, böyük irs qoyub gediblər.

Ümumiyyətlə, XX əsr elə başlanğıcından sonunadək çox çətin bir əsr, ağır bir dövr olubdur. Doğrudur, XX əsrin sakit dövrləri də olubdur. Amma qalmaqallı, qarışıq, çətin, ağır dövrləri daha çox olubdur. Bizim qismətimizə nə düşübdür? Biz bunun bir çox hissəsini görmüşük. Məsələn, bizim nəsil, - mən öz nəslimi deyirəm, - biz 30-cu illərin ağırlıqlarını da görmüşük, 40-cı illərin, müharibə illərinin çətinliklərini də görmüşük, sonrakı illərin çətinliklərini də. Eyni zamanda 1960-1970-1980-cı illərdə yaranmış müsbət şəraiti də görmüşük. 1980-cı illərin sonundan başlayaraq Azərbaycan üçün ağır bir dövr başlanıbdır. Bu, bir tərəfdən Ermənistanın Azərbaycana etdiyi təcavüz nəticəsində meydana gəlibdir. İkinci tərəfdən, Sovetlər İttifaqının dağılması və beləliklə, Azərbaycanın öz müstəqilliyini əldə etməsi prosesi baş vermişdir. Bu proses zamanı respublikamızın daxilində millətimizə, cəmiyyətimizə zərər vurmuş hadisələr də olmuşdur. Görürsünüz, bunlar hamısı XX əsrdə cəmlənibdir. Amma deyilən bütün bu dövrlərdə bizim adamlarımız yaşayıblar, Sabir də, Cəlil Məmmədquluzadə də, Cəfər Cabbarlı da, onlardan sonra gələn nəsillər də yazıb-yaradıblar. Siz də yazırsınız, yaradırsınız.

Mən 1960-1970-ci illəri, xüsusən 1970-ci illəri və 1980-ci illərin birinci yarısını xatırlayıram. Bu, çox məhsuldar bir dövr idi. Amma mən bundan sonrakı dövrləri də xatırlayıram. Ola bilər, bir dövrdə bir az çox yazılır, bir dövrdə az yazılır. Ancaq ədəbiyyat yaşayır və yaşayacaqdır.

Bu gün məni sevindirən odur ki, bizim gənc nəslimiz vardır. Biz bəzən sənət ustalarına hədsiz vurğun oluruq, sənət [83-84] ustasının, yaxud böyük bir ədəbiyyat xadiminin olması bizi sevindirir. Düşünürsən ki, bundan sonra nə olacaqdır? Amma görürsən ki, ondan sonra yeni, ona bənzər, bəlkə ondan da parlaq bir insan gəlir. Bu, bizim xalqımızın nə qədər böyük istedada, fitri potensiala malik olmasını göstərir. Biz bununla fəxr edə bilərik ki, xalqımız həqiqətən çox istedadlı xalqdır, xüsusən ədəbiyyat, mədəniyyət sahəsində çox istedadlı xalqdır. Biz özümüz bunu bəlkə də istənilən qədər qiymətləndirə bilmirik. Elə təkcə XX əsrdə bizim məşhur şairlərimizin, yazıçılarımızın hamısının adını sayıb çatdırmaq mümkün deyil. XX əsr nədir ki, 100 ildir. Amma xalqımız bu əsrdə dünyaya və millətimizə nə qədər böyük insanlar bəxş edibdir. Ona görə də bu gün gənc nəslin ədəbiyyata belə böyük marağı, həvəsi və yazmaq arzusu çox sevindiricidir.

Mən gənc nəsil üçün bir məsələni də demək istəyirəm. Sizin üstünlüyünüz nədir? Siz artıq müstəqil Azərbaycanın yazıçıları, şairlərisiniz və sərbəst, azad, müstəqil bir dövlətdə yaşayırsınız. Mən keçmişimizi heç vaxt pisləməmişəm və heç vaxt pisləməyəcəyəm. Tarixdə həmişə böyük nailiyyətlərlə itkilər, müsbət və mənfi hadisələr yan-yana olubdur.

Hər şey heç vaxt tam gül-çiçək içində olmayıbdır. Biz keçmişdə hansı itkilər vermişik, amma hansı nailiyyətlər də əldə etmişik - hamısı məlumdur. Ona görə də keçmişi pisləmək lazım deyil. Keçmişdə pis olana pis, yaxşı olana yaxşı demək lazımdır. Mən belə fikirdəyəm. Ancaq bununla yanaşı, bizim keçmişimizdə nə qədər yaxşı nailiyyətlərimiz, ədəbiyyat, mədəniyyət sahəsində əsərlərimiz olsa da hesab edirəm ki, gələcəyimiz onlardan qat-qat üstün olacaqdır. Çünki biz artıq müstəqil dövlətik, xalqımız azaddır. Bu, hər şeydən üstündür.

Şübhəsiz ki, biz keçmişdə əldə etdiyimiz nailiyyətlərdən, yaranmış əsərlərdən daim istifadə edəcəyik. Səməd Vurğunun, Rəsul Rzanın, Süleyman Rüstəmin, Mehdi Hüseynin, [84-85] Süleyman Rəhimovun, Mirzə İbrahimovun əsərlərini heç kəs heç vaxt unutmayacaqdır. Əksinə, onlarda olan bədiilik, yüksək səivyyəli sənət nümunələri bizim üçün həmişə böyük sevinc mənbəyi, yazıçılarımız, şairlərimiz, ədəbiyyatşünaslarımız üçün həmişə örnək olacaqdır. Mən belə hesab edirəm. Ancaq onlar müstəqil dövlətdə yaşamamışdılar. Onlar bizə böyük irs qoyublar, ancaq eyni zamanda biz onlardan daha da xoşbəxtik, çünki biz müstəqil dövlətdə yaşayırıq. Siz, gənc nəsil, bizlərə, yaşlı nəslə nisbətən daha da xoşbəxt adamlarsınız, çünki siz daim müstəqil dövlətdə yaşayacaqsınız. Mən tam əminəm ki, bizim müstəqilliyimiz əbədi, daimi olacaqdır. Biz müstəqilliyimizi həmişə yaşadacağıq. Bizim ədəbiyyatımız, incəsənətimiz, mədəniyyətimiz müstəqillik şəraitində daha da çox inkişaf edəcəkdir.

Mən gənclərə üzümü tutub deyirəm, - sizin qarşınızda çox gözəl imkanlar, perspektivlər var. Şübhə etmirəm ki, siz böyük uğurlar qazanacaqsınız, ədəbiyyatımızı inkişaf etdirəcəksiniz. Şübhə etmirəm ki, sizin içinizdən Azərbaycan xalqının ədəbiyyatını, mədəniyyətini daha da yüksəklərə qaldıran böyük şairlər, yazıçılar, ədəbiyyatçılar, ədəbiyyatşünaslar çıxacaqdır. Mən buna heç şübhə etmirəm. Çünki indiyədək yaşadığımız dövr və əldə etdiyimiz nailiyyətlər buna belə deməyə tam əsas verir. Şərait daha da sərbəst olanda, insan daha müstəqil, azad olanda, şübhəsiz ki, onun daxilində olan imkanlar daha çox açılır və öz bəhrəsini verir.

Bizim hamımızın məqsədimiz əldə etdiyimiz müstəqilliyimizi möhkəmləndirmək, qorumaq, saxlamaq olmalıdır. Şübhəsiz ki, bu asan deyil. Bilirsiniz ki, ölkəmizin müstəqilliyinə xaricdən kəc baxanlar var. Eyni zamanda daxildə də bəziləri var, köhnə fikirlərlə yaşayanlar da var. Bizim respublikamızın həm təbii sərvətləri, həm də geo-siyasi, strateji vəziyyəti çox ölkələrin maraq dairəsinə çevrilibdir. Bunlar da var. Biz hələ Ermənistanın təcavüzündən xilas ola bilməmişik, torpaq[85-86]larımızın 20 faizi işğal altındadır. Bizim bir milyon soydaşımız yerindən-yurdundan didərgin düşübdür, qaçqındır, çadırlarda yaşayırlar. Problemlər çoxdur, amma mən əminəm ki, biz bu problemləri həll edəcəyik. Əminəm ki, bizim torpaqlarımız işğalçı qüvvələrdən azad olunacaq. Əminəm ki, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək. Əminəm ki, yerindən-yurdundan didərgin düşmüş vətəndaşlarımız öz yerlərinə qayıdacaq. Əminəm ki, işğal altında qalmış viran olmuş torpaqlarımızda yeni yaşayış başlayacaq - evlər tikiləcək, insanlar özlərinə yaxşı şərait yaradacaqlar. Mən buna əminəm. Çünki respublikamızın iqtisadi imkanları, potensialı və bizim apardığımız müstəqillik siyasəti mənə bu sözləri deməyə əsas verir. Mən buna əminəm.

Şübhəsiz ki, bunlar böyük iş və vaxt tələb edir. Bu böyük işləri biz görməliyik, qarşımızda olan vaxtdan istifadə etməliyik. Bunun üçün də hamı bu qayğılarla - müstəqil Azərbaycan xalqının qayğıları ilə yaşamalıdır. Bu qayğılar hər şeydən üstün olmalıdır.

Təbiidir ki, hər bir insanın öz şəxsi həyatı var. İnsanın şəxsi həyatındakı vəziyyəti onun cəmiyyətdəki vəziyyətinə və gedən proseslərə də təsir edir. Bunlar həm təbiidir, həm də bunları anlamaq lazımdır. Şəxsən mən bunları anlayıram. Ancaq nə etməli? Bu bizim bu günümüzün gerçəkliyi, reallığıdır. Başqası yoxdur. Ola bilərdi ki, biz keçmiş dövlət şəraitində yaşayaydıq, yazıçıların, yaxud başqa mədəniyyət xadimlərinin imtiyazları da, imkanları da olaydı. Amma müqayisə edək, görək hansı daha yaxşıdır, bizim üçün hansı daha əzizdir? Mən belə hesab edirəm ki, bu əzab-əziyyətə dözüb, müstəqillik dövrünü yaşamaq o dövrdəki imtiyazlı şəraitdə yaşamaqdan qat-qat üstündür. Çünki bu həyatın, dövrün gələcəyi var, amma onun gələcəyi yox idi, olmadı da.

Sovet İttifaqı dağıldı, dağılmalı idi də. Bəli, onun gələcəyi yox idi, olmadı da. Baxmayaraq ki, biz hamımız o dövrün [86-87] insanlarıyıq, o dövrün məhsuluyuq, hamımız o dövrün içində yaşamış, böyümüş, təhsil almış, fəaliyyət göstərmiş insanlarıq, ancaq milli mənafe və xalqımızın gələcəyi nöqteyi-nəzərindən mən hesab edirəm ki, Sovetlər İttifaqının dağılması və bunun nəticəsində Azərbaycanın müstəqillik qazanması xalqımız üçün, hər bir adam üçün indiyə qədər əldə edilən nailiyyətlərdən qiymətlidir, üstündür.

Burada gənc yazıçıların yaşayışı, onların maddi vəziyyəti və xüsusən yaşayış yerləri haqqında, eyni zamanda əsərlərin dərc olunması barədə məsələlər qaldırıldı. Bilirsiniz, indi belə fikirləşmək lazımdır: Biz indiyədək o sistemdə yaşasaydıq «Azərbaycan» jurnalı ayda bir dəfə 76 min nüsxə tirajla, «Ulduz» jurnalı ayda bir dəfə çıxacaqdı, sizin hər birinizin kitabları çap ediləcəkdi, yüksək qonorarlar da alacaqdınız. Hamısı - imtiyazlar da olacaqdı, mənzillər də alacaqdınız. Amma yenə də deyirəm, - bu müstəqillik, azadlıq olmayacaqdı. Düzdür, heç kəs bizə təklif etmədi ki, hansını - bunu, yoxsa onu istəyirsən. Amma beləsləri var idi. Sizlərdən də, bizlərdən də var idi. Məsələn, mən də o dövrdə, o şəraitdə artıq yaşamaq istəmirdim. Mən yeni bir şəraitdə, yeni bir dövlətdə yaşamaq, müstəqil olmaq istəyirdim. Ancaq mən o vaxt da bilirdim ki, bunun çətinlikləri çox olacaqdır.

Ola bilər, xatirinizdədir, - 1991-ci ilin martında Sovet İttifaqının saxlanması haqqında referendum hazırlanırdı. Bu referendum bir neçə ay idi ki, hazırlanırdı. Onda mən Naxçıvanda yaşayırdım. Biz Naxçıvanda bunu çox müzakirə edirdik. O vaxt məni dəvət edirdilər, toplantılara gedirdim, mitinqlər olurdu, çıxış edirdim. O vaxt bu, aktual bir məsələ idi - Sovetlər İttifaqı qalmalıdır, yaxud qalmamalıdır, Azərbaycan müstəqil olmalıdır, yaxud olmamalıdır? Bu sualı hər yerdə, ümumiyyətlə çox yerdə verirdilər. Mənə də belə suallar çox verirdilər, çünki aydındır, - mənim şəxsiyyətimə [87-88] görə bu sualı çox verirdilər. Mən vaxtilə Sovetlər İttifaqının ən yüksək mərtəbəsində, başında duran adamlardan biri idim.

O vaxtlar - 1990-cı ilin yayında ki mən Azərbaycana gəldim, Naxçıvana getdim, o zaman məndən harada soruşurdularsa, kim soruşurdusa mən deyirdim ki, Azərbaycan nə olursa-olsun müstəqil olmalıdır. O vaxt Naxçıvanda muxtar respublikanın yeni parlamenti seçildi. Hələ o vaxt, 1990-cı ilin noyabrında, dekabrında Naxçıvan Muxtar Respublikasının parlamenti qərar qəbul etdi ki, biz Azərbaycanın müstəqilliyini tələb edirik və Sovetlər İttifaqının, SSRİ-nin saxlanmasına qətiyyən yol verməк olmaz. Düzdür, burada, Bakıda bundan çox narahat oldular, çoxlu təzyiqlər etdilər. Amma o vaxt biz sözümüzü müstəqil dedik. Sonra mən fevral ayında buraya gəldim, sessiyada çıxış etdim. Mart ayında referendum haqqında məsələ müzakirə olunurdu, - bunlar sizə məlumdur, - mən qəti çıxış etdim, dedim ki, Azərbaycan referenduma getməməlidir, Azərbaycan müstəqil olmalıdır.

Mən bunu niyə xatırlayıram? O vaxt mən bu sözləri demişəm. Bunlar qəzetlərdə yazılıb, var. Mən demişəm ki, biz nəyin bahasına olursa-olsun, müstəqilliyi əldə etməliyik və SSRİ-nin saxlanılmasına yol verməməliyik. Biz bunu etməsək, bunu bizdən sonra gələn nəsillər edəcəklər. Amma biz bunu etməliyik, onu gələcək nəsillər üçün saxlamamalıyıq. Yəni bu fikir təsadüfi deyildi. Mən o dövrün ən yaxşı tərəflərini dörmüş adamam, ona görə də o dövrü bütünlüklə təhlil edib bu fikrə gəlmişdim. Ancaq bu sözü mən niyə deyirəm? Mən orada bu sözləri təsadüfi demədim ki, biz nəyin bahasına olursa-olsun, müstəqillik qazanmalıyıq. Mən o vaxt gözümün qarşısına alırdım ki, bu həm iqtisadi, həm sosial cəhətdən, çox cəhətlərdən çətin, ağır olacaqdır. Çünki Sovetlər İttifaqını quran adamlar ayrı-ayrı respublikaların, o cümlədən Azərbaycanın ondan ayrılmasına yol verməyəcəklər [88-89] və bu ittifaqa öyrənmiş adamlar buna yol verməyəcəklər, bu, asan olmayacaqdır.

Əgər böyük bir dövlət parçalanırsa, onun dağıntıları üzərində yeni bir dövlət asanlıqla qurulmayacaqdır. Mən bunu bəlkə də başqalarından daha çox təsəvvür edirdim ki, bu belə olacaq, çətin olacaq. Amma bu olmalıdır. Allaha şükür olsun ki, oldu. Allaha şükür olsun ki, biz bütün bu çətinliklərin üstündən keçib getmişik və artıq düz yola çıxmışıq.

Amma təbii ki, yazıçılara indi keçmişdə olduğu qədər mənzil verə bilmirik. Nə edək? İndi burada çoxlarınız xatırlamalısınız, — 1970-ci illərdə biz nə qədər yaşayış evləri tikirdik. O vaxt Bakının ətrafında nə qədər mikrorayonlar yarandı. Siz onları görürsünüz. Onlar hamısı 70-ci illərdə yaranıb. Biz ildə nə qədər tikirdik! Mən bizim bu işlə məşğul olan adamları nə qədər sıxırdım, danlayırdım, nə qədər çəzalandırırdım ki, sən niyə az tikdin, bu ay bu qədər mənzil, məktəb tikməli idin, niyə vermədin. Həmin binalar bunların hamısına görə tikildi. Şəhərin mərkəzində də, ətrafında da tikildi. İndi böyük-böyük mikrorayonlar var. Onların da hamısından bizim Azərbaycanın vətəndaşları istifadə etdilər və bu gün də edirlər. O cümlədən bizim yazıçılarımız da o vaxt nə qədər mənzillər aldılar. Azadlıq meydanının ətrafında tikilən binalarda yazıçılar nə qədər mənzillər aldılar. Orada yazıçılar üçün kooperativ bir bina tikildi. Mənim xatirimdədir, onun mənzillərində yazıçılar yaşayırlar. Ondan sonra həmin binanın yanında tikilən binalarda mənim şəxsi göstərişimlə bizim yazıçılara, mədəniyyət xadimlərinə yaxşı mənzillər verildi. Yəni o vaxt ki, bu mümkün idi, biz bunu edirdik. Xüsusən yazıçılar, mədəniyyət, incəsənət xadimləri üçün bütün başqa təbəqələrə nisbətən müstəsna bir şərait yaradırdıq. Amma indi bu imkan yoxdur. Ancaq olacaqdır. [89-90]

Mən bilirəm ki, indi gənc yazıçı əsər yazır, amma evi yoxdur. Ancaq yeni meydana çıxmış iş adamı, biznesmen qısa bir müddətdə böyük pul qazanır, gedib özünə üçotaqlı yox, beşotaqlı mənzil alır.

Bu da indi bizim həyatımızın qanunudur. Bir halda ki, biz keçmiş sovet quruluşundan demokratik quruluşa keçdik, sovet iqtisadiyyatı, sosialist iqtisadiyyatı sistemindən sərbəst iqtisadiyyata keçdik, bu iqtisadiyyatın da qanunları bundan ibarətdir. Biz buna da dözməliyik. Ancaq bu heç kəsdə heç vaxt ümidsizlik yaratmamalıdır.

Mən bunu dünən də dedim, - bizim keçmişdə yaranmış adət-ənənələrimiz çox gözəldir və biz onları itirməməliyik, saxlamalıyıq, onlardan bu gün də, gələcəkdə də istifadə etməliyik. «Keçmişdə nə vardı hamısını pozmaq, yenidən yaratmaq lazımdır» kimi cılız fikirlər fəlakətdən başqa heç bir şey gətirə bilməz. Məsələn, 1917-ci ildə Oktyabr inqilabı baş verdi, 1917, 1918, 1920-ci illərdə hakimiyyətə gələn bolşeviklər keçmişdə nə vardı - hamısını pozdular ki, heç bir şey olmayıb, yeni dünyanı biz yaradırıq. Amma nə qədər itkilər oldu. O cümlədən elə bizim Azərbaycan xalqının nə qədər itkiləri oldu.

Rafael Hüseynov Rəfibəylilər barədə bir kitab yazıbdır. O vaxt bu Rəfibəyliləri həbs etdilər, cəzalandırdılar. Nəyə görə? Bunlar bəy, xan idilər, yaxud vəzifə, mülk sahibi idilər, kim idilər? Amma görün, böyük bir kitab yazıldı. Nə qədər dəyərli insanlar idilər!

O vaxt bu, nəyə görə oldu? Ona görə oldu ki, o siyasət, o ideologiya əvvəldən insan cəmiyyətinə uyğun ideologiya olmamaqla yanaşı, həmin ideologiyanı həyata keçirənlər, - bolşeviklər nə qədər qanunsuzluqlar etdilər, xalqa, millətə nə qədər zərbələr vurdular. Bu, təkcə Azərbaycanda deyildi, hər yerdə belə idi. O vaxt çar Rusiyası məkanında yaranmış Sovetlər İttifaqı hər yerdə belə olub. Doğrudur, bir yerdə az, başqa yerdə çox olub. [90-91]

Biz o dövrün içində 70 il yaşamışıq və yeni bir həyata gəlib çıxmışıq, müstəqil dövlətik. Tamamilə yeni, dünyəvi, demokratik, hüquqi bir dövlət qururuq. Bazar iqtisadiyyatını tətbiq edirik. İqtisadiyyatımızı dünyaya açmışıq. Hesab edirəm ki, bu, Azərbaycanın milli mənafelərinə uyğun ən düzgün bir yoldur və biz bu yolla gedirik. Amma bu heç də o demək deyildir ki, o dövrdə yaranmış gözəl ənənələri indi biz kənara ataq, onlardan istifadə etməyək.

Məsələn, bu ənənələrdən biri Yazıçılar İttifaqının yaranmasıdır. Səyyad Aran burada dedi ki, vaxtilə Lənkəranda, Şamaxıda, haradasa başqa yerlərdə birliklər olmuşdur. Bu da həqiqətdir. Doğrudan da belə idi. Elə bu əsrin əvvəlində Azərbaycanın maarifçiləri, mütəfəkkir insanları da cürbəcür belə təşkilatlar yaratmışdılar. Amma sonra, 1934-cü ildə bu birləşibYazıçılar İttifaqı yarandı. İndi bu Yazıçılar İttifaqı 63 ildir yaşayır. O, xalqımıza nə qədər böyük fayda verib. İndi durub deyək ki, bu Yazıçılar Birliyi lazımdır, ya lazım deyil? Şübhəsiz ki, indi sərbəstlikdir, hərə öz fikrini deməlidir, bu da tam təbiidir. Amma mən öz fikrimi deyirəm, əlbəttə ki, Yazıçılar Birliyi lazımdır.

Məsələn, bu ənənədir. Amma başqa ənənə də var idi ki, yazıçılara xüsusi imtiyazlar verilirdi. Mən istəyirdim ki, bu imtiyazlar bu gün də olsun. Ancaq buna iqtisadi imkanlar çatmır. Nə etməli? Demək, yollar axtarmaq lazımdır. Məsələn, siz özünüz dediniz ki, «Ədəbiyyat qəzeti» də, «Azərbaycan», «Qobustan» jurnalları da tamamilə dayanmışdı. Biz məsələyə baxdıq, gördük ki, bir az imkanlarımız var, onları dövlətin maliyyələşdirilməsinə götürdük. Bu gün «Ulduz» jurnalı haqqında məsələ qaldırdınız. Mən soruşdum, - ildə neçə dəfə çıxara bilərsiniz? Biri dedi 12 dəfə, o biri dedi 6 dəfə. Hansını deyirsiniz, onu qəbul edirəm. Bəyan edirəm ki, mən «Ulduz» jurnalını da dövlətin maliyyəsinə götürürəm. Amma siz çalışın ki, «Ulduz» jurnalı çıxsın və orada yaxşı [91-92] əsərlər dərc olunsun. Əgər ilk əvvəl iki aydan bir çıxara bilərsinizsə, özünüzü zora salmayın, iki aydan bir çıxarın. Ancaq sonra işi yaxşı təşkil edib ayda birini çıxara bilərsinizsə, ayda birini çıxarın.

Bilirsiniz, mən bu işlərə tam müstəqillik verirəm. Mən sadəcə, buna cavabdehəm ki, onun maliyyələşdirilməsini dövlətin üzərinə götürürəm. Qalanları sizin işinizdir. Çıxara bilərsiniz, ildə 12 dəfə çıxarın, istəyirsiniz ildə 6 dəfə, 8 dəfə çıxarın. Bu, sizin bacarığınızdan, əsərlərinizdən, işi təşkil etməkdən asılı olacaqdır. Mən öz vəzifəmi yerinə yetirirəm. Mən bəyan etdim, qərar qəbul edəcəyəm. Amma siz hərəkət edin.

Burada ayrı-ayrı kitabların nəşr olunması və nəşrin keyfiyyəti haqqında da deyildi. Mən bu barədə də düşünə bilərəm. Sonra siz deyəsən, başqa məsələlər də qaldırdınız. Mən bayaq da dedim, - televiziyada xüsusi, daimi veriliş aparılmalıdır və orada bizim ədəbiyyatımızın nümunələri, xüsusən jurnallar daim təbliğ olunmalıdır. Çünki burada deyildi ki, jurnallar az oxunur, hətta oxumaq həvəsi azalıbdır. Bu da təbiidir. Çünki insanların bir tərəfdən dərdi çoxalıbdır, ona görə də oxumağa vaxt tapmırlar, ikinci tərəfdən bu jurnallar müntəzəm çıxmadığına görə insanlar bundan bir az soyuyublar. Demək, əvvəlki münasibəti bərpa etmək lazımdır.

Mən Fatma Abdullazadəyə tapşırıram ki, sərəncam hazırlasın - sizin sabahkı qurultayınızda da ola bilər ki, hansısa məsələ qaldırılsın - qurultayın nəticələri ilə əlaqədar sərəncam hazırlasın. Mən həllinə imkan olan məsələləri bu sərəncamda əks etdirərəm, bu sərəncamı imzalayaram və indiki imkan daxilində sizə bu yardımı edərəm.

Amma istəyirəm biləsiniz ki, bizim bu imkanlarımız gələcəkdə daha da çox olacaqdır. İqtisadiyyatımız inkişaf edir, Azərbaycana xarici sərmayə gəlir. Mən hesab edirəm ki, iki-üç ildən sonra Azərbaycanın iqtisadi imkanları daha da [92-93] yaxşı olacaqdır. Bu iqtisadi, maliyyə imkanları artdıqca biz ədəbiyyata köməyimizi də artıra biləcəyik.

Ancaq, eyni zamanda, sizə məlumdur ki, iqtisadi cəhətdən lap çox inkişaf etmiş dövlətlərdə - məsələn Avropa dövlətlərində heç bir Yazıçılar Birliyi dövlətin maliyyəsində deyil. Götürün Fransanı, Almaniyanı, İngiltərəni və yaxud Amerika Birləşmiş Ştarlarını - onlar bilmirlər pulu hara qoysunlar. Amma nədənsə onların nə Yazıçılar Birliyi var, nə də hər hansı bir yazıçının əsərini çap etmək istəyirlər. Həmin ölkələrdə kim necə yaşayır-yaşayır, kim necə yazır-yazır.

Mən dünən də dedim ki, bizim yazıçılarda bir az vərdiş, ənənə yaranıbdır - mən bunu pis ənənə hesab etmirəm, - onlar buna öyrəniblər: vaxtilə imtiyazlar veriblər, indi də vermək lazımdır: vaxtilə mən kitab yazmışam, onu çap ediblər, bilmirəm hansı pulla çap ediblər, indi də lazımdır. Bu da nəzərə alınmalıdır.

Məsələn, götürək bizim qonşu dövlətləri - Türkiyəni, İranı. Orada dövlət hansı yazıçının əsərini çap edir, yaxud hansı yazıçıya, şairə ev verir? İndi biz böyük şairimiz Şəhriyarın 90 illiyini qeyd edəcəyik. Biz bu yubileyi Azərbaycanda geniş qeyd etməliyik. Mənim bu barədə də xüsusi sərəncamım olacaqdır. Ola bilər, mən onu bu gün imzalayım. Ancaq Şəhriyarın həyatı və vəziyyəti hamıya məlumdur. Bilmirəm, dövlət ona orada bir ev vermişdi, yoxsa yox? Siz bunları yaxşı bilərsiniz. Yaxud onun yazdığı əsərləri özü çap elətdirirdi, yoxsa kim?

Burada deyildi, - mən gənc istedadlara himayəni öz üzərimə götürmüşəm. Mən bizim gənc müğənni, çox gözəl səsi olan Surxay Əsgərova xüsusi maaş - bir milyon manatlıq maaş təyin etmişəm. İndi siz Surxay Əsgərov kimi istedadlı beş nəfər adamın adını mənə verə bilərsiniz ki, mən onlara Surxay Əsgərova təyin etdiyim maaşı təyin edim? Amma onlar gərək həqiqətən Surxay Əsgərov kimi istedadlı adamlar olsunlar. Mən Surxay Əsgərovun istedadını, səsini və [93-94] gələcəyini görürəm. Amma yazıçının, şairin bir dənə şeri, hekayəsi ilə bunu görə bilməyəcəyəm. Ona görə də fikirləşin. Siz bunu da fikirləşin, - bəlkə, ola bilər, məsələn, bir beş və ya on nəfərə bir il müddətində məvacib təyin edək, baxaq görək onlar bu müddətdə hansı əsərləri yazacaqlar. Əgər yazdı, verdi, mükafat da vermək, məvacibin vaxtını da uzatmaq olar. Amma yazmadı, - yox, pulu geri almayacağam, - sadəcə olaraq pul batacaq.

Fikirləşin, mən sizə artıq mümkün olan bəzi şeyləri deyirəm. Siz fikirləşin, təklif verin. Mən buna müəyyən vəsait ayıra bilərəm. Ancaq bilim, görüm nəyə ayıracağam, bunun nəticəsi nə olacaq. Hər halda, mən bu imkanları təklif edirəm. Siz baxın. Mən indi göstəriş verdim ki, qurultaydan sonra sərəncam hazırlansın. Əgər təklifləriniz olsa mən onları oraya sala bilərəm və beləliklə də, bəzi həvəsləndirici, şərait yaradıcı tədbirlər görə bilərik, addımlar ata bilərik.

Əmin ola bilərsiniz ki, dövlətin ədəbiyyata, xüsusən gənc yazıçılara qayğısı daim olacaqdır. Buna əmin ola bilərsiniz. İndi bəlkə bunun səviyyəsi, dərəcəsi bəzi vaxtlarda bir-birindən fərqli olacaqdır. Amma əsas odur ki, bu qayğı var.

Dünən mən böyük bir görüş keçirmişəm. Bu gün sizinlə böyük bir görüş keçirirəm. Qurultayınız sabah səhər 10-da başlayır, axşamacan orada oturacaqsınız, mən də sizinlə bir yerdə olacağam. Çünki hamını dinləmək istəyirəm ki, görüm nə danışırsınız. Bu mənim üçün də çox böyük əhəmiyyətlidir. Görürsünüz, mən üç gündür vaxtımın çox hissəsini ədəbiyyata sərf edirəm. Məgər bunun özü qayğı deyilmi? Xarici işlər naziri bu gün mənə deyir ki, dünən Qazaxıstanın Müstəqillik günü olanda bir səfir ona yanaşıb deyib ki, Heydər Əliyevə nə olub? Cavab verib ki, necə nə olub? Səfir deyib ki, burada diplomatik korpus çox narahatdır. Soruşub ki, niyə? Deyir ki, Heydər Əliyevi üç gündür televiziyada görmürük. Deyir mən dedim ki, bəs siz prezidentinizi hər gün televiziyada [94-95] görürsünüz? Deyib ki, yox, iş burasındadır ki, bizim prezidentin başqa iş üslubu var, amma biz Heydər Əliyevi hər gün televiziyada görürük. Ancaq üç gündür görmürük, narahatıq ki, ona nə olub, xəstə deyil ki. Doğrudan da belə oldu ki, baş qarışdı, elə bir hadisə olmadı ki, mən o işi televiziya qarşısında görüm. Altıncı gün də, bazar günü də, sonra birinci, ikinci, üçüncü günlər də belə oldu. Doğrudur, dünən biz görüş keçirdik, amma onu gec qurtardıq, televiziya verə bilməmişdi. Yəqin bu gün verəcəklər.

Yəni onu demək istəyirəm ki, adətən mən xarici qonaqları qəbul edəndə televiziya çox lazım olur. Biz daxili işlərdə televiziyadan istifadə etmirik. Mən bu günlər - dünən də, bu gün də, sabah da ədəbiyyatla məşğulam. Xaricdən gələn bir neçə adamlar mənimlə görüşmək istəyirlər. Demişəm ki, onlarla bu üç gündə görüşə bilmərəm. Bir sıra səfirlər var, görüşmək istəyirlər. Demişəm ki, görüşə bilmərəm, çünki bu işlə məşğulam.

Yəqin bunun özü sübut edir ki, dövlətin ədəbiyyata qayğısı var, elədirmi? Bu qayğı da olacaqdır. Arxayın ola bilərsiniz ki, bu qayğı olacaqdır və biz həmişə sizinlə birlikdə olacağıq.

Mən gənc yazıçılara hörmət və ehtiramımı bildirmək istəyirəm. Mən çox şad oldum ki, bu gün şəxsən görüşdük. Hesab edirəm ki, sabah qurultayınız da birincisi, demokratik şəraitdə keçəcək. İkincisi, tam sərbəstlik şəraitində keçəcək, üçüncüsü, mehribanlıq şəraitində keçəcək, dördüncüsü, bir-birinə hörmət və ehtiram şəraitində keçəcək, beşincisi, tənqid və özünütənqid - bu, köhnə söz olsa da bunu bu gün də demək olar - şəraitində keçəcəkdir. Heç kəs çəkinməsin, heç kəs utanmasın. Biz gördüyünüz işləri də, səhvləri də, çatışmazlıqları da, qüsurları da göz qabağında qoyuruq. İndi xalqdan heç bir şey gizlədilmir və gizlədilməməlidir. Nə var, odur.

Mən hesab edirəm ki, Azərbaycanın Yazıçılar Birliyi bu altı il müddətində - keçən qurultaydan indiyə qədər çox iş [95-96] görübdür. Yazıçılar Birliyini qoruyub saxlayıb, onun parçalanmasına, dağılmasına yol verməyibdir. Axı Yazıçılar Birliyi də böyük sınaqlardan keçib. Görürsünüz, bu altı ildə bizim Azərbaycanın başına nə işlər gəlibdir. Yazıçılar Birliyi də bütün bu sınaqlardan, imtahanlardan keçibdir. Ona görə də şəxsən mən belə hesab edirəm ki, bunu yüksək qiymətləndirmək lazımdır. Yazıçılar Birliyinə rəhbərlik edən şəxslərin fəaliyyətini yüksək qiymətləndirmək lazımdır. Amma şübhəsiz, Yazıçılar Birliyinin işində qüsurlar da, səhvlər də, çatışmazlıqlar da var. Bunların hamısını açıq-aşkar demək lazımdır ki, sonrakı dövrdə işlər daha yaxşı təşkil edilsin.

Hesab edirəm ki, qurultay yaxşı şəraitdə keçəcək, mən də sizinlə bir yerdə olacağam, sizin hamınızı dinləyəcəyəm. Mən sizi bu gün də, dünən də dinləmişəm.

Ədəbiyyat bizim xalqımıza çox böyük faydalar gətiribdir. Ədəbiyyatımız bizim böyük milli sərvətlərimizdən biridir. Biz bununla fəxr etməliyik. Şəxsən mən həmişə belə hesab etmişəm, bu gün də belə hesab edirəm, daim belə düşünəcəyəm. Hesab edirəm ki, bizim ədəbiyyatımızın, bədii sözün, yazıçı, şair sözünün cəmiyyətə, millətə, xalqa təsiri böyükdür.

Xalqımızı hansı yolla aparmaq, cəmiyyətimizdə olan nöqsanları aradan götürmək, cəmiyyətimizi təmizləmək, daha da saf etmək, ayrı-ayrı çirkin hallardan xilas etmək - bütün bunlarda ədəbiyyatın, bədii sözün imkanları da, gücü də, təsiri də çoxdur. Ona görə də siz yazıçı kimi, şair kimi tək öz istedadınızı ifadə etmirsiniz. Siz eyni zamanda millətə, xalqa, cəmiyyətə xidmət edirsiniz. Ümidvaram ki, sizin bu xidmətiniz gələcəkdə daha da səmərəli, uğurlu olacaqdır.

Mən sizin hamınıza cansağlığı arzu edirəm və sabahkı qurultaya da uğurlar arzulayıram. Sağ olun. [96]

## AZƏRBAYCAN YAZIÇILARININ X QURULTAYINDA NİTQ

*Prezident sarayı*

*30 oktyabr 1997-ci il*

Hörmətli qurultay!
Əziz yazıçılar!
Hörmətli xanımlar və cənablar!

Mən sizi səmimi qəlbdən salamlayıram və yazıçılar qurultayının işinin müvəffəqiyyətlə getməsi münasibətilə sizi ürəkdən təbrik edirəm.

Yazıçılar qurultayının işə başlaması və bu salona çoxsaylı nümayəndələrin toplaşması, Azərbaycan ədəbiyyatının problemlərinin, eyni zamanda respublikamızın həyatının bəzi sahələrinin müzakirə olunması ictimaiyyətimizin, cəmiyyətimizin həyatında əlamətdar bir hadisədir.

Azərbaycanda yazıçı daim böyük hörmətə layiq olmuşdur. Bu, bizim tarixi ənənəmizdir, əcdadlarımızdan gəlib bizə çatmış gözəl bir xüsusiyyətdir. Bu da təsadüfi deyil. Çünki bizim xalqımız birincisi, öz istedadına görə şair, yazıçı, söz ustası olubdur. İkincisi, bizim xalqımız çox əsrlik tarixində böyük şairlər, yazıçılar, mütəfəkkirlər yetişdiribdir. Xalqımızın tarixi çox zəngindir. Ancaq biz tariximizin qədim dövrlərini xatırlayarkən, yaxud onları cəmiyyətə, dünyaya daha geniş çatdırmaq istəyərkən, birinci növbədə və bəzən də yalnız mədəniyyətimizə, mədəniyyət, ədəbiyyat xadimlərinin yaratdığı əsərlərə, tarixi-memarlıq abidələrimizə və böyük şairlərimizin, mütəfəkkirlərimizin yazdığı əsərlərə istinad edirik. [97-98]

Biz Nizaminin, Xaqaninin, Nəsiminin, Füzulinin adlarını böyük iftixar hissi ilə çəkirik və onların əsərlərini oxuyaraq xalqımızın nə qədər dahi, müdrik və istedadlı xalq olduğunu bir daha dərk edirik. Eyni zamanda dünya, bəşər qarşısında bunlarla fəxr edirik, öyünürük. Öyünməyə də haqqımız var. Çünki bu böyük insanlar nəinki xalqımızı, bütün bəşəriyyəti, bəşər tarixini zənginləşdirən əsərlər yazmışlar. Onlardan sonra gələn nəsillər də bu ənənəni, xüsusiyyəti davam etdirmişlər. Ona görə də tariximizin hansı əsrinə, hansı səhifəsinə baxsan orada şairlərin, yazıçıların, mədəniyyət xadimlərinin izlərini, əsərlərini görəcəksən. Bu, xalqımızda bu gün, dünən deyil, əsrlərdən əsrlərə keçib gələn bir ənənədir, şerə, şairə, söz ustasına, zəkalı insana həmişə hörmət, böyük ehtiram olubdur.

Məmnuniyyət hissi ilə demək olar ki, XX əsrdə - çox mürəkkəb, ziddiyyətli proseslərlə, böyük dəyişikliklərlə, müharibələrlə, faciələrlə dolu olan əsrdə də bizim xalqımızın bu gözəl ənənəsi nəinki yaşayıbdır, hətta cəsarətlə demək olar ki, daha da yüksəklərə qalxıbdır. Buna görə də bizim Azərbaycanda ədəbiyyata, şairə, yazıçıya böyük hörmət var. Böyük şairimiz Səməd Vurğun bu barədə bir şer də yazıbdır. Bəli, bu dəyərli sözləri Səməd Vurğun əsaslı deyibdir. Həqiqətən belədir. O, bunu birinci növbədə öz yaradıcılığına olan münasibətdə görübdür. O, eyni zamanda bunu tarix boyu yaşayıb-yaratmış və bizə böyük irslər qoymuş şairlərimizə, yazıçılarımıza xalqımızda olan hörmət və ehtiramda görübdür.

Məhz buna görə də Azərbaycan yazıçılarının növbəti qurultayı bu gün çox mütəşəkkil və yüksək məzmunlu səviyyədə keçir. Hesab edirəm ki, bu da öz nəticələrini verəcəkdir.

Burada çıxışların çoxunda keçmiş qurultaylar və o qurultaylada deyilən sözlər, baş vermiş hadisələr xatırlandı. Mən də onları xatırlayıram. [98-99]

Mən çox sevinirəm və xoşbəxtəm ki, ilk dəfə Azərbaycanın yazıçılarının qurultayında 27 il bundan əvvəl nitq söyləmişəm, o qurultayın iştirakçısı olmuşam və ondan sonrakı qurultaylarda da daim iştirak etmişəm, yazıçılarmızla, şairlərimizlə, mədəniyyət xadimləri ilə bir yerdə olmuşam, bu gün də sizinlə bir yerdəyəm. Bunun da səbəbi var. Birincisi, şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm. Bu gün sizə deyə bilərəm ki, şəxsən mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum, onları bu gün də unutmamışam. Bəlkə də bu əsərlərin bəzilərini ondan sonra oxumamışam, ancaq o illərdə - o uşaqlıq, gənclik illərində onlar mənə o qədər təsir edib ki, mən onları unutmamışam. Bu «oxumuşam, unumamışam» sözləri sadəcə bir fikir deyil. Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam, ədəbiyyatla, mədəniyyətlə daim bağlı olmuşam.

Mən 1971-ci ildə Azərbaycan yazıçılarının qurultayında ilk dəfə Azərbaycanın rəhbəri kimi iştirak edirdimsə, ondan əvvəlki qurultaylarda da kənarda olmamışdım. O zaman mən Azərbaycanın rəhbəri deyildim, başqa vəzifələr tuturdum, ancaq yazıçıların qurultayını daim izləyirdim və imkan olanda gəlib salonda oturub yazıçıları dinləyirdim. Mən hər dəfə yazıçılarımızın görüşlərinə gedirdim və onlarla görüşməyi özüm üçün böyük bir hadisə hesab edirdim.

Bu, həmin məsələyə mənim şəxsi münasibətimdir. Ancaq eyni zamanda 1969-cü ildən tale mənim üzərimə böyük bir vəzifə, böyük bir məsuliyyət qoymuşdur. Mən o məsuliyyəti dərk edərək, o vəzifəni layiqincə yerinə yetirməyə çalışaraq, həmişə hesab etmişəm, bu gün də hesab edirəm ki, ədəbiy[99-100]yata, mədəniyyətə diqqət yetirmək, qayğı göstərmək lazımdır, ədəbiyyatdan, mədəniyyətdən həyatın başqa sahələrində işin müvəffəqiyyətlə həyata keçirilməsi üçün istifadə etmək lazımdır. Mən məhz bunlara görə yazıçıların bütün qurultayları ilə bağlı olmuşam, onlarda iştirak etmişəm. Çox məmnunam ki, siz onları unutmamısınız, xatırlayırsınız.

Ancaq bir halda ki, mən söhbəti bu tərəfdən başladım, onu qeyd etmək istəyirəm ki, qurultay işə başlayandan mən burada oturmuşdum, sizə diqqətlə qulaq asırdım, fikirləşirdim, çox şeyləri xatırlayırdım. Yazıçılar Birliyi ilə bu əlaqələrimi şəxsən mən özüm üç mərhələyə bölürəm. Birinci mərhələ həmin illərdir ki, - xatirimdədir, bir dəfə biz o vaxtkı Siyasi Maarif evində qurultay keçirdik, sonra başqa yerdə keçirdik. Xatırladılar, 1981-ci ildə burada, bu salonda keçirdik, - o mərhələ idi ki, mən Azərbaycana rəhbərlik edirdim və qurultayın işində Azərbaycanın rəhbəri kimi iştirak edirdim.

İkinci mərhələ 1991-ci ildə sizin qurultayın işində mənim qısa müddətdə iştirak etməyimdir. Yadınızdadır ki, o zaman mən vəzifədə deyildim, amma siz məni qurultayınıza yenə dəvət etdiniz. Üçüncü mərhələ isə indiki mərhələdir, Azərbaycanın dövlət müstəqilliyi, azadlığı şəraitində keçirdiyimiz ilk qurultaydır və mənim burada iştirak etməyimdir.

Mənim həyatımda çox çətin dövrlər, anlar olubdur. Ancaq bununla yanaşı, tale çox vaxtlarda mənə kömək edibdir və mənim arzularımı yerinə yetiribdir. Ona görə də görürsünüzmü, mən bu üç mərhələdə bu qurultaylarda iştirak edirəm.

Hər dövrün özünəməxsus əhəmiyyəti, mənası vardır. Mən özümün özüm üçün müəyyən etdiyim bu dövrlərin, - ola bilər, kimsə bununla razı olmasın, ancaq bu mənim şəxsi fikrimdir, - hər birinin həm yazıçılarımız üçün, həm də Azərbaycanın həyatı üçün, o, cümlədən şəxsən mənim bu işə münasibətim üçün çox əhəmiyyətli, çox məhsuldar olduğunu görürəm. [100-101]

Əgər 70-ci illəri, 80-cı illərin əvvəlini götürsək, o vaxt biz Sovetlər İttifaqı deyilən bir ölkədə yaşayırdıq. Sovetlər İttifaqının tərkibindəki 15 müttəfiq respublikadan biri də Azərbaycan idi. Biz kommunist rejimi, sosialist quruluşu şəraitində yaşayırdıq. Bizim hamımız o dövrün yetişdirməsiyik, bəhrəsiyik. Bəlkə də bu salonda oktyabr inqilabından əvvəl dünyaya gəlmiş adamlardan təkcə Mirvarid xanımı görmək olar. O birilərin hamısı ondan sonra dünyaya gəliblər. Ancaq Mirvarid xanım oktyabr inqilabından əvvəl dünyaya gəlibsə də, onun da fəaliyyəti məhz oktyabr iqilabından sonra yaranmış quruluş çərçivəsində keçibdir. Biz o quruluşda, o həyatda, o dövlətdə, o şəraitdə yaşamışıq, təhsil almışıq, böyümüşük və respublikamızı, xalqımızı yaşatmışıq. Ona görə də o dövrlərdə əldə olunan nailiyyətləri inkar etmək olmaz, - bu, cinayət olardı. Onu unutmaq da olmaz.

Mən hesab edirəm ki, çox işlər görülübdür. Əgər o dövr olmasaydı, bu gün burada, bu salonda Yazıçılar Birliyinin 500-dən artıq üzvü, yaxud da nümayəndəsi iştirak etməzdi.

İngiltərədən, Edinburq Universitetindən gələn qonağımız, professor burada çıxış edərkən dedi ki, neçə ölkədə olubdur. O, inkişaf etmiş hansı ölkədə bu qədər yazıçı, bu qədər qurultay nümayəndəsi görübdür? Bu elə boş yerdən əmələ gəlməyibdir. Bəli, bunu o dövr, dövrün imkanları yaradıbdır. İnsanlar, bizim Azərbaycan yazıçıları, şairləri də öz istedadlarına, aldıqları təhsilə və bu sənətə sadiqliklərinə görə bu yolu seçiblər, yazıçılıqla məşğuldurlar və böyük işlər görüblər.

Bayaq dediyim ikinci dövr mənim üçün maraqlı olmuşdur. Çünki, bu 1991-ci ilin əvvəli idi. Unutmamışamsa, martın 21-i idi. Bu elə bir vaxt idi ki, Azərbaycan çox ağır bir dövr yaşayırdı. Ermənistanın Azərbaycana təcavüzü və ölkəmizin torpaqlarının - Dağlıq Qarabağın işğalının başlanması dövrü idi. Qanlı 20 Yanvar faciəsinin - sovet hakimiyyəti tərəfindən Azərbaycan xalqına qarşı edilmiş hərbi təcavüzün ağrılarını [101-102] yaşadığımız bir dövr idi. Bu dövr eyni zamanda Sovetlər İttifaqının dağılması prosesinin getdiyi bir dövr idi. Azərbaycanda vəziyyət həddindən artıq gərgin, çətin idi.

Çox sevindirici haldır ki, məhz o vaxt, o çətin zamanda, dövrdə siz yazıçılar öz sənətinizə sadiq qalaraq o qurultaya toplaşmışdınız. İş elə gətirdi ki, mən sizin qurultayda oldum. Çünki bilirsiniz ki, o vaxt mən Naxçıvanda yaşayırdım. Oradan Azərbaycan Ali Sovetinə deputat seçilmişdim və Ali Sovetin sessiyasında iştirak etmək üçün fevralın əvvəlində Bakıya gəlmişdim.

Mən fevralın əvvəlində bir sessiyada iştirak etdim, sonra martın əvvəlində keçirilən sessiyada iştirak etdim. Ondan sonra bir müddət burada qaldım. Martın sonunda yenə də Naxçıvana döndüm.

O vaxt Elmira xanım Axundova gəlib mənə bildirdi ki, yazıçılar qurultayı keçəcək, Sizi oraya dəvət edirlər. Elmira xanım Axundova çox dəyərli bir insandır. Xatirimdədir, 1970-ci illərdə Yazıçılar İttifaqında çox əhəmiyyətli işlər görürdü. Sonra isə öz jurnalistik fəaliyyətini də buna əlavə etmişdi. Mən Naxçıvanda ağır bir dövrdə yaşadığım zaman onunla görüşmüşdüm. O, oraya «Literaturnaya qazeta» üçün məndən müsahibə almağa gəlmişdi. Doğrudur, mən ona dedim ki, nahaq gəlmisən, çünki mən verdiyim müsahibəni «Literaturnaya qazeta» dərc etməyəcək.

O, çox təkid etdi ki, «Literaturnaya qazeta» bu müsahibəni dərc edəcəkdir. Amma mənə olan münasibəti bildirdim. Mən müsahibəni verdim, ancaq qəzet onu dərc etmədi. Demək, mənim sözüm doğru

çıxdı. Elmira xanım çox cəhd göstərdi, vəziyyət dəyişəndən sonra bu müsahibəni dərc etdirdi. O, Bakıda da mənimlə əlaqə saxlayırdı. Bu məni sevindirirdi ki, belə insanlar var, o ağır dövrümdə mənimlə əlaqə saxlamağa qorxmurdular, çəkinmirdilər. [102-103]

Elmira xanım mənə bildirdi ki, Yazıçılar Birliyinin qurultayı var, məni oraya dəvət ediblər. Mən dedim ki, Elmira xanım, çox sağ olun, ancaq güman edirəm, mənim oraya gəlməyim lüzumsuzdur. Çünki indi mən burada kiməm ki, oraya gəlim? Yazıçı deyiləm ki, oraya yazıçı kimi gəlim. Eyni zamanda o, elə bir dövr idi ki, o vaxt həm Sovetlər İttifaqının rəhbərliyində, həm də Azərbaycanın rəhbərliyində mənə qarşı çox ədalətsizliklər edirdilər. Mənim əleyhimə böhtanlar quraşdırırdılar və yayırdılar. Mən çox böyük təzyiq və təqib altında idim. Elmira xanım məni çox inandırdı ki, yox, sizi qurultaya dəvət ediblər. Fikirləşdim ki, bəlkə xatir naminə dəvət ediblər, bilirlər ki, getməyəcəyəm. Sonra da məlum olacaq ki, dəvət etdilər, mən gəlmədim. Ondan xahiş etdim, dedim ki, sən bir daha dəqiqləşdir. Sonra o mənə zəng edib dedi ki, mən Anar müəllimlə bu barədə danışdım. Anar müəllim dedi ki, biz onu ürəkdən dəvət etmişik, bu, formal bir xarakter daşımır, ona görə də əgər gəlsə, biz məmnun olarıq. Mən bundan sonra ürəkləndim, dedim ki, əgər belədirsə, pis olmaz, gedim görüm yazıçılar necədirlər. Gəldim. Bunu burada xatırlatdılar, - siz məni hörmətlə rəyasət heyətinə dəvət etdiniz. Bu təklifi gərək ki, şair Məmməd Aslan vermişdi. Ancaq mən təşəkkür edib dedim ki, indi də aşağıda oturub yuxarıya baxmaq istəyirəm. O vaxt mən salonda oturarkən çox düşünürdüm. Gərək ki, mənim sağımda Xəlil Rza, solumda isə Rəfiq Zəka oturmuşdular. Ətrafımda da yazıçılar var idi, çox mehriban söhbət edirdik.

Mən bu faktı niyə bir də xatırlayıram? Çünki müqayisə etmək istəyirəm. Mən o dövrdə, fevral-mart aylarında Ali Sovetin sessiyasında olmuşdum. Xatirinizdədir, Ali Sovetin sessiyasında o salonda oturanların 99 faizi mənimlə bir yerdə və mənim rəhbərliyim altında işləmiş adamlar idilər. Ancaq orada mənə çox hörmətsizlik etdilər, pis münasibət göstərdilər. Hətta mənim çıxışımı da kəsdilər və mənim [103-104] çıxışımdan sonra cürbəcür böhtançı çıxışlar da etdilər. O cümlədən, o vaxt bir yazıçı da deputat idi, o da bunu etdi. Yəni o vaxt mənim orada müdafiəyə ehtiyacım yox idi. Bilirdim ki, mənə qarşı belə edəcəklər. Ancaq o vaxt cəsarət edib çox kəskin çıxış edən Bəxtiyar Vahabzadə oldu.

Yəni mən yenə də özümün ədəbiyyatla bağlılığımı və ədəbiyyatla məşğul olan şəxslərin başqalarına nisbətən daha sədaqətli olduğunu qeyd etmək istəyirəm. Şübhəsiz ki, mən Bəxtiyar Vahabzadəyə bir hörmətli şair kimi həmişə hörmət etmişdim və işlədiyim zaman bizim işgüzar əlaqələrimiz olmuşdu. Ancaq o salonda oturanların əksəriyyəti ilə mən gecə-gündüz bir yerdə işləmişdim. Onlar böyük vəzifələr almışdılar. Bəxtiyar Vahabzadə şair idi, şair olaraq da qalıbdır, indi də şairdir. Onun şairlikdən savayı bir vəzifəsi yoxdur. Ancaq baxın, - o, həmin insanların münasibəti, bu da şairin münasibəti.

Nəhayət, Ali Sovetdə, o sessiyada, o salonda, - hansı ki, həmin binanı vaxtilə mən tikib yaratmışdım, o salonda ki, orada məni həmişə böyük hörmət, ehtiramla qarşılayırdılar, - ancaq orada mənə qarşı o qədər hörmətsizlik və ədalətsizlik olduğu halda, Filarmoniyanın salonunda, yazıçıların qurultayında mənə çox mehribanlıq, çox istiqanlılıq, çox yüksək hörmət göstərildi. O vaxt mənim imkanım olmadı ki, belə geniş təşəkkür edim. Altı il keçəndən sonra məhz o hadisəyə görə mən sizin hamınıza təşəkkür edirəm. Çox sağ olun.

İndi isə bizim bu qurultayımız tamam başqa bir şəraitdə keçir. Keçmiş zamanlarda nə qədər böyük nailiyyətlər əldə etmişiksə də, mən hesab edirəm ki, bu qurultay indiyə qədər olan bütün qurultaylardan, yazıçıların toplantılarından, konqreslərindən - hamısından üstündür. Çünki müstəqil Azərbaycan Respublikasının sərbəst yazıçıları müstəqil dövlətimizdə özlərinin ilk qurultayına toplaşmışlar. Bu, çox sevindirici haldır. [104-105]

Bu, müstəqilliyimizin bizə verdiyi töhfələrdir ki, biz indi artıq heç kəsdən, heç bir mərkəzdən, ideologiyadan asılı olmayaraq, özümüz sərbəst olaraq həyatımızın hər sahəsini araşdırırıq, o cümlədən öz ədəbiyyatımızı, mədəniyyətimizi istədiyimiz kimi müzakirə edirik və istədiyimiz istiqamətdə aparırıq. Bu azadlıq, sərbəstlik, müstəqillik əvəzsiz bir nemətdir. Ona görə də bu qurultay başqa qurultayların davamı olmaqla yanaşı, onuncu qurultaydır və əvvəlki doqquz qurultayın hamısından üstündür.

Biz eyni zamanda 63 il müddətində - 1934-cü ildən indiyədək yazıçılar qurultaylarının keçdiyi yolu da yüksək qiymətləndirməliyik. Biz bunu heç vaxt unutmamalıyıq. Bu gün natiqlərdən biri, gərək ki, Qabil müəllim dedi, - o söylədi ki, Bəxtiyar müəllim rəyasət heyətində dedi ki, vaxtilə burada Səməd Vurğun, Süleyman Rüstəm, Süleyman Rəhimov, Rəsul Rza, Mehdi Hüseyn və başqaları əyləşirdilər, indi biz əyləşmişik. Bəli, onların hər biri çox böyük yazıçı, şair, şəxsiyyət olub. Onlar XX əsr Azərbaycan ədəbiyyatının yaranmasında böyük xidmətlər göstəriblər.

Bilirsiniz, bu gün ümumiyyətlə müstəqillikdən danışarkən ədəbiyyatımızın xalqımız üçün nə qədər zəngin sərvət olduğunu qeyd etmək lazımdır. Bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir və intellektual mülkiyyətidir. Hər bir müstəqil dövlət müstəqil olmaq üçün bir neçə amillərə malik olmalıdır - onun müstəqil yaşaması üçün ərazisi, iqtisadiyyatı, təbii sərvətləri olmalıdır, müstəqil dövləti qoruyan ordusu olmalıdır, daxili vəziyyəti qoruyan qüvvələri olmalıdır, silahı, pulu, valyutası olmalıdır. Bunlar hamısı olmalıdır. Bunlar olmasa müstəqil dövlət ola bilməz.

Sovetlər İttifaqı dağılarkən Azərbaycanda da çoxları şübhə edirdilər ki, Azərbaycan müstəqil yaşaya bilər, yoxsa yaşaya bilməz. O vaxt Sovetlər İttifaqını qoruyub saxlamaq istəyənlər sübut etməyə çalışırdılar ki, heç bir respublika [105-106] müstəqil yaşaya bilməz. Çünki bu respublikalar bir-birilə çox sıx bağlıdırlar. Əgər bunlar ayrılsalar, bu iqtisadi əlaqələr pozulsa, bu respublikalar müstəqil yaşaya bilməyəcəklər. Bu fikirlərin müəyyən əsası var idi. Mən bunu bəlkə də başqalarından yaxşı bilirəm. O vaxt sovet hakimiyyətinin siyasətinin əsas cəhətlərindən biri də bu idi - Sovetlər İttifaqının ərazisində olan bütün respublikaların iqtisadiyyatı bir-biri ilə o qədər bağlı idi ki, hansısa bir respublika ayrılmaq istəsə, bu, onun üçün mümkün olmasın, yaxud da böyük çətinliklər yaratsın. Burada həqiqət var idi. Ancaq bu həqiqət o dərəcədə deyildi ki, doğrudan da ayrılmaq mümkün olmasın.

Respublikaların bir-birindən fərqi var idi. Əgər iqtisadi nöqteyi-nəzərdən götürsək, o vaxtlar - Sovetlər İttifaqı dağılarkən təhlil aparılmışdı və bu təhlil göstərmişdi ki, on beş respublikadan iki respublika tam müstəqil yaşaya bilər. Onlardan biri Rusiyadır, ikincisi Azərbaycandır. Bunlar, bu qiymətlər iqtisadi nöqteyi-nəzərdən verilir. Şübhəsiz ki, indi Azərbaycanın iqtisadi potensialı, ərazisi, təbii sərvətləri, başqa imkanları olmasaydı, müstəqil yaşaya bilməzdi.

Düzdür, bizim müstəqilliyimizin qarşısında çox çətinliklər oldu, ancaq müstəqil yaşadıq və yaşayırıq. Ona görə də bizim iqtisadi potensalımız bizim sərvətimizdir. Bizim yeraltı sərvətlərimiz milli sərvətlərimizdir. Ölkəmizin təbiətinin bizə verdiyi faydalar milli sərvətimizdir. Ancaq bunlarla yanaşı, Azərbaycan xalqının milli sərvəti və intellektual mülkiyyəti eyni zamanda Azərbaycanın ədəbiyyatıdır, mədəniyyətidir. Ona görə də biz müstəqil dövlətimizi boş yerdə qurmağa başlamamışıq. Bizim iqtisadi potensialımız olduğu kimi, bir potensialımız da - intellektual potensialımız da vardır. Bizim mənəvi potensialımız - ədəbiyyatımız, mədəniyyətimiz intellektual potensialımızın əsasını təşkil edir. Bunu yaradanlar var. Bunu yaradanlar bizim xalqın dahi insanlarıdır. Onlar bəşər mədəniyyətini əsrlərdən əsrlərə zənginləşdirən əsərləri ilə Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradıblar.

Nizami, Xaqani, Nəsimi, Füzuli, Vaqif, Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov - bunlar hamısı XX əsrə qədər yaşaıb-yaradıblar. Amma XX əsrdə də bizim böyük şəxsiyyələrimiz olubdur. XIX əsrin sonu, XX əsrin əvvəli Azərbaycan ədəbiyyatının çox böyük, zəngin bir dövrü olubdur. Bu gün ədəbiyyatımız haqqında danışarkən biz bu dövrü çox yüksək qiymətləndirməliyik.

Bilirsiniz, bizim mədəniyyətimiz, ədəbiyyatımız özünəməxsus xarakter daşıyır. Öz kökümüzə görə biz Şərq, İslam ölkəsiyik. Çoxları hesab edirlər ki, biz Asiya qitəsində yerləşən bir ölkəyik. Azərbaycan Asiya ilə Avropanın birləşdiyi, qovuşduğu bir ərazidə yerləşən, amma Avropaya daxil olan bir ölkədir. Ancaq Azərbaycan öz kökünə, dini mənsubiyyətinə, ənənələrinə görə Şərq aləminə, İslam, türk dünyasına daxil olubdur. Bu qəbildən olan xalqlar, millətlər içərisində Azərbaycan xalqı XIX-XX əsrlərdə öz milli köklərindən ayrılmayaraq öz ədəbiyyatını, mədəniyyətini dünyanın inkişaf etmiş Qərb mədəniyyəti, ədəbiyyatı ilə birləşdirə bilibdir. Bizim milli ədəbiyyatımızı, mədəniyyətimizi Qərb mədəniyyəti, ədəbiyyatı ilə birləşdirən, onun sintezini yaradan insanlar çox uzaqgörən, müdrik insanlar olublar. Bunların nəticəsində keçən əsrin ortalarında Azərbaycanda teatr yaranıbdır. Azərbaycanda teatr yarananda heç bir Şərq ölkəsində teart olmayıbdır. Yaxud, bu əsrin əvvəllərində Azərbaycanın ilk milli operası yaranıbdır. Şərq aləmində ilk opera əsərini dahi Üzeyir Hacıbəyov yaradıbdır.

Biz indi latın əlifbasına keçirik. Görürsünüz ki, keçmək də çətindir. Bu barədə qərar qəbul edilərkən nə qədər müzakirələr gedirdi. Kimi deyirdi keçək, kimi deyirdi keçməyək. Hətta bəziləri deyirdi ki, gəlin ərəb əlifbasına qayıdaq. Xatirinizdədir, 1990-91-ci illərdə belə söhbətlər ge[107-108]dirdi. Qərar qəbul olunub, ancaq biz latın əlifbasına keçə bilmirik. Mən göstəriş vermişəm və bütün dövlət sənədləri latın əlifbası ilə yazılır. Ancaq onları başqa yerlərə göndərəndə çoxları oxumaqda çətinlik çəkirlər. Nə üçün belə olubdur?

Bu təbiidir, çünki bir əlifbadan başqasına keçmək asan deyil. Mənim xatirimdədir, 1939-cu ildə latın əlifdasından kiril əlifdasına keçəndə nə qədər böyük çətinliklər yarandı, - bilmirəm, burada oturanların bəlkə də bir çoxu onu xatırlamır, amma mənim xatirimdədir, bəli, mən orta məktəbi Azərbaycan dilində latın əlifbası ilə bitirmişəm, - indi də bu, həm təbii, həm də çətin prosesdir. Amma biz bu yolu keçəcəyik. Ancaq baxın, keçən əsrin, XIX əsrin ortalarında Mirzə Fətəli Axundov Azərbaycanda latın əlifbasını tətbiq etməyə çalışıbdır. Onun bu barədə fəaliyyəti məlumbur. Mən onun bir neçə məktubuna baxdım, arxivdəki məktublarının bəziləri ilə tanış oldum. Bunu keçmişdə də bilirdim, amma bu son zamanlar mən onu xatırladım, hafizəmdə bir daha təzələdim. O nə qədər uzaqgörən bir insan imiş! Çünki latın əlifbasını tətbiq etmək istəmişdir.

Xatirinizdədir ki, o, Tbilisidən İstanbula getmiş, iki ay çalışmış, hətta ona orada bir orden də vermişdilər, amma latın əlifbasını qəbul etməmişdilər.

Bu gün demək lazımdır ki, məhz sovet hakimiyyəti dövründə o vaxtkı insanlar 1926-cı ildə Azərbaycanda latın əlifbasının tətbiq edilməsinə nail oldular. Lakin ondan təxminən 10-11 il sonra latın əlifbasını bizim əlimizdən aldılar. İndi biz Mirzə Fətəli Axundovun XIX əsrin ortalarındakı arzularını, niyyətlərini həyata keçiririk. Amma ümidvaram ki, bunu əlimizdən daha heç kim ala bilməyəcəkdir. Çünki biz artıq müstəqil bir dövlətik və müstəqilliyimiz də daimidir, əbədidir.

Mən bu fikirlərlə XIX əsrin və XX əsrin Azərbaycan ədəbiyyatı üçün nə qədər məhsuldar olduğunu bildirmək [108-109] istəyirəm. Bu gün biz burada qurultay keçirərək müasir ədəbiyyatımız haqqında danışarkən bu ədəbiyyatı yaradanları, bu ədəbiyyatı inkişaf etdirənləri daim hörmət, ehtiram, münnətdarlıq hissi ilə yad etməliyik. Ona görə də təsadüfi deyil ki, biz Azərbaycanda yazıçıların, şairlərin yubileylərinin keçirilməsini böyük əhəmiyyətli bir hadisə hesab edirik. Bəziləri indi də buna bir az kəc baxırlar, «bu yubileylər nəyə lazımdır, indi bizim həyatımız çətindir, ağırdır», - deyirlər. Ancaq mən bu fikirlərlə heç vaxt razı olmamışam, bu gün də razı deyiləm. Əminəm ki, keçirilən hər bir belə yubiley bizim həyatımızda çox böyük yeni hissiyyatlar doğurur, yeni qüvvələr meydana gətirir. Biz gələcəkdə də şairlərimizin, yazıçılarımızın, mütəfəkkirlərimizin yubileylərini keçirəcəyik və hər bir belə yubiley xalqımızın bayramı olacaqdır.

Azərbaycanda yazıçıya, şairə hörmət və ehtiramın geniş olması haqqında fikirlərimi tamamlamaq üçün bir -iki məqama da toxunmaq istəyirəm. Azərbaycanda şairlərə, yazıçılara qoyulan heykəllər qədər heç bir insana heykəllər qoyulmayıbdır. Bunun özü ədəbiyyata, şairə, şerə, yazıçıya nə qədər böyük hörmətin olduğunu göstərir.

Burada Şuşanı, Vaqifin məqbərəsini yada saldılar. Bu mənim üçün çox əzizdir. Bəli, Vaqifin vəfatından 200 il sonra biz Şuşada onun məzarı üzərində əzəmətli bir məqbərə ucaltdıq. Bu, həm Vaqifin yaradıcılığına, həm də ümumiyyətlə ədəbiyyata, şerə, mədəniyyətə olan münasibətimiz idi. Biz nəhayət, çox çətinliklərdən sonra Hüseyn Cavidin məqbərəsini Naxçıvanda ucaltdıq. Azərbaycanda heç bir tarixi şəxsiyyətə məqbərə yoxdur, ancaq şairə, yazıçıya var. Amma gəlin açıq danışaq, bu xalqı yaşadanlar tək şairlər, yazıçılar olmayıbdır. Azərbaycanın padşahları da, sərkərdələri də, xanları da olubdur. Xanlıqlar zamanı müxtəlif dovlətlər olub, bu dövlətlərin başçıları olubdur. Azərbaycanın böyük dövlət xadimləri olubdur. Amma indi onların hansının heykəli, [109-110] yaxud məqbərəsi var? Amma şairlərin, yazıçıların var və olmalıdır, olacaqdır.

Mən bu fikirləri sizə çatdırmağa bəlkə çox vaxt sərf etdim, ancaq mən bununla sizə də, bizim cəmiyyətimizə də bir daha bildirmək istəyirəm ki, Azərbaycanda ədəbiyyata, mədəniyyətə daim böyük hörmət olubdur. Bu keçid dövründə, həyatımızın ağır dövründə də hörmət, qayğı var və bundan sonra da olacaqdır.

Qayğılar haqqında biz son görüşlərdə də danışdıq. Mən üçüncü gündür ki, ədəbiyyatla məşğulam. Bəziləri birinci gündür qurultaydadırlar, mən isə üç gündür ki, qurultaydayam, amma bundan məmnunam. Baxmayaraq ki, mənim başqa çox vacib işlərim qalıbdır, ancaq mən heyfslənmirəm. Dünən də, bundan əvvəlki gün də və bu gün də sizinlə birgə keçirdiyim saatları, vaxtı özüm üçün çox əhəmiyyətli hesab edirəm. Güman edirəm ki, bunların da nəticələri olacaqdır.

Bu günlər yazıçıya, ədəbiyyata qayğılar haqqında danışıldı. Siz bilirsiniz ki, keçmiş dövlət çərçivəsində bu qayğıları göstərmək çox çətin bir şey deyildi. Biz bunu edirdik və sizin hamınız da o qədər öyrənmişdiniz, elə bilirdiniz ki, şair anadan gələndən belə qayğı ilə əhatə olunmalıdır. Amma unutmuşdunuz ki, Füzuli də çox ağır vəziyyətdə yaşamışdır. Füzuli o şəraitdə yaşayıb-yaratmışdırsa, heç kəs deyə bilməz ki, onun çox böyük imkanları olmuşdur. Yaxud, götürün Mirzə Ələkbər Sabiri. O, hansı şəraitdə yaşayıb-yazmışdır - məlumdur, elədirmi? Yaxud, götürək Mirzə Cəlil Məmmədquluzadəni. O, hansı şəraitdə yaşayıbdır? Siz də bilirsiniz ki, ömrünün son illərində o, qəzetləri, bəzi kitablarını qış vaxtı peçdə yandırıb, onun istisinə qızınırmış. Bunu ki, bilirsiniz. Bu, bizim dövrümüzdə, 1932-ci ildə olubdur. Belə də olubdur.

Ancaq son dövrdə ümumiyyətlə dövlətin yazıçılar, şairlər üçün yaratdığı şərait artıq o qədər qanuniləşmişdi ki, hamı hesab edirdi daim belə olacaq, belə də olmalıdır. Ancaq o [110-111] quruluş dağıldı, biz o sistemdən imtina etdik və buna da heç vaxt heyfsilənməməliyik. Əksinə, sevinməliyik. Sevinməliyik ki, o quruluş, Sovet İttifaqı dağıldı. Sevinməliyik ona görə ki, əgər dağılmasaydı, biz dövlət müstəqilliyimizi əldə edə bilməzdik, bu mümkün deyildi. Ancaq bir halda ki, biz onun dağılmasını istəyirdik və istəyirdik ki, milli azadlığa çıxaq, müstəqil dövlət olaq, demək, bunun əzab-əziyyətini də çəkməliyik. Başqa cür ola da bilməz. Bu təbiidir.

Ancaq tərəziyə qoyanda - hansı ağır gəlir, hansı yüngül gəlir, - hamı bir səslə deyəcəkdir ki, bəli, müstəqillik naminə biz hər şeyə dözməliyik, müstəqillik naminə hər cətinliyə, hər əzab-əziyyətə dözməliyik. Ancaq bu çətinliklər daimi deyildir. Bunların da sonu var, bunlar müvəqqətidir. Mən bu gün bunu bir daha deyirəm və hesab edirəm ki, biz bu çətinliklərdən keçib gedəcəyik. Ancaq bu şəraitdə də biz keçmiş ənənələrə istinad edərək, - yəni siz onlara vərdiş etdiyinizə görə və biz də hesab edərək ki, doğrudan da gərək yazıçılar bu keçid dövründən bir balaca yüngül keçsinlər, - əlbəttə ki, imkan dairəsində müəyyən qayğılar göstərmək lazımdır.

Bəziləri haqqında burada dedilər. Bəziləri haqqında da mən fikirlərimi dünən və srağagün görüşlərdə bildirmişəm. Dünən də dedim və bu gün də bildirirəm ki, bu qurultay qurtarandan sonra mən onun yekunları ilə əlaqədar qərar qəbul edəcəyəm. Göstəriş vermişəm ki, belə bir qərar layihəsi hazırlasınlar. O qərarda imkan daxilində, nə mümkündür - nəzərdə tutulacaq. Məsələn, söz verdim ki, «Ulduz» jurnalının çıxmasını təmin edəcəyəm. Gənc yazıçılar var, onlar çətin şəraitdə yaşayırlar. Mən etiraz etmirəm, əgər Yazıçılar Birliyi zəmanət versə ki, bir il içərisində bunların hərəsi bir yaxşı əsər yarada bilər, mən bir il

müddətinə onlara yüksək məvacib təyin edə bilərəm. Onlar bu məvacibi alsınlar, [111-112] əsəri yazsınlar, əsər doğrudan da çox yaxşı olsa, ona da mükafat verərik.

Yəni belə addımlar atmaq olar. Yaxud mən bu günlərdə çox düşünürəm, - doğrudur, əgər mən bu qərarı qəbul etsəm, bir az təhlükəlidir, ancaq belə fikrə gəlmişəm ki, edəm, - ola bilər, bizim bir qrup ədəbiyyat, mədəniyyət xadimlərinə dövlətin, prezidentin ehtiyat fondundan xüsusi maaş təyin edim. Məsələn, bu maaş nə qədər ola bilər - on, on beş, iyirmi nəfərə. Bilirsiniz, bu, yenə bizim büdcəmizdən asılı olacaq ki, orada nə var. Ondan asılı olacaqdır (*Yerdən səs:* 500 nəfərin hamısına). Görürsünüz, dedim ki, bu təhlükəlidir. Gərək bunu deməyəydim. Ancaq güman edirəm ki, ayrı-ayrı addımlarla müəyyən bir dəyişiklik əldə etmək olar.

Amma bir söz də demək istəyirəm. Bunu əvvəlcədən deyirəm, - heç bir şeydə heç bir güzəşt olmayacaqdır. Bunu bilin. Bu mövzunu sonra sizə daha da geniş izah edəcəyəm. Biz sərbəst bazar iqtisadiyyatına gedirik. Sərbəst bazar iqtisadiyyatında bir adama güzəşt eləsən, o birisinə də eləmək lazımdır. Bilirsiniz, bu, bütün sistemi pozur. Heç bir güzəşt olmayacaqdır. Güzəştlə kim nə ala bilər - biz çalışırıq ki, bunu başqa vasitələrlə çatdıraq. Ancaq buna güzəşt olsun, ona güzəşt olsun - bunu etmək mümkün deyildir. Bunu açıqca bilin. Mən çox açıq danışan adamam. Həmişə, söz xoş gəlməsə də, mən onu açıq deməliyəm. İndi bizim maliyyə sistemimiz elədir ki, biz bütün güzəştləri ləğv etdik və edirik. Sona qədər ləğv edilməlidir, heç bir güzəşt qalmamalıdır. Çünki güzəşt ancaq sosialist iqtisadi sisteminə aiddir. Bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat sistemində güzəşt ola bilməz. İnsanlara başqa vasitələrlə kömək etmək olar. Amma güzəşt kimi yox, güzəşt olmayacaqdır. Biz başqa vasitələrlə kömək eməyə çalışacağıq.

Bizim qarşımızda çox vəzifələr durur. Şübhə yoxdur ki, bu vəzifələrin həyata keçirilməsində Yazıçılar Birliyi, hər bir [112-113] yazıçı, hər bir ədəbiyyat adamı gərək kənarda qalmasın, bizimlə bir yerdə olsun.

İdeologiya, milli ideologiya haqqında danışdılar. İndi keçmiş kommunist rejimində partiya tərəfindən hazırlanmış ideologiyamız yoxdur. Buna ehtiyac da yoxdur. Bizim ideologiyamız iki il bundan öncə Azərbaycanın qəbul etdiyi dövlət Konstitusiyasında öz əksini tapmışdır. Əsas o Konstitusiyadır. Çünki keçmişdə bizdə qanun işləmirdi, dövlətin, partiyanın ideoloji prisipləri, partiyanın ideoloji qərarları əsasında iş gedirdi. Amma indi qanun işləməlidir, çünki biz hüquqi dövlət qururuq. Əsas qanun da bizim Konstitusiyamızdır. Konstitusiyanı yaxşı bilmək, yaxşı təbliğ etmək lazımdır. Konstitusiyada yazılıb: Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurulur. Bəlkə bunlar sadə sözlərdir, artıq hamı üçün məlum sözlərdir. Amma bu sözlərin arxasında onu həyata keçirmək üçün çox böyük və gərgin iş durur. Böyük və gərgin iş də aparılmalıdır.

Biz bu işi aparırıq. Ancaq demokratik, hüquqi, dünyəvi dövlət qurmaq bir ilin, iki-üç ilin işi deyildir. Bunun üçün zaman lazımdır. Mən bunu görüşərkən də dedim, - üç-dörd gün öncə Türkiyə Cümhuriyyətinin 74 illik yubileyi münasibətilə Türkiyə televiziyası ilə bizim əziz və hörmətli dostumuz Süleyman Dəmirəlin böyük bir söhbətini dinlədim. O, 74 ildə Türkiyə Cümhuriyyətinin həyat yoluna təhlil verirdi. Göstərirdi ki, Osmanlı imperatorluğunun külü üzərində yaranan Türkiyə Cümhuriyyəti 74 il içərisində nə qədər çətin mərhələlərdən keçib gəlibdir. İndi qüdrətli, böyük bir dövlətdir, Dünya Biliyində özünəməxsus yeri tutubdur, ancaq onun bu gün də nə qədər problemləri , sıxıntıları, çətinlikləri var. Prezident Süleyman Dəmirəl televiziya ilə bunlar haqqında açıq-aşkar danışırdı. Sabahısı gün mən onunda telefonla danışarkən, bu barədə öz münasibətimi bildirərkən o mənə dedi və mən də belə düşünürəm ki, bəli, həmin yol, eyni [113-114] zamanda Türkiyənin qarşısında duran bugünkü məsələlər elə bizim də qarşımızda durur. O yolu biz də keçməliyik.

Əlbəttə, Türkiyə kimi bir dövlətin, cümhuriyyətin qurulması, inkişafı bizim üçün böyük örnəkdir. Ancaq xalqımızın, ölkəmizin, dövlətimizin özünəməxsus xüsusiyyətləri var. Biz dünya təcrübəsindən istifadə edirik və etməliyik. Ancaq öz milli, mənəvi ənənələrimiz əsasında, xalqımızın, həyatımızın xüsusiyyətlərini nəzərə alaraq öz dövlətimizi qururuq və quracağıq. Ona görə indi ən ümdə vəzifəmiz, ən şərəfli borcumuz hüquqi, dünyəvi, demokratik dövləti yaratmaqdır.

Bu işdə hamımız çalışmalıyıq, bir olmalıyıq. Siyasi dünyabaxışından asılı olmayaraq, - kim hansı partiyaya mənsubdur, hansı siyasi dünyabaxışı var - bundan asılı olmayaraq, bu məqsəddə biz hamımız bir olmalıyıq. Azərbaycanın başqa yolu yoxdur. Azərbaycan başqa yolla getməyəcək.

İqtisadiyyatın sahəsində biz artıq bunu elan etmişik və həyata keçiririk. Biz köhnə iqtisadi sistemdən imtina etmişik, keçid dövrünü yaşayırıq. İqtisadiyyatımızı yeni iqtisadi sistem əsasında qururuq. Artıq bizim nailiyyətlərimiz də var. Bazar iqtisadiyyatıdır, sərbəst iqtisadiyyatdır, iqtisadi islahatların həyata keçirilməsidir, - biz bu işləri görürük, əməli nəticələrini alırıq. Nəticələr də sevindiricidir.

Məsələn, iqtisadiyyat haqqında bir neçə rəqəmi sizə çatdırmaq istəyirəm ki, bugünkü vəziyyətimiz sizin üçün daha da aydın olsun. Ümumiyyətlə Azərbaycanda iqtisadiyyat həm Enmənistanın təcavüzü nəticəsində, həm də daxildə gedən ictimai-siyasi proseslər nəticəsində həddindən artıq pozulmuşdur. Keçmiş Sovetlər İttifaqına mənsub olan respublikalar içərisində, demək olar, iqtisadiyyatı ən pozulmuş, ən dağıdılmış respublika Azərbaycan Respublikasıdır. Bir tərəfdən Ermənistanın təcavüzü, müharibə bunu dağıdıb, ikinci tərəfdən də daxildə siyasi çəkişmələr, hərc-mərclik, özbaşınalıq, hakimiyyətsizlik, çəzasızlıq

- bunlar hamısı Azərbaycanın iqtisadiyyatını dağıdıbdır. Mən sizə dedim, Sovetlər İttifaqı dağılarkən böyük alimlər təhlil etdilər ki, iki respublika öz iqtisadiyyatına görə müstəqil yaşaya bilər - Rusiya, bir də Azərbaycan. Amma Azərbaycanın iqtisadiyyatı təxminən 1989-cu ildən, 1990-cı ildən o qədər dağıldı ki, indi biz, əlbəttə, o imkanları çoxdan itirdik.

Ancaq həyata keçirilən təbdirlər öz müsbət nəticəsini verir. Ona görə də biz bu yolla getməliyik, yəni sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə getməliyik. Biz bu sahədə çox işlər görmüşük - qanunlar, qərarlar qəbul etmişik, fərmanlar verilibdir, onlar həyata keçirilir. Biz özəlləşdirmə aparırıq, torpağın özəlləşdirilməsini, torpaq islahatı aparırıq. Torpağın özəllşədirilməsi haqqında qəbul etdiyimiz qanun ən radikal və eyni zamanda ən lazımlı və çox faydalı bir qanundur. Biz artıq onun nəticələrini görürük.

Təəssüf hissi ilə deyə bilərik ki, bizə bənzər olan bəzi respublikalarda hələ bu qanunu qəbul edə bilmirlər. Biz isə bunu qəbul etmişik, həyata keçiririk və nəticələrini görürük. İqtisadiyyatı sərbəstləşdirmişik, xarici ticarət sərbəstləşibdir və bunların nəticəsində Azərbaycana xarici sərmayə gəlir, xarici ölkələrin şirkətləri Azərbaycana gəlirlər. Bunlar hamısı Azərbaycanda iqtisadiyyatı canlandırıbdır.

Məsələn, iqtisadiyyatın göstəricilərinin bir neçəsini sizə deyim. 1989-1990-cı illərdən ümumi daxili məhsul istehsalı ilbəil 15-20 faiz aşağı düşürdü. 1995-ci ildə biz bunu dayandırmışıq. 1996-cı ildə ümumi daxili məhsul istehsalı 1,3 faiz, 1997-ci ilin doqquz ayında 5 faiz artıbdır. Bu çox yaxşı göstəricidir. Bəlkə hələ çoxları hiss etmir, amma bu, ümumi iqtisadiyyatımıza təsir edir.

Əvvəlki illərdə sənaye istehsalı hər il 20-25 faiz aşağı düşürdü. Biz keçən il onu dayandırmışıq. Sənaye istehsalı bu il az da olsa - 1 faizdən bir qədər az artıbdır. Kənd təsərrüfatında heyvandarlıq sektoru tamamilə özəlləşdirilibdir. [115-116] Bunun nəticəsində əhalinin ərzaqla - ətlə, südlə təmin olunması problemi aradan götürülübdür. Biz bunu daxili imkanlarımız vasitəsilə edirik. Torpaq islahatı gedir. Bunların nəticəsində kənd təsərrüfatı istehsalı bu il artmağa başlayıbdır.

Maliyyə sahəsində gördüyümüz işlər öz nəticəsini veribdir. 1994-cü ildə bir ildə 1600 faiz inflyasiya olmuşdur. 1995-ci ildə bu 84 faiz, 1996-cı ildə 6 faiz idi. Amma bu ilin doqquz ayı keçib, inflyasiya isə sıfırdır. İnflyasiyanı tamamilə boğduğumuz zaman bazarda qiymətlər də qalxmır, bahalaşmır. Əhalinin orta əmək haqqı təxminən 50 faiz artıbdır. Mədəniyyət sahəsində işləyən insanların əmək haqqı doqquz ay müddətində təxminən 60 faiz artıbdır və bu meyl davam edir.

Xarici ticarət sərbəstləşdirildiyinə görə onun həcmi xeyli artıbdır. Azərbaycana xarici investisiyalar çox gəlir. Keçən il Azərbaycana gələn xarici investisiyanın həcmi 600 milyon dollar olubdur. Bu sahədə Azərbaycaq MDB dövlətləri içərisində Rusiyadan sonra ikinci yerdədir. Amma adambaşına investisiyanın həcminə görə Azərbaycan birinci yerdədir. Bu ilin doqquz ayında Azərbaycana 700 milyon dollar xarici investisiya gəlibdir. Əgər keçən il Azərbaycanda 290 xarici şirkət fəaliyyət göstərirdisə, - mənə bu ilin doqquz ayının yekunlarını veriblər, - indi 500-dən artıq xarici şirkət fəaliyyət göstərir. Bu şirkətlərdə təxminən 15 min yerli adam işləyir.

Burada natiqlərdən biri belə fikir söylədi ki, o şirkətlərdə azərbaycanlılar nə üçün az maaş alır, xaricdən gələnlər isə çox maaş alırlar? Bəli, bu problemlər var. Eyni zamanda onlarda azərbaycanlıların sayını artırmaq problemi var. Biz bununla məşğuluq və xarici şirkətlərə şərt qoymuşuq ki, şirkətlərdə işləyənlərin əksəriyyəti yerli adamlar olmalıdır. Amma eyni zamanda onların özlərinin xüsusi mütəxəssisləri var, onları buraya gətirməli, işlətməlidirlər, bunsuz öz işlərini apara bilməzlər. Biz bunun qarşısını ala bilmərik. Amma onlarla əlaqələrimizdə qoyduğumuz şərt ondan ibarətdir ki, maksi[116-117]mum yerli adamlar işləsin və yerli adamlar da işləyirlər. Əgər indi bu şirkətlərdə 15 min azərbaycanlı işləyirsə, onların hər biri bizim başqa yerlərdə olan maaşa nistəbən yüksək maaş alırsa, bu, insanların həyat səviyyəsini nə qədər artırır.

Bilirsiniz ki, neft müqavilələri imzalamışıq. Üç il bundan öncə birinci neft müqaviləsini imzalayanda bəziləri buna inanmırdı, bəziləri qısqanclıq göstərirdi, bəziləri də açıq şəkildə bunun əleyhinə çıxırdı. Bizim o müqaviləmizi, demək olar, blokadaya almaq istədilər, - ala bilmədilər. İstədilər onun qarşısını arsınlar, - ala bilmədilər. Biz işimizi gördük və nəhayət, indi həmin o müqavilə nəticəsində neft hasil olub və noyabrın 12-də biz «Çıraq» yatağından ilk neftin hasilatını böyük mərasim, təntənə ilə qeyd edəcəyik. Mən bütün şirkətlərə, dövlət başçılarına dəvətnamə göndərmişəm, onları dəvət etmişəm.

Əgər üç il bundan qabaq Azərbaycanda bir müqavilə imzalandısa, indi 10 müqavilə imzalanıbdır. Ondan sonra üç il müddətində 9 müqavilə imzalanıbdır. 10 müqavilənin təxmini kapital qoyuluşu, yəni sərmayə qoyuluşu, dəyəri 30 milyard dollardır. Təsəvvür edin, əgər 30 milyard sərmayə qoyulacaqsa, ondan neçə qat artıq gəlir götürüləcəkdir. Bunlar hamısı Azərbaycanın gələcəyi üçündür. Şübhə etmirəm ki, biz bu addımlarımızla Azərbaycanın gələcəyini də təmin edəcəyik.

İlk müqavilənin həyata keçirilməsi təkcə neftin çıxarılması demək deyildir. «Çıraq» yatağından Səngəçal terminalına 179 kilometrlik neft kəməri çəkmişik. Səngəçalda böyük terminal tikmişik, bütün o yataqlardan çıxan nefti oraya gətirib başqa neft kəmərləri ilə ixrac etmək olar. 1996-cı ilin yanvarında Rusiya ilə imzaladığımız saziş həyata keçirilib və şimal istiqamətində neft kəməri işə başlayıbdır. Biz bu neft kəməri ilə Qara dənizin Novorossiysk limanına gündə 2500 ton neft ixrac edirik. Gürcüstan ərazisindən Qara dənizin Supsa limanına 860 kilometr uzunluğunda neft kəməri çəkirik, gələn ilin oktyabrında hazır

olacaqdır. Bunlar hamısı bir neçə ildən sonra başqa yataqlardan çıxan neftin dünya bazarlarına çıxarılmasını təmin edəcəkdir. Təkcə bizim sektorda yox, hesab edirəm ki, Qazaxıstandan çıxan neftin də, güman edirəm, gələcəkdə Türkmənistandan çıxan neftin də dünya bazarlarına ixrac olunmasının ən əlverişli yolu Azərbaycan üzərindən Avropaya, Türkiyəyə gedən neft kəmərləri olacaqdır. İqtisadiyyatımızın bugünkü gercəkliyi bunlardır.

Bununla yanaşı olaraq, iqtisadiyyatımızda çox ciddi dəyişikliklər əmələ gətirən bir tədbir də ondan ibarətdir ki, biz - Azərbaycan Gürcüstan, Mərkəzi Asiya dövlətləri ilə birlikdə Asiya - Avropa nəqliyyat dəhlizi yaratmışıq. İndi Mərkəzi Asiyadan Avropaya gedən yüklərin bir qismi, gələcəkdə isə çox hissəsi bu yolla gedəcəkdir. Yəni Mərkəzi Asiyadan Türkmənistanın Türkmənbaşı limanına, oradan Xəzər dənizi vasitəsilə gəmi-bərələrlə Bakı limanına, buradan dəmir yolu vasitəsilə Gürcüstanın Poti limanına, oradan da Qara dəniz vasitəsilə Avropanın bir çox ölkələrinə gedəcəkdir. Gələcəkdə Qazaxıstandan Xəzər dənizinin dibi ilə Bakıya yeni bir neft kəməri çəkilməsi də nəzərdə tutulubdur. Bunlar hamısı Azərbaycanın öz təbii sərvətlərindən istifadə olunması ilə yanaşı, Azərbaycanı Mərkəzi Asiya ilə birləşdirən böyük bir bölgəyə çeviribdir. Buradan gedən nəqliyyat yolları, həm boru xətləri - neft və qaz kəmərləri, şübhəsiz ki, Azərbaycanın iqtisadiyyatına çox böyük müsbət təsir göstərəcəkdir.

Bizim iqtisadi islahatlarımız və gördüyümüz dünya miqyaslı qlobal işlərimiz bir neçə vaxtdan, qısa müddətdən sonra iqtisadiyyatımıza böyük dəyişikliklər gətirəcəkdir. Onda bizim ədəbiyyata, mədəniyyətə olan qayğımızı da artırmağa imkanımız olacaqdır. Ancaq yenə də deyirəm, indiki mövcud şəraitdə də əlimizdə olan imkanlardan istifadə edəcəyik.

Burada fondun yaranması haqqında da fikir söyləndi. Mən bunu görüşdə də dedim. Bir neçə ildir belə təkliflər alıram ki, [118-119] bir fond yaransın - «Heydər Əliyev fondu» - və bu fonddan mədəniyyətin, istedadlı adamların, ədəbiyyatın inkişafına və başqa sahələrə yardım üçün istifadə olunsun. İndi artıq görürəm ki, doğrudan da belə bir fondun yaranması zəruriyyəti gəlib çatıbdır, baxmayaraq ki, bir neçə ildir bu söhbət gedir. Sizinlə görüşlərdən sonra mən yəqin ki, bu fondun yaranması haqqında də qərar qəbul edəcəyəm. Əgər bunu edə bilsəm, onda, şübhəsiz ki, bu mənbədən də sizə yardımlar, kömək etmək imkanı olacaqdır.

Ancaq bunlarla yanaşı, bizim ən əsas vəzifəmiz, ən ümdə borcumuz Azərbaycanın işğal olunmuş torpaqlarını azad etmək, ərazi bütövlüyünü bərpa etmək və yerindən-yurdundan didərgin düşmüş bir milyona qədər Azərbaycan vətəndaşını öz evinə, yurduna qaytarmaqdır.

Bu sahədə görülən işlər sizə məlumdur. Biz mətbuat, televiziya vasitəsilə bunları ictimaiyyətə, o cümlədən sizlərə çatdırırıq, bunu bilirsiniz. Ancaq bu görüşdən istifadə edərək onu demək istəyirəm ki, birincisi, məmnunam ki, siz atəşin dayandırılması haqqında qəbul etdiyimiz qərarı bəyəndiniz və bunu bəyəndiyinizi bu gün də bildirirsiniz. Bu, bizim üçün çox vacibdir.

1988-ci ildən Azərbaycana təcavüz başlanmışdır. Hesab edirəm ki, bu təcavüzün qarşısını almaq olardı. Ancaq o vaxt bunun qarşısı alınmadı. Əgər bu təcavüzün qarşısı dövlət - o vaxtkı Sovet İttifaqı tərəfindən alınmadısa, Azərbaycan xalqı öz torpaqlarını qorumağa qadir bir xalqdır, ancaq bunu təşkil etmək lazım idi. Amma o illərdə bu da təşkil olunmadı. Xatirinizdədir, 1989-cu ildə Ermənistanda xalq silahlanmışdı. Hətta o vaxt Sovetlər İttifaqının prezidenti Qorbaçov Ermənistanda əhalinin tərksilah edilməsi haqqında xüsusi bir fərman verdi. Nə üçün Enmənistanda xalq silahlanmışdı? Nəyə görə? Aydındır ki, burada, Azərbaycanda düşünmək lazım idi ki, məhz Azərbaycana təcavüz etmək üçün. 1988-ci [119-120] ilin əvvəlində artıq Qarabağ münaqişəsi başlanmışdı. Demək, hətta daim Enmənistana havadarlıq, himayəçilik edən Sovet İttifaqı rəhbərliyi və şəxsən Qorbaçov 1989-cu ildə elə bir məcburiyyətə gəldi ki, Ermənistanda əhalidə olan qeyri-qanuni silahların yığılması barədə fərman verdi. Gərək onda burada hamı ayılaydı ki, Ermənistan nə üçün bu qədər silah əldə edibdir. Ancaq burada insanlar ayılmadılar, onun qarşısını almaq üçün lazımi qüvvə toplamadılar. Amma bunu etmək olardı.

Doğrudur, Qorbaçovun fərmanı yerinə yetirilmədi, Ermənistanın əhalisi öz silahlarını əlindən vermədi, bunlar hamısı Azərbaycanın torpaqlarının zəbt edilməsində istifadə olundu. Bunlar hamısı keçmişdə buraxılmış bağışlanmaz səhvlərdir. Azərbaycanın torpaqları bunların nəticəsində işğal olundu.

20 Yanvar faciəsi. 20 Yanvar Azərbaycanın tarixində ən dəhşətli faciədir. Bunu Azərbaycana qarşı etdilər, o vaxtkı sovet hakimiyyəti bunu başqa heç bir xalqa qarşı etmədi. Bunu etdi ki, Azərbaycanın iradəsini qırsın və təəssüflər olsun ki, çoxlarının da iradəsi qırıldı. Beləliklə, Azərbaycan torpaqlarını müdafiə etmək mümkün olmadı. Daxildə gedən ictimai-siyasi proseslər, hakimiyyət mübarizəsi, çəkişmələr, vuruşmalar - bunlar hamısı imkan verdi ki, Azərbaycanın torpaqları işğal edilsin.

**Bəxtiyar Vahabzadə:** Sözünüzü kəsdiyimə görə üzr istəyirəm, Heydər müəllim. O vaxt əmr çıxdı ki, Azərbaycanda ov, quş tüfəngləri də yığılsın.

**Heydər Əliyev:** Bəli, doğru deyirsiniz. İş bundadır ki, bizimkilər ov tüfənglərini yığdılar, amma ermənilər böyük-böyük silahları yığmadılar. İş də bundadır.

Bilirsiniz, yanvar hadisələri haqqında danışanda həmişə mənim əsəblərim çox coşur və rahat danışa bilmirəm. Çünki bu, xalqımıza qarşı elə bir dəhşətli cinayət idi ki, bunu heç vaxt unutmaq olmaz, heç vazt unutmamalıyıq. O vaxt bizim dövlət [120-121] adamları bunun əleyhinə çıxmadılar, bu barədə öz sözlərini deyə bilmədilər,

üstünü örtüb basdırmağa çalışdılar. Ancaq siz - ədəbiyyat adamları və xüsusən yenə də Bəxtiyar Vahabzadə, Xəlil Rza kimi insanlar o təcavüzün qarşısına çıxdılar.

Yenə də gəlin açıq danışaq, bir halda ki, mən bu mövzuya toxundum, bunu deməyə bilmirəm. Bizim xalqımız yenə də ardıcıl olmadı. Bir müddətdən sonra bizdə ehtiraslar soyudu.

(*yerdən səs:* gözləri qorxdu). Bəli, amma gərək qorxmayaydı. Bəli, Xəlil Rzanı da tutdular, başqalarını da tutdular. Nə olsun tutdular? Tutulmaq da olar, qurban da getmək olar. Amma gərək xalqın naminə iradəni itirməyəsən.

Mən bunu bir dəfə demişəm, bir də deyirəm. Ondan bir il öncə, 1989-cu ildə Tbilisidə bir hadisə olmuşdu - meydanda on beş nəfər adam həlak olmuşdu. O vaxt Gürcüstanın qabaqcıl insanları, o cümlədən mədəniyyət xadimləri Ali Sovetin sessiyasında Qorbaçovu məcbur etdilər ki, gürcü xalqından üzr istəsin. Amma bizim xalqımızdan üzr istəmədilər. Əksinə, çalışdılar ki, bu hadisənin üstünü basdırsınlar və basdırdılar. Bunlar hamısı faciələrə gətirib çıxardı.

Nəhayət, 1993-cü ildə, 1994-cü ilin əvvəlində torpaqlarımızın müdafiəsi üçün bizim qızğın döyüşlərimiz getdi. Ancaq o vaxt biz belə fikrə gəldik ki, atəşi dayandırmaq daha düzgündür, nəinki bu müharibəni davam etdirmək. Üç il beş aydır ki, atəş yoxdur, sülhdür. Yəni atəşkəsdir, tamam sülh yoxdur. Hesab edirəm ki, bu, müharibədən qat-qat yaxşıdır.

Ancaq bu o demək deyil ki, biz yaranmış vəziyyətlə razılaşmışıq, yox. Biz danışıqlar aparırıq və sizə məlumdur ki, son addımlarımız da çox uğurlu olmuşdur. Xüsusən 1996-cı ilin dekabrında ATƏT-in Lissabon zirvə görüşündə bir çox uğurlu nəticə əldə etdik: ilk dəfə Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinin prinsipləri qəbul olundu. Ondan sonrakı proseslər, hesab edirəm, müsbət istiqamətdə gedir. Minsk qrupunun həmsədrləri - Rusiya, [121-122] Amerika, Fransa yeni təkliflər veriblər. Son təklif məsələnin iki mərhələdə həll olunmasıdır. Yəni, birinci mərhələdə Dağlıq Qarabağ ətrafında zəbt olunmuş altı rayonun işğalçı qüvvələrdən azad edilməsi, ikinci mərhələdə Laçın, Şuşa rayonlarının işğalçı qüvvlərdən azad olunması və bununla bərabər Dağlıq Qarabağın statusunun müəyyən edilməsi.

Biz bu təkliflərə razılıq vermişik. Ermənistanın rəhbərliyi də buna razılıq veribdir. Bildirmək istəyirəm ki, indiyə qədər Ermənistan rəhbərliyi belə təkliflərin heç birinə razılıq vermirdi. Bilirsiniz, 1996-cı ilin dekabrında Lissabon zirvə görüşündə bizim apardığımız çox gərgin işlərin nəticəsində Lissabon bəyanatı qəbul olunandan sonra Ermənistan prezidenti bəyanat verdi ki, o, qəbul edilən sənədlə razı deyil, Dağlıq Qarabağ heç vaxt Azərbaycanın tərkibində ola bilməz. Bir çox sözlər dedi ki, guya Dağlıq Qarabağ soyqırımı təhlükəsi altında olacaq və Dağlıq Qarabağ mütləq müstəqil olmalıdır. Amma bir neçə ay keçəndən sonra - indi Ermənistanın rəhbərliyi bu təklifə razılıq veribdir.

Biz bunu indiki mərhələdə münasib təklif hesab edirik və bu sahədə danışıqlar aparacağıq. Doğrudur, bu danışıqlar da çətin olacaq. Çünki prinsip etibarilə onlar da razılıq veriblər, biz də razılıq vermişik. Ortada Dağlıq Qarabağın adamları var, onlar bununla tam razı deyillər. Müzakirə zamanı həm onlar, həm də biz tərəfdən ayrı-ayrı məsələlər meydana çıxacaqdır. Bu, o qədər asan, hamar keçməyəcəkdir. Ancaq hesab edirəm ki, bu, məsələnin sülh yolu ilə həlli üçün ən münasib yoldur və biz bu yolla getməliyik.

Bu yolla getməkdə də artıq dünya dövlətlərinin dəstəyini almışıq. Bilirsiniz ki, bu son dörd il içərisində Azərbaycanın dünya miqyasında mövqeləri tamamilə dəyişibdir. Yəqin mətbuatdan, televiziya verilişlərindən bunu görürsünüz. Məsələn, Ermənistana həmişə çox sıx münasibət göstərən Fransa hökuməti və onun prezidenti Minsk qrupunun [122-123] həmsədri olmaq vəzifəsini öz təşəbbüsü ilə üzərinə götürdü. Prezident Jak Şirak ilə görüşlərim məni belə qənaətə gətirib ki, o, məsələnin həqiqətən ədalətlə həll olunması mövqeyində durur.

Bilirsiniz, Amerikanın prezidenti avqustun 1-də mən onunla görüşdüyüm zaman bu barədə öz fikirlərini qəti bildirib və bizim imzaladığımız birgə bəyanatda yazılıb ki, məsələ Lissabon prinsipləri əsasında həll olunmalıdır.

Mən Rusiyanın prezidenti ilə bir neçə gəfə görüşlər, danışıqlar keçirmişəm. Son dəfə Kişinyovda, Moldovada görüşümüz olubdur. Rusiya da, prezident Boris Yeltsin də bu mövqeyindən çəkilmir və məsələnin Lissabon zirvə görüşündə qəbul edilmiş prinsiplər əsasında həllinə tərəfdar çıxır, bu barədə öz səylərini qoyur.

Beləliklə, bu məsələnin həll edilməsi üçün indiyə qədər mümkün olmayan bir şərait yaranıbdır. Ancaq hələ bu da məsələnin həll olunması deyildir. Qarşımızdı çox çətin danışıq prosesi var. Biz danışıq prosesini bu prinsiplər əsasında aparacağıq. Güman edirəm, siz də razı olarsınız ki, məhz bu yolla məsələnin həllinə nail olaq. Təsəvvür edin, əgər işğal olunmuş altı rayon azad edilsə, insanlar oraya qayıtsa, orada həyat başlasa, bu, ümumiyyətlə, məsələnin həlli üçün böyük bir hadisə olacaqdır. Ondan sonra ikinci mərhələni həll edə bilsək, bu, tamamilə məsələnin sülh yolu ilə həllinə gətirib çıxaracaqdır.

Bilirsiniz, mən bunu bir neçə dəfə demişəm və sizin də qarşınızda deyirəm. Tale Enmənistanla Azərbaycanın qonşu yaşamasını bizə qismət edibdir. Biz bu qonşuluqdan çəkilə bilmərik, Enmənistan da çəkilə bilməz. Bu qonşuluqda biz sülh yaratmalıyıq və sülh şəraitində yaşamalıyıq - şübhəsiz ki, Azərbaycanın milli mənafelərinə, ərazi bütövlüyünə heç bir zərər dəymədən. Azərbaycanın ərazi bütövlüyünü,

milli mənafelərini qoruyaraq, biz eyni zamanda sülhə nail olmalıyıq. Çünki daim müharibə şəratində, müharibə təhlükəsində yaşamaq, daim düşmənçilik münasibətləri şəraitində yaşamaq mümkün deyildir. Biz bunu dərk elməliyik.

Azərbaycanın təbii sərvətləri, iqtisadiyyatımızın perspektivləri o qədər böyük imkanlar yaradır ki, əgər biz tam sülh əldə edə bilsək, bu imkanlardan səmərəli istifadə edə bilərik, müstəqil dövlətimiz də yaşayar, xalqımızın rifahı da yaxşılaşar və Qafqazda da sülh əldə etmək mümkün olar.

Ümumiyyətlə, Qafqaz indi dünyanın ən çətin, ağır, ən qarışıq bir bölgəsidir. Biz Qafqazın şimalında, yəni Şimali Qafqazda da sülhün bərqərar olmasını istəyirik. Dağıstanla qonşuyuq, orada da sabitliyin əldə olunmasını istəyirik. Başqa qonşularımızla da sülh və əmin-amanlıq şəraitində yaşamaq istyirik. Ümumiyyətlə, bölgəmizdə sülhün təmin edilməsini istəyirik. Budur bizim siyasətimiz, gördüyümüz işlər. Amma bu işlər asanlıqla həyata keçirilmir, çox böyük zəhmət, çox böyük vaxt tələb edir və mən hesab edirəm ki, bu işin naminə çəkilən zəhmət və itirilən vaxt heç də hədər deyildir. Çünki bu, bizim əsas məqsədimiz, vəzifəmizdir.

Bu sahədə də sizin dəstəyinizə, köməyinizə ehtiyacımız var. Mədəniyyət, ədəbiyyat gərək daim dövlətlə bir yerdə olsun. Bu baxımdan sizə bir neçə fikrimi demək istəyirəm. Keçmiş qurultaylardan fərqli olaraq, görürsünüz ki, mən sizə «hansı mövzuda yazmalısınız, nə cür yazmalısınız» kimi göstərişlər, heç məsləhətlər də vermək istəmirəm. Vermək istəmirəm, heç olmayacaq da. Siz tam sərbəstsiniz, azadsınız və sərbəstlik, azadlıq şəraitində nə cür istəyirsinzsə, o cür də yazın. Hansı mövzunu götürürsünüz-götürün, sizin öz işinizdir. Dövlət bu işlərə qarışmayacaqdır. Mən bunu sizə tam qətiyyətlə deyirəm.

Ancaq hesab edirəm, bir məsələdə siz daha da yaxından iştirak etməlisiniz. Bu məsələ də Azərbacanın ərazi bütövlüyünün bərpa olunması, işğal edilmiş torpaqlarımızın azad olunması, Azərbaycanın qüdrətli ordusunun yaradılması, [124-125] Azərbaycan vətəndaşlarının hərbi vətənpərvərlik, ümumiyyətlə, vətənpərvərlik ruhunda tərbiyələndirilməsi, Azərbaycan gənclərinin hərbi vətənpərvərlik ruhunda tərbiyəsinin möhkəmləndirilməsidir. Bu, çox vacibdir, çox lazımdır.

Bilirsiniz, bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xibmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız, öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir. Bəzi əsərlər var ki, onlar açıq-açığına xalqımıza milli dirçəliş, oyanış hissiyyatları çatdırıbdır: Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın, başqalarının əsərləri. Amma digər əsərlər isə dolayısı ilə, ayrı-ayrı fikirlərlə millətimizdə vətəni sevmək, vətənə sadiq olmaq, Azərbaycanı sevmək, azərbaycanlı olmaq hissiyyatlarını yaradıbdır.

Bu, bizim şairlərimizin, yazıçılarımızın əsərlərinin hamısından keçibdir. Klassik adlandırdığımız Səməd Vurğunun əsərlərindən də, Rəsul Rzanın əsərlərindən də, Süleyman Rüstəmin əsərlərindən də, Məmməd Rahimin əsərlərindən də, Osman Sarıvəllinin əsərlərindən də, Süleyman Rəhimovun, Mehdi Hüseynin, Əbülhəsənin, Əli Vəliyevin, Mir Cəlalın, İlyas Əfəndiyevin, Mirvarid Dilbazinin əsərlərindən də keçibdir.

(*Yerdən səs:* Məmməd Səid Ordubadinin). Mən son vaxtı deyirəm, bəli, Məmməd Səid Ordubadi, Hüseyn Cavid, Cəfər Cabbarlı - bunlar şübhəsizdir. Mən 40-cı, 50-ci illəri, yəni 1937-38-ci illərdən sonra yaranmış ədəbiyyatı sayıram. Əsrin əvvəlində - 1910-cu, 1920–30-cu illərdə bizim böyük şairlərimizin, yazıçılarımızın əsərləri ancaq millilik, vətənpərvərlik, millətçilik hissləri ilə yazılmışdır.

Ancaq sonrakı dövrü mən ona görə xüsusi vurğulayıram ki, 1937-38-ci illərdə bizim ədəbiyyatımıza böyük zərbə vuruldu, böyük itkilərimiz oldu. Hüseyn Cavid, Mikayıl Müşfiq, [125-126] Əhməd Cavad, Çəmənzəminli və başqaları. Anar dedi ki, 27 şair və yazıçı 1937-38-ci illərin qurbanları oldu. Ancaq mən ondan sonrakı ədəbiyyatı inkişaf etdirən yazıçılarımızı, şairlərimizi deyirəm. Onların əsərlərində milli hissiyyatlar həmişə olubdur. Elə burada, rəyasət heyətində oturan şairlərimizin, yazıçılarımızın əksəriyyətində biz bunları hiss etmişik.

Əgər şair Azərbaycanı vəsf edirsə və Azərbaycanın nə qədər gözəl, nə qədər qüdrətli, nə qədər iftixar hissi doğuran bir ölkə olduğunu öz şerində göstərirsə, demək, bu, hər bir azərbaycanlıda öz Azərbaycanına, Vətəninə, torpağına məhəbbət hissi yaradır. Yaxud torpaq, Vətən haqqında yazılan şerlər. Müharibə vaxtı, - mən İkinci dünya müharibəsini, Vətən müharibəsini deyirəm - şairlərimizin, yazıçılarımızın vətənpərvərlik haqqında yazdığı əsərləri götürək. Onda vətənpərvərlik deyəndə, hər kəs öz vətənini hesab edirdi. Azərbaycanlı hesab edirdi ki, o, azərbaycanlıdır, vətənpərvərdir, təkcə Sovet İttifaqını nəzərdə tutmurdu ki!

İndi yaşa dolmuş və 60-70-ci illərdə gənc olan yazıçılarımız və şairlərimiz də bu sahədə çox böyük xidmətlər göstərmişlər. Məsələn, mən «Qobustan» jurnalını xatırlayıram. O yarananda əleyhinə nə qədər cürbəcür hərəkətlər oldu. Mənim xatirimdədir, biri gəlirdi ki, nə bilim, millətçilik ideyaları yayır, biri gəlirdi ki, bizim quruluşun əleyhinə ideyalar yayır, biri o tərəfdən, biri bu tərəfdən gəlirdi. Mən də götürürdüm, baxırdım bu «Qobustan» jurnalına, görürdüm burada bunların dedikləri şey yoxdur, amma bizim üçün lazımi şeylər çoxdur. Ona görə də «Qobustan» jurnalı yaşadı. Bu gün məmnuniyyət hissi ilə deyirəm - «Qobustan» jurnalı o vaxt çox böyük işlər gördü.

Amma təkcə «Qobustan» jurnalı deyildi, «Azərbaycan» jurnalını, «Ulduz» jurnalını götürün. Bunlar dövlət jurnalları idi, amma bu jurnallarda siz nə istəyirdiniz, onu da dərc [126-127] edirdiniz, heç bir məhdudiyyət yox idi. Kim nə istəyirdi, onu dərc etdirirdi. Mən bu gün iftixar hissi ilə deyə bilərəm: 1969-cu ildən - Azərbaycanın rəhbəri olduğum zamandan indiyə qədər bir şairin, bir yazıçının əsəri qadağan edilməyibdir, bir şairin, bir yazıçının əsərinin qarşısı alınmayıbdır. Həqiqətdir, elədirmi?

Amma keçən şeyləri indi açmaq olar. Gəlib nə qədər şikayət edirdilər, elə sizin özünüzün içərinizdən. Biri gəlirdi, deyirdi bu, pantürkistdir, biri deyirdi bu, paniranistdir, biri deyirdi, nə bilim, bu, Türkiyənin casusudur, biri deyirdi bu, İranın casusudur, biri deyirdi bu, sovet hökumətinin əleyhinədir, biri deyirdi bunun babası da sovet hökumətinin əleyhinə olub, özü də sovet hökumətinin əleyhinə gedir. Nə qədər gəlirdilər, deyirdilər və nə qədər çalışırdılar ki, bu əsərlərin qarşısını alsınlar. İki nöqteyi-nəzərdən əsərlərin qarşısını almaq istəyirdilər: birincisi, guya millətçilik və vətənpərvərlik hissi ilə dolu olan əsərlərin, ikincisi də o vaxtlar bizim həyatımızda olan mənfi halları tənqid edən əsərlərin qarşısını almaq istəyirdilər. Amma siz də bilirsiniz ki, 1969-cu ildə mən Azərbaycana rəhbər seçilən gündən Azərbaycanın həyatında olan eybəcərlikləri, mənfi cəhətləri daim tənqid etmişəm və onlarla mübarizə aparmışam. Ona görə də gəlib mənə deyəndə ki, Anar « Şəhərin yay günləri» pyesi yazıbdır, orada bizim quruluşun əleyhinə gedir, filan edir, dedim - yaxşı, gedib baxaram. Gəldim, baxdım, çox da təriflədim, mükafat da verdim.

Yaxud da ki, bir film vardı - «Bir cənub şəhərində» – 70-ci ildə qadağan eləmişdilər. Onu Rüstəm İbrahimbəyovla Eldar Quliyev çəkmişdilər.

Mən onda hələ respublikanın rəhbəri deyildim, KQB-nin başçısı idim. Gedib baxıb gördüm ki, çox yaxşı filmdir, əsl həqiqətləri göstərir. Sonra o filmə yol açdıq, film də çox böyük uğurla yaşadı. [127-128]

Yaxud Rüstəm İbrahimbəyov «İstintaq» filmini çəkmişdi. Onun əleyhinə nə qədər çıxışlar etdilər. Amma o filmin mövzusunu mən özüm vermişdim. Yəni mən bu mövzunu birbaşa verməmişdim. Mənim gördüyüm işləri, apardığım mübarizəni, ifşa etdiyim mafiozları, korrupsiyaçıları, rüşvətxorları Rüstəm İbrahimbəyov filmə çəkmişdi. Çox gözəl, yaxşı bir film yaratmışdı. Bəli, həmin filmə o vaxtlar SSRİ-nin dövlət mükafatını verdilər. Bu, həm də bizim hörmətimizi, nüfuzumuzu yüksəltdi. Amma gəlib mənə onun əleyhinə nə qədər sözlər dedilər. Mən iki dəfə o filmə baxdım. Bütün büro üzvlərini yığdım, gəldilər baxdılar. Qurtarandan sonra hərə bir fikir söylədi. Dedim, gedin. Filmi isə ekranlara buraxdıq.

Mən bu gün deməliyəm ki, Azərbaycanda dissident olmayıbdır. Amma sizin çoxlarınız dissident olmusunuz. Sizin dissident olmağınızı müsbət mənada deyirəm. Yaxşı ki, siz dissident olmusunuz. Əgər dissident olmasaydınız, Azərbaycan xalqında bu milli ruhu, əhval-ruhiyyəni qaldıra bilməzdiniz. Əgər Bəxtiyar Vahabzadə dissident olmasaydı, Azərbaycan xalqının, gənclərin şüuruna təsir edə bilməzdi. Əgər Xəlil Rza dissident olmasaydı, onun əsərlərinin təsiri güclü olmazdı. Bu gün bunları müsbət qiymətləndiririk. Əgər o vaxtlar onlar təqib olunmayıbsa, başqa yerlərdə olduğu kimi, onları dissident adlandırmayıblarsa, onları nədənsə məhrum etməyiblərsə, demək, bu da bizim nailiyyətimizdir, bu da bizim o vaxtlar, çətin dövrdə apardığımız düzgün siyasətin nəticəsidir.

**A n a r:** Heydər müəllim, bağışlayın, sözünüzü kəsirəm. Bir dəfə Siz özünüz dediniz ki, o vaxt elə ən böyük dissident mən özüm olmuşam.

**H e y d ə r Ə l i y e v:** O da doğrudur. Düzdür, mən nə şer yazanam, nə roman yazanam, nə hekayə yazanam. Mən ömrüm boyu siyasətlə məşğul olmuşam. Ancaq 1969-cu ildən başlayaraq 1987-ci ildə istefaya getdiyim zamanadək kom[128-129]munist partiyasında ən böyük dissidentlərdən biri mən olmuşam. Heç də təsadüfi deyil ki, kommunist partiyasına o qədər xidmət edən bir adam - yəni mən, həqiqətən kommunist partiyasına xidmət etmişəm - 1990-cı ilin yanvar hadisələrindən sonra kommunist partiyasını tərk etmişəm. Azərbaycanda bunu etməyə adi adamların cəsarəti çatmadı. Amma mən böyük çətinliklər içərisində və böyük təhlükə altında kommunsit partiyasını tərk etdim. Mən adicə tərk etmədim, mənim bu barədə bəyanatım qəzetlərdə dərc olunub, oxumusunuz. Mən ittiham verdim, bildirdim ki, niyə görə kommunist partiyasını tərk edirəm.

Ümumiyyətlə, mən nə etmişəmsə, hamısını şüurlu etmişəm. Heç bir şeyi şüursuz etməmişəm. Bütün keçmişimə, həyatıma görə, bütün gördüyüm işlərə görə də heyfsilənmirəm. Hesab edirəm ki, hamısını xalqın naminə, millətin naminə və doğma Azərbaycanın naminə etmişəm.

Mənim bu gün sizə müraciətim ondan ibarətdir ki, çox sağ olun ki, indiyədək xalqımızı vətənpərvər etmisiniz, millətini sevən etmisiniz, millətinin qayğısına qalan etmisiniz. Xalqımızın əksəriyyəti belədir. Ancaq bu proses davam etməlidir. Xalqımızı daha da vətənpərvər etmək lazımdır. Bilirsiniz, Ermənistan tərəfindən torpaqlarımızın 20 faizinin işğal edilməsinə dözə bilmirəm. Dözə bilmirəm ki, Azərbaycan əsgəri erməni əsgərindən gücsüz olubdur, geri çəkilibdir. Bu, daim mənə əzab verir. Nə üçün, nəyə görə? Bizim xalqımız ermənilərdən zəifmi xalqdır? Və yaxud respublikamız Ermənistan Respublikasından kiçikdirmi? Doğrudur, bunun başqa səbəbləri var. Mən bunu dəfələrlə demişəm.

Moskva Ermənistana həmişə kömək edibdir, təəssüflər olsun ki, bu gün də kömək edir. Buna baxmayaraq, bizim xalqımız qadirdir ki, bir qarış torpağımızı da Ermənistana verməsin. Biz buna qadirik. Olan olub, keçən keçib. Amma indi gərək biz ordumuzu möhkəmləndirək. Ona görə yox ki, [129-130] biz

müharibə etmək istəyirik. Mənim siyasətim bölgədə sülh yaratmaqdır, həmçinin Ermənistanla da sülh, qonşuluq əlaqələri yaratmaqdır. Kim bunu nə gür qiymətləndirir, qoy qiymətləndirsin. Bu, mənim siyasətimdir. Bir müstəqil dövlət kimi Azərbaycanın gərək güclü ordusu olsun. Ona görə ki, əgər kimsə yenidən Azərbaycan torpağına hücum etmək istəsə, onun qarşısını ala bilək, biz keçmiş vəziyyətə düşməyək. Onun üçün də biz gənclərimizi daha da çox vətənpərvərlik hissiyyatları ilə tərbiyələndirməliyik. Siz gərək ordumuzla yaxın əlaqədə olasınız. Burada kimsə sizi ittiham etdi ki, cəbhəyə getmisiniz, şəhid olmusunuz, ya yox? Şairin şəhid olması lazım deyil. Amma şairin daim ordunun içərisində olması, əsgərlərlə görüşüb söhbət aparması, onlara vətənin nə demək olduğunu, torpağın nə demək olduğunu, müstəqilliyin nə demək oldbuğunu anlatması çox vacibdir. Bir var ki, bunu əsgərə komandir desin və yaxud məndən eşidə, bir də var ki, hörmətli şair, yazıçı gedib öz bədii fikri, sözü ilə onu anlatsın ki, sən müstəqil Azərbaycanın keşiyindəsən.

Gənclərimizin düzgün tərbiyə olunması və Azərbaycana, müstəqilliyimizə sədaqət, hesab edirəm ki, sizin yaradıcılığınızın əsas mövzusu olmalıdır. Bu mövzu heç vaxt köhnəlmir. Bu, elə bir mövzudur ki, heç vaxt tükənmir. Çünki biz nə qədər yaşayırıq, o qədər də gərək müstəqilliyimizi möhkəmləndirək. Mən bir daha deyirəm: XX əsrin sonunda Azərbaycan xalqının dövlət müsiəqilliyini əldə etməsi tarixi nailiyyətdir, əvəzsiz bir töhfədir. Bizim borcumuz bunu möhkəmləndirmək, yenilməz etmək, əbədi, dəyişməz etməkdir. Biz müstəqilliyimizi yenidən əldən verə bilmərik. Bunu ona görə deyirəm ki, bizim müstəqilliyimizə göz dikənlər var. Bunu ona görə deyirəm ki, Azərbaycan təbii sərvətlərinə görə, coğrafi vəziyyətinə görə çox dairələrin maraq mərkəzinə dönübdür. Ona görə də dövlətimizi möhkəm qurmaq, [130-131] ölkəmizi qorumaq, saxlamaq, hər bir vətəndaşı vətənə sadiq etmək bizim borcumuzdur.

Mən oktyabrın əvvəllərində təklif verdim. Mənim təşəbbüsümlə Milli Məclis oktyabr ayının 17-də «Amnistiya haqqında» böyük bir qərar qəbul etdi. Bu qanun hərbi cinayət etmiş, ordudan fərarilik etmiş və yaxud başqa cinayətlər etmiş gənclər haqqındadır. Bu qərar ilə 7 min adam - onların əksəriyyəti gəncdir - cəzadan azad olunacaqdır. 1700 nəfəri hazırda cəza yerlərindədir. Onlar azad ediləcəkdir. 1300 nəfərin işi məhkəmədədir - onların işləri xətm ediləcək, azad olunacaqlar. 3000 nəfər fərarilik etdiklərinə görə axtarışdadır. 100 nəfəri isə yoxlamadadır. Beləliklə, onlar cəzadan azad ediləcəklər. Buraya gələrkən məlumat aldım ki, artıq 460 nəfər azad olunubdur. Bundan əlavə, 30 min gənc 1991-ci ildən başlayaraq ordunu tərk edibdir. Yəqin indi haralardasa gizlənirlər. Onların haqqında cinayət işi başlanmayıbdır. Ancaq bizim hərbi hissələrdə qeydiyyatda var ki, bu sayda adam ordunu tərk edibdir. İndi araşdırma gedəndə onlar da cəzadan azad olunacaqlar. Beləliklə, 37 min adam həmin əfv qərarı ilə cəzalardan xilas oldu. Onların demək olar ki, əksəriyyəti gənclərdir, əksəriyyəti ordudan fərarilik etmiş adamlardır.

Mən nə üçün belə bir təşəbbüs etdim? Bir tərəfdən, bunlar cinayət ediblər, ordunu, səngəri tərk ediblər, öz vətəndaşlıq borclarından yayınıblar, qaçıblar.

Demək, cinayət ediblər. Amma mən təklif verdim və onları əfv etdim. Onu nəzərə aldım ki, həmin illər Aərbaycanda o qədər özbaşınalıq olubdur, o qədər qanunsuzluq olubdur, o qədər ədalətsizlik olubdur ki, bəlkə də bunların bir çoxu elə bir şəraitdə belə bir cənayət yoluna gedibdir.

İndi biz artıq sülh şəraitində yaşayırıq. Bu qədər adamları həbsxanada saxlamaq və yaxud 30 min nəfəri - indi onların yerləri məlum deyil, orda-burda gizlənirlər - belə bir şəraitdə [131-132] saxlamaq bizim üçün xeyir deyil, əksinə, zərərlidir. Şübhəsiz ki, mən bu addımı humanistlik nöqteyi-nəzərindən atdım. Bunların hamısı olacaq. Hesab edirəm ki, bu ilin sonunadək, gələn ilin əvvələrinə qədər bütün məsələlər həll ediləcək və həmin adamlar cəzadan azad olacaqlar. Ancaq lazımdır ki, bundan sonra yenə təkrar olmasın, yeni hərbi cinayətlər olmasın, yenidən ordunu qoyub qaçmasınlar, yenidən səngəri qoyub qaçmasınlar, yenidən silahı götürüb qaçmasınlar. Şübhəsiz ki, bunun qarşısını almaq ordunun borcudur, eyni zamanda sizin də borcunuzdur, bütün cəmiyyətimizin də borcudur. Hər bir valideynin borcudur övladını uşaqlıqdan düzgün tərbiyə etsin ki, o böyüyəndə öz vətəndaşlıq borcunu yerinə yetirməlidir, orduda xidmət etməlidir. Orduda xidmət etməyən gənc cəmiyyətdə özünə layiqli yer tutmamalıdır.

Dünən gecə televiziya ilə oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin milli bayramını göstərirdilər. Mən o verilişə baxırdım. Ankaradan Türkiyənin ordusunu göstərirdilər. Nə qədər qəhrəman bir ordudur, nə qədər yenilməz bir ordudur! Bəli, böyük öndər Mustafa Kamal Atatürkün ən böyük xidmətlərindən biri də odur ki, öz qəhrəmanlığı ilə türk əsgərini qəhrəman etdi. Türk əsgəri 74 illik cümhuriyyət içində, hürriyyət içində, demokratiya içində yenilməzdir. Biz bundan öyrənməliyik, bu örnəkdən də istifadə etməliyik. Azərbaycanın əsgəri də elə olmalıdır. Yenə də deyirəm ki, bizim dost, qardaş ölkənin ordusunda olan qanun-qaydaya, intizama, orada Türkiyə Cümhuriyyətinə, Türkiyənin bayrağına, Türkiyənin Konstitusiyasına olan sədaqətə baxın. Çox sevindirici, heyranedici bir haldır. Şübhəsiz ki, 74 illik tarixi olan bir ordu ilə iki illik tarixi olan bir ordunu müqayisə etmək düzgün olmazdı. Ancaq mən bunu bir örnək kimi deyirəm. Biz gərək bir təcrübə kimi bundan istifadə edək. Bu sahədə sizin böyük imkanlarınız var. [132-133]

İkinci dünya müharibəsində - Böyük Vətən müharibəsində Azərbaycandan gedən 300 min adam həlak oldu, geri qayıtmadı. Xatirinizdədir, bunu dəfələrlə deyiblər. Onların bəzilərinin öləndən sonra cibindən Səməd Vurğunun, Rəsul Rzanın şerləri çıxmışdı. Demək, şer, şair sözü, yazıçı sözü hər şeydən tə-

sirlidir. Ona görə də istərdim ki, bu sahəni siz daim öz diqqətinizdə saxlayasınız. Mən bu sözləri bir sizə demirəm. Bütün Azərbaycan xalqına müraciət edirəm. Hər ataya, anaya müraciət edirəm, hər bir valideynə müraciət edirəm, eyni zamanda hər bir gəncə müraciət edirəm.

Azərbaycanın daim sülh şəraitində yaşaması üçün, Azərbaycanın müstəqil dövlət kimi daim yaşaması üçün onun qüdrətli ordusu olmalıdır. Ordunun qüdrəti təkcə silahda deyil, onun gücündə deyil. Ordunun əsas qüdrəti hər bir əsgərin mənəviyyatındadır, hər bir əsgərin şücaətindədir, hər bir əsgərin xalqına, torpağına, vətəninə sədaqətindədir.

Biz xalqımızda, gənclərimizdə, ordumuzda, hər yerdə bu sədaqət hissini yaratmalıyıq.

Bir neçə kəlmə də dil haqqında danışmaq istəyirəm. Çünki burada dil haqqında söhbət getdi. Görürsünüzmü, bu gün mən sizə nə qədər tariflər deyirəm. Heç bir tənqid yoxdur. Həmişə də təriflәyirəm. Siz buna layiqsiniz.

Bu gün müstəqil bir dövlət kimi ən fəxr etdiyimiz bir də odur ki, bizim gözəl Azərbaycan dilimiz var. Azərbaycan dilinin formalaşmasında, inkişaf etməsində, bugünkü səviyyəyə çatmasında yazıçılarımızın, şairlərimizin, ədəbiyyatşünasların, dilçi alimlərin böyük xidməti var. Bu gün danışdığımız dil 20-ci ildə danışılan dil deyil. Elədir, yoxsa yox? (*Yerdən səs:* Bəli, tamamilə doğrudur).

Bəli, əsrin əvvəlindəki dil deyil. Amma ondan qat-qat yaxşı dildir, ondan qat-qat təmiz dildir, ondan qat-qat mükəmməl dildir. Bu, bizim ən böyük sərvətimizdir. Xalqı xalq edən, milləti millət edən onun ana dilidir. Layiqli ana dili olmayan, [133-134] ana dilindən istifadə edə bilməyən, ana dilindən bəhrələnə bilməyən xalq, millət, xalq millət ola bilməz. Bizim xoşbəxtliyimiz ondan ibarətdir ki, Şərq ölkəsinin əsarəti altında olduğumuz zaman da, sovet imperiyasının tərkibində olduğumuz zaman da biz bu dilimizi yaşatmışıq. Nəinki yaşatmışıq, onu inkişaf etdirmişik. Bu, xalqımızın, xüsusən bizim söz ustalarının, ədəbiyyatçıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin ən böyük nailiyyətidir. Doğrudur, vaxt var idi ki, biz dilimizi bugünkü kimi işlədə bilmirdik. Onun da səbəbləri məlumdur.

Yadımdadır, ilk dəfə Yazıçılar İttifaqının qurultayında mən Azərbaycan dilində nitq söyləyəndən sonra tənəffüsə çıxdıq. Hamı gəlib məni təbrik edirdi. Ona görə ki, mən orada birinci növbədə Azərbaycan dilində danışdım. Dedim ki, əziz qardaşlar, axı burada elə bir şücaət yoxdur. Bu, bizim öz dilimizdir. Mən bunu anladım. Çünki dövlət adamları Azərbaycan dilində danışmamışdılar. Bu dil məişət dili olmuşdu və bir də ədəbiyyatın dili olmuşdu. Amma dövlət dili olmamışdı.

Mənim nitqimi yazıçılar böyük bir hadisə kimi qəbul etdilər. Biz o illərdə çalışdıq ki, dilimiz inkişaf etsin. Bu sahədə çox çalışdıq. Baxmayaraq ki, elə bir dövlətdə yaşayırdıq ki, hakim dil rus dili idi. Ancaq biz dilimizi inkişaf etdirdik və siz, sizin əsərləriniz, ədəbiyyat olmasaydı, şübhəsiz ki, dilimiz bu cür inkişaf edə bilməzdi.

İndi bizim çox gözəl dilimiz var. Burada professor Hacıyev çıxış edərək türk yazarlarının qurultayından bir xatirəni yada saldı. Bilirsiniz, bu hadisə məni sevindirdi. Çünki biz dil haqqında müzakirə apararkən professor Hacıyev belə mövqedə idi ki, dilimizin adı başqa cür olmalıdır. Biz isə qəbul etdik ki, Azərbaycan dili olmalıdır. Amma onun sözləri məni ona görə sevindirdi ki, bizim Türkiyədən gələn alimimiz, dostumuz dilimizin qiymətini verə bilibdir. İş onda deyil ki, [134-135] bunu mən danışıram, sən danışırsan, o birisi danışır. İş ondadır ki, dilimizin qiymətini verə bilibdir. Həqiqətən, bizimlə dost, qardaş ölkədə - Türkiyədə də dilimizi - Azərbaycan dilini çox sevirlər. Azərbaycanda mövcüd olan Azərbaycan dili çox mükəmməl dildir, çox zəngin dildir, çox inkişaf etmiş dildir, böyük söz ehtiyatına malik dildir.

İndi baxın, dövlətin bütün sahələrində sırf Azərbaycan dilində danışırıq və lazım olan bütün xüsusi terminləri də Azərbaycan dilində ifadə edirik. Azərbaycan dili respublikamızda artıq öz yerini tutubdur. Xarici ölkələrin nümayəndələri də bizim dili bilməyərək, sadəcə onu eşidərək, dəfələrlə mənə deyiblər ki, sizin nə qədər gözəl diliniz var! Doğrudan da bu belədir. Bəlkə də biz özümüz dilimizin gözəlliyini bir o qədər dərk edə bilmirik. Azərbaycan dili çox gözəl dildir!

Bilirsiniz, mən bunu dəfələrlə demişəm və bu gün fürsətdən istifadə edib yenə də deyirəm: biz türkdilli xalqların ailəsinə mənsub olan bir xalqıq. Ancaq bunun çox şaxələri var. Bunun bir şaxəsi də Azərbaycan dilidir. Biz bunu təsdiq etmişik və bu, artıq bütün ictimaiyyət tərəfindən qəbul olunubdur. Azərbaycan dilini daha da zənginləşdirmək, daha da inkişaf etdirmək sizin ən müqəddəs borcunuzdur.

O ki qaldı reklamlara və şəhərdə başqa dillərdə olan yazılara və yaxud da ki, respublikamızda hansısa kolleclərdə ingilis dilində dərs keçilir, - bunların hamısına baxmaq lazımdır. Ancaq bu məsələdən bir o qədər də narahat olmaq lazım deyil. Siz ingilis dilində dərs keçilən kolleclərin sayını götürsəniz və bizim Azərbaycan dilində dərs keçilən məktəblərin sayı ilə müqayisə etsəniz, görəcəksiniz ki, bu kolleclər azlıq təşkil edir. Amma mən bu barədə mübahisə etmək istəmirəm. Bir halda ki, burada belə bir fikir söylənilibdir, buna diqqət yetirmək lazımdır. Reklam və məktəb məsələlərinə diqqət yetirmək lazımdır.

Ancaq biz dünyada öz dilimizlə tək yaşayırıq. Bizim birinci nailiyyətimiz o olmalıdır ki, öz dilimizi Azərbaycanda hakim dil etməliyik. Hər bir azərbaycanlı öz ana dilini bilməlidir, bu dildə səlis danışmalıdır və bu dili sevməlidir. Bununla yanaşı biz çalışmalıyıq ki, məktəblərimizdə, universitetlərimizdə gənclərimiz bir neçə dil öyrənsinlər. Mütləq öyrənməlidirlər. Biz artıq dünyaya qovuşmuşuqsa, Dünya Birliyinə daxil olmuşuqsa, gərək insanlarımız bir neçə dil bilsinlər - ingilis dilini də bilsinlər, rus dilini də bilsinlər,

fransız dilini də bilsinlər. Bunu yasaq etmək olmaz, bunun qarşısını almaq lazım deyil. Amma birinci növbədə öz ana dilini bilməlidirlər. Bəli, Azərbaycanda indi də insanlar var ki, əsasən rus dilində danışırlar, Azərbaycan dilində danışmırlar. Bizim dövlət orqanlarında da belələri var. Mən dəfələrlə xəbərdarlıq etmişəm ki, Azərbaycan dilini öyrənin, öyrənməsəniz işdən çıxaracağam.

Professor Hacıyev mənə deyir ki, siz Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərin işçilərini məcbur edin, onlar Azərbaycan dilini öyrənsinlər. Mən öz azərbaycanlılarımızı məcbur edə bilmirəm ki, Azərbaycan dilini öyrənsinlər. Amma sizə deyim ki, onlar artıq öyrənirlər. Xarici ölkələrin respublikamızda olan səfirləri artıq Azərbaycan dilini öyrənirlər. Onlar mənimlə görüşəndə çalışırlar Azərbaycan dilində danışsınlar. Mən də bunlara çox sevinirəm. Hətta Rusiyanın səfiri cənab Bloxin də burada oturubdur - o, Azərbaycan dilini öyrənir, özü də çox yaxşı öyrənir.

Budur bizim müstəqilliyimizin nəticəsi. Vaxtilə buraya, mərkəzdən Azərbaycan Kommunist Partiyasının ikinci katibi vəzifəsinə rus millətindən olan adamlar gəlirdi. Mən onlara Azərbaycan dilini öyrədə bilmirdim. Onlara neçə dəfə deyirdim ki, Azərbaycan dilini öyrənin, ancaq öyrənmək istəmirdilər. Amma bu gün Rusiyanın səfiri öyrənir, Amerikanın səfiri öyrənir, İngiltərənin səfiri öyrənir, Fransanın səfiri öyrənir. Bunların hamısı böyük hadisədir, nailiyyətdir. [136-137]

O ki qaldı şirkətlərdə hansı dildə danışmaq məsələsinə - bəli, onlar öz işlərini aparmaq üçün o dilləri bilən adamları işə qəbul edirlər. Amma deyə bilmərəm ki, sən öz işini niyə ingilis dilində aparırsan, Azərbaycan dilində apar. O öz şirkəti ilə yazışma aparır, başqa sənədlər var və s. Bunu öz dilində aparmalıdır. Eyni zamanda sizə deyə bilərəm ki, o şirkətlərin nümayəndələri mənə yazdıqları məktubları iki dildə - həm öz dillərində, həm də Azərbaycan dilində yazırlar. Yəni onların çox yaxşı tərcüməçiləri var. Mən hərdən fikir verirəm - çox dəqiq tərcümə edirlər. Onlar məktubu mənə iki dildə göndərirlər və bəzən də özləri mənə təklif edirlər ki, dərhal bunu oxuya bilim.

Beləliklə, görürsünüz, dil məsələsi ilə əlaqədar nə qədər məsələlər meydana çıxır. Ancaq yenə də ən əsas nəticə ondan ibarətdir ki, Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan dilini əbədi edibdir və bu gün Azərbaycan dilimiz yaşayır və yaşayacaqdır. Qoy Azərbaycan dili müstəqil Azərbaycanda, eləcə də dünyada yaşayan bütün azərbaycanlıların dili olsun!

Hörmətli dostlar!

Mən bu gün sizinlə çox açıq, səmimi söhbət aparıram. Ürəyimdə olan sözləri sizə dedim. Güman edirəm ki, dediyim sözlər bir daha onu göstərir ki, mən bir dövlət başçısı kimi ədəbiyyata, mədəniyyətə indiyə qədər olduğu kimi, bundan sonra da qayğımı göstərəcəyəm və sizin hər birinizin yaradıcılığınızın uğurlu olması üçün yardımımı əsirgəməyəcəyəm. Bilmirəm, bəlkə də mən çıxışımı qurtarandan sonra siz yenə danışacaqsınız. Ancaq mən bu gün sizinlə bərabər keçirdiyim saatlardan, gündən çox razıyam və sizə təşəkkür edirəm ki, məni səbrlə, diqqətlə dinlədiniz. Mən də öz ürəyimdə olan sözləri sizə çatdırdım.

Sizə cansağlığı arzu edirəm. Ədəbiyyatımıza yeni uğurlar arzu edirəm. Heç şübhə etmirəm ki, Azərbaycan ədəbiyyatı XX əsri uğurla sona çatdıracaq və XXI əsrdə dünya, bəşər ədəbiyyatına gözəl nümunələr verəcəkdir. Sağ olun. [137]

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**PREZİDENTİ HÖRMƏTLİ**
**CƏNAB HEYDƏR ƏLİYEVƏ**

*Möhtərəm Prezident!*

*Gərgin iş rejiminizə baxmayaraq üç gün ərzində yazıçılarımızla ətraflı, səmimi görüşlər keçirdiyinizə görə, qurultayımızın işində əvvəldən axıra qədər iştirak etdiyinizə görə sizə ürəkdən minnətdarıq. Görüşlərdə dərin məzmunlu çıxışlarınız, qurultayda geniş miqyaslı, parlaq nitqiniz ədəbiyyat və ictimai fikir tariximizdə önəmli yer tutacaq qiymətli sənədlərdir.*

*Həm yaşlı, həm də gənc yazıçılara, ümumən ədəbiyyatımıza həmişəki diqqətinizin, qayğınızın yeni təzahürü olan praktik tədbirlər - «Ulduz» jurnalı, mənzil, təqaüd, gənclərə maddi yardım və başqa məsələlər haqqında göstərişləriniz - qələm sahiblərinin yaradıcılıq imkanlarının genişlənməsi və bir sıra məişət problemlərinin həlli üçün sox əhəmiyyətlidir.*

*Yazıçılar Birliyinə, onun rəhbərliyinin işinə verdiyiniz yüksək qiymət üçün də Sizə çox təşəkkür edirik.*

*Ulu tanrıdan diləyirik ki, bundan sonrakı qurultaylarımızda da siz müstəqil dövlətimizin rəhbəri kimi iştirak edəsiniz.*

Dərin hörmətlə,

Azərbaycan Yazıçılar Birliyinin sədri **Anar,**
Birliyin birinci katibi **Yusif Səmədoğlu,**
Birliyin katibləri **Fikrət Qoca, Çingiz Abdullayev,**
**Arif Əmrahoğlu**

4 noyabr 1997-ci il
[138]

## ŞEYX ŞAMİLİN 200 İLLİYİ MÜNASİBƏTİLƏ MAHAÇQALADA KEÇİRİLƏN TƏNTƏNƏLİ YUBİLEYİN İŞTİRAKÇILARINA TƏBRİK MƏKTUBU

Əziz dağıstanlı qardaş və bacılar!

Hörmətli toplantı iştirakçıları!

Adı milli azadlıq mübarizəsinin simvoluna çevrimiş görkəmli sərkərdə, qüdrətli şəxsiyyət Şeyx Şamilin anadan olmasının 200 illik yubileyi münasibətilə sizi salamlayır, hamınıza xoş arzularımı çatdırıram.

Ulu Qafqaz əsrlər boyu müxtəlif dövlətlərin təcavüzünə məruz qalsa da, bu diyarın mərd insanları əsarətə qarşı mübarizə qətiyyətini daim qoruyub saxlamışlar. Azadlıq uğrunda 25 il vuruşan Şeyx Şamil bir daha sübut etdi ki, xalqın istiqlal amalını, iradəsini və əzmini sındırmaq, məhv etmək mümkün deyildir.

Şeyx Şamilin mücadiləsi Azərbaycan xalqının da yaddaşına əbədi həkk olunubdur. Qədirbilən xalqımız onu özünün milli qəhrəmanı sayır. Azərbaycanda Şeyx Şamil hərəkatı həmişə sevilə-sevilə dərindən öyrənilmiş, azadlıq mübarizi xalq düşməni elan edilən vaxtlarda da görkəmli alimlərimiz, yazıçılarımız həyatlarını təhlükə altına qoyaraq onun haqqında dəyərli əsərlər yaratmışlar. Azərbaycan mədəniyyəti, elmi indinin özündə də bu ənənəni yaşatmaqdadır. Bütün bunlar tarixi haqqına qovuşaraq müstəqillik qazanmış Azərbaycan xalqının Şeyx Şamilin şəxsiyyətinə, onun azadlıq uğrunda fədakar mübarizəsinə hörmət və ehtiramının ifadəsidir. Hər bir azərbaycanlının qəlbində bu əfsanəvi qəhrəmana nəsildən-nəslə ərmağan kimi çatdırılan məhəbbət [139-140] yaşayır və bu məhəbbət respublikamızda keçirilən yubiley mərasimlərində Şeyx Şamilə tükənməz xalq ehtiramının növbəti təsdiqinə çevrilir.

Əziz dostlar!

Sizi və sizin şəxsinizdə bütün Qafqaz xalqlarını bu qəhrəmanlıq bayramı münasibətilə ürəkdən təbrik edirəm. Azadlığı, sülhü, əmin-amanlığı qorumaq yolunda hər bir qafqazlıya Şeyx Şamil müdrikliyi, qətiyyəti və fədakarlığı arzulayıram. Əminəm ki, Şeyx Şamil ruhu bizi bir-birimizə daha da doğmalaşdıracaq, Rusiya Federasiyasında yaşayan xalqlarla Azərbaycan xalqı arasındakı qardaşlığı daha da möhkəmləndirəcəkdir.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *4 noyabr 1997-ci il*
[140]

## ŞEYX ŞAMİLİN 200 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ GECƏDƏ NİTQ

*Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı*

*4 noyabr 1997-ci il*

Hörmətli xanımlar, cənablar!

Hörmətli qonaqlar!

Sizi və bütün Azərbaycan xalqını, Dağıstan xalqını, bütün Qafqaz xalqlarını Qafqazın qəhrəman oğlu, əfsanəvi şəxsiyyət Şeyx Şamilin 200 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm. Bütün Qafqaza sülh, əmin-amanlıq arzulayıram. Qafqaz xalqlarının hamısına səadər, xoşbəxtlik diləyirəm.

Şeyx Şamil öz böyük həyat yolu ilə, qəhrəmanlığı ilə, şücaəti ilə Qafqaz xalqları qarşısında əvəzsiz xidmət edibdir və dünyanın məşhur şəxsiyyətlərindən birinə çevrilibdir. Şeyx Şamilin həyatı, azadlıq uğrunda, istiqlal uğrunda mübarizəsi birinci növbədə onun şəxsi iradəsi və fitri istedadı idə bağlıdır. Şeyx Şamil əsrinin, dövrünün mütəfəkkir insanlarından biri olubdur. Onun zəkası, ağlı, yüksək təhsili, elmi bilikləri, siyasi dünyagörüşü və onun şəxsi qəhrəmanlığı, cəsurluğu, şücaəti Şeyx Şamili böyük sərkərdə, alim, filosof, dövlət xadimi, xalq qəhrəmanı edibdir. Buna görə də Şeyx Şamil bütün Qafqaz xalqlarının tarixində görkəmli yer tutub, bütün dünyada tanınıbdır. Şeyx Şamilin həyatı və fəaliyyəti haqqında bu yubiley tədbirləri zamanı, yubiley günləri və bu gün də bizim görkəmli alimlərimiz, yazıçılarımız dəyərli sözlər deyirlər [141-142] və ətraflı danışırlar. Verilən bütün bu qiymətlər, deyilən bütün bu sözlərin hamısı Şeyx Şamilin kim olduğunu bugünkü nəslə artıq tanıdıbdır.

Mən hesab edirəm ki, Şeyx Şamil haqqında tarixin müəyyən dövrlərində bəzi qadağanlar qoyulmasına baxmayaraq, Şeyx Şamili heç vaxt unutmayıb. Şeyx Şamil Qafqaz xalqlarının qəlbində daim yaşayıbdır. Onun obrazı həmişə bir qəhrəmanlıq simvolu kimi və müstəqillik, milli azadlıq mübarizəsinin simvolu kimi insanların qəlbində yaşayıbdır. Doğrudur, onun həyatı bir tərəfdən ziddiyyətli olubdur, bir tərəfdən də çox parlaq olubdur, çox nümunəvi olubdur. Ona görə də Şeyx Şamil tarixə daxil olubdur. Amma o, həyatdan gedəndən sonra onun haqqında yazılan tarixi kitablar da ziddiyyətli olubdur, ayrı-ayrı siyasi, subyektiv fikirlər nəticəsində onun həyat yolu bəzən təhrif edilibdir. Ancaq bunların heç biri Şeyx Şamil şəxsiyyətini, onun adını tarixdən silə bilməyibdir.

Tarix elə bir şeydir ki, onun müəyyən bir siyasi hakimiyyətin, siyasi fikrin səbəbindən ola bilər ki, tarixin bəzi səhifələri ya unudulsun, ya da təhrif olunsun. Ancaq biz indi, son illər tarixi bir daha vərəqləyərkən açıq-aydın gördük ki, bunlar müvəqqəti xarakter daşıyır. Tarixi təhrif edənlər, tarixi pozmaq istəyənlər çox nahaq cəhdlər göstərirlər. Bunlar əbəsdir, bunlar əhəmiyyətsizdir. Məhz buna görə də indi - XX əsrin sonunda dünyada gedən ictimai-siyasi proseslər içində, Sovetlər İttifaqının dağılması ilə əlaqədar xalqların müstəqillik əldə etməsi nəticəsində, müstəqil dövlətlərin yaranması nəticəsində, azadlığın, demokratiyanın yaranması nəticəsində indi Şeyx Şamilin adı və şəxsiyyəti olduğu kimi bəyan edilir.

Şübhəsiz ki, Şeyx Şamil tarixdə qoyduğu izlə böyük bir dəryadır. Bizim tarixçilərimiz, alimlərimiz onun həyatını, onun mübarizəsini, onun mübarizə tarixini, onun dünya[142-143]görüşünü hələ bundan sonra da araşdıracaqlar, təhlil edəcəklər və şübhə etmirəm ki, yeni-yeni kitablar yazılacaqdır. Ancaq bu gün, xüsusən bu yubiley mərasimləri keçirilən dövrdə Dağıstanda, Azərbaycanda, Qafqazın başqa respublikalarında Şeyx Şamil haqqında ictimaiyyətə, xalqa, dünyaya yetərli qədər məlumatlar çatdırılıbdır. Biz Azərbaycanda Şeyx Şamili bütün Qafqaz xalqlarının milli azadlıq uğrunda mübarizəsinin qəhrəmanı hesab edirik. Şeyx Şamil mübarizəsinin ən dəyərli tərəflərindən biri odur ki, o, mübarizəsi ilə Qafqaz xalqlarını birləşdiribdir, həmrəy edibdir və Qafqaz xalqlarını bir-birinə daha doğma edibdir. Dağıstanda da, Azərbaycanda da Şeyx Şamilə, onun qoyduğu zəngin irsə böyük hörmət və ehtiram vardır.

Bu yubiley mərasimləri, o cümlədən bugünkü təntənəli gecə Şeyx Şamilin xidmətlərinə, onun tarixdə tutduğu görkəmli yerə yüksək qiymətdir. Eyni zamanda bu yubiley mərasimləri hamısı birlikdə Qafqazda sülhün, əmin-amanlığın, həmrəyliyin və birliyin bərqərar olması üçün çox gözəl vasitədir. Bu gün biz Şeyx Şamilin 200 illik yubileyini qeyd edərkən Qafqazda sülhün, əmin-amanlığın, dostluğun, qardaşlığın yaranmasını arzu edirik. Şeyx Şamil bunu istəmişdir, Şeyx Şamil buna görə mübarizə aparmışdır. Biz bu günlər Şeyx Şamilin mübarizəsinin gözəl bəhrələrindən istifadə edirik. Xalqlar azadlığa çıxıblar. Xalqlar, Qafqaz xalqları sərbəst yaşamaq imkanı əldə ediblər. Şeyx Şamil bunu istəyirdi, Şeyx Şamil bundan ötrü mübarizə aparırdı.

Amma eyni zamanda Qafqaz indi çox ağır bir dövr yaşayır. Müsbət nəticələrlə yanaşı, Qaqazda bəzi bölgələrdə hərbi münaqişələr, toqquşmalar, ayrı-ayrı respublikalar arasında mövcud olan gərginlik və başqa çətinliklər Qafqazın vəziyyətini yenə də çətinləşdiribdir. Ona görə də biz Şeyx Şamilin ideyalarına,

onun xidmətlərinə yüksək qiymət verərək, onun ideyalarına sadiq olduğumuzu bildirərək, [143-144] səylərimizi Qafqazda mövcud olan bu çətinliklərin aradan qaldırılmasına yönəltməliyik. Bugünkü yubiley gecəsi, hesab edirəm ki, buna nümunədir.

Şeyx Şamilin yubileyi Dağıstanda qeyd olunarkən, Azərbaycanın nümayəndə heyəti orada iştirak etmişdir. Bu gün buraya Dağıstanın yüksək səviyyəli nümayəndə heyəti gəlibdir. Dağıstanın Xalq Məclisinin sədri, hörmətli Muxu Əliyev çox parlaq və məzmunlu nitq söylədi. Onun nitqi, Azərbaycan alimlərinin, yazıçılarının çıxışlarının hamısı birlikdə eyni məzmundadır. Dağıstan - Azərbaycan dostluğunu daha da möhkəmləndirməklə biz Şeyx Şamilə, onun ideyalarına öz sədaqətimizi bir daha bildirmiş olarıq.

Dağıstan ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri qədim tarixə malikdir. Bu dostluq bizim daim bir yerdə olmağımızdan irəli gəlibdir. Təsadüfi deyil ki, Şeyx Şamil həm Dağıstanda, həm də Azərbaycanda olubdur və Qafqazın başqa bölgələrində də olubdur. Şeyx Şamilin qohumları, nəvə-nəticələri Azərbaycanda yaşayıblar. Allaha şükürlər olsun ki, onlardan biri də indi burada bizimlə bir yerdədir, Azərbaycanın Şəki rayonunda yaşayır. Bunların hamısı bizim keçmişdə də əsrlər boyu bir yerdə olduğumuzu sübut edir. Biz bu gün də bir yerdəyik.

Bizi - Azərbaycanı Rusiyadan, Dağıstandan ayıran sərhəd, mən hesab edirəm, çox şərti xarakter daşıyır, sadəcə olaraq ölkələrin ərazilərinin sərhədlərini göstərir. Amma insanların arasında, bizim xalqların arasında heç bir sərhəd yoxdur və heç bir sərhəd də olmamalıdır. Bizim bu gün buradakı görüşümüz bunu əyani surətdə sübut edir. Bu təntənəli gecə bizim xalqlarımızın dostluğunun bayramıdır, bizim milli azadlığımızın bayramıdır. Dağıstanda yaşayan xalqların əksəriyyətinə mənsub olan insanlar Azərbaycanda da yaşayırlar. Onlar hamısı Azərbaycanın bərabər hüquqlu, doğma vətəndaşlarıdır. Azərbaycan öz dövlət müstəqilliyini [144-145] əldə edəndən sonra biz bəyan etmişik ki, respublikamız Azərbaycanda yaşayan bütün vətəndaşların - milliyyətindən, dinindən, dilindən, irqindən asılı olmayaraq - doğma vətənidir. Elə də var. Məhz buna görə də Azərbaycan çoxmillətli ölkə kimi, eyni zamanda monolit, vahid bir xalqa malikdir - Azərbaycan xalqına.

Burada bəzən «azsaylı xalqlar» ifadəsi işlənir. Doğrusu, bu söz mənim o qədər də xoşuma gəlmir. Ümumiyyətlə, bu söz dünya terminologiyasına daxil olubdur. Mənim isə xoşuma gəlmir. Xalqın azsaylısı, çoxsaylısı yoxdur. Xalqın hamısı xalqdır. Ona görə də Azərbaycanda yaşayan xalqların hamısı xalqdır, biz heç kəsi azsaylı xalq hesab etmirik, hamısı Azərbaycanın bərabər hüquqlu vətəndaşlarıdır, hamısı da birlikdə vahid Azərbaycan xalqıdır.

Dağıstan Rusiya Federasiyasının tərkibindədir. Rusiya Federasiyası ilə Azərbaycan arasında dostluq, əməkdaşlıq əlaqələri mövcuddur və bu əlaqələri daim inkişaf etdirməyə çalışırıq. Bu il iyul ayının 3-də mən, Azərbaycanın prezidenti kimi, Moskvada rəsmi səfərdə olarkən Rusiya Federasiyasının prezidenti Boris Yeltsinlə bərabər Azərbaycanla Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında böyük bir müqavilə imzaladıq. Bu müqavilə gələcəkdə dostluğumuzu, əməkdaşlığımızı inkişaf etdirmək üçün çox dəyərli bir sənəddir. Hesab edirik ki, bu müqavilədən irəli gələn vəzifələrin hamısını yerinə yetiririk və bundan sonra da yerinə yetirəcəyik. Dağıstan isə Rusiya Federasiyasının tərkibində olaraq, Rusiya Federasiyasının subyekti kimi, respublikası kimi Azərbaycanla Rusiya Federasiyası arasında yerləşən və bizim bu dostluq, əməkdaşlıq əlaqələrimizin yaradılmasında çox böyük imkanlara malik olan bir respublikadır. Ona görə də biz Dağıstanı daim, qədimdən, həmişə tarixi dostumuz kimi qəbul etmişik və qəbul edirik. Dağıstanla Azərbaycan arasında heç vaxt heç [145-146] bir münaqişə olmayıbdır və bundan sonra da olmayacaq və ola da bilməz. Eyni zamanda Dağıstan Rusiya Federasiyasının tərkib hissəsi kimi, Rusiyanın ən cənubunda Azərbaycana qonşu olan subyekti, respublikası kimi Rusiya ilə Azərbaycan arasında əlaqələrdə mühüm rol oynayır. Mən hesab edirəm ki, burada həm Dağıstanın, həm də Azərbaycanın hələ böyük imkanları var. Bu imkanlardan biz bundan sonra da səmərəli istifadə etməliyik. Azərbaycanın qapıları bütün dağıstanlılar üçün açıqdır. Elə bilirəm ki, Dağıstanın da qapıları Azərbaycan vətəndaşları üçün açıqdır. Biz bir-birimizə rahat gedib-gəlirik və bir-birimizlə həmişə - xeyirdə də, şərdə də bir yerdəyik. Bunların hamısı çox gözəl hallardır, çox gözəl əlamətlərdir.

Son vaxtlar bizim bu əlaqələrimiz daha da inkişaf edibdir. Son dövrdə Azərbaycanın dini rəhbəri Şeyxülislam Allahşükür Paşazadənin Dağıstana səfəri və Dağıstanın dini rəhbərinin Azərbaycana gəlməsi, onun bu gündə Dağıstan dövlət nümayəndə heyətinin tərkibində olması bizim bu sahədə də əlaqələrimizin inkişaf etməsini göstərir.

Xalqlarımızın birliyini, dostluğunu təmin edən amillərdən biri də odur ki, bizim adət-ənənələrimiz birdir, mənəvi dəyərlərimiz bir-birinə bənzərdir. Biz bir dinə mənsubuq. İslam dini, onun yaratdığı mənəvi dəyərlər, adət və ənənələr bizim xalqlarımızı əsrlər boyu birləşdiribdir, xalqlarımızın dostluğunun və qardaşlığının daha da möhkəm olmasını təmin edibdir. Bu gün bu vasitə də dostluğumuzun, qardaşlığımızın inkişafına kömək edir və bundan sonra da kömək edəcəkdir.

Beləliklə, bu gün biz həm Qafqazın böyük oğlu Şeyx Şamilin xatirəsini yad edirik, həm də Dağıstan və Azərbaycan xalqları arasında olan dostluq və qardaşlıq əlaqələrinin möhkəmlənməsi üçün yeni addımlar atırıq. [146-147]

Qafqazın şimalı Rusiya Federasiyasının ərazisindədir. Qafqazın cənubunda yerləşən respublikalar - Azərbaycan, Gürcüstan, Ermənistan isə müstəqil dövlətlərdir. Təəssüflər olsun ki, Ermənistanla Azərbaycan arasında münaqişə mövcuddur. Ermənistan Azərbaycana təcavüz edibdir, respublikamıza çox böyük zərərlər vurubdur. Azərbaycanın ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. Bir milyondan artıq Azərbaycan vətəndaşı yerindən-yurdundan zorla çıxarılıbdır və ağır vəziyyətdə çadırlarda yaşayırlar.

Bunların hamısı Qafqazın birliyinə vurulan zərbələrdir. Gürcüstanda da hələ tam əmin-amanlıq yaranmayıbdır. Orada da münaqişələr var, Şimali Qafqazda da münaqişələr var. Ona görə də Qafqazda sülhü, əmin-amanlığı bərqərar etmək üçün bu münaqişələrə son qoyulmalıdır. Biz bu münaqişələrə son qoyulmasına çalışırıq. Xüsusən, Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasına çalışırıq. Biz istəyirik ki, Gürcüstanda da münaqişələrə son qoyulsun. İstəyirik ki, Şimali Qafqazda da münaqişələrə son qoyulsun. İstəyirik ki, Qafqazın hər bir yerində əmin-amanlıq bərqərar olsun, sülh bərqərar olsun, dostluq bərqərar olsun, xalqlar arasında səmimi münasibətlər yaransın. Bunların hamısı mümkündür. İnanıram ki, biz birgə səylərimizlə bunlara nail ola biləcəyik. Ona görə də burada Ümumqafqaz evi haqqında səslənən ifadələr, sözlər tam əsaslıdır.

Həqiqətən, Gürcüstanın prezidenti Eduard Şevardnadze ilə mənim keçən il imzaladığımız bir bəyanatda Qafqazda sülhün, əmin-amanlığın yaranması üçün, Ümumqafqaz evinin yaranması üçün birgə təşəbbüs göstərmişik. Hesab edirəm ki, bu təşəbbüs yaşayır və bundan sonra da yaşayacaqdır. Biz bütün bu münaqişələrə son qoya biləcəyik, bütün bu münaqişələri aradan qaldıracağıq və beləliklə, Qafqazda sülhün, əmin-amanlığın təmin edilməsinə nail olacağıq. [147-148]

Mən bildirmişəm və bu gün bir daha bildirirəm ki, biz Ermənistan–Azərbaycan münaqişəsini sülh yolu ilə həll etmək istəyirik. Ancaq Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, işğal edilmiş torpaqlarımızın azad olunması, yerindən-yurdundan didərgin düşmüş Azərbaycan vətəndaşlarının öz evlərinə, yerlərinə qayıtması şərti ilə. Bu şərtlərlə biz bu münaqişənin həll edilməsini istəyirik, bu yolda çalışırıq və güman edirəm ki, buna nail olacağıq.

Rusiya Federasiyası ilə Azərbaycan arasındakı dostluq, əməkdaşlıq əlaqələrini inkişaf etdirmək üçün Dağıstanda və ümumiyyətlə Şimali Qafqazda daimi sülhün bərqərar olmasını istəyirik.

Biz Dağıstanda ictimai-siyasi vəziyyətin sabit olmasını arzulayırıq. Dağıstanda ictimai-siyasi vəziyyətin, daxili vəziyyətin sabit olması üçün öz tərəfimizdən səylərimizi göstərməyə hazırıq. Biz Şimali Qafqazdakı münaqişələrin sülh yolu ilə aradan qaldırılmasını istəyirik. Burada tamamilə doğru deyildi ki, zorla, güc işlətməklə, xalqların iradəsini əzmək, yaxud onları məhv etmək mümkün deyil. Şeyx Şamilin mübarizəsi, Şeyx Şamilin həyat yolu və Şeyx Şamilin qəhrəmanlığı hələ XIX əsrdə buna əyani nümunə olmuşdur. İndi gərək bunlardan hamı nəticə çıxarsın və məhz sülh, barışıq yolu və qarşılıqlı anlaşma yolu ilə Qafqazda sülhü, əmin-amanlığı bərqərar etməliyik.

Bizim alimlərimiz burada Şeyx Şamil haqqında danışdılar. Bilirsiniz, bu gün, yubiley gecəsində bir daha demək istəyirəm ki, Şeyx Şamilin həyatını təhlil edənlərin də çoxu Azərbaycan alimləri olublar, onun yolunda çətinliklərlə üzləşənlər də Azərbaycan alimləri və yazıçıları olublar, Şeyx Şamilin yolunda qurban gedən də Azərbaycanın böyük alimi, filosofu Heydər Hüseynov olubdur. Bu onu göstərir ki, Şeyx Şamil Azərbaycan xalqı, Azərbaycan üçün nə qədər qiymətli, nə qədər əziz olubdur ki, onun yolunda, yəni onun ideyaları [148-149] yolunda, onun haqqında doğru-düzgün, ədalətli sözlər deməyə görə böyük insanlar hətta canını qurban veriblər. Bunun özü də xalqımızın bir-birilə nə qədər sıx bağlı olduğunu göstərir. Bunun özü də xalqlarımızın dostluğunun, qardaşlığının bundan sonra da sarsılmaz olacağını göstərir. Mən buna əminəm.

Mən bu gün, bu bayram günü Azərbaycan xalqı ilə Dağıstan xalqı arasında dostluq, qardaşlıq əlaqələrinin daim möhkəmlənməsini arzu etdiyimi bir daha bildirirəm. Azərbaycan dövləti, Azərbaycan Respublikası bu sahədə üzərinə düşən bütün məsələlərin hamısını bundan sonra da həll edəcəkdir. Şeyx Şamil və onun qoyduğu irs bizi birləşdirir, bizi möhkəmləndirir və bundan sonra daha da birləşdirəcəkdir.

Eşq olsun Qafqaz xalqlarına! Eşq olsun Dağıstana! Eşq olsun Azərbaycana! Eşq olsun sarsılmaz Dağıstan–Azərbaycan birliyinə! Sağ olun. [149]

## M.F.AXUNDOV ADINA AZƏRBAYCAN DÖVLƏT KİTABXANASINDA «AZƏRBAYCAN QAÇQINLARI» FOTOALBOMUNUN TƏQDİMATI MƏRASİMİNDƏ NİTQ

*5 noyabr 1997-ci il*

Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycanda yaşayan qaçqınların və məcburi köçkünlərin həyatını əks etdirən fotoşəkillərdən ibarət kitabın yaranması və təqdim olunması təqdirəlayiq, əlamətdar bir hadisədir. 1988-ci ildən, Ermənistanın Azərbaycana hərbi təcavüzü başlayandan indiyə qədər Azərbaycanın həyatında qaçqınlar və məcburi köçkünlər amili yaranmışdır. Təəssüflər olsun ki, qaçqınların və məcburi köçkünlərin sayı ilbəil artmışdır. İndi onların sayı artıq 1 milyon nəfərdir.

Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz nəticəsində yaranmış hərbi münaqişə ölkəmizə çox ağır zərbələr vurmuşdur. Bu hərbi təcavüz Azərbaycanın iqtisadiyyatına, həyatının bütün sahələrinə və vətəndaşlarına böyük zərbələr vurmuşdur. Azərbaycan əsrin sonunda - 1988-ci ildən başlayaraq indiyə qədər üzləşdiyi bu ağır faciə XX əsrdə xalqımızın başına gəlmiş bəlalardan, faciələrdən ən dəhşətlisi, ən ağırı, ən zərərlisidir. Biz bu faciənin mənfi, dəhşətli nəticələrini həyatımızın bütün sahələrində hiss edirik. Onun ağır nəticələri o cümlədən insanların, vətəndaşlarımızın həyatında çox təsirli şəkildə hiss olunur.

Dünyada, Yer kürəsinin bir çox yerlərində qaçqınlar və köçkünlər mövcuddur. Ancaq Azərbaycanın, 7 milyon əhalisi [150-151] olan ölkəmizin vətəndaşlarından 1 milyonu qaçqın və köçkün vəziyyətində yaşayır. Hesab edirəm ki, dünyanın heç bir yerində belə bir hadisə yoxdur.

Biz müharibə nəticəsində çoxlu şəhidlər, itkilər vermişik. Bu, xalqımız üçün ağır yaradır. Torpaqlarımızın işğal olunmuş hissəsində əsrlər boyu yaranmış varidatımız dağıdılıbdır, tarixi abidələrimiz təhrif olunubdur, məhv edilibdir. Orada yaşamış insanların qəbiristanlıqları dağıdılıbdır. Bunların hamısı bizim üçün ağır yaradır. Bütün bunlarla bərabər, insanların evindən, yerindən-yurdundan zorla çıxarılması, onların didərgin düşməsi, varını-yoxunu, ailə üzvlərindən çoxunu itirməsi və bir neçə ildən bəri çadırlarda, vaqonlarda, yaşayış üçün yararlı olmayan ayrı-ayrı yerlərdə ağır vəziyyətdə yaşaması bizim həyatımızda, Azərbaycan xalqının, hər bir vətəndaşımızın qəlbində olan böyük bir yaradır.

Təəssüflər olsun ki, biz Azərbaycan xalqının düşdüyü bu ağır vəziyyəti, insanların o çətin şəraitdə yaşamasını, qaçqınların bu ağır vəziyyətini dünya ictimaiyyətinə lazımi qədər çatdıra bilməmişik. Təəssüf ki, Ermənistan–Azərbaycan münaqişəsində kimin günahkar olmasını da son illərə qədər hələ sübut etmək mümkün olmamışdı. Ermənistan Azərbaycana təcavüz etdiyi, respublikamızın torpaqlarını işğal etdiyi halda bəzi beynəlxalq təşkilatlarda, bəzi ölkələrdə, dünyada hesab edilirdi ki, Azərbaycan Ermənistanı blokadaya alıbdır, guya Azərbaycan Ermənistana əziyyət verir, guya Azərbaycanın düzgün olmayan siyasəti nəticəsində Ermənistanda insanlar pis yaşayırlar. Bəzi hallarda belə təsəvvür yaranırdı ki, burada Azərbaycan Ermənistandan daha çox günahkardır.

Məlumdur ki, son illər Azərbaycan dövlətinin, hökumətinin apardığı siyasət nəticəsində beynəlxalq təşkilatlarda, dünya ölkələrinin tam əksəriyyətində artıq bu məsələ [151-152] aydınlaşıbdır. Kimin təcavüzkar olması və kimin təcavüzə məruz qalması artıq məlumdur.

Bizim apardığımız ardıcıl siyasət nəticəsində ATƏT-in Lissabon zirvə görüşündə Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması barəsində qəbul edilmiş bəyanat da buna əyani sübutdur. Ancaq təəssüflər olsun ki, dövlət səviyyəsində aparılan bu ardıcıl siyasətlə bərabər, respublikamızın başqa təşkilatları, ictimai təşkilatları tərəfindən Azərbaycanın həqiqətlərini dünyaya yaymaq üçün lazımi işlər keçmişdə görülməyibdir, indi çox az görülür. Qaçqınların, məcburi köçkünlərin vəziyyəti haqqında dünya ictimaiyyətinə daim ətraflı, müfəssəl məlumat vermək və dünya ictimaiyyətini bu problemə cəlb etmək, onu daim diqqət mərkəzində saxlamaq üçün, yenə də deyirəm, Azərbaycanın müvafiq təşkilatları və ictimaiyyəti, ictimai təşkilatları lazımi iş görə bilməyiblər.

Bu gün burada təqdim olunan kitab Azərbaycanda yaşayan köçkünlərin və qaçqınların vəziyyətini müəyyən qədər əks etdirir. Hesab edirəm ki, bu, həmin məsələni, yəni qaçqınların vəziyyətini müəyyən qədər əks etdirir. Hesab edirəm ki, bu, həmin məsələni, yəni qaçqınların vəziyyətini bu qədər geniş əks etdirən ilk kitabdır. Ancaq mən hesab edirəm ki, Azərbaycanda yaşayan qaçqınların, məcburi köçkunlərin, çadırlarda ağır şəraitdə yaşayan insanların vəziyyətini əks etdirmək üçün bir neçə belə kitab lazımdır. Bu məsələ heç vaxt bir kitaba sığmaz. Ancaş indiyə qədər, demək olar ki, heç bir şey olmadığına, yaxud bu barədə az vəsaitlər olduğuna görə biz bu kitabı yüksək qiymətləndiririk.

Mən fürsətdən istifadə edib, bu münasibətlə bildirmək istəyirəm ki, Azərbaycanda - həm hökumətdə, həm də ictimai təşkilatlarda - qaçqınların və köçkünlərin vəziyyəti ilə məşğul olan orqanlar qeyri-qənaətbəxş işləyirlər. Azərbaycanda qaçqınların və köçkünlərin vəziyyəti ilə məşğul olan xüsusi [152-

153] dövlət komitəsi, böyük bir nazirlik var. Nazirlər Kabinetində bu məsələ ilə məşğul olan böyük bir şöbə var. Bir çox ictimai təşkilatlar bu məsələ ilə məşğul olmalıdırlar. Ancaq mən hesab edirəm ki, bu təşkilatlar, bu orqanlar üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmirlər. Mənim bu sözlərim qaçqınlara və məcburi köçkünlərə daimi göstərilməli olan diqqət, qayğı və humanitar yardımlar məsələsinə də aiddir. Eyni zamanda qaçqınların və köçkünlərin vəziyyətini həm Azərbaycan ictimaiyyətinin, həm də dünya ictimaiyyətinin daim diqqət mərkəzində saxlamaq və dünya ictimaiyyətinə daim çatdırmaq sahəsinə də aiddir.

Belə olan halda qaçqınların, məcburi köçkünlərin vəziyyətinə get-gedə diqqət azalır, onların yaşaması üçün göstəriləcək yardımların miqdarı azalır və beləliklə, bu məsələ - bizim həyatımızın ən faciəli bir cəhəti - adiləşir. Təsadüfi deyil ki, beynəlxalq humanitar təşkilatlar da Azərbaycanda olan qaçqınlara, köçkünlərə öz yardımlarını azaldırlar, bu məsələyə öz münasibətlərini soyudurlar. Təəssüf ki, bizim dövlət, hökumət orqanları bu işlərə diqqət yetirmirlər. Bəziləri belə düşünürlər ki, artıq bir çox il keçibdir, qaçqınlar və məcburi köçkünlər öz vəziyyətlərinə alışıblar, çadırlarda, dəmir yolunun üzərində, vaqonlarda yaşamağa öyrəşiblər, dözümlü olublar və dözürlər, ona görə də bunların yaşayışını xırda-xırda elə normal hesab etmək lazımdır. Mən belə meylləri hiss edirəm. Ona görə də mən bu sözləri bu gün həyəcanla, çox narahatlıqla nəinki burada toplaşanlara, ümumiyyətlə, bütün ictimaiyyətimizə çatdırmaq istəyirəm.

Əgər biz işğal olunmuş torpaqlarımızın azad edilməsinə nail ola bilməmişiksə və yerindən-yurdundan didərgin düşmüş insanları öz evlərinə, yurdlarına qaytara bilməmişiksə, demək, bu problem həll olunmayıbdır. Demək, biz qaçqınlara və köçkünlərə daha da borcluyuq və onlara daha da diqqətli olmalıyıq. Çünki insan bir ay, iki ay, bir il belə vəziyyətə [153-154] dözür. Ona görə dözür ki, onda ümid var ki, o bu vəziyyətdən tezliklə çıxacaq. Ancaq bir il, iki il, üç il, dörd il olanda o, ümidini itirə bilir. Amma gərək biz imkan verməyək ki, insanlar ümidini itirsinlər. Apardığımız böyük işlərlə yanaşı - yəni işğal edilmiş torpaqlarımızın azad olunması sahəsində apardığımız böyük işlərlə yanaşı - biz gərək qaçqınlara, köçkünlərə daim diqqət, qayğı göstərək. Gərək onlara diqqətimizi, qayğımızı, köməyimizi keçən illərə nisbətən daha da artıraq.

Təəssüf ki, vəziyyət belə deyil. Ona görə də mən bu gün bu məsələ barəsində belə həyəcanla danışıram. Mən qaçqınların, məcburi köçkünlərin işi ilə məşğul olanda bütün orqanlardan - hökumət, dövlət orqanlarından tələb edirəm ki, onlar öz işlərində buraxdıqları səhvləri aradan qaldırsınlar, öz vəzifələrini layiqincə yerinə yetirsinlər və bu sahədə öz işlərində ciddi dönüş yaratsınlar.

Nazirlər Kabineti bu işlə ciddi məşğul olmalıdır. Baş nazirin müavini İzzət Rüstəmov - bu məsələyə məsul və həmin vəzifəyə məhz bu məqsədlə təyin edilmiş şəxs gərək bilsin ki, görülən işlər bizi qane etmir. Bu işlərlə daha da ciddi və konkret məşğul olmaq lazımdır.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Qəhrəmanovu mən bir dəfə tənqid etmişdim, bu gün bir daha deyirəm - vəziyyəti kökündən düzəltməlidir və biz bu komitənin, bu böyük hökumət orqanlarının işinin nəticələrini görməliyik.

Nazirlər Kabineti bu məsələni daim diqqət mərkəzində saxlamalıdır və vaxtaşırı, bəlkə də ardıcıl surətdə, müəyyən bir plan əsasında bu məsələlərin vəziyyətini dinləməli, müzakirə etməli, lazımi tədbirlər görməlidir və lazım olan vaxtlarda mənə məlumatlar və öz təkliflərini verməlidir.

Mən ictimai təşkilatlara müraciət edirəm. Onlar da bu sahəyə öz münasibətlərini tamamilə dəyişdirməlidirlər. Qaçqınların, köçkünlərin vəziyyətini unutmaq olmaz. Unut[154-155]maq olmaz ki, biz daim onların yanında olmalıyıq, biz onlarla bir yerdə olmalıyıq, onlarla tez-tez görüşməliyik, qaçqın düşərgələrində olmalıyıq, onların vəziyyətini bilməliyik və onlara əlimizdən gələn yardımı etməliyik.

Mən beynəlxalq humanitar təşkilatlara müraciət edirəm və rica edirəm ki, onlar Azərbaycanın bu vəziyyətinə öz diqqətlərini daha da artırsınlar, öz münasibətlərini zəiflətməsinlər, göstərdikləri yardımları da mütəşəkkil etsinlər. Bəzən bunlar pərakəndə xarakter daşıyır və bəzən də bir sıra səbəblərdən, yardımların qaçqınlara çatdırılması ilə məşğul olan ayrı-ayrı Azərbaycan vətəndaşlarının günahı üzündən, yaxud da ki, onların qeyri-qanuni hərəkətlərinə görə bu yardımlar qaçqınlara, köçkünlərə vaxtlı-vaxtında çatmır.

Qaçqınlar, məcburi köçkünlər Azərbaycanın bir çox inzibati bölgələrində yaşayırlar və bu inzibati rayonların, şəhərlərin icra orqanları, icra hakimiyyəti başçıları var. Mən onlardan tələb edirəm ki, qaçqınlara və məcburi köçkünlərə qayğı və diqqəti artırsınlar, onların üzərinə bu sahədə qoyduğumuz vəzifələri layiqincə yerinə yetirsinlər.

Şübhəsiz, bu gün burada təqdim olunan kitabı geniş yaymaq mümkün olsa, bu, Azərbaycandakı qaçqınların və məcburi köçkünlərin vəziyyəti haqqında beynəlxalq aləmdə, beynəlxalq təşkilatlarda, dünyada təəssüratı daha da dəqiqləşdirəcəkdir. Ancaq tam təəssürat yaratmaq üçün gərək bu iş ardıcıl, mütəmadi getsin, epizodik xarakter, kampaniya xarakteri daşımasın. Hələ ki Azərbaycanda qaçqınlar, köçkünlər var, hələ ki münaqişə qurtarmayıbdır, bu məsələ ilə hamımız daim, ardıcıl məşğul olmalıyıq.

Qaçqınların, köçkünlərin vəziyyətini bilməyən adamlar üçün əlbəttə ki, bu kitab geniş təəssürat yaradır. Amma bizim üçün, yəni qaçqınların, məcburi köçkünlərin vəziyyətini gözü ilə görmüş adamlar üçün bu kitab çox kiçik bir şeydir, azdır. Yəni mən bu kitabda qaçqınların o ağır vəziyyətini tamamilə [155-156] ağır görmürəm. Yenə də deyirəm, bu kitab kənar adamlarda böyük təəssürat yaradacaqdır.

Amma bizim borcumuz odur ki, bütün bu mənzərəni - Azərbaycanın həyatında olan, qaçqınlarla və köçkünlərlə əlaqədar yaranmış mənzərəni bütün dünyaya çatdıraq. Onun üçün bir kitab yox, bir neçə kitab yaranmalıdır, bəlkə seriyalar olmalıdır, bəlkə də hər bir qaçqın düşərgəsi haqqında bir kitab yaratmaq lazımdır. Buna heç bir şeyi əsirgəmək lazım deyil. Bunun üçün hər bir vəsaitdən istifadə etmək lazımdır.

Hesab edirəm ki, Nazirlər Kabineti Prezidentin İcra Aparatı ilə bərabər belə kitabların yaranmasının proqramını hazırlamalıdır, tərtib etməlidir. Bu proqram əsasında bir çox seriya belə kitablar yaranmalıdır. Mən bayaq fikirlərimi dedim. Ancaq başqa fikirlər də ola bilər. Bu fikirlərin əsasında bu məsələnin çərçivəsini genişləndirmək olar. Bunun üçün də həm humanitar təşkilatlardan, həm ictimai təşkilatlardan, həm də dövlətdən, hökumətdən lazımi vəsait ayırmaq mümkündür. Biz bunu edə bilərik. Burada çətinlik olmayacaqdır. Ancaq bu işi görmək lazımdır.

Məlumdur ki, biz Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması uğrunda çalışırıq və bu sahədə müəyyən irəliləyişlər mövcuddur. ATƏT-in Minsk qrupunun son təkliflərini Azərbaycan da, Ermənistan da əsasən qəbul ediblər. ATƏT-in Minsk qrupunun həmsədrlərinin nümayəndələri bu günlərdə yenidən bizim bölgəyə gələcəklər, danışıqlar aparacağıq. Hesab edirik ki, məsələnin sülh yolu ilə həll olunması müəyyən bir relslər üzərinə düşübdür. Biz bunu sadəcə, sürətləndirməliyik və qarşıda olan maneələri aradan götürməliyik.

Şübhəsiz ki, işğal olunmuş rayonlar bunların nəticəsində işğalçı hərbi dəstələrdən azad ediləcəkdir. Bilirsiniz ki, birinci mərhələdə, işğal edilmiş altı rayonun azad olunması və oradan zorla köçürülmüş, çıxarılmış insanların öz yerlərinə [156-157] qayıtması nəzərdə tutulubdur. Ancaq bu, müəyyən vaxt tələb edən bir prosesdir.

Nə qədər ki, biz bu münaqişəyə son qoymamışıq, nə qədər ki, Azərbaycanın işğal olunmuş torpaqları azad edilməyibdir, nə qədər ki, bu qaçqınlar, məcburi köçkünlər öz yerlərinə, yurdlarına qayıtmayıblar, bu problem Azərbaycanın bütün orqanlarının - hökumətin, dövlətin, ictimaiyyətin, hər bir vətəndaşın diqqət mərkəzində olmalıdır. Hamı çalışmalıdır ki, qaçqınların, köçkünlərin indiki vəziyyətinin müəyyən qədər normal saxlanması üçün öz yardımını etsin. Hamımız ardıcıl surətdə çalışmalıyıq ki, Azərbaycanın bugünkü mənzərəsi, məcburi köçkünlərin, qaçqınların belə ağır vəziyyətdə olması dünyanın hər bir guşəsinə, ölkəsinə, hər bir dövlət başçısına, hər bir beynəlxalq təşkilata çatsın. Beləliklə, biz sülh yolu ilə ədalətin qələbəsinə nail olacağıq.

Bu gün təqdim olunan kitabın yaranmasında zəhmət çəkmiş bütün təşkilatlara, şəxslərə təşəkkür edirəm. Bu təşəbbüsü qiymətləndirirəm. Hesab edirəm ki, çox gec də olsa, belə bir təşəbbüs və bugünkü təqdimat mərasimi bu sahədə gələcəkdə görüləsi işlər üçün təkanverici bir məqamdır.

Ümidvaram ki, bu mərasimdə iştirak edən xarici ölkələrin səfirliklərinin, beynəlxalq təşkilatların nümayəndələri bu kitabın yayılmasında, təbliğ olunmasında öz xidmətlərini göstərəcəklər, ümumiyyətlə, bu gün burada meydana çıxmış məsələlərin həll olunmasında Azərbaycan Respublikasına, xalqına və yerindən-yurdundan didərgin düşmüş Azərbaycan vətəndaşlarına yardımçı olacaqdır. Sağ olun. [157]

## AZƏRBAYCAN RESPUBLİKASININ TELEVİZİYA VƏ RADİO İŞÇİLƏRİNƏ

Hörmətli televiziya və radio işçiləri!

Sizi peşə bayramınız - Azərbaycan televiziyası və radiosu günü münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan televiziya və radiosu zəngin və şərəfli inkişaf yolu keçərək xalqımızın yüksək əxlaqi dəyərlərinin, ictimai-siyasi ideallarının, mədəniyyətinin, arzu və istəklərinin ifadəçisinə çevrilmişdir. Bu gün milli televiziya və radiomuz sözün əsl mənasında xalqın tribunasıdır.

Müstəqilliyimizin əbədiliyinin və milli dövlət quruculuğu prosesinin dönməzliyinin təbliğində, müstəqil Azərbaycan dövlətinin indiki dirçəliş mərhələsində televiziya və radionun fəaliyyəti əvəzolunmazdır. Azərbaycan həqiqətlərinin, xüsusən də Ermənistanın ölkəmizə təcavüzkar müharibəsinin, qaçqınların ağır sosial-iqtisadi vəziyyətinin obyektiv şəkildə yayılmasında və beynəlxalq ictimaiyyətə çatdırılmasında efir işçilərimiz öz vəzifələrini layiqincə yerinə yetirirlər.

Dövlətimiz televiziya və radionun təkmilləşməsinə həmişə qayğı göstərir, ictimai-siyasi, iqtisadi həyatın mürəkkəb vaxtlarında da bu sahənin problemlərinə həssaslıqla yanaşır, onların həlli üçün təxirəsalınmaz tədbirlər görür.

Bu gün yeni inkişaf və yüksəlişə qədəm qoymuş televiziya və radiomuz səfərbəredici rolunu əsaslı şəkildə həyata keçirmək üçün daha əzmlə çalışmalıdır. İnanıram ki, siz bundan sonra da səylərinizi Azərbaycanın çiçək[158-159]lənməsi, müstəqilliyimizin və dövlətçiliyimizin möhkəmlənməsi kimi müqəddəs vəzifələrin həyata keçirilməsinə həsr edəcəksiniz.

Sizə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *6 noyabr 1997-ci il*
[159]

# ƏLİLLƏRİN III RESPUBLİKA YARADICILIQ SƏRGİ-MÜSABİQƏSİNİN AÇILIŞINDA ÇIXIŞ

*Tofiq İsmayılov adına Uşaq Yaradıcılığı Sarayının rəngkarlıq və tətbiqi sənət sərgisi salonu*

*6 noyabr 1997-ci il*

Əziz bacılar, qardaşlar, sərgi iştirakçıları!

Hörmətli xanımlar və cənablar!

Mən sizin hamınızı bu gün respublikamızın vətəndaşlarından fiziki cəhətdən zəif olan insanların işlərinin nəticəsinin bu qədər gözəl nümayiş etdirilməsi və belə bir sərginin açılması münasibətilə təbrik edirəm.

Bu sərgi, burada nümayiş etdirilən eksponatlar insana çox böyük təsir bağışlayır. Birincisi, öz yüksək estetik keyfiyyətinə görə təsir bağışlayır. Həqiqətən burada təqdim olunan hər bir əsər böyük hisslər doğurur. Bu əsərləri yaradanlar peşəkar rəssamlar, yaxud peşəkar sənətkarlar deyillər. Ancaq işlər onu təsdiq edir ki, bu əsərlərin hamısı yüksək peşəkar səviyyədədir. Demək, bu əsərləri yaradan adamların fitri istedadı, incəsənətə və burada təqdim edilən sənət nümunələrinin yaranmasına olan həvəsi, onların fədakarlığı, çalışqanlığı belə nümunələr yaradıb bu sərgiyə təqdim etmələrinə imkan veribdir. Əgər nəzərə alsaq ki, bu əsərlərin müəllifləri bu və ya başqa cəhətdən fiziki çətinlik keçirirlər, fiziki çatışmazlığa məruz qalıblar, onda bu əsərlərin nə qədər qiymətli və bu insanların nə qədər böyük hörmətə layiq olduğu daha da aşkar olur. Mən bu əsərləri yaradanlara, burada nümayiş [160-161] etdirməyə gələnlərə, sərgidə görüşdüyüm insanlara, bu əsərlərin müəlliflərinə hörmət və ehtiramımı bildirir və onları bu nailiyyətləri münasibətilə təbrik edirəm.

Bu əsərlər və ümumiyyətlə, sərgi bir daha onu sübut edir ki, insan nə qədər böyük istedada və böyük potensiala malikdir. Bu onu göstərir ki, biz hələ insanların nə qədər böyük potensiala malik olmasını bəlkə də tam dərk edə bilməmişik. Əgər insanın əlləri yoxdursa, ayaq barmaqları ilə şəkil çəkir və o şəkil hər bir rəssamın şəklindən də bəlkə yaxşıdır, yaxud elə onun səviyyəsindədir. Bu onu göstərir ki, insan nəyə qadirdir. İradə, öz gücünə inam, öz imkanlarından istifadə etmək üçün çalışqanlıq - bunlar hamısı insanlarda olan daxili potensialı büruzə verir və belə əsərlərin yaranmasına gətirib çıxarır.

Doğrusu, mən bu gün çox heyran oldum. Çox heyran oldum. İlk dəfə deyil mən belə sərgiləri görürəm, seyr edirəm. Ancaq buna baxmayaraq, hər dəfə onlar məni heyran edir. Güman edirəm, bu sərginin iştirakçılarının hamısı mənimlə eyni fikirdədirlər. Sərgi məni sevindirir. Sevindirir ona görə ki, insan nə qədər çətinlik çəksə də, onu yaşadan həmişə həyata olan inamıdır, nikbinliyi, iradəsidir. Əgər insanda iradə, həyata inam varsa, öz daxili qüvvələrinə inam varsa, insan çox şey edə bilər.

Əgər fiziki cəhətdən çatışmazlığı olan insanlarımız bu cür əsərlər yarada bilirsə, demək, bizim tam sağlam olan insanlarımız nələr yarada bilərlər. Təkcə rəsm əsərləri, incəsənət əsərləri yox, həyatımızın bütün sahələrində nələr yarada bilərlər. Bunlar hamısı indi, Azərbaycanda müstəqil dövlət, demokratik dövlət quruculuğu prosesində çox vacibdir. Hesab edirəm ki, bu sərginin iştirakçıları öz əsərləri ilə nəinki özlərini, özlərinin varlığını ictimaiyyətdə təsdiq edirlər, eyni zamanda onlar ictimaiyyətə, xalqımıza göstərirlər ki, insan nəyə qadirdir. [161-162]

Bizim qədim tariximiz bunu dəfələrlə sübut edib ki, insan çox şeyə qadirdir. Biz qədim «Fərhad və Şirin» əfsanəsindən bilirik ki, bir insan dağı da yarıb keçə bilər. O əfsanə də əfsanə deyil, həqiqətdən götürülmüş bir əhvalatdır. Bizim tariximizdə belə nümunələr çox olubdur və bugünkü həyatımız belə nümunələri daha da geniş nümayiş etdirir. Bunu nümayiş etdirənlərin də bir çoxu məhz bu sərginin iştirakçılarıdır.

Mən deyə bilmərəm bu əsərlərin hansı hansından yaxşıdır, - bəlkə də münsiflər heyəti müəyyən edəcək, - amma güman edirəm, onların da qarşısında çox çətin bir vəzifə durur. Çünki bunların hərəsinin özünəməxsus xüsusiyyəti, keyfiyyəti, hərəsinin özünəməxsus dəyəri, gözəlliyi var. Ona görə də bunları bir-birindən seçmək çox çətin olacaqdır. Ancaq münsiflər heyəti bu əsərləri seçib müəyyən edəndən sonra və onların qiyməti təyin olunandan sonra mən də mütləq bu əsərlərdən öz evim üçün almaq fikrindəyəm. Ancaq bunu indi etmək istəmirəm, çünki hansını istəsəm, mənə deyəcəklər ki, qiyməti belədir. Qoy bunu münsiflər müəyyən etsinlər, qiymət elan olunsun, ondan sonra mən də bir vətəndaş kimi gəlib, hansı daha xoşuma gələrsə, onları alacağam. Şübhəsiz, hesab edirəm ki, bizim vətəndaşlarımız burada olan incəsənət nümunələrini həvəslə alacaqlar, çünki hamısı gözəldir.

Bu sərgi eyni zamanda göstərir ki, Azərbaycanda əlillərə, fiziki cəhətdən çatışmazlığı olan insanlara indi həqiqətən qayğı göstərilir. Bunlar məhz bu qayğının nəticəsində bu işləri görə biliblər. Mən deyə bilmərəm ki, biz bu qayğını tamamilə təmin edə bilirik. Əgər belə desəydim, bu, ədalətli olmazdı. Çatış-

mazlıqlarımız hələ çoxdur. Müharibə əlillərinə, torpaqlarımızın müdafiəsində şikəst olmuş adamlara, fiziki cəhətdən zədə almış insanlara qayğımız hələ istənilən səviyyədə deyildir. Biz bunu artırmalıyıq. Bunu həm dövlətin ümumi proqramlarında artırmalıyıq, həm də ki, ümumi proqram[162-163]larımızın həyata keçirilməsində müvafiq orqanlar bunu etməlidir.

Təəssüf ki, bəzən belə olur: bu sahəyə, bu təbəqəyə qayğı göstərilməsi üçün ayrılan maddi və maliyyə vəsaitləri öz ünvanlarına çatmır. Bu da həqiqətdir. Ona görə də biz bu nöqsanları aradan qaldırmalıyıq. Bir tərəfdən dövlət, hökumət proqramlarımızda bu sahəyə daha da çox vəsait ayırmaq və bu sahədə daha çox işlərin görülməsi üçün lazımi tədbirlər görməliyik. Amma bununla bərabər, bizim müvafiq orqanlarımız - nazirliklər, yerli icra hakimiyyəti orqanları, başqa hökumət orqanları bu hökumət, dövlət proqramlarının həyata keçirilməsinə sədaqətlə xidmət etməli, əyintilərə yol verməməlidirlər. Bu sahə bizim üçün çox vacib sahədir.

Əmin ola bilərsiniz, - bunu sizə və sizin simanızda Azərbaycanın bu təbəqədən olan insanlarının hamısına deyirəm, - biz bundan sonra da birinci növbədə Vətənin, torpağın müdafiəsində şikəst, əlil olmuş insanlara və onlarla bərabər, fiziki cəhətdən çatışmazlığı olan insanların hamısına qayğını və diqqəti ilbəil artıracağıq və bu, gələcəkdə proqramlarımızda daha da görkəmli yer tutacaqdır. Ümidvaram ki, Azərbaycanın dövlət və hökumət orqanlarının hamısı mənim bu çağırışımı layiqincə yerinə yetirəcəklər və biz əlillər, şikəst adamlar üçün, fiziki çatışmazlığı olan insanlar üçün - onların yaşaması, əmək fəaliyyətinə cəlb olunması, öz daxili imkanlarından, istedadlarından istifadə etmələri üçün daha da geniş şərait yaradacağıq.

Mən sizin hamınızı bir daha təbrik edirəm. Sizə cansağlığı arzu edirəm. Siz qəhrəman insanlarsınız, - mən sərgi iştirakçılarını nəzərdə tuturam, - siz qəhrəman, şücaətli insanlarsınız. Belə çətinliklərin öhdəsindən gələrək bu cür gözəl işlər görürsünüzsə, siz böyük hörmətə və ehtirama layiq insanlarsınız. Sizə cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Sağ olun. [163-164]

Mən bizim Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətini də qeyd etmək istəyirəm. Nazirlik bu sahədə çox iş görür və o işi də yüksək qiymətləndirirəm. Son vaxtlar nazirliyin işi güclənibdir və lazım olan tədbirləri həyata keçirirlər. Ancaq dediyim tənqidlər hamıya, o cümlədən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə də aiddir. Əldə etdiyiniz nailiyyətlərə görə mən məmnun olduğumu bildirir, ancaq sizdən də, bütün hökumət və dövlət orqanlarından da tələb edirəm ki, işləri bundan sonra daha da yaxşı aparasınız. [164]

## XALQ ARTİSTİ TOFİQ QULİYEVƏ

Hörmətli Tofiq Quliyev!

Sizi - milli mədəniyyətimizin inkişafında böyük xidmətləri olan görkəmli bəstəkarı və ictimai xadimi 80 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Sizin yaratdığınız əsərlər dəyərli sənət nümunələri olmaqla yanaşı, xalqımızda milli özünüdərkin, milli süurun möhkəmləndirilməsi işinə xidmət etmişdir.

Siz musiqi tarixinə Azərbaycan estradasının banisi kimi daxil olmusunuz. X əsrdə yaranmış musiqi formalarından məharətlə istifadə etməklə siz Azərbaycan müsiqisinə tamamilə yeni janrlar gətirmisiniz. Geniş diapazona malik yaradıcılığınız sizə minlərlə dinləyicinin tükənməz məhəbbətini qazandırmışdır. Yüksək sənətkarlıqla yaratdığınız mahnılar, operettalar, estrada və kino müsiqisi Azərbaycanın musiqi xəzinəsinin qızıl fonduna əbədi daxil olmuş və mədəniyyətimizə geniş söhrət gətirmişdir.

Sizin mənalı həyatınız və zəngin yaradıcılığınız neçə-neçə nəsil üçün, xüsusən gənc sənətçilər üçün xalqa sədaqətli xidmətin nümunəsi olmuşdur. Uzun illər rəhbərlik etdiyiniz Azərbaycan Bəstəkarlar İttifaqı yüksək təşkilatçılıq qabiliyyətiniz, gözəl insani keyfiyyətləriniz sayəsində ölkəmizin mötəbər mədəniyyət ocaqlarından birinə çevrilmişdir. Azərbaycanda bəstəkar kadrlar yetişdirmək sahəsində Bakı Musiqi Akademiyasının professoru kimi, fəaliyyətiniz də yüksək qiymətə layiqdir.

Nadir fitri istedad, böyük zəhmətsevərlik, xalqımızın zəngin musiqi ənənələrinə sonsuz sədaqətlə səciyyələnən [165-166] çoxşaxəli yaradıcılığınız sayəsində siz Azərbaycan musiqi sənətinin canlı klassikinə çevrilmisiniz. Sizin müasiriniz olmaq hər bir azərbaycanlının qəlbini qürur və iftixar hissi ilə doldurur.

Əziz Tofiq!

Bu yubiley gününüzdə Sizi bağrıma basıram, Sizə dərin ehtiramımı bildirir, möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *7 noyabr 1997-ci il*
[166]

# XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏNİN «HARA GEDİR BU DÜNYA?!» PYESİNİN TAMAŞASINDAN SONRA YARADICI KOLLEKTİVİN ÜZVLƏRİ İLƏ GÖRÜŞÜ

*Azərbaycan Milli Dram Teatrı*

*7 noyabr 1997-ci il*

**Heydər Əliyev:** Müvəffəqiyyətlə keçən tamaşaya görə sizin hamınızı təbrik edir, təşəkkürümü bildirir və yeni uğurlar arzulayıram.

Bəxtiyar müəllim, bu pyes əvvəllər də elə indiki quruluşda nümayiş etdirilmişdirmi?

**Bəxtiyar Bahabzadə:** Bəli, həmin quruluşdur. Tamaşanın quruluşçu rejissoru Bəhram Osmanov, bəstəkarı Adil Bəbirovdur. Bu pyes 1991-ci ildə bir neçə dəfə tamaşaya qoyulub. Sonra Türkiyədə onun beş tamaşası oldu. Daha sonra teatrın kollektivini Kiprə dəvət etdilər, orada da iki tamaşa göstərildi. Pyesin tamaşaları həm Türkiyədə, həm də Kiprdə böyük rəğbətlə qarşılandı.

**Heydər Əliyev:** Bu mövzu bu gün də öz aktuallığını itirməyibdir. İnsan nə qədər yaşayacaqsa, bu mövzu bir o qədər də aktual olacaqdır.

Bəxtiyar Bahabzadənin hər bir əsəri dəyərlidir, qiymətlidir. Onun hər bir əsəri bizim mədəniyyətimizi, incəsənətimizi, ədəbiyyatımızı inkişaf etdirir. Bəxtiyar Bahabzadə adətən şerlər, poemalar yazır, ancaq bir neçə səhnə əsəri də yaradıbdır. O, 1970-ci illərdə də çox uğurlu əsərlər yazmışdı, 1991-ci ildə də belə bir əsər yaradıbdır. [167-168]

Mən bu tamaşanı çox böyük maraqla, həvəslə izlədim. Doğrudur, bu pyesin məzmunu ilə mən əvvəldən tanış deyildim, ona görə də hadisələrin gedişini bəzən tuta bilmirdim ki, sonra nə olacaq. Mənə belə gəlir ki, əsərin ən böyük keyfiyyəti elə bundan ibarətdir. Bəzən tamaşaya bir az baxandan sonra hadisələrin sonrakı gedişini və nə ilə sona çatacağını təxminən bilirsən. Amma düzü, mən bu tamaşada bunu tuta bilmədim. Tamaşanın ortasında bir yerdə ixtiraçı alimin monoloqu qurtaranda elə bildim ki, tamaşa da bununla başa çatacaq. Sonra gördüm ki, yox, tamaşa hələ davam edir. Bunun özü müəllifin böyük ustalığının dərinliyini, məharətini, eyni zamanda bu mövzunun açılmasının qeyri-sadəliyini göstərir. Tamaşaçının, ümumiyyətlə, kitab oxuyan adamın diqqətini bütün başqa cəhətlərlə yanaşı bu, həmişə cəlb edir. Əsərin daxili mənası, məzmunu şübhəsiz ki, çox əhəmiyyətlidir. Məndə belə bir təsəvvür yarandı ki, bu, fəlsəfi, psixoloji bir əsərdir, eyni zamanda elmi əsərdir.

Bilirsiniz, adətən tamaşaya gəlirlər ki, əsərdə bir münaqişə olsun, yaxud da oynamaq, çalmaq - şənlik olsun. Bəlkə də belə bir əsər hər bir tamaşaçının diqqətini cəlb edə bilməz. Belə bir əsərin öz tamaşaçısı lazımdır. Ancaq eyni zamanda, hesab edirəm ki, hər bir insan - yaşlı da, cavan da, gənc də, qadın da, kişi də bu tamaşaya diqqətlə baxdıqca onların hamısında böyük maraq oyanacaq. Çünki bu tamaşa həyatı əks etdirir. Bəxtiyar müəllim belə bir əsər yazmaqla insan yaranandan indiyədək adamların arasında, onların həyatında gedən psixoloji prosesi əks etdirmək istəyib. Hesab edirəm ki, o, buna nail olubdur.

İnsan həyatında, cəmiyyətdə gedən bu proseslər təəssüf ki, bir tərəfdən təbii proseslərdir - necə ki, təbiətin qanunları təbiidir və heç kəsdən asılı deyil. Biz indi artıq görürük - siz bu gün burada göstərdiyiniz, əcdadından indiyədək ən yüksək [168-169] səviyyəyə qalxmış insan və insan cəmiyyəti, onun xüsusiyyətləri, keyfiyyəti heç kəsdən asılı deyil.

Bu əsərdən doğan məna ondan ibarətdir ki, gərək hər bir insan nə olur-olsun, paklıq, mənəvi saflıq, mənəvi təmizlik uğrunda mübarizə aparsın, insana xas olan mənfi keyfiyyətlərdən insanları xilas etməyə axıra qədər çalışsın. Bizim yaşadığımız planetdə insanın tarixini heç kəs bilmir. İnsan neçə min-min illərdir yaşayır. Hər bir insanın isə kiçik - altmış, yetmiş, səksən, doxsan il ömrü var, bəziləri yüz yaşa qədər ancaq yaşaya bilir. Bunun da bir hissəsi uşaqlıq dövrüdür, bir hissəsi yuxudur, son hissəsi də onun yaşlı dövrünə düşür. İnsan sadəcə olaraq yaşamaq üçün mübarizə aparır, başqa bir imkanı olmur. Bu, insanın ömrüdür. Amma insan cəmiyyətinin ömrünü heç kəs bilmir. Yer üzündə neçə yüz min illərdir ki, insan yaşayır və insan cəmiyyəti mövcuddur. İbtidai icma dövrü - tarixçilər yazıblar - neçə min illər bundan öncə olubdur.

Bu gün siz Bəxtiyar müəllimin yazdığı sözləri ifa edib bizə sübut etmək istəyirsiniz ki, o vaxtlar hər şey düz, pak olubdur, eyni zamanda, özünüz də inkar edirsiniz ki, yox, belə olmayıbdır. Həm deyirsiniz, həm də inkar edirsiniz. Yəni bunları Bəxtiyar müəllim belə yazıb, siz isə onları səhnədə ifa edirsiniz və bizə göstərirsiniz.

Həyatın prosesləri çox mürəkkəbdir. Ancaq o da təbiidir ki, insan cəmiyyətində eybəcərliklər əsrlərdən - əsrlərə keçərək daha da çox artır. Bilirsiniz, mən indi bu tamaşaya baxanda Cəlil Məmmədquluzadənin «Ölülər» əsəri yadıma düşür. O, çox böyük fəlsəfi, həyati və çox dəyərli bir əsərdir. Cəlil Məmmədquluzadə «Ölülər» əsərində insanların şəxsi xüsusiyyətlərini, onların mənəviyyatını necə göstərirdi?

Yəni bu, hər bir əsrdə olubdur. Bizim XX əsrdə də belədir. Mən bu tamaşanı izlədikcə fikirləşirəm, vəzifə nədən ibarətdir - bunu qəbul etmək, onunla razı olmaq, yaxud da ki, mübarizə [169-170] aparmaq lazımdır? Əsərin də ana xətti ondan ibarətdir ki, əsas qəhrəman Laçın bu mübarizəni aparır və öz fikrində, əxlaqında axıra qədər qalır. Demək, insanları bu nümunədə tərbiyə etmək lazımdır.

Bu, asan deyil, çox çətindir. Mən öz həyatımdan deyə bilərəm ki, çox çətindir. Bilirsiniz ki, mənim gördüyüm işlər bir, iki, on ili əhatə etmir. Mən təxminən 30 ildir ki, respublikaya rəhbərlik etməyə başlamışam. Ancaq mən ondan əvvəl də, gənc vaxtlarımdan həyatın bütün bu eybəcərlikləri ilə mübarizə aparmağa çalışmışam. Hansısa bir mərhələdə nəyəsə nail olmaq olur. Sonra isə kimsə gəlib onu pozur. Məsələn, öz həyatımın tarixindən desəm, 1970-ci illərdə burada işləyəndə biz çox şeylərə nail ola bildik. Amma sonrakı dövr gəldi, bütün bunların hamısını dağıtdı.

Şübhəsiz ki, bizim həyatımızda indi çox müsbət cəhətlər var. Bu da ondan ibarətdir ki, xalqımız azaddır, müstəqildir. Bizim müstəqil dövlətimiz var. Tariximizdə ilk dəfə sabit, müstəqil bir dövlətdə yaşayırıq. Biz həyatımızı yenidən qururuq, dövlət quruculuğunun yeni prosesi gedir, iqtisadiyyatımız yenidən qurulur. Bunlar hamısı həyatın müsbət cəhətləridir. Amma bununla yanaşı, bu əsərin əsas ana xətti olan xeyirlə şər yan-yanadır, o həyatı zibilləyən mənfi cəhətlər var və təəssüf ki, onlar azalmayıb, əksinə, artıb və artmaqdadır. Onlar da özlərini haqlı sayırlar. Elə tamaşada Nərgizin sözləri ilə deyilir ki, bu maaşla dolanan kimdir? Başa düşürsınız, amma maaşla dolanan var. Bəxtiyar müəllim, altı faiz deyil, əhalinin əksəriyyəti maaşla dolanan adamlardır. Bir milyon qaçqınımızın heç maaşı da yoxdur, onlar verilən köməklə yaşayır, dolanırlar. Yeddi milyon əhalidən bir milyonu qaçqındır. Yaxud, orada az məvaciblə dolanan adamlar var. Bunlar var. Ona görə də Bəxtiyar müəllim bu əsərdə rəqəmləri bir az əks tərəfə «şişirdibdir». [170-171]

**Bəxtiyar Vahabzadə:** Elə mən özüm də maaşla dolananlardanam.

**Heydər Əliyev:** Təəssüf ki, cəmiyyətdə qanunu pozanlar, əxlaqsızlıq, mənəviyyatsızlıq edənlər də var. Beləlləri insanı o qədər incidir ki, həmin adam hər şeyi artıq qara rəngdə görür. Amma həyat tam qara deyil. Həyatın işıqlı tərəfi da, qaranlıq tərəfi də, gözəl tərəfi də, insanları incidən tərəfi də var. Ona görə bu məsələdən belə nəticə çıxarmaq olar ki, biz indiyə kimi nə qədər çalışmışıqsa, bundan sonra da hər bir insan cəmiyyətimiz, hər bir adamın əxlaqının təmizlənməsi uğrunda mübarizə aparmalıdır və heç vaxt ümidsiz olmamalıdır.

Mən Bəxtiyar müəllimə bildirmək istəyirəm - bu əsərdə bəzən bir az ümidsizlik hiss olunur. Ümidsizlik olmamalıdır. Cəmiyyət, insan ümidlə yaşamalıdır. İnsan ümidlə yaşamalıdır ki, cəmiyyət mənfi hallardan xilas olsun. Biz bəlkə də buna nail ola bilməyəcəyik. Amma gələcək nəsillər buna mütləq nail olacaqlar.

Əsərdə kökə qayıtmaq məsələsi var, mən onun mənasını belə anlayıram ki, kökümüzə olan o müsbət cəhətləri götürmək lazımdır. Mən də sizinlə razıyam ki, tamaşadakı kimi, ibtidai icma quruluşuna qayıtmayacağıq. Bu, mümkün deyil. Hansınız istəsəniz, bu, mümkün deyil. Mən yenə də Cəlil Məmmədquluzadənin «Ölülər» əsərinə qayıdıram. Orada da əvvəl hamısı istəyir ki, Şeyx Nəsrullah onun qohum-qardaşını diriltsin. Sonra hər birinə başa salanda ki, bu diriləndə nə olacaq - onda hamı imtina edib deyir ki, yox, diriltmə. İndi Bəxtiyar müəllim də bu əsərində deyir ki, kökə qayıdın. Sizin hər biriniz nəticəni başa düşəndə, onda nə cür olacaq? Onda deyəcəksiniz ki, yox, indi nə cür var, qoy elə yaşayım.

Cəmiyyət daim inkişaf edəcəkdir. Gələcək nəsillər daha da yaxşı yaşayacaqlar. Biz edə bilmədiyimizi gələcək nəsillər [171-172] edəcəklər. Amma gələcək nəsillərə şərait yaratmaq üçün biz gərək bu mübarizəmizi aparaq Bəli, tamaşada Laçın rolunu oynayan mübarizə aparmaq üçün bunların hamısını - Bəxtiyar müəllimin sözlərini çox gözəl ifa etdi. Şübhəsiz ki, belə əsərlər mübarizə aparmaq üçün bizə kömək edir. Bunlar bizə lazımdır, əhəmiyyətlidir.

Bəxtiyar müəllim, mən sizi bir daha təbrik edirəm. Çox gözəl bir əsər yaratmısınız. Bu vacibdir. Bu mövzu bu gün də, on il bundan sonra da aktual olacaqdır. Mən bədbin deyiləm, nikbinəm və bu əsərin ümidsizlik nüansları, notları ilə də razı deyiləm. Çünki insan ümidlə yaşamalıdır. İnsan inanmalıdır ki, hər şeyə nail olmaq - cəmiyyəti də düzəltmək, insanların əxlaqındakı mənfi cəhətlərdən də insanı xilas etmək, onu tam mükəmməl etmək olar. Bizim borcumuz mükəmməl insan, mükəmməl insan cəmiyyəti yaratmaqdır və bunun uğrunda mübarizə aparmaq lazımdır. Bax, bu əsər də bütün bunlara kömək edir.

**Ramiz Novruzov** (əməkdar artist): Ulu əcdadlarımız deyiblər ki, keçmişlərin səhvlərini gələcək düzəltməlidir, ataların səhvlərini oğullar düzəltməlidir.

**Heydər Əliyev:** Bəli, Bəxtiyar müəllimin əsəri haqqında öz fikirlərimi dedim. Sizin hamınız da rollarınızı çox gözəl ifa etdiniz. Mən yenə də deyirəm, bu əsər adi tamaşaçı üçün çox çətin qavranılan bir əsərdir. Amma həm rejissorun, həm sizin hamınızın birlikdə ifaçılıq sənətiniz insanı doğrudan da gərginlikdə saxlayır. Mən iki saatdan artıq davam edən bu tamaşanı çox diqqətlə, gərgin vəziyyətdə dinləyirdim. Sizin bu artistlik, ifaçılıq məharətiniz əsərin bu qədər canlı görünməsinə kömək etdi.

Güman edirəm ki, Bəxtiyar müəllim inciməz - bu əsəri səhnədə görməyən adam kitabı oxusa, bu təəssüratı ala bilməz. Məsələn, siz özünüz yazdığınız şeri kitabdan oxuyan[172-173]da ola bilər ki, onu yarıya qədər oxuyasan, yarısını oxumayasan.Elə bu əsərin özü də mürəkkəb əsərdir.

Mən vaxtilə Hötenin «Faust» əsərini götürüb oxumağa başladım, heç yarısına çatmadım, onu kənara atdım. Çünki çətin idi. Fəlsəfi əsərlər həmişə çətin olur. Səhnədə sizin ifanız Bəxtiyar müəllimin bu əsərinin məzmununu, mənasını, əhəmiyyətini çox gözəl açıbdır. Quruluşçu rejissorun da işi təqdirəlayiqdir və hər birinizin ifa etdiyiniz rollar da çox gözəldir. Mən tamaşaya çox diqqətlə baxırdım. Hərə öz rolunu yaxşı ifa edirdi. Hamınızı təbrik edirəm və təşəkkür edirəm ki, bizə bu gün yeni bir tamaşa təqdim etdiniz. Çox sağ olun.

**K a m a l X u d a y e r d i y e v** (xalq artisti): Hörmətli prezident, icazə verin, biz də adımızdan Sizə təşəkkürümüzü bildirək. Arzu edirik ki, teatrımıza tez-tez gələsiniz. Çünki sizin hər gəlişiniz bizə ilham verir, bizi yeni uğurlara çağırır.

Siz yazıçıların qurultayındakı nitqinizdə də teatrımızın adını çəkdiniz. Qeyd etdiniz ki, gələn il teatrın 125 illiyi qeyd olunacaqdır. Biz də sizə söz veririk ki, Dövlət Akademik Milli Dram Teatrını qoruyub saxlayacağıq, onu gənc nəslə təhvil verəcəyik.

Hörmətli prezident, mən Sizi Konstitusiya günü münasibətilə və ilkin neftin hasil olması münasibətilə təbrik edirəm. Sizə cansağlığı, uzun ömür arzulayıram. Arzu edirəm ki, Allah Sizi xalqımızın üzərindən əskik etməsin.

Hörmətli prezident, teatrımızın repertuarında Şekspirin «Kral Lir» əsərinin tamaşası var. Biz bu tamaşa ilə Moskvada qastrolda olanda ona baxmağa sizin imkanınız olmadı. Biz oradan çox gözəl təəssüratla qayıtdıq. Xahiş edirəm, əgər imkan tapsanız, gəlib həmin tamaşaya baxasınız.

**H e y d ə r Ə l i y e v:** Bəli, Şekspirin «Kral Lir» əsərinin tamaşasına baxmaq lazımdır. O vaxt eşitmişdim, siz bu əsərin tamaşasını yaxşı göstərmisiniz. [173-174]

**B ə x t i y a r V a h a b z a d ə:** Heydər müəllim, bayaq «Ölülər» əsəri haqqında dediniz. Moskva Universitetinin professoru Əziz Şərif var idi, çox ağıllı adam idi.

**H e y d ə r Ə l i y e v:** Bəli, mən onu yaxşı tanıyırdım və onunla bir neçə dəfə görüşmüşdüm.

**B ə x t i y a r V a h a b z a d ə:** O danışırdı ki, Azərbaycanda hamı «Ölülər» əsərinin necə qurtaracağını bilir. Deyirdi ki, Moskva Universitetində SSRİ xalqları ədəbiyyatından mühazirə oxuyanda tələbələrə söyləyirdim ki, «Ölülər» əsərində belə bir vəziyyət var - Şeyx Nəsrullah deyir: «Mən gəlib ölüləri dirildəcəyəm», camaat da gəlir, amma sonra hamı imtina edir. İndi gedin fikirləşin, o biri həftə mənə deyərsiniz görüm, dramaturq bu əsərdə hadisələri necə qurub ki, heç kəs öz qohumunun, övladının, atasının, anasının dirilməyinə razı deyil. Tələbələr gedib bir həftə fikirləşəndən sonra gəlib deyirdilər ki, professor, bilə bilmədik, siz Allah, deyin görək dramaturq həmin vəziyyətdən necə çıxır? Mən bu məsələni izah edəndə tələbələr dəhşətə gəlirdilər.

Bizim Cəlil Məmmədquluzadə, Mirzə Fətəli Axundov, Cəfər Cabbarlı, Hüseyn Cavid kimi dramaturqlarımız - biz onların bulağından su içirik - çox xariqulадə əsərlər yaradıblar. Hüseyn Cavidin «İblis», Cəfər Cabbarlının «1905-ci ildə», «Almaz» pyesləri nə qədər böyük əsərlərdir.

**H e y d ə r Ə l i y e v:** Bəxtiyar müəllim, siz tamamilə düz deyirsiniz. Bizim dramaturgiya çox güclüdür. Mən yazıçıların qurultayında da, əvvəl də bunu demişəm. Bilirsiniz, biz bəlkə də bunu qiymətləndirmirik - öyrənmişik ki, bu belə olub, elə belə də olar. Amma belə deyil. Müsəlman, islam dünyasında 25 il bundan əvvəl ilk dəfə teatr yaradılması və Mirzə Fətəli Axundov tərəfindən səhnə əsəri yazılması böyük hadisədir, inqilabdır. O vaxt nə sosialist inqilabı var idi, nə də XX əsr deyildi. Görün nələr yaradıblar. Buna görə də Azərbaycanın [174-175] teatrı, dramaturgiyası, incəsənəti çox böyük qiymətə layiqdir. Bunlar barədə çox danışmaq olar.

Sizin əsasən 1960, 1970, 1980-ci illərdə, o cümlədən 1990-cı illərdə yaratdığınız əsərlərin hamısı qiymətlidir. Siz ədəbiyyatı məndən yaxşı bilirsiniz. Bayaq «Ölülər» əsərinin adını çəkdim. Mən Şekspirdən başlayaraq bütün dram əsərlərini bilirəm. Hesab edirəm ki, «Ölülər» kimi əsəri heç kim yarada bilməyib. Çünki bu cür mövzu tapmaq özü bir fəlsəfədir, dahilikdir.

**İ r a d ə H ə s ə n o v a** *(aktrisa):* Hörmətli prezident, mən Sizə Bəxtiyar müəllimə, Məmməd Araza, Ramiz Rövşənə göstərdiyiniz qayğıya görə dərin təşəkkürümü bildirirəm. Sizə cansağlığı arzu edirəm. Bir də arzum budur ki, hansı dövlətə, ölkəyə səfərə getsəniz, həmişə sözünüz keçərli olsun.

**L a l ə z a r M u s t a f a y e v a** (*aktrisa):* Hörmətli prezident, tamaşalara gəlib baxmağınız bizim üçün çox əhəmiyyətlidir. Amma mənə elə gəlir ki, gərgin işinizə baxmayaraq vaxtınızı bizə sərf etməyinizin, ekranda bizi izləməyinizin, sonra zəng vurub təbrik etməyinizin qiyməti ölçülməzdir. Hörmətli prezident, çox sağ olun, hamımız Sizə minnətdarıq.

**H e y d ə r Ə i y e v:** Sizi bir daha təbrik edirəm. Sizə cansağlığı, yeni-yeni uğurlar arzulayıram. Azərbaycan Milli Dram Teatrı bundan sonra da yaşayacaqdır. Biz onu saxlayacağıq. Biz ümumiyyətlə teatrsız, incəsənətsiz, televiziyasız yaşaya bilmərik. Siz öz sənətinizlə bütün insanlara çox böyük xidmət edirsiniz. Sağ olun. [175]

**DÖVLƏT MÜKAFATLARI LAUREATI,**
**GENERAL - LEYTENANT**
**KƏRİM KƏRİMOVA**

Əziz Kərim Əliyeviç!

Anadan olmağınızın 80 illiyi münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Kosmik elmin və texnologiyanın yaranmasına, kosmosun fəthi sahəsində bir çox layihələrin həyata keçirilməsinə Sizin verdiyiniz töhfəni yüksək qiymətləndirirəm.

Sizin fədakar əməyiniz, təşkilatçılıq istedadınız və yüksək mənəvi keyfiyyətləriniz Sizə layiqli nüfuz və ictimai hörmət qazandırmışdır.

Məmnuniyyətlə qeyd edirəm ki, Siz bütün bu illərdə doğma Azərbaycanla əlaqələri kəsməmisiniz, respublikamızda kosmik elmin texnologiyasının təşəkkülünə və inkişafına kömək etmisiniz. Xidmətlərinizi nəzərə alaraq, müstəqil Azərbaycan Respublikası Sizi «Şöhrət» ordeni ilə təltif etmişdir.

Sizi yubileyiniz münasibətilə bir daha təbrik edir, Sizə möhkəm cansağlığı və uzun ömür, ailənizə səadət və əmin-amanlıq arzulayıram.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 noyabr 1997-ci il*
[176]

**AZƏRBAYCAN RESPUBLİKASININ ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT XADİMLƏRİNƏ DÖVLƏT QAYĞISININ ARTIRILMASI HAQQINDA**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan xalqı qarşısında böyük xidmətləri olan ədəbiyyat və incəsənət xadimlərinə dövlət qayğısını artırmaq məqsədilə qərara alıram:

1. Qocaman ədəbiyyat və incəsənət xadimləri üçün ayda bir milyon manat məbləğində ömürlük 30 fərdi təqaüd təyin olunsun. Fərdi təqaüdçülər Azərbaycan Respublikası Prezidentinin qərarı ilə müəyyən edilir.
2. Azərbaycan Respublikası Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 noyabr 1997-ci il*
[177]

## «ÇIRAQ - I» PLATFORMASINDA İŞƏ BAŞLANILMASI, NEFTİN ALINMASI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*12 noyabr 1997-ci il*

Bu gün burada gördüyüm «Çıraq» platforması mənə və güman edirəm, burada toplaşanların hamısına çox böyük təsir bağışlayıbdır. Biz üç il müddətində görülən gərgin işin gözəl nəticələrini müşahidə edirik. Azərbaycan neftçiləri hələ 50 il bundan öncə Xəzər dənizində platformalar yaradıb və neft çıxarmağa başlayıblar. «Çıraq» neft yatağında olan platformanı da vaxtilə Azərbaycan neftçiləri yaratmışlar. Ancaq üç il bundan öncə, «Əsrin müqaviləsi» imzalanandan sonra bir konsorsiumun iştirakçısı olan şirkətlərlə birlikdə bu platformanı yenidən qurmuşuq və o, bugünkü müasir vəziyyətə gədib çatıbdır.

Mən bu gün böyük iftixar hissi keçirirəm. Xəzərin ortasında, açıq dənizdə belə gözəl platforma yaranıb və o, dünyada dənizdən neft çıxarılması sahəsində ən yüksək standartlara uyğun platformadır. Bu platformanı tikən, quran və yaradanların hamısına, burada işləyənlərin hamısına, burada toplaşmış, bir çox ölkələrdən olan mütəxəssislərə - mühəndislərə, texniklərə, fəhlələrə, hamıya təşəkkür edirəm və «Çıraq - I» platformasının işə başlaması, neftin alınması münasibətilə hamınızı ürəkdən təbrik edirəm.

Biz böyük bir işin əsasını qoymuşuq. Heç şübhə yoxdur ki, Xəzər dənizində həm «Əsrin müqaviləsi» ətrafında toplaşmış şirkətlərin yaratdığı konsorsiumun fəaliyyətinin nəticəsində, [178-179] həm də imzalanmış başqa müqavilələrin həyata keçirilməsi nəticəsində bir çox belə gözəl platformalar yaranacaq, Xəzərin neft və qaz ehtiyatları dünya iqtisadiyyatına böyük kömək edəcəkdir.

Bu gün bizim ölkəmizdə bayram günüdür, - müstəqil Azərbaycan Respublikasının ilk demokratik Konstitusiyasının qəbul olunmasının ikinci ildönümüdür. Bu gün eyni zamanda qədim neft diyarı olan Azərbaycan neft sənayesinin inkişafında yeni bir mərhələnin açılması günüdür. Bu iki bayram bir-birinə qarışmışdır. Ancaq bunlar bir-birilə sıx əlaqədə olan bayramlardır. Sizi bu bayramlar münasibətilə təbrik edir və zəhmət çəkib «Çıraq - I» platformasına gəlmiş xarici ölkələrdən olan qonaqlarımıza təşəkkür edirəm. Hamınıza səadət, xoşbəxtlik, əmin-amanlıq arzulayıram.

Xeyirli olsun, uğurlu olsun! Yeni-yeni uğurlar arzulayıram!. Sağ olun.

* * *

*Yaşayış modulunun qonaq salonunda qoyulmuş xatirə lövhəsinin açılış mərasimi.*

**T e r r i  A d a m s:** - Cənab Prezident, Sizi bu gün burada, aramızda görməkdən böyük şərəf duyuruq. Bu gün işlərimizin zirvə nöqtəsidir. Yəqin xatırlayırsınız, mən ictimai yerlərdə çıxış edərkən həmişə cənab Çörçilldən sitatlar gətirirəm. Cənab Çörçillin məhz bu günə uyğun olan çox gözəl bir kəlamı var. Çörçill İkinci dünya müharibəsi zamanı döyüşdə ilk qələbədən sonra demişdir: bu, bizim işlərimizin sonu deyil, hətta sonun başlanğıcı da deyildir, başlanğıcın sonudur.

Cənab Prezident, xahiş edirik bu xatirə lövhəsini açasınız. [179-180]

**H e y d ə r  Ə l i y e v:** Mən sizin sözlərinizi və cənab Çörçillin sözlərini təsdiq edirəm və xatirə lövhəsini məmnuniyyətlə açıram.

***Xatirə lövhəsində yazılmış sözlər:***

«Zati-aliləri Prezident Heydər Əliyevin ilk neftin çıxarılması münasibətilə «Çıraq-I» platformasına rəsmi səfərindən xatirə. 12 noyabr 1997-ci il». * [180]

* Həmin gün səhər Azərbaycan Prezidenti Heydər Əliyev və onunla birlikdə Rusiya Baş nazirinin birinci müavini Boris Nemtsov, Britaniyanın dövlət xarici işlər naziri Federiko Penya da «Çıraq - I» platformasına gəldilər. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Terri Adams, ARDNŞ-in prezidenti Natiq Əliyev, ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyev və platformanın meneceri, Amerikanın «Amoko» şirkətinin mütəxəssisi Hyu Oliver platformada Azərbaycan Prezidentini qarşıladılar. Təmizlənmiş neftin platformadan Səngəçal terminalınadək çəkilmiş 176 km uzunluğunda sualtı neft kəmərinə vurulması barədə Prezident Heydər Əliyevə məlumat verildi.

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA XARİCİ ŞİRKƏTLƏRLƏ MÜŞTƏRƏK İŞLƏNİLƏN NEFT YATAQLARINDAN İLKİN NEFTİN ÇIXARILMASI MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*Respublika sarayı*

*12 noyabr 1997-ci il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar, əziz dostlar!

1994-cü il sentyabrın 20-də Azərbaycanda tarixi bir hadisə baş vermişdir. Dünyanın 7 ölkəsinə mənsub olan 11 böyük neft şirkəti bir araya gələrək konsorsium yaratmış və Azərbaycan Respublikası, Azərbaycan Dövlət Neft Şirkəti ilə Xəzər dənizinin Azərbaycan sektorunda olan «Azəri», «Çıraq» yataqlarının və «Günəşli» yatağının dərinlikdə yerləşən hissəsinin müştərək işlənməsi haqqında müqavilə imzalamışlar. Bu müqavilə «Əsrin müqaviləsi» adlandırılmış, dünyaya geniş səs yaymış və böyük əks-səda vermişdir. Bu müqavilənin həyata keçirilməsi üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradılmışdır.

Bu müqaviləyə, konsorsiuma daxil olan şirkətlər və ölkələr məlumdur. Həmin ölkələrin bayraqları burada asılıbdır və o şirkətlərin də bayraqları burada nümayiş etdirilir. Bunlar Amerika Birləşmiş Ştatlarının «Amoko», «Yunokal», «Pennzoyl», «Eksson», Böyük Britaniyanın «Britiş Petro[181-182]leum», «Remko», Rusiyanın «LUKoyl», Norveçin «Statoyl», Türkiyənin «Türk petrolları», Səudiyyə Ərəbistanının «Delta», Yaponiyanın «İtoçu» şirkətləridir. Onlar Azərbaycan Dövlət Neft Şirkəti ilə birlikdə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaratmışlar. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti müqavilədə nəzərdə tutulmuş layihəni həyata keçirməyə başlamış, üç il müddətində proqram əsasında nəzərdə tutulmuş işlərin hamısı yerinə yetirilmişdir. Bütün icbari işlər görülmüş və onların nəticəsində «Çıraq» neft yatağında yaradılmış nəhəng platforma vasitəsilə ilkin neft hasil olunmuşdur.*

XIX əsrin sonunda, XX əsrin əvvəlində Azərbaycan dünyanın neft hasil edən ən böyük ölkəsi olubdur. XX əsrin əvvəlində dünyada hasil edilən neftin 50 faizindən çoxu Azərbaycanda, Bakıda çıxarılmışdır. Azərbaycan XX əsrdə neft ölkəsi kimi çox inkişaf etmişdir. Azərbaycanın neft sənayesi mənsub olduğu Sovetlər İttifaqının, xüsusən Rusiyanın ərazisində yeni neft yataqlarının kəşf olunmasında böyük xidmətlər göstərmişdir. Təsadüfi deyil ki, Rusiyanın ərazisində olan böyük neft yataqlarına sonralar «ikinci Bakı»,«üçüncü Bakı», «dördüncü Bakı» adları verilmişdir.

İkinci dünya müharibəsi zamanı alman faşizmi ilə mübarizədə Sovetlər İttifaqının istifadə etdiyi neftin 75 faizi Azərbaycanda hasil olunmuşdur. Bu gün biz böyük iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan, Azərbaycanın xalqı, [182-183] neftçiləri alman faşizmi üzərində çalınmış qələbədə öz layiqli xidmətlərini göstərmişlər.

Azərbaycan dünyada neftin sənaye üsulu ilə hasil edilməsində irəlidə gedən ölkə olduğu kimi, suda, dənizdə də, suyun dərinliklərində də neft yataqlarının kəşf olunması və onlardan istifadə edilməsində də ilk addımlar atan bir ölkə olmuşdur. Xəzər dənizində, «Neft Daşları» adlandırılan əfsanəvi bir yerdə məhz 1949-cu ilin noyabrında - bu ayda, 48 il bundan əvvəl ilk neft quyusu fontan vurmuş və bununla da Xəzər dənizində neft istehsalı sənayesi yaranmış və inkişaf etmişdir.

Azərbaycan alimləri, neftçiləri, mütəxəssisləri Xəzər dənizinin mineral ehtiyatlarının öyrənilməsində və neft-qaz yataqlarının kəşf edilməsində böyük xidmətlər göstərmiş və həmişə irəlidə getmişlər. Mən bu gün cəsarətlə deyə bilərəm ki, Xəzər dənizində neft yataqlarının tam əksəriyyəti Azərbaycan neftçiləri, alimləri tərəfindən kəşf olunubdur.

Azərbaycan neftçiləri Xəzər dənizində neft çıxarmaq sahəsində böyük nailiyyətlər əldə etmişlər. 1949-cu ildən indiyə qədər Azərbaycanda Xəzər dənizindən 420 milyon ton neft çıxarılmışdır, 320 milyard kubmetr qaz hasil olunmuşdur. «Neft Daşları» adlanan yerdə on kilometrlərlə uzanan estakadalar qurulmuş, ayrı-ayrı neft yataqlarında neft çıxarmaq üçün platformalar yaradılmışdır. Çox sərt və çətin şəraiti olan Xəzər dənizində Azərbaycan neftçiləri qəhrəmanlıq nümunələri göstərmişlər və Xəzər dənizindən daim neft hasil etmək üçün çox görkəmli işlər görmüşlər. Bunlar hamısı - ötən illərdə Azərbaycanda neft sə-

---

* Mərasimdə Gürcüstan Respublikasının prezidenti Eduard Şevardnadze, Türkiyənin Baş naziri Məsud Yılmaz, Rusiya Baş nazirinin birinci müavini Boris Nemtsov, ABŞ-ın energetika naziri Federiko Penya, Böyük Britaniyanın dövlət xarici işlər naziri Derik Façet, Ukrayna Baş nazirinin birinci müavini Anatoli Qolubçenko, Özbəkistan Baş nazirinin müavini Kayum Xakulov, Norveçin energetika və sənaye nazirinin müavini Hokon Gil, Almaniya, Yaponiya və Qazaxıstanın, Avropa Birliyi Komissiyasının, Avropa Birliyi energetika xartiyasının nümayəndələri və başqa rəsmi şəxslər iştirak edirdilər.

nayesi sahəsində yaranmış elmi-texniki, maddi-texniki baza və böyük texniki qurğular müstəqil Azərbaycanın neft sənayesində yeni mərhələdə böyük işlər görülməsi üçün yaxşı əsas yaratmışdır.

Məhz bunlara - əlimizdə olan böyük təcrübəyə, sərəncamımızda olan böyük maddi-texniki bazaya görə Xəzər dəni[183-184]zində, suyun dərinliyində yerləşən yataqlardan neft istehsal etmək üçün Azərbaycan yeni addımlar atmağa başlamışdır. İndi Azərbaycan bu mərhələdə bu işləri dünyanın bir çox ölkələrinin böyük neft şirkətləri ilə birlikdə görür. Məhz bunun nəticəsində 1994-cü ilin sentyabr ayında ilk neft müqaviləsi imzalandı. Məhz bunun nəticəsində ondan sonrakı dövrdə, ötən üç il müddətində Xəzərin Azərbaycan sektorunda yerləşən bir çox başqa neft və qaz yataqlarında dünyanın böyük neft şirkətləri ilə müştərək iş görmək üçün yeni müqavilələr imzalanıbdır. Birinci müqavilədən sonra əlavə 8 neft -qaz yatağında müştərək iş görmək üçün müqavilələr imzalanıb. İndi Xəzər dənizinin Azərbaycan sektorunda imzalanmış müqavilələrdə 12 ölkəyə mənsub olan 20 böyük neft şirkəti iştirak edir.

Beləliklə, Azərbaycan Xəzər dənizində neft yataqlarının kəşfində və istismar olunmasında ilk addımlarını atan bir ölkə kimi indi - XX əsrin sonunda, XXI əsrin astanasında Xəzər dənizinin böyük enerji ehtiyatlarından həm Azərbaycan, həm bütün Xəzəryanı ölkələr, həm də dünya iqtisadiyyatı üçün istifadə olunması sahəsində görkəmli təşəbbüslər göstərmişdir və bunların nəticəsində də son üç ildə böyük işlər görülmüşdür.

Mən məmnuniyyətlə deyə bilərəm ki, artıq Xəzər dənizinə dünyanın hər yerində böyük maraq bəslənilir. Xəzər dənizinin Azərbaycan sektorunda olan neft-qaz yataqlarında müştərək işləmək üçün bizə çox saylı şirkətlər müraciət edirlər. Böyük məmnuniyyət hissi ilə demək istəyirəm ki, Xəzəryanı digər ölkələr də - Rusiya, Qazaxıstan, Türkmənistan, İran da Xəzər dənizinin onlara mənsub olan sektorlarında artıq iş görməyə başlayıblar. Ümidvaram ki, bu işlər də uğurlu olacaqdır. Xəzər dənizinin enerji entiyatları bəşəriyyət üçün çox əhəmiyyətli olduğu üçün, bəşəriyyətin də inkişafına sərf ediləcəkdir. [184-185]

Bu gün bizi buraya toplayan hadisə ilkin neftin alınması ilə əlaqədardır. Ancaq bu gün eyni zamanda Azərbaycan Respublikası üçün böyük bayram günüdür - müstəqil Azərbaycan Respublikasının ilk demokratik Konstitusiyasının qəbul olunmasının ikinci ildönümüdür.

Mən bu bayram münasibətilə, Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunması günü bayramı münasibətilə sizi, bütün Azərbaycan vətəndaşlarını təbrik edirəm və Konstitusiyanın əsasında Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunda hamınıza uğurlar arzulayıram.

Bu gün - Azərbaycan üçün əziz olan Konstitusiya günü, eyni zamanda Xəzər dənizindəki yataqlarda üç il görülən işlər nəticəsində ilkin neftin hasilatının qeyd olunması mərasimi bir-biri ilə üzvü surətdə bağlıdır. Çünki məhz Azərbaycan dövlət müstəqilliyi əldə edəndən, xalqımız öz sərvətlərinin sahibi olandan, öz sərvətlərindən istədiyi kimi istifadə etmək imkanı əldə edəndən sonra Azərbaycan müstəqil olaraq dünyanın bir çox ölkələri, şirkətləri ilə «Əsrin müqaviləsi» kimi müqavilə imzalamağa nail ola bildi. Məhz müstəqil Azərbaycan özünün ilk demokratik Konstitusiyasını qəbul edibdir. Azərbaycanda demokratik dövlət quruculuğu prosesi gedir. Bunlar bir-biri ilə bağlı, bir-birini tamamlayan hadisələrdir.

Bu gün bizi buraya toplayan «Çıraq» neft yatağından ilkin neftin alınması bayramıdır. Biz «Çıraq» neft yatağında qurulmuş platformaya bu gün səhər erkən vertolyotla getdik, onun işləri ilə tanış olduq və platformanı seyr etdik. Dənizin ortasında həqiqətən bir möcüzə yaranıbdır.

Azərbaycanlıları dənizdə olan estakadalarla, platformalarla təəccübləndirmək mümkün deyil. Güman edirəm ki, vertolyotla «Çıraq» yatağına uçan qonaqlarımız bunu təsdiq edərlər. Çünki sahildən «Çıraq» platformasına qədər uçarkən biz vertolyotdan Xəzər dənizində saysız-hesabsız platfor[185-186]maları və «Neft Daşları»nda yaradılmış, çox kilometrləri olan estakadaları və orada olan yaşayış binalarını gördük. Bunların hamısını Azərbaycan xalqı yaradıbdır. Ona görə bunlar bizi o qədər də təəccübləndirmir. Ancaq bununla yanaşı, «Çıraq» neft yatağında üç il müddətində yaradılmış platforma həqiqətən möcüzədir, insanı həqiqətən təəccübləndirir. Çünki o, Xəzər dənizində olan başqa platformalardan, estakadalardan öz müasir texnikası, texnologiyası, müasir imkanları ilə fərqlənir. O platformanı görən adam heyran olur. Çünki bu, böyük bir kombinatdır, zavoddur, demək olar ki, böyük bir şəhərdir. Orada insanlar yaşayır da, işləyir də. Orada insanlar neft istehsal etməyə, neft çıxarmağa başlayıblar.

Bu işin həm iqtisadi, həm siyasi, həm də mənəvi cəhəti var. Bunun iqtisadi cəhəti ondan ibarətdir ki, bizim başladığımız iş bu il də, gələcək illərdə də həm Azərbaycana, həm də Xəzər dənizində Azərbaycanla bərabər, müştərək iş görən şirkətlərə və ölkələrə böyük iqtisadi fayda gətirəcəkdir. Ancaq bunun mənəvi, siyasi cəhəti ondan ibarətdir ki, biz dünyada mövcud olan müasir texnikanı, texnologiyanı orada bir yerdə tətbiq edirik və dünyanın bir çox ölkələrindən yüksək səviyyəli mütəxəssislər, mühəndislər, fəhlələr gəlib burada Azərbaycan neftçiləri, mütəxəssisləri ilə yan-yana birgə iş görürlər. Bu, çox çevindirici haldır. Bu, bizim gələcək işlərimizin başlanğıcıdır və çox gözəl başlanğıcdır.

Üç il müddətində görülmüş işlər yüksək qiymətə layiqdir. Çünki «Çıraq» neft yatağında böyük bir platforma yaranıbdır. Orada, suyun dərinliyi 120 metr olan yerdə 3 min metr dərinlikdə bir quyu qazılıbdır. O quyudan neft alınıbdır. Plana görə gələcəkdə həmin platformadan ikinci quyu qazılacaq, sonra daha 8 quyu qazılacaq, ümumiyyətlə isə orada 24 quyu qazılacaqdır. Bu platformadan ildə 6 milyon tona qədər neft çıxarılacaqdır. [186-187]

Ancaq bu platforma ilə yanaşı, bu üç il müddətində görülən işlər çıxarılan neftin dərhal ixrac olunması üçün bütün maddi-texniki bazanı yaradıbdır. Platformadan sahilə 176 kilometr məsafədə neft borusu tikilib istismara verilibdir. Artıq «Çıraq» platformasından çıxan neft bu boru ilə sahilə gəlir. Quyulardan neft ilə bərabər səmt qazı çıxır. Həmin səmt qazından istifadə etmək üçün «Çıraq» platformasından «Neft Daşları»na 48 kilometr məsafədə qaz borusu çəkilibdir. Səmt qazı oraya gedəcək, oradan sahilə gətirilib istifadə ediləcəkdir. Çıxarılan neftin toplanması və xarici bazara göndərilməsi üçün Bakının yaxınlığında, dənizin sahilində - Səngəçalda böyük bir terminal, kompleks tikilibdir. Demək, çıxan neftin sahilə gəlməsi və yerləşdirilməsi təmin olunubdur. Onun dünya bazarına, xaricə ixrac edilməsi üçün də neft kəməri artıq tikilibdir.

Bilirsiniz ki, vaxtilə biz Xəzər dənizinin Azərbaycan sektorunda, ümumiyyətlə Azərbaycanda çıxan neftin ixracı üçün iki neft kəmərinin tikilməsini planlaşdırmışıq. Birinci neft boru kəməri Rusiya ərazisindən Qara dənizin Novorossiysk limanına, ikinci neft boru kəməri isə Gürcüstan ərazisindən Qara dənizin Supsa limanına çıxacaqdır.

Birinci neft kəməri böyük çətinliklərdən sonra artıq işə başlayıbdır. Azərbaycanın ərazisində bu neft kəmərinin uzunluğu 230 kilometrdir, amma onun Novorossiyskə qədər uzunluğu 1400 kilometrdir. Rusiyanın ərazisində görülən işlər nəticəsində Şimali Qafqazda baş vermiş çətinliklər aradan götürülmüşdür. Həmin neft borusunda olan Azərbaycan nefti bu il oktyabrın 25-də Azərbaycan-Rusiya sərhədini keçmişdir. Bu gün səhər bizə verilən məlumata görə bu boru xətti ilə neft artıq Qroznı şəhərini də keçmişdir. Güman edirəm ki, neft yaxın vaxtlarda Novorossiysk limanına çatacaqdır. Ancaq bu gün bizə məlumat verdilər ki, «Çıraq» yatağından çıxan neft həmin boru ilə gələn ilin fevral ayında[187-188] Novorossiysk limanına çatacaqdır. Yəni bu işlər hamısı eyni səviyyədə yaranıbdır, tənzimlənibdir.

Mən keçən illərin, keçən dövrlərin təcrübəsini bilirəm. Bəzən işin bir hissəsi görülürdü, o biri hissəsi görülmədiyinə görə bütün bu işlər də öz nəticəsini verə bilmirdi. Amma burada iş kompleks şəklində görülübdür.

İkinci neft boru kəməri Gürcüstan ərazisində tikilməkdədir. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin rəhbərliyi məlumat verir ki, bu neft boru kəməri gələn ilin sentyabr ayında hazır olacaqdır. Beləliklə, təkcə «Çıraq» yatağından yox, digər yataqlardan hasil olunan neft də iki müxtəlif istiqamətdə neft boru kəmərləri ilə dünya bazarlarına çıxarıla biləcəkdir.

Şübhəsiz ki, bütün bu görülən işlər konsorsiuma daxil olan şirkətlərin böyük fəaliyyəti və onların qoyduqları kapitalın nəticəsindədir. Beynəlxalq Əməliyyat Şirkətinin rəhbərliyi altında bu üç il müddətində görülən işlərə konsorsiumun səhmdarları tərəfindən hamısı birlikdə bir milyard dollar məbləğində kapital qoyulubdur. Bu özü çox əlamətdar hadisədir. Bir milyard dollar bəlkə də hansısa dövlət üçün xırda bir məbləğ hesab olunur. Ancaq bizim region üçün, Azərbaycan üçün bu üç il müddətində burada bir milyard dollar məbləğində müştərək iş görülməsi çox böyük və sevindirici bir hadisədir.

Bildirmək istəyirəm ki, görülən bu işlər dünyanın bir çox şirkətlərini Azərbaycana gətirib çıxarıbdır, onlar burada fəaliyyət göstərirlər. Məhz bu birinci müqavilənin proqramını həyata keçirmək üçün görülən işlərdə dünyanın ayrı-ayrı ölkələrindən cəlb olunmuş 400-dən artıq şirkət iştirak edir. Bu şirkətlər bir milyard dollar həcmində olan həmin sərmayədən, investisiyadan istifadə ediblər və hər biri mənfəət götürüb. Burada Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniyanın, Avropanın bir sıra ölkələrinin şirkətləri də [188-189] çoxdur. Məmnuniyyət hissi ilə deyə bilərəm ki, müştərək iş görən bu şirkətlərin içərisində 72 müəssisə Azərbaycan Respublikasının sənaye və yaxud tikinti müəssisələridir. Azərbaycan Respublikası müəssisələrinin gördükləri işin dəyəri 163 milyon dollardır.

Beləliklə, bu müqavilənin həyata keçirilməsinə həm dünyanın bir çox ölkələri, şirkətləri, həm də Azərbaycanın neft sənayesində işləyən şirkətlər, müəssisələr, alimlər, mütəxəssislər, yüksək professional səviyyədə olan fəhlələr cəlb ediliblər. Bizi sevindirən hal odur ki, bu işlərin həyata keçirilməsində xaricdən cəlb olunan yüksək dərəcəli mütəxəssislərin sayı get-gedə azalır, Azərbaycan Respublikasının özündən olan mütəxəssislərin sayı artır. Bu da təbiidir. Çünki Azərbaycan neft sənayesi sahəsində böyük elmi-texniki potensiala malikdir. Azərbaycanın bu potensialından istifadə etmək lazımdır. Bu, iqtisadi nöqteyi-nəzərdən daha da səmərəlidir.

Bir daha qeyd etmək istəyirəm, - görülən bütün bu işlər Xəzər dənizinin enerji ehtiyatlarını dünyaya nümayiş etdiribdir. Mən sizə bildirdim ki, artıq Azərbaycan sektorunda olan yataqlar üzrə 9 müqavilə imzalanıbdır. Birinci müqavilənin sərmayəsi 8 milyard dollar həcmində nəzərdə tutulubdur. İmzalanmış bütün müqavilələrin hamısının nəzərdə tutulmuş investisiyası 30 milyard dollar həcmindədir. Bunlar hamısı Xəzərin Azərbaycan sektorunda olan yataqlar üçün nəzərdə tutulmuş investisiyalardır. Ancaq Xəzəryanı digər ölkələrə mənsub olan sektorlarda da çox zəngin neft-qaz yataqları var. Hesab edirəm ki, Azərbaycan sektorunda görülən bu işlər, əldə olunmuş təcrübə onların hərəkətə gəlməsi üçün çox əhəmiyyətli ola bilər. Biz bu təcrübəni bütün Xəzəryanı ölkələrlə bölüşdürməyə, Xəzər dənizinin enerji ehtiyatlarından istifadə edilməsində öz xidmətlərimizi göstərməyə hazırıq. [189-190]

Mən bütün bu işlərin haqqında danışarkən ilk müqaviləyə daxil olan bütün şirkətlərə imzalanmış müqavilələrin həyata keçirilməsində onların göstərdiyi xidmətlərə görə təşəkkür edirəm. Beynəlxalq Əmə-

liyyat Şirkətində çalışan bütün mütəxəssislərə, neftçilərə, həm xarici ölkələrdən gəlmiş, həm də Azərbaycandan olan bütün insanlara təşəkkürümü bildirmək istəyirəm.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin rəhbərliyinə və xüsusən onun başçısı, «Britiş Petroleum» şirkətinin nümayəndəsi olan cənab Terri Adamsa təşəkkür edirəm. Hesab edirəm ki, bizim bu üç il müddətində gördüyümüz müştərək iş gələcəyə böyük, geniş bir yol açmışdır. Biz Azərbaycana gəlmiş bütün şirkətlərlə, bütün bu işlərdə iştirak edən ölkələrlə gələcəkdə də müştərək iş görməyə hazırıq.

Biz arzu edirik ki, Xəzəryanı ölkələr öz sektorlarındakı imkanlardan istədikləri qədər istifadə edə bilsinlər. Biz bu işlərdə də qonşu, dost ölkələrlə həmişə bir yerdəyik və onlarla müştərək iş görməyə, öz təcrübəmizi onlara öyrətməyə hazırıq.

Dediyim kimi, Xəzər dənizi dünyanın ən zəngin enerji ehtiyatları olan bir su hövzəsi kimi məşhurlaşıbdır. Eyni zamanda, Xəzər dənizinin digər sahilində, Mərkəzi Asiya ölkələrinin ərazisində də çox zəngin neft yataqları vardır. Bu yataqların - həm quruda, həm də dənizdə olan neft yataqlarının işlənməsi, istifadə edilməsi gələcəkdə qarşımızda duran böyük vəzifələrdir. Biz bu vəzifələrin həyata keçirilməsində öz xidmətlərimizi göstərmək istəyirik. Bu işlər XXI əsrin iqtisadi strategiyasını yaratmaq üçün çox əhəmiyyətlidir.

Bizim imzaladığımız müqavilələrin hamısı təxminən 30 il müddətinə bağlanıbdır. Ancaq mən güman edirəm ki, bu müqavilələr 30 il yox, ondan da çox illər işləyəcəkdir. Mən hesab edirəm ki, Azərbaycan Respublikasının dünyanın böyük neft şirkətləri ilə imzaladığı müqavilələr XXI əsrdə həm [190-191] Azərbaycan üçün, həm də Azərbaycanla müştərək iş görən şirkətlər, ölkələr üçün çox əhəmiyyətli sənədlərdir. Biz böyük, xoşbəxt gələcəyin astanasında durmuşuq. Biz bunun təməl daşını, əsasını qoymuşuq. Bugünkü təntənəli mərasim də məhz buna həsr olunmuşdur. Ona görə də mən həm Azərbaycan xalqına, həm də Xəzəryanı bütün ölkələrin xalqlarına, Xəzərin ehtiyatlarından istifadə etmək istəyən bütün ölkələrə, şirkətlərə bu böyük işlərin XXI əsrdə də uğurla getməsini arzulayıram.

Bir mühüm məsələ də meydana çıxır. O da gələcəkdə hasil ediləcək neftin ixrac olunmasıdır. Mən dediyim kimi, ilk müqavilə üzrə hasil edilən neftin ixrac olunması üçün artıq iki neft boru kəmərinin tikilməsi məlumdur. Ancaq bizim ilk müqaviləmizdə nəzərdə tutulubdur ki, əsas, böyük boru kəməri də tikilsin. Bu, bir müqavilədə nəzərdə tutulubdur. Ancaq nəzərə alsaq ki, bundan sonra 8 müqavilə imzalanıbdır və 9-cu müqavilə - «Kürdaşı» neft yatağının birgə işlənilməsi barədə müqavilə imzalanmaq ərəfəsindədir, demək, 9 müqavilə imzalanır və bu müqavilələrin əsasında böyük işlər görüləcək, on milyon tonlarla neft çıxarılacaqdır. Məsələn, bizim ilkin hesablamalarımıza görə 5-6 ildən sonra bu müqavilələr üzrə Azərbaycanda təxminən 50-60 milyon ton neft hasil olunacaqdır. Bunların ixrac olunması üçün əsas neft kəməri və bir neçə istiqamətdə gedən alternativ boru kəmərlərinin tikilməsi lazımdır. Bu, indi qarşıda duran əsas vəzifələrdən biridir.

Demək istəyirəm, - təəssüf ki, bu, indi beynəlxalq aləmdə müxtəlif fikirlər, mübahisə doğuran məsələlərdən biridir. İndi çox ölçüb-biçirlər ki, Azərbaycan, Xəzər nefti haradan, hansı istiqamətdən, hansı ölkələrin ərazisindən gedəcəkdir. Şübhəsiz ki, bu məsələlərin əsasını təşkil edən onun iqtisadi səmərəliliyidir. Məsələn, mən bu ilk müqavilənin səhmdarları ilə bir neçə dəfə danışmışam. Onlar bu məsələnin kommer[191-192]siya, yəni iqtisadi tərəfinə çox ciddi fikir verirlər. Çünki bu əsas neft kəmərini şimala da, cənuba da, qərbə də aparmaq olar. Yəqin ki, şərqə aparmaq mümkün deyil. Ancaq bunların hansı iqtisadi nöqteyi-nəzərdən daha səmərəlidir, hansı etibarlıdır və hansının təhlükəsizliyi tamamilə təmin olunur? Şübhəsiz ki, bu məsələlər ölçülməlidir - biçilməlidir. Birinci növbədə neft şirkətləri, konsorsiumlar bu barədə öz sözlərini deməlidir. Şübhəsiz ki, biz də öz fikirlərimizi bildirməliyik.

İndi iki neft kəməri var. Əsas neft kəmərinin marşrutu haqqında bir çox söhbətlər gedir ki, o, cənubamı, ya qərb tərəfdən Qara dənizə getsin, yaxud Türkiyənin ərazisindən, yaxud şimal tərəfdən Rusiya ərazisindən keçsin. Mən yenə də deyirəm, - bunların hamısı ölçülüb-biçilməlidir.

Bir məsələ də var. Qazaxıstanda böyük neft yataqları vardır, oradan neft çıxarılır. Amerikanın «Şevron» neft şirkəti «Tengiz» yatağından neft hasil edir və onu ixrac etmək üçün yollar axtarır. «Şevron» neft şirkəti bizə müraciət etdi. Biz «Şevron» neftinin Qazaxıstanın Xəzər dənizində olan Aktau limanından tankerlərlə Bakıya gətirilib, buradan isə dəmir yolu vasitəsilə Gürcüstan ərazisindən Qara dənizin Batumi limanına qədər aparılmasına razılıq vermişik. Mart ayından indiyədək bu yolla 500 min ton, yəni yarım milyon ton «Şevron» - «Tengiz» nefti nəql olunub və Batumi limanına çatdırılıbdır. Hesab edirəm ki, bu rəqəm get-gedə artacaq, gələn il bu yolla 2 milyon ton neft ixrac etmək mümkün olacaqdır. Ancaq bu yol da çox ağır yoldur. Ona görə də bu ilin yayında Qazaxıstan prezidenti ilə Azərbaycan prezidenti - mən Aktau limanından Xəzər dənizinin dibi ilə Bakıya qədər neft boru kəməri tikilməsi haqqında saziş imzalamışıq. Biz buna razılıq vermişik. Bu, Qazaxıstanın nefti üçün lazımdır. Bizim Azərbaycandakı terminallarımız və indi Azərbaycandan şimal, qərb istiqamətlərində gedən boru [192-193] kəmərlərimiz neftin ixrac olunmasına imkan verir. Ona görə də guman edirəm ki, bu məsələnin həll edilməsi gələcəkdə çıxarılacaq neftin dünya bazarlarına çatdırılması üçün əsas məsələlərdən biri olardı.

Bundan əlavə, məsələn, Türkmənistandan Azərbaycana qaz kəmərinin çəkilməsi haqqında da danışıqlar aparılmışdır. Bu ilin may ayında Aşqabadda hətta bir saziş də imzalanmışdır. Əgər bu məsələ də həll oluna bilsə, bunlar da Qərbə çox böyük fayda verər.

Qara dəniz hövzəsində olan ölkələr, məsələn, Gürcüstandan əlavə, Ukrayna, Bolqarıstan, Rumıniya, oradan o tərəfə - Yunanıstan və ondan da o tərəfə - Avropanın digər ölkələri Xəzər dənizindən çıxan neftdən istifadə etmək istəyirlər. Beləliklə, əgər biz nefti bu kəmərlərlə Türkiyəyə, Qara dəniz sahilinə - Gürcüstanın, yaxud Türkiyənin sahilinə çıxara bilsək, bu neft Türkiyənin ərazisindən gedə bilsə, şübhəsiz ki, bu ölkələr də təmin oluna bilər. Bu ölkələr Xəzər dənizindəki yataqlardan çıxarılan neftə böyük maraq göstərirlər.

Bütün bunları ölçüb - biçmək lazımdır. Bizim ilkin layihəmizdə əsas, böyük neft kəmərinin Bakı-Ceyhan istiqamətində getməsi nəzərdə tutulubdur.

Doğrudur, investorlar, səhmdarlar bu boru xəttinin baha olduğunu deyirlər. Bunun iqtisadi tərəfini onlar aydınlaşdırmalıdırlar. Biz hesab edirik ki, bu marşrut, xətt Azərbaycan neftinin, Xəzər dənizi neftinin ixrac edilməsi üçün əsas xətlərdən biri ola bilər. Ona görə də biz bu neft kəmərinin tikilməsini əvvəl də dəstəkləmişik, bu gün də dəstəkləyirik. Amma məsələnin son həlli, şübhəsiz ki, şirkətlərdən, konsorsiumdan və səhmdarlardan asılıdır.

Bu gün Rusiya Baş nazirinin birinci müavini Boris Nemtsov şimal istiqamətində yeni bir neft kəmərinin Rusiya Federasiyasının ərazisindən keçməsi barədə məsələ qoy[193-194]muşdur. Bu məsələyə də baxmaq, onu müzakirə etmək olar. Başqa istiqamətlərdə də çox işlər görülə bilər. Hər halda mən hesab edirəm ki, həm Xəzər dənizinin Azərbaycan sektorundan, başqa sektorlardan, həm də Mərkəzi Asiyadan, xüsusən Qazaxıstandan çıxan neftin ixracı, xüsusən Qərbə ixracı üçün çox işlər görülməlidir, bir çox neft kəmərləri tikilməlidir. Biz bu işlərdə fəal iştirak edəcəyik.

Bizim gördüyümüz bütün bu işlər Asiya ilə Avropa arasında yeni bir nəqliyyat xəttinin də yaranmasına gətirib çıxarıbdır. Qədim «İpək Yolu»nun bərpa olunması məsələsi artıq reallaşıbdır. Biz keçən il bir saziş imzalamışıq, bu saziş əsasında Mərkəzi Asiyadan, Xəzər dənizi üzərindən, Azərbaycandan Gürcüstana, Qara dənizdən Avropaya bir nəqliyyat dəhlizi açmışıq. Bu nəqliyyat dəhlizi artıq işləyir. Həm Mərkəzi Asiyadan Avropaya, həm də Avropadan Mərkəzi Asiyaya yüklər gedir. Bu da iqtisadi cəhətdən çox səmərəlidir. Bu yükləri Xəzər dənizi üzərindən Azərbaycana məxsus olan bərələr gətirir. Azərbaycan, Gürcüstan ərazisindən yüklər dəmir yolu ilə gedir. Sonra bunlar Qara dənizdən gəmilərlə Avropaya çatdırılır. Bu nəqliyyat dəhlizinin çox böyük əhəmiyyəti, gələcəyi var. Biz bunu da dəstəkləmişik və bu nəqliyyat dəhlizinə qoşulan ölkələrlə birlikdə əməkdaşlıq edirik və bu əməklaşlığı bundan sonra da edəcəyik.

Hesab edirəm ki, həm neft boru kəmərləri, həm Asiya-Avropa, Avropa-Asiya nəqliyyat dəhlizi bu ölkələrin iqtisadiyyatını bir-birinə daha da bağlayacaq, onların əlaqələrini daha da möhkəmləndirəcəkdir.

Hörmətli xanımlar və cənablar!

Bugünkü təntənə, əldə edilən nailiyyətlər yalnız və yalnız Azərbaycanın dövlət müstəqilliyinin qazanılmasından sonra mümkün olmuşdur. Biz bu gün Azərbaycanın müstəqil dövlət olmasının bəhrələrini görürük. [194-195]

1994-cü ilin sentyabr ayında biz ilk böyük neft müqaviləsini imzalayarkən dünyaya nümayiş etdirdik ki, Azərbaycan müstəqil dövlətdir və müstəqil dövlət kimi öz təbii sərvətlərinin sahibi olaraq onlardan istifadə edilməsi haqqında qərarlar qəbul edir. Üç il keçəndən sonra biz bir daha təsdiq edirik ki, Azərbaycan müstəqil dövlətdir, Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və biz artıq bu müstəqilliyimizin gözəl bəhrələrini görürük.

Bizim bu gün gördüyümüz işlər XXI əsr, gələcək nəsillər üçün görülən işlərdir. Biz bu gün ilkin neftin alınmasını bayram edirik. Gələn il «Çıraq» neft yatağından 2 milyon ton neft çıxarılacaqdır. Ancaq bir neçə ildən sonra 5-6 milyon ton, 5-6 ildən sonra 40-50 milyon ton neft hasil olunacaqdır. Ondan sonra daha da çox neft çıxarılacaqdır. Deməli, XXI əsrdə Azərbaycanın iqtisadiyyatı bu neft sənayesi vasitəsilə yüksələcək və dirçələcəkdir.

Biz belə hesab edirik ki, bu, təkcə neft sənayesi üçün deyil, Azərbaycan iqtisadiyyatının bütün sahələrini, müstəqil dövlət kimi Azərbaycanı inkişaf etdirmək, ölkəmizdə bazar iqtisadiyyatını inkişaf etdirmək üçün çox gözəl bir imkandır. Biz bu imkanlardan istifadə edəcəyik.

Bugünkü mərasim, bu görüşlər bir daha onu göstərir ki, Azərbaycanın qapısı dünya iqtisadiyyatına açıqdır. Azərbaycan dünya iqtisadiyyatı ilə gündən-günə daha da sıx bağlanır. Azərbaycan öz iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə qurur. Azərbaycan öz iqtisadiyyatını bundan sonra da bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirəcəkdir. Biz artıq bunun gözəl nəticələrini görürük.

Sizə bir neçə məlumat vermək istəyirəm. Məhz son illərdə respublikamızın iqtisadiyyatında aparılan islahatlar və demokratik dövlət quruculuğu Azərbaycanın iqtisadiyyatında 5-6 il əvvəl olmuş tənəzzülü aradan qaldırdı. İndi Azərbaycanın iqtisadiyyatında artım başlayıbdır. Ölkəmizdə [195-196] keçən il ümumi daxili məhsul 1,3 faiz artıbdır, bu il isə 5 faiz artıbdır. Sənaye istehsalı hər il 20-25 faiz aşağıya düşürdü. İndi aşağıdüşmə dayanıbdır. Bu ilin 9 ayında təxminən 1 faiz artım olmuşdur.

Azərbaycanda 1994-cü ildə inflyasiya il ərzində 1600 faiz idi. Keçən il bu, 6 faiz olmuşdur. Bu ilin 9 ayında inflyasiya yoxdur, sıfıra endirilibdir.

Azərbaycanda iqtisadi islahatlar gedir. Torpaq haqqında qəbul olunmuş qanun torpağın xüsusi mülkiyyətə verilməsini təmin edibdir. İndi torpaq xüsusi mülkiyyətə verilir. Mülkiyyət özəlləşdirilir və biz bu özəlləşdirmənin bəhrəsini görürük. Xarici ticarət liberallaşdırılıbdır, xarici ticarətin dövriyyəsi 9 ayda 30 faiz artıbdır. Biz bu il bütün iqtisadiyyatımıza ümumən 1 milyard 500 milyon dollar dəyərində kapital qoyuluşu nəzərdə tuturuq. Bunun bir milyard dolları xarici investisiya olacaqdır.

Bunlar hamısı Azərbaycanda gedən demokratik proseslərin, dəyişikliklərin, bazar iqtisadiyyatı tətbiq edilməsinin nəticəsidir. Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatı ilə bağlılığının ahəngdar surətdə inkişaf etməsinin nəticəsidir.

Bunlar bizi sevindirir. Təbiidir ki, mən bu sevinc hisslərimi bu gün sizə və bizim mərasimdə iştirak edən qonaqlara çatdırmağı özümə borc bilirəm.

Mən bu əlamətdar tarixi hadisə münasibətilə sizi bir daha təbrik edirəm. Azərbaycan neftçilərinə və Azərbaycanda indi bizimlə müştərək iş görən bütün şirkətlərə, neftçilərə, mütəxəssislərə, iqtisadçılara - hamıya gələcək işlərində uğurlar arzulayıram. Sağ olun. [196]

## YEKUN SÖZÜ

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar, dostlar!

Bugünkü təntənəli mərasim «Çıraq» neft yatağından ilkin neftin alınmasının nə qədər əlamətdar, qiymətli və tarixi hadisə olduğunu parlaq şəkildə nümayiş etdirdi. Bu mərasimdə iştirak edən qonaqlarımızın nitqləri, bu münasibətlə Azərbaycana gəlmiş təbrik məktubları və bu sarayda hökm sürən böyük ruh yüksəkliyi bir daha onu göstərir ki, müstəqil Azərbaycan öz iqtisadiyyatını, həyatını, öz dövlətini qurmaqda doğru yoldadır. Biz bu yolla inamla gedəcəyik, müstəqil Azərbaycanın dövlət müstəqilliyini günü-gündən möhkəmləndirəcəyik. Biz Azərbaycana məxsus olan bütün sərvətlərdən, bütün potensialımızdan xalqımızın rifah halının yaxşılaşdırılması naminə səmərəli istifadə etməyə, xalqımızın gələcəkdə firavan, xoşbəxt yaşamasına çalışacağıq.

Mən bizim hörmətli qonaqlarımıza onların çox gözəl, mənalı nitqlərinə, Azərbaycan Respublikasının ünvanına deyilən xoş sözlərinə, təbriklərinə görə təşəkkür edirəm. Bütün ölkələrə, xalqlara, millətlərə sülh, əmin-amanlıq və səadət arzulayıram.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə, onun prezidenti cənab Terri Adamsa bu münasibətlə yaratdıqları qızılgülə görə minnətdarlığımı bildirirəm və arzu edirəm ki, bütün xalqların gələcək yolları, o cümlədən Azərbaycan xalqının gələcək yolları daim qızılgüllər olan bağların içindən keçsin.

Azərbaycanın nefti bəşər tarixində öz görkəmli yerini tutubdur. Azərbaycanın nefti bəşəriyyətə böyük xidmətlər edibdir. Azərbaycanın nefti bu gün respublikamızın iqtisadiyyatının inkişafında və dünya ölkələri ilə iqtisadi [197-198] əlaqələrinin yaranmasında həm xalqımıza, həm də dünyanın bir çox ölkələrinə böyük xidmətlər göstərir.

Azərbaycanın nefti gələcəkdə də bəşəriyyətə, sülhə və əmin-amanlığa xidmət edəcəkdir.

Sizi bu tarixi hadisə münasibətilə bir daha təbrik edirəm! Hamınıza cansağlığı, xoşbəxtlik arzu edirəm! Sağ olun. [198]

## AZƏRBAYCAN PREZİDENTİ ADINDAN XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA XARİCİ ŞİRKƏTLƏRLƏ BİRGƏ İŞLƏNİLƏN NEFT YATAQLARINDAN İLKİN NEFTİN ÇIXARILMASI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK ETMƏK ÜÇÜN AZƏRBAYCANA GƏLMİŞ QONAQLARIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBULDA ÇIXIŞ

*«Gülüstan» sarayı*

*12 noyabr 1997-ci il*

Hörmətli qonaqlar!

Hörmətli xanımlar, cənablar və dostlar!

Bu gün bizim üçün çox sevincli bir gündür. Bu gün çox böyük bayram günüdür və xalqımız, millətimiz, Azərbaycanın bütün vətəndaşları bayram edirlər. Çünki bu, müstəqil Azərbaycan Respublikasının ilk demokratik Konstitusiyasının qəbul olunmasının ikinci ildönümü münasibətilə və eyni zamanda bizim çoxdan gözlədiyimiz, üç il gərgin işimizin nəticəsi kimi, ilkin neftin alınması münasibətilə keçirdiyimiz bayramdır.

Artıq gün sona çatır. Güman edirəm, qətiyyətlə demək olar ki, bayram çox yaxşı keçibdir və bu bayramın yaxşı keçməsinin əsasını təşkil edən, əlbəttə ki, əldə olunan nailiyyətin çox yüksək əhəmiyyətli nəticəsidir. Eyni zamanda bayramın çox gözəl keçməsinə səbəb, yəni onun gözəlliyini təşkil edən, bu bayram münasibətilə Azərbaycana yüksək səviyyəli qonaqların gəlməsidir. Mən bizim bu bayram şənliklərində iştirak [199-200] edən və bu gün səhərdən axşama qədər çox gərgin iş rejimində olan qonaqlarımıza bir daha dərin təşəkkür edirəm.

Azərbaycanın ictimaiyyəti respublikamıza bayram günü yüksək səviyyəli qonaqların gəlməsini çox yüksək qiymətləndirir. Mən çox məmnunam ki, bizim bayram şənliklərində Gürcüstan Respublikasının prezidenti, bizim dostumuz Eduard Şevardnadze iştirak edir, Türkiyə Cümhuriyyətinin Baş naziri, bizim dostumuz Məsud Yılmaz iştirak edir, Rusiya Federasiyası Baş nazirinin birinci müavini, bizim dostumuz Boris Nemtsov iştirak edir, Amerika Birləşmiş Ştatlarından, okeanın o tərəfindən əziyyət çəkib Azərbaycana - bizim bölgəyə gəlmiş ABŞ-ın energetika naziri, bizim dostumuz Federiko Penya iştirak edir, Ukrayna Respublikası Baş nazirinin birinci müavini, Özbəkistan Respublikası Baş nazirinin müavini, bir çox nazirlər və yüksək səviyyəli dövlət, hökumət numayəndələri iştirak edirlər.

Bir çox ölkələrdən yüksək səviyyəli qonaqların bu əlamətdar gündə Azərbaycanda olması bizim bayramımıza xüsusi bir əhəmiyyət veribdir və onun səviyyəsini daha da yüksəklərə qaldırıbdır. Mən bütün qonaqlara təşəkkür edirəm və badələri Azərbaycan neftçilərinin şərəfinə, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən «Azəri», «Çıraq» və «Günəşli» neft yataqlarında və bütün başqa neft yataqlarında birgə işləmək üçün Azərbaycanla müştərək iş qurmuş və fəaliyyət göstərən şirkətlərin şərəfinə, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin şərəfinə, «Çıraq» neft yatağı və orada qurulmuş platformanın şərəfinə, Xəzər dənizində «Çıraq» neft yatağından alınmış ilkin neftin şərəfinə, Azərbaycan Respublikasının ilk demokratik Konstitusiyasının şərəfinə, bütün ölkələrin sülhsevər insanlarının şərəfinə, dünyada sülhün, əmin-amanlığın şərəfinə, dostluğun, əməkdaşlığın, mehribanlığın şərəfinə, əziz dostlar, sizin şərəfinizə qaldırmaq istəyirəm. Sağ olun. [200]

## BAKININ 6-CI MİKRORAYONUNDA ŞƏHİD AİLƏLƏRİ VƏ QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİ ÜÇÜN İNŞA EDİLMİŞ YAŞAYIŞ BİNASININ İSTİFADƏYƏ VERİLMƏSİ MÜNASİBƏTİLƏ KEÇİRİLMİŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*15 noyabr 1997-ci il*

Əziz bacılar, qardaşlar, dostlar !

Hörmətli xanımlar və cənablar!

Bugünkü toplantı, görüş həm çox sevindirici, həm də kədərləndiricidir. Biz ona görə sevinməliyik ki, respublikamızın həyatında günü-gündən müsbət dəyişikliklər baş verir, insanların rifahı tədricən yaxşılaşır, iqtisadiyyatımızda əvvəlki illərdə mövcud olmuş tənəzzül aradan götürülüb, iqtisadiyyatımız artıq inkişaf edir. Bunlar hamısı respublikamızın vətəndaşlarının rifah halının yaxşılaşdırılması üçün əsas yaradır. Bunların bir nümunəsi kimi bu gün burada, respublikamızın həyatının belə çətin və ağır dövründə yeni bir yaraşıqlı yaşayış binasının istifadəyə verilməsinin şahidiyik, bu münasibətlə keçirilən mərasimin iştirakçısıyıq.

Biz ona görə sevinməliyik ki, bu yaşayış binasında Vətən yolunda şəhid olmuş insanların ailə üzvləri, Vətən yolunda cəfa çəkmiş, öz fiziki sağlamlığını müəyyən qədər itirmiş, yaxud zəiflətmiş insanlar yeni mənzil alacaqlar. Hər bir insanın yeni mənzil alması onun həyatına çox sevinc gətirən [201-202] bir hadisədir. Bunlar hamısı bizi sevindirir. Ancaq bizi kədərləndirən odur ki, xalqımızın başına gəlmiş bu faciələri yenidən xatırlayırıq. Ermənistan tərəfindən Azərbaycana qarşı 1988-ci ildən başlanmış hərbi təcavüz nəticəsində ərazimizin bir qisminin işğal olunmasını və torpaqlarımızın müdafiəsində şəhid olan insanların böyük qəhrəmanlıqlarını xatırlayırıq. Bu gün biz şəhidlərin ailələrinin vəziyyətini bir daha dərk edirik. Vətən yolunda öz sağlamlığını itirmiş insanları, bu faciələri xatırlayırıq. İşğal olunmuş torpaqlardan didərgin düşmüş, qaçqın vəziyyətində, çadırlarda ağır şəraitdə yaşayan soydaşlarımızın həyatını xatırlayırıq. Şübhəsiz ki, bunlar da bizi kədərləndirməyə bilməz.

Ancaq bunların hamısına bir yerdə baxsaq, yenə də sevinməliyik. Sevinməliyik ki, Azərbaycan xalqı artıq üç ildən çoxdur ki, əmin-amanlıq şəraitində rahat yaşayır. Müharibə, döyüşlər yoxdur, qan tökülmür. Biz artıq şəhidlər dəfn etmirik. Biz respublikamız üçün ən mühüm məsələ olan Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün gündən-günə uğurlu addımlar atırıq. Biz bu məsələnin həll edilməsinə nail olmaq yolu ilə irəliləyirik.

Sevindirici hal odur ki, artıq Azərbaycanda dağıdıcı, pozucu proseslərə son qoyulubdur. İndi quruluculuq, yaradıcılıq prosesi gedir. İnsanlar bütün çətinliklərə sinə gərərək qurmaq, yaratmaq, yaxşı yaşayış şəraiti yaratmaq əzmindədirlər. Bu da çox sevindirici haldır.

Mən bu gün avtomobillə buraya gələrkən şəhərimizin bir hissəsinə bir daha nəzər saldım. Burada toplaşanların əksəriyyəti gənclərdir, ancaq görürəm, yaşlılar da vardır. Yaşlıların xatirindədir ki, vaxtilə, 30-40 il bundan əvvəl buraların hamısı boş yerlər idi. Yaxud 20 il bundan əvvəl burada heç bir bina yox idi. Bura şəhərin sadəcə bir hissəsidir. Biz buraya mikrorayon deyirik. Cəmi 10,15, 20, 25 il [202-203] içərisində şəhərimiz nə qədər böyüyübdür, nə qədər əzəmətli, çoxmərtəbəli binalar tikilibdir. İnsanlar qurublar, yaradıblar.

Bizim üçün əziz olan qədim Bakı şəhərimiz, paytaxtımız böyüyüb, inkişaf edibdir.

Ancaq təəssüflər olsun ki, 1988-89-cu illərdən sonra respublikada hər şeyi dağıtmağa başlayıblar. Ölkədə dağıdıcı proses gedibdir. Əvvəllər yaradılanı da dağıtmaq, pozmaq, qarət etmək, oğurlamaq, mənimsəmək, - ora-bura dağıtmaq, hərə özü üçün mənfəət görmək - bunlar hamısı bir neçə il bundan əvvəl həyatımızın gerçəkliyi olmuşdur. Biz o günləri yaşamışıq.

Şəxsən mən ona görə sevinirəm, güman edirəm, siz də mənimlə həmfikir olmalısınız ki, biz artıq bunlara son qoya bilmişik. Respublikamızın hər yerində, o cümlədən Bakıda, şəhərimizin bu güşəsində quruculuq prosesi gedir. Bunun da ən parlaq nümunəsi yeni tikilmiş, inşa olunmuş, indi istifadəyə verilən bu gözəl yaşayış evidir.

Ən sevindiricisi, önəmlisi odur ki, bu yaşayış evi, mənzillər vətənimizin, torpaqlarımızın müdafiəsində şəhid olmuş qəhrəman insanların ailə üzvlərinə, vətənin müdafiəsində döyüşmüş, qəhrəmanlıq göstərmiş, şikəst, əlil olmuş insanlara verilir, onlar üçün tikilmişdir. Bu, çox sevindirici haldır.

Bəlkə də bu, ümumi həyatımızda respublika miqyasında bir zərrədir. Çünki ölkəmiz böyükdür, biz hələ çox şeylər tikib yaratmalıyıq, binalar inşa etməliyik. Ancaq son illəri, hər şeyin dağıdıldığı dövrü təhlil edərkən deməliyik ki, indi yeni binanın tikilməsi, istifadəyə verilməsi böyük hadisədir.

Bilirsiniz ki, mən vaxtilə Azərbaycanda işləmişəm və Azərbaycana rəhbərlik etmişəm. O vaxt biz məsələ qoymuşduq və demək olar, buna nail olmuşduq ki, Bakı şəhərində ildə bir milyon kvadratmetrlik mənzil sahəsi təhvil verilməlidir. Doğrudur, bu, ildə bir milyona çatmırdı, ancaq o vaxt Bakıda ildə 800-900 min kvadratmetrlik yaşayış evləri [203-204] tikilirdi və istifadəyə verilirdi. O dövrdə elə bir evin tikilib istifadəyə verilməsi heç böyük hadisə də deyildi, adi bir şey idi. Belə evlər ildə onlarla tikilirdi. Təkcə Bakıda yox, respublikanın hər yerində tikilirdi. Yenə də deyirəm, ətrafda olan bu çoxmərtəbəli, nəhəng binaların hamısı o illərdə tikilibdir. Yadıma gəlmir ki, o dövrdə mən bir yaşayış evinin tikilib istifadəyə verilməsi münasibətilə onu ziyarət edim, yaxud da gedib onun açılışında iştirak edim. Mənzil alanlarla görüşüm. Bu, adi bir hadisə idi.

Doğrudur, mən o illərdə inşaata çox nəzarət etməyə çalışırdım. Xüsusən də yaşayış evlərinin tikintisində keyfiyyətin yüksəldilməsinə çox fikir verirdim. Mən inşaat işləri aparılan yerlərə gedirdim, çox vaxt keyfiyyətin aşağı olması ilə əlaqədar ən ciddi tədbirlər görürdüm. Belə hallar olurdu. Ev tikilib qurtarandan sonra onu kiməsə verirdilər, yaxud paylayırdılar - bunlar o vaxt bizim üçün adi bir hadisə idi. Amma indi görürsünüz, bir evin tikilib istifadəyə verilməsi böyük bir əlamətdar hadisəyə çevrilibdir, bir mən yox, biz hamımız, respublikanın bütün rəhbər orqanlarının nümayəndələri buraya toplaşmışlar.

Güman edirəm ki, gələcəkdə yenə də böyük-böyük çoxsaylı evlər, mənzillər tikib istifadəyə verməyə imkanımız olacaqdır. Ancaq bu gün bu, hamımızı çox sevindirir və mən bunu əlamətdar hadisə hesab edirəm.

Mən bu münasibətlə bütün inşaatçıları təbrik edirəm. Xüsusən də respublikanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyini, onun rəhbərliyini və nazir Əli Nağıyevi təbrik edirəm. Doğrudur, bu işlərin hamısına vəsait də ayrılıbdır, biz göstərişlər də vermişik, nəzarət də olubdur. Ancaq işi görən bunlardır. Məhz bunların fədakarlığı nəticəsində bu ev tikilib hazır olubdur, indi isə istifadəyə verilir.

Mən evə, mənzillərə baxdım. Məni çox sevindirdi, keyfiyyətli evdir. Burada işlər çox keyfiyyətli aparılıbdır. Bu [204-205] da məni sevindirir. Mən keçmiş illərdə inşa olunub istifadəyə verilmiş yaşayış evləri ilə bu binanı müqayisə edəndə böyük irəliləyiş gördüm. O vaxtlar say çox idi, amma keyfiyyət bu vəziyyətdə deyildi.

Ola bilər, bu, xüsusi ev olduğuna, məhz vətən uğrunda döyüşmüş insanlar üçün hazırlandığına görə bu binanın tikintisinə xüsusi fikir veriblər, nəzarət ediblər. Bu da ola bilər. Ancaq, eyni zamanda, bu evlə tanış olarkən mən belə qənaətə gəlirəm ki, inşaatçılarımız tikinti işində keyfiyyəti də yüksəldə biliblər. Bu da məni sevindirir. Bu, onu göstərir ki, inşaatçılarımız yaxşı binalar tikə bilərlər.

Son illər Azərbaycanda sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yarandığı zaman respublikamıza bir sıra xarici şirkətlər gəliblər. Onlar burada cürbəcür işlər görürlər. Biz bunları dəstəkləmişik, bu gün də dəstəkləyirik. Ölkəmizin qapıları bütün dünya iqtisadiyyatı, xarici iş adamlarının müştərək iş görməsi üçün açıqdır və biz bu işləri müsbət qiymətləndiririk. Bütün bunların indiki dövrdə respublikamızın iqtisadiyyatının inkişafında çox böyük əhəmiyyəti, təsiri vardır. Azərbaycana xarici inşaat şirkətləri də gəliblər, burada evlər də tikiblər.

Bilirsiniz, bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat dövrüdür. Ölkəmizdə insanlara sərbəstlik verilibdir, artıq sahibkarlar yaranıbdır. İş adamları öz işlərini sərbəst surətdə görürlər. Qanuni qazanc əldə edənlər çoxdur. Doğrudur, qeyri-qanuni yollarla varlananlar da vardır. Bunların qarşısı alınmalıdır. Ancaq yenə deyirəm, qanuni qazanc əldə edənlər də var. Bunlar təbiidir. Çünki bu, ölkəmizin iqtisadiyyatında gedən proseslər nəticəsində meydana gəlmiş haldır, şəraitdir. Bu, belə də olmalıdır. Ona görə də təkcə Bakıda yox, respublikanın hər bir yerində, bəlkə də əksər yerlərində ayrı-ayrı adamlar özlərinə binalar, mənzillər, evlər tikirlər. Hesab edirəm ki, bunlar da müsbət qiymətləndirilməlidir. Biz [251-206] bunlara da imkan vermişik və bundan sonra da imkan verəcəyik. Çünki əgər insanın imkanı, vəsaiti varsa, o özünə ev, mənzil tikirsə, demək, o, bu yükü dövlətin üzərindən götürür, ümumiyyətlə, Azərbaycanda yaşayış binalarının sayını artırır. Ona görə də bu, müsbət haldır.

Xaricdən gələn inşaat şirkətlərindən bir çoxu məhz belə fərdi evlərin tikintisi ilə məşğul olur. Bunların bəziləri də ayrı-ayrı böyük binalar tikiblər. Həmin şirkətlərin çoxu tikintidə yüksək keyfiyyət nümunələri göstəribdir. Bu da çox sevindirici haldır. Çünki bizim inşaatçılar da xaricdən gələn inşaatçılardan öyrənərək, onların təcrübəsini mənimsəyərək öz iş keyfiyyətlərini artırmağa başlayıblar. Bu da bir tərəfdən müəyyən rəqabət yaradır.

Azərbaycanda keçmişdə inşaatla məşğul olan təşkilatlar çox olub. Bunlar mənim xatirimdədir. Onların bir çoxu indi də qalıbdır. Bizdə bir neçə inşaat nazirliyi, respublika, ayrı-ayrı bölgələr, şəhərlər, rayonlar üzrə inşaatla məşğul olan, nazirliyə bərabər böyük trestlər var idi. Yəni Azərbaycanda böyük inşaatçı ordusu var idi. Azərbaycanda inşaat sahəsində çox yüksək keyfiyyətli iş görmək qabiliyyəti olan insanlar da çoxdur. Məsələn, indi onların bir qismi «Əsrin müqaviləsi» adlandırdığımız neft müqaviləsinin həyata keçirilməsi ilə əlaqədar bir çox inşaat işlərində iştirak edirlər və çox da gözəl, keyfiyyətli işlər görür-

lər. Ancaq işin keyfiyyətinin qaldırılması, təkcə öz inşaatçılarımızın yox, ayrı-ayrı ölkələrdən Azərbaycana gələn inşaatçıların burada iş görməsi, onların təcrübələrinin respublikamızın inşaatçılarında da keyfiyyətin yüksəldilməsinə böyük maraq yaratması və onları daha keyfiyyətli iş görməyə məcbur etməsi Azərbaycanın iqtisadiyyatında, o cümlədən tikinti sahəsində gedən proseslərin müsbət nəticələridir.

Mən bunu ona görə xüsusi qeyd edirəm ki, bir neçə xarici şirkətin Bakıda apardığı inşaat işlərinin nümunələrini [206-207] görmüşəm. Bu gün bu evi müşahidə edərkən, onun mənzillərinə baxarkən, - bunun xarici də görünur, hamınız görürsünüz - xarici şirkətlərin gördüyü işlə bu binanın tikintisinin keyfiyyəti arasında müqayisə aparıram. Bu binanın keyfiyyəti onlardan heç də aşağı deyil, bəlkə də yuxarıdır. Bu, çox sevindiricidir. Deməк, bizim inşaatçılarımız yüksək keyfiyyətli iş görməyə qadirdirlər. Deyirlər, bunun üçün müəyyən miqdarda vəsait, inşaat materialı lazımdır, qiyməti artıqdır. Doğrudur, ancaq ola bilər, bir az baha, keyfiyyətli olsun, nəinki ucuz, keyfiyyətsiz olsun.

Məsələn, mən bu gün bu binadakı mənzillərə baxdım. Güman edirəm ki, bu mənzilləri alan hər bir şəxs oraya daxil olan kimi bu mənzildə yaşayacaqdır. Ancaq keçmişdə bəzi hallarda nə olurdu? Bina tikilirdi, istifadəyə verilirdi. Mənzil alan gəlib orderi, açarı alıb sevinirdi, amma bundan sonra həmin mənzili özü iki-üç ay təmir edirdi. Hətta deyə bilərəm, mən 1993-cü ildə Bakıya gəlib işə başlayandan sonra dedilər ki, hökumət işçiləri üçün burada bir evin tikintisinə başlanıb. Mən gələndə bu ev tikilib qurtarmışdı. Dedilər ki, onu sadəcə paylayırıq. Həmin binada mənzilləri payladılar. Bizim dövlət işində çalışan bir neçə şəxs 1994-95-ci illərdə həmin binadan ev aldı. Sonra eşitmişəm ki, bu adamların hər biri orada təmir işi aparır, heç biri həmin mənzillərə köçməyib. Soruşuram ki, niyə köçməyiblər? Hər biri cavab verdi ki, bu bina elə keyfiyyətsiz tikilib ki, mən oraya köçə bilmərəm. Bəli, bu mənzili təmir edir və oraya da nə qədər xərc çəkir. Demək, belə çıxır ki, bu bina ikinci dəfə tikilir - birinci dəfə onun əsas hissəsi inşa olunur, içərisini isə mənzili alan hər bir adam tikməlidir. Olmaz ki, bunların hamısı bir yerə yığılsın, birlikdə tikinti işi aparılsın, mənzili alan adam da sonra təmir işi aparmasın?

Deyəsən, həmin binada yaşayan adamların, yəni rəhbər işçilərin bəzilərini burada görürəm. Yəqin onlar bunu təsdiq [207-208] edərlər ki, bu belədir, yoxsa yox. Məsələn, Fikrət Yusifov oradan ev alıb. Sən onu neçə ay təmir etmisən? Deyirsən ki, dörd ay təmir işi aparmısan. Doğrudur, bu təmirə nə qədər pul verdiyini düz deməyəcəksən, ona görə də sənə bu sualı vermirəm. Görürsünüz, vəziyyət necədir?

Mən hər şeyi açıq deyirəm. Həyatım belədir ki, mən həmişə hər bir sözü olduğu kimi, açıq demişəm. Bu həqiqətdir. Həqiqətin də üstünü örtmək olmaz. Bu gün mənzil alanlar arasında nazir yoxdur ki, gəlib burada bir də xüsusi təmir aparsın. Bu gün mənzil alanların hamısı sadə insanlardır. Amma bəlkə maliyyə nazirinə də bu binada ev versək, o da bu mənzili təmir etməzdi, necə var, olduğu kimi yaşayardı. Bu gün dedim ki, bəlkə mən özüm də gəlib bu binadakı mənzillərdən birini özümə götürüm.

Bu bina çox gözəldir. Biz bir çox ölkələrə, şəhərlərə gedirik, hotellər görürük. Bu binanın mənzillərinin vəziyyəti bizim gördüyümüz hotellərin bəzilərinin səviyyəsindədir.

Mən bu məsələnin üzərində bir qədər geniş dayandım və bəzi faktları da gətirdim ki, sizi bu sözlərimə inandırım. İnşaatda keyfiyyət çox əhəmiyyətlidir. Bu evi inşa edən tikinti idarəsinin işçisi burada çıxış etdi. Bu onu göstərir ki, bizim inşaatçılarımız da keyfiyyətli binalar tikə bilərlər.

Bunun üçün nə lazımdır? Birincisi, həmin keyfiyyətli inşaat üçün vəsait ayrılması lazımdır, ikincisi isə inşaatçılar tikinti işləri aparılarkən gərək materialları oğurlamasınlar. Keçmişdə bizim apardığımız inşaat işlərinin keyfiyyəti niyə aşağı olurdu? Bir ona görə yox ki, vəsait az ayrılırdı. Ona görə ki, inşaatçılar həmin tikinti materiallarının bir qismini daim oğurlayırdılar.

Mən inşaatçılara hörmət edirəm. Burada inşaatçılar da var. Mən onların gördükləri işləri, xidmətlərini qiymətləndir-mişəm. Azərbaycanın, Bakının bax, bu mənzərəsi inşaatçılarımızın işinin nəticəsidir. Ancaq inşaatçıların arasında oğrular da olubdur, bu gün də var. Ona görə də rəqabət, nəzarət olanda, yəqin ki, insan [208-209] pis əməllərindən uzaqlaşır. Yəni əgər o burada yaxşı məvacib alırsa, onun insafı varsa, demək, tikinti materiallarını oğurlayıb aparıb satmamalıdır. Əgər keyfiyyət üçün lazımi vəsait ayrılırsa, demək, inşaat işi keyfiyyətli gedəcəkdir. Görünür, bax, bu evin tikintisində bu amillər özünü göstərib və o bir nümunədir. Məsələnin bu tərəfi məni çox sevindirdi.

Görürsünüz, bugünkü bu hadisə bir neçə nöqteyi-nəzərdən çox böyük əhəmiyyət kəsb edir. Birincisi, bu bina kimin üçündür? Bizə çox əziz olan adamlar üçündür. İkincisi, bu bina keyfiyyətli tikilibdir. Mən bunu da yüksək qiymətləndirirəm. Mən çox şadam ki, biz hamımız bu gün buraya bu binada yaşayacaq adamları təbrik etmək üçün gəlmişik.

Bugünkü bu nümunə onu sübut edir ki, bizim respublikamızda sosial təminat sahəsi həyatımızın xüsusi bir sahəsidir. Respublikamızın iqtisadiyyatında bazar iqtisadiyyatını tətbiq edərək, yaradaraq, inkişaf etdirərək, eyni zamanda onun sosial istiqamətini heç vaxt unutmamalıyıq. Bazar iqtisadiyyatı sosial yönümlü iqtisadiyyat olmalıdır. Bazar iqtisadiyyatı iqtisadiyyatda sərbəstliyə, rəqabətə, təşəbbüskarlığa imkan yaradır. Biz bunu etməliyik. Çünki bu, ümumiyyətlə, iqtisadiyyatın sürətli inkişafının - indi bütün sınaqlardan keçəndən sonra - yeganə yoludur. Ancaq biz bununla yanaşı, bazar iqtisadiyyatının sosial yönümünü nəinki unutmamalıyıq, hətta günü-gündən gücləndirməliyik.

Sosial yönümlü bazar iqtisadiyyatı bizim iqtisadiyyatımızın əsas prinsipi olmalıdır. Ona görə 1998-ci il üçün müəyyənləşdiriləcək dövlət büdcəsində də, gələcək illərdə də iqtisadiyyatımız inkişaf etdikcə, respublikamızın gəliri, imkanları artdıqca sosial sahəyə qoyulan vəsaitin həcmi artmalıdır. Respublikamızın sosial cəhətdən aztəminatlı vətəndaşları bu imkanlardan mütləq istifadə etməlidirlər və biz bu imkanlar vasitəsilə onların sosial vəziyyətini yaxşılaşdırmalıyıq. Sosial cəhətdən köməyə ehtiyacı olan adamlar təkcə döyüşlərdə şikəst, [209-210] əlil olmuş insanlar deyil, başqa təbəqədən olanlar da çoxdur. Biz bütün bu təbəqələrdən olan insanların yaşayışını nəzarət altında saxlamalıyıq, onların hər birinin sosial təminatını günü-gündən yaxşılaşdırmağa çalışmalıyıq.

Mən bildirmək istəyirəm ki, bizim iqtisadi siyasətimizdə bazar iqtisadiyyatının gələcəkdə də inkişaf etdirilməsi əsas istiqamətdir. Ancaq eyni zamanda sosial yönümlü bazar iqtisadiyyatı respublikamız üçün əsas, prinsipial məsələdir. Bizim iqtisadiyyatla, siyasətlə məşğul olan orqanlarımız bunu bilməlidirlər və bu işlərə riayət etməlidirlər.

Mən bu gün bir daha bildirmək istəyirəm ki, cəmiyyətimizdə, dövlət, hökumət orqanlarında Vətənimizin müdafiəsi uğrunda vuruşmuş, qəhrəmanlıq göstərmiş, fiziki cəhətdən xəsarət almış, zəifləmiş insanlara xüsusi qayğı göstərilməlidir. Ümumiyyətlə, Vətənin müdafiəsində iştirak etmiş və qəhrəmanlıq, şücaət göstərmiş insanların hamısı cəmiyyətimizin diqqət mərkəzində olmalıdır, dövlət orqanları onlara qayğı göstərməlidir. Onlar cəmiyyətdə həmişə hörmətlə qarşılanmalıdırlar. Şəhid ailələri bizim hamımızın - həm dövlətin, hökumətin, həm də cəmiyyətin daimi qayğısı altında olmalıdır.

Vətəni müdafiə etmək ən şərəfli işdir. Bu gün burada Vətəni müdafiə edərkən xəsarət almış, fiziki cəhətdən müəyyən dərəcədə zəifləmiş insanlar var. Biz onlarla görüşürük. Onlar darıxmamalıdırlar, narahat olmamalıdırlar. Əksinə, onlar fəxr etməlidirlər ki, Vətənimizi, torpağımızı müdafiə ediblər, şücaət göstəriblər, öz fiziki sağlamlığının bir hissəsini itiriblər və bu gün də bizim cəmiyyətimizin layiqli üzvüdürlər. Onlar bütün başqa sağlam adamlardan hörmətlidirlər, şərəflidirlər. Çünki onlar öz sağlamlığının bir hissəsini Vətənin yolunda itiriblər. Bundan böyük, şərəfli iş ola bilərmi?! Bax, siz, buraya toplaşanlar bununla iftixar etməlisiniz, qürur duymalısınız. Biz də sizə hörmət etməliyik. Ona görə ki, siz gedib Vətən uğrunda vuruşmusunuz. [210-211]

Şəhid ailəsi, gənc bir qadın burada çıxış etdi. Bilirsiniz, onun çıxışı məni nə qədər həyəcanlandırdı. Onun həyat yoldaşı, əri mənim çağırışımla, yəni Vətənin, dövlətin çağırışı ilə cəbhəyə gedib, vuruşub, həlak olub, canını qurban veribdir. Onun balaca uşağı var. Özü gənc qadındır, ərsiz qalıbdır. Şübhəsiz ki, biz onun həyatı ilə daim maraqlanmalıyıq, ona kömək, yardım etməliyik. Ancaq mənim bu bacım, qızım da, onun o kiçik balası da fəxr etməlidir ki, bu balaca uşağın atası, bu gəlinin əri Vətən yolunda həlak olubdur. Vətən yolunda həlak olmaqdan şərəfli bir həyat ola bilməz.

Biz bu insanlara, onların xatirəsinə daim hörmət etməliyik. Onların ailələrinə hörmət etməliyik, qayğı göstərməliyik. Yenə də deyirəm, biz cəmiyyətimizdə Vətən, torpaq yolunda, torpaqlarımızın müdafiəsi yolunda vuruşan insanların hamısına hörmət və ehtiramla yanaşmalıyıq. Bu, bizim borcumuz, vəzifəmizdir. Dövlət başçısı kimi mən bu gün bir daha deyirəm ki, bu, mənim üçün böyük bir vəzifədir. Mən bunu özüm üçün borc hesab edirəm və bu borcumu da sona qədər yerinə yetirəcəyəm.

Mən bu əlamətdar hadisə münasibətilə sizin hamınızı bir daha təbrik edirəm. Xüsusən bu gün mənzil alan bacı və qardaşlarımızı, övladlarımızı təbrik edirəm. Bu mənzilləri alanlara bu gözəl evdə xoşbəxt həyat arzulayıram. Bütün xalqımıza, millətimizə sülh, əmin-amanlıq arzulayıram. Bu binanı tikib, başa çatdırıb bugünkü vəziyyətdə istifadəyə verən adamların hamısına təşəkkür edirəm. Sağ olun.

İndi nazir deyir ki, mənzillərin orderlərini mən təqdim edim. Elə bu gün burada dediyim bu sözlər mənim bu orderləri təqdim etməyim deməkdir.

Orderləri təqdim edin, qoy hər kəs keçib öz mənzilini tutsun, yaşasın, yerini-yurdunu düzəltsin. Ondan sonra bir bayram günü qonaq çağırarsınız, gəlib sizin bu evi qeyd edərik. Sağ olun. [211]

## VOKALÇILARIN BÜLBÜL ADINA BİRİNCİ BEYNƏLXALQ MÜSABİQƏSİNƏ

Vokalçıların Bülbül adına birinci beynəlxalq müsabiqəsinin iştirakçılarını salamlayır və bu əlamətdar hadisə münasibətilə bütün musiqisevərləri ürəkdən təbrik edirəm.

Bülbül sənəti Azərbaycanın musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamışdır. O, Azərbaycanın professional vokal sənətinin banisidir. Onun çoxşaxəli zəngin yaradıcılığı milli muğam ifaçılığının ən yaxşı ənənələrini və dünya vokal məktəbinin nailiyyətlərini ahəngdar şəkildə özündə birləşdirir. Bülbülün böyük fitri istedadı, pedaqoq, musiqişünas alim və ictimai xadimə xas yüksək keyfiyyətləri ona Azərbaycan xalqının əbədi məhəbbətini qazandırmışdır.

Bu gün müstəqil Azərbaycan dövlətinin paytaxtı Bakı şəhərində Azərbaycanın dahi müğənnisinin 100 illik yubileyi şərəfinə belə mötəbər bir müsabiqənin keçirilməsi böyük məmnunluq hissi doğurur. Müsabiqənin münsiflər heyətinin tərkibində dünyanın adlı-sanlı musiqi xadimlərinin olması, xarici ölkələrin gənc ifaçılarının iştirakı təkcə böyük ustadın yaradıcılığına deyil, eləcə də bütövlükdə Azərbaycanın zəngin musiqi mədəniyyətinə dünyada dərin maraq olduğunu nümayiş etdirir.

Ümid edirəm ki, vokalçıların Bülbül adına birinci beynəlxalq müsabiqəsi yeni istedadlar üzə çıxaracaq, gözəl ənənəyə çevrilərək dünya xalqları mədəniyyətlərinin qarşılıqlı zənginləşməsi işinə öz töhfəsini verəcəkdir. [212-213]

Müsabiqəni təşkil edənlərə, onun iştirakçılarına, Bülbül yaradıcılığının bütün pərəstişkarlarına cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *17 noyabr 1997-ci il*
[213]

## GÖRKƏMLİ BƏSTƏKAR, AZƏRBAYCANIN XALQ ARTİSTİ TOFİQ QULİYEVİN 80 İLLİYİNƏ HƏSR EDİLMİŞ YUBİLEY GECƏSİNDƏ ÇIXIŞ

*Respublika sarayı*

*19 noyabr 1997-ci il*

Əziz Tofiq!

Mən sənin 80 illik yubileyin münasibətilə sənə təbrik məktubu göndərmişəm. Onu da bil ki, mən göndərdiyim və ümumiyyətlə, yazdığım məktubların hamısını əvvəldən axıradək özüm yazıram. Siz də, hamınız da bilirsiniz ki, mənim dediyim sözlərin də hamısı öz beynimdən gələn sözlərdir, heç vaxt əlimdə kağız olmayıbdır. Sənin bu yubileyini belə təntənəli şəkildə keçirməklə biz hamımız borcumuzu yerinə yetirmişik. Bəlkə də mən buraya qalxmazdım. Ancaq hesab edirəm, sən bu yubileydə mənim haqqımda o qədər sözlər dedin ki, mən buraya gəldim sənə deyəm ki, bu sənin yubileyindir, bu gün sənin günündür.

Azərbaycan xalqı bəşəriyyətə çox görkəmli insanlar - şairlər, yazıçılar, alimlər, sərkərdələr, siyasətçilər bəxş etmişdir. Əziz Tofiq, onların sırasında sənin xüsusi layiqli yerin var.

Bu gün bu təntənəli mərasimdə, bu gözəl axşamda biz sənin həyatını başdan-ayağa izlədik. Əziz qardaşım, 80 yaşın tamam olarkən fəxr edə bilərsən ki, sən şərəfli bir ömür yaşamısan, böyük işlər görmüsən, xalqına sədaqətlə xidmət etmisən və xalqın üçün gözəl əsərlər yaratmısan. Ona görə biz [214-215] hamımız sənə minnətdarıq, təşəkkür edirik. Sənin yaratdığın əsərlərə, xalqımıza bəxş etdiyin gözəl mahnılara, musiqinə, bəstəkarlığına, təşkilatçılığına, Azərbaycanın ictimai həyatında daim fəal iştirak etdiyinə görə sənə təşəkkür edirik. Sən böyük işlər görmüsən. Bugünkü bu mərasim sənin üçün bəlkə də azdır. Sən bundan da böyük şöhrətə və hörmətə layiqsən.

Azərbaycan xalqı 60 ildir ki, sənin mahnılarının təsiri altında yaşayır. Sənin mahnıların bizim xalqımıza, təkcə bizim xalqımıza yox, bəşəriyyətə, dünyaya böyük töhfələrdir. Sənin mahnıların, musiqin bizim xalqımıza sevinc gətirir, ilham verir, hər bir insan üçün yaşamağa, yaratmağa güc verir.

Musiqi ümumiyyətlə, insan üçün çox əziz olan bir sənət nümunəsidir. Musiqinin hər bir sahəsi həmişə insanlar tərəfindən sevilibdir. Ancaq mahnı, şərqi insanlara daha yaxın olubdur. Yəni əgər opera musiqisini, simfonik musiqini bir çox adamlar qəbul edir, ancaq o hamıya çatmırsa, amma mahnı və xüsusən sənin kimi bəstəkarın mahnıları demək olar ki, insanları - kiçikdən böyüyə qədər, cocuqdan yaşlıya qədər, qadını da, kişini də, hamını sevindirir və hamıya təsir edir. Ona görə də mahnı daim yaşayır.

Tofiq, sən fəxr edə bilərsən ki, 80 yaşını belə gümrah, sağlam, gözəl şəraitdə keçirirsən. Sən bundan sonra da yaradacaqsan, yazacaqsan, bizi sevindirəcəksən, yeni-yeni mahnılar, musiqilər yaradacaqsan. Mən sənə cansağlığı arzu edirəm. Sənə yeni yaradıcılıq uğurları arzu edirəm.

Biz hamımız bu dünyadan gedəcəyik. Ancaq mahnı, musiqi yaşayacaq. Tofiq Quliyevin mahnıları, musiqisi daim yaşayacaqdır.

Eşq olsun musiqiyə! Eşq olsun incəsənətə! Yaşasın Tofiq Quliyev! [215]

## AMERİKADA NƏŞR EDİLƏN «AZƏRBAYCAN İNTERNƏŞNL» JURNALININ BEŞ İLLİYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ

*M.F.Axundov adına Respublika Kitabxanası*

*20 noyabr 1997-ci il*

Hörmətli xanımlar və cənablar, dostlar!

Bugünkü mərasim «Azərbaycan internəşnl» jurnalının beşillik fəaliyyətinin qeyd olunmasına həsr edilmişdir.

Son illər belə bir ənənə yaranıbdır ki, yeni bir maraqlı kitab, yaxud jurnal, toplu, məcmuə, başqa bir əsər meydana çıxan zaman onun təqdimat mərasimi keçirilir. Bu ənənədən fərqli olaraq «Azərbaycan internəşnl» jurnalı beş il bundan əvvəl özünün ilk addımlarını atıbdır və heç bir təqdimat mərasimi keçirməyibdir. Ancaq ötən illərdə ilbəil öz fəaliyyətini artırıb, gücləndirib və jurnalı çox yüksək səviyyəyə qaldırıbdır. Hesab edirəm ki, indi jurnalın fəaliyyətinə qiymət vermək üçün bu mərasim çox lazımlı bir mərasimdir.

Mübaliğəsiz demək olar ki, «Azərbaycan internəşnl» jurnalı müstəqil Azərbaycanın həyatında, ümumiyyətlə, dünyada Azərbaycana məxsus olan çox əlamətdar və nadir bir hadisədir. Azərbaycan daim öz milli mədəniyyətini, nailiyyətlərini, xalqımızın ənənələrini dünya xalqlarına, ictimaiyyətinə tanıtmağa çalışmışdır. Bu sahədə Azərbaycanın mütəfəkkir [216-217] insanlarının tarix boyu göstərdikləri xidmətləri biz daim qiymətləndirməliyik. Ancaq bu səylər nə qədər olmuşdursa da, Azərbaycan dünyada, dünya xalqları içərisində indiyədək heç vaxt tanınmamışdır.

Şübhəsiz ki, indi dünyada tanınmağımızın ən əsas səbəbi Azərbaycanın dövlət müstəqilliyi əldə etməsidir və dövlət müstəqilliyi əldə edəndən sonra bir müstəqil dövlət kimi Azərbaycanın Dünya Birliyinə daxil olmasıdır. Ancaq bu fakt da, yəni bu hüquqi, siyasi akt da öz-özlüyündə Azərbaycanı dünyada istədiyimiz kimi heç vaxt tanıda bilməz. Bunun üçün daim ardıcıl, çoxsahəli işlər görmək lazımdır. Bu işlər bütün sahələrdə aparılmalıdır. Dövlət orqanları, bizim ictimai təşkilatlarımız, mədəniyyət, elm xadimlərimiz - hamımız birlikdə Azərbaycanı dünyaya açmağa, tanıtmağa çalışmalıyıq, Azərbaycanın həqiqətlərini dünyanın hər bir guşəsinə çatdırmağa çalışmalıyıq.

Bu, indi xüsusən ona görə daha da çox lazımdır ki, Ermənistanın Azərbaycana təcavüzü başlayandan, Ermənistan-Azərbaycan münaqişəsi davam etdiyi dövrdə Ermənistanın tərəfdarları, dünyada olan erməni diasporunun təbliğat maşını çox güclü olmuşdur. Onlar Azərbaycana təcavüz etdikləri, torpaqlarımızı işğal etdikləri, işğal olunmuş ərazilərimizdən bir milyon insanı öz yerindən-yurdundan zorla didərgin saldıqları halda Azərbaycanı məhkum etməyə çalışmışlar, Azərbaycan haqqında yalan, iftiralar, böhtanlar yaymışlar. Təəssüf ki, Azərbaycanın təbliğatı olmadığına görə, yaxud da çox zəif olduğuna görə onlar üstünlük əldə edə bilmişlər və öz istədiklərinə nail olmuşlar. Yaranmış şərait bir tərəfdən bizim vəziyyətimizi çox mürəkkəbləşdirmişdir, ikinci tərəfdən də Azərbaycan haqqında dünyaya məlumat verməyin, Azərbaycanı dünyaya tanıtmağın nə qədər vacib, zəruri, əhəmiyyətli olduğunu bir daha sübut etmişdir. [217-218]

Qeyd etmək lazımdır ki, son illər bu sahədə çox işlər görülmüş, birinci növbədə Azərbaycanın ardıcıl xarici siyasəti, ardıcıl, çox təşəbbüskar, doğru-düzgün xarici siyasəti Azərbaycan ilə dünyanın bir çox ölkələri arasında sıx əlaqələr, əməkdaşlıq yaratmış və Azərbaycanın həqiqətlərini dünyaya çatdırmağa böyük imkanlar açmışdır.

İnformasiya orqanlarımız da, ictimai təşkilatlarımız da və bizim Yazıçılar Birliyi, Bəstəkarlar İttifaqı, elmi təşkilatlarımız, Elmlər Akademiyası və başqaları da bu sahədə bir çox işlər görmüş və müəyyən nailiyyətlər əldə etmişlər. Ancaq bunlar heç də yetərli deyil, hələ çox iş görülməlidir. Çox səylər qoymalıyıq ki, Azərbaycanı hər yerdə, hər ölkədə olduğu kimi tanısınlar, bilsinlər, Azərbaycan xalqının tarixini, nailiyyətlərini, xüsusiyyətlərini, keyfiyyətlərini həqiqətən bilsinlər.

Hələ çox iş görülməlidir, bir də ona görə ki, təəssüflər olsun ki, bizim xarici düşmənlərimizlə yanaşı, Azərbaycanın daxilində olan, bəzən guya müxalifət mövqeyində duran bəzi qüvvələr öz şəxsi məqsədləri naminə, öz şəxsi məqsədlərinə çatmaq üçün Azərbaycanı bir çox yerlərdə ləkələməyə, Azərbaycanın həqiqətləri haqqında yalanlar, iftiralar yaymağa çalışırlar. Bu da həmin o düşmən qüvvələrinin səyləri ilə üst-üstə gələrək Azərbaycanın həqiqətlərinə kölgə salır.

«Azərbaycan internəşnl» jurnalının fəaliyyəti xüsusi qiymətə layiqdir. Çox qətiyyətlə demək olar və bunu etiraf etməliyik ki, indiyə qədər xarici ölkələrdə dərc olunan, nəşr edilən cürbəcür nümunələr - ki-

tablar, jurnallar içərisində «Azərbaycan internəşnl» jurnalı qədər Azərbaycan haqqında dolğun, düzgün və çox parlaq, gözəl, cazibədar məlumat yayan jurnalımız, toplumuz olmayıbdır.

Maraqlı, sevindirici cəhət də bundan ibarətdir ki, bu jurnalı nə Azərbaycanın dövlət orqanları, nə bir ictimai təşkilat, nə də respublikamızdakı hansısa bir təşkilat yaradıb. Bu jurnalı yaradanlar Azərbaycanı sevən, ona ürək yandıran, [218-219] Azərbaycanla dostluq edən iki şəxs - xanım Betti və Piruz Xanlıdır. Onlardan biri amerikalı, o birisi isə azərbaycanlıdır, amma Amerika vətəndaşıdır. Onlar şəxsi təşəbbüs göstəriblər və öz fədakarlıqları nəticəsində o jurnalı yaradıb, indi belə bir yüksək səviyyəyə gətirib çıxarıblar.

Mən xanım Bettinin və Piruz Xanlının təşəbbüsünü və ötən illərdə gördükləri işləri, Azərbaycana göstərdikləri münasibəti, dostluğu və ölkəmiz haqqında çəkdikləri bu qədər zəhməti çox yüksək qiymətləndirirəm. Onların gördükləri iş, əldə etdikləri nailiyyət onu göstərir ki, insan bir işə həvəslə, ürəklə, canla yanaşarsa, həqiqətən xalqa xidmət etmək istəyərsə, o, çox işlər görə bilər. O, təkbaşına da çox işlər görə bilər.

Azərbaycanda nə qədər nəşriyyat orqanları, ictimai təşkilatlar, cürbəcür nə qədər kitab, jurnal buraxanlar var. Onlardan indi hansı gəlib buna bərabər bir nümunəni ortaya qoya bilər ki, Amerika Birləşmiş Ştatlarında belə bir jurnalın yaranmasını və bu qədər yüksək səviyyəyə çatmasını təmin edə bilsin? Heç birisi yoxdur. Əgər kiminsə varsa, ortaya çıxarsın, meydana qoysun.

Bu jurnalın yaranması və onun varlığı, bugünkü səviyyəsi məni həddindən artıq sevindirir. Bu, eyni zamanda onu göstərir ki, insan nəyə qadirdir. Bu, eyni zamanda onu göstərir ki, bizim Azərbaycanın cürbəcür təşkilatlarının, böyük-böyük imkanlara malik olan təşkilatlarının istifadə olunmamış nə qədər imkanları var.

Bu gün biz bu jurnalın ilk nömrəsinə də, son nömrəsinə də baxdıq. Mən 1993-cü ildən bu jurnalın hər nömrəsini oxuyuram, ona baxıram, müşahidə edirəm. Bu jurnalın aybaay, hər nömrədən - nömrəyə keyfiyyətinin artmasını, onun səhifələrinin genişlənməsini görürəm. Görürəm ki, bu jurnal günbəgün nə qədər inkişaf edir, genişlənir və Azərbaycanın həyatını nə qədər geniş əhatə etməyə gəlib çatıbdır. [219-220]

Bu insanlar - xanım Betti və Piruz Xanlı öz işlərinə çox sadiqdirlər, ancaq eyni zamanda onlar Azərbaycanın ən gözəl dostlarıdır, Azərbaycanın həqiqətlərinə, xalqımızın bugünkü həyatına sadiqdirlər. Ona görə də mən onlara səmimi-qəlbdən təşəkkür edirəm.

«Azərbaycan internəşnl» bütün parametrlərinə, xüsusiyyətlərinə görə dünyada, ən inkişaf etmiş ölkələrdə nəşr edilən yüksək səviyyəli jurnallarla rəqabət apara bilən bir jurnaldır. Sovetlər İttifaqı mövcud olan zaman ABŞ-da bir «Amerika» jurnalı çıxırdı və o da siyahı ilə abunə yazdırılıb paylanırdı. Mənim xatirimdədir, bu «Amerika» jurnalına abunə yazılmaq üçün Azərbaycana da müəyyən limit verilirdi və keçmiş Azərbaycan hökumətində də bunun üçün siyahı tərtib edilirdi. Kim bu siyahıya düşər, kim də düşə bilməzdi. Həmin jurnalı kim ala bilirdisə, o özünü xoşbəxt hesab edirdi. Bu jurnalın qiyməti də sovet jurnallarının qiymətinə nisbətən çox baha idi. Çoxları onu oxuyub mənasını başa düşmürdülər.

Həmin jurnal çox nəfis nəşr olunurdu, oradakı rəsmlər, fotoşəkillər çox gözəl idi, bir də Amerikanın həyatından cürbəcür mənzərələr verilirdi. Biz o vaxt Amerikanın həyatını o qədər də yaxşı bilmirdik. Ona görə də insanlar bu jurnala çox böyük maraq göstərirdilər. Həmin jurnal mənim yaxşı xatirimdədir. O vaxt biz bu jurnalı daim alırdıq, baxırdıq, vaxt olanda ayrı-ayrı məqalələri oxuyurduq.

Bəli, o jurnal mənim yadımdadır. Doğrudur, Amerikada onun keyfiyyəti sonralar nədənsə getgedə aşağıya düşdü. Ancaq o vaxt həmin o «Amerika» jurnalının həsrətini çəkən azərbaycanlılar - yəqin, həmin adamlardan indi bu mərasimdə iştirak edənlər də var - bu «Azərbaycan internəşnl» jurnalını əllərinə alsınlar və əgər arxivlərində varsa, gedib o jurnalı çıxarsınlar, müqayisə etsinlər. «Azərbaycan internəşnl» ondan qat-qat üstün səviyyədə nəşr olunan bir jurnaldır. [220-221]

Jurnalın yüksək qiyməti onun yalnız nəşr keyfiyyəti ilə bağlı deyil. Mənim bu jurnala verdiyim yüksək qiymət onun məzmunu ilə əlaqədardır. Bu, nə qədər məzmunlu jurnaldır! Azərbaycanın tarixi, mədəniyyəti, müasir həyatı, ölkəmizin ayrı-ayrı görkəmli şəxsiyyətlərinin əsərləri, onların yaradıcılığı, Azərbaycanın həyatının cürbəcür mənzərələri və çoxlarımızın tanımadığımız, çoxdan unutduğumuz səhifələr - hamısı bu jurnalda böyük ustalıqla, məharətlə, deyə bilərəm ki, çox böyük sevgi ilə, məhəbbətlə açılıb, dərc olunub. Bu məni heyran edir.

Biz bir neçə il vaxt bundan əvvəl burada Azərbaycan qaçqınlarının vəziyyətinə həsr olunmuş fotoalbomun təqdimat mərasimini keçirdik. Ancaq təəssüf ki, o, gec bir zamanda oldu. «Azərbaycan internəşnl» jurnalı iki nömrəsini Azərbaycan qaçqınları mövzusuna həsr edibdir və nə qədər məzmunlu, mənalı fotoşəkillər tapıb dərc edibdir. Şübhəsiz ki, bax, bunu oxuyan hər bir insan Azərbaycanda qaçqınların olduğunu və onların nə vəziyyətdə yaşadığını çox gözəl dərk edə bilir.

«Azərbaycan internəşnl» jurnalında Azərbaycanın parlaq nailiyyətləri, tarixinin parlaq səhifələri necə gözəl əks olunur! Mən sonuncu nömrəyə baxdım. Burada Azərbaycan kinosunun tarixindən bir çox səhifələr, bir çox məşhur kinofilmlərimiz, onların ayrı-ayrı kadrları haqqında çox gözəl rəngli fotoşəkillər verilibdir. Orada «Nəsimi», «Babək», «Arşın mal alan», «Məşədi İbad» və başqa kinofilmlərimiz, kino

xadimlərimiz haqqında fotoşəkillər dərc olunubdur. Bilirsiniz, onlara baxanda çox şeyləri unutduğumuzu görürük. Bizim mədəniyyətimizin bütün sahələri, o cümlədən kinematoqrafiya sahəsi nə qədər zəngindir, nə qədər gözəl əsərlər yaranıbdır. Bunu bizim özümüz bilirik, amma çoxları indi onu unudubdur. Ancaq bunları Amerika da, İngiltərə də, Almaniya da, Fransa da bilməlidir. Bütün dünya bilməlidir [221-222] ki, Azərbaycan xalqının mədəniyyəti bu qədər yüksək səviyyələrə qalxıbdır.

Bu jurnalın ən gözəl xüsusiyyətlərindən biri də odur ki, bizim çoxlarımızın həyatımızda olan, bəzən görmədiyimiz gözəl hadisələri gedir, tapır, çıxarır, öz səhifələrində göstərir. Bu məlumatlar bəzən bizə, o cümlədən mənə də jurnal vasitəsilə gəlir. Bu da çox maraqlıdır.

Məsələn, bir gənc müğənnimiz var - Surxay Əsgərov. O, iki ildir ki, meydana çıxıbdır, çox gözəl gələcəyi olan bir gəncdir. Şəxsən mən Surxay Əsgərov haqqında ilk məlumatı bu jurnaldan almışam. Betti xanım bu jurnalı mənə təqdim edərkən Surxay Əsgərov haqqında geniş məlumat veribdir. Bundan sonra, gərək ki, bir axşam incəsənət muzeyində konsertini düzəltmişdilər. Mən orada Surxay Əsgərovu dinləyib onun istedadı ilə tanış olmuşam.

Bu jurnal həm Üzeyir Hacıbəyovu, Rəşid Behbudovu, Niyazini, həm bizim böyük şairlərimizi, rəssamlarımızı təbliğ edir, həm də bu gün meydana gələn gənc istedadlarımızı təbliğ edir. Bu, nə qədər gözəl təşəbbüsdür, işdir!

Mənim bu jurnal haqqında o qədər böyük təəssüratım var ki, bütün bunlar barədə çox danışmaq olar. Ən mühüm cəhət bir də ondan ibarətdir ki, bu jurnal artıq 47 ölkədə yayılır, 7 min nüsxə tirajla nəşr olunur. Demək, bu jurnal 47 ölkədə, özü də yüksək dövlət dairələrində, ictimai təşkilatlarda, böyük biznes, maliyyə mərkəzlərində yayılır. Bu, çox əhəmiyyətlidir.

Jurnalın gördüyü çox gözəl işlərdən biri də Azərbaycan musiqisinin kompakt disklərə yazılması və dünyaya yayılmasıdır. Xanım Betti bu barədə geniş məlumat verdi. Bu bizim üçün çox faydalı bir işdir. Onlar şəxsən mənə də kömək ediblər. Mən indi məni ziyarət edən qonaqlara «Azərbaycan internəşnl» jurnalını və Azərbaycan bəstəkarlarının gözəl musiqi əsərlərindən ibarət kompakt diskləri hədiyyə verirəm. [222-223]

Bu jurnalı nəşr edənlərin fəaliyyətinin ən gözəl cəhəti bir də ondan ibarətdir ki, onların nə redaksiya heyəti, nə böyük ştatı, nə katibləri, nə də çoxlu telefonları var. Heç bir şeyləri yoxdur. Ər-arvad - Betti xanım və Piruz Xanlı, bir də bizim alimimiz Məzahir onlarla birlikdə bu jurnalı yaradırlar. Görün onlar nə qədər gözəl nümunə göstərirlər! Respublikamızda bir jurnalın, qəzetin çıxması üçün deyirlər ki, buna böyük ştat, avtomobil vermək, tez telefon çəkmək, özü də hökumət telefonu çəkmək, sonra başqa şeylər lazımdır. Amma qəzetin də, jurnalın da keyfiyyəti yoxdur, çoxları da heç onu oxumurlar. Ancaq görürsünüz, bu iki-üç adam nə qədər iş görür.

Bunlar hamısı ona görə mümkün olur ki, onlar Azərbaycanı çox sevirlər, ölkəmizə çox ədalətli münasibəti olan insanlardır və öz işlərinin çox böyük entuziastlarıdır. Yalnız və yalnız böyük entuziastlar möcüzələr yarada bilərlər. Onlar məhz bu cür insanlardır. Ona görə də mən onları xüsusi qiymətləndirirəm.

Ümid etmək olar ki, bu jurnal daim yaşayacaq, təkcə Amerika Birləşmiş Ştatlarında yox, dünyanın bir çox ölkələrində Azərbaycanın həqiqətlərini gündən-günə daha da parlaq şəkildə yayacaqdır. Ümid edirəm ki, bu jurnalın illik sayı da artacaqdır. Onlar bu jurnalı ildə dörd dəfə buraxırlar. Çox arzu edərdim ki, onlar işlərini, jurnalın sayını bir az artırsınlar, onun sayı ildə bəlkə beş, altı dəfə olsun. Bunu da edəcəklər. Çünki birinci nömrədən sonuncuya qədər olan böyük inkişafı görərkən hesab edirəm ki, qarşıdakı iki-üç il içərisində onlar jurnalı həm sayca, həm keyfiyyətcə, həm də məzmunca daha da yüksəklərə qaldıracaqlar.

Jurnalın son xidmətlərindən biri də Azərbaycan prezidentinin Amerika Birləşmiş Ştatlarına ilk rəsmi səfərinə həsr olunmuş, onların yaratdığı və burada təqdim etdikləri kitabdır. Bu kitab da çox yüksək səviyyədə yaranıbdır. Hesab [223-224] edirəm ki, jurnal kimi, bu kitab da Azərbaycanın bugünkü həyatının, həqiqətlərinin, xarici siyasətimizin və Azərbaycan-Amerika Birləşmiş Ştatları əlaqələrinin dünyada təbliğ olunması üçün çox dəyərli xidmətlər edəcəkdir.

Mən Sizi, xalqımızı, vətəndaşlarımızı Azərbaycan üçün çox böyük əhəmiyyətli olan «Azərbaycan internəşnl» jurnalının əldə etdiyi nailiyyətlər münasibətilə təbrik edirəm. Mən bu jurnalı yaradıb bu qədər yüksək səviyyəyə çatdıran insanları - xanım Bettini, dostumuz Piruz Xanlını ürəkdən təbrik edirəm. Onlara təşəkkür edirəm və bu xeyirxah işlərində yeni-yeni uğurlar arzulayıram. Sağ olun* . [224]

* Mərasimin sonunda Azərbaycan Prezidenti Heydər Əliyev və «Azərbaycan internəşnl» jurnalının baş redaktoru Betti Bleyer «Qlobal üfüqlər. Prezident H.Əliyevin ABŞ səfəri» nəşrini M.F.Axundov adına Respublika Kitabxanasına təqdim olunmaq üçün imzaladılar.

## XALQ YAZIÇISI
## HÜSEYN ABBASZADƏYƏ

Hörmətli Hüseyn Abbaszadə!

Sizi - Azərbaycanın xalq yazıçısını anadan olmağınızın 75 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Yaradıcılığa faşizmə qarşı müharibə illərində bir əsgər kimi başlayaraq siz vətənpərvərlik mövzusuna həmişə sadiq qalmısınız. Qəzet və jurnalların baş redaktoru olduğunuz dövrdə də yaratdığınız əsərlər respublikada ədəbi prosesin inkişafına öz töhfəsini vermişdir. Bu əsərlər gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması, onların hərtərəfli şəxsiyyət kimi yetişməsi işinə xidmət etmişdir.

Uzun illər Azərbaycan Yazıçılar İttifaqının katibi kimi fəaliyyətiniz də böyük təşkilatçılıq qabiliyyətinə malik olduğunuzu göstərir.

İnanıram ki, siz müstəqil Azərbaycanın ədəbi həyatında bundan sonra da fəal iştirak etməklə yaradıcılığınızın pərəstişkarlarını yeni əsərlərlə sevindirəcəksiniz. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *22 noyabr 1997-ci il*
[225]

## AZƏRBAYCAN YAZIÇILARINA DÖVLƏT QAYĞISININ ARTIRILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan yazıçılarının yaradıcılıq imkanlarının genişləndirilməsi üçün onlara dövlət qayğısını artırmaq, respublikada ədəbi mühiti canlandırmaq məqsədilə və Azərbaycan Yazıçılar Birliyinin onuncu qurultayında irəli sürülmüş fikir və təklifləri nəzərə alaraq qərara alıram:

1. Azərbaycan yazıçılarının «Azərbaycan», «Qobustan», «Ulduz», «Literaturnıy Azerbaydjan» jurnallarının və «Ədəbiyyat» qəzetinin nəşri dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilsin.

2. Azərbaycan Respublikasının istedadlı gənc yazıçıları üçün ayda beş yüz min manat məbləğində on fərdi təqaüd təyin olunsun. Fərdi təqaüdçülər Azərbaycan Respublikası Prezidentinin qərarı ilə müəyyən edilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın:

- 1998-ci ildən başlayaraq hər il üzrə dövlət büdcəsi layihəsində bu fərmanın birinci bəndində adı çəkilən qəzet və jurnalların nəşrini təmin etmək üçün müvafiq məbləğdə dotasiya ayrılmasını nəzərdə tutsun;

- Azərbaycan xalqının ədəbi irsinin təbliği və müasir yazıçıların əsərlərinin çapı işini yaxşılaşdırmaq məqsədilə [226-227] nəşriyyat, poliqrafiya və kitab satışı işlərinin yenidən qulurması və təkmilləşdirilməsi barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 noyabr 1997-ci il*
[227]

## MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ PETRU LUÇİNSKİNİN BİNƏ HAVA LİMANINDA QARŞILANMA MƏRASİMİNDƏ BƏYANAT

*26 noyabr 1997-ci il*

Hörmətli prezident, hörmətli qonağımız cənab Petru Luçinski!

Mən sizi Azərbaycanda, Bakıda səmimi qəlbdən salamlayıram və Azərbaycan adətincə sizə «Xoş gəlmişsiniz!» deyirəm. Siz bu sözləri bilirsiniz, çünki Azərbaycanda dəfələrlə olmusunuz. Sizin, müstəqil Moldova dövləti prezidentinin Azərbaycana ilk rəsmi səfəri Moldova ilə Azərbaycan arasında olan əlaqələrin inkişaf etdirilməsi üçün böyük və əlamətdar bir hadisədir. Hesab edirəm ki, bu səfər bizim dostluq münasibətlərimizin və əməkdaşlığımızın daha da möhkəmlənməsi, inkişafı üçün yaxşı əsas olacaqdır.

Əmin ola bilərsiniz ki, siz Azərbaycanda yüksək qonaqpərvərlik, mehribanlıq, dostluq şəraiti ilə rastlaşacaqsınız. Əminəm ki, bizim danışıqlarımız, söhbətlərimiz, bütün görüşlərimiz çox işgüzarlıq və mehriban dostluq şəraitində keçəcək və sizin Azərbaycana ziyarətiniz əlaqələrimizi inkişaf etdirmək üçün ölkələrimizə böyük uğurlar gətircəkdir. Bütün bunların əsasında biz bir çox mühüm hökumətlərarası, dövlətlərarası sənədlər imzalaya biləcəyik ki, bu da gələcək əməkdaşlığımız üçün etibarlı zəmin yaradacaqdır.

Mən sizi səmimi qəlbdən salamlayır və Azərbaycana səfərinizin xoş keçməsini arzulayıram. [228-229]

## PETRU LUÇİNSKİNİN BƏYANATI

Çox hörmətli və əziz Prezident Heydər Əliyev!

Keçmiş sovet respublikaları, MDB ölkələri arasında ilk rəsmi səfərimi məhz Azərbaycana etmək imkanından çox şadam. Məni Azərbaycanla, Bakı şəhəri ilə həqiqətən də çoxdankı tarix və şəxsi əlaqələr bağlayır. Bu şəhərdə ilk dəfə 35 il əvvəl olmuşam. Deyə bilərəm ki, o vaxtdan bəri harada olsam da, bu şəhərlə əlaqələrimi kəsməmişəm.

İndi müstəqil dövlətin prezidenti kimi mən dünyada çox hörmətli adam olan Heydər Əliyev ilə, bir sıra rəhbərlərlə görüşməkdən, Moldova–Azərbaycan münasibətləri ilə bağlı məsələləri müzakirə edəcəyimizdən çox şadam.

Bizim həyatımız paradokslarla doludur. Bunlardan biri də odur ki, çoxdankı əlaqələri olan ölkələrimiz arasında, əslində, rəsmi şəkildə imzalanmış bir sənəd də yoxdur. Ona görə də indi belə sənədlər, yəni əsas sənəd - ölkələrimiz arasında dostluq və əməkdaşlıq haqqında müqavilə, habelə təxminən 13-14 digər sənəd imzalanacaqdır. Hesab edirəm ki, biz praktiki olaraq bütün imkanları yaradacağıq ki, həm dövlət təşkilatları, həm xüsusi şirkətlər, həm də sadəcə insanlar hər iki dövlətin mənafeyi naminə daha çox əlaqə saxlaya, görüşə bilsinlər.

Mən Azərbaycana, onun prezidentinə ən yaxşı uğurlar arzulayıram. Azərbaycan çox mühüm ölkədir. İlk səfərimin iki cəhətlə - Azərbaycanın oynadığı strateji rolla və Prezident Əliyev ilə bizim çoxdankı dostluğumuzla bağlı olduğunu desəm, heç bir sirr açmış olmaram. Sağ olun. [229]

## MOLDOVA PREZİDENTİ PETRU LUÇİNSKİ İLƏ TƏNTƏNƏLİ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Prezident sarayı*

*26 noyabr 1997-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli cənab Petru Luçinski!

Sizi Azərbaycan torpağında səmimiyyətlə salamlayır və mənim dəvətimi qəbul edərək Azərbaycana rəsmi səfərə gəldiyinizə görə sizə minnətdarlığımı bildirirəm.

Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin dövlət başçılarının oktyabrın 23-də Kişinyovda keçirilən görüşündə iştirak etmək üçün Moldovaya səfərimi məmnunluqla xatırlayıram və razılıqla bəhs etmək istəyirəm ki, Azərbaycan-Moldova əməkdaşlığının inkişafına hər iki tərəf ciddi maraq göstərir.

Nəzərinizə çarpdırıram ki, demokratik hüquqi dövlət quran, bazar münasibətləri yolunu seçən, bütün sahələrdə islahatları uğurla həyata keçirən gənc müstəqil Azərbaycanda Dünya Birliyi ilə əlaqələrin durmadan sıxlaşdırılmasına xüsusi diqqət yetirilir.

Respublikamızda hazırkı ictimai-siyasi vəziyyət sabitlik və investorların ölkə iqtisadiyyatına sərmayə qoyması üçün hər cür şərait və hüquqi-normativ baza yaradılmışdır. 1995-ci ildə bağlanan sərbəst ticarət haqqında saziş ölkələrimiz arasında əlaqələrin genişlənməsinin təməlini qoymuş, artıq 1996-cı ildə Moldova ilə Azərbaycan arasındakı idxal-ixrac əməliyyatları [230-231] müvafiq olaraq 4,6 və 6,4 milyon ABŞ dolları həcmində aparılmışdır.

1997-ci ilin oktyabrında Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna respublikaları dövlət başçılarının Strasburqdakı birgə görüşü zamanı imzalanan bəyanat bu dövlətlərin qlobal məsələnin həllində birgə mövqeyinin inandırıcı ifadəsi olmuşdur.

**P e t r u L u ç i n s k i:** Çox hörmətli Heydər Əliyev! Məni Azərbaycana rəsmi səfərə dəvət etdiyinizə görə Sizə dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm. Fərəhlə nəzərə çarpdırıram ki, Moldova Azərbaycanla bütün sahələrdə əlaqələrin möhkəmləndirilməsinə xüsusi maraq göstərir.

Əziz Heydər Əliyev, Sizinlə görüşdən şərəf duyduğumu vurğulayıram və bildirirəm ki, Sizin rəhbərliyiniz altında Azərbaycanda hüquqi demokratik dövlət quruculuğu və islahatların müvəffəqiyyətlə həyata keçirilməsi sahəsində görülən işləri biz Moldovada diqqətlə izləyirik və bundan çox məmnun oluruq.

Eyni sözləri müstəqil Moldova Respublikasında son illərdə həyata keçirilən tədbirlər və ölkəmizin hazırkı vəziyyəti barədə də söyləmək olar ki, mən bunlar haqqında məmnuniyyətlə ətraflı söz aça bilərəm.

Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənməsi üçün bir sıra ölkələrin nüfuzlu şirkətləri ilə ARDNŞ arasında bağlanmış tarixi əhəmiyyətli müqavilələri Sizin vurğuladığınız kimi mən də yüksək qiymətləndirirəm və bu yataqlardan hasil edilən nefti dünya bazarına çıxaracaq kəmərlərin marşrutları barədə apardığımız fikir mübadiləsi əhəmiyyətli oldu. Mən də bu fikirdəyəm ki, Azərbaycan-Moldova əlaqələrinin genişləndirilməsi perspektivləri hər iki dövlətimiz və xalqlarımız üçün faydalı olacaqdır. Səmimi söhbət üçün Sizə bir daha təşəkkür edirəm. [231]

# MOLDOVA PREZİDENTİ PETRU LUÇİNSKİYƏ BAKI DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ

*26 noyabr 1997-ci il*

Hörmətli qonaq, hörmətli dostumuz, cənab prezident Petru Luçinski!
Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən ən öncə bu gün Azərbaycana rəsmi səfərə gəlmiş və Bakı Dövlət Universitetinin fəxri doktoru adını almış prezident Petru Luçinskini bu münasibətlə ürəkdən təbrik edirəm. Mənim hörmətli dostum, sizə cansağlığı, səadət və Moldovanın dövlət başçısı kimi yüksək və çox məsuliyyətli vəzifənizdə uğurlar arzulayıram.

Mən bu gün bu imkandan istifadə edib, Bakı Dövlət Universitetinin professor və müəllimlərinin, tələbələrinin nümayəndələri ilə görüşümdən çox məmnun olduğumu bildirmək istəyirəm. Bakı Dövlət Universiteti Azərbaycanın ali təhsilinin bayraqdarıdır. Bakı Dövlət Universiteti Azərbaycanın ictimai-siyasi həyatında çox görkəmli bir yer tutur. Ona görə də Bakı Dövlət Universiteti ilə hər bir görüş, hesab edirəm, hər bir azərbaycanlı üçün çox əzizdir. Bu, mənim üçün xüsusilə əzizdir, çünki Bakı Dövlət Universiteti ilə nə qədər sıx bağlı olmağım sizə məlumdur. Mən sizi və sizin simanızda Bakı Dövlət Universitetinin professor-müəllim heyətini, bütün tələbələrini, bü yüksək təhsil ocağında çalışan [232-233] insanların hamısını ürəkdən salamlayıram, sizə bir daha öz hörmət və ehtiramımı bildirirəm, sizə cansağlığı, səadət, Azərbaycanın ali təhsilini daha da yüksəklərə qaldırmaqda uğurlar arzulayıram.

Güman edirəm, siz etiraz etməzsiniz ki, qonağımıza hörmət əlaməti olaraq mən sözlərimi rusca davam etdirim.

Mən şadam ki, siz bu adı - Bakı Universitetinin fəxri doktoru adını Dövlət Universitetinin fəxri adı kimi ilk dəfə alırsınız. Sizin tərcümeyi-halınız çox zəngindir. Onda bir çox hökumət mükafatlarının, müxtəlif adların, fəxri fərmanların, orden və medalların sadalanmasını görmək mümkündür. Amma bu gün sizinlə söhbətimdə öyrəndiyim kimi, digər dövlətin universitetinin fəxri doktoru adı sizə ilk dəfə verilir.

Mən şadam ki, bu, Azərbaycanda baş verir, bu ad sizə Azərbaycanın qocaman təhsil müəssisəsi - Bakı Dövlət Universiteti tərəfindən verilmişdir. Şübhə yoxdur ki, bu akt moldavan və Azərbaycan xalqları, Moldova və Azərbaycan dövlətləri, Kişinyov və Bakı Dövlət universitetləri arasında, prezidentlər Luçinski və Əliyev arasında dostluq münasibətlərini daha da möhkəmləndirəcəkdir.

Hörmətli prezident, sizi Azərbaycanda yaxşı tanıyırlar, özü də təkcə mən yox, çoxları tanıyır. Siz özünüz indicə çıxış edərkən dediniz ki, 35 il bundan öncə burada olmuş və tələbələrlə görüşmüsünüz. Görün, nə qədər böyük səadətdir - 35 il öncə gənclərin rəhbəri kimi ilk dəfə Azərbaycanda olmusunuz, tələbələrlə görüşmüsünüz. 35 ildən sonra isə öz ölkənizin prezidenti olub Bakı Univesitetinin professor-müəllim heyəti və tələbələri ilə görüşürsünüz və sizə elmlər doktoru fəxri adı verirlər. Bu, çox böyük səadətdir və qanunauyğundur. Ona görə ki, siz bu 35 il ərzindəki dövlət, siyasi fəaliyyətinizlə, - siz bu barədə dediniz, - bu səviyyəyə yüksəlmək, Bakı Dövlət Universitetinin fəxri doktoru olmaq hüququ qazanmısınız. [233-234]

Mən sizi çoxdan, 1970-ci ildə burada, Bakıda ilk dəfə görüşdüyümüz vaxtdan və sonralar siz artıq Moldovada deyil, Moskvada, Tacikistanda olandan, öz xalqı, öz ölkəsi üçün çox iş görmüş fəal insan kimi tanıyıram. Sizin taleyiniz sovet dövrünün sayca çox olmayan - zamanın sınağından çıxa bilən, öz xalqının etimadını itirməyən və yenidən onun etimadını qazanan siyasi xadimlərin taleyidir. Beləsi az olubdur. Çoxları elə o tayda da qalmışdır. Siz, sayca az olanlardan birisiniz. Bu, da ona görədir ki, siz öz xalqınıza, vətəninizə, öz doğma torpağınıza bütün dövrlərdə vicdanla və sədaqətlə xidmət etmisiniz. Bu, böyük səadətdir.

Bu gün Azərbaycana sizin rəsmi səfəriniz başlanmışdır. Biz sizinlə dövlətlərarası münasibətlərimizin bir sıra çox mühüm məsələlərini artıq müzakirə edə, beynəlxalq həyatın bir çox məsələlərinə, Moldovada və Azərbaycanda dövlət quruculuğu təcrübəsinə dair fikir mübadiləsi apara bilmişik. Mən belə bir imkandan şadam, ona görə ki, Moldova da, Azərbaycan da eyni keçid mərhələsini yaşayır, sizin burada düzgün dediyiniz kimi, çox oxşar problemlərlə, çətinliklərlə qarşılaşır, demək olar, eyni məsələləri həll edirlər.

Mən Moldovada baş verən proseslər haqqında sizin çıxışınızı, müstəqil Moldova dövləti quruculuğu haqqında düşüncələrinizi, demokratiya, siyasi həyat və Moldovada iqtisadi quruculuq barədə fikirlərinizi və düşüncələrinizi böyük diqqətlə dinlədim. Bütün bunlar çox maraqlıdır və hesab edirəm ki, sizin bugünkü çıxışınız da, sonrakı görüşlərimiz də bizim hamımıza Moldovada milli dövlət quruculuğu təcru-

bəsi haqqında daha çox şey öyrənməkdə kömək edəcəkdir. Azərbaycanda nə baş verdiyini sizə danışacağıq, siz özünüz görəcəksiniz. Şübhəsiz ki, bu fikir və təcrübə mübadiləsi uğurla irəliləməyimizə kömək göstərəcəkdir.

Bəli, oxşar problemlər bizdə haqiqətən çoxdur. Onlardan Azərbaycan üçün ən mürəkkəbi Ermənistan Respublikası [234-235] tərəfindən Azərbaycana qarşı təcavüzlə, bu təcavüzün nəticələri ilə bağlı olan problemlərdir. Nəticələr isə belədir ki, müxtəlif səbəblərlə erməni silahlı birləşmələri Azərbaycan ərazisinin 20 faizini işğal etmiş, işğal olunmuş torpaqlardan bir milyon nəfərdən çox sakini qovub didərgin salmışdır. Onlar artıq beş ildən çoxdur olduqca ağır şəraitdə, əksəriyyəti də çadır şəhərciklərində yaşayırlar, Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur. 1994-cü ilin mayında biz müharibəni, qan tökülməsini dayandırmağa müvəffəq olduq. Üç ildən artıq vaxt keçmişdir, lakin hələlik sülh yoxdur və biz Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə hələlik nail ola bilməmişik.

Bu problem, həm bizim tərəfimizdən, həm də ATƏT-in Minsk qrupu, onun həmsədrləri - Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa tərəfindən həyata keçirilən tədbirlər sizə məlumdur. Biz inanırıq ki, dinc yolla problemi həll edəcək, Azərbaycanın işğal olunmuş torpaqlarını Ermənistan silahlı qüvvələrindən azad edəcək, qaçqınları öz yaşayış yerlərinə qaytaracaq, Azərbaycanın sərhədini və ərazi bütövlüyünü bərpa edəcək, Ermənistanla möhkəm, uzunmüddətli sülh yaradacağıq.

Mən dəfələrlə bildirmişəm və bu gün, burada, Bakı Dövlət Universitetində, Moldova prezidentinin yanında bir daha deyirəm ki, biz münaqişəni dincliklə aradan qaldırmaq, Ermənistanla, eləcə də bizi əhatə edən bütün ölkələrlə sülh və mehriban qonşuluq münasibətləri yaratmaq mövqelərində möhkəm dayanmışıq. İnanıram ki, gün gələcək biz bütün bunların reallığa çevriləcəyinin şahidi olacağıq.

Sizin Pridnestrovye problemi də bizə yaxşı məlumdur. Bilirik ki, sizdə də ərazi bütövlüyü pozulub. Bilirik ki, Pridnestrovye müstəqillik tələb edir, Moldovadan ayrılmaq istəyir. Biz Moldova üçün də, Azərbaycan üçün də, dünyanın hər hansı ölkəsi üçün də hər bir dövlətin, hər bir ölkənin [235-236] suverenliyi, ərazi bütövlüyü prinsipini əsas tuturuq. Bu beynəlxalq hüquqi prinsipə hamı üçün əməl edilməlidir və heç kəs üçün istisna olmamalıdır ki, görürsünüzmü, guya belə düşünmək olar ki, Moldovada, Azərbaycanda separatçılıq olmuşdur. Belə düşünənlər və keçmiş Sovet İttifaqının ərazisində bu münaqişələrin baisləri Azərbaycan, Moldova xalqları qarşısında, digər ölkələrin xalqları qarşısında çox ağır cinayət törətmişlər. O xalqlar bu münaqişələrdən, separatçılıqdan və bundan əzab-əziyyət çəkirlər ki, hansısa qüvvələr haradasa ərazinin hər hansı bir hissəsini qoparmaq və müstəqillik almaq istəyirlər. Biz bununla heç vaxt razılaşmayacağıq. Biz 1996-cı ildə ATƏT-in Lissabon zirvə toplantısında qəbul olunmuş prinsipləri Ermənistan-Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ münaqişəsinin dincliklə aradan qaldırılması üçün əsas prinsiplər kimi elan etmişik. Söhbət Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasından və Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində ən yüksək özünüidarə statusu verilməsindən gedir. Biz heç vaxt razılaşmarıq ki, Azərbaycan ərazisində daha bir erməni dövləti yaradılsın. Bununla Dünya Birliyi də razılaşmaz. Beynəlxalq hüquq nəinki Azərbaycan barəsində, həm də Yer kürəsinin hər hansı digər ölkəsi barəsində belə hala yol verə bilməz.

Bizdə çoxlu digər olduqca oxşar problemlər də var. Siz onlardan çox düzgün, yaxşı və ətraflı danışdınız. Mən də bu barədə danışıb vaxtınızı almaq istəmirəm. Yalnız demək istəyirəm ki, Azərbaycan öz dövlət müstəqilliyni möhkəmlətmək, hüquqi, demokratik, dünyəvi dövlət qurmaq, bazar iqtisadiyyatı prinsiplərini bərqərar etmək, xarici sərmayələr üçün açıq olmaq, dünyanın bütün ölkələri ilə xoş, qarşılıqlı surətdə faydalı münasibətlər yaratmaq mövqelərində qətiyyətlə dayanmışdır. Qarşılaşdığımız bir sıra çətinliklərə baxmayaraq, ötən illər ərzində biz çox işlər görmüşük. İndi [236-237] Azərbaycan müstəqil dövlət kimi ayaq üstündə möhkəm dayanan və öz suverenliyinin, öz dövlət müstəqilliyinin, öz milli azadlığının keşiyində möhkəm dayanan bir dövlətdir. Bu, olduqca böyük nailiyyətdir və biz bununla fəxr edirik.

İqtisadi problemlər tədricən həll edilir, həyata keçirilmiş olan, həyata keçirilən və yaxın illərdə həyata keçiriləcək iqtisadi islahatlar iqtisadiyyatı, şübhəsiz, indiki vəziyyətdən çıxarıb daha yüksək səviyyəyə qaldıracaq və bütün Azərbaycan vətəndaşlarının həyat və fəaliyyəti üçün daha əlverişli şərait yaradacaqdır.

Azərbaycan çoxmillətli ölkədir. Bu gün hörmətli Petru Luçinski Moldovadan, bu ölkədə dinclik və həmrəylik şəraitində yaşayan müxtəlif millətlərin nümayəndələrindən danışdı. Zənnimcə, biz hamımız belə bir məlumatı böyük məmnunluq hissi ilə qarşıladıq ki, Moldovada azərbaycanlılar da yaşayır, onlar bu respublikanın vətəndaşları olmuşlar, öz cəmiyyətinə malikdir, Azərbaycan icmasının rəhbəri Dövlət Departamentində çalışır. Açığını deyim ki, bu, bizim üçün xoş bir haldır. Biz milliyyətindən asılı olmayaraq, bütün Moldova vətəndaşlarına, o cümlədən Moldovada yaşayan və onun vətəndaşları olan azərbaycanlılara sülh, firavanlıq, xoşbəxtlik arzulamaq istəyirik.

Azərbaycan da öz çoxmillətliliyi ilə fərqlənir. Burada bir çox millətlərin, xalqların nümayəndələri vahid ailədə yaşayırlar, onların hamısı bərabər hüquqlara malikdir, onların hamısı Azərbaycanın tam hüquqlu vətəndaşıdır və yeni müstəqil Azərbaycan Respublikasının nemət və sərvətlərindən bəhrələnirlər. Biz hər şey edirik ki, müxtəlif xalqların, millətlərin nümayəndələri birlikdə mehriban yaşadıqları bir vaxtda Azərbaycanın bu ənənələri qorunub saxlanılsın və möhkəmlənsin. Yeri gəlmişkən, bu da sivilizasiya-

nın çox mühüm cəhətidir, belə bir halı səciyyələndirən mühüm amildir [237-238] ki, Azərbaycanda dünyəvi, sivilizasiyalı cəmiyyət, dövlət mövcuddur və qurulur.

Hesab edirəm ki, Moldova prezidentinin Azərbaycanda olması proqramının başlanğıcı olan bugünkü görüş Moldova prezidentinin Azərbaycana ilk rəsmi səfərinin uğurla keçməsi üçün yaxşı zəmindir. Əminəm ki, bu səfər uğurla keçəcək, çünki böyük hazırlıq işi görülmüş, çox mühüm dövlətlərarası, hökumətlərarası sənədlər hazırlanmışdır, ən başlıcası isə bugünkü və gələcək həyatımıza münasibətlərimizdə, baxışlarımızda ümumi cəhətlər olduqca çoxdur. Ən əsası isə budur ki, Moldova da özünün dövlət müstəqilliyini, demokratiyanı möhkəmləndirir və inkişaf etdirir, Azərbaycan da öz dövlət müstəqillyini, demokratiyanı möhkəmləndirir və inkişaf etdirir. Hesab edirəm ki, biz bu prinsiplər əsasında bundan sonra da fəal əməkdaşlıq edəcəyik. İqtisadiyyat, elm, mədəniyyət və şübhəsiz ki, təhsil sahələrində əməkdaşlıq üçün çox böyük imkanlar var. Mən hesab edirəm ki, universitetlərimiz, bütün ali təhsil müəssisələri əməkdaşlığımızın fəal iştirakçıları ola bilər.

Pyotr Kirilloviç, bugünkü hadisə münasibətilə sizi bir daha təbrik etmək, sizə cansağlığı və xoş həyat arzulamaq istəyirəm. İnanıram ki, bugünkü hadisə - sizə Bakı Dövlət Universitetinin fəxri doktoru adının verilməsi - sizi həm universitetlə, həm də Azərbaycanla çox möhkəm bağlamışdır. Sizə cansağlığı və xoşbəxtlik arzulayıram. [238]

## İKİTƏRƏFLİ SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ BAŞA ÇATDIQDAN SONRA AZƏRBAYCAN VƏ MOLDOVA PREZİDENTLƏRİNİN BƏYANATLARI VƏ BİRGƏ MƏTBUAT KONFRANSI

*Prezident sarayı*

*27 noyabr 1997-ci il*

### AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

Hörmətli cənab prezident!

Möhtərəm qonaqlar, xanımlar və cənablar!

Dünən Moldova Respublikası prezidentinin Azərbaycana rəsmi səfəri başlanmışdır. Bu, müstəqil Moldova prezidentinin Azərbaycan Respublikasına ilk rəsmi səfəridir. Ötən vaxt ərzində biz böyük və səmərəli iş apardıq. Moldova prezidenti Petru Luçinski ilə Azərbaycan prezidenti arasında görüş oldu, Bakı Dövlət Universitetində Moldova prezidentinə fəxri elmlər doktoru adı verilməsi mərasimi keçirildi, Moldova prezidenti Azərbaycan parlamenti ilə görüşdü, iki prezident saatlarla dostcasına söhbət etdi, nəhayət, bu gün Moldova Respublikasının və Azərbaycan Respublikasının nümayəndə heyətləri arasında danışıqlar aparıldı.

Bütün söhbətlər, danışıqlar dostluq, qarşılıqlı anlaşma, bir-birinə səmimi hisslər şəraitində keçir. Hesab edirəm ki, biz Azərbaycan-Moldova münasibətlərində böyük və səmərəli iş gördük. [239-240]

Bir az əvvəl biz 15 dövlətlərarası, hökumətlərarası sənəd imazaladıq. Onlar fəaliyyətin bir çox sahələrini əhatə edir və bu sahələrdə əməkdaşlığı təmin edir. Biz başlıca sənədi - Moldova Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə imzaladıq. Bu, bizim müstəqil dövlətlərimiz arasında ilk müqavilədir. Bu gün imzalanmış qalan bütün sənədlər də ilk dövlətlərarası, hökumətlərarası sənədlərdir.

Dövlətlərimiz 1992-ci ildən diplomatik münasibətlərə malik olsalar da və bu illər ərzində onların arasında xoş, yaxşı münasibətlər və bir çox sahələrdə əməkdaşlıq olsa da, biz belə yüksək səviyyədə ilk dəfə görüşdük, ilk dəfə belə ətraflı danışıqlar apardıq, ilk dəfə mühüm sənədlər imzaladıq. Elə sənədlər ki, onlar gələcəkdə Moldova Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin yaxşı müqavilə-hüquqi bünövrəsini qoymuşdur.

Bu sənədlərdəki bir çox mühüm müddəalar bizə əməkdaşlığımızı, dövlətlərimiz və xalqlarımız arasında dostluğu möhkəmlətməyə və inkişaf etdirməyə kömək edəcəkdir. Bu sənədlər nəinki Petru Luçinskinin Azərbaycanda olduğu müddətdə, həm də onun səfərindən əvvəlki vaxtda görülmüş böyük işin nəticəsidir. Bu sənədlərdə ikitərəfli münasibətlər sahəsində, dünyada baş verən proseslər barəsində həm Moldovanın, həm də Azərbaycanın prinsipial mövqelərini əks etdirilir. Başlıcası isə budur ki, əsas sənəddəki müddəa ölkələrimizin dövlət müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü daha da möhkəmlətmək və inkişaf etdirmək baxımından Moldova üçün də, Azərbaycan üçün də çox vacibdir.

Bunun çox böyük əhəmiyyəti var ki, ölkələrimiz arasında dostluq və əməkdaşlıq haqqında müqavilədə ərazi bütövlüyü, suverenlik, separatizmə, terrorizmə qarşı mübarizə, hər bir ölkənin, hər bir dövlətin suveren hüquqlarına hörmət edilməsi [240-241] kimi beynəlxalq hüquq normalarının müddəaları və bir çox digər cəhətlər öz əksini tapmışdır.

Söhbətlərimiz və danışıqlarımız zamanı biz dünyada baş verən proseslərlə bağlı, Moldova ilə Azərbaycanın dövlətlərarası münasibətlərinə, beynəlxalq təşkilatlarda, o cümlədən Müstəqil Dövlətlər Birliyində iştirakımıza aid, demək olar, bütün məsələlərdə baxışlarımızın uyğun gəldiyini aşkara çıxardıq. Bu, çox vacibdir.

Danışıqlar və söhbətlər zamanı biz Moldovada və Azərbaycanda milli dövlət quruculuğu təcrübəsi barədə, ölkələrimizdə demokratikləşdirmə prosesləri barədə, bazar iqtisadiyyatının prinsiplərinin bərqərar edilməsi üçün iqtisadi islahatların həyata keçirilməsi barədə də fikir mübadiləsi apardıq. Biz hər iki ölkə üçün çox mühüm bir məsələ - ərazi bütövlüyü, bir-birinə qarşı güc işlədilməsinin, hər hansı ölkənin ərazi və sərhədlərinin zor gücünə dəyişdirilməsinin yolverilməzliyi məsələsi barədə fikir mübadiləsi etdik. Bu məsələlərdə, xüsusən də həm Azərbaycan, həm də Moldova dövlət müstəqilliyi əldə etdikdən sonra onların qarşılaşdıqları münaqişələrin həlli məsələsində tam yekdil rəydə olduq.

Məlumdur ki, Azərbaycan Dağlıq Qarabağı onun tərkibindən qoparmaq məqsədi ilə Ermənistanın ölkəmizə qarşı təcavüzü nəticəsində Ermənistanla hərbi münaqişə vəziyyətindədir. Moldovada isə Pridnestrovyedə vəziyyətlə əlaqədar münaqişə yaranmışdır. Orada da, burada da ölkələrimizin ərazi

bütövlüyü pozulmuşdur. Hamıya məlumdur ki, Azərbaycanda erməni silahlı birləşmələri ərazilərimizin 20 faizini işğal etmiş, qəsb olunmuş torpaqlardan bütün azərbaycanlılar, bu rayonların sakinləri, - onlar isə bir milyon nəfərdən artıqdır, - qovulub didərgin salınmışdır. Qaçqınlar ağır şəraitdə, çadırlarda yaşayırlar.

Əlbəttə, Pridnestrovyedə baş verən hadisələr Moldovanın da suverenliyini və ərazi bütövlüyünü pozur. Buna görə də biz [241-242] bu məsələlərə xüsusi diqqət yetirdik. Təkrar edirəm, biz tamamilə yekdil rəydəyik ki, bu məsələlər dinc yolla, danışıqlar yolu ilə həll edilməlidir, lakin onlar istər Azərbaycanda, istərsə də Moldova Respublikasında suverenliyin, ərazi bütövlüyünün tamamilə bərpa olunması şəraitilə büsbütün və qəti şəkildə həll edilməlidir.

Bir çox digər məsələlər də müzakirə, fikir mübadiləsi, danışıqlar mövzusu oldu. Başlıcası budur ki, Moldova prezidentinin Azərbaycana ilk rəsmi səfəri baş tutdu, səfər uğurla keçir, biz mühüm sənədlər imzaladıq və bütün bunlar müstəqil dövlətlərimizin tarixində, Moldova ilə Azərbaycan arasında münasibətlərin tarixində çox mühüm bir mərhələnin başlandığını göstərir.

Əminəm ki, imzaladığımız sənədlər, Azərbaycan və Moldova tərəfindən həyata keçiriləcəkdir və biz daha da irəliləyərək iqtisadiyyat, elm, mədəniyyət, insani, humanitar münasibətlər sahəsində, bütün digər sahələrdə çoxcəhətli əməkdaşlıq edəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm. Sözü dostum, Moldova prezidenti cənab Petru Luçinskiyə verirəm.

## MOLDOVA PREZİDENTİ PETRU LUÇİNSKİNİN BƏYANATI

Hörmətli cənab prezident!

Xanımlar və cənablar!

Cənab Azərbaycan prezidenti gün yarım–iki gün ərzində baş verənlərin, demək olar, hamısını şərh etdi. Mən baş verən bütün hadisələrdə şəxsən iştirak etdiyimə görə ilk növbədə prezidentə, habelə bu sənədlər üzərində işləmiş insanlara təşəkkür etmək istərdim. Sizi inandırıram ki, gələcək münasibətlərimizin bünövrəsini qoyan dostluq və əməkdaşlıq [242-243] haqqında əsas müqavilə ilə birlikdə 14 sənədin imzalanması ölkələr arasında o qədər də tez-tez rast gəlinən hadisə deyildir. Bunlar hamısı çox aydın şəkildə göstərir ki, dostluq əsasında əməkdaşlığımızı həyata keçirmək üçün maliyyə sahəsindən tutmuş mədəniyyətə, gənclərə, sosial problemlərədək həyatımızın bütün sahələrində zəmin var. Sənədlərin adları da münasibətlərimizin çoxcəhətli olduğunu göstərir.

Çox şadam ki, prezidentlərdən tutmuş iqtisadi agentlərədək bütün səviyyələrdə Moldova ilə Azərbaycan arasında belə münasibətlər yaranır. Problemlərin müzakirəsinin necə keçməsi – bizim nümayəndə heyətimiz bundan razıdır, – bu qədər sayda sənədin imzalanması faktı da göstərir ki, bunların həyata keçirilməsi üçün qüvvə və imkanlarımız var.

Şübhəsiz ki, qarşıda böyük iş durur. Zənnimcə, biz bu sazişlərin həyata keçirilməsinə kömək edəcək mexanizmi, vasitəni tapacağıq. Bunlar xüsusilə indi, bazar münasibətləri şəraitində işlədiyimiz vaxtda və təkcə dövlətlərarası və hökumətlərarası müqavilələrin, münasibətlərin qüvvədə olduğu deyil, həm də bir çox xüsusi şirkətlərin işlədiyi bir vaxtda vacibdir. Qanunvericilik bazası olmadan, dövlətlər arasında müvafiq mühit yaradılmadan həmin şirkətlərin əməkdaşlıq etməsi çox çətindir. Bu şirktələr işləmədən, onlardan real nəticə almadan indi biz əslində qarşılıqlı investisiyaların mümkünlüyünü təsəvvür edə bilmərik.

Şübhəsiz, Azərbaycanın Avropaya daxil olmaq, inteqrasiya etmək səyi və buna real imkanın olması bizi xeyli dərəcədə yaxınlaşdırır. Dünyanın ən böyük şirkətlərinin iştirak etdikləri «Əsrin müqaviləsi»nin üç il sonra nəticələrini bayram etməyinizdən bir neçə həftə sonra, burada mənə bildirdikləri kimi, bizim səfərimizin sizin ölkənizə dövlət başçısının ilk rəsmi səfəri olması faktının özü də çox rəmzidir. Xüsusən də ona görə ki, Moldova hər hansı ciddi enerji mənbələrindən məhrumdur və biz bu mənada da bir-birimizlə bağlıyıq. [243-244] Üstəlik, layihələr Azərbaycan neftinin Avropaya, o cümlədən onun Moldovanın yerləşən hissəsinə çatdırılmasını nəzərdə tutur.

Bir sözlə, görülmüş işdən çox böyük məmnunluq duyduğumu söyləyir və əmin olduğumu bildirmək isətyirəm ki, imzalanmış sənədlərin həyata keçirilməsi və hələ nəzərdə tutulan bəzi sənədlərin hazırlanması ilə bağlı qarşıdakı mərhələ uğurlu olacaqdır.

Diqqətinizə görə təşəkkür edir və sizə müvəffəqiyyətlər arzulayıram. Sağ olun.

**S u a l: Cənab Luçinski, danışıqlarınızın neftlə bağlı cəhətinə toxunaraq dəqiqləşdirmək istərdim: Moldova Azərbaycan neftinin nəqli üçün öz ərazisini tranzit kimi təklif edirmi? Əgər təklif edirsə, onda bu o deməkdirmi ki, boru kəməri onun ərazisindən keçəcək və ya siz neftin göndərilməsi üçün alternativ mexanizmlər təklif edirsiniz?**

**P e t r u  L u ç i n s k i:** Biz nəinki razıyıq, hətta bu barədə Strasburqda qabaqcadan danışmışıq. İndi təsdiqləyirəm, bizim bunda marağımız var ki, Avropaya əsas magistral çəkilərkən o, Moldovadan da keçsin, çünki bu, səmərəlidir, daha yaxın yoldur. Biz Dunay çayı sahilində terminal tikirik. Əslinə qalsa,

o, nefti öz rezervuarlarımıza vurmaq üçün nəzərdə tutulmuşdur. Qara dəniz açıq dənizdir. Biz Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında da əməkdaşlıq edirik. Buna görə də bunlar iki alternativ variantdır. Bizim üçün hər ikisi əlverişlidir. Biz maliyyə məsələlərində də iştirak etməyə hazırıq. Hansı səviyyədə və hansı dərəcədə - bunu layihəçilər müəyyənləşdirməlidir. Bu, danışıqların mövzusudur. Lakin bizim burada da rəylərimiz tam uyğun gəlir. Hər şey real iqtisadi imkanlardan asılıdır.

**S u a l: Mənim birinci sualım Moldova prezidentinədir. Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova dördlər qrupu - GUAM yaratmışlar. Rusiya, Belarus, Qırğızıstan, Qazaxıstan** [244-245] **gömrük ittifaqı yaratmışlar. Bu strukturlar arasında nə kimi ümumi cəhətlər var və onlar nə ilə fərqlənir? Belə formal və ya qeyri-formal təşkilatların yaradılması MDB-nin həyati qabiliyyətinə inamsızlığa reaksiya deyilmi?**

**P e t r u  L u ç i n s k i:** «Marşall planı» adının necə yarandığını xatırlayıram. Onun müəllifi əslində Trumendir. Lakin müzakirə zamanı birinciliyi o vaxtkı dövlət katibi Marşalla verməyi qərara aldılar. Planı işləyib hazırlamaq ona tapşırılmışdı. Bizdə də GUAM adının müəlliflərindən biri cənab Həsənovdur.

Bu, adi bir dünya təcrübəsidir. Ölkələr öz mənafelərini həyata keçirmək yollarını axtarır. İndiki halda bunu MDB ilə qarışdırmaq olmaz. Biz bu barədə Azərbaycan prezidenti ilə danışdıq və indi öz rəyimi deyirəm. Hesab edirəm ki, MDB dövlət başçılarının yanvarın 23-nə təyin olunmuş görüşündə biz elə bir sənəd işləyib hazırlamalıyıq ki, burada MDB-yə daxil olan bütün 12 ölkənin öhdəliklərinin minimum miqdarı nəzərdə tutulsun və bu öhdəliklərlə onların hamısı razılaşsın, sənədi öz parlamentlərində təsdiqləsinlər. Bu, qanun olardı. Bu və ya digər dövlətlərin ikilikdə, üçlükdə, dördlər səviyyəsində yaxınlaşmasına aid qalan hər şey MDB hüdudlarından kənara çıxır.

İndi dünya elə qurulmuşdur və elə dəyişkəndir ki, hər bir ölkə haradasa öz maraqlarını tapır. Bu, xüsusən də əhalisi az olan ölkələrə aiddir. Biz özümüzü də bu ölkələr sırasına aid edirik və belə ölkələr dünyada çoxdur. Buna görə də GUAM-ın yaradılması siyasi cəhətlərdən tutmuş, - məsələn, Azərbaycan artıq Moldovanın üzv olduğu Avropa Şurasına daxil olmalıdır və biz Azərbaycanın bu təşkilata tezliklə daxil olmasına kömək göstərmək üçün mümkün olan hər şeyi edəcəyik, - ölkənizin öz nefti ilə Avropaya iqtisadi cəhətdən daxil olmasınadək həmin ölkələrin bütün maraqlarını birləşdirmək cəhdlərindən biridir. Moldova da bu yoldadır. [245-246] Biz bir vaxtlar Sovet İttifaqının tərkibində idik, bir-birimizi yaxşı tanıyırıq, ona görə də kömək etmək və bu hadisənin iştirakçısı olmaq niyyətindəyik.

**S u a l: Mənim sualım Azərbaycan prezidentinədir. Həm Moldovada, həm də Azərbaycanda millətlərarası münaqişələr, separatizmə qarşı mübarizənin ümumi problemləri göz qadağındadır. Siz - iki lider öz dövlətlərinizin ərazilərində bu problemləri həll etmək üçün beynəlxalq aləmdə səylərinizi birləşdirmək niyyətindəsinizmi? Ərazilərimizdə millətlərarası münaqişələrin həllində GUAM strukturu nə kimi rol oynaya bilər?**

**H e y d ə r  Ə l i y e v:** Bilirsiniz, GUAM - a daxil olan ölkələr məhz bu münaqişələrdən əziyyət çəkən ölkələrdir. Azərbaycanda, yəni Ermənistan ilə bizim respublikamız arasında münaqişə var, Gürcüstanda münaqişə var, Moldovada Dnestryanı bölgə ilə bağlı münaqişə var, Krımla əlaqədar Ukraynada böyük gərginlik və böyük mürəkkəb problem var. Yəni bizi müəyyən dərəcədə talelərimizin ümumiliyi və qarşılaşdığımız məsələlərin, problemlərin eyniliyi bağlayır. Şübhəsiz ki, GUAM çərçivəsində və ikitərəfli münasibətlərimizdə, məsələn, Moldova ilə Azərbaycan arasında, Gürcüstan ilə Azərbaycan arasında münasibətlərdə biz bu münaqişələri aradan qaldırmağın yollarını axtaracağıq. Yeri gəlmişkən deyim ki, dünənki və bugünkü söhbətlərimiz, yəni Moldova və Azərbaycan prezidentlərinin söhbətləri zamanı biz Qafqazda, Zaqafqaziyada vəziyyətin təhlilinə, Ermənistan–Azərbaycan münaqişəsinin, Dnestryanı bölgədəki münaqişənin tarixinin və bugünkü vəziyyətinin təhlilinə xeyli diqqət yetirmişik. Ona görə də əslində həyatın özü bizi məcbur edir ki, öz səylərimizi bir növ əlaqələndirək və birləşdirək. İndi GUAM kimi təşkilat yaratmağımız, zənnimcə, bizə kömək edəcəkdir. [246-247]

**P e t r u  L u ç i n s k i:** Mümkündürsə, mən deyilənlərə əlavə edim. Səciyyəvi haldır ki, biz bir neçə saat çəkən söhbətlərimiz zamanı çox məsələlərə toxunduq, amma bir dəfə də olsun «zorakarlıq», «müharibə» və sairə kimi sözlər səslənmədi. Biz həmişə ölkələrimizdəki münaqişələrin sülh yolu ilə aradan qaldırılmasının yolları haqqında danışır və bu vəziyyətdən çıxmağın çarələrini, variantlarını axtarırdıq.

**S u a l: Cənab prezident Luçinski, siz Bakının NATO kontekstində təklif etdiyi 16 + 4 düsturuna necə baxırsınız? Bu istiqamətdə sonrakı addımlar necə olacaq? Bununla əlaqədar Moldova nəyə hazırdır?**

**P e t r u  L u ç i n s k i:** Deyim ki, Moldova hələ bu işdə iştirak etməyə hazır deyildir, çünki bizim ölkənin öz xüsusiyyəti var. Əgər beynəlxalq birliyin razılığı ilə hansısa addımlar atılarsa, yəni hər hansı birgə sülhyaratma qüvvələri batalyonunun yaradılmasından söhbət gedirsə və buna BMT razılıq verərsə, onda bu, bir vəziyyətdir. Lakin biz bu baxımdan hansısa hərbi tədbirlərin təşəbbüsçüsü kimi çıxış etmirik. Biz ilk növbədə iqtisadi, mədəni və digər əməkdaşlığa diqqət yetiririk.

**S u a l: Cənab Azərbaycan prezidenti, mənim sualım Sizədir. GUAM-ın yaradılması Rusiyada və birliyin üzvü olan digər dövlətlərdə açıq narazılıq doğurmazmı? Siz Rusiyanın Ermənistanla imzaladığı müqavilə haqqında danışdınız.**

**H e y d ə r  Ə l i y e v:** Bunlar başqa - başqa şeylərdir. Biz GUAM-da belə müqavilələr, sazişlər imzalamamışıq. Avqustun 29-da Rusiya Ermənistanla dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə imzalamışdır. Prinsip etibarilə müqavilə normaldır, biz də Rusiya ilə dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə imzalamışıq. Biz Rusiya ilə Ermənistan arasında fəal hərbi əməkdaşlığı, o cümlədən Ermənistanın ərazisində Rusiya hərbi bazalarının yerləşdirilməsini, Ermənistan ərazisindən [247-248] hərbi məqsədlər üçün fəal istifadə olunmasını nəzərdə tutan bəndlər barəsində öz münasibətlərimizi birldirmişik. Nəzərə alın ki, Ermənistandakı Rusiya silahlı qüvvələrinin şəxsi heyətinin də təxminən 70 faizi ermənilərdən ibarətdir. Sənəddə hətta birgə silah, hərbi sursat və sairə istehsalını nəzərdə tutan bəndlər də var. Biz Rusiya ilə Ermənistan arasında müqavilənin bu müddəaları ilə razılaşmadığımızı bildirmişik. GUAM-da isə belə müddəalar yoxdur. Ona görə də bunlar tamamilə başqa-başqa şeylərdir.

**S u a l: Sual prezident Luçinskiyədir. «Dördlərin Strasburq rəsmi məlumatı»nın müəlliflərindən biri kimi sizin Ermənistanın hərbiləşdirilməsi və Ermənistana Rusiya tərəfindən hərbi texnika göndərilməsi faktı barədə rəyinizi və qiymətinizi öyrənmək maraqlı olardı.**

**P e t r u  L u ç i n s k i:** Hesab edirəm ki, MDB çərçivəsində münasibətlər ən əvvəl açıq və səmimi olmalıdır. Bu ilin martında biz Moskvada görüşərkən mən həmin suala mətbuat konfransında təxminən cavab verdim. Dedim ki, MDB-də təminat verilmiş iki cəhət olmalıdır: iqtisadiyyat işləməlidir və münaqişələr aradan qalıdırılmalıdır. Bu halda MDB həyat qabiliyyətinə malik təşkilat olar. Buna görə də hər hansı gizli danışıqları qəbul etmirəm. Məsələn, Ermənistanla Rusiya arasında müqavilənin cəhətlərindən danışa bilmərəm. Bundan yalnız mətbuatdan, burada, Azərbaycandan aldığım informasiyadan xəbərim var. Lakin hesab edirəm ki, çıxış yolunu hərbiləşdirmədə deyil, münaqişəni dincliklə aradan qaldırmaqda axtarmaq lazımdır. Bundan ötrü nüfuzlu ölkələri cəlb etmək daha yaxşıdır. Onlar hərbiləşdirmədə deyil, bu münaqişənin həllində öz sanballı sözünü deyə bilərlər. Bu, ümumi konsepsiyadır.

**S u a l: Mənim sualım Azərbaycan prezidentinədir. Möhtərəm prezident, noyabrın 12-də Ermənistan prezidenti Ter-Petrosyan mərasimlərdən birində çıxış edərkən Dağlıq** [248-249] **Qarabağ münaqişəsinin nəticələri barədə bu fikirləri söyləyib: iqtisadiyyatımız yoxdur, bütün dünya bizim əleyhimizədir. Bu, mövcud reallığın və Azərbaycan tərəfinin konstruktiv mövqeyinin ifadəsi kimi qiymətləndirilə bilərmi və bu, Kopenhagen görüşünə necə təsir göstərə bilər?**

**H e y d ə r  Ə l i y e v:** Bilirsinizmi, bu, Ermənistanın özünün işidir və Ermənistan prezidentinin özünün fikridir. Bunu Azərbaycanla bağlamaq lazım deyil. Ermənistan prezidenti ilk dəfə olaraq Ermənistanın indiki, müasir vəziyyətini və xüsusən Azərbaycanla Ermənistan arasında mövcud olan münaqişə ilə əlaqədar, onların dediyi kimi, Dağlıq Qarabağ problemi ilə əlaqədar olaraq Ermənistanın vəziyyətini təhlil edibdir, həm iqtisadi vəziyyəti, həm də siyasi vəziyyəti. Bir də ki, o öz fikirlərini bildiribdir. Mən hesab edirəm ki, Ter-Petrosyan son illər, - hər halda mən müşahidə etdiyim zamanı deyirəm, - ilk dəfədir ki, reallığa söykənən obyektiv bir bəyanat veribdir, həm Ermənistanın indiki vəziyyəti haqqında, həm də o münaqişənin sülh yolu ilə həll olunması haqqında. Bunu mən müsbət qiymətləndirirəm. Bunu da Azərbaycanla əlaqələndirmək lazım deyil, çünki bilirsiniz ki, Ermənistanın özü bu təcavüzü başlayıbdır, Ermənistanın silahlı qüvvələri Azərbaycanın torpaqlarını işğal edibdir, Ermənistan təcavüzkardır. Buna görə də indi onların özləri öz vəziyyətini əgər indi bu cür təhlil edirlərsə, bu, müsbət haldır.

**S u a l: Mənim sualım hər iki prezidentədir. Siz Transqafqaz dəhlizi layihəsində Moldovanın iştirakı məsələsini müzakirə etdinizmi?**

**P e t r u  L u ç i n s k i:** Əlbəttə, müzakirə etdik. Hərçənd bu layihə hələ axıradək işlənib hazırlanmayıb. Layihəçilər bir yerə toplaşacaqlar. Biz də razılaşdıq ki, orada Moldovanın nümayəndəsi də iştirak etsin. Çünki layihəyə Gürcüstandan sonra Ukrayna, Moldova, onların ardınca bir çox maraqlı [249-250] tərəflər - Rumıniya, Türkiyə, Bolqarıstan, İtaliya daxil olurlar. Demək istəyirəm ki, bu, çox uzun bir yoldur. Bizim üçün əhəmiyyətli olardı ki, dost bir ölkə kimi Azərbaycan bizim ideyamızı dəstəkləsin və hər hansı bir formada təkid etsin ki, boru kəməri Moldovadan da keçsin.

**H e y d ə r  Ə l i y e v:** Biz bu ən böyük məsələlərdən birini müzakirə etdik və Moldovanın bütün bu prosesdə yaxından iştirakı üçün imkanları axtarıb tapmağa çalışdıq və çalışırıq. Biz buna nail olmağa çalışacağıq.

**S u a l: Cənab Luçinski, siz MDB ölkələrinin minimal öhdəlikləri dedikdə nəyi nəzərdə tuturdunuz?**

**P e t r u  L u ç i n s k i:** Məsələ burasındadır ki, MDB ölkələrindən hər biri ağır iqtisadi vəziyyətdədir. Buna görə də onlardan hər hansı birisinin başqasının hesabına udması mümkün deyildir. Odur ki, biz kiçikdən, deyək ki, azad ticarət rejimindən əməkdaşlıq etməyə başlamalıyıq, amma elə prinsiplərlə ki, bu prinsiplər hamını razı salsın. Mən Avropa Birliyi ilə analogiya gətirdim. O, əvvəlcə gömrük ittifaqı adlanırdı, 22 il belə olmuşdur, sonra bir neçə il Ümumi bazar adlandırıldı. Maraqlıdır ki, Benillüks ölkələri - Belçika, Niderland, Lüksemburq Ümumi bazar çərçivəsində fəal əməkdaşlıq edirdi və bu heç kəsi qıcıqlandırmırdı. Biz Sovet İttifaqını dərhal, tələm-tələsik, hər hansısa bir formada geri qaytarmaq istəyirik. Bu, müstəqil dövlətlərin hissləri, reallığı ilə ziddiyyət təşkil edir. Öz müstəqilliyini itirmək qorxusu var. Buna görə də belə mərkəzəqaçan hərəkətlər yoxdur. Əgər biz adamların, kapitalın sərbəst hərəkəti üçün,

azad ticarət rejiminin həyata keçirilməsi üçün şərait yaratsaq, onda iş gedər. Qalanlarını təkcə siyasətçilər deyil, adamlar özləri həll etməlidirlər. Siyasətçilər isə bu problemləri vəziyyət yetişdikcə həll edirlər. [250-251]

**S u a l: Hörmətli prezidentlər, qarşıdakı zirvə toplantısı barədə proqnozlarınız necədir? Belə ki, biz jurnalistlərdə bir-birini istisna edən proqnozlar var.**

**H e y d ə r Ə l i y e v:** Gərək həmişə nikbin olasan.

**P e t r u L u ç i n s k i:** Ümumiyyətlə, Kişinyovda biz belə razılığa gəldik: işçi qrupu, - Kişinyovda biz bu cür qrup yaratdıq, - işləyəcək və azad ticarət rejimi haqqında 1994-cü ildə imzalanmış müqavilə əsasında müvafiq əlavələr və dəyişikliklər ediləcək, hamını qane edən heç olmasa bir sənədin qəbul edilməsinə cəhd göstəriləcəkdir. Zənnimcə, bizə bunu etməyə həyatın özü vadar edəcəkdir. Biz bu prosesdən kənarda qala bilmərik.

**S u a l: Cənab Heydər Əliyevə mənim belə bir sualım var: Siz Kişinyov zirvə toplantısından sonra MDB-yə inanırsınızmı? Düşünrsünüzmü ki, Kişinyov zirvə toplantısına nisbətən yanvarda daha mütərəqqi nəticələr əldə olunacaqdır? Sual prezident Luçinskiyədir: Xəzərin neft ehtiyatları barədə nə kimi ümidləriniz var?**

**H e y d ə r Ə l i y e v:** Mən sualınıza əslində cavab verdim. Gərək həmişə nikbin olasan. Əlavə edim ki, MDB-yə inanıram,deməliyəm ki, Kişinyovda baş vermiş hadisə MDB-nin bütün tarixi ərzində ilk dəfə olmuşdur. Çoxdan vaxtı çatmış açıq, prinsipial və kəskin söhbət getdi. Görünür, bu, labüd idi. Dövlət başçılarının əksəriyyətinin prinsipial, kəskin, tənqidi surətdə çıxış etməsi onu göstərir ki, MDB-də hər şey qaydasında deyildir. Bununla bərabər, bu, o demək deyil ki, hər şey alt-üst olmuşdur. Yox. Bizlərdən hər birinin məqsədi bunları açıq demək idi: bizə nə mane olur, nə üçün MDB tam dəyərli, səmərəli orqan ola bilmir, bunun səbəbi nədir. Bu səbəblər barədə hərə öz fikrini söylədi. Zənnimcə, MDB-nin fəaliyyətini təkmilləşdirməyin real yollarını tapmaq üçün biz bu açıq söhbətdən istifadə edə bilsək, - hökmən istifadə etməliyik, - onda şübhəsiz bu, MDB-nin fəaliyyətinin [251-252] sonu olmayacaqdır. Bəlkə də bu, MDB-nin fəaliyyətinin yeni, daha yetkin mərhələsinin başlanğıcıdır. Biz onu dağıtmaq istəmirik. Biz istəyirik ki, MDB bütün dövlətlərin maraqlarına cavab verən, onlardan hər birinin milli mənafelərini gözləyən, lakin eyni zamanda düzgün istiqamətdə inteqrasiyaya, səylərin birləşdirilməsinə kömək edən bir təşkilata çevrilsin. Mən də belə başa düşürəm ki, vəzifə də məhz bundan ibarətdir. Buna görə də təkrar edirəm, gərək nikbin olasan. Məsələn, mən özüm nikbinəm.

**P e t r u L u ç i n s k i:** Mən də bu mövzuda danışmaq istəyirəm, çünki görürəm ki, o mətbuat üçün çox maraqlıdır. Biz hamımız fəlsəfəni öyrənmişik, kəmiyyət dəyişikliyinin keyfiyyət dəyişikliyinə keçməsinin qanunauyğunluğunu bilirik. Kişinyovda da təxminən bu cür qanunauyğunluq baş verdi. 800-dək sənəd imzalanıb, amma onlar həyata keçirilmir. Açığını deyim ki, biz dövlət başçıları xəcalət çəkirik. Necə deyərlər, «Danimarka krallığında hər şey qaydasında deyildir». Buna görə də belə açıq söhbət getdi ki, bu mexanizmdə nə isə bir şey dəyişdirilsin, o, işləməyə başlasın. Azərbaycan prezidenti doğru deyir ki, biz MDB-ni dağıtmaq istəmirik, çünki adamlar onsuz da bir-birilə bağlı olacaqlar. Dünən biz xatırladıq ki, 12 gün bundan əvvəl Moldova frankofon, yəni fransızdilli ölkələr hərəkatının 50-ci tamhüquqlü üzvü olmuşdur, belə ki, bizim məktəblərin 70 faizində fransız dilini öyrənirlər. Həmin hərəkata Afrika ölkələri, Kanada, Belçika, İsveçrə, bir sözlə, ən müxtəlif dövlətlər daxildir. Təbii ki, biz dünyanın müxtəlif hissələrində fəaliyyət göstərməyə çalışacağıq. Lakin biz uzun illər ərzində birlikdə yaşadığımız ölkələrlə əlaqələri kəsə bilmərik.

İkinci cəhət bundan ibarətdir ki, biz hamımız bir ruhda - kəmiyyət göstəriciləri ruhunda tərbiyə edilmişik. Həyat səviyyəsinin göstəricisi kimi tonlarla pambıq, taxıl, kömür bizim üçün həmişə birinci planda olubdur. Buna görə də [253-254] Kişinyovda biz 10-15 sənədi imzalamadıqda hamı dedi: Bir halda ki, heç nə imzalanmadı, deməli, hər şey pozulmuşdur. Yox, belə deyildir. Məhz imzalamamağımız onu göstərir ki, bu həyatda müəyyən bir dönüş var.

İndi də «Çıraq» yatağı haqqında məsələ barədə. Bu, mənim mövqeyim deyil, mütəxəssislərin verdikləri dünya qiymətidir. Bu, ikinci İran körfəzidir və sizə açığını deyəcəyəm, biz Moldova iqtisadiyyatını həmin yataqdan neft və neft məhsulları əldə edilməsinə qoşmaq ümidindəyik. Buna görə də biz bu problemi müzakirə edirik.

**S u a l: Neft kəmərlərinin və Avrasiya nəqliyyat dəhlizinin sabit və fasiləsiz işləməsi üçün beynəlxalq təhlükəsizlik sistemi də yaradılmalıdır. Çünki bunlar beynəlxalq layihələrdir. Nəqliyyat dəhlizi ətrafında ümumi beynəlxalq təhlükəsizlik sistemi yaratmaq nəzərdə tutulurmu? Siz Ermənistanın və Rusiyanın TRASEKA layihəsinin iştirakçısı olmaq istəyinə necə baxırsınız?**

**H e y d ə r Ə l i y e v:** Neft kəmərlərinin təhlükəsizliyi barədə. Bəli, bu, çox mühüm məsələdir və beynəlxalq təşkilatlar artıq onunla məşğul olurlar. Bu məsələ Avropa Birliyində də, Avropa iqtisad komissiyasında da, NATO-da da müzakirə edilir. Yaxın günlərdə Brüsseldə təxminən həmin məsələlərə həsr edilmiş daha bir görüş keçiriləcəkdir. Bizim nümayəndə heyəti - baş nazirin müavini Abid Şərirov, ARDNŞ-in prezidenti Natiq Əliyev və başqaları da oradadır. Yeri gəlmişkən deyim ki, Xəzər hövzəsinin neft kəmərlərinin təhlükəsizliyi məsələsi heç də ilk dəfə müzakirə olunmur. Nə kimi tədbirlər görüləcəyini

indi hələlik söyləmək çətindir. Lakin hər halda bu məsələ beynəlxalq təşkilatların çox böyük maraq göstərdiyi və narahatlıq keçirdiyi bir mövzudur. Düşünürəm ki, biz bütün bu məsələləri onların köməyi ilə təmin edəcəyik. [253-254]

O ki qaldı Ermənistanın və Rusiyanın TRASEKA layihəsində iştirakına, biz bunun üçün heç bir qadağa qoymamışıq. Biz təşəbbüs irəli sürdükdə dörd ölkə idik - Özbəkistan, Türkmənistan, Azərbaycan və Gürcüstan. Sonra bu proqrama Qazaxıstan, Qırğızıstan və Ukrayna da qoşuldu. Daha sonra Moldova, Bolqarıstan da qoşulacaq. Buna görə də əgər onların marağı varsa, bizim buna maneçilik törətməyə əsasımız olmayacaqdır.

**P e t r u  L u ç i n s k i:** Zənnimcə, hər bir ölkə öz ərazisində təhlükəsizliyə, əlbəttə, təminat verməlidir. Ümumi qaydalar da olacaqdır. Yaşayıb görərik. Mən sadəcə olaraq belə bir ümidi ifadə etdim ki, həmin boru kəməri işləməyə başladıqda bu, ölkələrimizdəki münaqişəli vəziyyətlərin aradan qaldırılmasına xeyli dərəcədə təsir göstərəcəkdir. İqtisadiyyat çox şeyi həll edir. [254]

## AZƏRBAYCAN PREZİDENTİ ADINDAN MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ PETRU LUÇİNSKİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*«Gülüstan» sarayı*

*27 noyabr 1997-ci il*

Cənab prezident, əziz Petru Luçinski!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Moldova prezidentinin Azərbaycana ilk rəsmi səfəri sona çatır. Tam əsasla deyə bilərik ki, səfər uğurla keçir və biz səfər zamanı birgə böyük nailiyyətlər əldə etmişik.

Mən hörmətli qonağımız, dostumuz prezident Petru Luçinskiyə mənim dəvətimi qəbul edib Azərbaycana rəsmi səfərə gəlməsi münasibətilə və burada birgə əldə etdiyimiz nailiyyətlər münasibətilə ürəkdən təşəkkür edirəm.

Moldova prezidentinin Azərbaycana ilk rəsmi səfəri ölkəmizin həyatında əlamətdar hadisə və Azərbaycan–Moldova münasibətlərində mühüm mərhələdir. Şübhə yoxdur ki, bu səfər və onun gedişində görülmüş səmərəli iş, imzalanmış dövlətlərarası, hökumətlərarası sənədlər bizim dostluq münasibətlərimizi, əməkdaşlığımızı daha da dərinləşdirmək və genişləndirmək üçün yaxşı əsas olacaqdır.

Dərin məmnuniyyət hissi ilə qeyd edirəm ki, Moldova prezidentinin Azərbaycanda olduğu müddətdə, iki gün ərzində biz çox iş görə bildik. Dövlətlərarası münasibətlərimizə aid məsələləri ətraflı müzakirə etdik, əlaqələrimizin [255-256] gələcək inkişafının çox məsələləri barədə fikir mübadiləsi apardıq, qarşıdakı fəaliyyətimizin yollarını müəyyənləşdirdik. Biz dünya siyasəti, beynəlxalq həyatla, o cümlədən MDB-də birgə fəaliyyətimizlə bağlı bir çox məsələlərə dair ətraflı fikir mübadiləsi etdik. Dünya həyatının, MDB-də birgə fəaliyyətimizin bir çox məsələləri barəsində baxışlarımızın eyni olduğunu, üst-üstə düşdüyünü gördük. Ən başlıcası isə odur ki, ikitərəfli münasibətlərimizin gələcək inkişaf yolları haqqında baxışlarımız tamamilə eynidir.

Hesab edirəm ki, bizim bu gün imzaladığımız sənədlər münasibətlərimizin gələcək inkişafı üçün yaxşı hüquqi–müqavilə əsası yaradır. Moldova ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında müqavilənin xüsusi əhəmiyyəti var. Məmnuniyyətlə qeyd edirəm ki, suveren, müstəqil dövlətlərə münasibətdə beynəlxalq hüququn tələblərinə dair, demək olar, bütün mühüm müddəalar bu müqavilədə öz ifadəsini tapmışdır. Bu, çox mühümdür. Çünki həm Moldova, həm də Azərbaycan yaxın dövrdə, 1991-ci ilin sonunda, Sovetlər İttifaqı dağılandan sonra özlərinin dövlət müstəqilliyini elan etmişlər.

Biz müstəqil inkişaf yolunda ilk addımları atırıq, istər daxildə, istərsə də xarici aləmdə çoxlu çətinliklərlə qarşılaşırıq. Ona görə də dövlətlərarası münasibətlərimizi səciyyələndirən sənədlərdə ölkələrimizin dövlət müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə aid əsas müddəaların təsbit olunmasının çox böyük əhəmiyyəti var.

Həmin sənəddə bir çox başqa məsələlər də öz ifadəsini tapmışdır və bu da bizə bütün dünyada həm Moldovanın, həm də Azərbaycanın mövqelərini müdafiə etməyə imkan verir. Mən separatizm, terrorizm ilə və dünyada geniş yayılmış bir çox başqa mənfi hallarla mübarizəni nəzərdə tuturam.

İqtisadiyyat, təhsil, mədəniyyət, gənclər, maliyyə sahələrində əməkdaşlıq məsələlərinə dair sənədlər şübhəsiz ki, fəal [256-257] qarşılıqlı əlaqələrimiz üçün əlverişli şərait yaradır. Hesab edirəm ki, indi biz bu iki gün ərzində əldə etdiyimiz və imzaladığımız sənədlərdə öz əksini tapmış nailiyyətlərdən yaxşı istifadə etməliyik.

Bu səfər Moldova ilə Azərbaycan arasında, xalqlarımız arasında olan dostluq münasibətlərini bir daha nümayiş etdirir. Azərbaycan və Moldova xalqları arasında dostluğun zəngin tarixi var. Biz keçmişdə xalqlarımız və respublikalarımız arasında qarşılıqlı münasibətlərdə nə olmuşdursa, hamısını böyük minnətdarlıq hissi ilə xatırlayırıq.

Moldova və Azərbaycanın mədəniyyət, incəsənət, elm xadimləri, yazıçıları, bəstəkarları bu sahədə çox işlər görmüşlər. Keçmiş dövrdə bizim mədəniyyət və elm xadimlərimiz arasında mövcud olmuş sıx əməkdaşlığa, səmimi dostluğa dair çoxlu misallar göstərmək olar.

Keçmişdə respublikalarımız arasında iqtisadiyyat sahəsində də yaxşı əməkdaşlığın olduğunu söyləməyə əsasımız var. Şübhəsiz ki, bütün bunlar bizi yaxınlaşdırmış, xalqlarımız arasında dostluğu möhkəmləndirmiş, elə şərait yaratmışdır ki, Azərbaycanda Moldovanı çox yaxşı tanıyırlar, Moldovada isə Azərbaycanı yaxşı tanıyırlar.

Bizim üçün sevindirici hadisədir ki, əməkdaşlığımızın məhz bu son illərində Moldovada, kiçik olsa da, Azərbaycan icması, Azərbaycan diasporu yaranmışdır. Bu gözəl ölkədə yaşayan azərbaycanlılar

Moldovanın vətəndaşları olmuşlar və onun digər vətəndaşları ilə yanaşı bərabər hüquqlardan istifadə edirlər.

Böyük hörmət hissi doğuran odur ki, bir çox millətlərin və xalqların nümayəndələri Moldovada dostluq və həmrəylik şəraitində yaşayır, bütün hüquqlardan istifadə edirlər. Bununla əlaqədar Moldovanın tərkibindəki Qaqauziyanın özünəməxsus mədəniyyətini, uğurlarını da qeyd etməyi zəruri sayıram. Qaqauziyanın xalqı bizə çox yaxındır, yəni demək [257-258] istəyirəm ki, biz, demək olar, eyni dildə danışırıq. Keçmiş dövrlərdə Azərbaycan ilə Qaqauziya arasında çox fəal ədəbi əlaqələr vardı. Bu gün onu da görmək çox xoşdur ki, Moldovanın tərkibində Qaqauziyanın özünə aid müstəqilliyi, azadlığı, ana dilində məktəbləri, təhsil müəssisələri, bu xalqın milli mədəniyyətinin yaşaması və tərəqqi etməsi üçün lazım olan hər şeyi vardır.

Xalqlarımız arasında dostluğu səciyyələndirən bir çox başqa faktlar da göstərmək olar. Bu dostluq məhz indi, həm Moldova, həm də Azərbaycan müstəqil dövlət olan bir vaxtda bizim üçün böyük sərvətdir.

Dünən də, bu gün də məlum oldu ki, biz sosialist sistemindən yeni milli dövlət quruculuğuna, yeni bazar iqtisadiyyatı sisteminə, demokratikləşdirməyə keçid dövrünü yaşayarkən eyni problemlərlə qarşılaşırıq. Ona görə də fikir və təcrübə mübadiləsi aparmaq bizim üçün çox vacibdir. Biz Moldova prezidentinin Azərbaycana səfəri zamanı aldığımız məlumatda çox şey öyrəndik və dövlət müstəqilliyi illəri ərzində Moldovanın qazandığı uğurlar bizi sevindirir.

Bununla bərabər, Moldovada da, Azərbaycanda da problemlər var və biz onları həll etməliyik. Biz daha çox ondan danışdıq ki, bu problemləri necə həll etməliyik, çətinlikləri necə aradan qaldırmalıyıq. Tam əminəm ki, Moldovada da, Azərbaycanda da keçid dövrünün çətinliklərini aradan qaldıracaq, iqtisadiyyatda, ölkələrimizin vətəndaşlarının rifahında, bütün digər sahələrdə köklü yaxşılaşmaya nail ola biləcəkdir.

Zənnimcə, bizim üçün başlıcası budur ki, biz müstəqil dövlətlər olmuşuq, müstəqilliyi möhkəmlətmək və inkişaf etdirmək mövqelərində qətiyyətlə dayanmışıq. Biz yekdil fikirdə olduq ki, keçmişə qayıdış yoxdur, suverenliyimizə, dövlət müstəqilliyimizə ziyan vura biləcək hallara yol verməyəcəyik. Bu, dostluğumuzu, əməkdaşlığımızı və münasi[258-259]bətlərimizi daha da möhkəmlətmək və inkişaf etdirmək üçün yaxşı əsasdır.

Azərbaycanda da, Moldovada da olan problemlər arasında ən mürəkkəb problemlər münaqişələrlə bağlıdır. Təəssüf ki, Sovet İttifaqı dağıldıqdan sonra və bunun ərəfəsində bu dövlətin ərazisində silahlı münaqişələr yarandı. Bu münaqişələr Qafqazda, Zaqafqaziyada da, bəzi digər bölgələrdə, o cümlədən Moldovada da meydana gəldi. Biz yekdil rəydə olduq ki, bu münaqişələri sülh yolu ilə aradan qaldırmaq lazımdır. Hərbi əməliyyatlara, atəşə, silahlı toqquşmalara daha yol vermək olmaz. Azərbaycanda biz Dağlıq Qarabağ üstündə Ermənistanla Azərbaycan arasında gedən münaqişədə atəşkəs rejimini üç ildən artıqdır saxlayırıq və münaqişə tamamilə aradan qaldırılan, tam sülh əldə edilən vaxtadək saxlayacağıq. Bizə məlum olduğu kimi, Moldovada da münaqişə yaranmasına yol verməmək üçün, Pridnestrovye probleminin dincliklə həlli üçün tədbirlər görülür. Odur ki, münaqişələrin olması istər Moldova üçün, istərsə də Azərbaycan üçün şübhəsiz, ölkələrimizin həyatını çətinləşdirən ən ağır, ən müşkül məsələdir. Burada da vəziyyətimiz, demək olar eynidir. Buna görə də biz bu münaqişələrin həllinə münasibətdə yekdil rəydə olduq.

Söhbətlərimizdən və danışıqlarımızdan sonra əminəm ki, Moldova daha geniş inkişaf üçün, öz dövlət müstəqilliyini qoruyub saxlamaq və möhkəmləndirmək üçün böyük potensial imkanlara malikdir. Biz sevinirik ki, Moldova Avropa Şurasına daxildir. Bir çox beynəlxalq təşkilatların üzvüdür, onun gələcəkdə Avropa Birliyində olmağa imkanı var.

Azərbaycan da Avropaya daxildir və bu baxımdan xüsusi mövqe tutur, çünki Avropa ilə Asiyanın qovuşuğunda, Avropanın ən ucqar hissəsində yerləşir. Azərbaycanı hələ Avropa Şurasına daxil olmaq, Avropa strukturları ilə inteqrasiya prosesi gözləyir. Biz bu yolla gedirik və gedəcəyik. [259-260] Bununla əlaqədar Moldova ilə əməkdaşlığımızın son dərəcə böyük əhəmiyyəti var.

Biz dövlətlərlə nəinki ikitərəfli, həm də çoxtərəfli əsasda əməkdaşlıq etməyə imkan tapmışıq. Bu dövlətlər isə bir çox məsələlərdə marağı olan Moldova, Ukrayna, Gürcüstan və Azərbaycandır. Artıq məlumdur ki, oktyabrın 10-da Strasburqda biz GUAM adlandırılan bizim bu təşkilatımız haqqında birgə rəsmi məlumat qəbul etmişik və qısa bir müddətdə hiss etmişik ki, o, həyat qabiliyyətinə malikdir, dörd ölkənin çoxsahəli əməkdaşlığı üçün faydalı ola bilər. Bu ölkələr isə, bir tərəfdən, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında birləşir, digər tərəfdən, onların bir çox digər ümumi maraqları var.

Biz hesab edirik ki, Moldova Avrasiya nəqliyyat dəhlizi çərçivəsində əməkdaşlıq proseslərində, Xəzər dənizinin energetika ehtiyatlarından istifadə olunmasında da yaxından iştirak etmək üçün böyük imkanlara malikdir. Bu məsələlər də danışıqlarımızda və söhbətlərimizdə çox mühüm yer tutdu. Zənnimcə, bunların hamısı gələcək işlərimiz üçün yaxşı əsasdır.

Biz Moldovada demokratik proseslərin getməsini, bazar iqtisadiyyatının bərqərar olmasını yüksək qiymətləndiririk. Ona görə də burada da bizim baxışlarımız tamamilə üst-üstə düşür və bu, şübhəsiz ki, əməkdaşlığımız üçün yaxşı əsasdır.

Bütün bunları deyərkən Moldovada demokratik dəyişikliklərin həyata keçirilməsində prezidentin, bizim dostumuz Petru Luçinskinin rolunu xüsusi qeyd etmək istəyirəm. Şəxsən mən çox şadam ki, Petru keçən il, seçkilər zamanı Moldovanın prezidenti olmuş, öz xalqının böyük etimadını qazanmışdır. Mən Moldovanı və dostumuz Petru Luçinskini tanıyan bir adam kimi, Moldova xalqının bu addımını doğru, düzgün hesab edirəm. Ona görə ki, indiki mürəkkəb keçid dövründə dövlət başçısına böyük təcrübə, [260-261] bilik, şəxsi nüfuz gərəkdir. Mənim dostum Petru Luçinskidə bunların hamısı var.

Biz bir-birimizi çoxdan tanıyırıq. Mən onunla ilk dəfə 1970-ci ildə burada, Bakıda görüşmüşəm, sonralar bizim iş prosesimizdə Moldovada və Azərbaycanda, Moskvada da görüşlərimiz olmuşdur. Buna görə də onun haqqında kifayət qədər tam təsəvvürüm var. O, hələ 30 il bundan öncə Moldovada yüksək vəzifədə olmuşdur. Bu illər ərzində öz bacarığı, biliyi, xalqına, torpağına sədaqəti sayəsində böyük uğurlar qazanmışdır. O, bir çox sınaqlardan, çətinliklərdən keçmiş, yenidən Moldovaya qayıdaraq parlamentin sədri seçilmişdir. Sonra isə xalq ona böyük etimad göstərərək prezident seçmişdir.

Bütün bunlar adi hal deyildir. Yalnız çox bacarıqlı, xalqın inamını itirməmiş insanlar bu çətin keçid dövrünü aşa və yenidən öz xalqının etimadını qazana bilmişlər. Prezident Petru Luçinski bu mürəkkəb yolu keçmiş və öz xalqının yüksək etimadını qazanmışdır. Moldova xalqına çox böyük ehtiram hissi bəsləyərək onun bu addımını çox düzgün hesab edirəm və əminəm ki, məhz prezident Pertu Luçinskinin rəhbərliyi altında Moldova bütün çətinlikləri aradan qaldıracaq, Avropada və bütün dünyada firavan, çiçəklənən ölkəyə çevriləcəkdir.

Mən müstəqil Moldovanın şərəfinə, moldavan xalqının şərəfinə, Azərbaycan–Moldova münasibətlərinin şərəfinə, Moldovanın prezidenti, bizim dostumuz Petru Luçinskinin sağlığına badə qaldırıram! [261]

## YENİ AZƏRBAYCAN PARTİYASININ YARADILMASININ 5-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ

*Respublika sarayı*

*29 noyabr 1997-ci il*

Əziz dostlar, bacılar və qardaşlar!

Xanımlar və cənablar!

Mən sizi Yeni Azərbaycan Partiyasının yaranmasının 5-ci ildönümü münasibətilə ürəkdən təbrik edirəm. Sizə - Yeni Azərbaycan Partiyasının bütün üzvlərinə cansağlığı, səadət və gələcək işlərinizdə uğurlar arzulayıram.

Bu gün, beş il keçəndən sonra tam əsasla demək olar ki, Yeni Azərbaycan Partiyasının Azərbaycanda yaranması tarixi hadisədir. Yeni Azərbaycan Partiyasının yaranmasının nə qədər zəruri və ölkəmiz üçün nə qədər əhəmiyyətli olduğu ötən beş il müddətində tam sübut edilibdir. Yeni Azərbaycan Partiyası beş il müddətində öz proqramına, öz prinsiplərinə, öz amallarına sadiq olduğunu sübut edibdir və Azərbaycan Respublikasının həyatında görkəmli yer tutaraq ölkəmizin həyatının bütün sahələrinə öz təsirini göstəribdir. Mən çox məmnunam ki, beş il bundan əvvəl, çətin və ağır bir şəraitdə Yeni Azərbaycan Partiyası yarandı və o, Azərbaycan xalqı qarşısında öz xidmətlərini göstərə bildi.

Bu gün biz burada beş illik dövrə nəzər salırıq. Ancaq bu beş il içərisində bizim partiyamızın tarixinin ən mühüm və ən [262-263] əhəmiyyətli hissəsi onun yaranma dövrü olmuşdur. İlk təsis konfransı 1992-ci il noyabrın 21-də olmuşdursa, ancaq bu təsis konfransına qədər böyük hazırlıq işi aparılmışdır. Bu hazırlıq işi də belə bir partiyanın yaranmasına ehtiyacı olan bir çox insanların, Azərbaycan cəmiyyətinin demək olar ki, bütün təbəqələrinin nümayəndələrinin arzu və istəklərinin həyata keçirilməsi prosesinə çevrilmişdir.

Yeni Azərbaycan Partiyası yaranarkən onun tərəfdarları çox idi. Ancaq onun yaranmasına maneçilik göstərənlər də az deyildi. Xüsusən o zaman, Azərbaycanda çoxpartiyalılıq prinsipinin elan olunmasına baxmayaraq, Yeni Azərbaycan Partiyasının yaranması hakimiyyət dairələri tərəfindən heç də müsbət qəbul edilməmişdir. Buna görə də bu hazırlıq və partiyanın yaranma prosesi bir çox təzyiqlər, hətta təqiblər altında olmuşdur. Ancaq bunlara baxmayaraq, bu partiyanı yaratmaq istəyənlər öz istəklərinə, məqsədlərinə sadiq olmuşlar və bu partiyanı yaratmışlar.

Partiya yaranarkən məni bu partiyaya sədr seçdilər. Ancaq mən bu gün bildirmək istəyirəm, - bunu əvvəllərdə də demişəm, - mən bu partiyanın yaranmasının təşəbbüskarı olmamışam. Siz də, partiyanın bütün üzvləri də, Azərbaycanın ictimaiyyəti də həqiqəti bilməlidir. Mən bu partiyanın yaranmasının təşəbbüskarı olmamışam. Partiyanın yaranmasının təşəbbüskarı o vaxt Azərbaycanda ölkəmizi ağır vəziyyətdən çıxarmağa çalışan insanlar olmuşlar. Onlar 1992-ci ilə qədər Azərbaycanda gedən ağır prosesləri, ölkəmizin çox ağır, hətta çıxılmaz vəziyyətdə olduğunu görərək, vətəninə, xalqına hədsiz məhəbbət hissləri ilə yaşayaraq, bu vəziyyətdən çıxmaq üçün nicat yolu axtararaq belə bir partiyanın yaranması fikrinə gəlmişlər.

Bir cəhət də çox maraqlıdır və əhəmiyyətlidir ki, bir adam, bir qrup adam yox, Azərbaycanın demək olar ki, bir çox bölgələrində - Bakıda, başqa böyük şəhərlərdə, rayonlarda, [264-265] yaşayış məntəqələrində ayrı-ayrı adamlar bir-birindən asılı olmayaraq və bir-biri ilə əlaqəsi olmadan belə bir fikrə gəlmişlər və belə bir patiyanın yaranmasının zəruri olduğunu irəli sürmüşlər.

Bu fikirlər get-gedə bir-birinə yaxınlaşıb, qovuşub, birləşib, nəhayət, böyük bir dəstənin, belə bir partiyanın yaranması barədə qərar qəbul edilməsinə gətirib çıxarmışdır. Yenə də deyirəm, bizim tariximizin bu hissəsi çox maraqlıdır və çox da vacibdir. Çünki Sovetlər İttifaqı dağılandan sonra, Sovetlər İttifaqında vahid hakim partiya - Kommunist Partiyası süqut edəndən sonra, keçmiş Sovetlər İttifaqının ərazisində, o cümlədən Azərbaycanda dünya demokratiyasının təcrübəsindən istifadə etmək arzuları, meylləri artdığı bir zaman Azərbaycanda, bir çox başqa respublikalarda da ayrı-ayrı partiyaların, hərəkatların yaranması prosesi başlanmışdır. Bu proses cürbəcür olmuşdur. Bu, bəzən xalqın bir məsələ üzrə hərəkətə gəlməsi, bəzən də, xüsusən partiyaların yaranması, ayrı-ayrı adamların, yaxud bir neçə adamın partiya yaratmaq və partiyadan istifadə etmək məqsədi ilə təşəbbüs göstərməsi nəticəsində olmuşdur.

Deyə bilərəm ki, Azərbaycanda partiyaların tam əksəriyyəti məhz belə yaranmışdır. Yəni ayrı-ayrı şəxslər qruplaşaraq siyasi fəaliyyət göstərmək üçün, - bəziləri deyirlər ki, hakimiyyət əldə etmək üçün, –partiyalar yaratmağa başlamışlar. Düzdür, Azərbaycanda onların çoxu elə yaranan zamandan indiyədək çox kiçik bir partiya, yaxud qrupdurlar. Ancaq yaranma prosesi belə olmuşdur.

Bunlardan fərqli olaraq, Yeni Azərbaycan Partiyasının yaranması, yenə də deyirəm, xalqın çox hissəsinin respublikamızı o vaxt düşdüyü vəziyyətdən çıxarmaq üçün və o zaman artıq mövcud olan partiyalara və təşkilatlara inamları olmadığına görə, yeni bir partiyanın yaranması ilə əlaqədar ayrı-ayrılıqda fikirlərinin, arzularının cəmləşməsi və nəhayət, [264-265] folmalaşması nəticəsində olmuşdur. Bu da məlumdur ki, həmin fikrə düşən adamlar, qruplar, insanlar bu partiyanı yaratmaq üçün kimisə özlərinə lider seçmək istəmişlər və onlar Heydər Əliyevə müraciət etmişlər.

Məlumdur ki, bu müraciətlər olan zaman mən bu müraciətləri təbii hesab etdim. Ancaq o zaman Azərbaycanda böyük siyasətlə məşğul olmaq fikrim olmadığına görə bu müraciətlərə çox hörmətlə, ehtiramla yanaşaraq, mənə müraciət edənlərin hamısına bildiyim qədər lazımi məsləhətlər verərək və onların fikirlərinin əsaslı olduğunu təsdiq edərək, eyni zamanda bu partiyanın işinə qarışmamaq haqqında öz fikirlərimi bildirmişəm. Bu məlumdur.

91-lərin mənə müraciətindən əvvəl - ondan bir xeyli vaxt əvvəl - Sirus Təbrizli böyük bir məqalə dərc etdirmişdi ki, biz Heydər Əliyevi Azərbaycana, Bakıya özümüz dəvət etməliyik. Mən o məqaləni də oxudum, onu çox hörmətlə qarşıladım, qəbul etdim. Ancaq o məqalə də mənim fikrimi dəyişmədi. Nəhayət, Azərbaycanda vəziyyətin get-gedə ağırlaşdığını, çətinləşdiyini görərkən və bu partiyanın yaranması ilə əlaqədar mənə müraciət edən ziyalıların, respublikanın tanınmış adamlarının - ölkəmiz, xalqımız, torpağımız üçün ürəyi həqiqətən yanan adamların iztirabını duyarkən, onların xalqımız, ölkəmiz üçün bir iş görmək arzusunu hiss edərkən mən tədricən belə bir partiyanın yaranmasına kömək etməyə razılığımı verdim. Sonra mənə 91-lərin müraciəti gəldi və həmin müraciətə mənim cavabım oldu. Bunlar hamısı o vaxt bizi yeganə müdafiə edən «Səs» qəzetində dərc olundu. Ondan sonra, noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaranması üçün təsis konfransı keçirildi.

Ancaq o vaxt - biz indi o tarixi mütləq açmalıyıq - bunun qarşısını hər vəchlə almağa çalışırdılar. Təsadüfi deyil ki, 1992-ci il oktyabrın 16-da 91-lərin mənə müraciəti «Səs» qəzetində dərc olunandan sonra, oktyabrın 24-də Naxçıvan[265-266]da Xalq Cəbhəsinin 300 nəfərdən artıq adamdan ibarət silahlı dəstəsi muxtar respublikada dövlət çevrilişinə cəhd göstərdi. Yenə də deyirəm, bu hadisələrin bir-birinə çox yaxın olması təsadüfi deyil, oktyabrın 16-da 91-lərin müraciəti dərc olundu, oktyabrın 24-də isə dövlət çevrilişinə cəhd edildi.

Bu tarix sizə məlumdur. Nə qədər qəribə olsa da bu, dövrün həqiqəti idi ki, Xalq Cəbhəsi o vaxt hakimiyyətdə, yəni iqtidarda idi. Dövlət Xalq Cəbhəsi və Müsavat tandeminin əlində idi. Demək, dövlətin ordusu da, hüquq-mühafizə orqanları da, silahlı qüvvələri də Xalq Cəbhəsinin ixtiyarında, onun tabeliyində idi. Amma bununla yanaşı, hər yerdə, o cümlədən Naxçıvanda da Xalq Cəbhəsinin silahlı dəstələri var idi. Həmin silahlı dəstələr dövlətin silahlı qüvvələrindən sayca çox, silahına görə daha güclü idi.

Təsadüfi deyil ki, Xalq Cədhəsinin qeyri-qanuni saxlanılan 300 nəfərdən ibarət silahlı dəstələri Naxçıvanda Daxili İşlər Nazirliyini - muxtar respublikanın ictimai asayişini qorumaq vəzifəsini daşıyan Daxili İşlər Nazirliyini, dövlətin daxili işlər, silahlı orqanını - zəbt etdilər, işğal etdilər. Onlar binanı tutdular və rütbəsi leytenantdan polkovnikə qədər olan polis əməkdaşlarının hamısını işdən kənarlaşdırdılar, Naxçıvanda gərgin bir vəziyyət yaratdılar. Daha sonra onlar Naxçıvanın televiziya və radio mərkəzini zəbt etdilər və hətta muxtar respublika əhalisinə televiziya vasitəsilə müraciət etdilər. Bu, oktyabrın 24-də oldu.

Oktyabrın 16-da qəzetdə müraciət dərc olunmuşdu. Sirus Təbrizli məhz buna görə, həmin müraciətlə əlaqədar Naxçıvana yanıma gəlmişdi, orada mənimlə yenə danışıqlar aparırdı. O vaxt da bu hadisə baş verdi. Onda Sirus Təbrizli orada idi, bizimlə bərabər bu çevrilişin qarşısını almağa çalışırdı və keçirilən mitinqlərdə çıxışlar etmişdi. Ondan sonra onu hədələmişdilər ki, o, Bakıya qayıda bilməz. Sirus Təbrizli[266-267] 37, yaxud 38 gün Naxçıvanda yaşamalı oldu. Çünki hədələmişdilər ki, Bakıya gəlsə onu həbs edəcəklər.

Təsadüfi deyil ki, məhz o zaman, o hadisədən bir müddət sonra, daxili işlər naziri vəzifəsində olan İsgəndər Həmidov həmin o günlər, yəni biz Naxçıvanda çevriliş cəhdinin qarşısını alandan sonra Azərbaycan Daxili İşlər Nazirliyinin daxili qoşunlar hissəsini silahla, sursatla, topla, tüfənglə, pulemyotlarla, qumbaralarla təmin edərək, onların Bakı hava limanından muxtar respublikaya uçub Naxçıvanı dağıdacağını elan etmişdi. Bu faciəli günü bakılılar da bilirlər. Yəqin ki, burada oturanların çoxu da onun şahidi olmuşdur. Amma naxçıvanlıların o gün nə qədər ağır bir gün keçirdikləri də məlumdur. Biz İsgəndər Həmidovun böyük bir qüvvə ilə Naxçıvana uçmasının qarşısını çox çətinliklə aldıq. Yəni çətinlik nədən ibarət idi? Biz, sadəcə, bəyan etdik ki, Naxçıvana enən hər bir təyyarə partladılacaqdır. Başqa bir əlacımız yox idi.

Bax, görürsünüz, bu hadisələr təsadüfi deyildi. Ancaq bunlara baxmayaraq oktyabrın 24-də baş verən hadisələr, İsgəndər Həmidovun dəstəsinin bundan sonra Naxçıvana hücumu və belə bir çətin şərait - bunların heç biri Yeni Azərbaycan Partiyasını yaratmaq istəyənləri qorxutmadı.

O vaxt bu partiyanı yaratmaq istəyənlər Azərbaycanın bir çox məntəqələrindən - Bakıdan, başqa şəhərlərdən axışıb Naxçıvana gəldilər və orada təsis konfransı keçirdilər. Mən tarixin bu hissəsini ona görə xatırladıram ki, bu partiyanın yaranmasının necə olduğunu hamı - ictimaiyyət də, gələcək nəsillər də bil-

sin. Bunu sizin çoxunuz bilir. Yəni biz bu partiyanı yaradıb hakimiyyət əldə etmək istəməmişik, yox. Mən bunu sizə tam qətiyyətlə deyirəm. Biz sadəcə, bu partiyanı yaradıb, - o vaxt mövcud olan partiyalara daxil olmaq istəməyən adamları bu partiyanın ətrafında toplamaq [267-268] məqsədi daşımışıq. Başqa məqsəd olmayıbdır, şəxsən mənim başqa məqsədim olmayıbdır. Bunu bilmək lazımdır.

Şübhəsiz, sonrakı hadisələr onu göstərdi ki, o vaxt Azərbaycandakı vəziyyət doğrudan da, belə bir patiyanın yaradılmasını bəlkə də biz anladığımızdan da çox tələb edirdi. 1993-cü ilin iyun ayında respublikada baş vermiş hadisələr, Azərbaycanda hakimiyyət böhranı, vətəndaş müharibəsinin başlanması onu göstərdi ki, Azərbaycanın o vaxtkı iqtidarı və o vaxt mövcud olan çoxsaylı partiyaların heç biri xalqı, milləti bu vəziyyətdən çıxarmağa qadir deyildir. Tarix artıq bunu sübut edibdir. Əgər o çoxsaylı partiyalar, - o vaxtlar çoxları, hərə özü üçün bir partiya yaratmışdı, həmin partiyaların bir çoxu Yeni Azərbaycan Partiyasından xeyli əvvəl yaranmışdı, - buna qadir idilərsə, onlar Azərbaycanı o vəziyyətdən çıxaraydılar. Yaxud, iqtidarda olan Xalq Cəbhəsi, Müsavat Partiyası əgər buna qadir idisə - iqtidarda idi, hökuməti əlində saxlayaydı, dövləti müdafiə edəydi, dövlətin hüquqlarını saxlayaydı. Bunları nə iqtidarda olan partiyalar, nə də o vaxt iqtidara müxalifətdə olan partiyalar edə bildilər.

Demək, bu onu göstərir ki, bu partiyanı yaratmaq istəyən adamlar - mən özüm haqqında demirəm, onun təşəbbüskarları haqqında deyirəm - uzaqgörən imişlər, həqiqətən Azərbaycanın gələcəyi haqqında düşünürmüşlər.

Bir məsələni də qeyd etmək istəyirəm. Yeni Azərbaycan Partiyası o vaxtkı iqtidara müxalif partiya kimi yaranmamışdı. Bu həqiqət məlumdur. Partiyanın nə proqramında, nə qarşıya qoyduğu məqsədlərdə hakimiyyətə, o vaxtkı iqtidara müxalifət fikirləri olmamışdır. Bu partiyanı yaradan adamlar müxalifət olmaq yox, sadəcə, Azərbaycandakı çoxpartiyalılıq şəraitində respublikamızın ictimai-siyasi həyatında partiya tərkibində iştirak etmək istəyirdilər.

Onu da bildirmək istəyirəm ki, mən Naxçıvanda işləyərkən, muxtar respublika Ali Məclisinin sədri olarkən mən və [268-269] Naxçıvan Muxtar Respublikasının Ali Məclisi kommunist hakimiyyətinə müxalifətdə idik. Biz bunu açıq elan etmişdik. Təsadüfi deyildir ki, 1991-ci ilin mart ayında Sovetlər İttifaqının saxlanması ilə əlaqədar keçirilən referendumda Naxçıvan Muxtar Respublikası iştirak etmədi. Sizə məlumdur ki, mən Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında Azərbaycanın referenduma getməsinin əleyhinə çıxış etdim və bunu əsaslandırdım. Naxçıvan Muxtar Respublikası bu referendumda iştirak etmədi. Demək, biz Naxçıvanın o vaxtkı kommunist hakimiyyətinə müxalifətdə idik. Baxmayaraq ki, o vaxt mən heç bir partiyanı təmsil etmirdim. Mən müstəqil bir deputat idim, amma Naxçıvan Muxtar Respublikasına rəhbərlik edirdim.

Ondan sonra Ayaz Mütəllibov Azərbaycanda prezident seçilərkən biz ona da müxalifətdə olduq. Deməliyəm ki, biz bu müxalifətdə Xalq Cəbhəsi ilə bir yerdə idik. Biz Naxçıvanda Xalq Cəbhəsi ilə birlikdə Ayaz Mütəllibovun prezident seçilməsi ilə əlaqədar seçkilərin keçirilməsini qadağan etdik.

Bəli, mən o vaxt heç bir partiyaya mənsub olmayaraq müxalifətdə idim. Ancaq Xalq Cəbhəsi hakimiyyətə gələndən sonra mən Xalq Cəbhəsinə müxalifətdə olmamışam. Əksinə, Xalq Cəbhəsinə kömək etmişəm, ona dəstək vermişəm. Naxçıvanda Xalq Cəbhəsi üzvlərinin əksəriyyətini rəhbər vəzifələrə ilk dəfə bütün Azərbaycan miqyasında şəxsən mən təyin etmişəm. Xalq Cəbhəsi hakimiyyətə gələn zaman keçirilən seçkilərdə də nə Naxçıvan Muxtar Respublikası, nə də şəxsən mən müxalifətdə olmamışıq. Biz onlara səs vermişik.

Ancaq nə etməli ki, onlar bunu qiymətləndirə, anlaya bilmədilər. Bir tərəfdən ola bilərdi ki, onlar bunu qiymətləndirməsinlər, anlamasınlar, - bu, şəxsi xarakter daşıyır. Amma onlar sadəcə olaraq Azərbaycanı idarə etmək iqtidarında olmadılar, buna qadir olmadılar. Beləliklə də [269-270] onlar 1993-cü ildə hakimiyyəti tərk etdilər, hakimiyyəti əllərində saxlaya bilmədilər.

Beləliklə, yenə də deyirəm, Yeni Azərbaycan Partiyası yaranarkən kiminləsə mübarizə aparmaq, Azərbaycanda onsuz da gərgin olan ictimai-siyasi vəziyyəti gərginləşdirmək fikrində olmamışdır. Əksinə, o vaxtlar şəxsən mən bu partiyanın sədri seçilərək - partiyanın proqramı da, bütün sənədləri də göz qabağındadır - Azərbaycanın bütün qüvvələrinin birləşməsinə və ölkəmizin bu ağır vəziyyətdən çıxarılmasına biz hamımız birlikdə çalışırdıq. Şəxsən mən o vaxt heç bir hakimiyyət iddiasında deyildim.

Yeni Azərbaycan Partiyasının yaranması ilə əlaqədar bunlar bir neçə tarixi məqamlardır ki, mən bu gün bunları sizə çatdırmağı vacib bildim.

Partiya yaranarkən bu, əhali tərəfindən çox rəğbətlə qarşılandığı halda, təəssüf ki, bəzi partiyalar, o cümlədən o vaxtkı iqtidar tərəfindən mənfi qarşılandı. Bəziləri hesab edirdilər ki, bu, zəif bir partiya olacaq, güclü partiya olmayacaqdır, cəmiyyətdə öz yerini tuta bilməyəcəkdir. Görünür, onlar çox dar düşüncəli insanlar idi. Mən o vaxt da belə düşünürdüm. Amma ötüb keçən zaman hər kəsə hər şeyi sübut etdi. Beş il içərisində Yeni Azərbaycan Partiyası təşkilatlandı, genişləndi, böyüdü, möhkəmləndi və indi ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edərək Azərbaycanın ən nüfuzlu, ən böyük və ən dəyərli partiyasıdır.

Bu gün partiyanın 5-ci ildönümünü qeyd edərkən mən bu partiyanın yaranmasına təşəbbüs göstərmiş və o dövrün terrorlarına, cürbəcür zorakılıqlarına, qanunsuzluqlarına baxmayaraq, həyatını təhlü-

kə altına alaraq bu partiyanın yaranması üçün çalışmış insanların hamısını böyük hörmət və ehtiram hissi ilə xatırlayıram və hamıya öz təşəkkürümü bildirirəm. [270-271]

Partiyanın yaranma prosesini sona çatdıran 91-lərin mənə ünvanlanmış məktubudur. Mən bu 91 şəxsi çox yüksək qiymətləndirirəm, onların hamısına öz hörmət və ehtiramımı, xüsusi minnətdarlığımı və təşəkkürümü bildirirəm.

91-lərdən həyatını dəyişənlər var - Ziya Bünyadov, Xəlil Rza Ulutürk, Xəlil Xəlilov. Onların gördükləri işlər, xidmətlər bizim partiyanın və hər bir şəxsin, o cümlədən mənim qəlbimdə əbədi yaşayacaqdır. Allah onlara rəhmət eləsin.

Mən bilirəm ki, onlar bəlkə də o vaxt bunu mənə deməmişdilər, amma bunu mən sonralar bildim. Bu 91-lər həqiqətən çox cəsarətli adamlar olmuşlar. Çünki bu məktubu hazırlayıb, bu məktubla həmrəy olmaq istəyən adamlarla danışıq aparanlar bəziləri ilə danışmışlar, görüşmüşlər, ancaq onlar həmin məktuba imza atmaqdan imtina etmişlər. Mən bunları da bilirəm. Doğrudur, hamısını adbaad bilmirəm. Çünki bu işi aparan o qədər yüksək mənəviyyata mənsub şəxslərdir ki, onlar sadəcə, indi bunu demək istəmirlər, amma ordan-burdan eşidirəm ki, filankəsə müraciət ediblər - o, imza atmayıbdır. Deyib ki, məni bu işə qatmayın. Biri də deyibdir ki, get, özünü işə salma, başını əngələ salma. Hətta biri də deyib ki, əşi, daha Heydər Əliyev keçmişdir, bunun gələcəyi yoxdur. Belə hallar olubdur. Bu da məlumdur ki, belə hallar az olmayıbdır.

Bilirsiniz, - mən bunu dəfələrlə demişəm, - mən bu insanların heç birisini o qədər qınamıram. İnsan müstəqildir, insan azaddır. İnsanı heç bir şeyə vadar etmək lazım deyil. Xüsusən, məcbur etmək də lazım deyil. İnsan gərək hər bir şeyi özü istədiyi kimi etsin, öz istəyinə görə etsin və özünün mənəviyyatına uyğun etsin. Ona görə mən o adamlara da, hansılar ki, məsələn, bu 91-lərin imzaladığı o müraciəti imzalamayıblar, - onlara da mənim bu gün heç bir iradım yoxdur. Hərə özü öz tarixini təhlil etməlidir, hərə özü öz işinə [271-272] qiymət verməlidir. Ancaq sadəcə, mən bilirəm ki, belə hallar olubdur.

Burada 91-lərdən biri çıxış etdi və bildirdi ki, indi mənim ətrafımda olan, o vaxt mənə sadiq olmayan adamlar da var və onlardan bu salonda da var. Bu da həqiqətdir. Mən bu sözə etiraz etmirəm.

Şübhəsiz, istərdim ki, mənimlə hansı sahədə olursa-olsun, yaxınlıqda, yaxud da yaxın məsafədə bir yerdə işləyən adamlar və mənim etimadıma layiq görülən adamlar mənim özümə, işimə sadiq olsunlar. Mən bunu istərdim. Ancaq kimsə naxələf çıxırsa, onu özünün vicdanı cəzalandıracaqdır. Mən belə insanları onların vicdanlarına, bir də Allaha tapşırıram.

Burada 91-lərin təkliflərini mənə dedilər. Mən qəbul edirəm. Mən bir dəfə 91-lərlə görüşdüm, söhbət etdik. Ola bilər bu söhbətin nəticəsi olaraq mənim tapşırıq verdiyim vəzifəli şəxslər mənim tapşırıqlarımı layiqincə yerinə yetirə bilməyiblər. Ola bilər. Ancaq mən bu təklifi tamamilə əsaslı hesab edirəm. Mənim də arzum bundan ibarətdir ki, həmin 91 nəfərlə, - indi onlardan əksəriyyəti sağdır, - daha bir dəfə görüşəcəyəm. Bəlkə də bir dəfə yox. Mən onlarla görüşəcəyəm. İndi hesab edirəm ki, onların bəzilərinin o vaxt göstərdiyi sədaqət və cəsarətin müqabilində bəlkə biz, - böyük hökumət işləri ilə, dövlət işləri ilə məşğul olduğumuza görə, - onlara lazımi münasibət göstərə bilməmişik. Mən bunu etiraf edirəm. Çünki mənim iş proqramım çox gərgindir. Ona görə də mən yaxın vaxtlarda, ola bilər ki, dekabr ayında vaxt tapıb mütləq 91-lərlə görüşəcəyəm, ətraflı söhbət edəcəyik, dərdləşəcəyik və bütün dərdlərin hamısına çarə tapacağıq.

Azərbaycan indi elə bir səviyyədədir ki, Yeni Azərbaycan Partiyasının proqramında əks edilmiş, nəzərdə tutulmuş prinsiplərin çoxunu artıq həyata keçirib, ya da həyata keçirmək prosesindədir. Hesab edirəm ki, Yeni Azərbaycan [272-273] Partiyası yaranandan onun ən üstün, müsbət cəhəti ondan ibarətdir ki, Yeni Azərbaycan Partiyasının amalı, məqsədləri, qəbul etdiyi proqram müstəqil Azərbaycan Respublikasında demokratik, dünyəvi dövlət qurmaq, Azərbaycanda demokratik prinsipləri bərqərar etmək Azərbaycanı dünya iqtisadiyyatına bağlamaq, Azərbaycanda iqtisadi-siyasi islahatlar həyata keçirmək və Azərbaycanı inkişaf etdirmək olubdur. Bunlar hamısı Yeni Azərbaycan Partiyasının proqramında - 1992-ci ilin noyabr ayında bizim qəbul etdiyimiz proqramda öz əksini tapıbdır. Bunlar hamısı indi Azərbaycan Respublikasının həm daxili, həm də xarici siyasətinin əsasını təşkil edir və nəhayət, bunlar hamısı 1995-ci il noyabr ayının 12-də ümumxalq referendumu əsasında qəbul etdiyimiz Konstitusiyada öz əksini tapıbdır. Yəni bunu mən bir daha xüsusi qeyd edirəm ki, Yeni Azərbaycan Partiyası yaranarkən Azərbaycanı hansısa başqa bir yol ilə aparmaq məqsədi daşımamışdır, Azərbaycanı müstəqil etmək istəmişdir, qarşısında ancaq müstəqilliyi möhkəmləndirmək, inkişaf etdirmək, Azərbaycanda demokratik, hüquqi dövlət qurmaq məqsədi qoymuşdur, demokratik prosesləri, demokratik dəyişiklikləri həyata keçirmək, islahatları həyata keçirmək məqsədini qoymuşdur. Artıq bunları Azərbaycanın dövləti həyata keçirir. Ona görə də Azərbaycanın bugünkü dövləti ilə, Azərbaycanın prezidenti ilə Yeni Azərbaycan Partiyasının proqramı eynidir.

Mən bunu demişəm, - şübhəsiz ki, mən Azərbaycanın prezidenti seçilərkən Yeni Azərbaycan Partiyasının seçkisi nəticəsində seçilməmişəm. Siz bunu bilməlisiniz. O vaxt bütün xalq - Yeni Azərbaycan Partiyasının üzvü olan da, olmayan da - hamısı Heydər Əliyevin Azərbaycana, Bakıya gəlməsini tələb etdi və oktyabr ayında Heydər Əliyevin prezident seçilməsinə səs verdi. Ancaq prezidentin və Yeni Azərbaycan

Partiyasının proqramı, prezidentin siyasəti eynidir. Başqa cür [273-274] də ola bilməzdi. Əgər mən Yeni Azərbaycan Partiyasının sədri kimi o proqramı qəbul etmişdimsə və o proqramı hazırlayıb təsis konfransına təqdim etmişdimsə, mən prezident olandan sonra başqa bir proqramla hərəkət edə bilməzdim, Azərbaycanın başqa bir yol ilə getməsinə heç vaxt yol verə bilməzdim. Ona görə də bizim o vaxtkı - Yeni Azərbaycan Partiyasını yaradarkən olan istəklərimiz, arzularımız indi dövlət tərəfindən, hökumət tərəfindən ardıcıl surətdə həyata keçirilir. Bu da təbii bir haldır ki, dövlətin, hökumətin siyasəti ilə Yeni Azərbaycan Partiyasının siyasəti, prinsipləri tam üst-üstə düşür, tam uyğundur. Bu da təbii bir haldır ki, Yeni Azərbaycan Partiyasının proqramı tamamilə Azərbaycan Respublikası Konstitusiyasının bütün müddəalarının əsasında qurulubdur, onunla üst-üstə düşür. Ona görə də Yeni Azərbaycan Partiyasının gördüyü işlər Azərbaycanı inkişaf etdirməyə, müstəqil Azərbaycanı irəliyə aparmağa yönəldilibdir. Biz o vaxt da bu məqsədi daşıyırdıq və indi bu məqsədə çatmaq üçün tədbirlər həyata keçiririk. Çünki indi artıq biz hakimiyyətdəyik.

Bizim proqramımız məlumdur. Konstitusiya qəbul olunubdur. Bunları izah etməyə ehtiyac yoxdur. Ancaq bir şeyi bilmək lazımdır, - bunu mən dəfələrlə demişəm, partiyamızın toplantısında bir daha qeyd etmək istəyirəm, - biz Azərbaycanda 1993-cü il iyun ayının 15-dən indiyə qədər, yəni mən Azərbaycanın dövlət başına gəldiyim zamandan bu günə qədər Azərbaycan xalqının milli azadlıq yolunda əvvəlki illərdə olan bütün arzu və istəklərinin hamısını həyata keçiririk. Necə deyərlər, bu, bizim ən böyük nailiyyətimizdir.

Ancaq bu, prosesin başlanğıcıdır. Kim hesab edirsə ki, yenicə müstəqillik əldə etmiş ölkə, müstəqil dövlət dörd il, beş il içərisində bütün məsələlərin hamısını həll edə bilər, - o, çox səhv edir. Ancaq ən əhəmiyyətli odur ki, biz qarşımıza qoyduğumuz bütün vəzifələrin hamısını ardıcıl surətdə həyata [274-275] keçiririk. Biz heç bir yerdə əyintiliyə yol verməmişik. Biz tutduğumuz strateji yoldan çəkinməmişik. Müstəqilliyimizi günü-gündən möhkəmləndiririk. Azərbaycanın bir müstəqil dövlət kimi Dünya Birliyində mövqelərini möhkəmləndiririk və Azərbaycanın dövlət müstəqilliyinin pozulmasına, yaxud azalmasına, ləğv olunmasına yönəldilmiş hər bir xarici, yaxud da daxili təxribatın, hərəkətin qarşısını ala bilmişik. Bu, bizim ən böyük nailiyyətimizdir.

Azərbaycanda 1993-cü il ilə indiki günü müqayisə edin. Respublikamızda daxili ictimai-siyasi vəziyyət tam sabitləşibdir. Bəlkə də 1993-94-cü illərdə bunu təsəvvür etmək mümkün deyildi ki, Azərbaycan bu gün belə sakit, rahat, əmin-amanlıq şəraitində, sabitlik şəraitində yaşayacaqdır. Bəli, bunu o vaxi təsəvvür etmək mümkün deyildi. Amma biz buna nail olmuşuq. Bu, bizim gərgin əməyimizin nəticəsidir. Bu, bizim düzgün, doğru daxili siyasətin nəticəsindədir. Bu, Azərbaycan dövlətinin qüdrətinin nəticəsindədir.

Məgər 1993-cü ildən sonra Azərbaycanda daxili vəziyyəti pozmaq, hökuməti ələ keçirmək, hakimiyyəti ələ keçirmək, terror cəhdləri etmək, başqa hallar azmı olmuşdur? Hamısı oldu, hamısı göz qabağındadır. Ancaq biz Azərbaycanda dövlətçiliyi inkişaf etdirərək, möhkəmləndirərək, hər yerdə dövlətin prinsiplərini bərqərar edərək, dövlətin qüdrətini günü-gündən artıraraq, bütün bu təxribatların - həm xarici ölkələrdən Azərbaycanı içəridən dağıtmaq cəhdlərinin, həm də daxildə cürbəcür silahlı dəstələrin təxribatçı hərəkətlərinin, cinayətkar hərəkətlərinin qarşısını ala bildik.

Bilirsiniz, indi insanlar rahat yaşayır və artıq keçmişi unudurlar. Bəziləri elə bilir ki, belə də olmalı idi, belə də normaldır. Amma ay yoldaşlar, ay qardaşlar, ay bacılar, axı bu belə deyildir. Biz buraya nə qədər çətinliklərlə gəldik. Azərbaycanı daxildə nə qədər yaramaz ünsürlərdən təmizlədik, düşmən ünsürlərdən təmizlədik. [275-276] Azərbaycana xaricdən təzyiq etmək, respublikanı təsir altına almaq, Azərbaycanı öz əlinə keçirmək cəhdlərinin qarşısını aldıq. Bunlar hamısı bizim düzgün, doğru daxili və xarici siyasətimizin nəticəsidir.

Siz indi iqtisadi islahatların nəticəsini görürsünüz. Bunu deməyə ehtiyac yoxdur. Mən sizə bildirmək istəyirəm ki, Azərbaycanın dövləti çox möhkəmdir, Azərbaycanın dövləti bundan sonra da müstəqil, sərbəst daxili və xarici siyasət aparmağa qadirdir və Azərbaycanın dövlət müstəqilliyi, daxili ictimai-siyasi sabitliyi günü-gündən möhkəmlənəcəkdir.

Bizim qarşımızda duran vəzifə ondan ibarətdir ki, Azərbaycanın hər bir vətəndaşı respublikamızın bu böyük məqsədlərinin həyata keçirilməsinə kömək etsin, öz payını versin, öz səylərini qoysun. Dövlət müstəqilliyi əldə etmək bizim üçün böyük nailiyyətdir. Amma onu qoruyub saxlamaq çox çətindir. Görürsünüz ki, bu ötən illər ərzində Azərbaycanın dövlət müstəqilliyi neçə dəfə böyük təhlükə altında olmuşdur. Biz bunu qoruyub saxlamışıq.

Ancaq bu o demək deyil ki, biz indi sayıqlığımızı itirməliyik, arxayınlaşmalıyıq və düşünməliyik ki, artıq hər şey rahatdır. Yox, biz hər gün Azərbaycanın dövlət müstəqilliyini qorumaq üçün çalışmalıyıq, hər gün düşünməliyik ki, Azərbaycanın həm coğrafi, həm geosiyasi vəziyyəti, həm təbii sərvətləri, həm də bütün başqa xüsusiyyətləri ölkəmizə bir çox istiqamətlərdən böyük marağı artırmışdır. İkinci tərəfdən, təəssüf ki, hələ də Azərbaycanın daxilində öz şəxsi mənafeləri naminə, şəxsi məqsədləri naminə bəzən xaricdən xüsusi xidmət orqanları ilə əlaqədar Azərbaycanın dövlət müstəqilliyinə qəsd etmək istəyən qüvvələr də tamamilə yoxa çıxmayıbdır. Onlar hələ də var. Ona görə də biz daim bu məsələni diqqət mərkəzində

saxlamalıyıq və daim sayıq olmalıyıq, Azərbaycanın dövlət müstəqilliyini daim möhkəmləndirməliyik. [276-277]

Mənim xatirimdədir, 1991-ci ilin mart ayında Ali Sovetin sessiyasında SSRİ-nin qorunub saxlanılması haqqında referendum barəsində müzakirə gedərkən, mən o vaxt da qətiyyətlə dedim ki, Sovetlər İttifaqı dağılır, biz nəyin bahasına olursa-olsun müstəqilliyi əldə etməliyik. Biz bunu etməsək böyük günah etmiş olarıq. Əgər etməsək, onsuz da bunu gələcək nəsillər edəcəkdir. İndi siz görürsünüz ki, artıq dövlət müstəqilliyi reallığa çevrilibdir. İndi isə mən deyirəm ki, biz nəyin bahasına olursa-olsun, bütün çətinliklərə dözərək, bütün məhrumiyyətlərə dözərək Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamalıyıq. Bu bizim müqəddəs borcumuzdur. Yenə də deyirəm, bunun üçün Azərbaycanın hər bir vətəndaşı öz payını verməlidir. Bunun üçün Azərbaycanın ağır keçid dövründə, xüsusən xaricdən cürbəcür təsirlərə məruz qaldığı bir dövrdə respublikamızın daxilində olan qüvvələr öz şəxsi iddialarından, öz şəxsi ambisiyalarından əl çəkməlidirlər.

Mən bu baxımdan bir neçə kəlmə Azərbaycanda çoxpartiyalı sistem haqqında öz fikirlərimi demək istəyirəm. Azərbaycanın reallığı ondan ibarətdir ki, bu, bizim Konstitusiyada öz əksini tapıbdır. Azərbaycan bundan sonra da daimi olaraq demokratik prinsiplərə sadiq olacaqdır, insan azadlıqlarının hamısı təmin ediləcəkdir, ölkəmizdə demokratiya günü-gündən genişlənəcəkdir, əsaslı kök salacaqdır və demokratiya Azərbaycanda dönməz, sarsılmaz olacaqdır. Heç kəs bizi Azərbaycanın demokratiya yolundan döndərə bilməz. Fikir müxtəlifliyi tamamilə təbii bir haldır. Keçmişdə yaşadığımız cəmiyyətdə bir fikir var idi, o da bir partiyanın fikri, bir ideologiya idi. Hamımız o fikirlə düşünür, o fikirlə yaşayırdıq. İndi insanlar sərbəstdir. Demokratiya, fikir müxtəlifliyi bir-birilə sıx bağlı amillərdir. Azərbaycanda siyasi plüralizm, fikir müxtəlifliyi mövcuddur və bu, günü-gündən möhkəmlənəcəkdir. Mən, bir dövlət başçısı kimi, [277-278] bunu təmin etmək üçün çalışmışam və bundan sonra da çalışacağam. Bunların hamısı Azərbaycanda çoxpartiyalı sistemin mövcud olmasını təbii bir hal kimi meydana çıxarır və Azərbaycanda çoxpartiyalı sistem var, mövcuddur.

Burada qeyd olundu ki, respublikamızda qeydiyyata alınmış 30-dan artıq siyasi partiya var. Mən, bir dövlət başçısı kimi, hər bir partiyanın tam sərbəst, azad, müstəqil fəaliyyət göstərməsinin təminatçısıyam. Mən bunu prezident kimi xalq qarşısında and içərkən bəyan etmişəm, bu gün də təkrar edirəm. Biz çalışmalıyıq ki, hər bir siyasi partiyanın fəaliyyət göstərməsi üçün bütün imkanlar yaransın. Baxmayaraq ki, bizim partiya yaranarkən ona fəaliyyət göstərməyə imkan vermirdilər. Biz o pis hərəkətlərdən düzgün nəticə çıxarmalıyıq və bütün partiyalara imkan verməliyik ki, normal fəaliyyət göstərsinlər. Ancaq bizim Konstitusiyamız, qanunlarımız hər bir siyasi partiyanın, hər bir siyasi qurumun, hər bir təşkilatın Azərbaycanın qanunları çərçivəsində fəaliyyət göstərməsini tələb edir. Fikir müxtəlifliyi, siyasi plüralizm, çoxpartiyalılıq qanunun aliliyi ilə üzvü surətdə bağlıdır. Partiyalar məhz qanunların aliliyi şəraitində fəaliyyət göstərməlidir. Hamı qanuna tabe olmalıdır, heç kəs qanunu pozmamalıdır, heç kəs özü üçün müstəsna hüquq tələb etməməlidir. Buna heç kəsin haqqı yoxdur.

Bilirsiniz, heç kəs deyə bilməz ki, mənim filan vaxt filan xidmətim olubdur, filan vaxt meydanda bir az çox qışqırmışam, yaxud da az qışqırmışam, mənim qanunu pozmağa ixtiyarım var. Yox, artıq bizdə hüquqi dövlət yaranıbdır. Artıq bizim çox dəyərli Konstitusiyamız var, çox dəyərli qanunlarımız var, bizim çox dəyərli parlamentimiz var və çox dəyərli dövlət strukturlarımız var. Ona görə də kiminsə qanunu pozmasına yol vermək olmaz. Bilmək lazımdır ki, biz buna yol verməyəcəyik. Mən bunu xüsusi olaraq ona görə deyirəm ki, Azərbaycanda milli dirçəliş hərəkatı başlayanda [278-279] ayrı-ayrı hərəkatların, təşkilatların yaranması, partiyaların yaranması kommunist dövründə olmuşdur. Bunlar hamısı o kommunist rejiminə müxalifətdə olduğuna görə, o vaxtlar kommunist rejimi çox qanunsuz hərəkətlər etdiyinə görə bunlar da qanunsuz hərəkətlər edərək onlara qarşı çıxışlar etmişlər. Bunların çoxu öyrənmişlər ki, bu, belə olar. Doğrudur, o vaxt da bu qanunsuz hərəkətlər olmamalı idi. Ancaq nə olub-olubdur, keçmişdə qalıbdır. Bu gün və bundan sonra biz heç bir qanunsuz hərəkətə yol verə bilmərik və yol verməyəcəyik.

Hər bir partiya qanun çərçivəsində fəaliyyət göstərməlidir və qanundan kənara çıxmamalıdır. Əgər hansısa partiyanın qanuni hüquqları pozulursa, şübhəsiz ki, dövlət bunun qarşısını almalıdır. Biz buna cavabdehik. Ancaq eyni zamanda biz qanunun pozulmasına da yol verməyəcəyik. Qanunu pozanlar qanun qarşısında cavabdehdirlər və cavabdeh olmalıdırlar. Mən bunu ona görə deyirəm ki, təəssüf ki, yaxın keçmişə qədər bizdə partiyaların hətta silahlı dəstələri var idi. Məsələn, Xalq Cəbhəsi yaranandan onun silahlı dəstələri olubdur. Nəyə görə olubdur? Mən bunu bilmirəm və qəbul edə bilmirəm. Deyirlər ki, onların könüllü dəstələri olubdur ki, gedib torpaqları müdafiə etmək üçün vuruşsunlar. Nə cür vuruşublar - biz onların hamısını gördük və nə nəticələrə gətirdi - onları da gördük. Ancaq tutaq ki, hansısa könüllü dəstələr olubdursa və onlar gedib torpaqları müdafiə etmək üçün öz silahlı dəstələrindən istifadə ediblərsə, onlar bundan partiyanın, yaxud da hansısa bir cəmiyyətin, təşkilatın daxili məqsədləri üçün istifadə edə bilməzlər.

Yenə də Naxçıvandakı həyatıma qayıdıram. Mən Naxçıvanda Ali Məclisin sədri olarkən Xalq Cəbhəsi öz silahlı dəstələri ilə orada istədiyini edirdi. O zaman Xalq Cəbhəsi Azərbaycanda hakimiyyətdə idi. Həm Daxili İşlər Nazirliyi var idi, həm orada ordu hissələri var idi, həm də [279-280] Xalq Cəbhəsinin

silahlı dəstələri var idi. Əlində qeyri-qanuni silah olan adam şübhəsiz ki, həmin silahdan qeyri-qanuni istifadə edəcəkdir, cinayət törədəcəkdir, bu da cəmiyyətə ziyan verəcəkdir. Bunlara yol vermək olmaz.

Amma bir o deyil. 1993-cü ildə mən Bakıya gələn zaman şübhəsiz ki, burada ayrı-ayrı partiyaların silahlı dəstələri var idi. Bu, bir 1993-cü ildə deyildi, 1994-cü ildə də var idi. Əgər onların silahlı dəstələri var idisə, demək, o birilərin də silahlı dəstələri var idi.

Mənim xatirimdədir, Surət Hüseynov baş nazir olarkən bir neçə dəfə mənimlə danışdığı zaman, - bu söhbət 1994-cü ilin təxminən ortalarında olub, o mənə dedi ki, bəs Xalq Cəbhəsinin orada silahlı dəstəsi var, burada silahlı dəstəsi var. Sonra dedi ki, mənim də silahlı dəstəm var. Dedim ki, bəs sənin nə silahlı dəstən var? Dedi ki, indi Azərbaycanda hamının silahlı dəstəsi var. Başqalarının var, mənim niyə olmasın? Dedim, sən silahlı dəstəni nə cür saxlayırsan, necə saxlayırsan? Axı onları yedirtmək lazımdır, içirtmək lazımdır. Dedi ki, mən bunların hamısını təşkil eləyirəm.

Bax, mən belə şəraitdə işləyirdim.

Bəli, Surət Hüseynovun da silahlı dəstəsi var idi. Elə həmin Xalq Cəbhəsinin özü o silahlı dəstələrdən istifadə edərək, başqa silahlı dəstələrin təşkilinə şərait yaratdı. O silahlı dəstələr də gəldi, bunların başına bax, bu bəlanı gətirdilər.

1994-cü ildə də bu silahlı dəstələr mövcud idi. 1995-ci ildə biz OMON-la rastlaşdıq. OMON-dakı olan adamlarda olan silah dövlətin silahı deyildi. Onlar artıq dövlətin tabeliyindən çıxmışdılar. Dövlətin silahlarından, yəni Daxili İşlər Nazirliyinə mənsub olan silahlardan başqa, onların hər birinin özünün həddindən artıq silahları var idi. 8-ci kilometr qəsəbəsində olan bazarda onların topları, qumbaraatanları, nələri-nələri yox idi! Hamısını qeyri-qanuni olaraq yığmışdılar. Onlar da axırda gəldilər o silahlı dəstələrlə birləşdilər. [280-281] Ayrı-ayrı siyasi partiyalar da onlara dəstək verdi və xarici ölkələrin bəzi xüsusi xidmət orqanları bir ölkədən, o biri ölkədən onlara dəstək verdilər. Onlar da Azərbaycanda dövləti devirmək niyyətinə düşdülər və dövləti devirmək üçün Azərbaycanı qanlı faciəyə gətirib çıxardılar. Bu, bizim həyatımızın faciəvi keçmişidir. Bu keçmişi biz unutmamalıyıq. Ona görə də artıq bunlara son qoyduğumuz üçün bundan sonra heç bir təşkilata, heç bir partiyaya heç bir silahlı dəstə saxlamağa imkan verə bilmərik.

Partiyalar dünya təcrübəsində mövcud olan partiya mədəniyyəti çərçivəsində, qanunlar çərçivəsində hərəkət etməlidirlər. Partiyaların bir çoxu müxalifətdə olan partiyalardır. Ancaq indi biz gərək iqtidar-müxalifət əlaqələrində də dünya təcrübəsini mənimsəyək və Azərbaycanda iqtidar-müxalifət mədəniyyəti yaradaq.

Bilirsiniz, bunlar hamısı bizim üçün yeni bir şeydir. Çünki Azərbaycanda erkən yaranmış siyasi partiyanın altı yaşı var. Yeni Azərbaycan Partiyasının indi beş yaşı var. Amma ondan qabaq yarananların altı yaşı var. Bundan artıq yaşı yoxdur ki? Altı il elə böyük bir dövr deyil. Eyni zamanda bu altı il Azərbaycanda qarmaqarışıq dövr olub, burada vaxtilə hakimiyyətsizlik, özbaşınalıq, cürbəcür qanunsuzluq və s. hökm sürüb. Bəziləri hesab edirlər ki, bu belə də ola bilər. Ancaq müxalifət gərək müxalifətçilik mədəniyyətini mənimsəsin. Müxalifətdə olmaq düşmənçilik etmək deyil. Ancaq təəssüflər olsun ki, indi Azərbaycanda müxalifətdə olan bir çox partiyalar özlərini iqtidara qarşı düşmən ediblər və düşmən kimi göstəriblər. Bu, belə yaramaz.

Bəzən mən görürəm və qəzetlərdə də oxumaq olur ki, iqtidar gərək müxalifətlə hesablaşsın, müxalifətlə əlaqə saxlasın. Bəli, bu, düzgün fikirdir. Amma kim kiminlə əlaqə saxlamalıdır? Müxalifət iqtidarla əlaqə saxlamalıdır. Müxalifət düzgün hərəkət etməlidir, qanun çərçivəsində hərəkət [281-282] etməlidir, iqtidara qarşı düşmənçilik nümayiş etdirməməlidir və düşmənçilik fikrində olmamalıdır. Müxalifət iqtidarı tənqid edə bilər, etməlidir, iqtidarın səhvlərini göstərməlidir, iqtidarın fikrindən fərqli olan öz fikrini bildirməlidir, - bunlar təbii haldır. Amma düşmənçilik etməməlidir. Bir də, bu müxalifət qəzetlərindən istifadə edib cürbəcür yalan, böhtan, uydurmalar, şayiələr yazmamalıdırlar. Mətbuat azadlığından, söz azadlığından sui-istifadə edib, xüsusən iqtidara qarşı cürbəcür böhtan, yalan yazanlar, uydurmalar yayanlar cinayət edirlər, onlar sadəcə xuliqanlıq edirlər. Ancaq xuliqanlıq, cinayət heç vaxt heç bir siyasi partiya üçün, heç bir qəzet üçün hörmət gətirə bilməz.

Ona görə də müxalifətdə olan partiyalar bilməlidirlər ki, Azərbaycanda müxalifət mövcuddur və bundan sonra da olacaqdır. Müxalifətin normal fəaliyyət göstərməsi üçün bütün imkanlar yaradılıb, bundan sonra da yaradılacaqdır. Ancaq heç kəs bundan sui-istifadə etməməlidir. Mən bunu xüsusi vurğulayıram və xəbərdarlıq edirəm ki, heç bir partiyada heç bir silahlı qüvvə olmamalıdır və hər bir siyasi partiya ancaq siyasi yollarla mübarizə aparmalıdır, başqa yollara əl atmamalıdır.

Əgər bu günlər Müsavat Partiyasının ən yüksək üzvlərindən biri 1995-ci ildə OMON-un təşkil etdiyi dövlət çevrilişi planlarını hazırlayanlardan biri idisə və xarici xidmət orqanları ilə, bir ölkənin səfirliyinin buradakı işçiləri ilə birlikdə həmin o dövlət çevrilişinin planlarını hazırlayan adam idisə və iki gündən bir gecələr Fərman Dəmirqol ilə və başqaları ilə gedib Rövşən Cavadovun evində gecə saat ikiyə qədər onun beynini zəhərləyirdisə, - ondan sonra ifşa olundu, həbsxanaya düşdü, xəstələndi, guya həbsxana xəstəsi oldu və xəstəliyinə görə azad olundu, amma hələ onun cinayət işi kəsilməyib, - indi gedib Müsavat Partiyasının liderlərindən [282-283] biridirsə, bu, Müsavat Partiyasına heç vaxt hörmət gətirə bilməz.

Mən Xalq Cəbhəsinin keçmişdə xidmətlərini qeyd etmişəm və bu gün də qeyd edirəm. 17 noyabr - Milli Dirçəliş Günü münasibətilə həmin dirçəliş gününün o vaxtkı təşkilatçıları televiziya ilə çıxış etdilər. Mən o çıxışlara diqqətlə qulaq asdım. Onlar özləri etiraf etdilər ki, o vaxt xalq meydana kortəbii toplaşmışdı. Bəziləri dedilər ki, guya onları KQB təşkil etmişdi, bəziləri də dedi ki, xalq kortəbii toplaşmışdılar. Mən nə o fikri, nə də bu fikri deyə bilərəm, bu mənim işim deyil. Artıq o keçmişdə qalıbdır - biri belə, biri elə deyir. Ancaq hər halda bir şeyi etiraf etdilər ki, onlar xalqın gəlib oraya toplaşmasını təşkil etməmişdilər. Biri deyir ki, bunu KQB təşkil etmişdi, biz sadəcə əlimizə keçirdik, o biriləri də deyir ki, xalq kortəbii toplaşmışdı, biz də getdik buna rəhbərlik etdik.

Amma onlar ki, o vaxt xalqın hakimiyyətə qarşı etirazına rəhbərlik ediblər və ondan sonra da bunu bir təşkilat kimi yaradıblar, Azərbaycanın o vaxtkı hakimiyyətinə, kommunist rejiminə qarşı olan nifrətin, etirazın hamısını bir yerə toplayıb bu xalqı təşkilatlandırıblar və nəticədə Xalq Cəbhəsi yaranıb, - bu, bizim tariximizdə müsbət hadisədir. Mən onların kimliyindən, şəxsiyyətindən, mənə münasibətlərindən, mənim onlara münasibətimdən asılı olmayaraq bunu müsbət qiymətləndirirəm. Bu baxımdan o dövrdə Xalq Cəbhəsinin fəaliyyətini müsbət qiymətləndirirəm.

Ancaq Xalq Cəbhəsinin ən böyük faciəsi hakimiyyətə gələndən sonra oldu. Həmin bir il müddətində görülən iş onları tamamilə nüfuzdan saldı. Əgər ondan bir il öncə xalqın o vaxtkı iqtidara qarşı nifrətindən istifadə edib, xalqı öz arxasınca aparıb, o iqtidarı kənarlaşdırıb hakimiyyətə gəldilərsə, bir ildən sonra Surət kimi bir quldurun, banditin hərbi dəstəsinin qabağında dura bilmədilər. Çünki niyə? Xalq [283-284] bunların arxasından qaçdı, bunları müdafiə etmədi. Ona görə də mən Xalq Cəbhəsinin o dövrdəki fəaliyyətini müsbət qiymətləndirərək, eyni zamanda Xalq Cəbhəsinin sırasında terroristlərin, ayrı-ayrı cinayətkar dəstələrin olmasını heç vaxt qəbul edə bilmərəm.

İndi burada qəzetlərdə yazırlar ki, Naxçıvanda filankəsi həbs etdilər və sair. Həbs edilən o adamların bəzilərini mən o vaxtdan tanıyıram. Nə üçün həbs etdilər? Çünki onlar qanunu pozdular, gizli silah saxladılar, silahdan öz şəxsi məqsədləri üçün istifadə etdilər, qanun-qaydanı dağıtdılar. Şübhəsiz ki, onlar qanun qarşısında cavab verməlidirlər.

Ona görə də mən Xalq Cəbhəsinə o vaxtkı münasibətimi bildirərək, Xalq Cəbhəsinin bu gün də bir təşkilat kimi Azərbaycanda mövcudluğunun və fəaliyyət göstərməsinin təbii olduğunu söyləyərək bildirmək istəyirəm ki, onlar o keçmiş metodlarından, hərəkətlərindən əl çəkməlidirlər. Azərbaycanda zorakılıq, silah işlətmək artıq keçməyəcəkdir. Yenə də deyirəm, heç bir partiyanın, təşkilatın silahlı dəstəsi ola bilməz. Silah ancaq dövlətə mənsubdur və qeyri-qanuni silah saxlayan hər bir şəxs, hər bir təşkilat Cinayət Məcəlləsinin müvafiq maddələrinə görə cinayət məsuliyyətinə cəlb olunmalıdır. Bunu hamı bilməlidir.

Bax, bu baxımdan mən hesab edirəm ki, biz Azərbaycanda demokratiyanı inkişaf etdirərək, siyasi partiyaların fəaliyyət göstərməsinə geniş imkanlar yaradaraq, eyni zamanda hər bir işi dünya təcrübəsi, dünya mədəniyyəti, siyasi fəaliyyət mədəniyyəti səviyyəsinə çatdırmalıyıq. Bəlkə də o dövrdə olan hadisələr keçid dövrünün xəstəlikləri olub. Amma indi hamı bu xəstəliklərdən xilas olmalıdır.

Bizim apardığımız işlərin hamısı sizə məlumdur. Ancaq qarşımızda duran ən əsas vəzifə Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, işğal olunmuş torpaqları azad etmək və qaçqınları öz yerlərinə-yurdlarına qaytarmaqdır. [284-285]

Bizim bu barədə apardığımız işləri siz bilirsiniz, bunlar hamısı mətbuatda verilir. ATƏT-in Minsk qrupunun son təklifləri də sizə məlumdur. Sentyabr ayında verilən son təklif məsələni iki mərhələdə həll etməkdən ibarətdir. Birinci mərhələdə, işğal olunmuş altı rayonu işğalçı Ermənistan silahlı qüvvələrindən azad etmək, təmizləmək və həmin rayonların ərazisinə oranın sakinlərini qaytarmaq, ikinci mərhələdə isə Laçın və Şuşa rayonlarının azad olunması məsələsi ilə bərabər, Azərbaycan dövləti tərkibində Dağlıq Qarabağın statusunun muəyyən edilməsi məsələləri nəzərdə tutulur. Biz bunu qəbul etmişik.

Ermənistanın rəhbərliyi də və şəxsən prezidenti Ter-Petrosyan da bunu qəbul edibdir. Ancaq bu məsələnin indi ləngiməsi onunla əlaqədardır ki, Dağlıq Qarabağı idarə edənlər hələ bununla razı olmurlar.

Mən bildirmək istəyirəm ki, Ermənistan Respublikasının rəhbərliyində son vaxtlar müəyyən konstruktiv meyllər artıbdır. Sizə məlumdur ki, Ermənistan prezidenti Ter-Petrosyan bu barədə öz baxışlarını, fikirlərini mətbuatda açıqlayıbdır. Bu, Moskvada «Nezavisimaya qazeta»da da, Ermənistan mətbuatında da dərc olunmuşdur. Həm Strasburqda, həm də Kişinyovda görüşlərimizdə mən Ter-Petrosyanla bu barədə söhbət etmişəm və o, bu fikirlərin tam arxasında durduğunu bildirmişdir. Onun fikirləri sizə məlumdur.

Ermənistan Respublikası rəhbərliyinin və prezidentinin bu addımını, bu cür münasibətini şəxsən mən müsbət qiymətləndirirəm və hesab edirəm ki, bu, bizim sülh danışıqlarımızın irəli getməsinə kömək edəcəkdir. Ancaq dediyim kimi, Dağlıq Qarabağ hələ ki, bu təkliflərə cavab verməyibdir.

Minsk qrupunun həmsədrləri bu yaxınlarda yenə də bölgəyə gələcəklər, Azərbaycanda, Ermənistanda olacaqlar, Dağlıq Qarabağa gedəcəklər. Biz bu danışıq prosesini aparırıq. [285-286]

Bir məsələni də bildirmək istəyirəm ki, Minsk qrupunun həmsədrləri, xüsusən Amerika Birləşmiş Ştatlarının prezidenti Bill Klinton, Rusiyanın prezidenti Boris Yeltsin, Fransanın prezidenti Jak Şirak bu məsələlərin həll olunmasına çox böyük maraq göstərirlər, onların tabeliyində bu işlə məşğul olan şəxslərə çox ciddi göstərişlər də vermişlər.

Sizə məlumdur ki, mən Strasburqda olarkən Fransa prezidenti Jak Şirakla geniş danışıq aparmışam. O, bundan sonra Ermənistan prezidenti ilə danışıq aparmışdır. Sonra Jak Şirakla mənim telefon əlaqəm olubdur. Mən bunların hamısını müsbət qiymətləndirirəm.

Biz bu məsələlər barəsində, özümüzün apardığımız siyasət haqqında Azərbaycanın parlamentinə məlumat vermişik. Mənim tapşırığımla xarici işlər naziri Həsən Həsənov bu barədə Milli Məclisdə məruzə etmişdir və məsələ müzakirə olunmuşdur. Milli Məclisin üzvləri bizim siyasətimizi dəstəkləmişlər. Beləliklə, bu, ictimaiyyətə məlumdur.

Müxalifətdə olan partiyaların, təşkilatların əksəriyyəti bizim bu siyasətimizi qəbul etmirlər, cürbəcür bəyanatlar verirlər. Mən buna da tam normal baxıram, - hərənin öz fikri ola bilər. Biri deyir, Dağlıq Qarabağa ancaq mədəni muxtariyyət vermək olar, biri deyir, məsələni güclə həll etmək lazımdır, güclü ordumuz olmalıdır, güclü ordumuz yoxdur, ona görə də biz buna gedirik və sairə. Bilirsiniz, bunlar hamısı əsassız şeylərdir. Ancaq eyni zamanda, hüquqları var, hərə öz fikrini deyə bilər. Qoy bizim ictimaiyyət, xalq dövlətin də fikrini, müxalifətdə olan partiyaların, təşkilatların da fikrini bilsin. Xalq özü müəyyən etsin ki, hansı yol daha da uyğundur. Biz hesab edirik ki, bu yol uyğundur.

Mən dəfələrlə demişəm və bu gün bir daha bəyan edirəm ki, müharibə yolu nə bizim üçün, nə də ümumiyyətlə, bölgə üçün məqbul yol deyil. Məsələnin sülh yolu ilə həll olunması tam məqbuldur və bunun üçün biz, çətin də, ağır da olsa, ötən [287-288] dövrdə xeyli iş görə bilmişik. Azərbaycanın vəziyyəti, həqiqətləri artıq dünyaya məlumdur. Artıq dünyaya məlumdur ki, Ermənistan təcavüzkardır. Bu yaxın vaxtlara qədər hər yerdə Azərbaycanı günahlandırırdılar, ittiham edirdilər ki, Azərbaycan erməniləri əzib, soyuqda qoyub, blokadaya alıb, bunu edib, onu edib. İndi vəziyyət tamamilə dəyişilib, yəni reallıq dünyaya çatdırılıbdır. Siz mənim bütün beynəlxalq təşkilatlardakı çıxışlarımın hamısını eşidirsiniz. Mən açıq-aydın, kəskin çıxışlar edirəm. Bu çıxışlar artıq olduqca normal qəbul olunur və beynəlxalq təşkilatlar, onların iştirakçıları, dövlət, hökumət başçıları bizim dediyimiz bu sözlərə inanırlar. Ermənistan demək olar ki, bu sahədə əvvəlki vəziyyətində deyil. Onlar özləri də bunu etiraf edirlər.

Bu onu göstərir ki, biz dünya ictimaiyyətinə, dünyanın böyük dövlətlərinə vəziyyəti doğru-düzgün çatdırandan sonra ədalətli sülh əldə etmək imkanına daha da yaxınlaşmışıq. Ona görə də biz bu yolla gedirik və belə hesab edirik ki, bu yolla da getməliyik. Biz bu yolla getməkdə davam edəcəyik və güman edirəm ki, Minsk qrupunun həmsədrləri bu yaxınlarda Azərbaycana gələrkən biz bu barədə yeni məlumatlar ala biləcəyik.

Bəli, hər kəs öz fikrini bildirə bilər. Müxalifət qəzetlərində bu barədə dərc edilən yazılar bizi narahat etmir. Ancaq bizi narahat edən odur ki, - mən bunu dedim, bu fikrə bir də qayıtmaq istəyirəm - çox yalanlar, şayiələr yayılır. Respublikamızda guya insan hüquqlarını qoruyan bəzi təşkilatlar, yaxud da siyasi partiyalar Azərbaycan haqqında dünyaya yalanlar çatdırırlar. Bilirsiniz, bu, Azərbaycana, Azərbaycan xalqına düşmənçilikdir, başqa heç bir şey deyildir. Guya Azərbaycanda hansısa dustağın hüquqları pozulur. Hansı dustağın hüququ pozulub? Heç bir dustağın, heç bir həbsxanada heç kəsin hüququ pozulmur. Ancaq bu yalan şeyləri uydurmaq, yaymaq və Azərbaycan haqqında bu cür [287-288] mənfi fikir yaratmaq kimə kömək edir? Müxalifətdə durmaq olar, dur. Azərbaycanın hansı tərəfini istəyirsənsə tənqid et, amma dünyada Azərbaycanı ləkələyən yalan, uydurma sözləri yazma. Bunu yazanlar, bunu yayanlar Azərbaycana xəyanət edənlərdir. Bunlar ayrı-ayrı xarici ölkələrin xüsusi xidmət orqanlarına pulla xidmət edən adamlardır və həmin orqanların çoxunda da ermənilərin əlləri var, bizim düşmənlərimizin əlləri var. Onlar öz pullarından istifadə edərək o xüsusi xidmət orqanları vasitəsilə, ayrı-ayrı təşkilatlar vasitəsilə Azərbaycanda bəzi yaramaz adamları ələ alırlar, bunlar da həmin pula xidmət edərək Azərbaycan haqqında bu cür iftiralar, böhtanlar, yalanlar yayırlar. Bu, ən dəhşətlisidir.

Bu barədə bizim millətimizdə böyük bir çatışmazlıq var. Siz bilirsiniz ki, 1996-cı ilin dekabr ayında keçirilən Lissabon zirvə görüşündə Azərbaycanın əldə etdiyi nailiyyət məlumdur. Bunu artıq bütün dünya deyir. Düzdür, burada müxalifətdə olan qüvvələr yenə də bunu belə qələmə verdilər ki, guya Azərbaycan orada heç bir nailiyyət əldə etməyib, əksinə, guya çox uduzub. Belə-belə şeylər deyirlər. Amma biz buna fikir vermədik.

Bilirsiniz ki, indi Ermənistanda ən böyük dərd həmin o Lissabon zirvə görüşüdür. Ermənistanda hakimiyyəti həmin bu zirvə görüşünə görə tənqid edirlər ki, nə üçün Ermənistanın nümayəndə heyəti Lissabonda delə bir qərarın qəbul edilməsinə imkan verib. Ona görə də bundan nəticə çıxarmaq olar ki, kim hansı nailiyyət əldə edibdir. Amma iş onda deyil, iş ondadır ki, Amerikada yaşayan və mövcud olan cürbəcür 50-60 erməni təşkilatı Amerikanın prezidenti Bill Klintona məktublar yazdılar və ona irad tutdular ki, nə üçün o imkan verdi, Lissabon zirvə görüşündə Ermənistan–Azərbaycan münaqişəsi haqqında belə bir qərar qəbul olundu.

Görün, Amerikada yaşayan ermənilər - öz aralarında nə varsa, özləri bilirlər - amma ümumi milli mənafe meydana [288-289] çıxanda onları heç kəs idarə etmədən öz ölkələrinin prezidentini günahlandırdılar ki, nə üçün o, Lissabon zirvə görüşündə belə bir qərarın qəbul edilməsinə imkan veribdir.

İkinci fakt. Mənim Amerikaya rəsmi səfərim ərəfəsində erməni təşkilatları orada nə qədər canfəşanlıq etdilər, nə qədər fəaliyyətlər göstərdilər. Prezident Bill Klintona məktublar yazdılar ki, Heydər

Əliyevin Amerika Birləşmiş Ştatlarına səfəri ləğv olunsun. Amerika Konqresində 60 korqresmenə imza atdırdılar və onların imzaları ilə Bill Klintona məktub gətirdilər ki, Heydər Əliyevin ABŞ-a səfəri ləğv edilsin.

Mən ora gedəndə onların cürbəcür hərəkətləri naticə vermədi. Sonra mənim şəklim və cürbəcür yazılar olan 50 min məktub hazırladılar, ermənilərə payladılar ki, hər bir erməni bunu imzalasın və Azərbaycan prezidenti Heydər Əliyevin Amerikaya rəsmi səfərinə etiraz əlaməti olaraq prezident Bill Klintona göndərsin. Onların heç birisini Ermənistandan heç kəs idarə etmirdi. Onlar öz ermənilərinə, erməni təəssübkeşlərinə, Ermənistanla Azərbaycan arasındakı münaqişəyə görə bu hərəkətləri edirdilər. Görün, onlarda milli təəssübkeşlik nə qədər yüksək səviyyədədir.

Ancaq bunun müqabilində biz nə gördük? Müxalifətdə duran ayrı-ayrı qüvvələr burada, Azərbaycanda olmayan şeyləri yalandan, böhtançılıqla uydurub cürbəcür beynəlxalq təşkilatlara, ölkələrə göndərirlər ki, sübut etsinlər ki, guya Azərbaycanda demokratiya yoxdur. Həmin ermənilər də sübut etmək istəyirlər ki, Azərbaycanda demokratiya yoxdur, bunlar da sübut etməyə çalışırlar ki, Azərbaycanda demokratiya yoxdur. Bəs siz kimə xidmət edirsiniz?

Azərbaycanda demokratiya da var, insan hüquqları da qorunur və qorunacaqdır. Azərbaycanda insan azadlıqlarının hamısı təmin olunubdur. Azərbaycanda mətbuat azadlığı var, siyasi plüralizm var - hamısı var. Bunların hamısı da bizim müqavilə, saziş bağladığımız ölkə başçıları tərəfindən etiraf [289-290] olunur. O cümlədən mənim ABŞ-a rəsmi səfərim zamanı Amerika prezidenti Bill Klinton ilə Azərbaycan prezidentinin imzaladığı birgə bəyanatda Azərbaycan respublikasının demokratiya, iqtisadi islahatlar sahəsində nailiyyətləri öz əksini tapıbdır.

Mən bu sözləri ona görə deyirəm ki, Azərbaycanda fikir müxtəlifliyini təmin edərək, eyni zamanda milli vətənpərvərlik, milli təəssübkeşlik unudulmamalıdır. Azərbaycanın daxilində vəziyyəti sarsıtmaq istəyən adamların hamısının qarşısı alınmalıdır və bunlara heç vaxt da yol verilməyəcəkdir.

Yeni Azərbaycan Partiyası bütün bu sahələrdə çox gərgin iş aparır. Mən çox məmnunam ki, Yeni Azərbaycan Partiyasının üzvlərinin sayı artıq 100 mindən çoxdur. Mən çox məmnunam ki, Yeni Azərbaycan Partiyasının gənclər təşkilatı var və burada elan olundu ki, gənclər təşkilatının 30 mindən artıq üzvü var. Bunlar hamısı onu göstərir ki, Yeni Azərbaycan Partiyası Azərbaycanın ictimai-siyasi həyatında görkəmli yer tutaraq Azərbaycan xalqının bu günü və gələcəyi üçün çox faydalı iş görür.

Hesab edirəm ki, Yeni Azərbaycan Partiyası yaranmasının 5-ci ildönümünü qeyd edərək daha da çox təcrübə, güc toplayaraq gələcəkdə daha geniş fəaliyyət göstərəcəkdir. Bu 5 il müddətində Yeni Azərbaycan Partiyası sübut edibdir ki, o, sağlam partiyadır, demokratik prinsiplərə söykənən partiyadır, Azərbaycanın müstəqilliyinin təmin olunması yolunda fəal çalışan partiyadır. Hesab edirəm ki, Yeni Azərbaycan Partiyasının fəaliyyətinə Azərbaycanda maraq günü-gündən artacaq, onun sıraları genişlənəcək, Yeni Azərbaycan Partiyasına gənclər daha da çox maraq göstərəcəklər. Gənclər Yeni Azərbaycan Partiyasının işində daha çox iştirak edəcəklər, gənclər təşkilatı daha da genişlənəcək və Yeni Azərbaycan Partiyası ölkəmizin ictimai-siyasi həyatında [290-291] aparıcı qüvvə olaraq gələcəkdə də Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin möhkəmlənməsi üçün öz xidmətlərini göstərəcəkdir.

Yeni Azərbaycan Partiyası sizin üçün, mənim üçün doğma bir partiyadır. Mən çıxışımın əvvəlində bu partiyanın yaranması prosesini ona görə bir daha yada saldım ki, hamı bilsin, - bu partiyaya hər kəs öz könlü, vicdanı, qəlbi ilə gəlməlidir. Hamı bilsin ki, bu partiya saflıq, saf mənəviyyat üzərində qurulmuş bir partiyadır. Bu partiya Azərbaycanın tarixi köklərinə, milli mənəvi dəyərlərinə söykənən, ümumbəşəri dəyərlərdən bəhrələnən ümumxalq partiyasıdır. Azərbaycanın bütün vətəndaşlarının partiyasıdır. Bu, bir milli çərçivədə olan partiya deyil. Yeni Azərbaycan Partiyası millətindən, dinindən, dilindən asılı olmayaraq Azərbaycanın hər bir vətəndaşı üçün doğma partiyadır.

Yeni Azərbaycan Partiyasının çox parlaq gələcəyi var. Yeni Azərbaycan Partiyası daim yaşayacaqdır. Mən əminəm ki, Yeni Azərbaycan Partiyasına yeni-yeni gənc üzvlər gələcəklər, bu partiyanın prinsiplərini günü-gündən yüksəklərə qaldıracaqlar və Yeni Azərbaycan Partiyası Azərbaycanın gələcəyinə xidmət edəcəkdir.

Yeni Azərbaycan Partiyası 5 ildir yaşayır, böyük sınaqlardan, böyük imtahanlardan keçibdir. Yeni Azərbaycan Partiyası Azərbaycanın ictimai-siyasi həyatında yaşamaq, yaratmaq hüququ əldə edibdir. Yeni Azərbaycan Partiyası daim yaşayacaq və Azərbaycan vətəndaşlarının istək və arzularını əks etdirən böyük bir təşkilat olacaqdır. Sağ olun.

**Sirus Təbrizli** *(Azərbaycan prezidenti, Yeni Azərbaycan Partiyasının sədri Heydər Əliyevə müraciətlə):*

Möhtərəm prezident!

İcazə verin, təntənəli yığıncağın bütün iştirakçıları adından Sizin həm partiyanın yaranması, həm onun bu 5 ildəki fəaliyyəti barədə dediyiniz dəyərli fikirlərə görə, həm də [291-292] respublikada cərəyan edən hadisələrə bu prizmadan çox real, ədalətlə və gələcəyə tuşlanan təhlillərlə qiymət verdiyinizə görə Sizə dərin minnətdarlığımızı bildirək. Vaxtilə bu partiyanı yaradanlar üzünü məhz Sizə tutmuşdular, onlar demək olar ki, bütün xalqın fikrini ifadə edirdilər. Azərbaycan xalqı özünə ləyaqətli rəhbər gətirməyənə qə-

dər sakitləşmədi. Bu gün biz geriyə baxarkən fikirləşirik ki, keçən günlər nə qədər ağır olsa da o qədər şərəflidir. Lakin biz inanırıq ki, gələcəkdə biz daha şərəfli gün görəcəyik. Çünki gələcəyin Sizin kimi - böyük, dahi siyasətçi Heydər Əliyev kimi təminatçısı var. Sizə cansağlığı arzu edirik. Allah Sizə cansağlığı versin, bu partiyanın 10, 20, 50 illik yubiley bayramlarını bizimlə bir yerdə qeyd edəsiniz. Sağ olun. [292]

## VOKALÇILARIN PROFESSOR BÜLBÜL ADINA BİRİNCİ BEYNƏLXALQ MÜSABİQƏSİNİN QALİBLƏRİNƏ MÜKAFAT VƏ DİPLOMLARIN TƏQDİM EDİLMƏSİ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ ÇIXIŞ

*Azərbaycan Dövlət Opera və Balet Teatrı*

*1 dekabr 1997-ci il*

Mən sizin hamınızı bizim görkəmli müğənnimiz Bülbülün xatirəsinə həsr olunmuş müsabiqədə yüksək yer tutduğunuza görə təbrik edirəm. Bu, Azərbaycanda həmin qəbildən ilk müsabiqədir, bu, bizim üçün çox əlamətdar hadisədir və buna böyük əhəmiyyət veririk. Hesab edirəm bizim ictimaiyyətimiz çox məmnundur ki, on beş gündür müsabiqədə seçmə gedir. Siz finişə çıxaraq qalib gəlmiş, fəxri yerlər, prizlər, mükafatlar qazanmısınız. Ən başlıcası isə bu gün hamınız gözəl çıxış etdiniz.

Siz gördünüz ki, Azərbaycan dinləyiciləri klassik musiqini, yüksək vokal sənətini əvvəlki kimi yenə də sevirlər. Siz də bu gün təkcə salondakıları deyil, bütün respublikaya, - çünki bu gecə birbaşa translyasiya edilirdi, - böyük sevinc bəxş etdiniz. Buna görə sağ olun. Ümidvaram ki, bu hadisə Azərbaycanın mədəni həyatının məhz beynəlxalq müsabiqələr keçirilməsi istiqamətində daha da canlanmasının başlanğıcı olacaqdır. Bu gün öyrəndim ki, növbəti müsabiqəni üç ildən sonra - 2000-ci ildə keçirməyi [293-294] qərara almısınız. Biz üç ildən sonra yeni istedadlarla və yəqin ki, sizinlə də görüşü gözləyəcəyik.

Sizi təbrik edirəm. Gözəl fəxri münsiflər heyətini və bizim sevimlimiz İrina Konstantinovna Arxipova başda olmaqla bu on beş gündə burada çalışanların hamısını təbrik edirəm. Sizə səadət, yeni yaradıcılıq uğurları arzulayıram.

**İrina Arxipova:** Çox hörmətli Heydər Əliyeviç, respublikanın bu ağır dövründə incəsənətə, mədəniyyətə və müsabiqənin bütün iştirakçılarına göstərdiyiniz xüsusi diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımızı bildirirəm. [294]

## ÜZEYİR HACIBƏYOV ADINA AZƏRBAYCAN DÖVLƏT SİMFONİK ORKESTRİNİN FƏALİYYƏTİNİ YAXŞILAŞDIRMAQ TƏDBİRLƏRİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan mədəniyyətinin inkişafında, milli və dünya klassik musiqisinin təbliğində Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin rolunu nəzərə alaraq, onun maddi-texniki bazasını möhkəmləndirmək və işçilərinin sosial təminatını yaxşılaşdırmaq məqsədi ilə qərara alıram:

1. Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin işçilərinin aylıq vəzifə maaşları 1998-ci ilin yanvarın 1-dən orta hesabla dörd dəfə artırılsın.
2. Azərbaycan Respublikasının 1998-ci il dövlət büdcəsindən orkestrin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün 500 milyon manat məbləğində vəsait ayrılsın.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri*, 2 dekabr 1997-ci il*
[295]

## AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİNİN GÖRKƏMLİ XADİMİ, PROFESSİONAL VOKAL SƏNƏTİMİZİN BANİSİ BÜLBÜLÜN ANADAN OLMASININ 100 İLLİYİ MÜNASİBƏTİLƏ MÜĞƏNNİNİN BAKIDAKI XATİRƏ EV-MUZEYİNDƏ ÇIXIŞ

*3 dekabr 1997-ci il*

Hörmətli və sevimli Adilə xanım!

Bu evdə - Azərbaycanın bu gözəl guşəsində bir daha olmağıma son dərəcə şadam. Bildiyimiz kimi, bu ev Bülbülün adı ilə bağlıdır. Adilə xanım, mənim ünvanıma söylədiyiniz səmimi sözlərə görə sağ olun. Mən bunu bilirəm və bu sözləri mənə bəslədiyiniz böyük hörmətə aid edirəm.

Siz bilirsiniz ki, mən Bülbülü sağlığında da sevirdim, onun xatirəsinə də böyük məhəbbətlə yanaşıram.

Hörmətli dostlar!

Bu gün biz Bülbülün ev-muzeyindəyik və onun ailə üzvləri ilə görüşürük. Onun həyat yoldaşı Adilə xanım, Polad və ailənin digər üzvləri hamısı bir yerdədirlər.

Bu gün mən çox iftixar hissi keçirirəm ki, biz Bülbülün 100 illik yubileyini təntənə ilə keçirməyə nail ola bilmişik. Məlumdur ki, ölkəmizin həyatında çox çətin və ağır problemlər vardır. Ölkəmiz keçid dövrünü yaşayır. Bir milyondan artıq qaçqınlarımız, o cümlədən Bülbülün doğulduğu yerdən - Şuşadan, Qarabağdan zorla qovulmuş insanların çox hissəsi çadırlarda yaşayır. Problemlərimiz çoxdur. Amma eyni za[296-297]manda biz problemlərə, başımıza gələn faciələrə görə aylarla inildəməməliyik.

Biz bu dərdi çəkərək, problemləri aradan qaldırmağa çalışaraq, eyni zamanda insanları da, mədəniyyətimizi də yaşatmalıyıq və tariximizi də daim qiymətləndirməliyik. Məhz tariximizə böyük hörmət, ehtiram əlaməti olaraq biz böyük Bülbülün 100 illik yubileyini yüksək səviyyədə, təntənəli keçirmək qərarını qəbul etmişik. Mən çox məmnunam ki, bu qərar həyata keçirilir. Nəhayət, bu gün hamımız təntənəli mərasimin iştirakçısı olacağıq.

Bu gün biz Bülbülün məzarını ziyarət etdik. İndi isə Bülbülün yaşadığı evə gəlmişik. Burada Bülbül ab-havası indiyədək yaşayır. Bülbülün həyatını əks etdirən eksponatlar, şəkillər, rəsmlər hamısı bizi bir daha o dövrə qaytarır, o dövrü yadımıza salır. Mən hesab edirəm ki, biz vaxtilə xalqımızın gələcəyi üçün çox əhəmiyyətli bir iş görmüşük, - Azərbaycanın böyük şəxsiyyətlərinin və xüsusən elm, mədəniyyət, incəsənət xadimlərinin xatirəsini əbədiləşdirərək onların ev-müzeylərini yaratmağa başlamışıq.

Xatirimdədir ki, biz o vaxt ilk dəfə böyük bəstəkarımız, dahi Üzeyir Hacıbəyovun ev-müzeyini yaratdıq. Sonra böyük şairimiz Səməd Vurğunun ev-muzeyini yaratdıq. O vaxt biz Azərbaycanın tarixində mühüm yer tutmuş böyük şəxsiyyətlər Üzeyir Hacıbəyovun, Səməd Vurğunun ev-muzeylərindən sonra Bülbülün ev-muzeyinin yaradılması haqqında qərar qəbul etdik. Mən o günləri, ayları da xatırlayıram. Adilə xanım burada dedi, həmin qərar xeyli bundan əvvəl qəbul olunmuşdu, ancaq həyata keçirilməmişdi. Üzeyir Hacıbəyov 1949-cu ildə vəfat etmişdir, amma onun ev-muzeyini biz 1974-cü ildə yaratdıq. Yaxud Səməd Vurğun 1956-cı ildə vəfat etmişdir, biz onun ev-muzeyini 1976-cı ildə yaratdıq. Bülbül 1961-ci ildə vəfat etmişdir, biz onun ev-muzeyini 1982-ci ildə yaratdıq. Bilirsiniz, həyatdan getdikdən sonra onların ev-[297-298]muzeylərinin gec yaranması bizim günahımız deyil. Əksinə, biz öz dövrümüzdə bunları yaratdıq. Amma bizə qədər onlar yaradılmamışdı.

Ona görə də bu gün çox fəxr edirəm ki, mən Azərbaycanın tarixini əks etdirən, xalqımızın tarixində böyük izlər qoymuş, xalqımıza böyük xidmətlər göstərmiş dahi, böyük insanların ev muzeylərinin yaradılmasının həm təşəbbüskarı olmuşam, həm də onların həyata keçirilməsini təmin etmişəm. Mən bu gün fəxr edirəm ki, yenidən Bülbülün ev – muzeyindəyəm. Biz 1982-ci ildə bu ev – muzeyini təntənəli surətdə açdıq. O vaxt biz hamımız buraya toplaşmışdıq. Mən o vaxt burada nitq söylədim, bu muzeyin yaradılmasının nə qədər zəruri olduğunu dedim. Bu gün həmin vaxtdan 15 il keçibdir. Yaratdığın, qurduğun bir əsərə 15 ildən sonra gəlib baxmaq həqiqətən böyük iftixar hissi doğurur. Mən çox sevinirəm. Xatirimdədir, mən Bakıya qayıdandan sonra bir dəfə bu muzeyə gəldim. Ancaq indi Bülbülün yubileyi ilə əlaqədar gəlmişəm.

Bu muzey 15 ildir yaşayır. O, 15 ildir ki, Azərbaycan xalqının mədəniyyətini, incəsənətini, xüsusən Bülbülün yaradıcılığını dünyaya tanıtdırır. Bu muzey onu həm Azərbaycanın həyatına gələn yeni-yeni nəsillərinə, həm də ölkəmizi ziyarət edən qonaqlara tanıtdırır. Bu, böyük bir hadisədir, işdir. Mən 15 il bundan əvvəl muzeyin açılışında söz demişəm, bu gün isə muzeyin 15 illik fəaliyyəti haqqında çıxış edirəm. Mən bu muzeyin fəaliyyətini çox yüksək qiymətləndirirəm.

Dekabrın 3-də Azərbaycan Prezidenti Heydər Əliyev Fəxri xiyabanda dahi müğənni Bülbülün qəbrini ziyarət etmiş, daha sonra Bülbülün Bakıdakı xatirə ev-muzeyinə gələrək Bülbülün yaradıcılığı, pedaqoji, elmi, ictimai fəaliyyətini əks etdirən qiymətli sənəd və materiallarla tanış olmuşdu. [298-299]

* * *

***Bülbülün ev-muzeyinin xatirə kitabında ürək sözləri:***

*«Azərbaycan xalqının böyük oğlu Bülbül mədəniyyətimizin, incəsənətimizin inkişafında əvəzsiz xidmətlər göstərmişdir, böyük irs qoymuşdur. Onun parlaq siması bizim qəlbimizdə daim yaşayacaq, müstəqil Azərbaycanın gələcək nəsilləri üçün örnək olacaqdır.*

*Bülbülün ev-muzeyinə Bülbül işinin, Azərbaycan mədəniyyətinin təbliğində yeni uğurlar arzulayıram.*

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

***3 dekabr 1997-ci il*** *».*
[299]

## AZƏRBAYCAN PROFESSİONAL VOKAL SƏNƏTİNİN BANİSİ BÜLBÜLÜN ANADAN OLMASININ 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİNDƏ NİTQ

*Respublika sarayı*

*3 dekabr 1997-ci il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Sizi böyük Bülbülün 100 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm, Azərbaycan mədəniyyətinin, incəsənətinin çiçəklənməsi naminə uğurlar arzulayıram.

Bülbülün 100 illik yubileyi xalqımız üçün bayramdır. Biz bu gün yubileyin zirvə mərasiminə toplaşmışıq. Ancaq 1997-ci il demək olar ki, Bülbül ili olubdur və xalqımız hər yerdə Bülbülü böyük minnətdarlıqla xatırlayaraq onun yubileyi ilə əlaqədar təntənəli mərasimlər keçiribdir. Müstəqil Azərbaycanın həyatında ilk dəfə vokal sənətinə həsr olunmuş Bülbül adına beynəlxalq müsabiqə keçirilməsi də birinci növbədə Bülbülün xatirəsinə hörmətdir və Bülbülün böyük səyləri nəticəsində Azərbaycan incəsənətində yaranmış professional vokal sənətinin yüksək səviyyədə olmasını nümayiş etdirir.

Bülbül, onun yaradıcılığı Azərbaycan mədəniyyətinin tarixində nadir, parlaq bir hadisədir. Azərbaycanın gözəl guşələrindən biri olan, canımız qədər istədiyimiz Qarabağ torpağında, müqəddəs Şuşa şəhərində dünyaya gəlmiş Bülbül öz fitri istedadı ilə, fədakarlığı ilə Azərbaycan mədəniyyətinin [300-301] parlaq ulduzuna çevrilmiş və bizim milli iftixarımızdır. Bülbülün sənətinin əsasını təşkil edən onun təkraredilməz səsi, fitri istedadı, fədakarlığı və böyük yaradıcılıq yoludur. Bülbül Azərbaycan xalqının həyatında yeni bir bəşəri mədəniyyət nümunəsinin yaranmasının banisi olaraq, eyni zamanda xalqımıza bu sahədə çox uğurlu yollar açmışdır.

Bülbülün yaradıcılığı çox zəngindir. Bizim xalqımızın böyük musiqi mədəniyyəti tarixi var. Azərbaycan xalqının qədim dövrlərdən indiyə qədər yaşayan xalq musiqisi, xalq mahnıları, Azərbaycan muğamları bizim milli sərvətimizdir. Əsrlər boyu xalqımız bu mahnılarla, bu musiqilərlə, bu muğamlarla yaşamışdır və Bülbül də öz yaradıcılıq fəaliyyətinə məhz bu xalq mahnıları ilə, bu muğamlarla başlamışdır. Ancaq ondan əvvəlki böyük sənətkarlardan fərqli olaraq Bülbül həm xalq mahnılarını, xalq musiqisini, muğam musiqisini ən yüksək bəşəri səviyyələrə qaldıra bilmişdir, həm də bizim zəngin muğam, xalq musiqimizin əsasında professional vokal sənətinin yaranmasının banisi olmuşdur. Bunlarla və yaradıcılığının bütün başqa sahələri ilə Bülbül Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətlər göstərmişdir.

Bülbülün yaradıcılığının zirvəsini «Koroğlu» operasında ifa etdiyi Koroğlu rolu təşkil edir. Azərbaycanın dahi bəstəkarı – Üzeyir Hacıbəyovun da yaradıcılığının şah əsəri, zirvəsi «Koroğlu» operasıdır. Bu operanın yaranmasına Üzeyir Hacıbəyovun nə qədər böyük yaradıcılıq səyləri olmuşdursa, o qədər də Bülbülün varlığı və Bülbülün ifaçılıq sənəti kömək etmişdir. Düşünmək olar ki, bəlkə 30-cu illərin əvvəllərində Bülbül bir professional vokal ustası kimi, milli vokal ustası kimi formalaşmış olmasaydı, bəlkə Üzeyir Hacıbəyov da «Koroğlu» kimi ölməz operanı yaratmaqda çətinlik çəkərdi.

Məlumdur ki, Üzeyir Hacıbəyov məhz Bülbülün yüksək səviyyəsini görəndən sonra bəyan etmişdi ki, mən indi milli, professional opera yarada bilərəm. «Koroğlu» operası [301-302] Azərbaycanın musiqi sənətində, incəsənətində, Azərbaycanın mədəniyyətində musiqi dəyərinə görə mükəmməl opera əsəri olduğuna görə çox yüksək qiymətə layiqdir və milli musiqimizin iftixarıdır. Ancaq eyni zamanda «Koroğlu» operasının yaranması Azərbaycanın həyatına musiqi və opera sənətinin təsiri ilə bərabər, Azərbaycanda milli vətənpərvərlik, azadlıqsevərlik, müstəqillik fikirlərinin yaranmasına da kömək etmişdir.

Məlumdur ki, Koroğlu bizim qədim əfsanəvi qəhrəmanımızdır. «Koroğlu» böyük bir dastandır. Bu, tək Azərbaycana yox, Mərkəzi Asiya, Qafqaz, Türkiyə, İran xalqlarının hamısına mənsub olan böyük bir qəhrəmanlıq dastanıdır. Üzeyir Hasıbəyovun ən böyük xidməti ondan ibarət oldu ki, əsrlərdən-əsrlərə şifahi ədəbiyyat vasitəsilə, sonra isə ayrı-ayrı kitablarda əksini tapmış «Koroğlu» dastanını mədəniyyətin, incəsənətin, ədəbiyyatın ən yüksək nümunəsi olan «Koroğlu» operası vasitəsilə bütün dünyaya nümayiş etdirdi. Bu gün tam cəsarətlə demək olar ki, «Koroğlu» dastanı, qəhrəman Koroğlu Üzeyir Hacıbəyovun operası yaranana kimi nə qədər məşhur idisə, Üzeyir Hacıbəyovun operası yaranandan sonra və bu operada böyük Bülbül Koroğlunun obrazını yaradandan sonra o, həddindən artıq çox məşhurlaşdı. Bəlkə də demək olar ki, «Koroğlu» operasına qədər, Bülbülün Koroğlusuna qədər Koroğlu nə bizim xalqımızın içində, nə də başqa xalqların içində bu qədər tanınmamışdı.

Üzeyir Hacıbəyov «Koroğlu» dastanını musiqiyə çevirdi, opera əsərini yaratdı. Bülbül isə Koroğlunu yaratdı. Təbiidir ki, bizim heç birimiz Koroğlunu görməmişik və keçmişdən gəlib bizə çatmış

«Koroğlu» dastanında heç bir yerdə Koroğlunun surəti, yəni onun portreti, rəsmi, onun şəkli olmamışdır. Yaratmaq lazım idi ki, Koroğlu nə cür olubdur. Bunu yaradan da Üzeyir Hacıbəyovun operasıdır və Bülbüldür. Biz «Koroğlu» operasını görəndə və sonrakı [302-303] nəsillər «Koroğlu» operasını, Koroğlu obrazını görən kimi, Bülbülü görən kimi hamı hesab edir ki, Koroğlu bax, bu imiş. İndi Koroğlunun hər yerdə şəkilləri var. Bu, Bülbülün şəkilləridir, amma Koroğlu obrazında, Koroğlu libasında. Koroğluya heykəllər qoyulur. Hamısı həmin «Koroğlu» operasında Bülbülün yaratdığı, şübhəsiz ki, Üzeyir Hacıbəyovla, rejissorlarla, rəssamlarla birlikdə Bülbülün yaratdığı və at üstündə Azərbaycan Opera Teatrının səhnəsində hamımızın qarşısına çıxdığı Koroğlu obrazından götürülüb.

Ona görə də mən hesab edirəm ki, Üzeyir Hacıbəyovun və Bülbülün «Koroğlu» kimi operanın yaradılmasında xidmətləri bu əsərin musiqi, incəsənət, mədəni mənasından daha çox, daha böyük məna kəsb edir. Bu, tariximizin həqiqətidir və biz sona çatan XX əsrdə bu barədə görülən işlərə qiymət verməliyik.

Böyük şairimiz Molla Pənah Vaqifin bizə gəlib çatmış rəsmi, şəkli, portreti olmamışdır. Onu böyük Səməd Vurğunun «Vaqif» əsərini səhnəyə qoyan sənətkarlarımız və böyük aktyorumuz Ələsgər Ələkbərov yaratdı. Ona görə də Vaqifin bütün şəkilləri, bütün heykəlləri Ələsgər Ələkbərovun rejissorlarla, rəssamlarla bir yerdə Azərbaycan Dram Teatrında yaratdığı surətdən götürülübdür. Koroğlunun surəti də Bülbülün, Üzeyir Hacıbəyovun və rejissorların, rəssamların yaratdığı Koroğlu obrazından götürülübdür. Bütün bunlara görə də biz bu gün Bülbül sənətinə, Bülbül yaradıcılığına xüsusi minnətdar olmalıyıq.

Şübhəsiz ki, biz bu gün «Koroğlu» operası haqqında danışarkən əsərin librettosunu Üzeyir Hacıbəyovla birlikdə yazan böyük yazıçımız Məmməd Səid Ordubadini, alim Heydər İsmayılovu, «Koroğlu» operasının ilk rejissoru, böyük rejissor İsmayıl Hidayətzadəni və böyük rəssam Rüstəm Mustafayevi də minnətdarlıq hissi ilə xatırlamalıyıq. [303-304]

Beləliklə, mən bu gün «Koroğlu» əsəri üzərində geniş dayanaraq Bülbülün bütün başqa xidmətləri ilə bərabər, Azərbaycan xalqı üçün nə qədər böyük xidmət etdiyini xüsusi qeyd etmək istəyirəm.

Bülbülün sənəti, onun bu günə qədər lent yazılarında qalmış məlahətli, təkrarolunmaz səsi, parlaq yaradıcılığı, onun qoyduğu böyük irs Azərbaycan xalqının milli sərvətidir. Bülbül öz yaradıcılığı ilə bugünkü müstəqil Azərbaycana xidmət edibdir. Biz bu gün də, XXI əsrdə də Bülbülün yaradıcılığından ilham alaraq, Bülbülün yaratdığı qəhrəman Koroğlunun qəhrəmanlıq nümunələrindən ilham alaraq müstəqil Azərbaycan dövlətini qurub yaradacağıq və inkişaf etdirəcəyik.

Burada Firəngiz xanım tamamilə doğru dedi, - bu cür əsərlər bəzən bir müğənni üçün, bir sənətkar üçün yazılır, ondan sonrakılar onu təkrar edirlər. Bu təbiidir, burada heç bir qüsur yoxdur. Bu, eyni zamanda onu göstərir ki, əgər Üzeyir Hacıbəyov «Koroğlu» operasının müəllifidirsə, Bülbül isə o musiqini səsə çevirən və onu mahnıya çevirən müəllifdir. Ona görə də, şübhəsiz ki, bu gün də, gələcəkdə də «Koroğlu» operası yaşayacaq, bizim yeni-yeni gözəl, parlaq müğənnilərimiz meydana gələcək, Bülbülün yolu ilə gedərək Koroğlu rolunu ifa edəcəklər. Ancaq hamı çalışacaq Bülbül kimi oxusun. Çünki bütün o mahnıları yaradan Bülbüldür. Əgər kimsə onu başqa cür oxusa, hesab edəcəklər ki, bu, Koroğlu deyil.

Bəstəkar musiqini yaradır, müğənni isə o musiqini mahnıya çevirməklə müəllif olur. Məsələn, böyük Nizami Gəncəvinin qəzəlləri əsasında Üzeyir Hacıbəyov ölməz «Sənsiz» və «Sevgili canan» romanslarını yaratdı. Onların ilk ifaçısı Bülbül oldu. Ondan sonra bu romanslar daim bizim həyatımızda səslənir, yeni-yeni müğənnilər bu romansları oxuyurlar. Amma hamısı çalışır ki, Bülbül kimi oxusun, öz [304-305] səsini Bülbülün səsinə oxşatsın. Bu da Bülbülün bizim bu günümüz üçün və gələcəyimiz üçün etdiyi böyük xidmətlərdir.

Bülbülün 100 illik yubileyi ilə əlaqədar keçirilən tədbirlərin hamısı onun adına və xatirəsinə layiqdir. Mən hesab edirəm ki, bu ənənə davam edəcəkdir. Bülbül heç vaxt unudulmayacaqdır. Bülbülün səsi də, yaradıcılığı da, onun gördüyü işlər də bizim qəlbimizdə daim yaşayacaqdır.

Güman edirəm ki, bu gün Bülbülün ruhu şad olubdur. Amma eyni zamanda düşünürəm ki, Bülbülün narahatçılığı da var. Narahatçılığı ondan ibarətdir ki, onun doğma Şuşası, Qarabağı Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Buna görə Bülbül narahatdır. Biz də narahatıq. Ancaq Bülbül də bilməlidir, xalqımız da bilməlidir, bizim üçün əziz olan Qarabağ torpağı, Şuşa qalası işğaldan azad olacaq, Bülbül diyarı müstəqil Azərbaycanın çiçəklənən bir guşəsi olacaq və gələcək nəsillər məhz Qarabağda, Şuşada Bülbülün heykəlini qoyacaq, Üzeyir Hacıbəyovun yenidən heykəlini qoyacaq və Şuşa, Qarabağ Azərbaycanın gözəl guşəsi kimi müstəqil Azərbaycanda yaşayacaqdır.

Mən bütün Azərbaycan xalqının istək və arzularını, bütün Azərbaycan xalqının hissiyyatlarını ifadə edərək deyirəm ki, Bülbülə, onun sənətinə olan məhəbbətimiz sonsuzdur və sonsuz olacaqdır. Bülbül, onun sənəti Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır! [305]

## YAZIÇI ƏKRƏM ƏYLİSLİYƏ

Hörmətli Əkrəm Əylisli!

Sizi - Azərbaycanın əməkdar incəsənət xadimini, nasiri və dramaturqunu 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm. Siz ədəbiyyatımıza 60-cı illərdə gələrək öz orijinal yazı üslubunuz, qələmə aldığınız mövzuların həyatiliyi, aktuallığı ilə seçilməyə başladınız.

Dərin müşahidə qabiliyyətiniz sayəsində siz o zamankı dövrün bütün gerçəkliyini, o cümlədən həyatımızda mövcud olan neqativ halları əsərlərinizdə əks etdirə bildiniz. Məhz yaradıcılığınızın bu xüsusiyyəti sizə oxucuların böyük rəğbətini qazandırdı.

Sadə insanların zəngin mənəvi aləminin bədii təsviri həm nəsr, həm də dram əsərlərinizin başlıca qayəsidir. Xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuş əsərləriniz və dünya ədəbiyyatı nümunələrindən etdiyiniz bədii tərcümələr ədəbi əlaqələrimizin genişlənməsi və ədəbiyyatlar arasında qarşılıqlı münasibətlərin möhkəmlənməsi işinə xidmət etmişdir.

Müxtəlif illərdə nəşriyyat direktoru, jurnal redaktoru, Yazıçılar Birliyinin katibi kimi respublikada ədəbi mühitin canlandırılması işinə yönəlmiş fəaliyyətiniz də təqdirəlayiqdir.

Ümidvaram ki, Azərbaycan ədəbiyyatının inkişafı yolunda siz bundan sonra da var gücünüzü sərf edəcəksiniz və oxucularınızı yeni əsərlərlə sevindirəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yeni yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 dekabr 1997-ci il*
[306]

## XALQ ARTİSTİ RAUF ABDULLAYEVƏ

Hörmətli Rauf Abdullayev!

Sizi - Azərbaycanın görkəmli dirijorunu 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz respublikada müsiqi mədəniyyətinin inkişafında xidmətləri olan sənətkar kimi tanınırsınız. Azərbaycan dirijorluq məktəbinin ənənələrini yüksək səviyyədə davam etdirmək, onu yeni zirvələrə qaldırmaq sizə nəsib olmuşdur. Müasir Azərbaycan bəstəkarlarının onlarla əsəri sizin böyük sənətkarlığınız sayəsində həyata vəsiqə almışdır. Sizin rəhbərliyiniz altında qoyulmuş bir çox tamaşa respublikanın mədəni həyatında əlamətdar hadisəyə çevrilmişdir.

Azərbaycan Dövlət Opera və Balet Teatrının və Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin fəaliyyətindəki uğurlu mərhələlərdən biri də baş dirijor və bədii rəhbər kimi məhz sizin adınızla bağlıdır. Bakı Musiqi Akademiyasının professoru kimi 20 ildən artıq göstərdiyiniz pedaqoji fəaliyyət də səmərəli olmuşdur.

Ümidvaram ki, Azərbaycanda professional musiqi mədəniyyətinin inkişafı yolunda siz öz təcrübə və bacarığınızı bundan sonra da əsirgəməyəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yeni yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *6 dekabr 1997-ci il*
[307]

**RUSİYA FEDERASİYASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB BORİS NİKOLAYEVİÇ YELTSİNƏ**

Möhtərəm Boris Nikolayeviç!

İrkutsk şəhərində aviasiya qəzası nəticəsində çoxsaylı insan tələfatının olması xəbəri məni dərindən sarsıtdı.

Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına səmimi-qəlbdən başsağlığı verirəm.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *7 dekabr 1997-ci il*
[308]

## İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ DEKABRIN 9-11-DƏ TEHRANDA KEÇİRİLƏCƏK VIII ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN İRAN PAYTAXTINA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*8 dekabr 1997-ci il*

**H e y d ə r Ə l i y e v:** Səfərin məqsədi aydındır. Çünki Azərbaycan İslam Konfransı Təşkilatının üzvüdür və bu təşkilatın zirvə görüşündə Azərbaycanın dövlət başçısının da iştirak etməsi zəruridir. Keçən dəfə, 1994-cü ildə Mərakeşdə Kasablankada İslam Konfransı Təşkilatının zirvə görüşündə bir çox məsələlər müzakirə edilmişdir. İslam Konfransı Təşkilatı Ermənistanın Azərbaycana təcavüzünü daim pisləyir. Bu barədə 1994-cü ildə də qətnamə qəbul edilmişdir. Keçən il Cakartada İslam Konfransı Təşkilatı ölkələri xarici işlər nazirlərinin görüşündə də Lissabon zirvə görüşündə qəbul olunmuş prinsiplər öz əksini tapmışdır.

Təkcə bu deyildir. Biz islam aləminin bir hissəsiyik, ona görə də bu zirvə görüşünün işində iştirak etməliyik və öz fikirlərimizi, təkliflərimizi bildirməli, islam ölkələrinin həmrəyliyi üçün öz səylərimizi qoymalıyıq. Məhz bu məqsəd üçün də mən Tehrana gedirəm.

**S u a l:** Humanitar yardım və Dağlıq Qarabağ haqqında hər hansı sənədin imzalanacağı gözlənilirmi? [309-310]

**C a v a b:** Ola bilər ki, İslam Konfransı Təşkilatı Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar qaçqınların vəziyyətini nəzərə alaraq təşkilatın Azərbaycana humanitar yardım göstərməsi haqqında bir qərar qəbul etsin.

**S u a l:** İkitərəfli görüşlər nəzərdə tutulurmu?

**C a v a b:** Şübhəsiz, belə zirvə toplantıları zamanı ikitərəfli görüşlər olur. Bu dəfə də bir çox ikitərəfli görüşlər nəzərdə tutulubdur. Baxarıq, vaxt nə qədər imkan versə, o qədər də görüşəcəyik.

**S u a l:** ATƏT-in Minsk qrupu həmsədrlərinin səfərini necə qiymətləndirirsiniz?

**C a v a b:** Yəni həmsədrlərin Azərbaycana gəlişini deyirsiniz? Yəqin ki, siz orada vardınız, mən həmsədrlərin fəaliyyətinə aid öz fikirlərimi dedim. Onları təkrar etmək istəmirəm, bizim televiziya ilə də verilib, qəzetlərdə də dərc olunubdur. Mən hesab edirəm ki, bu bir il müddətində həmsədrlər ləng işləyiblər. İl sona çatır, biz nəzərdə tutulan arzulara gəlib çata bilməmişik. Ancaq eyni zamanda hər bir belə görüş əhəmiyyətlidir. Elə bu görüşümüz də çox gərgin keçdi, çox vaxt apardı. Mən Minsk qrupunun həmsədrlərindən gözlədiklərimizi indiyə qədər almadığımız haqqında öz fikirlərimi onlara bildirdim. Narazılığımı da bildirdim və tələb etdim ki, onların ölkələrinin başçıları tərəfindən üzərlərinə qoyulmuş vəzifələri daha da məsuliyyətlə yerinə yetirsinlər. Hər halda, görüş səmərəli oldu. Ayın 18-19-da Kopenhagendə ATƏT-in üzvü olan ölkələrin xarici işlər nazirləri görüşəcəklər. Hesab edirəm ki, oradakı danışıqlar, qəbul ediləcək qərarlar üçün bizim apardığımız danışıqlar çox əhəmiyyətli oldu.

**S u a l:** İranla ikitərəfli danışıqlarda hansı məsələlər müzakirə olunacaqdır?

**C a v a b:** Bilirsiniz, İranla ikitərəfli danışıqlarda konkret məsələlər nəzərdə tutulmayıbdır. İranın yeni prezidenti ilə [310-311] mənim xüsusi görüşüm olacaqdır. Bizim məqsədimiz həmişə belə olubdur ki, İran böyük qonşumuzdur və İranla əlaqələri daim yaxşılaşdırmalıyıq. Biz bu barədə üzərimizə düşən vəzifələri öz tərəfimizdən yerinə yetiririk. Mən bu dəfə də çalışacağam sübut edəm ki, İran ilə Azərbaycan arasında hər bir dövlətin xüsusiyyətini nəzərə alaraq normal dostluq əlaqələri olmalıdır və İran hökuməti də bu barədə öz üzərinə düşən addımları atmalıdır. [311]

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Tehran*

*8 dekabr 1997-ci il*

**Süleyman Dəmirəl:** Azərbaycan Respublikasının hörmətli prezidenti, əziz qardaşım cənab Heydər Əliyev!

Sizi, İslam Konfransı Təşkilatının VIII Tehran zirvə görüşündə səmimiyyətlə salamlamağımdan hədsiz dərəcədə məmnunam və bildirirəm ki, Sizinlə hər bir görüş mənim üçün xüsusi əhəmiyyət daşıyır.

Əmin olduğumu bildirirəm ki, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Tehran görüşü islam dövlətləri arasında əlaqələrin daha da möhkəmlənməsində mühüm rol oynayacaq zirvə toplantısında Ermənistanın Azərbaycana təcavüzünü qətiyyətlə pisləyən çox lazımlı sənədlər qəbul ediləcəkdir. Yeri gəlmişkən mən sizə Türkiyədə hazırki ictimai-siyasi durum barədə geniş söhbət açmaq istəyirəm.

**Heydər Əliyev:** Hörmətli dostum, qardaşım Süleyman Dəmirəl, Sizinlə görüşümdən məmnun olduğumu, Azərbaycan-Türkiyə əməkdaşlığının hazırkı vəziyyətindən razı qaldığımı vurğulayıram və nəzərə çarpdırıram ki, bu əlaqələrin gündən-günə inkişaf etdirilməsi zəruridir.

Qeyd edirəm ki, bütün sahələrdə islahatları müvəffəqiyyətlə həyata keçirən müstəqil respublikamız qardaş Türkiyə ilə əlaqələrin daha da sıxlaşdırılmasına daim diqqət yetirir. [312-313] Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlədilməsində dost Türkiyənin yaxından iştirakını yüksək qiymətləndirirəm. Xatırladıram ki, «Çıraq» yatağından ilkin neftin hasil edilməsi münasibətilə bu il noyabrın 12-də Bakıda təntənəli mərasim keçirildi. Biz nefti dünya bazarına çıxaracaq Bakı - Novorossiysk və Bakı – Ceyhan marşrutlarına üstünlük vermişik.

Qazaxıstanın «Tengiz» yatağından hasil edilən neft də Azərbaycan ərazisi vasitəsilə nəql olunacaqdır. Beləliklə, Xəzər neftinin Türkiyədən dünya bazarına çıxarılmasının böyük əhəmiyyət daşıdığını bir daha vurğulayıram.

Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün hazırda ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar aparılır, bu baxımdan həmsədrlərin irəli sürdüyü son təkliflər ciddi maraq doğurur. Biz bu təklifləri əsas kimi qəbul etmişik. Vurğulayıram ki, münaqişənin sülh yolu ilə aradan qaldırılması sahəsində qardaş Türkiyənin dəstəyini Azərbaycan daim hiss etmişdir. Əmin olduğumu bildirirəm ki, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Tehran zirvə görüşündə Ermənistanın Azərbaycana təcavüzünü qətiyyətlə pisləyəcək sənədlərin qəbulunda da Türkiyə öz nüfuzundan səmərəli istifadə edəcəkdir.

**Süleyman Dəmirəl:** Prezident kimi mən bir daha bəyan edirəm ki, Türkiyənin Ermənistana münasibəti yalnız Ermənistan–Azərbaycan münaqişəsi sülh yolu ilə başa çatdıqdan sonra müəyyənləşdirilə bilər. [313]

## TÜRKMƏNİSTAN PREZİDENTİ SAPARMURAD NİYAZOV İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Tehran*

*8 dekabr 1997-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli Türkmənistan prezidenti cənab Saparmurad Niyazov!

Sizi səmimiyyətlə salamlayıram və görüşümüzdən şad olduğumu vurğulayıram. Deyin görək, səhhətiniz necədir? Bildiyimə görə, bir qədər xəstələnmisiniz. Müalicəniz necə keçir?

**S a p a r m u r a d N i y a z o v:** Hörmətli cənab prezident Heydər Əliyev, məni səmimiyyətlə salamladığınıza görə Sizə təşəkkür edirəm. Səhhətimə gəlincə onu deyə bilərəm ki, həqiqətən də bir qədər xəstələnmişdim və həkimlərin nəzarəti altında müalicə olunurdum. Belə hesab edirəm ki, indi səhhətim yaxşılaşmaqdadır. Müalicənin gedişindən razıyam. Ümid edirəm ki, Allahın köməyi və həkimlərin səyi ilə sağlamlığım tam bərpa olunacaqdır.

**H e y d ə r Ə l i y e v:** Çox şad oldum. Tehrana şəxsən gəlməyiniz də bir daha təsdiq edir ki, artıq xəstəlik arxada qalmışdır. Türklər demişkən, keçmiş olsun.

Hər ikimizin bir sıra beynəlxalq və daxili məsələlərdə tam həmrəy olmağımız belə fikir söyləmək üçün əminlik yaradır ki, İslam Konfransı Təşkilatının VIII Tehran zirvə görüşü bu təşkilatın üzvləri arasında münasibətlərin daha da yaxşılaşdırılmasında mühüm rol oynayacaq, tarixi dostluq əlaqələrinə malik olan hər iki gənc müstəqil respublikanın nüfuzlu [314-315] beynəlxalq təşkilatlarda bir-birinin mövqeyini daim müdafiə etməsinin böyük əhəmiyyəti olacaqdır.

Dostluq və mehribanlıq şəraitində keçən bu görüşümüz bir daha imkan verdi ki, Azərbaycan – Türkmənistan əməkdaşlığının ardıcıl surətdə möhkəmləndirilməsi üçün həlli vacib olan məsələlər barədə geniş müzakirələr aparaq. Hər ikimiz bu fikirdəyik ki, iqtisadiyyat, elm, mədəniyyət və digər sahələrdə daha sıx əməkdaşlıq üçün böyük perspektivlərə malik imkanlar vardır və onlardan daha səmərəli istifadə edilməsinə diqqət artırılmalıdır.

**S a p a r m u r a d N i y a z o v:** Xəzərin təbii ehtiyatlarının birgə işlənməsi məsələləri barədə də fikirlərimiz üst-üstə düşür. Biz belə hesab edirik ki, bu sahədə də qarşılıqlı surətdə faydalı əməkdaşlığın möhkəmləndirilməsi üçün birgə işçi qrupu yaradılması zəruridir. Zənnimcə, söhbət zamanı hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də geniş fikir mübadiləsi aparmağımız hər iki ölkə üçün səmərəli oldu.

Heydər Əliyeviç, görüş, söhbət və açıq fikir mübadiləsi üçün təşəkkür edirəm. [315]

## MİSİR ƏRƏB RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ƏMİR MUSA İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Tehran*

*8 dekabr 1997-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli cənab Əmir Musa, Sizi səmimiyyətlə salamlayıram, Azərbaycan ilə Misir arasında əlaqələrin durmadan inkişaf etməsinə xüsusi əhəmiyyət verdiyimi vurğulayıram. Əmin olduğumu bildirirəm ki, İslam Konfransı Təşkilatının VIII zirvə görüşü bütün islam ölkələrinin qarşılıqlı surətdə faydalı münasibətlərinin daha da yaxşılaşdırılmasında əsaslı rol oynayacaqdır.

**Ə m i r M u s a:** Çox hörmətli cənab Heydər Əliyev, Sizinlə görüşümdən şərəf duyuram və Misir Ərəb Respublikasının prezidenti Hüsni Mübarəkin salamlarını, hörmət və ehtiramını Sizə çatdırmağı özümə borc bilirəm. Cənab prezident, cənab Mübarək Sizinlə görüşlərini, apardığınız danışıqları həmişə böyük məmnunluqla xatırlayır.

**H e y d ə r Ə l i y e v:** Səmimi sözlərə görə təşəkkürümü bildirirəm. Sizdən xahiş edirəm ki, mənim də salamlarımı, xoş arzularımı əziz dostum, qardaşım prezident Hüsni Mübarəkə çatdırasınız.

Misirdəki son terror hadisələrindən narahatlıqla xəbər tutdum və bildirirəm ki, baş vermiş insan tələfatına görə Misir Ərəb Respublikasının xalqına dərin hüznlə başsağlığı verirəm. [316-317]

**Ə m i r M u s a:** Hüquqi demokratik dövlət quruculuğu və islahatların müvəffəqiyyətlə aparılması sahəsində son illər Azərbaycanda həyata keçirilən tədbirlər Misirdə diqqətlə izlənilir və maraqla qarşılanır. Biz Azərbaycanın haqq işini həmişə dəstəkləmişik və bundan sonra da müdafiə edəcəyik.

Biz bilirik ki, Xəzərin Azərbaycan sektorundakı «Çıraq» yatağından ilkin neftin hasil edilməsi görkəmli dövlət xadimi prezident Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. Mən öz ölkəmin Azərbaycanla bütün sahələrdə əməkdaşlığı sıxlaşdırmağa böyük maraq göstərdiyini vurğulayıram.

Çox əhəmiyyətlidir ki, söhbət zamanı Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli sahəsində ATƏT-nin Minsk qrupu çərçivəsində aparılan danışıqlardan, İKT-nin üzvü olan ölkələrin dövlət və hökumət başçılarının VIII zirvə görüşündə Ermənistanın Azərbaycana qarşı təcavüzünün aradan qaldırılması barədə mühüm sənədlərin qəbul edilməsinin zəruruliyindən də bəhs olundu və bu sahədə hər iki tərəf arasında tam anlaşma olduğu bir daha qeyd edildi Misir tərəfi bu münaqişədə Azərbaycanın haqlı mövqeyini bundan sonra da müdafiə edəcəkdir.

Hörmətli cənab prezident Heydər Əliyev, görüş və maraqlı söhbət üçün Sizə təşəkkür edirəm. Sizin salamlarınızı və xoş arzularınızı prezident Hüsni Mübarəkə mütləq çatdıracağam. [317]

## İNDONEZİYANIN XARİCİ İŞLƏR NAZİRİ ƏLİ ALATAS İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Tehran*

*8 dekabr 1997-ci il*

**Ə l i A l a t a s:** Hörmətli cənab prezident, ilk əvvəl, görkəmli dövlət xadimi Heydər Əliyevlə görüşdən şərəf duyduğumu bildirirəm. Sonra isə İndoneziyanın prezidenti cənab Suxartonun salamlarını və hörmət-ehtiramını məmnuniyyətlə Sizə çatdırıram.

**H e y d ə r Ə l i y e v:** Hörmətli cənab Əli Alatas, Sizi səmimiyyətlə salamlayıram. Cənab Suxarto ilə görüşlərimi həmişə məmnunluqla xatırlayıram. İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin rəhbərlərinin VIII zirvə görüşünün hazırlanmasında İndoneziyanın xidmətini yüksək qiymətləndirirəm.

Bildirirəm ki, İKT-nin VIII zirvə görüşündə müzakirə olunacaq məsələlər əsasən 1996-cı ildə Cakartada keçirilmiş konfransda öz həllini tapmışdı. Buna görə də həmin konfrans barədə məmnunluqla söz açmaq istəyirəm. Biz ümidvarıq ki, həmin konfransda Azərbaycanın problemlərinə aid müzakirə edilən məsələlər VIII zirvə görüşündə qəbul olunacaq sənədlərdə də öz əksini tapacaqdır.

**Ə l i A l a t a s:** Bildirirəm ki, bir sıra xarici ölkələrə səfərdən yenicə qayıtmış Suxartonun Tehrana gəlməsinə həkimlər razılıq vermədilər. Vurğulayıram ki, İndoneziya Azərbaycanla əlaqələrə böyük maraq göstərir. Biz Azərbaycanı [318-319] Qafqazın çox mühüm strateji əhəmiyyətə malik bir ölkəsi hesab edirik və sizin respublika ilə bütün sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi diqqət yetiririk. Biz Azərbaycanın haqq işinə həmişə dəstək veririk və bundan sonra da onu müdafiə edəcəyik.

**H e y d ə r Ə l i y e v:** Bildirirəm ki, ölkələrimizin qarşılıqlı surətdə faydalı əlaqələrinin daha da möhkəmləndirilməsi üçün həm Azərbaycanda, həm də İndoneziyada geniş imkanlar vardır. Bu əlaqələri daim genişləndirmək, sıxlaşdırmaq lazımdır. Ymid edirəm ki, bundan sonra hər iki ölkənin səyləri ilə bu, belə də olacaqdır.

Nəzərə çarpdırıram ki, son aylarda Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar xeyli intensiv xarakter almış, həmsədrlərin irəli sürdüyü yeni təkliflər münaqişə tərəfləri arasında möhkəm sülh əldə edilməsinə olan ümidləri artırmışdır. Əminəm ki, İndoneziya bu münaqişənin aradan qaldırılmasında Azərbaycanın ədalətli mövqeyini yenə də müdafiə edəcəkdir.

### GÖRÜŞDƏN SONRA BU ÖLKƏNİN JURNALİSTLƏRİNƏ MÜSAHİBƏ

**S u a l:** Cənab prezident, bizim ölkənin xarici işlər naziri ilə görüşünüz barədə bir neçə kəlmə deyə bilərsinizmi?

**C a v a b:** İndoneziyanın xarici işlər naziri ilə mənim çox məzmunlu, dəyərli görüşüm oldu. Biz çox yaxşı danışıq apardıq. Danışığımızın əsas mövzusu Azərbaycan-İndoneziya əlaqələrinin bugünkü vəziyyətinin və onu inkişaf etdirmək yollarının müzakirəsindən ibarət idi.

**S u a l:** İndoneziya ilə əlaqələrə Azərbaycan necə əhəmiyyət verir? [319-320]

**C a v a b:** Biz bu əlaqələrin genişləndirilməsinə çox böyük əhəmiyyət veririk. Biz İndoneziyanı dünyanın böyük və islam aləminin çox nüfuzlu dövlətlərindən biri hesab edirik. Ölkələrimizin əlaqələrinin hazırkı vəziyyəti çox yaxşıdır. Bu əlaqələr dostluq əlaqələridir. Hesab edirəm ki, bu əlaqələri daha da genişləndirmək üçün həm İndoneziyada, həm də Azərbaycanda çox böyük imkanlar vardır və biz bu imkanlardan istifadə etməliyik.

**S u a l:** Azərbaycan ilə İndoneziya arasındakı əlaqələrin inkişaf etdirilməsi haqqında konkret ideyanız varmı?

**C a v a b:** Bəli, vardır. Biz iqtisadi əlaqələri çox inkişaf etdirə bilərik. Azərbaycanın da, İndoneziyanın da bu sahədə böyük imkanları vardır. Ümumiyyətlə, Azərbaycan Qafqazda yeganə müsəlman ölkəsidir. Azərbaycan ilə İndoneziyanın arasında iqtisadi, elm, mədəniyyət sahəsində əlaqələr eyni zamanda bizim siyasi əlaqələrimizə söykənməlidir. Azərbaycan İslam Konfransı Təşkilatının üzvüdür.

**S u a l:** Cənab prezident, Siz Azərbaycan ilə İndoneziya arasında ticarət əlaqələrində hansısa bir çətinlik, maneə görürsünüzmü? Əgər maneə varsa, onun aradan qaldırılması yollarını nədə görürsünüz?

**C a v a b:** Xeyr, elə bir maneə yoxdur. Mən guman edirəm, biz bu işləri sadəcə yaxşı təşkil etməliyik.

Mən İndoneziya prezidenti Suxartonu Azərbaycana rəsmi səfərə dəvət etmişəm. Bu gün sizin ölkənin xarici işlər nazirini də Azərbaycanı ziyarətə dəvət etdim. Bütün bunlar onunla əlaqədardır ki, biz İndoneziya ilə əlaqələri genişləndirmək istəyirik.

**J u r n a l i s t:** Çox sağ olun, cənab prezident. [320]

## BEYNƏLXALQ ƏRZAQ TƏŞKİLATININ (FAO) PREZİDENTİ JAK DÜFÜ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Tehran*

*8 dekabr 1997-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli cənab Jak Düfü! Sizi səmimiyyətlə salamlayıram və birdirirəm ki, Beynəlxalq Ərzaq Təşkilatının Azərbaycanla əlaqələrə diqqət yetirməsidən razıyam və bu əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacib olduğunu vurğulayıram.

**J a k D ü f ü:** Hörmətli cənab prezident! Görkəmli dövlət xadimi Heydər Əliyevlə görüşdən məmnun qaldığımı bildirirəm və Beynəlxalq Ərzaq Təşkilatının fəaliyyəti barədə Sizə məmnuniyyətlə məlumat verirəm: Dünyanın 175 dövlətinin üzv olduğu bu təşkilat ərzaq sarıdan çətinlik çəkən 86 ölkəsinin bu sahədəki problemlərinin həlli üçün geniş proqramlar hazırlayıb həyata keçirir. Biz dənli bitkilər və heyvandarlıq məhsulları istehsalının artırılmasına, həmin sahələrdə yayılmış xəstəliklərin qarşısının alınmasına ciddi diqqət yetiririk və köməyə ehtiyacı olan ölkələrə 2-3 il müddətində işləmək üçün 100-ə yaxın təcrübəli mütəxəssis göndərməyə hazırıq.

Cənab prezident, biz öz fəaliyyətimizdə Dünya Bankının və İslam İnkişaf Bankının köməyinə arxalanırıq. Mən hər iki bankın prezidentləri ilə görüşmüşəm, onlar bizim Azərbaycanda görəcəyimiz işləri dəstəkləyirlər. Biz Azərbaycanla əməkdaşlığın genişləndirilməsinə həmişə hazırıq və ümid [321-322] edirik ki, Avropa ölkələrinə səfərlərinizin birində vaxt tapıb Romaya gələcəksiniz, təşkilatımızın üzvlərinə müraciətlə çıxış edəcəksiniz.

**H e y d ə r Ə l i y e v:** Mən belə bir məlumatdan məmnun qaldım ki, Azərbaycan da Beynəlxalq Ərzaq Təşkilatının üzvüdür. Biz əminik ki, respublikamızda ərzaq məhsulları istehsalının daha da artırılmasında FAO-nun həyata keçirdiyi proqramlar mühüm rol oynayacaqdır.

Mən də Azərbaycan Respublikasının Prezidenti kimi öz tərəfimdən bəyan edirəm ki, Azərbaycan FAO-nun proqramlarında daha yaxından iştirak etməyə diqqəti artıracaq və orada öz yerinin dəqiq müəyyənləşdirilməsinə xüsusi fikir verəcəkdir. [322]

## İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ İZZƏDDİN LARAKİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Tehran*

*8 dekabr 1997-ci il*

**İ z z ə d d i n  L a r a k i:** Görkəmli dövlət xadimi Heydər Əliyevlə görüşdən şərəf duyduğumu bildirirəm. Cənab prezident, vaxt tapıb İKT-nin VIII zirvə görüşünə gəldiyinizə görə Sizə təşəkkür edirəm.

**H e y d ə r  Ə l i y e v:** Hörmətli cənab Laraki. İslam Konfransı Təşkilatının VIII zirvə görüşü münasibətilə Sizi təbrik edirəm. Nəzərə çarpdırıram ki, bu toplantıya böyük maraq hissi ilə gəlmişəm və orada iştirak etməyə böyük əhəmiyyət verirəm.

Mən İslam Konfransı Təşkilatının işini müsbət qiymətləndirir və onun fəaliyyətini bəyəndiyimi vurğulayaraq deyirəm ki, cənab Laraki baş katib seçildikdən sonra bu təşkilatın işi daha da canlanmışdır.

**İ z z ə d d i n  L a r a k i:** Cənab prezident Heydər Əliyev. Səmimi sözlərə görə minnətdarlıq edirəm. Məmnunluqla bildirirəm ki, yeni müstəqillik qazanmış bir sıra ölkələri İKT-yə üzv qəbul etmişlər. Cənab prezident, biz hesab edirik ki, Azərbaycanın İKT-yə üzv qəbul olunması təşkilatımızı daha da gücləndirəcəkdir. Təşkilatımız Azərbaycanın öz problemlərinin həlli sahəsində bizə bağladığı ümidləri doğrultmaq üçün köməyini əsirgəməyəcəkdir.

**H e y d ə r  Ə l i y e v:** Vurğulayıram ki, müstəqil Azərbay[323-324]can Respublikası İslam Konfransı Təşkilatının işində daim yaxından iştirak edir. Biz İKT-ni islam ölkələrinin problemlərinin həllində və islam dünyasının həmrəyliyinin daha da möhkəmləndirilməsində çox əhəmiyyətli rol oynayan bir təşkilat hesab edirik.

İKT-nin 1994-cü ildə Mərakeşdə keçirilən zirvə görüşündə iştirak etmişəm və orada Azərbaycanın problemlərinə dair qərarlar da qəbul olunmuşdur. Bu təşkilatın 1996-cı ildə Cakartada Sizin rəhbərliyinizlə keçirilmiş konfransında da Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi, bir milyondan çox vətəndaşımızın yerindən-yurdundan zorla qovulub çıxarılması, qaçqınların ağır maddi vəziyyətdə yaşaması məsələsi müzakirə olunmuş və müvafiq qərarlar qəbul edilmişdir. Həmin konfrans bu məsələni daha dərindən öyrənib məruzə etmək barədə Sizə tapşırıq vermişdi.

Bütün bunlara görə, cənab Laraki, Sizə təşəkkür edirəm. Siz ATƏT-in sədrinə bu məsələ barədə xüsusi məktub göndərmisiniz və Cakarta konfransının tapşırığına əsasən məruzə hazırlayıb Tehran zirvə görüşünə təqdim etmisiniz. Mən Sizin məruzənizin mətni ilə tanış oldum. Hesab edirəm ki, o, çox dəyərli bir sənəddir. Ümidvaram ki, Sizin rəhbərliyiniz və səyləriniz nəticəsində İslam Konfransı Təşkilatının VIII zirvə görüşü Azərbaycanın problemlərinə dair xüsusi qərar qəbul edəcəkdir və qəbul olunacaq digər sənədlərdə də bu məsələ öz əksini tapacaqdır.

**İ z z ə d d i n  L a r a k i:** Cənab Heydər Əliyev, İslam Konfransı Təşkilatının fəaliyyətinə verdiyiniz yüksək qiymətə görə Sizə minnətdarlığımı bildirirəm. Cənab prezident, Azərbaycanın qarşılaşdığı problem həmçinin bizim problemimizdir. Hər şeyə dözmək olar, ancaq torpağın qəsbkarlıqla zəbt edilməsinə dözmək olmaz. Siz əmin olun ki, İslam Konfransı Təşkilatı bütünlüklə Sizin tərəfinizdədir. Mən nə [324-325] etmişəmsə, bu, yerinə yetirməli olduğum borcumdur. Əmin ola bilərsiniz ki, İKT-nin VIII zirvə görüşü öz işini məhz bu istiqamətdə aparacaqdır.

* * *

G ö r ü ş d ə n  s o n r a

**İ z z ə d d i n  L a r a k i** *(jurnalistin sualına cavabında):* Mən fəxr edirəm ki, Azərbaycan prezidenti Heydər Əliyevlə görüşdüm, onun fikirlərini dinlədim. Fəxr edirəm ki, o, təşkilatımızın fəaliyyətinə yüksək qiymət verdi. Biz təşkilatımızın Azərbaycanla əlaqələrinin daha da sıxlaşması üçün əlimizdən gələni edəcəyik.

Cənab prezidentlə söhbətimiz zamanı Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələsini də müzakirə etdik. Mən cənab prezidenti əmin etdim ki, İslam Konfransı Təşkilatı həmişə Azərbaycanın tərəfində olmuş və bundan sonra da olacaqdır. Mən cənab prezidenti həmçinin əmin etdim ki, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi bizim dəyişməz mövqeyimizdir.

Mən belə hesab edirəm ki, Azərbaycanın İKT ilə sıx əməkdaşlıq etməsi prezident Heydər Əliyevin böyük zəkaya, ağıla malik olduğuna dəlalət edir. [325]

## FƏLƏSTİN RƏHBƏRİ YASİR ƏRƏFAT
## İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Tehran*

*8 dekabr 1997-ci il*

**Y a s i r Ə r ə f a t:** Hörmətli cənab Heydər Əliyev! Sizinlə köhnə dost kimi mehribanlıqla görüşməkdən hədsiz məmnunluq duyuram. Cənab Prezident, Siz həmişə mənim qəlbimdəsiniz. Problemlərimizə göstərdiyiniz diqqəti biz heç vaxt unutmarıq.

**H e y d ə r Ə l i y e v:** Hörmətli Fələstin rəhbəri cənab Ərəfat, mən də Sizinlə görüşdən məmnun qaldığımı bildirirəm. Keçmiş Sovetlər İttifaqının rəhbərlərindən biri olarkən də, indi Azərbaycanın prezidenti kimi də mənim bu barədə mövqeyim daimidir. Mən xatırlayıram ki, 16-17 il bundan əvvəl İranda vəziyyət ağır idi. Oraya təyyarə ilə getmək mümkün deyildi. Siz Azərbaycana gəldiniz. Biz İrandakı vəziyyət haqqında xeyli söhbət etdik. Mən sizi Bakıdan avtomobillə İrana yola saldım. O vaxt siz İran ilə İraqı barışdırmaq istəyirdiniz. Mən 1984-cü ildə Moskvada işləyirdim. Siyasi Büronun üzvü idim. O zaman fələstinliləri Livandan çıxartdılar. Siz Misirə getdiniz, mən Dəməşqə gəldim, prezident Hafiz Əsədlə saatlarla danışıq apardım ki, Yasir Ərəfatla Hafiz Əsəd mütləq barışmalıdırlar.

**Y a s i r Ə r ə f a t:** Bildirirəm ki, həmin günləri mən çox yaxşı xatırlayıram və cənab prezident, göstərdiyiniz diqqətə görə Sizə minnətdarlıq edirəm. [326-327]

**H e y d ə r Ə l i y e v:** Nəzərə çarpdırıram ki, Azərbaycan Fələstinin dostudur. Müstəqil Azərbaycan Respublikası Fələstin xalqının qəhrəmanlıq mübarizəsini həmişə dəstəkləmiş və bundan sonra da dəstəkləyəcəkdir.

**Y a s i r Ə r ə f a t:** Vurğulayıram ki, biz Azərbaycanın dəstəyini həmişə hiss etmişik. Biz bununla fəxr edirik və bundan qüvvət, güc alırıq.

Biz azərbaycanlılarla fələstinlilərin tarixi dostluq əlaqələrinin böyük əhəmiyyətini qeyd etməklə yanaşı, bu münasibətlərin daha da yaxşılaşdırılmasının vacib olduğunu vurğulayırıq.

Əminik ki, İslam Konfransı Təşkilatının VIII zirvə görüşü Müsəlman Dünyası Birliyinin daha da möhkəmləndirilmə-sində mühüm rol oynayacaqdır. [327]

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Tehran*

*9 dekabr 1997-ci il*

**Seyid Məhəmməd Xatəmi:** Azərbaycan Respublikasının hörmətli prezidenti cənab Heydər Əliyev! Sizinlə görüşümdən məmnunam və mənim dəvətimi qəbul edərək İslam Konfransı Təşkilatının VIII zirvə görüşündə iştirak etmək üçün Tehrana gəldiyinizə görə Sizə təşəkkürümü bildirirəm.

Qeyd edim ki, hüquqi demokratik dövlət quruculuğu və islahatların müvəffəqiyyətlə aparılması sahəsində son illər Azərbaycanda Sizin rəhbərliyiniz ilə həyata keçirilən tədbirlər İranda da diqqətlə izlənilir və maraqla qarşılanır. Ölkələrimiz arasında əlaqələrin daim möhkəmləndirilməsinin böyük əhəmiyyəti olduğunu vurğulayıram.

**Heydər Əliyev:** İran İslam Respublikasının hörmətli prezidenti cənab Xatəmi, xoş sözlərə görə minnətdarlığımı bildirirəm və Sizi prezident seçilməyiniz münasibətilə təbrik edirəm. Əvvəlcədən verilmiş müxtəlif proqnozların əksinə olaraq İranda xalqın böyük əksəriyyətinin seçki məntəqələrinə gəlib səs verməsini və prezident seçkilərinin demokratik qaydada keçməsini yüksək qiymətləndirirəm.

İslam Konfransı Təşkilatının VIII zirvə görüşündə iştirak etməyimdən məmnun olduğumu bildirirəm və nəzərə [328-329] çarpdırıram ki, bu görüş yaxşı təşkil edilmişdir. Əmin olduğumu bildirirəm ki, VIII zirvə görüşü müsəlman ölkələrinin əməkdaşlığının daha da canlandırılmasında əhəmiyyətli rol oynayacaq və Ermənistanın Azərbaycana təcavüzünü qətiyyətlə pisləyən mühüm sənədlər qəbul edəcəkdir.

İran ilə Azərbaycan arasında dərin köklərə malik tarixi dostluq əlaqələrinin gündən-günə möhkəmləndirilməsinin vacib olduğunu nəzərə çarpdıraraq bildirirəm ki, biz qonşu və dost ölkə olan İranla əməkdaşlığın genişləndirilməsinə daim diqqət yetiririk.

**Seyid Məhəmməd Xatəmi:** Vurğulayıram ki, qarşıdakı üç ildə İslam Konfransı Təşkilatına İran sədrlik edəcəkdir. Bu üç ildə biz bu nüfuzlu təşkilatın Azərbaycan dövlətinin problemlərinin həllinə yaxından kömək göstərməsinə xüsusi fikir verəcəyik.

**Heydər Əliyev:** Qeyd edirəm ki, bir sıra beynəlxalq təşkilatlar, o cümlədən İKT çərçivəsində Azərbaycan-İran əlaqələrinin daha da yaxşılaşdırılması zəruridir. Azərbaycan Respublikası öz müstəqilliyinin qorunub saxlanması və əbədi olması üçün əlindən gələni edəcəkdir. Bildirirəm ki, Azərbaycan xalqı bundan sonra heç bir ölkənin təsir dairəsində ola bilməz və olmayacaqdır.

Ermənistanın təcavüzü Azərbaycanın ən ağır problemi olaraq qalır. Ermənistan silahlı qüvvələri Azərbaycan Respublikası ərazisinin 20 faizini işğal etmişdir, bir milyondan çox vətəndaşımız qaçqın vəziyyətində, çadırlarda ağır şəraitdə yaşayır. Biz bu münaqişənin sülh yolu ilə aradan qaldırılması sahəsində ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlara böyük əhəmiyyət veririk, həmsədrlərin son sülh təklifləri də münaqişənin həllinə olan ümidləri artırmışdır. [329-330]

**Seyid Məhəmməd Xatəmi:** İran xalqı azərbaycanlı bacı-qardaşlarının dərdinə şərikdir və bu münaqişənin sülh yolu ilə həllinə tərəfdardır.

**Heydər Əliyev:** Cənab Xatəmi, mən Sizi Azərbaycana rəsmi səfərə dəvət edirəm.

**Seyid Məhəmməd Xatəmi:** Cənab prezident, mən Sizin dəvətinizi məmnunluqla qəbul edirəm. [330]

## SURİYA PREZİDENTİ HAFİZ ƏSƏDLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Tehran*

*9 dekabr 1997-ci il*

**H a f i z  Ə s ə d:** Hörmətli cənab prezident Heydər Əliyev, Sizi köhnə dost kimi mehribanlıqla salamlamaqdan, Sizinlə görüşdən çox məmnun qaldığımı bildirirəm və nəzərə çarpdırıram ki, Suriya Azərbaycanla əlaqələrin möhkəmləndirilməsinə böyük maraq göstərir.

**H e y d ə r  Ə l i y e v:** Hörmətli cənab prezident Hafiz Əsəd, uzun fasilədən sonra Sizinlə yenidən görüşümdən məmnun olduğumu bildirirəm. Müstəqil Azərbaycan Respublikasının da Suriya ilə qarşılıqlı surətdə faydalı əməkdaşlığının genişləndirilməsini əhəmiyyətli hesab etdiyimi vurğulayıram. Mən Sizi yaxın dostum hesab edirəm. Biz ilk dəfə təxminən 30 il bundan əvvəl Azərbaycanda görüşmüşdük. Sonra bizim Suriyada və başqa ölkələrdə görüşlərimiz olubdur. Mən ötən illərdə həmişə sizinlə maraqlanmışam və istəmişəm ki, işləriniz yaxşı olsun.

Mən xatırlayıram ki, 1972-ci ildə Suriyada səfərdə olmuşam və Hələb şəhərində dahi Azərbaycan şairi Nəsiminin də qəbrini ziyarət etmişəm.

**H a f i z  Ə s ə d:** Mən də bildirirəm ki, görkəmli dövlət xadimi Heydər Əliyevi heç vaxt unutmamışam, onunla görüşlərimi həmişə məmnunluqla xatırlamışam, Azərbay[331-332]canda son illər əldə edilən böyük uğurları diqqətlə izləmişəm və buna ürəkdən sevinmişəm.

Cənab prezident, Siz Sovetlər Birliyində ən böyük vəzifələrdə çalışanda mən sizinlə fəxr edirdim, Sizin hər bir müvəffəqiyyətinizə qəlbən sevinirdim. Yaxşı bilirdim ki, Siz Sovetlər Birliyinin rəhbərlərindən biri olan ilk müsəlman idiniz. Mən bu gün də Sizi ən yaxın dostum hesab edirəm və Sizinlə görüşdən çox məmnunam.

**H e y d ə r  Ə l i y e v:** Nəzərə çarpdırıram ki, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının VIII zirvə görüşünün müsəlman aləminin birliyinin möhkəmləndirilməsində, bir sıra ölkələrin qarşılaşdığı ciddi prolemlərin aradan qaldırılmasında böyük əhəmiyyəti vardır.

Lakin müstəqil dövlətimizin qarşısında bir sıra çətin problemlər də yaranmışdır. Bunlardan ən ağrılısı Ermənistanın Azərbaycana təcavüzüdür. Bu təcavüz nəticəsində ölkəmizin ərazisinin 20 faizi Ermənistanın işğalçı qoşunları tərəfindən zəbt edilmiş, 1 miylondan çox dinc Azərbaycan vətəndaşı öz yaşayış yerlərindən qovulmuş və hazırda ağır şəraitdə çadırlarda yaşayırlar. Respublikamıza külli miqdarda maddi və mənəvi ziyan dəymişdir.

Bu münaqişənin sülh yolu ilə aradan qaldırılması sahəsində ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar aparılır, həmsədrlər tərəfindən yeni təkliflər irəli sürülmüşdür. Biz istəyirik ki, Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilmiş Azərbaycan torpaqları tezliklə azad olunsun, doğma yurdundan zorla qovulmuş, ağır vəziyyətdə yaşayan 1 milyondan çox vətəndaşımız yerlərinə-yurdlarına qayıtsın.

Əmin olduğumu bildirirəm ki, İKT-nin VIII zirvə görüşü Ermənistanın Azərbaycana təcavüzünü qətiyyətlə pisləyən mühüm sənədlər qəbul edəcəkdir. [332-333]

Ölkələrimiz arasında bütün sahələrdə ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini nəzərə alaraq bildirirəm ki, mən respublikamızın Misirdəki səfiri İsrafil Vəkilovu həm də Suriyada səfir təyin etmişəm.

**H a f i z  Ə s ə d:** Mən bundan çox məmnunam və tezliklə Suriyanın Azərbaycanda səfirini təyin edəcəyəm. [333]

## LİVAN PREZİDENTİ İLYAS HƏRƏVİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Tehran*

*9 dekabr 1997-ci il*

**Heydər Əliyev:** Hörmətli cənab prezident, Sizi səmimiyyətlə salamlayıram, ölkələrimiz arasında əlaqələrin genişləndirilməsinin zəruri olduğunu nəzərə çarpdıraraq xatırladıram ki, mən məhz bu məqsədlə respublikamızın xarici işlər naziri Həsən Həsənovu Livana səfərə göndərmişdim.

**İlyas Hərəvi:** Prezident Heydər Əliyevlə görüşdən məmnun olduğumu bildirirəm. Sizə məlumat verirəm ki, Azərbaycanın xarici işlər naziri Həsən Həsənovla Livanda görüş keçirmişəm.

Azərbaycanla əməkdaşlığın sıxlaşdırılmasına Livanda böyük maraq göstərilir. Biz zəngin təbii ehtiyatlara malik olan Azərbaycanla bütün sahələrdə əlaqərimizin inkişaf etməsini istəyirik.

**Heydər Əliyev:** İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin VIII zirvə görüşünün bu dövlətlərin qarşılıqlı surətdə faydalı əməkdaşlığının möhkəmləndirilməsi, bir çox məsələlərin həllində səylərin birləşdirilməsi sahəsində böyük əhəmiyyət daşıdığını vurğulayaraq bildirirəm ki, Ermənistan - Azərbaycan münaqişəsi respublikamız üçün ən ağrılı problem olaraq qalır.

1988-ci ildən bəri davam edən bu münaqişə nəticəsində Ermənistan Silahlı Qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal etmişlər, bir milyondan çox vətəndaşımız yerindən-[334-335]yurdundan zorla qovulmuşdur. Ölkəmizə saysız-hesabsız maddi və mənəvi ziyan dəymişdir. Bütün bunlara baxmayaraq biz münaqişəni sülh yolu ilə həll etməyə çalışırıq. Bu məqsədlə ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlara böyük əhəmiyyət veririk. Bu baxımdan həmsədrlərin sülh təklifləri sülh əldə edilməsinə ümidləri xeyli artırmışdır. Əmin olduğumu bildirirəm ki, İslam Konfransı Təşkilatının üzvü olan ölkələr VIII zirvə görüşündə bu təcavüzün aradan qaldırılmasına yönəldilən təsirli sənədlər qəbul edilməsinə lazımi dəstək verəcəklər.

**İlyas Hərəvi:** Xatırladıram ki, Livan da 17 ildən bəri münaqişə ilə üzləşmişdir. Cənab prezident, Sizdən xahiş edirəm ki, bu məsələnin VIII zirvə görüşünün sənədlərində öz əksini tapmasını dəstəkləyəsiniz.

Müstəqil Azərbaycan Respublikasında iqtisadi islahatların müvəffəqiyyətlə həyata keçirilməsindən məmnunluqla bəhs edərək bildirirəm ki, Xəzərin Azərbaycan sektorundakı yataqlardan hasil ediləcək neftin kəmər vasitəsilə Aralıq dənizinə çatdırılması Livan üçün də əhəmiyyətlidir.

**Heydər Əliyev:** Qeyd edirəm ki, Azərbaycan Livanla əməkdaşlığın genişləndirilməsinə maraq göstərir. Vurğulayıram ki, bu əlaqələri genişləndirmək üçün mən Azərbaycanın Misirdəki səfiri İsrafil Vəkilovu həm də Livanda səfir təyin etmişəm.

**İlyas Hərəvi:** Cənab Heydər Əliyev, bildirirəm ki, tezliklə mən də Azərbaycana səfir təyin edəcəyəm.

**Heydər Əliyev:** Cənab Hərəvi, Sizi respublikamıza rəsmi səfərə dəvət edirəm.

**İlyas Hərəvi:** Cənab Əliyev, mən dəvətinizi məmnuniyyətlə qəbul edirəm, eyni zamanda bildirirəm ki, Sizi Livana rəsmi səfərə dəvət edirəm. [335-336]

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN XARİCİ İŞLƏR NAZİRİ RƏŞİD ABDULLA ƏL-NƏİMİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Tehran*

*9 dekabr 1997-ci il*

**Əl-Nəimi:** Hörmətli cənab prezident Heydər Əliyev, sizinlə görüşümdən məmnun olduğumu bildirirəm, Sizi səmimiyyətlə salamlayıram və ölkəmin prezidenti cənab Şeyx Zaidin salamlarını, hörmət və ehtiramını Sizə çatdırıram və bundan şərəf duyduğumu hüzurunuza ərz edirəm.

**Heydər Əliyev:** Səmimi sözlərinizə görə təşəkkür edirəm. İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1994-cü ilin dekabrında Mərakeşdə keçirilən zirvə toplantısında mən Şeyx Zaidlə görüşümü, apardığım danışıqları məmnunluqla xatırlayıram və mənim də salamlarımı və xoş arzularımı Birləşmiş Ərəb Əmirliklərinin dövlət başçısına çatdırmağı rica edirəm.

Bildirirəm ki, İKT-nin VIII zirvə görüşü də yaxşı keçdi. Demək istəyirəm ki, islam ölkələri dövlət və hökumət başçılarının bir yerə yığılması, müsəlman aləminin problemləri barədə müzakirələr aparması çox əhəmiyyətlidir.

Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi, xüsusən ticarət əlaqələrinin genişlənməsindən məmnun qaldığımı bildirirəm və qeyd edirəm ki, bu əməkdaşlığın daha da inkişaf etdirilməsi vacibdir. [336-337]

**Əl-Nəimi:** Hörmətli cənab Əliyev, Birləşmiş Ərəb Əmirliklərindən Azərbaycana səfər edən hər bir nümayəndə heyətinə böyük diqqət və qayğı göstərdiyinizə görə Sizə təşəkkürümü bildirirəm və nəzərə çarpdırıram ki, mənim ölkəm respublikanızla əlaqələrin sıxlaşdırılmasına xüsusi maraq göstərir. Mən əmin olduğumu bildirirəm ki, prezidentlər Heydər Əliyevin və Şeyx Zaidin səyləri nəticəsində ölkələrimiz arasında münasibətlər gündən-günə daha da möhkəmlənəcəkdir.

Cənab prezident, Birləşmiş Ərəb Əmirliklərinin başçısı Şeyx Zaid Sizin rəhbərliyinizlə Azərbaycanda həyata keçirilən tədbirləri diqqətlə izləyir və nailiyyətlərinizdən çox məmnundur. Prezident Şeyx Zaid və biz hamımız Sizin müdrik siyasətiniz və fəaliyyətinizlə fəxr edirik. Məhz Sizin uzaqgörən siyasətiniz nəticəsində Azərbaycanın regional mərkəzə çevrilməsi bizi ürəkdən sevindirir. Prezident Şeyx Zaid Sizi Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfərə dəvət edir. Biz Sizi öz ölkəmizdə görməkdən böyük şərəf duyardıq.

**Heydər Əliyev:** Cənab əl-Nəimi, xoş sözlərinizə görə Sizə minnətdarlığımı bildirirəm və xatırladıram ki, mən Şeyx Zaidi Azərbaycana rəsmi səfərə dəvət etmişəm və bildirirəm ki, cənab əl-Nəiminin də respublikamıza ziyarətə gəlməsini arzulayardım.

Mən Birləşmiş Ərəb Əmirliklərinin azərbaycanlı qaçqınlara göstərdiyi humanitar yardıma görə minnətdarlıq edirəm.

Mən ümidvar olduğumu bildirirəm ki, Birləşmiş Ərəb Əmirlikləri İKT-nin VIII zirvə görüşündə Ermənistanın Azərbaycana təcavüzünü qətiyyətlə pisləyən sənədlərin qəbul edilməsini dəstəkləyəcəkdir. - [337]

## İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN RƏHBƏRLƏRİNİN VIII ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQ

*Tehran*

*10 dekabr 1997-ci il*

Hörmətli cənab sədr!
Hörmətli dövlət və hökumət başçıları!
Əziz qardaşlar!

Sizi, İslam Konfransı Təşkilatının VIII zirvə görüşünün iştirakçılarını Azərbaycan xalqı adından ürəkdən salamlayıram və Ulu Tanrıdan uğurlar diləyirəm. Bizə göstərilən qonaqpərvərliyə və zirvə görüşünün işinin gözəl təşkilinə görə möhtərəm prezident Məhəmməd Xatəmiyə, İran hökumətinə və xalqına, İslam Konfransı Təşkilatının baş katibi möhtərəm İzzəddin Larakiyə təşəkkürümü bildirirəm.

Azərbaycan öz istiqlaliyyətini bərpa etdikdən sonra 1991-ci ildən İslam Konfransı Təşkilatının üzvüdür və onun çoxtərəfli fəaliyyətində yaxından iştirak edir. Biz İslam Konfransı Təşkilatının müsəlman aləmində və beynəlxalq sahədə apardığı işlərə böyük əhəmiyyət veririk. Müsəlman ölkələri arasında əməkdaşlığı möhkəmləndirmək, xalqlarımızın əmin-amanlığını təmin etmək, onların rifahını yüksəltmək, dinimizi, ənənələrimizi, mədəniyyətimizi və mənəvi dəyərlərimizi qoruyub inkişaf etdirmək İslam Konfransı Təşkilatının ən ümdə vəzifəsidir. Bu müqəddəs amalları həyata keçirmək üçün biz daim çalışmalıyıq. Mən hamınızı daha da fəal əməkdaşlıq etməyə dəvət edirəm. [338-339]

Müsəlman xalqları və ölkələri dünyada gedən mürəkkəb proseslərlə üzləşirlər. Bir tərəfdən elm və texnika güclü surətdə inkişaf edir, yeni ixtiralar, texnologiyalar Yer kürəsinin simasını dəyişdirir, o biri tərəfdən bir çox xalqlar aclıqdan, yoxsulluqdan, cəhalətdən əzab çəkirlər. Ona görə biz tərəqqi ilə ayaqlaşmalıyıq, inkişaf etmiş ölkələrin səviyyəsinə qalxmalıyıq. Son illər ərzində Azərbaycan müsəlman ölkələri ilə siyasi, iqtisadi, ticarət və mədəni əlaqələri xeyli inkişaf etdirmişdir. Həm İslam Konfransı Təşkilatı, həm də başqa beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımız məhsuldar və faydalı olmuşdur.

İslam aləminin qlobal miqyaslı məsələlərinin həllində çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi üçün Azərbaycan Respublikası əlindən gələni etməkdədir.

İslam Konfransı Təşkilatının Ərəb-İsrail münaqişəsinin sülh yolu ilə həllinə, Cammu və Kəşmir münaqişəsinin ədalətli nizamlanmasına yönəldilmiş bütün addımlarını və səylərini biz ürəkdən dəstəkləyirik.

Ermənistan Respublikasının təcavüzünə məruz qalmış Azərbaycan xalqı bütün müsəlman xalqları kimi Əfqanıstanda, Somalidə, Bosniya-Herseqovinada, başqa dövlətlərdə mövcud olan vəziyyətdən olduqca narahatdır. Müsəlman xalqlarının təhlükəsizliyini və ölkələrimizin ərazi bütövlüyünü təmin etmək, müsəlman azlıqlarının və icmalarının hüquqlarını qorumaq, müsəlman aləminin sabit inkişafını təmin etmək bizim müqəddəs vəzifəmizdir. Böyük nüfuza malik olan İslam Konfransı Təşkilatı səylərimizi birləşdirməyə və əlaqələndirməyə hər cür imkanlar yaratmalıdır. Əminəm ki, bizim bu zirvə görüşümüz bunun üçün öz töhfəsini verəcəkdir.

Sovet İttifaqının süqutundan sonra bir çox müsəlman xalqları istiqlaliyyətə nail olmuş, onların qarşısında yeni imkanlar açılmışdır. Bu gün onlar həm dünyanın digər ölkələri və xalqları ilə, həm də özləri arasında müstəqil əlaqələr qururlar. Milli maraqlardan doğan təbii inteqrasiya get-gedə güclənir və böyük [339-340] regionları çiçəklənən iqtisadi əməkdaşlıq məkanına çevirmək üçün gözəl zəmin yaradır.

Əziz qardaşlar!

Azərbaycan Respublikası öz müstəqil demokratik dövlətinin quruculuğu yolunda inamla irəliləyir. Bizim əldə etdiyimiz uğurlar göz qabağındadır.

Bununla belə, inkişafımıza mane olan, dövlətimizə təhlükə törədən, hamınıza məlum bir problemimiz də vardır. Bu problem Ermənistan Respublikasının Azərbaycana qarşı təcavüzü, torpaqlarımızın 20 faizini işğal etməsi və bu təcavüzün nəticəsində bir milyondan çox vətəndaşlarımızın yurdlarından didərgin düşməsi, qaçqın və köçkün olmasıdır.

İslam Konfransı Təşkilatının bu təcavüzü pisləyən qərarlarını, Azərbaycana dəstək verməsini Azərbaycan xalqı yüksək qiymətləndirir. İslam Konfransı Təşkilatının 1994-cü il Mərakeş zirvə görüşünün və 1996-cı ildə Cakartada keçirilmiş XXIV konfransının qərarlarına biz böyük əhəmiyyət veririk. Xüsusilə ATƏT-in Lissabon Zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair qəbul olunmuş prinsiplərə bu konfransın dəstək verməsinə görə biz İslam Konfransı Təşkilatı dövlətlərinin hamısına təşəkkürümüzü bildiririk.

Azərbaycan xalqının müsəlman dövlətlərinin həmrəyliyinə, mənəvi və maddi köməyinə böyük ehtiyacı vardır. İşğalçı Ermənistan öz diasporalarının köməyi ilə həm Amerikadan, həm Avropadan, əlahiddə Rusiyadan mənəvi, siyasi, iqtisadi, hərbi dəstək alır. 1993-1996-cı illərdə Rusiya Ermənistana qeyri-

qanuni, gizli bir milyard dollar dəyərində silah, sursat və hərbi texnika göndəribdir. Bundan əlavə, bu il avqust ayının 29-da Rusiya ilə Ermənistan arasında güclü hərbi əməkdaşlıq bəndləri olan müqavilə bağlanmışdır. [340-341]

Beləliklə, təcavüzkar Ermənistan dövləti hərbi cəhətdən güclənərək nəinki Azərbaycan üçün, regionumuzun bütün dövlətləri üçün ciddi bir təhlükə yarada bilər.

Azərbaycan Respublikası Ermənistanla münaqişəni sülh yolu ilə həll etməyi qarşısına məqsəd qoyubdur. 1994-cü ilin may ayında biz müharibəni dayandırmağa və atəşkəs əldə etməyə nail olmuşuq. ATƏT-in Minsk qrupu çərçivəsində sülh danışıqları aparırıq. 1996-cı ildə ATƏT-in Lissabon Zirvə görüşündə münaqişənin ədalətli həlli prinsipləri 53 dövlət tərəfindən təsdiqini tapmışdır. Bununla da münaqişənin sülh yolu ilə həlli üçün dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən dəstəklənən ədalətli hüquqi bünövrə yaranıbdır.

ATƏT-in Minsk konfransının həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa bu il ərzində gərgin iş aparmış, münaqişəni iki mərhələdə həll etmək barədə yeni təkliflər hazırlayıb tərəflərə təqdim etmişlər: Birinci mərhələdə Dağlıq Qarabağın ətrafında Azərbaycanın işğal olunmuş altı rayonunu azad etmək, müharibə nəticəsində dağıdılmış yolları və nəqliyyat vasitələrini bərpa etmək; İkinci mərhələdə Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağın hüquqi statusunu təyin etməklə bərabər, Laçın və Şuşa rayonlarını işğaldan azad etmək. Biz bu təklifləri qəbul etmişik. Qeyd etməliyəm ki, verilən təkliflər Ermənistanın da milli maraqlarına tamamilə cavab verir. Lakin ermənilərin inadkar, qeyri-konstruktiv mövqelərinə görə hələlik müsbət nəticə əldə olunmamışdır. Mən bir daha bəyan edirəm ki, biz münaqişənin yalnız sülh yolu ilə həllinin tərəfdarıyıq və buna nail olmaq üçün bundan sonra da çalışacağıq.

Ermənistanın təcavüzü nəticəsində yerlərindən didərgin düşmüş və çadırlarda ağır vəziyyətdə yaşayan bir milyondan artıq azərbaycanlı qaçqınlara göstərilən humanitar yardıma görə biz Türkiyəyə, İrana, Səudiyyə Ərəbistanına, Pakistana, [341-342] Misirə, Küveytə, Birləşmiş Ərəb Əmirliklərinə dərin minnətdarlığımızı bildiririk. Onlara və İslam Konfransı Təşkilatının üzvü olan digər dövlətlərə üz tutaraq xahiş edirik ki, bu sahədə köməklərini artırsınlar, müsəlman qardaşlarını bu bəladan qurtarmaqda öz imkanlarını əsirgəməsinlər. Gün o gün olacaqdır ki, Azərbaycan dövləti bu təcavüzdən xilas olacaq, qısa müddətdə inkişaf edib çiçəklənən dövlətə çevriləcək və özü qardaşlarına kömək etmək iqtidarında olacaqdır.

Bu yüksək kürsüdən İslam Konfransı Təşkilatının rəhbərliyinə və burada iştirak edən bütün dövlət və hökumət başçılarına üz tutaraq, Azərbaycanın haqq işinə verdikləri dəstəyə görə minnətdarlığımı ifadə edirəm. Ümidvaram ki, Tehran zirvə görüşü Ermənistanın Azərbaycana qarşı təcavüzü barəsində tutarlı qərarlar qəbul edəcək və bir milyon qaçqın azərbaycanlı müsəlmanlara fəal yardım proqramını təklif edəcəkdir.

Əmin olduğumu bildirirəm ki, İslam Konfransı Təşkilatı islam ümmətinin tərəqqisi, xoşbəxt gələcəyi, məzlum xalqların rifahı yolunda bütün imkanlarından istifadə edəcəkdir. Bu müqəddəs məqsədlərə nail olmaq üçün Allah-təalanın köməyi ilə Azərbaycan Respublikası da öz töhfələrini verəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm. [342]

## İRANIN «ƏHRAR» QƏZETİNİN MÜXBİRİ İLƏ MÜSAHİBƏ

*Tehran*

*10 dekabr 1997-ci il*

**S u a l:** İranla Azərbaycan arasında əlaqələrin genişləndirilməsi haqqında nə demək olar?

**C a v a b:** İranla Azərbaycan arasındakı əlaqələr dostluq, qardaşlıq xarakteri daşıyır və güman edirəm ki, bu əlaqələr bundan sonra daha da yüksəklərə qalxacaq, genişlənəcək, daha da çox inkişaf edəcəkdir. Ümidvaram ki, İranın prezidenti cənab Xatəmi ilə mənim görüşüm zamanı - bu gün bizim xüsusi görüşümüz olacaq - biz bu məsələləri müzakirə edəcəyik və düşünürəm ki, fikirlərimiz eyni olacaqdır.

**S u a l:** Qarabağ savaşı ilə bağlı olaraq bu konfransdan nə kimi istəkləriniz var?

**C a v a b:** İstəklərimiz odur ki, bu konfrans bir təcavüzkar kimi Ermənistanı məhkum etsin. Ermənistan Azərbaycana təcavüz edib, Azərbaycanın torpaqlarının 20 faizini işğal edibdir, bir milyondan artıq azərbaycanlı, müsəlmanların qardaş-bacıları yerlərindən-yurdlarından zorla çıxarılıb, çadırlarda yaşayırlar. Ona görə də bu konfrans Ermənistanı bir təcavüzkar kimi məhkum etməlidir.

**S u a l:** Xəzər dənizinin hüquqi rejiminə necə baxırsınız?

**C a v a b:** Xəzər dənizinin hüquqi rejimi çox normal həll olunacaqdır.

**S u a l:** Zirvə görüşünü necə qiymətləndirirsiniz?

**C a v a b:** Çox yüksək qiymətləndirirəm. [343]

## İRANIN «İQTİSADİYYAT DÜNYASI» QƏZETİNİN VƏ İRNA AGENTLİYİNİN MÜXBİRLƏRİNƏ MÜSAHİBƏ

*Tehran*

*10 dekabr 1997-ci il*

**S u a l:** Azərbaycan ilə İranın gələcək əməkdaşlığı haqqında fikrinizi bilmək istərdim.

**C a v a b:** Azərbaycan ilə İranın əməkdaşlığı yaxşıdır. Biz dost ölkələrik, münasibətlərimiz dostluq və əməkdaşlıq xarakteri daşıyır. Bizim tarixi əlaqələrimiz, tarixi keçmişimiz, bir dinə mənsub olmağımız, adət-ənənələrimiz ölkələrimizin - Azərbaycanın və İranın fəal əməkdaşlıq etməsi və dostluq münasibətləri saxlaması üçün çox sanballı bünövrə yaratmışdır. İndi belə əməkdaşlıq var, amma mən hesab edirəm ki, bu, kifayət deyildir. Biz bütün sahələrdə - iqtisadiyyatda, elm, texnika, mədəniyyət sahəsində əməkdaşlığımızı genişləndirməliyik. Ümidvaram ki, prezident cənab Xatəmi və İranın digər rəhbərləri ilə görüşlərimiz zamanı bu məsələləri müzakirə edəcək və əməkdaşlığımızı daha da inkişaf etdirmək üçün tədbirlər müəyyənləşdirəcəyik.

**S u a l:** Zirvə görüşündən nə gözləyirsiniz?

**C a v a b:** İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının VIII zirvə görüşü bütünlükdə islam dünyası, islam birliyinin, həmrəyliyinin daha da möhkəmlənməsi üçün, o cümlədən müsəlman ölkələrinin mənafelərinə toxunan bir çox kəskin məsələlər - münaqişələr, təcavüzlər və sairə barədə çox mühüm qətnamələr, qərarlar qəbul edəcəkdir. Ümidvaram ki, Ermənistanın Azərbaycana [344-345] qarşı təcavüzü haqqında da xüsusi qətnamə qəbul edəcəkdir. Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal edib, bir milyondan çox azərbaycanlı öz yurdlarından zorla qovulub çıxarılmışdır və qaçqın vəziyyətində yaşayır. Hesab edirəm ki, bu təcavüzü pisləyən qətnamə qəbul olunacaqdır. Ümidvaram ki, Azərbaycan qaçqınlarına humanitar yardım göstərilməsi barədə də qətnamə qəbul ediləcəkdir. Bütün islam dünyasına aid olan böyük qətnamələr də, ayrı-ayrı lokal problemlərlə, o cümlədən Azərbaycanla bağlı qətnamələr də olacaqdır.

**S u a l:** Xəzər dənizinin mineral ehtiyatlarından istifadə olunması barədə ölkənizin mövqeyi və təklifləri necədir?

**C a v a b:** Xəzər böyük neft və qaz ehtiyatları olan dənizdir. Azərbaycan Xəzər dənizindən neft və qaz çıxarılması ilə çoxdan məşğul olur. Biz bu işlə hələ əsrin əvvəlində məşğul olmağa başlamışıq. Lakin 50 il bundan öncə bu iş xüsusilə genişlənmişdir. Xəzər dənizinin Azərbaycan sektorunda olan yataqlarında iş görürük.

**S u a l:** Cənab prezident, Azərbaycan bu zirvə görüşündən nə gözləyir?

**C a v a b:** Biz istəyirik ki, islam ölkələri daha da həmrəy, bir-biri ilə mehriban, dost olsunlar. İslam aləmi dünyada gedən proseslərdə islam mədəniyyətini, mənəviyyatını, dinini daha da qorusun, müsəlman xalqlarının, ölkələrinin hüquqlarının pozulmasının qarşısını alsın.

**S u a l:** Cənab prezident, bu hüquqların pozulmasının qarşısını almaq üçün Sizcə, nə etmək lazımdır?

**C a v a b:** İslam ölkələri daha da birgə olmalıdır, bir-birinin dərdinə qalmalı, kömək etməli, sıx əlaqə saxlamalıdırlar.

**S u a l:** Bu zirvə görüşü Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün nə iş görə bilər?

**C a v a b:** Çox iş görə bilər. Təəssüflər olsun ki, ancaq qətnamələr qəbul edir. Üç il bundan öncə Mərakeşdə bir qətnamə qəbul edildi, Ermənistan təcavüzkar kimi pisləndi, məhkum olundu və bu, [345-346] dünyaya elan edildi. Əlbəttə, beynəlxalq aləmdə ictimai rəy üçün bunun əhəmiyyəti var. Ancaq hesab edirəm ki, bu təşkilat səsini daha da gur çıxara bilər, tələb edə bilər ki, Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarından dərhal çıxsın, müsəlmanlara qarşı belə təcavüz etməsin. Əlbəttə, islam ölkələri bir olsa, bunu edə bilərlər.

**S u a l:** İranla Azərbaycan arasındakı əlaqələr barədə nə deyə bilərsiniz?

**C a v a b:** Bu əlaqələr yaxşıdır. Daha da yaxşı olmalıdır. Mən İran prezidenti cənab Xatəmi ilə görüşüb danışıqlar aparacağam. Çox məmnunam ki, İranda prezident seçkiləri demokratik qaydada keçibdir. Həmin demokratik seçkilər nəticəsində cənab Xatəmi prezident seçilibdir. Mənim də onunla görüşə böyük marağım vardır və bizim görüşümüz olacaqdır, biz bir sıra məsələləri müzakirə edəcəyik. [346]

## İRANIN «ƏSR-E AZADİ» QƏZETİNİN REDAKTORU DOKTOR VAHİD PEYHANIN SUALLARINA CAVABLAR

*Tehran*

*10 dekabr 1997-ci il*

**S u a l:** Cənab prezident, deyirlər ki, Brejnevin hakimiyyəti dövründə Azərbaycanda bolluq idi. Bu doğrudan da belə idi? Siz Azərbaycanın prezidenti seçiləndən, neft müqavilələri imzalayandan sonra deyirlər ki, Azərbaycan Küveyt kimi varlı bir ölkə olacaqdır. Bu barədə nə deyə bilərsiniz?

**C a v a b:** Brejnevin hakimiyyəti dövründə yox, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi zaman respublikada bolluq olubdur. Axı Azərbaycana Brejnev rəhbərlik etmirdi. O vaxt Azərbaycanın rəhbəri Heydər Əliyev idi, Brejnev isə Moskvada oturmuşdu. Azərbaycanda görülən işləri Azərbaycanın rəhbərliyi özü aparırdı. O vaxt doğrudan da bolluq idi, yaşayış çox yaxşı idi. Ancaq 1982-ci ilin ikinci yarısından Azərbaycanın iqtisadiyyatına zərərlər dəymişdi. Xüsusən, Ermənistanın Azərbaycana təcavüzü başlayandan sonra respublikamızda iqtisadiyyat inkişaf etmədi, məhsul istehsalı aşağı düşdü.

Bizim son iki ildə Azərbaycanda apardığımız iqtisadi islahatlar nəticəsində, şübhəsiz ki, bazar iqtisadiyyatını tətbiq etmək, insanlara sərbəstlik vermək, xarici ticarəti sərbəstləşdirmək və xarici ölkələrlə ticarət əlaqələrini genişləndirmək sayəsində ölkəmizdə iqtisadiyyat artıq dirçəlir. Əgər 1988-1989-cu illərdən ta 1995-ci ilə qədər Azərbaycanda iqtisadiy[347-348]yat, sənaye, kənd təsərrüfatı məhsulları istehsalı ilbəil aşağı düşürdüsə, indi biz bunun qarşısını almışıq. 1996-cı ildə artım başlayıbdır. 1997-ci ildə məhsul istehsalının artımı daha da çox olubdur.

Bu artım nədən ibarətdir? İqtisadçılar bilir, bəlkə siz də bilirsiniz - ümumi daxili məhsul iqtisadiyyatın səviyyəsini müəyyənləşdirən göstəricidir. Azərbaycanda ümumi daxili məhsul istehsalı bu il əvvəlki ilə nisbətən beş faiz artıbdır. Sənaye məhsulu istehsalı aşağı düşməyibdir, təxminən bir faiz artıbdır. İndi insanların pul gəliri 50 faiz artıbdır. İnflyasiya tamamilə yox olubdur. 1994-cü ildə respublikada inflyasiya 1600 faiz təşkil edirdi. Bu, 1995-ci ildə 84 faiz, 1996-cı ildə 6 faiz olmuşdur. İndi inflyasiyanın dərəcəsi sıfırdır. Bunlar iqtisadiyyatın, maliyyənin vəziyyətini əks etdirən ən əsas göstəricilərdən biridir. Son vaxtlar manatın dəyəri dollara nisbətən artır. Bu da çox yaxşı göstəricidir.

Biz ərzaq bolluğunu təmin etmişik. Vaxt var idi ki, respublikada ərzaq məhsulları çatışmırdı. Hətta Sovet İttifaqı vaxtında da, məsələn, 1981, 1982-ci illərdə də bəzi ərzaq məhsulları çatışmırdı. Mən 1982-ci ildə Moskvaya işləməyə getdim. Amma indi bolluqdur. Çünki biz kənd təsərrüfatını özəlləşdirmişik. Heyvandarlığı tamamilə özəlləşdirmişik, mal-qaranı kəndlilərə vermişik. Kəndli keçmiş Sovet İttifaqı dövründəki kolxozlardakına nisbətən indi mal-qaraya daha yaxşı baxır. O dövrdə həm mal-qaraya yaxşı baxmırdılar, həm də məhsulu oğurlayırdılar. Amma indi inək də, qoyun da, keçi də kəndlinin özünündür. Bilir ki, heyvana nə qədər yaxşı yem versə, yaxşı bəsləsə, o qədər də çox süd, ət, gəlir götürəcəkdir. Bununla da ət, süd məhsulları artacaqdır. Bu, artıq öz nəticəsini verir.

Biz torpaqları camaata paylamışıq. Torpaq əvvəllər dövlət mülkiyyətində idi, insanların deyildi. O yerdə ki, torpaqları camaata paylamışıq, orada insanlar torpaqdan daha səmərəli [348-349] istifadə edir, daha çox mənfəət götürürlər. Eyni zamanda buğda, başqa məhsullar istehsal edir, gətirib satır, bolluq yaradırlar. Ona görə də bizdə kənd təsərrüfatı məhsulları daha da artır, bu sahədə bolluq vardır. Doğrudur, əhalinin hamısının bu məhsulları almağa imkanı yoxdur. məsələn, Azərbaycanda bir milyon qaçqın var. Onlar Ermənistan silahlı qüvvələrinin işğal etdiyi torpaqlardan qaçqın düşüblər, işləmirlər, çadırlarda yaşayırlar, bu adamların vəziyyəti ağırdır. Ümumiyyətlə, bizdə hələ ki, kasıb yaşayan adamlar vardır. Bu da təbiidir. Baxmayaraq ki, İranda nə kolxoz, nə sovxoz olub, elə İranın özündə də kasıb yaşayan adamlar var. Amma görürsünüz, indi biz sistemi dəyişdiririk, bir siyasi, iqtisadi quruluşdan digərinə keçirik. Bax, bunların nəticəsində indi respublikamızın iqtisadiyyatında dirçəliş vardır. Bu dirçəliş də get-gedə artır. Bunlar hamısı ölkəmizdəki mövcud imkanlardan meydana gələn nəticələrdir.

Sən neft istehsalı məsələsindən də danışdın. Bəli, biz xarici ölkələrin şirkətləri ilə birgə Xəzər dənizindəki bir çox yataqlardan neft və qaz çıxarmağa başlamışıq. O cümlədən İranın «Oyek» şirkəti Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsi üçün imzalanmış iki müqavilənin həyata keçirilməsində iştirak edir. Həmin müqavilələrin həyata keçirilməsində Rusiyanın, Fransanın, İngiltərənin, Amerikanın və başqa ölkələrin şirkətləri də iştirak edir. Şübhəsiz ki, bu yataqlardan bir neçə ildən sonra xeyli çox neft və qaz hasil olunacaqdır. Biz həmin nefti və qazı dünya bazarında satanda gəlirimiz artacaqdır. Gəlirimiz artdıqca da biz ölkəmizdə müəyyən çətinlikləri aradan qaldıracağıq və iqtisadiyyatın başqa sahələrinə sərmayə qoya biləcəyik. Halbuki indi bizim həmin sahələrə sərmayə qoymaq üçün vəsaitimiz yoxdur, bu sahələrə sərmayə qoyanda oradan da gəlir götürəcəyik və beləliklə, Azərbaycanın gələcəyi çox yaxşı olacaqdır. [349-350]

**S u a l:** Cənab prezident, Azərbaycan mahnılarında Vətən sevgisi həmişə ön planda durur. Bəs ermənilərlə nə edəcəksiniz?

**C a v a b:** Ermənistan silahlı qüvvələrini Azərbaycanın işğal olunmuş torpaqlarından mütləq çıxaracağıq. Biz heç vaxt torpaqlarımızın Ermənistanın işğalı altında qalmasına yol verməyəcəyik. Doğrudur, üç il yarım keçibdir ki, biz müharibəni dayandırmışıq. Nə üçün? Bilirsiniz, 1988-ci ildən 1994-cü ilədək altı il müharibə getdi. Həmin müharibə Azərbaycana bir şey gətirmədi, respublikamıza bəlalar gətirdi - insanlar şəhid oldu, qırıldı, torpaqlarımız işğal olundu. Nə üçün? Ona görə ki, Ermənistanın arxasında bir çox dövlətlər durur, ermənilərə silah-sursat verirlər. Rusiyanın Ermənistanda hərbi, əsgəri bazaları vardır. Rus ordusu Ermənistanda durubdur. Belə bir halda lazım gəlsə, Ermənistanla yenə müharibə etmək olar. Ancaq biz belə fikrə gəldik ki, məsələni sülh yolu ilə həll etmək daha düzgün olar. Ona görə də biz atəşi dayandırdıq, atəşkəs haqqında saziş imzaladıq. İndi sülh danışıqları aparırıq. Bu danışıqlar da ondan ibarətdir ki, Ermənistanın işğalçı ordusu gərək işğal edilmiş yerlərdən çıxsın, qaçqınlarımız öz yerlərinə qayıtsınlar, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun. Dağlıq Qarabağda yaşayan ermənilərə isə Azərbaycan dövlətinin tərkibində yüksək dərəcəli müxtariyyət hüququ veriləcəkdir.

**S u a l:** Əbülfəz Elçibəyin Bakıya qayıtması nə ilə əlaqədardır?

**C a v a b:** Azərbaycanın hər bir vətəndaşı harada istəsə, orada yaşaya bilər. Əbülfəz Elçibəy 1993-cü ildə respublika prezidenti vəzifəsini, camaatı başlı-başına qoyub, dağda yerləşən Kələki kəndinə getdi, orada gizləndi, öz vəzifəsini yerinə yetirmədi, fərarilik etdi. Orada dörd il yarım yaşadı. O, sonra Bakıya gəlmək istədi, gəldi. Hara istəsə - Gəncəyə, [350-351] Sumqayıta, Lənkərana gedə bilər. Yəni nə onun qaçmağında, nə də Bakıya qayıtmağında bizim iştirakımız yoxdur.

**S u a l:** Siz dünyanın ən böyük siyasətçisisiniz. Dünyada üç böyük siyasi xadimdən birincisi Sizi hesab edirlər. Siz neft müqaviləsi imzalamaqla Azərbaycanı dünyada bir daha şöhrətləndirdiniz. Bayaq dediniz ki, torpağı özəlləşdirmisiniz. Həmin torpaqlar camaata müftə verilibdirmi?

**C a v a b:** Bəli, torpağı xalqa, camaata, kəndliyə tamam müftə vermişik. O, torpaqdan özü istədiyi kimi istifadə edəcəkdir. Həmin torpağı sata da bilər, qohum-əqrəbasına da verə bilər. O, torpağın sahibidir. Hesab edirəm ki, o, həmin torpağı satsa da, başqasına versə də, fərqi yoxdur - torpaqdan səmərəli istifadə edəcəkdir. Ölkəmizin əkinçilikdə imkanları böyükdür. Bizim çox münbit, gözəl torpaqlarımız vardır, onlardan daha çox məhsul götürmək olar. Ölkədə məhsul artacaqdır. Məhsul artanda isə ərzaq bolluğu olacaqdır.

**S u a l:** İKT-nin VIII zirvə görüşü başa çatandan sonra Azərbaycanla İran arasında əlaqə necə olacaqdır? Bu ölkələr arasında yaxşı münasibətlər var. Bundan da yaxşı olacaq, yoxsa yox?

**C a v a b:** İslam Konfransı Təşkilatının VIII zirvə görüşünün bu məsələyə o qədər də dəxli yoxdur. Bilirsiniz ki, bu zirvə görüşünə 55 ölkənin, o cümlədən də Azərbaycanın nümayəndələri gəlibdir. Bu gün mən İran İslam Respublikasının prezidenti cənab Xatəmi ilə görüşəcəyəm. Biz ölkələrimiz arasındakı ikitərəfli əlaqələrin gələcəkdə necə inkişaf etdirilməsi məsələlərini müzakirə edəcəyik. Mənim istəyim də, arzum da budur ki, İran ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələri olsun, bizim ölkələrimizin böyük imkanlarından əməkdaşlığımızı, o cümlədən iqtisadi əməkdaşlığımızı inkişaf etdirmək üçün istifadə edilsin.

**S u a l:** Hörmətli prezident Heydər Əliyev, indiyədək Təbrizdə olubsunuzmu? [351-352]

**C a v a b:** Mən Naxçıvanda yaşayarkən Təbrizə gəlmişdim. Ancaq Azərbaycanın prezidenti kimi 1994-cü ildə İrana rəsmi ziyarətə gələrkən Təbrizə getmək imkanım olmadı. Təbrizə yenidən getmək arzum vardır, yəqin Allah qismət edəcəkdir.

**J u r n a l i s t:** İnşaallah. Çox sağ olun, cənab prezident. [352]

## TACİKİSTAN PREZİDENTİ İMAMƏLİ RƏHMANOVLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Tehran*

*10 dekabr 1997-ci il*

**İ m a m ə l i R ə h m a n o v:** Hörmətli cənab Əliyev, Sizi səmimiyyətlə salamlayıram və bildirirəm ki, görkəmli dövlət xadimi Heydər Əliyevlə görüşdən məmnun qaldığımı xüsusilə qeyd edirəm. Vurğulayıram ki, hüquqi demokratik dövlət qurulması və islahatların uğurla yerinə yetirilməsi sahəsində son illər Azərbaycanda həyata keçirilən tədbirlərə böyük maraq göstərirəm.

**H e y d ə r Ə l i y e v:** Səmimi sözlərə görə minnətdarlıq edirəm, bildirirəm ki, xalqlarımızın dərin köklərə malik əlaqələrini indi daha da inkişaf etdirmək vacibdir.

Hər iki gənc müstəqil respublikanın nüfuzlu beynəlxalq təşkilatlarda bir-birinin mövqeyini daim müdafiə etməsinin böyük əhəmiyyət daşıdığını nəzərə çarpdıraraq əmin olduğumu bildirirəm ki, İslam Konfransı Təşkilatının VIII zirvə görüşü həm Azərbaycanın, həm də Tacikistanın qarşılaşdığı problemlərin tezliklə aradan qaldırılmasına kömək edən sənədlər qəbul edəcəkdir.

**İ m a m ə l i R ə h m a n o v:** Cənab Əliyev, dediklərinizlə tamamilə razıyam. Məlumat verirəm ki, Tacikistanda hazırki ictimai-siyasi vəziyyət nisbətən sabitdir və normallaşmaqdadır. [353-354]

**H e y d ə r Ə l i y e v:** Ermənistanın Azərbaycana təcavüzü nəticəsində ərazimizin 20 faizinin Ermənistan qoşunları tərəfindən işğal edilməsi, Dağlıq Qarabağdan və ətrafındakı 7 Azərbaycan rayonundan 1 milyondan çox vətəndaşımızın yerindən-yurdundan qovularaq ağır şəraitdə çadırlarda yaşaması bu münaqişəni respublikamız üçün ən ağrılı və çətin problemə çevirmişdir. Azərbaycan dövləti Ermənistan – Azərbaycan münaqişəsini sülh yolu ilə aradan qaldırmaq üçün nə lazımdırsa edir, son aylarda bu sahədə görülən işlər güclənmiş, danışıqların aparılması xeyli intensiv xarakter almışdır. ATƏT-in Minsk qrupu həmsədrlərinin irəli sürdüyü təkliflər münaqişənin aradan qaldırılacağına olan ümidləri artırmışdır. Bir daha bildirirəm ki, Qafqazda sülhün, əmin-amanlığın bərqərar olması xalqımız üçün həyati əhəmiyyət daşıyır və biz buna nail olacağıq. İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin VIII zirvə görüşünün Ermənistanın Azərbaycana təcavüzünü qətiyyətlə pisləyən qərarlar qəbul etməsi də bu işdə öz müsbət rolunu oynayacaq və bizə layiqli dəstək olacaqdır.

Mənim üçün bildirmək çox xoşdur ki, iqtisadiyyat, elm, mədəniyyət və digər sahələrdə mövcud imkanlardan istifadə etməklə Azərbaycan-Tacikistan əlaqələrini inkişaf etdirməyin vacib olduğu barədə fikirlərimiz tamamilə üst-üstə düşür. [354]

## ƏRƏB ÖLKƏLƏRİ CƏMİYYƏTİNİN BAŞ KATİBİ İSMƏT ƏBDÜL MƏCİD İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Tehran*

*10 dekabr 1997-ci il*

**İsmət Əbdül Məcid:** Azərbaycan prezidenti, görkəmli dövlət xadimi cənab Heydər Əliyevi səmimiyyətlə salamlayıram və onunla görüşdən şərəf duyduğumu bildirirəm. Son illər Azərbaycanın dövlət quruculuğunda və islahatlar aparılması sahəsində əldə etdiyi uğurları diqqətlə izləyir və bundan məmnun qalıram.

**Heydər Əliyev:** Səmimi sözlərə görə təşəkkür edirəm və nəzərə çarpdırıram ki, Azərbaycan ilə Ərəb Ölkələri Cəmiyyəti arasında sıx əlaqələr qurulması vacibdir.

Bildirirəm ki, Azərbaycan 1988-ci ildən bəri Ermənistan silahlı qüvvələrinin təcavüzünə məruz qalır, bu təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal olunmuşdur, 1 milyondan çox vətəndaşımız yerindən-yurdundan zorla qovularaq çadırlarda ağır şəraitdə yaşayırlar. Vurğulayıram ki, islam ölkələrinin və cəmiyyətlərinin bu münaqişəyə sülh yolu ilə son qoyulması üçün Azərbaycanın mövqeyini qətiyyətlə müdafiə etmələrinə ehtiyac vardır.

Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu həmsədrlərinin irəli sürdüyü son təkliflər ümidləri artırmışdır. Biz müstəqil ölkəmizin ərazi bütövlüyünün bərpa olunması, qaçqınların doğma yurdlarına qayıtması üçün beynəlxalq təşkilat-[355-356]ların, Dünya Birliyinin və nüfuzlu dövlətlərin səylərinə ümid bəsləyirik. Əmin olduğumu bildirirəm ki, dünyanın bütün sülhsevər qüvvələrinin dəstəyi sayəsində biz Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına nail olacağıq. [356]

## QAZAXISTAN DİPLOMATLARI* İLƏ GÖRÜŞDƏ SÖHBƏT VƏ ARZULAR

*Tehran*

*10 dekabr 1997-ci il*

**V. İ z z ə t o v və B. A m r e y e v:** Hörmətli cənab prezident, biz Qazaxıstan Respublikasının diplomatları, Sizi ürəkdən salamlayırıq və görkəmli dövlət xadimi Heydər Əliyevlə görüşdən şərəf duyduğumuzu bildiririk. Məhz Sizin müdrik siyasətiniz nəticəsində Azərbaycanın son illər Dünya Birliyində layiqli yer tutmasından məmnunluqla söhbət açırıq.

Xarici ölkələrin Azərbaycan ilə qarşılıqlı surətdə faydalı əməkdaşlığa böyük maraq göstərdiyinin şahidi olduğumuzdan tam cəsarətlə söyləyirik və razılıqla bəhs edirik ki, prezidentlər Heydər Əliyevin və Nursultan Nazarbayevin diqqət və qayğısı sayəsində Azərbaycan ilə Qazaxıstan arasında əməkdaşlıq ardıcıl surətdə, müvəffəqiyyətlə inkişaf edir.

**H e y d ə r Ə l i y e v:** Hörmətli Qazaxıstan diplomatları cənab İzzətov və cənab Amreyev, səmimi sözlərinizə görə minnətdarlıq edirəm və Sizinlə görüşümdən məmnun qaldığımı vurğulayıram. Sizə öz fəaliyyətinizdə uğurlar.* [357]

* Görüşdə Qazaxıstan Respublikasının İrandakı və Səudiyyə Ərəbistanındakı səfirləri Vyaçeslav İzzətov və Baqdat Amreyev iştirak etmişlər.

## İRAN İSLAM RESPUBLİKASININ ALİ DİNİ RƏHBƏRİ AYƏTÜLLAH SEYİD ƏLİ XAMNEİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Tehran*

*10 dekabr 1997-ci il*

**S e y i d  Ə l i  X a m n e i:** Cənab Heydər Əliyev, Sizi səmimiyyətlə salamlayıram və Sizinlə görüşdən məmnun qaldığımı bildirirəm.

Cənab prezident, xoş gəlmisiniz! Mən Allah-təaladan arzu edirəm ki, bu səfər Sizin üçün xoş keçsin. İKT-nin VIII zirvə görüşü bu təşkilatın üzvü olan bütün ölkələr – İslam aləmi üçün mühüm bir hadisədir. İslam Birliyinin üzvü olmaq böyük sərvətdir. İKT-yə qarşıdakı üç ildə İran İslam Respublikası rəhbərlik edəcəkdir ki, bu da dost və qardaş ölkələr üçün yaxşı imkanlar açır.

**H e y d ə r  Ə l i y e v:** Hörmətli Ayətüllah Xamnei, səmimi sözlərə görə Sizə minnətdarlıq edirəm. Tehrana gəlməyimdən, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının VIII zirvə görüşündə iştirak etməyimdən məmnun qaldığımı bildirirəm. Xatırladım ki, mən bu təşkilatın 1994-cü ildə Kasablankada keçirilmiş VII zirvə görüşündə də iştirak etmişəm.

İKT-nin VIII zirvə görüşünün Tehranda keçirilməsini və İran İslam Respublikasının qarşıdakı üç ildə bu təşkilata sədrlik edəcəyini əlamətdar hadisələr kimi qiymətləndirirəm. [358-359]

Biz zirvə görüşündə Sizin nitqinizi böyük diqqətlə dünlədik. Bu nitqinizə və zirvə görüşünün mütəşəkkil qaydada keçməsinə görə mən Sizi təbrik edirəm. Dünyəvi dövlət quran müstəqil Azərbaycan Respublikası öz dininə böyük hörmətlə yanaşır. Biz ötən uzun illərdə itirdiklərimizi, adət-ənənələrimizi bərpa edirik, canlandırırıq, onların durmadan inkişaf etdirilməsi üçün ölkəmizdə bütün imkanları yaradırıq. Xalqımızı 70 il ərzində İslam dinindən ayırmağa çalışıblar. Bilirsiniz ki, biz Sovetlər İttifaqının tərkibində ateist tərbiyəsi, təbliğatı altında yaşamışıq. Ancaq buna baxmayaraq, xalqımız öz dinindən heç vaxt ayrılmayıbdır, onu qəlbində, ürəyində saxlayıb və imkan olan kimi hər şey açılıbdır. Bu da dinimizin – İslam dininin nə qədər qüdrətə, gücə malik olduğunu bir daha göstərir. Mən bu gün bir daha bəyan edirəm ki, Azərbaycan öz müstəqilliyini bundan sonra heç vaxt əldən verməyəcək və dinindən də ayrılmayacaqdır. Nəzərə çarpdırıram ki, İran ilə əlaqələrə Azərbaycan çox böyük əhəmiyyət verir, Azərbaycan-İran münasibətləri daimi dostluq və qardaşlıq münasibətləri olmuşdur. Bizim arzumuz, istəyimiz ondan ibarətdir ki, bu münasibətlər daha geniş, sıx, mehriban, səmimi olsun. Əməkdaşlığımızı genişləndirmək üçün insani, elmi, mədəni, ticarət əlaqələrinin durmadan möhkəmləndirilməsi vacibdir.

**S e y i d  Ə l i  X a m n e i:** Cənab prezident Heydər Əliyev, Sizin fikirlərinizə şərik olduğumu bildirirəm. Siz həqiqətən böyük siyasi təcrübəyə malik şəxsiyyətsiniz, respublikanızın son illər qazandığı təcrübə, Sizin rəhbərliyinizlə görülən işlər dövlətiniz üçün yenidir.

**H e y d ə r  Ə l i y e v:** Hazırda Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar aparılır, həmsədrlərdən münaqişənin həllinə yönələn yeni təkliflər alınmışdır. Biz bu təklifləri əsas kimi qəbul elmişik. İstəyirik [359-360] ki, Azərbaycanın işğal olunmuş torpaqları azad edilsin, ölkəmizin ərazi bütövlüyü təmin olunsun, doğma yurdundan zorla qovulmuş, hazırda çadırlarda ağır şəraitdə yaşayan bir milyondan çox vətəndaşlarımız öz yerlərinə qayıtsınlar.

Azərbaycanlı qaçqınlara etdiyi humanitar yardıma görə İran İslam Respublikasının rəhbərliyinə minnətdarlığımı bildirməklə, eyni zamanda Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasında qeyri-konstruktiv mövqeyindən əl çəkməyən Ermənistana bir çox dövlətlərin siyasi və iqtisadi dəstək verməsindən təəssüfləndiyimi bildirirəm.

Əmin olduğumu vurğulayıram ki, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Tehran görüşündə Ermənistanın Azərbaycana təcavüzünü pisləyən sənədlərin qəbulu üçün İran öz nüfuzundan səmərəli istifadə edəcəkdir. [360]

## PAKİSTANIN BAŞ NAZİRİ NƏVAZ ŞƏRİF İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Tehran*

*10 dekabr 1997-ci il*

**H e y d ə r Ə l i y e v:** Pakistanın hörmətli baş naziri cənab Nəvaz Şərif, Sizi mehribanlıqla salamlayıram, Sizinlə Aşqabaddakı görüşümü məmnunluqla xatırlayıram və İslam Konfransı Təşkilatının VIII zirvə görüşündə Sizin çıxışınızı yüksək qiymətləndirirəm.

**N ə v a z Ş ə r i f:** Cənab prezident, mən də Sizi səmimiyyətlə salamlayıram, görkəmli dövlət xadimi Heydər Əliyevlə görüşümdən şərəf duyduğumu bildirirəm və Pakistanın haqq işini həmişə müdafiə etdiyinizə görə Sizə minnətdarlıq edirəm.

**H e y d ə r Ə l i y e v:** Əmin olduğumu bildirirəm ki, İslam Konfransı Təşkilatının VIII zirvə görüşü müsəlman dövlətləri arasında qarşılıqlı surətdə faydalı əlaqələrin daha da möhkəmləndirilməsində, bir sıra ölkələrin qarşılaşdığı ciddi problemlərin aradan qaldırılmasında mühüm rol oynayacaqdır. Mən bu baxımdan, Azərbaycan - Pakistan əməkdaşlığının hazırkı vəziyyətindən razılıqla bəhs edirəm.

1996-cı ildə Pakistana səfərimi məmnunluqla xatırlayıram. İslamabadda, Lahorda keçirdiyim görüşləri, apardığım danışıqları, ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün imzalanan sənədləri yüksək qiymətləndirirəm. Nəzərə çarpdırıram ki, ölkələrimizin tarixi köklərə malik dostluq münasibətlərini gündən-günə yaxşılaşdırılmasının vacib olduğunu vurğulayıram. [361-362]

Ermənistanın Azərbaycana təcavüzü gənc müstəqil respublikamız üçün ən ağrılı problem olaraq qalır. Bu münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlara biz böyük əhəmiyyət veririk, həmsədrlərin irəli sürdüyü təkliflər də bizim tərəfimizdən müsbət qarşılanmışdır.

Biz bilirik ki, Pakistan da uzun illərdən bəri ciddi problemlərlə qarşılaşmışdır. Vurğulayıram ki, nüfuzlu beynəlxalq təşkilatların toplantılarında Azərbaycan həmişə Pakistanın mövqeyini dəstəkləmişdir.

**N ə v a z Ş ə r i f:** Hörmətli cənab prezident Heydər Əliyev, mənim ölkəmə göstərdiyiniz diqqətə görə Sizə minnətdarlıq edirəm və bildirirəm ki, biz Azərbaycanın haqq işini daim müdafiə edirik və Ermənistanın təcavüzkarlığını qətiyyətlə pisləyirik.

Söhbət zamanı bizim Azərbaycan - Pakistan əməkdaşlığının perspektivləri barədə geniş müzakirə aparmağımız, xüsusən iqtisadi münasibətlərimizin daha da canlandırılmasının vacibliyini qeyd etməyimiz, heç şübhəsiz, yaxın illərdə əməkdaşlığımızın sıxlaşdırılmasına ciddi təsir göstərəcəkdir.

**H e y d ə r Ə l i y e v:** Cənab Nəvaz Şərif, Sizi Azərbaycana rəsmi səfərə dəvət edirəm.

**N ə v a z Ş ə r i f:** Dəvəti məmnunluqla qəbul edirəm, bildirirəm ki, 1998-ci ildə mütləq Azərbaycana səfər edəcəyəm. [362]

## İKT-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN VIII ZİRVƏ GÖRÜŞÜNDƏ XARİCİ VƏ YERLİ JURNALİSTLƏRİN SUALLARINA CAVABLAR

*Tehran*

*11 dekabr 1997-ci il*

**S u a l:** Siz İran tərəfinin Xəzərin sektora bölünməsinə razılıq verəcəyinə inanırsınızmı?

**C a v a b:** Bilirsiniz, mən deyə bilmirəm ki, inanıram, ya inanmıram. Hər bir ölkənin özünün siyasəti, maraqları var. Ancaq mən ona inanıram ki, gələcəkdə Xəzər dənizinin mineral ehtiyatlarından istifadə etmək üçün onun sektorlara bölünməsinin alternativi yoxdur. Mən hesab edirəm ki, bütün Xəzəryanı ölkələr bu prinsipin üzərində dayanmalıdırlar. Nə üçün? Ona görə yox ki, bu bizim üçün əlverişlidir. Yox. Bu prinsip hər bir ölkə üçün Xəzər dənizinin mineral ehtiyatlarından səmərəli istifadə etməyə ən gözəl şərait yaradan prinsipdir.

**S u a l:** Sizcə, Azərbaycan neftinin nəqli üçün kəmərin İrandan keçməsinə imkanlar varmı və bundan ötrü hansı şərait mövcud olmalıdır?

**C a v a b:** Bizim neft kəmərinin İrandan keçməsi haqqında hələ ki, danışıqlar aparmamışıq. Ancaq bilirsiniz ki, Xəzər dənizinin Azərbaycan sektoru üzrə artıq bir neçə müqavilə imzalanıb və gələcəkdə bunlar nəzərdə tutulduğundan da çox neft və qaz əldə etmək perspektivi açıbdır. Ona görə də bir yox, bir neçə kəmər ola bilər. Çünki Azərbaycan sektoru ilə yanaşı, güman edirəm ki, [363-364] Xəzər dənizinin digər sektorlarında – Qazaxıstan sektorunda da, Türkmənistan sektorunda da, başqa sektorlarda da neft hasil etmək imkanları var. Bir halda ki, Xəzər dənizində bu qədər neft hasil olunacaq, bunu dünya bazarına aparmaq lazımdır. Dünya bazarlarına aparmaq üçün də cürbəcür yollar, - əgər onlar iqtisadi və təhlükəsizlik cəhətdən əlverişli olarsa, - məqbul ola bilər.

**S u a l:** Siz prezident Xatəmi ilə söhbətinizdə İranın Ermənistana dəstək verməsi mövzusuna toxundunuzmu?

**C a v a b:** Bu mövzu bizi daim narahat edir. Biz bunu dəfələrlə bəyan etmişik və öz narazılığımızı gizlətmirik. Çünki Ermənistan Azərbaycana qarşı hərbi təcavüz edib, Azərbaycanın torpaqlarının 20 faizini işğal edibdir və bir neçə ildir ki, onları işğal altında saxlayır. Bir milyondan çox qaçqın artıq beş il keçibdir ki, çadırlarda yaşayır. Ona görə də əgər Ermənistana işğalçılıq siyasətini davam etdirmək üçün kim yardım edirsə, şübhəsiz ki, o, bizim tərəfimizdən bəyənilə bilməz.

Məsələn, bilirsiniz ki, Rusiyanın Ermənistana gizli olaraq bir milyard dollar dəyərində silah verməsi haqqında bu ilin əvvəlində məlumat yayıldı. Məlumatı da Rusiyanın öz rəsmi dövlət orqanları açdılar, yaydılar. Biz dəfələrlə Rusiyaya öz narazılığımızı bildirmişik, məktublar yazmışıq, protest vermişik və etirazımızı bildirmişik.

İran bizim üçün dost, qonşu, qardaş ölkədir. İranın Ermənistanla həddindən artıq sıx əlaqə saxlaması və bəzən bunun Azərbaycanla olan əlaqəsindən daha da çoxtərəfli olması, şübhəsiz ki, bizi narahat edir və biz bunu daim deyirik.

**S u a l:** İslam həmrəyliyi çərçivəsində indi bu, aradan qaldırılacaqmı?

**C a v a b:** Bu məsələ müzakirə olunmur. Ancaq çox güman ki, İslam Konfransı Təşkilatının VIII zirvə görüşü Ermənis[364-365]tanın Azərbaycana təcavüzü haqqında qətnamə qəbul edəcəkdir.

**S u a l:** ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyətinin nəticəsizliyi məsələsini Kopenhagen görüşündə necə qoymaq fikrindəsiniz?

**C a v a b:** Mən hələ hesab etmirəm ki, nəticəsizdir. ATƏT-in son təklifləri mövcuddur, biz onu qəbul etmişik. Ermənistanın rəhbərliyi, yəni onun prezidenti də bunu qəbul edibdir. ATƏT-in Minsk qrupunun həmsədrləri bizə bildirdilər ki, Dağlıq Qarabağ hələ bunu qəbul etməyibdir. Onlar da Dağlıq Qarabağla iş aparırlar ki, bunu qəbul etsin, çünki Dağlıq Qarabağ üçün də ondan yaxşı təklif ola bilməz. Ona görə də güman edirəm ki, onlar öz işlərini aparacaqlar və ATƏT-in Minsk qrupu həmsədrlərinin işi nəticəsiz deyildir.

**S u a l:** Cənab prezident, Siz Elçibəyin son təkliflərini necə qəbul edirsiniz?

**C a v a b:** Mən Elçibəyin elə bir ağlabatan təklifini görməmişəm. Ona görə də hansı sondur, hansı əvvəlkidir, mən onları bilmirəm.

**S u a l:** Yeni Azərbaycan Partiyasının toplantısında müxalifət tərəfindən birinci addım atılmasından danışıldı. Bu, necə addım ola bilər?

**C a v a b:** Bilirsiniz, bunu bir balaca başqa cür formalaşdırıblar ki, guya birinci addım. Mən belə deməmişəm. Mən sadəcə demişəm ki, hər bir demokratik ölkədə müxalifət olmalıdır. Müxalifət olmasa demokratiya olmaz, müxalifət olmasa söz azadlığı olmaz, siyasi plüralizm olmaz. Müxalifət olmalıdır. Ey-

ni zamanda onu da demişəm ki, müxalifət gərək müxalifət mədəniyyətini mənimsəsin. Dünyada heç bir şey göydən düşmür. Hər bir şeyi insanlar, cəmiyyət yaradır. Demokratiyanı da bir vaxtlar insanlar yaradıblar və inkişaf etdirirlər, ən inkişaf etmiş ölkələr onu daim inkişaf etdirirlər. [365-366]

Azərbaycanda demokratiya gəncdir, yəni beş-altı yaşı var. Demokratik ölkəmiz də gəncdir və Azərbaycan cəmiyyətindəki müxalifət də gəncdir. Şübhəsiz ki, bəzən gəncin o qədər də biliyi, təcrübəsi olmur. Ancaq həqiqətən öz yerini tutmaq istəyirsə, - məsələn, dövləti də, deyirəm, müxalifəti də deyirəm, - gərək dünya təcrübəsindən istifadə etsin, öz daxili xüsusiyyətlərini nəzərə alaraq inkişaf etsin və təkmilləşsin. Mən bunu həm dövlətə, həm də müxalifətə aid edirəm. Biz dövlət olaraq bunu edirik. Ancaq məndə belə fikir var ki, müxalifət 1989-90-cı illərin səviyyəsində qalıbdır, ondan yuxarıya qalxa, inkişaf edə, dünyanın müxalifət mədəniyyətini, müxalifət təcrübəsini mənimsəyə bilməyibdir, iqtidar-müxalifət münasibəti nədir - bunun həm təcrübəsini, həm mədəniyyətini qavraya bilməyibdir. Bilirsiniz, bu, bir mədəniyyətdir, elmdir. Bunu edə bilməyəndə onlar cığallıq, qanunsuz hərəkətlər edirlər və cürbəcür pis işlər görürlər, ona görə də bəzən əziyyət çəkirlər. Mən istəmirəm belə olsun. Ona görə mən deməmişəm ki, müxalifət birinci addımı atsın. Demişəm ki, müxalifət iqtidar-müxalifət mədəniyyətini mənimsəməlidir. Biz də çalışırıq bunu edək və edirik. Əgər mən bu sözləri deyirəmsə, demək, biz bunu müəyyən qədər mənimsəyə bilmişik. Müxalifət iqtidarla öz münasibətlərini normal, dünya təcrübəsi, sivilizasiyası səviyyəsində qurmalıdır. Piket, silah, güc müxalifətinin Azərbaycanda vaxtı keçdi. Bilirsiniz ki, biz onları aradan götürdük. Əgər siz diqqət yetirsəniz, güman edirəm, razı olarsınız ki, bu illərdə bizim ən böyük nailiyyətimiz ondan ibarətdir ki, Azərbaycan cəmiyyətini Azərbaycan xalqına, ölkəsinə, hər bir insana çox zərər verən bu pis xüsusiyyətlərdən, xasiyyətlərdən xilas etdik.

Mən bu baxımdan demişəm. Belə olan surətdə müxalifət mədəni bir müxalifət olacaq, biləcək ki, iqtidarla nə cür [366-367] davranmaq lazımdır. İqtidar da onun bu səviyyəyə qalxdığını görəndə, şübhəsiz ki, normal, səmimi, milli mənafelərə uyğun olan, ancaq eyni zamanda müxalif fikirləri qiymətləndirəcəkdir. Məsələn, mən indi onların fikirlərinin çoxuna heç fikir vermirəm. Çünki görürəm ki, onların dalında nə durur. Amma mən görsəm ki, onların fikirlərinin dalında həqiqətən milli mənafe, millət, ölkə, dövlət dərdi durur, onda hər bir adamın fikri bizim üçün əhəmiyyətli olar.

**S u a l:** Siz Türkmənistan prezidenti Niyazov ilə görüşdünüz və yəqin ki, Xəzərdəki mübahisəli neft yataqları barədə söhbət getdi. Bu haqda nə deyə bilərsiniz, məsələni həll etdinizmi?

**C a v a b:** Bəli, mən prezident Niyazov ilə görüşdüm. Biz qonşuyuq, problemlərimiz çoxdur. Biz xüsusən beynəlxalq təşkilatlara, toplantılara gəlməyimizdən istifadə edərək tez-tez görüşürük. Dünən də belə bir imkan oldu və mən onunla görüşdüm. Biz ikitərəfli münasibətlərimizlə bağlı bir neçə məsələni, o cümlədən Türkmənistanla Azərbaycan arasında süni surətdə yaradılmış mübahisə haqqında məsələni müzakirə etdik. Bir halda ki, belə bir məsələ ortaya çıxıb və artıq mübahisə mövzusuna çevrilibdir, biz - iki prezident razılığa gəldik ki, Türkmənistan-Azərbaycan birgə işçi qrupu yaradaq. O, mübahisə xarakterli məsələləri - Türkmənistanın, Azərbaycanın qaldırdıqları məsələləri nəzərdən keçirsin, sonra isə özünün qəti fikirlərini, təkliflərini bizim müzakirəmizə təqdim etsin. Biz belə qərar qəbul etmişik və mən bu işə başçılıq etməyi xarici işlər nazirinə tapşırmışam.

**S u a l:** Həmin komissiyanın işinin nəticələri bütün beş dövlət barəsində Xəzərin statusu məsələsini həll etmək üçün əsas ola bilərmi?

**C a v a b:** Bilirsiniz, Xəzərin statusu ona görə həll olunmayıb ki, Türkmənistan ilə Azərbaycan arasında mübahisə var idi. Qeyd edim ki, Xəzərin statusu haqqında məsələ ilk [367-368] dəfə 1994-cü ilin payızında - Azərbaycan bir çox xarici şirkətlərlə «Əsrin müqaviləsi» adı almış müqavilə bağladıqdan sonra qaldırılmışdır. Bundan sonra bəzi ölkələrin müəyyən dairələrində Xəzər dənizinin statusunu müəyyənləşdirməyin zəruriliyi barədə məsələ qaldırdılar. Yəni bu, köhnə məsələdir. O ki qaldı Türkmənistanın iddialarına, bunlar yaxın vaxtlarda, bu ilin yayında meydana çıxıbdır.

**J u r n a l i s t:** Məncə, mayda.

**H e y d ə r Ə l i y e v:** Yox, istəyirəm biləsiniz, - mayda mən Aşqabadda EKO-nun sessiyasında olanda bu məsələ əsla yox idi. Mən orada iki gün qaldım, prezident Niyazov ilə görüşdüm. Heç kəs mənə bu sualı vermədi. Türkmənistan prezidenti də bu barədə mənə heç bir şey demədi. Bu məsələ sonradan, iyulun əvvəlində, özü də bizim üçün gözlənilmədən qalxdı. Biz indiyədək də gümanla başa düşürük ki, bu nə ilə əlaqədar edilmişdir. Hər halda edilmişdir.

Xəzərin statusu haqqında məsələ üç ildir müzakirə olunur, Türkmənistanla mübahisə isə yarım ildir meydana çıxıbdır. Bunlar bir-biri ilə bağlı deyildir.

**S u a l:** Bəs nə ilə əlaqədar meydana çıxmışdır?

**C a v a b:** Bunu Türkmənistandan soruşmaq lazımdır.

**S u a l:** Sizin buradakı nitqinizin mətni yayılmışdır və təbii ki, onun xeyli hissəsi Qarabağ üstündə Ermənistan ilə münaqişəyə həsr edilmişdir. Prinsip etibarilə siz zirvə görüşündə islam ölkələrindən həmrəylik, yoxsa daha ciddi addım gözləyirsiniz? Sizin nitqinizdə həmçinin deyilir ki, Er-

mənistan regionun ölkələri üçün təhlükə törədir. Bu isə Ermənistanın hərbi cəhətdən güclənməsinin daha geniş təfsiri deməkdir.

**C a v a b:** Mən bunu onunla əlaqədar demişəm ki, Ermənistan Rusiyadan qanunsuz olaraq, gizli surətdə bir [368-369] milyard dollarlıqdan çox silah, hərbi sursat, texnika almışdır və avqustun 29-da Rusiya ilə Ermənistan arasında dotsluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə imzalanıb və onun bir sıra bəndləri çox sıx hərbi əməkdaşlığı nəzərdə tutur. Şübhəsiz ki, bu, bizi narahat edir, biz öz narahatçılığımızı gizlətmirik. Mən bu barədə Kişinyovda MDB ölkələri dövlət başçılarının görüşündə demişəm, Boris Nikolayeviç Yeltsinə bu haqda məktub yazmışam, Rusiyaya rəsmi nota vermişik. Biz Ermənistan ilə Azərbaycan arasındakı münaqişə aradan qaldırılmayınca, Rusiya–Ermənistan müqaviləsinin bu bəndlərinə etiraz edirik. Çünki münaqişənin mövcud olduğu, Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildiyi, ABŞ və Fransa ilə birlikdə Rusiya Minsk qrupunun həmsədri kimi, münaqişənin sülh vasitəsilə həlli ilə məşğul olduğu bir vaxtda Rusiyanın Ermənistana silah göndərilməsini və s. nəzərdə tutan hərbi əməkdaşlıq haqqında müqavilə imzalaması tamamilə qeyri-normaldır. Biz buna biganə qala, bundan narahat olmaya bilmərik. Səbəb bunlardır.

Zirvə görüşündən nə gözlədiyimə gəldikdə isə, Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən və Ermənistan silahlı birləşmələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal çıxarılmasını tələb edən bir sıra müddəaları olan qətnamə layihəsi var. [369]

## SURİYANIN TV-2 KANALININ DİREKTORU DOKTOR YƏHYA ƏL-ƏRİZİ İLƏ MÜSAHİBƏ

*Tehran*

*11 dekabr 1997-ci il*

**S u a l:** Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyev, zirvə toplantısı haqqında Sizin fikirlərinizi bilmək istərdim.

**C a v a b:** Hesab edirəm ki, zirvə toplantısı çox əlamətdar hadisədir. Bu, islam ölkələrinin birliyini, həmrəyliyini bir daha nümayiş etdirir.

**S u a l:** Zirvə toplantısında qəbul olunmuş qərar və qətnamələr necə həyata keçə bilər?

**C a v a b:** Şübhəsiz ki, bu, bütün ölkələrdən asılıdır. Ancaq mən hesab edirəm ki, qəbul olunmuş qərarlar həyata keçəcəkdir.

**S u a l:** Siz Suriya ilə Azərbaycan arasında əlaqələri necə qiymətləndirirsiniz?

**C a v a b:** Təəssüf olsun ki, indiyədək bu əlaqələr yaxşı inkişaf etməyibdir. Suriya ilə Azərbaycan qədimdən bir-birinə çox yaxın, dost ölkələr, xalqlar olublar. Azərbaycan Sovetlər İttifaqının tərkibində olanda da Suriya ilə Azərbaycan arasında əlaqələr olubdur. Ancaq Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Azərbaycanla Suriya arasında əlaqələr mənim arzu etdiyim səviyyəyə qalxa bilməyibdir. Biz bundan narahatıq. Ona görə mən bir ay bundan öncə Azərbaycanın xarici işlər nazirini Suriyaya rəsmi səfərə göndərmişdim. Prezident Hafiz Əsədə də xüsusi məktub [370-371] göndərmişdim. Nəhayət, prezident Hafiz Əsəd ilə burada görüşdük.

**S u a l:** Bu görüşü necə qiymətləndirirsiniz?

**C a v a b:** Çox yaxşı qiymətləndirirəm. Çünki bu, mənim çox qədim dostumla görüş idi. Təxminən otuz il öncə bizim dostluq əlaqələrimiz yaranıb və prezident Hafiz Əsəd ilə mən bir neçə dəfə həm Suriyada, həm Azərbaycanda, həm də Moskvada görüşmüşəm. Amma on iki il idi onu görməmişdim. Odur ki, bu görüş mənim üçün şəxsi nöqteyi-nəzərdən çox əhəmiyyətlidir, çox sevindirici haldır. Eyni zamanda görüş zamanı biz Suriya-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi məsələlərini müzakirə etdik və bu barədə eyni fikirdə olduq. Bu görüş zamanı mən Azərbaycanın Suriyaya fövqəladə və səlahiyyətli səfirini təyin etdim. Bu onu göstərir ki, görüşümüz çox məhsuldar olubdur.

**J u r n a l i s t:** Mən bu görüşlərin və əlaqələrin daha da genişlənməsini, dərinləşməsini arzu edirəm.

**H e y d ə r Ə l i y e v:** Mən də arzu edirəm.

**J u r n a l i s t:** Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyev, çox sağ olun, təşəkkür edirəm. [371]

## ERMƏNİSTAN MİLLİ RADİOSUNUN MÜXBİRİ İLƏ MÜSAHİBƏ

*Tehran*

*11 dekabr 1997-ci il*

**S u a l:** Heydər Əliyeviç, necə bilirsiniz, islam dövlətlərinin, o cümlədən İranın Ermənistan ilə Azərbaycan arasında vasitəçi kimi iştirakı nə dərəcədə mümkündür?

**C a v a b:** Bilirsiniz, artıq bizim vasitəçilərimiz var. Özü də dünyanın üç böyük dövləti - Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa bu məsələ ilə səylə məşğul olurlar. İndi bunu bir kənara qoyub hansısa başqa vasitəçilər axtarmaq, sadəcə olaraq məqsədəuyğun deyildir. Mən heç bir dövlətin vasitəçiliyini istisna etmirəm. Ancaq indi, - konkret andan söhbət gedir, - buna heç bir zərurət yoxdur.

**S u a l:** Yəni, Siz hesab edirsiniz ki, Minsk prosesi perspektivlidir və dərin əhəmiyyəti var?

**C a v a b:** Şübhəsiz. Minsk prosesinə inanıram, inanıram ki, bu ilin iyununda Denverdə birgə bəyanat vermiş Rusiya, Amerika Birləşmiş Ştatları və Fransanın dövlət başçıları Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli üçün səylərini əsirgəməyəcəklər.

**S u a l:** Heydər Əliyeviç, yəqin ki, sizdən ötrü belə imkan az-az olur ki, Ermənistan radiosunun dinləyiciləri Sizi eşitsinlər. Ermənistanda Sizi xatırlayırlar və yəqin ki, [372-373] Sizin də onlara nə isə deməyə sözünüz var. Siz onlara nə demək istərdiniz?

**H e y d ə r Ə l i y e v:** Sizdə ümumiyyətlə bizim radioya, televiziyaya qulaq asırlarmı?

**M ü x b i r:** Yox. Bilirsiniz, biz Sizin televiziyanın verilişlərini tutmuruq, imkan yoxdur. Ancaq Sizin radionun proqramını tutmağa kimin imkanı varsa, şübhəsiz ki, qulaq asır. Mənim müsahibəm Ermənistanın milli radiosu ilə veriləcəkdir.

**H e y d ə r Ə l i y e v:** Belə olan halda bu, mənim üçün yaxşı imkandır.

**M ü x b i r:** Heydər Əliyeviç, ona görə də mən Sizinlə çox danışmağa çalışıram.

**H e y d ə r Ə l i y e v:** Erməni xalqına müraciət edərək, ölkələrimiz arasında sülh yaratmaq üçün həm Ermənistanda, həm də Azərbaycanda sağlam qüvvələri birləşdirməyə çağırıram. Siz dediniz ki, Ermənistanda məni xatırlayırlar. Xatırlamalıdırlar. Çünki mən erməni və Azərbaycan xalqları arasında dostluğu möhkəmləndirmək üçün bir çox illər səy qoymuşam. Orada kim nə deyir-desin, kimin nə vaxt və nə etdiyini bir müddətdən sonra tarix dəqiq müəyyən edəcəkdir. Mən Dağlıq Qarabağın sosial-iqtisadi inkişafı, xalqlarımız arasında dostluğun möhkəmləndirilməsi üçün çox iş görmüşəm. Ermənistanda mənim çox dostlarım vardı. Dağlıq Qarabağda da çox böyük hörmət və nüfuzum var idi. Hamısı da ona görə ki, hesab edirdim və bu gün də hesab edirəm ki, Allahın, taleyin hökmü belədir ki, biz yanaşı, qonşuluqda yaşamalıyıq. Nə ermənilər, nə də azərbaycanlılar heç yerə köçüb getməyəcəklər. Qonşular isə ixtilafları, xırda mübahisələri, böyük qalmaqalları və hətta düşmənçiliyi də daim aradan qaldırmalıdırlar ki, Ən [373-374] azı mehriban qonşuluqları olsun. Ən yaxşısı isə indiyədək olan dostluğumuz olsun.

**S u a l:** Heydər Əliyeviç, hesab edirsiniz ki, həm Ermənistanda, həm də Azərbaycanda belə sağlam qüvvələr var və biz qan tökülməsinə son qoya bilərik?

**C a v a b:** Var. Ermənistanda da sağlam qüvvə var. Azərbaycanda sağlam qüvvələrin başında mən dayanıram və hesab edirəm ki, Ermənistanda prezident Ter-Petrosyan düzgün mövqe tutur. Onun həm Moskva, həm Ermənistan mətbuatında verdiyi son bəyanatı məsələnin həllinə çox ağıllı münasibətdir. Bundan sonra mən onunla həm Strasburqda, həm də Kişinyovda görüşdüm, biz onunla bu mövzu barəsində danışdıq. Hesab edirəm ki, Ermənistandakı sağlam qüvvələr prezident Levon Ter-Petrosyanın düzgün mövqeyini dəstəkləməlidirlər. Orada sağlam qüvvələr var. Mən artıq dedim, indi Levon Ter-Petrosyan düzgün mövqe tutur. Hesab edirəm ki, mən həmişə düzgün mövqedə olmuşam. Axı biz Ermənistandan heç nə istəmirik. Heç nə. Dağlıq Qarabağa Azərbaycanın tərkibində özünüidarənin ən yüksək dərəcəsini verməyə razı olmuşuq. Daha nə lazımdır?

**M ü x b i r:** Axı Konstitusiyaya görə Azərbaycan unitar dövlətdir?

**H e y d ə r Ə l i y e v:** Ancaq unitar dövlətdə də belə struktur mümkündür. Dünyada bu cür çox misallar var. Yəni bu mümkündür. Siz bildirin ki, bizə düşmənçilik lazım deyil. Buna son qoymaq gərəkdir. Qarşılıqlı addımlar atmaq, sülhə doğru getmək lazımdır.

**M ü x b i r:** Sağ olun. [374]

## LİVANIN BAŞ NAZİRİ RAFİQ ƏL-HƏQİQİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Tehran*

*11 dekabr 1997-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli cənab Əl-Həqiqi, Sizi mezribanlıqla salamlayıram. Azərbaycan Livanla əlaqələrə ciddi maraq göstərir.Xatırladım ki, məhz bu məqsədlə mən Azərbaycanın xarici işlər naziri Həsən Həsənovu Livana səfərə göndərmişəm.

Vurğulayıram ki, Azərbaycanın Misirdəki səfiri İsrafil Vəkilovu həm də Livanda səfir təyin etmişəm. Ölkələrimiz arasında bütün sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələrin inkişaf etdirilməsi üçün bir sıra ikitərəfli sənədlərin imzalanmasının vacib olduğunu bildirirəm.

**Ə l - H ə q i q i:** Görkəmli dövlət xadimi Heydər Əliyevlə görüşümdən şərəf duyduğumu nəzərə çarpdırıram. Qeyd edim ki, Azərbaycanla əməkdaşlığın durmadan möhkəmləndirilməsinə Livanda xüsusi əhəmiyyət verilir. Elə bu məqsədlə də Azərbaycanın xarici işlər naziri Həsən Həsənovla apardığım danışıqlar barədə Sizə məlumat verməyi özümə borc bilirəm.

Əmin olduğumu bildirirəm ki, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının VIII zirvə görüşü müsəlman aləminin həmrəyliyinin möhkəmləndirilməsində mühüm rol oynayacaqdır. Qeyd edirəm ki, nüfuzlu beynəlxalq təşkilatlarda Azərbaycan-Livan əlaqələrinin daha da sıxlaşdırılması zəruridir. [375-376]

**H e y d ə r Ə l i y e v:** Ermənistanın Azərbaycana təcavüzü və bu təcavüzün doğurduğu problemlər müstəqil Azərbaycan Respublikasının və onun xalqının qarşısında duran ən ağrılı və çətin problemlərdir. Bu münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar aparılır. Onların gedişi ümidvericidir. Həmsədrlərin irəli sürdüyü təkliflər də bu münaqişənin tezliklə aradan qaldırılması qayğısından irəli gələn maraqlı təkliflər hesab edilə bilər. Lakin Ermənistanın qeyri-konstruktiv mövqeyi bu münaqişəni tezliklə aradan qaldırmağa yol vermir.

Nəzərə çarpdırıram ki, nüfuzlu beynəlxalq təşkilatlar, dünya ictimaiyyəti və bir çox böyük dövlətlər Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına xüsusi diqqət yetirmələri, bu məsələnin həllinin vacibliyini bir daha nümayiş etdirir. Əmin olduğumu bildirirəm ki, İslam Konfransı Təşkilatının VIII zirvə görüşü Ermənistanın təcavüzünü qətiyyətlə pisləyən əhəmiyyətli sənədlər qəbul edəcək və üzv dövlətlər Azərbaycanın haqq işini dəstəkləyəcəklər.

Hörmətli cənab Əl-Həqiqi, mən Sizi Azərbaycana rəsmi səfərə dəvət edirəm.

**Ə l - H ə q i q i:** Mən bu dəvəti məmnunluqla qəbul edirəm və bildirirəm ki, 1998-ci ildə mütləq Azərbaycana gələcəyəm. [376]

## SƏUDİYYƏ ƏRƏBİSTANININ ŞAHZADƏSİ ABDULLA İBN ƏBDÜL ƏZİZ AL SƏİD İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Tehran*

*11 dekabr 1997-ci il*

**A b d u l l a İ b n Ə b d ü l Ə z i z A l S ə i d:** Hörmətli cənab prezident, Sizi ehtiramla salamlayıram, görkəmli dövlət xadimi Heydər Əliyevlə görüşümdən şərəf duyuram. Bildirirəm ki, Sizin Səudiyyə Ərəbistanına səfərinizi həmişə məmnunluqla xatırlayırlar. Mən Səudiyyə Ərəbistanının kralı Fəhd ibn Əbdül Əziz Al Səidin salamlarını və hörmət-ehtiramını Sizə çatdırmağı özümə borc bilirəm.

**H e y d ə r Ə l i y e v:** Səmimi sözlərə görə təşəkkür edirəm. 1994-cü ilin iyulunda Səudiyyə Ərəbistanına səfərimdən, İslam dininin müqəddəs şəhərləri olan Məkkəni, Mədinəni, Ciddəni ziyarət etməyimdən, kralla və ölkənin digər yüksək vəzifəli şəxsləri ilə görüşlərimdən məmnunluqla bəhs edərək, şahzadə ilə 1994-cü ilin dekabrında Mərakeşdə keçirdiyim görüşü, apardığım danışıqları da razılıqla xatırlayıram.

Ümidvar olduğumu bildirirəm ki, İslam Konfransı Təşkilatının VIII zirvə görüşü müsəlman aləminin birliyinin daha da möhkəmləndirilməsində, bu təşkilatın üzvü olan bir sıra ölkələrin qarşılaşdığı çətinliklərin həllində mühüm rol oynayacaqdır. Mən gənc müstəqil Azərbaycan Respublikası üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan münaqişəsindən bəhs edirəm. 1988-ci ildən bəri davam edən bu təcavüz nəticəsində Ermənistan silahlı qüvvələri [377-378] Azərbaycan ərazisinin 20 faizini işğal etmiş, bir milyondan çox vətəndaşımız yerindən -yurdundan didərgin düşmüşdür. Münaqişənin aradan qaldırılması üçün ATƏT-in Lissabon görüşündə əsas prinsiplər qəbul edilmiş, Minsk qrupu çərçivəsində danışıqlar aparılır, həmsədrlər təkliflər irəli sürmüşlər. Lakin Ermənistanın tutduğu qeyri-konstruktiv mövqe bu münaqişənin ədalətli həllinə mane olur.

Mən azərbaycanlı qaçqınlara göstərilən humanitar yardıma görə Səudiyyə Ərəbistanının rəhbərliyinə minnətdarlığımı bildirirəm, salamlarımı və xoş arzularımı Kral Fəhd ibn Əbdül Əziz Al Səudə çatdırmağı rica edirəm. Mən Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsində Səudiyyə Ərəbistanının yaxından iştirakı və bu ölkənin Azərbaycanın bir sıra sahələrinə sərmayə qoymasını ikitərəfli əlaqələrin genişləndirilməsində mühüm addımlar kimi yüksək qiymətləndirirəm. [378]

## İRAN İSLAM RESPUBLİKASI MƏSLƏHƏT ŞURASININ SƏDRİ ƏLİ ƏKBƏR HAŞİMİ-RƏFSƏNCANİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Tehran*

*11 dekabr 1997-ci il*

**Haşimi-Rəfsəncani:** Hörmətli cənab prezident Heydər Əliyev, Sizi səmimiyyətlə salamlayıram və İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Tehran zirvə görüşündə istirak etdiyinizə görə Sizə minnətdarlığımı bildirirəm.

Nəzərə çarpdırıram ki, İran İslam Respublikası Azərbaycanla əlaqələri daha da sıxlaşdırmağa xüsusi maraq göstərir. Mən prezident Heydər Əliyevin 1994-cü ildə Tehrana rəsmi səfərini, aparılan danışıqları, imzalanan böyük əhəmiyyətli sənədləri məmnunluqla xatırladığımı vurğulayıram.

**Heydər Əliyev:** Ağayi Haşimi-Rəfsəncani, səmimi sözlərə görə Sizə təşəkkürümü bildirirəm. İslam Konfransı Təşkilatının VIII zirvə görüşünün yüksək səviyyədə keçməsindən razılıq edirəm. İranın ali dini rəhbəri Ayətüllah Xamneinin və prezident Ağayi Xatəminin çıxışlarını maraqla dinlədiyimi vurğulayıram.

Nəzərə çarpdırıram ki, İranla əməkdaşlığın durmadan inkişaf etdirilməsinə Azərbaycan da böyük diqqət yetirir. Ağayi Haşimi- Rəfsəncaninin Azərbaycana rəsmi [379-380] səfərindən məmnunluqla söhbət açıram və ölkələrimiz arasında münasibətlərin gündən-günə yaxşılaşdırılmasının vacib olduğunu vurğulayıram.

**Haşimi-Rəfsəncani:** İran üçün Azərbaycandan yaxın ölkə yoxdur, ona görə də biz bütün sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələrin inkişaf etdirilməsinə xüsusi fikir verməliyik.

**Heydər Əliyev:** Mən Azərbaycan ilə İran arasında münasibətlərin həmişə səmimi olmasının zəruriliyini nəzərə çarpdırıram. Ölkələrimizin iqtisadi əməkdaşlığının möhkəmlən- dirilməsi məqsədi ilə yaradılmış müştərək komissiyaların fəaliyyətini daha da canlandırmağın vacib olduğunu bildirirəm. [380]

## TƏBRİZ ŞƏHƏRİNİN VALİSİ YƏHYA MƏHƏMMƏDZADƏ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Tehran*

*11 dekabr 1997-ci il*

**Y ə h y a  M ə h ə m m ə d z a d ə:** Hörmətli Azərbaycan prezidenti, görkəmli dövlət xadimi cənab Heydər Əliyev! Azərbaycan ilə İran arasında əlaqələrin durmadan inkişaf etdirilməsinə göstərdiyiniz diqqət və qayğıya görə Sizə minnətdarlığımı bildirirəm.

**H e y d ə r  Ə l i y e v:** Cənab Məhəmmədzadə, səmimi sözlərə görə Sizə təşəkkür edirəm. Təbrizlilərin Azərbaycana, Naxçıvana göstərdiyi humanitar yardıma görə razılığımı bildirirəm. Güman edirəm ki, Azərbaycan ilə İran arasındakı əlaqələrin inkişaf etdirilməsinə yaxından kömək göstərəcəksiniz.

**Y ə h y a  M ə h ə m m ə d z a d ə:** Humanitar yardımı bundan sonra da davam etdirəcəyik. Bildirirəm ki, Təbrizin nümayəndə heyəti Azərbaycana səfər edəcəkdir.

**H e y d ə r  Ə l i y e v:** Azərbaycanlı qaçqınlara göstərilən humanitar yardıma görə bir daha təşəkkür edirəm. Mən Sizi Azərbaycana səfərə dəvət edirəm. Xahiş edirəm, məndən bütün təbrizlilərə salam söyləyin. [381]

**BMT-nin BAŞ KATİBİ KOFİ ANNAN İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**

*Tehran*

*11 dekabr 1997-ci il*

**K o f i  A n n a n:** Cənab prezident, Sizi səmimiyyətlə salamlayıram, görkəmli dövlət xadimi Heydər Əliyevlə görüşümdən şərəf duyduğumu bildirirəm.

Cənab prezident, Sizin Amerika Birləşmiş Ştatlarına ilk rəsmi səfəriniz, cənab Bill Klintonla, ABŞ hökumətinin digər rəsmi vəzifəli şəxsləri ilə keçirdiyiniz görüşlər, apardığınız danışıqlar, imzaladığınız sənədlər Amerika ictimaiyyətində böyük maraq doğurmuşdur.

**H e y d ə r  Ə l i y e v:** Cənab Kofi Annan, mən də Sizi salamlayıram, xoş sözlərə görə Sizə minnətdarlığımı bildirirəm və Sizinlə görüşdən məmnun qaldığımı vurğulayıram və Azərbaycan ilə BMT arasında münasibətlərin hazırkı vəziyyətindən razılıqla bəhs edirəm.

ABŞ-a səfərim zamanı, cənab Kofi Annan, Sizinlə keçirdiyim görüşü, apardığım danışığı yüksək qiymətləndirirəm və İslam Konfransı Təşkilatının VIII zirvə toplantısında BMT Baş katibinin iştirakının böyük əhəmiyyət kəsb etdiyini vurğulayıram.

Ermənistanın Azərbaycana 1988-ci ildən bəri davam edən təcavüzündən söhbət açarkən bu münaqişənin aradan qaldırılması üçün BMT-nin qəbul etdiyi qətnamələri, Təhlükəsizlik Şurasının qərarlarını xatırlatmaq istərdim. [382-383] Bildirirəm ki, Ermənistan indiyədək bu mühüm sənədlərə etinasızlıq göstərir.

Hörmətli cənab Kofi Annan, Sizə də yaxşı məlum olduğu kimi, ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1996-cı ilin dekabrında Lissabonda keçirilən zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün əsas prinsiplər qəbul olunmuşdur. Zirvə görüşünün məlum qərarlarından sonra Minsk qrupu çərçivəsində danışıqlar aparılmış, həmsədrlər münaqişənin sülh yolu ilə həllinə dair yeni təkliflər irəli sürmüşlər.

Bildirirəm ki, ölkəmizin ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş, bir milyondan çox vətəndaşımız yerindən-yurdundan zorla qovularaq qaçqın vəziyyətində, ağır şəraitdə çadırlarda yaşayır. Biz Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, sərhədlərinin toxunulmazlığının təmin edilməsi, qaçqınların doğma yerlərinə qayıtması və münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün həmişə kompromis mövqedə dayanmışıq. Biz istəyirik ki, bu münaqişə beynəlxalq hüquq normaları əsasında həll edilsin. Azərbaycan münaqişənin iki mərhələdə həll olunması barədə Minsk qrupu həmsədrlərinin təkliflərini əsas kimi qəbul etmişdir. Birinci mərhələdə Azərbaycanın işğal edilmiş altı rayonunun işğaldan azad edilməsi, ikinci mərhələdə isə Şuşa və Laçın rayonlarının işğaldan azad olunması ilə bərabər, Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək muxtariyyat statusu verilməsi nəzərdə tutulur.

**K o f i  A n n a n:** Bildirirəm ki, ATƏT-in Lissabon zirvə görüşündə qəbul edilmiş prinsiplər Ermənistan - Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün yaxşı əsas yaratmışdır. Nəzərə çarpdırıram ki, həmsədrlərin [383-384] irəli sürdüyü təkliflərə də BMT tərəfdardır. BMT hər bir ölkənin o cümlədən müstəqil Azərbaycan Respbulikasının ərazi bütövlüyünü tanıyır və onun haqq işini dəstəkləyir.

**H e y d ə r  Ə l i y e v:** Cənab Kofi Annan, mən Sizi Azərbaycana rəsmi səfərə dəvət edirəm.

**K o f i  A n n a n:** Dəvət məmnunluqla qəbul olunur. [384]

## İKT-nin VIII ZİRVƏ GÖRÜŞÜ BAŞA ÇATDIQDAN SONRA VƏTƏNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL TEHRANA SƏFƏRİNİN YEKUNU İLƏ ƏLAQƏDAR BƏYANAT

*11 dekabr 1997-ci il*

*Tehran, Mehrabad hava limanı*

Mən İslam Konfransı Təşkilatının VIII zirvə görüşünün nəticələrini çox yüksək qiymətləndirirəm. Birincisi, bu zirvə görüşü çox gözəl təşkil olunmuşdur. İkincisi, zirvə görüşünün iştirakçılarının əksəriyyəti öz ölkələrinin ən yüksək vəzifəli şəxsləri tərəfindən təmsil edilmişdir. Bu zirvə görüşü üç gün müddətində çox işgüzar şəraitdə keçmişdir və çox dəyərli qərarlar, qətnamələr qəbul etmişdir. Mən xüsusən son qərarları yüksək qiymətləndirirəm. Hesab edirəm ki, Tehran bəyannaməsi, zirvə görüşünün yekun sənədi, islam aləminə aid Tehrandakı görüşlər haqqında sənəd və şübhəsiz ki, qəbul olunmuş bütün başqa sənədlər də böyük əhəmiyyət kəsb edir.

Mən Azərbaycanın dostu və yaxın qonşusu, qardaşı olan İran İslam Cümhuriyyətində belə bir zirvə görüşünün keçirilməsini İran İslam Cümhuriyyəti üçün böyük bir tarixi hadisə hesab edirəm. Bu zirvə görüşü müvəffəqiyyətlə başa çatdığına görə mən İran İslam Cümhuriyyətini və onun bütün rəhbərlərini ürəkdən təbrik edirəm. Mən İslam Konfransı Təşkilatının üç il ərzində sədri olacağı münasibətilə də İran İslam Cümhuriyyətini təbrik edirəm. [385-386]

Mən İranın ali dini rəhbəri Həzrəti Ayətüllah Xamneinin zirvə görüşündə nitqini çox yüksək qiymətləndirirəm. İran İslam Cümhuriyyətinin prezidenti cənab Məhəmməd Xatəminin İslam Konfransı Təşkilatının VIII zirvə görüşünün keçirilməsi üçün qoyduğu səyləri və onun bu zirvə görüşünə çox gözəl sədrlik etməsini də yüksək qiymətləndirirəm.

İslam ölkələrinə daha çox birlik, həmrəylik arzulayıram. Qardaş İran xalqına səadət, xoşbəxtlik və bütün işlərdə uğurlar arzulayıram. təşəkkür edirəm.

***Mehrabad hava limanının fəxri qonaqlar kitabına ürək sözləri:***

*«İslam Konfransı Təşkilatının VIII zirvə görüşü İran İslam Cümhuriyyətində gözəl keçirildi və tarixi əhəmiyyəti olan qərarlar qəbul edildi. Mən Tehran zirvə görüşünü yüksək qiymətləndirirəm. İnanıram ki, VIII zirvə görüşü islam ölkələrinin birliyinə, həmrəyliyinə kömək edəcəkdir.*

**HEYDƏR ƏLİYEV**
Azərbaycan Respublikasının Prezidenti

*11 dekabr 1997-ci il»*
[384]

## İKT-nin VIII ZİRVƏ GÖRÜŞÜNDƏN VƏTƏNƏ QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA SƏFƏRİN YEKUNLARI BARƏDƏ JURNALİSTLƏRİN SUALLARINA CAVABLAR

*11 dekabr 1997-ci il*

**S u a l:** Tehran zirvə görüşü qətnaməsinin Azərbaycanla bağlı başlıca istiqamətləri barədə nə demək olar?

**C a v a b:** Zirvə görüşü özlüyündə beynəlxalq həyatda mühüm hadisədir. Üç il bundan əvvəl zirvə görüşü Mərakeşdə olmuşdu. Bu dəfəki zirvə görüşündə 55 ölkə iştirak edirdi, əksəriyyəti ən yüksək səviyyədə təmsil olunmuşdu. Bir çox məsələlər müzakirə edildi. Hesab edirəm ki, zirvə görüşü uğurla keçmiş və islam ölkələri arasında daha çox birlik yaradılmasına yönəldilən sənədlər qəbul olunmuşdur.

Bir sıra digər mühüm sənədlər, o cümlədən Ermənistan - Azərbaycan münaqişəsi ilə bağlı, Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən və Ermənistan silahlı birləşmələrinin Azərbaycandan çıxarılmasını tələb edən, münaqişənin aradan qaldırılması sahəsində Minsk konfransının, Minsk qrupunun səylərini dəstəkləyən, bu münaqişənin həlli barədə Lissabon zirvə görüşünün qərarını təsdiqləyən sənəd qəbul olunmuşdur. Bir sözlə, mən razıyam.

**S u a l:** İran–Azərbaycan münasibətləri müzakirə edilərkən hansı mövzulara toxunulmuşdur? [387-388]

**C a v a b:** Biz İran-Azərbaycan münasibətlərinə çox vaxt sərf etdik. Həm İranın prezidenti Məhəmməd Xatəmi ilə çox əhəmiyyətli görüşüm oldu, həm də İranın ali dini rəhbəri Ayətüllah Xamnei ilə görüşüm oldu. Hesab edirəm ki, biz ikitərəfli əlaqələrə aid məsələləri çox ətraflı müzakirə etdik. [388]

## BƏSTƏKAR EMİN SABİTOĞLUNA

Hörmətli Emin Sabitoğlu!

Sizi - müasir Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsini, respublikanın əməkdar incəsənət xadimini 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz respublikada əsasən mahnı, musiqili komediya, kino və teatr musiqisi müəllifi kimi geniş şöhrət qazanmısınız. Böyük istedadla yaratdığınız lirik mahnılar ürəklərə asanlıqla yol taparaq dillər əzbəri olmuşdur. Son illərdə bəstələdiyiniz mahnıların əksəriyyəti ölkəmizin hüdudlarından kənarda da məşhurlaşmışdır.

Musiqili komediyalarınız milli koloriti, lirik və yumorlu musiqi dili ilə fərqlənərək sizi ölkəmizdə bu janrın zəngin ənənələrinin layiqli davamçısı kimi tanıtmışdır. Azərbaycan Dövlət Akademik Dram Teatrında və digər teatrlarda səhnəyə qoyulmuş bir çox tamaşaların uğur qazanmasında onlara yazdığınız musiqinin böyük rolu vardır.

Respublikada musiqiçi kadrların yetişdirilməsi üçün Bakı Musiqi Akademiyasının professoru kimi göstərdiyiniz fəaliyyət də səmərəli və təqdirəlayiqdir.

Siz yaradıcılıq yollarında zəngin təcrübə toplamış istedadlı bəstəkar kimi sənətkar ömrünün müdrik çağına qədəm qoyursunuz. Ümidvaram ki, öz yeni əsərlərinizlə Azərbaycan musiqi mədəniyyətini daha da zənginləşdirərək musiqinizin pərəstişkarlarını bundan sonra da sevindirəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 dekabr 1997-ci il*
[389]

## UŞAQLARIN BEYNƏLXALQ TELEVİZİYA VƏ RADİO GÜNÜ MÜNASİBƏTİLƏ «UŞAQLAR DÜNYANIN SEVİNCİDİR» DEVİZİ ALTINDA KEÇİRİLƏN ŞƏNLİKDƏ ÇIXIŞ

*Bakı, Teleteatr*

*14 dekabr 1997-ci il*

Əziz uşaqlar, əziz balalar!

Mən sizi, müstəqil Azərbaycan Respublikasının bütün uşaqlarını bayram münasibətilə - uşaqların Beynəlxalq Televiziya və Radio günü münasibətilə ürəkdən təbrik edirəm. Sizə xoşbəxt həyat, xoşbəxt gələcək arzulayıram.

İnsanın uşaqlıq dövrü ən xoşbəxt dövrüdür. Uşaqlar bunu bəlkə də bilməzlər. Ancaq uşaqlıq dövrünü yaşamış, həyatın ağır və çətin illərini, eləcə də çox xoşbəxt günlərini yaşamış insanlar bunu yaxşı bilirlər. Mən də belə insanlardan biriyəm. Uşaqlığın nə olduğunu yaxşı bilirəm, gəncliyin nə olduğunu və yaşlı həyatın nə olduğunu da bilirəm. Ona görə də mən sizə həqiqəti deyirəm. Həqiqət də ondan ibarətdir ki, uşaqlıq dövrü insanın ən xoşbəxt dövrüdür. Mən arzu edirəm ki, müstəqil Azərbaycanın uşaqları həyatlarının bu xoşbəxt dövrünü tam firavan keçirsinlər. Biz də - Azərbaycanın dövləti, hökuməti, Azərbaycanın prezidenti kimi mən də bütün xalqımızın xoşbəxtliyi uğrunda çalışaraq birinci növbədə uşaqların xoşbəxt həyatını təmin etməyi özümüzə müqəddəs vəzifə kimi qəbul etmişik. Biz bu yolda çalışırıq. [390-391] Şəxsən mən hesab edirəm ki, uşaqlara qayğı göstərmək, uşaqların təhsili, tərbiyəsi üçün şərait yaratmaq, uşaqlara həyatda sərbəst yaşamaq, sərbəst inkişaf etmək adət-ənənələrini aşılamaq uşaqlarla aparılan işin əsas hissəsi olmalıdır.

Azərbaycanda uşaqlara qayğı gün-gündən artır və artacaqdır. Təbiidir ki, respublikamızın həyatının keçid dövründə, ağır dövründə uşaqların hamısına istədiyimiz kimi, bir ata kimi, valideyn kimi, bəlkə də hər bir uşağa, hər bir övladımıza ürəyimiz istədiyi kimi qayğı göstərə bilmirik. Ancaq biz bunun üçün çalışırıq. Hesab edirəm ki, gün-gündən biz bu qayğını artıra bilirik və gələcəkdə də artıracağıq.

Öz övladına qayğı göstərmək, təhsil vermək, övladını yüksək əxlaqi normalar səviyyəsində tərbiyələndirmək hər bir valideynin borcudur. Mən istərdim ki, Azərbaycanda həyatın bu ağır, çətin dövründə hər bir valideyn çətinliklərə baxmayaraq, bu vəzifələrin hamısını yerinə yetirməyə çalışsın, bu vəzifələri unutmasın. Hər halda, insana nə qədər çətin olsa da, uşağı üçün maksimum əlindən gələni etməlidir. Bu, hər bir valideynin borcudur. Biz isə dövlət olaraq hər bir Azərbaycan uşağını, hər bir Azərbaycan balasını öz övladımız hesab edirik. Siz bizim xalqımızın övladlarısınız. Uşaqlar, gənclər müstəqil Azərbaycanın gələcəyidir. Bizim arzumuz da bundan ibarətdir ki, gələcək bu gündən daha da gözəl olsun, hər bir insan üçün daha da xoşbəxt olsun. Mən inanıram, əminəm ki, bu olacaqdır. Əminəm ki, siz ilbəil daha yaxşı şəraitdə yaşayacaqsınız, öz istedadlarınızı inkişaf etdirmək üçün, istedadlarınızı həyatda tətbiq etmək üçün daha çox imkanlar əldə edəcəksiniz və hər bir uşağın, hər bir gəncin Azərbaycanda sərbəst yaşaması, inkişaf etməsi, cəmiyyətdə öz istedadına layiq yer tutması üçün imkanlar yaranacaqdır. Bu, bizim dövlətimizin siyasətidir. Bu, müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabr ayının 12-də qəbul etdiyi [391-392] ilk konstitusiyanın əsas müddəalarıdır. Bu, mənim Azərbaycan prezidenti kimi, siyasətimin əsas strateji istiqamətlərindən biridir. Biz özümüz bütün imkanlarımızdan istifadə edərək bu işləri görürük və görəcəyik.

Eyni zamanda Azərbaycanın beynəlxalq uşaq konvensiyasına qoşulması və bu beynəlxalq təşkilatın üzvü olması həm Azərbaycanda uşaqlara qayğının artırılması üçün çox böyük imkanlar yaradır, həm də uşaqların hüquqlarının qorunması üçün, cəmiyyətdə uşaqlara münasibətin bizim konstitusiyanın əsasında, qanun əsasında qurulması üçün zəmin yaradır. Mən bu fürsətdən istifadə edərək beynəlxalq YUNİSEF təşkilatına bu illərdə Azərbaycan ilə etdiyi əməkdaşlığa görə və Azərbaycanda uşaqlara göstərdiyi yardıma görə təşəkkür edirəm.

Əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan gələcəkdə də bütün beynəlxalq təşkilatlarda olduğu kimi, YUNİSEF təşkilatı ilə də əməkdaşlığını davam etdirəcək və bizim bu əməkdaşlığımız uğurlu olacaqdır.

Bu gün mən saat 12-dən televizorun önündə əyləşib sizin verilişiniz başlayan kimi çox böyük diqqətlə baxdım. Sonra da buraya gəlmişəm, sizinlə bir yerdəyəm, sizinlə bərabərəm. Öz təəssüratlarımı demək istəyirəm. Bu veriliş həddindən artıq gözəl təəssürat bağışlayır. Həm məzmununa görə, həm formasına görə, həm də televiziya vasitəsilə uşaqlarımızı şən, xoşbəxt əhval-ruhiyyədə gördüyümə görə mən çox sevinirəm. Mən çox sevindim ki, bu gün verilişi idarə edən, Azərbaycanda tanınmış televiziya aparıcısı Roza xanımla bərabər, iki uşaq - bir qız, bir oğlan bu verilişi gözəl aparmağa başladılar. Onların adlarını

da soruşa bilmədim. Görün bizim xalqımızda nə qədər istedadlar var! Bizim uşaqlar bu istedadları kiçik yaşlarından büruzə verirlər, nümayiş etdirirlər. Bu istedadlarına görə özləri də fərəhlənirlər və bizi də fərəhləndirirlər. [392-393]

Mən burada sizinlə bir yerdə olduğum dəqiqələrdə sizin mahnılarınızı dinlədim, rəqslərinizə baxdım, sözlərinizi eşitdim. Nə qədər gözəlsiniz, insanı nə qədər sevindirirsiniz, bizi nə qədər xoşbəxt edirsiniz! Mən hesab edirəm ki, siz, bu gün buraya, televiziya salonuna toplaşmış uşaqlar Azərbaycanın milyonlarla uşaqlarının istedadını, bacarığını, gözəlliyini, əhval-ruhiyyəsini təmsil edirsiniz. Hesab edirəm ki, bizim uşaqlarımızın hamısı belədir.

Valideyn üçün dünyada, həyatda pis uşaq yoxdur. Uşaq gözəldir. Azərbaycanın prezidenti kimi mənim üçün də respublikamızda hər bir uşaq gözəldir. Mən Azərbaycanda uşaqların hər birini gözəl, hər birini istedadlı hesab edirəm. Azərbaycanın hər bir uşağını öz doğma övladım hesab edirəm.

Uşaqlarımızın bir qismi yerindən - yurdundan didərgin düşmüşdür. İndi onlar qaçqın, köçkün ailələrində yaşayırlar. Bu, bizim xalqımızın faciəsidir. Xalqımıza qarşı 1988-ci ildən qonşu Ermənistan tərəfindən edilən təcavüz nəticəsində və keçmiş illərdə baş vermiş bəzi səbəblərə görə respublikamızın ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. Bu işğal nəticəsində bir milyondan artıq vətəndaşımız yerindən-yurdundan didərgin düşübdür. Onların da demək olar ki, əksəriyyəti uşaqlardır, gənclərdir, köçkün, qaçqın vəziyyətində yaşayırlar. Çoxları isə çadırlarda yaşayır. Yenə deyirəm, bu, bizim xalqımızın faciəsidir. Ancaq mən dəfələrlə demişəm və bu gün də deyirəm - xalqımız dərdə dözümlü xalqdır və bu dərdə də dözür, inanır ki, qara günün ömrü az olar. Xalqımız bu faciədən xilas olacaq, işğal edilmiş torpaqlar işğaldan azad olunacaq, yerindən-yurdundan zorla çıxarılmış insanlar öz evinə, obasına qayıdacaqlar. Uşaqlar yaşayacaq, böyüyəcək, öz yerlərini, yurdlarını yenə də gözəlləşdirəcək, quracaq, yaradacaqlar. [394-395]

Ancaq hələ ki, onlar, yerindən - yurdundan didərgin düşmüş uşaqlar ataları ilə, anaları ilə birlikdə, - bəziləri hətta valideynlərini itirib, - ağır vəziyyətdə, çadırlarda yaşayırlar. Bəlkə də onların bəzilərinin, ola bilər, çadırlarda yaşayanların çoxlarının televizoru yoxdur, bizi radio vasitəsilə dinləyirlər. Bəlkə də bəzisinin heç radiosu da yoxdur, ola bilər, bunlardan məhrumdur. Ancaq mən bilirəm və inanıram ki, bizim o çadırlarda olan vətəndaşlarımız da və oradakı uşaqlarımız da Vətən eşqi ilə yaşayırlar, torpaq eşqi ilə yaşayırlar, onlar Vətənə, dövlətinə, millətinə sadiq insanlardır. Onların da, xüsusən ağır vəziyyətdə yaşayan uşaqların qayğıya daha da çox ehtiyacları var. Biz bunun üçün əlimizdən gələni edirik, bundan sonra da edəcəyik. O uşaqlar bilməlidirlər ki, biz, şəxsən mən onları bir dəqiqə də unutmuram. Onların dərdi daim bizi narahat edir. Biz onları və bütün xalqımızı bu dərddən qurtarmaq üçün bütün imkanlardan istifadə edirik və bundan sonra da istifadə edəcəyik.

Ancaq bu gün uşaqların beynəlxalq televiziya və radio bayramı münasibətilə mən Azərbaycanın bütün uşaqlarını təbrik edərək, buradan o çadırlarda yaşayan, qaçqın, köçkün ailələrində yaşayan uşaqları xüsusi təbrik edirəm. Onları öpürəm, onları bağrıma basıram. Onları, məhz uşaqları əmin edirəm ki, biz onları bu vəziyyətdən çıxaracağıq. Mən inanıram ki, bizim xalqımız - böyük qəhrəmanlar yetişdirmiş xalqımız, böyük alimlər yetişdirmiş xalqımız, böyük insanlar yetişdirmiş xalqımız məhz o çadırlarda yaşayan uşaqlardan da qəhrəmanlar yetişdirəcəkdir, alimlər yetişdirəcəkdir, böyük fikir sahibləri yetişdirəcəkdir və onlar gələcəkdə öz xalqına böyük xidmətlər edəcəklər.

Əziz balalar, əziz uşaqlar!

Bizi bu həyatda ən çox sevindirən sizsiniz. Həyatımızda nə qədər çətin dəqiqələr, çətin günlər olsa da sizi -uşaqları görərkən insan hər bir çətinliyi unudur. Şəxsən mən öz haq[394-395]qımda deyirəm. Mənim işim ağırdır. Çox işləyirəm. Həyatımın hamısı işə sərf olunubdur. Bəzən çox ağır hadisələrlə rastlaşıram. Amma uşaqlara baxanda, öz övladlarıma, öz nəvələrimə baxanda, sizlərə baxanda hər şeyi unuduram. Şübhə etmirəm ki, siz öz təhsilinizlə, tərbiyənizlə, istedadınızla, öz varlığınızla daim valideynlərinizi sevindirəcəksiniz. Xalqımızı sevindirəcəksiniz, dövlətimizi sevindirəcəksiniz, məni sevindirəcəksiniz.

Biz sizə böyük ümidlərlə baxırıq. Azərbaycanın gözəl gələcəyi var, mən bunu görürəm və bunun uğrunda mən həyatımı sərf etmişəm, bundan sonra da sərf edəcəyəm. Sizə görə, Azərbaycanın gələcəyinə görə. Amma bilin ki, siz müstəqil Azərbaycanda yaşayırsınız, siz azad Azərbaycanda yaşayırsınız. Siz müstəqil, azad Azərbaycan Respublikasının övladlarısınız. Siz bizim demokratik cəmiyyətimizin, demokratik dövlətimizin gələcək qurucularısınız. Siz bizim işimizin davamçılarısınız. Biz gələcəyi sizə tapşırırıq. Sizi ürəkdən bir daha təbrik edirəm. Sizi bağrıma basıram, sizi öpürəm. Sizə xoşbəxtlik arzulayıram. Sağ olun. [395]

**TACİKİSTAN RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB İMAMƏLİ RƏHMANOVA**

Hörmətli cənab prezident!

Tacikistan hava gəmisinin Birləşmiş Ərəb Əmirliklərində qəzaya uğraması və nəticədə çoxlu insan tələfatı olması ilə əlaqədar Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *16 dekabr 1997-ci il*
[396]

## 1948–1953-cü İLLƏRDƏ AZƏRBAYCANLILARIN ERMƏNİSTAN SSR ƏRAZİSİNDƏKİ TARİXİ-ETNİK TORPAQLARINDAN KÜTLƏVİ SURƏTDƏ DEPORTASİYASI HAQQINDA FƏRMANI

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizlənmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi – mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və [397-398] SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.

Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq qərara alıram:

1. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə dövlət komissiyası yaradılsın.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 dekabr 1997-ci il*
[398]

## XALQ RƏSSAMI MİKAYIL ABDULLAYEVƏ

Hörmətli Mikayıl Abdullayev!

Sizi - Azərbaycanın təsviri sənətinin görkəmli nümayəndəsini anadan olma gününüz münasibətilə və rəssamlıq fəaliyyətinizin 60 illiyi ilə ürəkdən təbrik edirəm.

Siz Azərbaycan incəsənətinin inkişafında böyük xidmətləri olan mahir fırça ustasısınız. Müxtəlif janr və mövzularda yaratdığınız boyakarlıq və qrafika əsərləri sənət tariximizə əbədi daxil olmuşdur. 60 illik sənət yolunuz əslində ölkəmizin keçdiyi böyük bir dövrün canlı sənət salnaməsi hesab oluna bilər.

Azərbaycan təbiətinin gözəllikləri, Vətən övladlarının döyüş rəşadəti, torpağa, doğma yurda, əməyə, sənətə bağlılığı yaradıcılığınızın əsas qayəsini təşkil edir. Sizin hər bir təbiət tablonuz ölkəmizin müxtəlif guşələrini əks etdirən romantik bir sənət nümunəsidir. Böyük məhəbbətlə yaratdığınız portretlərdə siz təsvir etdiyiniz tarixi şəxsiyyətlərin və sadə insanların mənəvi aləminə nüfuz edərək onların xarakterlərini ustalıqla aça bilmisiniz.

Azərbaycan ədəbiyyatının incilərinə, xüsusilə xalqımızın əzəli mövzusu olan «Kitabi-Dədə Qorqud» dastanına çəkdiyiniz illüstrasiyalar klassik milli irsə bəslədiyiniz hörmət və sevgi hissinizi nümayiş etdirir. «Nizami» metrosuna verdiyiniz tərtibat, teatrdakı fəaliyyətiniz bunu bir də təsdiqləyir. Vətən eşqi, ana məhəbbəti, Azərbaycan qadınının səadəti sizin lirik lövhələrinizdə ustalıqla öz əksini tapıb. Böyük emosional təsir qüvvəsinə, milli koloritə, tərbiyəvi məzmuna malik əsərləriniz gənc nəslin formalaşmasında [399-400] böyük rol oynamışdır. Sizin yorulmaz, məhsuldar fəaliyyətiniz daim Azərbaycan xalqına xidmət etmişdir.

Xarici ölkə mövzularında yaratdığınız rəsmlər silsiləsi ilə siz incəsənətimizə yeni üfüqlər açmısınız. Əsərləriniz dünyanın bir çox ölkələrində nümayiş etdirilərək sizə böyük şöhrət gətirmişdir. Xarici ölkələrdə fərdi sərgilər təşkil etmək Azərbaycan rəssamları içərisində öncə sizə müyəssər olmuşdur.

Yaradıcılığınız Dövlət mükafatına, müxtəlif orden və medallara və Beynəlxalq Nehru mükafatına layiq görülmüşdür. Ən böyük mükafatınız isə xalqımızın, sənətsevərlərin şəxsiyyətinizə, gözəl əsərlərinizə bəslədiyi böyük ehtiram və dərin məhəbbətdir.

İnanıram ki, siz zəngin təcrübənizdən və nadir fitri istedadınızdan istifadə edərək sənətinizin pərəstişkarlarını bundan sonra da yeni əsərlərlə sevindirəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının prezidenti**

Bakı şəhəri, 18 dekabr 1997-ci il
[400]

## HEYKƏLTƏRAŞ ÖMƏR ELDAROVA

Hörmətli Ömər Eldarov!

Sizi, heykəltəraşlıq sənətinin görkəmli nümayəndəsini, Azərbaycanın xalq rəssamını 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz Azərbaycan təsviri sənətinin inkişafında mühüm rol oynamış, dərin məzmunlu monumental əsərləri ilə heykəltəraşlıq məktəbimizi zənginləşdirmiş böyük sənətkarlardansınız. Müxtəlif janrlarda yaratdığınız əsərlər öz bədii təsiri, mənəvi dəyəri, plastik kamilliyi və milli koloriti ilə fərqlənir. Gözəlliyə ülvi romantik münasibət Sizin sənətinizin əsas xüsusiyyətlərindəndir. Qədim və müasir mədəniyyətimizdə, tariximizdə, bügünkü həyatımızda gözəllik axtarışları sənət yolunuzun aparıcı qayəsi olmuşdur.

Siz Azərbaycanın dahi şəxsiyyətlərinin unudulmaz obrazlarını gözəl abidələrə çevirərək xalqımız üçün dəyərli əsərlər yaratmısınız. Ümumbəşəri mövzuları, böyük hümanist idealları müdrikliklə əks etdirən əsərləriniz klassik sənət nümunələridir.

Dərin psixoloji xarakteristika, yeni plastik forma axtarışları ilə səciyyələnən yaradıcılığınız daşlarda həkk olunmuş musiqiyə bənzəyərək sənətsevərlərin ürəklərini öz kamilliyi ilə fəth edir.

Siz öz yaradıcılığınızla Azərbaycan təsviri sənətinə heykəltəraşlıqla memarlığın uğurlu sintezi nümunəsini bəxş etmisiniz. Mahir ustalıqla yaratdığınız əsərlər xeyirlə şərin qarşıdurması ilə, böyük tarixi sarsıntılarla səciyyələnən əsrimizin sanki canlı rəmzidir. [401-402]

Şəhərimizin küçə, meydan və xiyabanlarını bəzəyən abidələriniz xalqımızın mədəni irsinə ehtiram və məhəbbət duyğuları oyadan canlı muzeydir. Bu əsərlərlə Siz müstəqil Azərbaycanımızın mədəniyyət tarixində, sənətsevərlərin ürəklərində özünüzə də həmişəyaşar bir abidə ucaltmısınız. Yaratdığınız heykəllər xarici ölkələrin şəhərlərində də özünə layiqli yer tapmış və Sizi daha da şöhrətləndirmişdir.

Siz böyük xidmətlərinizə görə dövlət mükafatı, müxtəlif medal və diplomlarla təltif olunmuş, keçmiş SSRİ Rəssamlar Akademiyasının həqiqi üzvü adına layiq görülmüsünüz.

İnanıram ki, yaradıcılığınızın müdrik dövrünü yaşadığınız indiki mərhələ sənət yolunuzun həm də ən məhsuldar mərhələsi olacaqdır və Siz Azərbaycanın təsviri sənətinin qızıl fondunu zənginləşdirən yeni əsərlər yaradacaqsınız.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri*, 20 dekabr 1997-ci il*
[402]

## SOSİAL-İQTİSADİ PROBLEMLƏRİN HƏLLİNƏ, ƏHALİNİN TƏCHİZATINI YAXŞILAŞDIRMAQ MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

*Prezident sarayı*

*23 dekabr 1997-ci il*

Mən respublikanın sosial-iqtisadi problemləri ilə əlaqədar bəzi məsələləri müzakirə etmək üçün sizi bu gün bu müşavirəyə dəvət etmişəm. Bugünkü müşavirə respublikada xüsusən elektrik, su, qaz təchizatının, nəqliyyatın və kommunal təsərrüfatı sahələriin işi ilə əlaqədar hazırkı vəziyyəti təhlil etmək və qarşıda duran vəzifələr haqqında danışmaq məqsədi daşıyır.

Bu məsələlər bizim daim diqqət mərkəzimizdə və nəzarətimizdədir. Nazirlər Kabineti, nazirliklər, konsernlər, şəhər, rayon icra hakimiyyəti orqanları bu məsələlərlə daim məşğul olurlar. Mən bu məsələlərə daim nəzarət edirəm və Nazirlər Kabinetindən icra orqanlarının işləri haqqında məlumat alıram. Şübhəsiz ki, müəyyən işlər görülür, ancaq nöqsanlar, çatışmazlıqlar da çoxdur. Bu nöqsanlar, çatışmazlıqlar xüsusən havaların sərtləşməsi zamanı daha da aşkara çıxır. Elektrik enerjisi, qaz, su ilə təchizatda, nəqliyyatın işində vəziyyət son vaxtlar respublikamızda havaların soyuqlaşması, qarın, küləyin, tufanın olması ilə əlaqədar [403-404] gərginləşmişdir. Aydındır, bizim işimiz elə qurulmalıdır ki, hava necə dəyişirsə-dəyişsin, o, respublikanın vəziyyətinə, yəni təchizat məsələsinə təsir etməməlidir. Ancaq təəssüf ki, biz belə mənfi hallarla rastlaşırıq. Bunların da səbəbi bizim bəzi məsul orqanların, bəzi vəzifəli şəxslərin öz vəzifələrini layiqincə yerinə yetirməməsi ilə, bir də ümumiyyətlə, həm bizim cəmiyyətdə, həm də dövlət, hökumət orqanlarında həyatımızın yenilikləri ilə ayaqlaşmamaqla bağlıdır. Biz iqtisadiyyatımızı bazar iqtisadiyyatı prinsipləri əsasında qurduğumuza görə, demək, hər bir iş də bu prinsiplərə uyğun olmalıdır. Təəssüf ki, bunları nəinki ictimaiyyətimizdə hələ çoxları dərk etməyib, hətta bizim vəzifəli şəxslərimiz də bunu dərk edə bilməyiblər.

Mən hesab edirəm ki, respublikamızın bir neçə sahələrinə rəhbərlik edən şəxslər vəziyyət haqqında məlumat verməlidirlər. Sonra isə kim bu barədə fikir söyləmək istəyirsə, ona imkan veriləcəkdir.

### «AZƏRENERJİ» SƏHMDAR CƏMİYYƏTİNİN PREZİDENTİ MÜSLÜM İMANOVUN ÇIXIŞI

Möhtərəm prezident!
Hörmətli müşavirə iştirakçıları!

Hörmətli prezident, biz energetiklər adından Sizə bir daha minnətdarlığımızı bildiririk. Siz energetiklərin çətin günlərində onlara dayaq olmusunuz, kömək göstərmisiniz. Biz bunu daim hiss edirik. Bu il iyulun 19-da keçirdiyiniz müşavirədən dərhal sonra enerji haqqının ödənilməsi işində ciddi dönüş əmələ gəldi, həmin tədbirdən nəticə çıxaran nazirliklərin rəhbərləri, rayon icra hakimiyyəti başçıları energetiklərə xeyli kömək göstərdilər. [404-405]

Mən bu gün Sizə qısa məlumat vermək istərdim ki, bizim energetika təsərrüfatımızda, yəni enerji istehsal edən elektrik stansiyalarımızda müəyyən bərpa işləri aparılmışdır. Biz Nazirlər Kabinetinin bu barədə qəbul etdiyi qərara və göstərdiyi köməyə əsasən lazım olan bəzi ehtiyat hissələrini alıb gətirə bildik. Bu isə energetika təsərrüfatının qışa hazırlanmasında mühüm rol oynadı.

Mingəçevirdəki Azərbaycan Dövlət Elektrik Stansiyasında 7-ci blokun çatışmayan hissələrinin bir çoxunu alıb təyyarə ilə gətirdik. Bu ayın 28-də həmin bloku da işə salacağıq. Beləliklə, biz təmir işlərini əsasən başa çatdıracağıq. Mingəçevir su elektrik stansiyasında 5-ci maşının generatorundakı zədələnməni də bu ayın 28-dək aradan qaldıracağıq. Hazırda Əli Bayramlıdakı Dövlət Elektrik Stansiyasında 7 blok işləyir. Digər stansiyalardakı bloklar da lazımi səviyyədədir.

Hörmətli prezident, onu da qeyd etməliyəm ki, işimizdən haqlı olaraq çoxlu şikayətlər də vardır. Enerjinin çatışmazlığı barədə belə şikayətlər rayonlardan, Bakı, Sumqayıt şəhərlərindən və digər yerlərdən daxil olur. Doğrudur, etiraf etmək lazımdır ki, bu şikayətlərin bəziləri bizim günahımızdan yaranır. Ancaq onu da deməliyəm ki, bu şikayətlər havaların soyuması və enerjiyə tələbatın artması ilə əlaqədar xeyli çoxalmışdır. Məsələn, qış və yay mövsümlərini müqayisə etsək Bakı şəhərində enerjiyə tələbat iki dəfə artıbdır. Bir çox avadanlıq, transformatorlar gərginliyə dözmür.

Məsələn, Gəncədə 11 gün ərzində 8 transformator və 11 yerdə kabel, Bakıda 18 transformator sıradan çıxdı. Bütün bunlar isə enerjinin verilməsində fasilələr yaranmasına səbəb oldu. Biz bu vəziyyəti aradan qaldırmaq üçün bütün gücümüzdən istifadə etdik.

Hörmətli prezident, mən rəhbərlik etdiyim sahədəki vəziyyət haqqında Sizə məlumat verirəm. Yəqin ki, Bakı [405-406] şəhərindəki mövcud vəziyyət haqqında Sizə məlumat verəcəklər.

Nərimanov rayonu ərazisində yerləşən yarımstansiyada həddən artıq yüklənmə nəticəsində kabel sıradan çıxmışdı. Onu bərpa etmək mümkün deyildi, çünki həmin xəttin üzərində 25 ev var. Biz həmin gecə məcbur olub hava xətti çəkdik və bu problemi 12 saat ərzində aradan götürdük. Bakının digər yerlərində də çox gərgin vəziyyət yaranıbdır. Ona görə ki, transformatorlar, kabellər enerji ilə həddindən artıq yüklənir. Bakının bir sıra rayon icra hakimiyyətləri kömək etdilər, biz yeni Dərnəgül yarımstansiyasını işə saldıq. İndi Dərnəgüldə ikinci yarımstansiyasını işə salmağa hazırlaşırıq.

Hazırda Bakıda ən ağır vəziyyət Səbael rayonundadır. Həmin rayonun ərazisindəki transformatorlar enerji ilə həddindən artıq yüklənir. Sağ olsun Bakı Şəhər İcra hakimiyyətinin başçısı Rəfael Allahverdyev, həmin rayonlarda yarımstansiya tikilməsi üçün yer ayrılmasında bizə kömək etdi. Biz bu yarımstansiyaları tikməklə Bakıya enerji verilməsindəki problemi aradan qaldıra biləcəyik. Ancaq həmin enerjinin ayrı-ayrı məhəllələrə, evlərə verilməsində çox böyük problem vardır. Bunun üçün çox böyük iş görülməli, yəni yeni istehsal sistemi yaradılmalıdır.

Bir məsələni də qeyd etmək istəyirəm ki, hazırda istilik almaq üçün rayonlarda 100 faiz, Bakı şəhərində isə bəlkə də 50 faiz elektrik cihazlarından istifadə olunur. Bu da vəziyyəti çox ağırlaşdırır.

Hörmətli prezident, biz energetiklər bu gün heç də öyünə bilmərik ki, hər iş qaydasındadır, bloklarımız işləyir və sair. Yox, belə deyil. Qeyd etməliyəm ki, enerji bloklarından elələri var, 30 ildir işləyir. Onlar artıq tam güclə işləyə bilmir.

Hörmətli prezident, biz investisiya hesabına Bakıda yeni elektrik stansiyaları tikilməsi, «Şimal» elektrik stansiyasının, [406-407] Sumqayıtda, Bakıda elektrik stansiyalarının yenidən qurulması barədə Sizin fikirlərinizi, irəli sürdüyünz təşəbbüsləri işimizdə rəhbər tuturuq. Siz bu sahədə hazırlanmış proqramı bəyənmisiniz. Biz Sizin tapşırığınızla digər proqramlar üzərində də işləyirik. Həmin məsələ Nazirlər Kabinetinin nəzarətindədir. Ümidvaram ki, biz bu problemi də yaxın vaxtlarda həll edəcəyik.

Hazırda bizim üçün ən böyük problem enerjinin pulunun ödənilməsidir. Əgər biz enerjinin pulunun ödənilməsində qayda yarada bilsək, - bəlkə də mən səhv edirəm, - elektrik enerjisinə 30 faiz qənaət edə bilərik. Bir neçə rayonun bu sahədə təcrübəsi də bunu göstərir. Yəni o yerdə ki, enerjidən israfçılıqla istifadə edirlər, elektrik cihazlarını, lampalarını lazım oldu-olmadı yandırırlar və pulunu ödəmirlər,orada vəziyyət daha da gərgin olur. Əgər enerjinin pulu vaxtında ödənilmirsə, demək ondan istifadə edən qənaət haqqında heç düşünmür.

Biz rayon icra hakimiyyəti başçısı ilə danışıb Zaqatalada ilin əvvəlində belə bir təcrübə apardıq. Nəticədə enerjinin pulu ayda 80-100 faiz ödənildi. Belə bir təcrübə daha sonra Balakən rayonunda tətbiq edildi. Rayon icra hakimiyyətinin başçısı mənim yanıma gəlib dedi ki, mən əhalinin sosial məsələlərinin həlli sahəsində birinci növbədə elektrik enerjisi ilə təminata xüsusi diqqət yetirməyi qarşıya məqsəd qoymuşam.

Dörd il ərzində enerji pulunu ödəməyən Balakən rayonunda bir ay ərzində plana 213 faiz əməl edildi. Son vaxtlar Masallı rayonu da bu təşəbbüsə qoşulub. Masallı rayonunda bu sahədə çox böyük işlər görülür. Onlar bir ay ərzində enerjinin pulunu 120 faiz ödədilər. Həm də bu, son hədd deyildir. Bizim nümayəndələrimiz də Masallıda bu tədbirlərin həyata keçirilməsində yaxından iştirak etdilər. Masallı Rayon İcra Hakimiyyətinin başçısı əhali arasında çox [407-408] böyük iş aparır. Məsələn, rayon qəzetinin bir nömrəsi enerji pulunun ödənilməsi qaydalarına, israfçılığın aradan qaldırılması məsələlərinə həsr edilibdir. Hətta rayonun hər yerində «pulunu ver, işıq al» plakatları asılıbdır. Bundan başqa, rayonda enerji pulunun ödənilməsi məqsədi ilə xüsusi dəstələr yaradılıbdır. Həmin dəstələr evlərdə olur, enerjidən israfçılıqla istifadə olunmasına qarşı ciddi mübarizə aparır. Nəticədə həm enerjinin pulu vaxtında ödənilir, həm də enerjiyə tələbat xeyli azalıbdır. Buna görə də mən Masallı rayonuna elektrik enerjisi verilməsinin dayandırılmasını qadağan etmişəm. Son vaxtlar həmin rayona enerji daim verilir.

Hazırda bu təşəbbüsə digər rayonlar da qoşulurlar. Mənə elə gəlir ki, bu, yaxşı bir işdir və onu davam etdirmək lazımdır. Ancaq təəssüflər olsun ki, enerjinin pulunu hazırda ən çox sənaye obyekləri ödəmirlər. Məsələn, «Azərkimya», «Metallurgiya» dövlət şirkətləri, Kənd Təsərrüfatı Nazirliyinin ayrı-ayrı müəssisələri, büdcədən maliyyələşən bir çox təşkilatlar, suvarma təsərrüfatı enerjinin pulunu vaxtında ödəmirlər. Biz bu problemin aradan qaldırılması üçün lazımi tədbir görə bilmirik.

Son vaxtlar əhalidən enerji pulunun alınmasında müəyyən dönüş yaranıb. Məsələn, əgər ötən 11 ayda əhalidən enerji pulu alınması planına 49 faiz əməl edilmişsə, son aylarda gördüyümüz tədbirlər nəticəsində bu rəqəm 80 faizə çatıbdır. Ancaq yenə də deyirəm, biz sənaye obyektlərindən enerji pulunu ala bilmirik.

Digər ciddi çətinliyimiz enerjidən israfçılıqla istifadə edilməsinin qarşısını almaqdır.

Hörmətli prezidentimiz, biz bu sahədə müəyyən yoxlamalar keçiririk. Açıq etiraf etməliyəm, rayonlarda, çox yerlərdə həddən artıq qeydiyyatsız obyektlər vardır ki, onlar enerjidən qanunsuz yolla istifadə edirlər. Xeyli restoranlar, mağazalar [408-409] enerjidən israfçılıqla istifadə edirlər. Çox yerdə sayğaclar yoxdur. Vaxtınızı almaq istəmirəm, amma onu deyim ki, biz enerjidən qeyri-qanuni istifadə edən 800 obyekt barədə hazırladığımız sənədləri hüquq-mühafizə orqanlarına göndərmişik. Mən rayon icra hakimiyyəti başçılarından xahiş edirəm ki, həmin məsələyə ciddi nəzarət etsinlər.

Mən digər bir çətinliyimizdən də söhbət açmaq istəyirəm. Bilirsiniz ki, biz Avropa Yenidənqurma və İnkişaf Bankından kredit götürmüşük. Onun şərtlərindən biri də ondan ibarətdir ki, biz bu il həmin kreditin 70 faizindən istifadə etməliyik. Amma bu rəqəm hələlik 30 faiz həcmindədir və ilin axırınadək 55 faiz olacaqdır. Qarşılıqlı ödəmə üçün sənədlərimiz hazırdır. Biz bu rəqəmi heç olmasa 60 faizə çatdırmalıyıq ki, kreditin bağlanma məsələsi qaldırılmasın. Mən Nazirlər Kabinetindən bir daha xahiş edirəm ki, bu məsələdə, xüsusən böyük müəssisələr üzrə qarşılıqlı ödəmələr aparılmasında bizə kömək etsin.

Hörmətli prezident, yəqin ki, Bakı,Gəncə şəhərlərinin nümayəndələri burada çıxış edəcəklər. Hazırda yeni elektrik xətlərinin çəkilməsinə imkanımız yoxdur. Bəlkə də təəccüblü görünəcək, bir yarımstansiyanın tikilməsi üçün yer ayrılmasına 8 ay vaxt sərf olundu. Bəs bu yarımstansiya nə vaxt tikiləcək?

**Heydər Əliyev:** Niyə?

**Müslüm İmanov:** Yer yoxdur. Hansı yeri seçirik, gəlib deyirlər ki, burada olmaz, orada olmaz.

**Heydər Əliyev:** Harada?

**Müslüm İmanov:** Səbael rayonunda.

**Heydər Əliyev:** Niyə, Səbael rayonuna elektrikstansiyası lazım deyil? Bəs niyə bu məsələnin həlli 8 ay çəkib?

**Müslüm İmanov:** Nəhayət, mən Rəfael Allahverdiyevin yanına getdim, kömək etdi. [409-410]

**Heydər Əliyev:** Niyə, buna 8 ay vaxt lazımdı? Sizə elektrik stansiyası lazım deyil? Bir kommersiya strukturu gedib iki gündə yer alır. Bu, dəhşətli bir işdir ki, elektrik stansiyasının tikintisi üçün yer 8 ay ərzində ayrılsın.

**Rəfael Allahverdiyev:** Cənab prezident, 8 aya yox, 4 aya yer ayrılıb.

**Heydər Əliyev:** 4 ay olsun.

**Rəfael Allahverdiyev:** Biz bir yer ayırdıq, orada tikməyə imkan olmadı, sonra başqa yer ayırdıq.

**Heydər Əliyev:** Belə yaramaz. Axı, belə iş olmaz. Bu stansiya xalq, millət, şəhər üçün, Səbael rayonu üçün lazımdır. Səbael rayonunda xüsusi iş görən nə qədər adama dərhal yer verilir. Necə olur ki, bütün xalq, şəhər üçün lazım olan elektrik stansiyasına yer tapa bilmirsiniz? Mən bunu qətiyyən anlaya bilmirəm.

**Müslüm İmanov:** Hörmətli prezident, mən sevinirəm ki, Bakıda həddindən çox otellər, ofislər tikilir. Bunlar hamımızı fərəhləndirir. Amma təəssüf ki, həmin binaları tikərkən onların qaz, su, enerji ilə təminatı məsələsi əvvəlcədən həll edilmir. İndi biz çox çətin vəziyyətdə qalmışıq. Bir çox binalar tikiblər, amma onların enerji ilə təmin edilməsi mümkün deyil. Orada mütləq yarımstansiya tikilməlidir. Demək istəyirəm ki, tikinti üçün yer ayrılanda, bina inşa ediləndə birinci növbədə onun qaz, su, enerji ilə təminatı məsələsi həll olunmalıdır. Doğrudur, bina tikiləndən sonra biz bir yol tapıb onu enerji ilə təmin edirik.

Hörmətli prezident, Rusiya Federasiyasında hələ 1993-cü ildə qərar qəbul edilib ki, yeni tikilən binaya ayrılan vəsaitin bir hissəsi onun enerji ilə təminatına, daha doğrusu, enerji gücünün artırılmasına sərf olunur. Enerji gücünü 1 kilovolt artırmaq üçün bizə min dollar lazımdır. Respublikamızda bu qədər yeni bina tikilir. Əgər onlar enerji gücünün artırılması üçün vəsait versələr, bu çox yaxşı olar. Biz həmin pulu heç [410-411] olmasa bankdan götürdüyümüz kreditlərin qaytarılmasına sərf edə bilərik. Mənə elə gəlir ki, biz bu məsələnin həllinə xüsui fikir verməliyik. Axı, götürdüyümüz krediti qaytarmağa nə «Azərenerji»nin, nə də büdcənin imkanı yoxdur.

Daha bir problemimiz barədə danışmaq istəyirəm. Respublikamızda özəlləşdirmə gedir. Bu, doğrudan da çox vacib məsələdir. Xarici ölkələrin nümayəndələri ilə görüşlərimiz zamanı onlar bu məsələni və hörmətli prezidentimizin bu sahədəki siyasətini çox bəyəndiklərini bildirir və deyirlər ki, doğrudan da, böyük irəliləyiş vardır. Ancaq özəlləşdirilən obyektlərin çoxunun bizə xeyli borcu vardır. Özəlləşdirmə zamanı, nədənsə bu borclar yaddan çıxarılır. Məsələn, pambıq zavodlarının hamısı özəlləşdirilir. Onların bizə 54 milyard manat borcu vardır. İki aydır ki, bu məsələni qaldırırıq, amma həmin 54 milyard manatı bizə qaytarmırlar və bizimlə müqavilə bağlamırlar. Açığını deyim ki,bu gün biz onlara enerjini müqaviləsiz veririk. Doğrudur, son vaxtlar istifadə etdikləri enerjinin pulunu qaytarırlar. Amma bəs bu 54 milyard manatı kim verəcəkdir?

Bildiyimiz kimi, kolxozlar, sovxozlar artıq ləğv olunubdur. Amma onların bizə böyük məbləğdə borcları vardır. Mən bu məsələyə çox vaxt sərf etmək istəmirəm, amma bu borcların ödənilməsi məsələsi

narahatlıq doğurur. Axı, bu borcları kim verəcək? Bu borclar barədə aktlar yazılıb, onlara imza atılıb, amma ödənilməsi problem olaraq qalır.

Hörmətli prezident, bu gün belə bir müşavirə keçirdiyinizə görə Sizə bir daha minnətdarlığımı bildirirəm. Sizə demək istəyirəm ki, xalq biz energetiklərdən həqiqətən haqlı şikayət edir. Bizim nöqsanımız ondan ibarətdir ki, əhaliyə düzgün məlumat vermirik. Sizi inandırıramki,bu şikayətlərin çoxu ondan yaranır ki, onlara vaxtında doğru-düzgün cavab verilmir. Əgər biz izah etsək ki, qəza baş verib, işıq iki-üç saatdan sonra olacaq, onda şikayət edən vətəndaş da [411-412] vəziyyəti başa düşər, rahat olar. Təəssüf ki, şikayət edənə deyirlər ki, «Azərenerji» Səhmdar Cəmiyyəti günahkardır. Bizə zəng edəndə mən də deyirəm ki, BAŞEŞ günahkardır. Başqa biri isə deyir ki, yox, mənzil təsərrüfatı idarələri günahkardır.

**Heydər Əliyev:** Siz deyirsiniz ki, əhaliyə məlumat vermirsiniz. Niyə? Sizə kim mane olur?

**Müslüm İmanov:** Hörmətli prezident, mənə kimliyindən asılı olmayaraq nə qədər müraiciət ediblərsə, hamısına cavab vermişəm, vəziyyəti izah etməyə çalışmışam.

**Heydər Əliyev:** Söhbət müraciət etməkdən getmir. Siz deyirsiniz ki, çox şeylər barədə əhaliyə vaxtında məlumat vermirsiniz? Niyə vermirsiniz?

**Müslüm İmanov:** Doğrudan da yerlədə məlumat düzgün verilmir.

**Heydər Əliyev:** Bəs, guya siz düzgün məlumat verirsiniz?

**Müslüm İmanov:** Hörmətli prezident, xəttin bizim tərəfimizdən açılması təsadüfi hallarda olur. Ayrı-ayrı evlərdə enerji verilməsinin dayandırılmasını biz bilmirik. Çünki bu işə BAŞEŞ cavabdehdir. Mən bunun səbəbini aydınlaşdıra bilmirəm. Amma elektrik xəttinin «Azərenerji» tərəfindən açılması o dəqiqə bilinir. Çünki bu işlərə dispetçer nəzarət edir və qəzanın harada baş verdiyi dərhal görünür. Bizdən soruşanda da məlumatı dərhal veririk və yaxud ehtiyat xətlərimizi işə qoşuruq. Ancaq məhəllələrə, evlərə gedən kabellər sıradan çıxanda onu təmir etmək çox vaxt aparır.

Hörmətli prezident, mən vəziyyətdən çıxış yolu barədə danışmaq istəyirəm. Hesab edirəm ki, Bakıda, Sumqayıtda və Gəncədə energetika sahəsində yeni inkişaf planı təcili olaraq hazırlanmalıdır. Layihə institutları tərəfindən ayrı-ayrı bölgələrin 2 illik, 5 illik və bütövlükdə gələcək inkişafı nəzərə [412-413] alınaraq enerjiyə tələbatın artım sürəti barədə layihələr hazırlanmalı və həyata keçirilməlidir.

Mən daha bir təklifimi demək istəyirəm. İranda da, Türkiyədə də, başqa ölkələrdə də görmüşəm ki, şəhərlərdə magistral yollarda 220 kilovoltluq xətlər çəkiblər. Hesab edirəm ki, Bakıda bir çox yerlərdə əsas stansiyalardan hava xətləri çəkmək lazımdır. Çünki yeraltı kabel sıradan çıxanda onu təmir etməyə 2-3 gün vaxt lazımdır. Mən demirəm ki, hər yerdə hava xətləri çəkək, amma əsas yarımstansiyalara hava xətti çəkilməsi problemi həll olunmalıdır. Əgər belə xətdə zədələnmə olarsa, onu tez bir zamanda təmir etmək mümkündür.

Cənab prezident, mən Sizin qarşısında söz verirəm ki, biz enerji təchizatı məsələləri ilə daha ciddi məşğul olacağıq. Əgər bir problemimiz həll edilsə, mən söz verirəm ki, biz respublikanın enerjiyə olan tələbatını tam ödəyə bilərik.

Hörmətli prezident, biz keçən ilə nisbətən bu il gündə 3 milyon kilovat - saat çox enerji veririk. Yəni hər gün 53-54 milyon kilovat - saat əvəzinə 57-58 milyon kilovat - saat elektrik enerjisi verilir. Yanvar-fevral ayları üçün 150 milyon ton yanacaq çatışmır. Bu məsələyə Nazirlər Kabinetində baxılır. Mən hesab edirəm ki, qaz təhçizatını müəyyən qədər artırmaq, məhdudiyyət rejimi tətbiq etmək, rayonlarda gecə-gündüz israfçılıqla mübarizə aparmaq yolu ilə biz qış dövründə enerjiyə tələbatı ödəyə biləcəyik. Diqqətinizə görə təşəkkür edirəm.

**Heydər Əliyev:** Siz bütün məsələlərdən danışdınız. Başqa təşkilatların çatışmazlıqlarını, nöqsanlarını da dediniz. Amma özünüzün nöqsanlarınız barədə demək olar ki, heç bir şey söyləmədiniz. İndi deyirsiniz ki, keçən ilə nisbətən çox elekrik enerjisi verirsiniz. Amma elektrik enerjisi çatmır.

Sizin özünüzün nöqsanlarınız nədən ibarətdir? Onları necə aradan qaldırırsınız? Siz başqalarının nöqsanları barədə çox [413-414] yaxşı dediniz,bunlar düzdür. Öz işinizdə niyə nöqsanlar var, nə üçün?

**Müslüm İmanov:** Hörmətli prezident, bilirsiniz k, bizdə əmək haqqının verilməsində çoxlu gecikmələr olubdur. Ona görə də intizam bir az zəifləyib. Mən sizə açıq deyim ki, bəzi ixtisaslı kadrlarımız işdən gedib. Bunlar hamısı işimizdəki nöqsanlardır. Mən etiraf etməliyəm ki, mövcud avadanlığın təmirini biz bir ay bundan əvvəl də qurtara bilərdik.

**Heydər Əliyev:** Bəs niyə vaxtında qurtarmadınız, çatdırmadınız? Niyə təmiri bu vaxta gətirib çıxardınız?

**Müslüm İmanov:** Cənab prezident, vəsait çatışmazlığı ilə əlaqədar belə vəziyyət yarandı.

Hörmətli prezident, mən vaxtınızı almaq istəmirəm. İndi belə bir problemimiz yaranıb, - biz lazım olan hər bir hissəni almaq üçün gərək tender elan edək. Tenderin keçirilməsi isə 2-3 ay vaxt aparır.

**Heydər Əliyev:** Tenderi vaxtından əvvəl edin. Siz gərək bir az irəliyə baxasınız ki, bir ildən sonra sizə nə lazım olacaq. Siz gözləyib o vaxta gəlib çatırsınız ki, nə isə almalısınız, tender elan edirsiniz, vaxtı da itirmiş olursunuz.

**Müslüm İmanov:** Bizim bir az çətinliklərimiz var. Xahiş edərdim, əgər mümkün olsa o məsələyə baxılsın.

**H e y d ə r Ə l i y e v:** Bu məsələyə kim baxmalıdır?

**M ü s l ü m İ m a n o v:** Büdcədən maliyyələşən təşkilatlar üçün norma qoyulmuşdur ki, 250 milyon manatdan yuxarı olanda tender keçirilsin. Amma bütün zavodlar, fabriklər lazım olan avadanlığı həmişə müsabiqə yolu ilə alırdı.

**H e y d ə r Ə l i y e v:** Bilirsiniz, bu mənim işim deyil. Nazirlər Kabineti var, siz varsınız, bu məsələni özünüz müzakirə edin. Bura o söhbətin yeri deyil. Tender keçirmək lazımdırsa, bunu Nazirlər Kabineti ilə birlikdə həll edin. Nazirlər Kabineti bu işlə məşğul olmalıdır. İndi siz istəyirsiniz [414-415] öz günahınızı onunla əlaqələndirəsiniz ki, tenderin vaxtı keçdi, nə bilim nə oldu. Bu məsələləri Nazirlər Kabineti qarşısında vaxtında qaldırın, o həll etsin.

**M ü s l ü m İ m a n o v:** Hörmətli prezident, bizim bir çətinliyimiz də var. Aldığımız energetika avadanlığına 5 faiz gömrük haqqı, 15 faiz də nağd pul verməliyik. Bilirsiniz, biz əmək haqqını verə bilmədiyimiz halda bunlara əməl etmək çətindir.

**H e y d ə r Ə l i y e v:** Yenə də ondan danışırsan ki, gömrük haqqını vermək lazımdır, yoxsa yox? Bu, buranın söz-söhbəti deyil.

**M ü s l ü m İ m a n o v:** Hörmətli prezidentimiz, biz, məsələn, yanacaqdan qənaətlə istifadə etmirik.

**H e y d ə r Ə l i y e v:** Deyirlər ki, siz bəzi hallarda yanacağı başqa yerlərə satırsınız. Məndə belə siqnallar var. Mazutu satırsınız.

**M ü s l ü m İ m a n o v:** Cənab prezident,bilirsiniz ki, keçən ildə belə bir hal olmuşdu.

**H e y d ə r Ə l i y e v:** Elə indi də mənə məlumat verirlər ki, ayrılan mazutu sizin ayrı-ayrı adamlarınız kənara satıb pul qazarnırlar. Beləliklə də siz mazutdan qıtlıq yaratmısınz. Mən arayışa baxdım ki, siz mazutu keçən ilə nisbətən daha da çox işlədirsiniz. İndi həqiqətənmi çox işlənir, yaxud da ki, onu satırlar, miqdarını qaldırırlar ki, çox işlənib? Mən nə bilim. Amma belə siqnallar var. Bəli keçən ildə belə bir hal olmuşdu. Niyə belə hallara yol verirsiniz?

**M ü s l ü m İ m a n o v:** Cənab prezident, məlumat üçün deyə bilərəm, biz keçən il belə bir məsələni Mingəçevirdə, özü də təsadüfən aşkar etdik ki, icra hakimiyyətinin sənədi ilə həmin mazut çörək zavoduna, hərbi hissəyə verilib. Mən həmin adamı məhkəməyə verdim.

**H e y d ə r Ə l i y e v:** Mən onu bilirəm. Amma bir o deyil. Sizin öz təşkilatınızın işçiləri elektrik stansiyalarına ayrılan mazutu kənar yerə satırlar. Məndə belə siqnallar var.

**M ü s l ü m İ m a n o v:** Hörmətli prezident, mən bu məsələni bir daha araşdıraram.

**H e y d ə r Ə l i y e v:** Bir daha araşdırmaq yox, sən buna nəzarət etməlisən. Əgər bir daha araşdırmaq istəyirsənsə, mən deyim, araşdırsınlar və nəticəni gətirib sənə desinlər.

**M ü s l ü m İ m a n o v:** Dəmir yolu vasitəsilə iki sisternimiz Əli Bayramlıya gəlməyib. Biz burada Dövlət Dəmir Yolu İdarəsinə məlumat verdik. Texniki səbəbdən ləngimə olub, sisternləri göndərəcəklər.

Hörmətli prezident, mən komissiya təşkil etmişəm, bu məsələni yoxlayırlar. Əgər belə bir şey olsa, mən Sizə dəqiq məlumat verəcəyəm. Hətta orqanlara verəcəyəm ki, bu məsələ ilə məşğul olsunlar. Keçən il belə bir hal olmuşdu, biz onun qarşısını aldıq. Əmr vermişik, indi yoxlamalar gedir.

**H e y d ə r Ə l i y e v:** Hər halda mazutun işlənməsi, istifadə olunması barədə sizdə çox ciddi nöqsanlar var. Yenə də deyirəm, ən narahatedici odur ki, siqnallar gəlir ki, mazut kənar yerə satılır. Ona görə də mən mübahisə aparmaq istəmirəm. Mən bunu sənə bildirirəm və xəbərdarlıq edirəm. [415]

## AZƏRBAYCAN DÖVLƏT NEFT ŞİRKƏTİNİN PREZİDENTİ NATİQ ƏLİYEVİN ÇIXIŞI

Möhtərəm cənab prezident!

Hörmətli müşavirə iştirakçıları!

Bugünkü müşavirə, müzakirə üçün qaldırılan məsələlər möhtərəm prezidentimizin ölkəmizin iqtisadiyyatına, onun əsas sahələrinin möhkəmlənməsinə və inkişafına daimi qayğısını bir daha təsdiq edir. [416-417]

1997-ci ildə neft sənayesində mühüm işlər görülmüşdür. Respublika prezidentinin imzaladığı vacib fərmanlar, qəbul etdiyi qərarlar, göstərdiyi gündəlik diqqət Dövlət Neft Şirkətinin fəaliyyətinə böyük kömək etmişdir.

Möhtərəm prezidentimizin 1997-ci il iyulun 19-da keçirilən ümumrespublika müşavirəsində söylədiyi fikirlər, Nazirlər Kabinetindəki müzakirələr neft və qaz sahəsinin işində daha müsbət nəticələr əldə ediləcəyinə bizdə inam yaratmışdır. Dövlət Neft Şirkətinin müəssisələrinin kollektivləri, bütün neftçilər hələ də davam edən bəzi çətinliklərə baxmayaraq, daxili imkanlardan istifadə edərək neft sahəsində nəzərdə tutulan əsas göstəriciləri yaxşılaşdırmışlar.

ARDNŞ neft hasilatı üzrə 1997-ci ilin 11 ayının planını 100,7 faiz yerinə yetirmiş, 53 min 720 ton artıq neft təhvil vermişdir. Bu sahədə çalışan istehsalat birlikləri həm quruda, həm də dənizdə tapşırıqların

yerinə yetirilməsinə nail olmuşlar. Əgər 1991-ci ildə neft hasilatının aşağıdüşmə sürəti 5,7 faiz, 1992-ci ildə 5,6 faiz, 1993-cü ildə 7,1 faiz olmuşdursa və hər il məhsul istehsalı təxminən 800 min ton aşağı düşürdüsə, sevindirici hal budur ki, 1996-cı ildə aşağıdüşmə sürəti 0,7 faiz,1997-ci ildə isə 1 faiz təşkil etmişdir ki, bu da neft hasilatının sabitləşdirilməsi deməkdir.

Dənizdə «28 may», «Neft daşları», «Qum adası», Nərimanov adına, quruda isə «Balaxanıneft», «Salyanneft», Əmirov adına, «Bibiheybətneft», «Suraxanıneft» neft-qaz çıxarma idarələri yüksək göstəricilərə nail olmuşlar. Neft və qaz quyularının fəaliyyətinin saxlanılması və hasilat itkisinin qarşısının alınması üçün quyu fondu üzərində işin keyfiyyəti yüksəldilmişdir.

1995-1996-cı illərlə müqayisədə qazma sahəsində işlər xeyli artmışdır. 11 ayda 128 min 784 metr qazma işi aparılmışdır ki, bu da 1996-cı ildəkindən 17 min 606 metr çoxdur. Bu, müqayisədə 123,3 faiz təşkil edir. Bunun nəticəsində artıq 20 [417-418] yeni istismar quyusu, o cümlədən «Günəşli» yatağında çoxməhsullu quyular istifadəyə verilmişdir. «Neft daşları» qazma idarəsi planı 108,8 faiz, «Qum adası» qazma idarəsi 101,5 faiz yerinə yetirmişlər. Nəhayət, «Xəzər-4» üzən qazma qurğusu Neft daşları yatağında kəşfiyyat quyusu qazmağa başlamışdır və artıq 1000 metr qazma işi görülmüşdür.

Keçən illərdən fərqli olaraq bu il quyların əsaslı və yeraltı təmiri daha səmərəli təşkil olunmuşdur və plan 105 və 109 faiz yerinə yetirilmişdir. 1996-cı illə müqaisədə 230 quyu artıq təmir edilmişdir və fəaliyyətə qaytarılmışdır. «Günəşli» yatağında 6 quyu bərpa olunub istifadəyə verilmişdir və bu quyulardan 80 min ton neft hasil edilmişdir, bu da gözlədiymizdən 5 min 500 ton artıqdır. Qum adasında neft hasilatı planı 101,7 faiz yerinə yetirilmişdir. Burada 3 yeni quyu istifadəyə verilmişdir və onların hər birindən gündə 100 ton neft hasil edilir. Mart ayında «Neft Daşları»nda güclü qasırğa zamanı estakadanın böyük bir hissəsinin dağılması nəticəsində planın yerinə yetirilməsində 7 min ton kəsir var idi. Lakin «Neft Daşları» neftçilərinin gərgin zəhməti nəticəsində bu kəsir nəinki ləğv edildi, hətta 11 ayın göstəricisinə görə 2276 ton çox neft hasil olunmuşdur.

Bu il qurudakı yataqlarda 30 yeni quyu istifadəyə verilmişdir. 550 quyu təmir olunmuş və onların fəaliyyəti bərpa edilmişdir. Lakin təəssüflə qeyd etmək lazımdır ki, 1997-ci ildə qaz hasilatı tapşırığı yerinə yetirilməmişdir. 94,5 faiz, yaxud başqa sözlə desək, 5 milyard 985 milyon kubmetr qaz hasil edilmişdir ki, bu da 1997-ci ildə nəzərdə tutulandan 345 milyon kubmetr az qaz hasil edilməsi deməkdir. 91,4 faiz, yaxud 4 milyard 920 milyon kubmetr qaz təhvil verilmişdir və kəsir 465 milyon kubmetr olmuşdur.

Bu vəziyyətdən çıxmaq üçün yeni qaz quyuları istifadəyə verilməlidir. Hazırda 5 quyunun qazılması Nazirlər Kabinetinin nəzarəti altındadır və orada işlərin başa çatdırılması [418-419] üçün lazımi tədbirlər görülür. «Bulla dəniz» yatağında dərinliyi 6200 metr olacaq 86 nömrəli quyuda hazırda 5073 metr qazma işləri aparılmışdır. Həmin quyudan sutkada bir milyon kubmetr qaz və 150 ton kondensat gözlənilir. İkinci quyu «8 Mart» yatağında qazılır. Layihə üzrə dərinliyi 5800 metr olacaq 700 nömrəli bu quyuda 4823 metr qazma işləri aparılmışdır. Bu quyudan sutkada 500 min kubmetr qaz və 80 ton kondensat alınacaqdır. Qum adasında da iki quyu qazılır. Onlar da qaz quyularıdır. Dərinliyi 5250 metr olacaq 244 nömrəli quyuda hazırda 3111 metr qazma işi görülmüşdür. Dərinliyi 4750 metr olacaq 237 nömrəli ikinci quyuda 2700 metr qazma işi aparılmışdır. 19 nömrəli digər quyuda isə qazma işi başa çatıb və o, bu yaxınlarda istifadəyə veriləcəkdir.

Biz qaz yığımını artırmaq üçün bu il «Günəşli» yatağından Neft daşlarınadək öz gücümüzlə 15 kilometr uzunluğunda sualtı kəmər tikib istifadəyə vermişik. Bu işlər əlavə olaraq sutkada 400 min kubmetr qaz yığmağa və istifadə etməyə imkan verir. Halbuki həmin qaz əvvəllər havaya buraxılırdı.

Noyabr ayından «Çıraq» yatağındakı quyudan səmt qazı yığılıb «Neft daşları» qaz-kompressor stansiyası vasitəsilə sahilə nəql olunur.

**H e y d ə r  Ə l i y e v:** Oradan nə qədər qaz gətirilib? Mən bilmək istəyirəm ki, birinci quyudan nə qədər qaz hasil edilir?

**N a t i q  Ə l i y e v:** Həmin quyudan gündə 150 min kubmetr qaz sahilə gətirilir. İkinci quyu da dünən istifadəyə verilibdir. Onlar ikisi bir yerdə sahilə gündə 300 min kubmetr qaz verir. Bildiyiniz kimi, biz gələn il 8 quyu istifadəyə verəcəyik. «Çıraq-1» platformasından 1998-ci ildə təxminən 330 milyon kubmetr qaz gözləyirik.

Gələn il qaz təsərrüfatı genişləndirilməlidir. «Neft Daşları» qaz-kompressor stansiyasının gücü sutkada 3,9 milyon kubmetrdən 6 milyon kubmetrə çatdırılacaqdır. Biz Nazirlər [419-420] Kabineti ilə birgə bu məsələni təhlil etmişik. Yeni ehtiyat hissələri sifariş edəcəyik və həmin qaz-kompressor stansiyasının gücünü təxminən iki dəfə artıracağıq. Bu da bizə «Günəşli» yatağından və «Çıraq-1» platformasından qazı bir yerə yığıb qaz-kompressor stansiyası vasitəsilə qaz emalı zavoduna çatdırmağa imkan verəcəkdir.

Siz mənə tapşırdınız ki, qaz hasilatı və təchizatı barədə məlumat verim. Dövlət Neft Şirkətinin fəaliyyəti haqqında da mənim arayışım var.

**H e y d ə r  Ə l i y e v:** Onlar lazım deyil. Əsasən qaz təchizatı məsələlərindən danışın.

**N a t i q Ə l i y e v:** Demək istərdim ki, qaz təchizatı sahəsində bir az gərginlik vardır. Biz bu il planı 94,5 faiz yerinə yetirmişik. İlin axırınadək kəsir 400 milyon kubmetr olacaqdır.

**H e y d ə r Ə l i y e v:** Niyə kəsirdir?

**N a t i q Ə l i y e v:** Hörmətli prezident, birincisi odur ki, biz yeni qaz quyuları almamışıq. Bildiyiniz kimi, yataqlarda təzyiq böyük sürətlə aşağı düşür. Bizim qaz hasil etdiyimiz əsas yataqlar «Qum adası», «Bahar», Nərimanov adına Neft və Qazçıxarma İdarəsi, «Bulla dəniz», «8 Mart» yataqlarıdır. Ötən illərdə vəsait çatışmadığına görə bu yataqlarda heç bir quyu qazılmamışdır. Ancaq Nazirlər Kabineti ilə bir yerdə biz bu il proqram hazırlamışıq. Bu işlər hamısı nəzarət altındadır. Hazırda beş quyuda qazma işləri davam etdirilir. Siz bilirsiniz ki, onların layihə dərinliyi 6 min 250 metrdir. Həmin quyuların qazılmasında biz bir çox çətinliklərlə rastlaşırıq. Ancaq bunu demək lazımdır ki, hər quyudan sutkada təxminən bir milyon kubmetr qaz hasil ediləcəkdir. Bunlar çox vacib quyulardır. Biz şurada bu məsələlərə baxmışıq, vəsait ayırmışıq, lazım olan xammal, qazma üçün baltalar, borular alınmasına diqqəti artırmışıq. Qaz emalı zavodu üçün yeni avadanlıq almışıq, köhnələri bərpa etmişik. [420-421] Bütün bunlar bizə imkan verir ki, həmin zavodda maye qaz istehsalını artıraq. Plan üzrə maye qaz istehsalını iki dəfə artırmışıq. Bizim müəssisəmiz orada maye qaz satışı ilə də məşğul olub, yeni balonlar alınıb. Bir çox rayonlarda məntəqələr açılıb. Nəticədə biz təbii qaz verə bilmədiyimiz kəndləri maye qazla təmin edirik.

**H e y d ə r Ə l i y e v:** Təkcə kəndlər deyil, biz respublikanın rayon mərkəzlərinin əksəriyyətinə qaz veririk.

**N a t i q Ə l i y e v:** Bəli, biz bütün rayonları maye qazla təmin edirik.

Hörmətli prezident, biz bu işi davam etdiririk, maye qazın istehsalını daha da artıracağıq. Qaradağ qaz emalı zavodunda yalnız «Günəşli» və «Çıraq» yataqlarından gələn qazdan maye qaz istehsal olunur. Ancaq Qum adasında, «Bahar» yatağında çıxarılan qaz bilavasitə qaz kəmərlərinə gəlir və biz texniki butanı yığa bilmirik. Əsas vəzifəmiz ondan ibarətdir ki, bütün qaz cəmləşsin, Qaradağ qaz emalı zavoduna verilsin. Ola bilər ki, biz yeni mini qaz emalı qurğuları tikək və onların vasitəsilə respublikada qaz emalını artıraq. Bu, çox perspektivli istiqamətdir. Biz bu sahədə işimizi davam etdirəcəyik.

«Azərenerji» Səhmdar Cəmiyyətinin prezidenti Müslüm İmanov çıxışında enerjinin pulunun ödənilməsi məsələsindən danışdı. Doğrudan da neftin, qazın, elektrik enerjisinin pulunun ödənilməməsi bizə çox ziyan vurur. Ona görə ki, biz bu vəsaiti vaxtında alıb istehsalatımızda bərpa, təmir işləri apara və digər lazımi sahələrə yönəldə bilmirik.

Hörmətli prezident, Siz mazut istehsalı məsələsinə toxundunuz. Mən istərdim deyim ki, biz «Azərenerji» Səhmdar Cəmiyyətinə vaxtlı-vaxtında mazut veririk. Bu sahədə bizdə gerilik yoxdur. Biz «Azərenerji» Səhmdar Cəmiyyətinə bu il 3 milyon 259 min 215 ton mazut vermişik. Bundan əlavə, Gəncə və Sumqayıt şəhərlərinə 89 min 696 ton [421-422] mazut göndərilmişdir. Mazutu saxlamaq üçün yer olmadığına görə Nazirlər Kabinetinin razılığı ilə biz onun bir hissəsini xaricə satmışıq. Xarici ölkələrə valyuta ilə təxminən 156 min 722 ton mazut satılmışdır. Bu, bir tərəfdən yaxşıdır, ona görə ki, «Azərenerji» Səhmdar Cəmiyyətinin ehtiyat üçün 400 min ton mazut saxlamağa imkanı vardır. Yayda mazut çox olur, biz 400 tonluq çənləri doldururuq, ehtiyat saxlaya bilmirik. Məncə, biz bu məsələni birdəfəlik həll etməliyik, çənlərin sayını artırmalıyıq. Gərək biz əlavə 200 tonluq çənlər qoyaq ki, yayda qış üçün yaxşı ehtyiat yaratmağa imkan olsun.

**H e y d ə r Ə l i y e v:** İmanov, siz eletrik stansiyalarında qazdan neçə faiz istifadə edirsiniz?

**M ü s l ü m İ m a n o v:** 20 faiz.

**H e y d ə r Ə l i y e v:** Bu il nə qədər qaz çıxarılır?

**N a t i q Ə l i y e v:** Bu il 6 milyard 350 milyon kubmetr qaz çıxarılması nəzərdə tutulmuşdur. Biz ötən 11 ayda 5 milyard 930 milyon kubmetr qaz hasil etmişik.

**H e y d ə r Ə l i y e v:** İndi deyirsiniz ilin axırınadək 6 milyard kubmetr olmayacaq?

**N a t i q Ə l i y e v:** Xeyr, olmayacaq.

**H e y d ə r Ə l i y e v:** Demək, deyirsiniz ki, 5 milyard 930 milyon kubmetr qaz hasil edilib. Yaxşı, həmin 5 milyard 930 milyon kubmetrdən 20 faizi elektrik stansiyalarına verilir. Qalanı hara gedir?

**N a t i q Ə l i y e v:** Qalan qazın hamısını «Azəriqaz» Səhmdar Cəmiyyətinə veririk. Biz istifadə etmirik.

**H e y d ə r Ə l i y e v:** Bəs, qalanı hara geir? Mən indi «Azəriqaz» Səhmdar Cəmiyyətinin sədri vəzifəsini icra edəndən bunu soruşacağam. Ancaq aydınlaşdırmaq lazımdır Artur Rasizadə, siz mənə deyirdiniz ki, «Azərenerji»yə 30 faiz qaz verilir, görürsən, deyirlər ki, 20 faiz verilir.

**A r t u r R a s i z a d ə:** «Azərenerji» Səhmdar Cəmiyyətinə 1 milyard 500 milyon kubmetr qaz verilir. [422-423]

**M ü s l ü m İ m a n o v:** Cənab prezident, mən demək istəyirəm ki, energetikanın istifadə etdiyi yanacağın 20 faizini qaz, qalanını isə mazut təşkil edir.

**H e y d ə r Ə l i y e v:** Nə qədər qaz alırsınız?

**M ü s l ü m İ m a n o v:** 1 milyard 350 milyon kubmetr.

**A r t u r R a s i z a d ə:** Xeyr, 1 milyard 500 milyon kubmetr.

**H e y d ə r Ə l i y e v:** Bu qədər qaz alır, yoxsa yox? Bəlkə almır? Axı deyir ki, 1 milyard 350 milyon kubmetr alıram.

**A r t u r R a s i z a d ə:** Cənab prezident, rəqəmlər belədir.

**H e y d ə r Ə l i y e v:** Rəqəmlərinizi bir-birinizlə tutuşdurun.

**M ü s l ü m İ m a n o v:** Cənab prezident, biz 11 aylıq plana görə 1 milyard 99 milyon kubmetr qaz admışıq.

**A r t u r R a s i z a d ə:** Mən 12 ayda nəzərdə tutulanı deyirəm.

**H e y d ə r Ə l i y e v:** Siz 12 ayda nə qədər qaz alacaqsınız?

**M ü s l ü m İ m a n o v:** Biz 12 ayda 1 milyard 485 milyon kubmetr qaz almalıyıq.

**H e y d ə r Ə l i y e v:** İmanov, sən uzun illərdir ki, «Azərenerji»də işləyirsən. Bu rəqəmləri kağızdan oxumaq ayıb deyil? Kağızdan da düz oxuya bilmirsən. Bu nə məsələdir ki, hər birinizə sual verilən kimi, kağızı götürüb ora-bura baxırsınız. Bunlar sadə rəqəmlərdir. 6 milyard kubmetr qaz çıxır. Mən istəyirəm biləm, bu 6 milyard kubmetr qazın nə qədəri elektrik stansiyalarına gedir?

**A r t u r R a s i z a d ə:** 1 milyard 500 milyon kubmetr.

**H e y d ə r Ə l i y e v:** Görmədin, əvvəl dedi ki, 1 milyard 350 milyon, sonra dedi 1 milyard 400 milyon, sən də deyirsən ki, 1 milyard 500 milyon kubmetr. İndi bunların hansına inanım? Sən də mənə əvvəl 30 faiz demişdin. Demək, sən də düz deməmişdin. [423-424]

**M ü s l ü m İ m a n o v:** Hörmətli prezident, mən yanacaq balansını nəzərdə tutub demişdim.

**H e y d ə r Ə l i y e v:** Məni yanacaq balansı maraqlandırmır. Mən sənə sual verirəm ki, sizin elektrik stansiyalarında yanacaq üçün neçə faiz qaz istifadə olunur? Yəni respublikada hasil olunan qazın neçə faizindən istifadə edilir?

**A r t u r R a s i z a d ə:** Cənab prezident, elektrik stansiyalarında respublikada hasil edilən qazın 25 faizindən istifadə olunur.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, indi vaxt itirməyək. Baş nazir, mən səndən də, İmanovdan da, başqalarından da xahiş edirəm, bunları araşdırın, bir cədvəl düzəldin, bilək görək hasil edilən qaz hara gedir. Bu məni narahat edir. Çünki Azərbaycanda keçmiş zamanlarda nə qədər qaz hasil edildiyi, istifadə olunduğu heç hesaba alınmayıb. Ona görə ki, qaz pulsuz idi. Yəni qazın qiyməti o qədər ucuz idi ki, camaat heç onun pulunu ödəmirdi. Buna görə də o vaxt Azərbaycanda qazı əhəmiyyətsiz hesab edirdilər. O, mənada əhəmiyyətsiz ki, yəni onun büdcəyə elə bir böyük gəliri olmurdu. Amma indi qaz bizim ən böyük sərvətimizdir.

Bu il 5 milyard 930 milyon kubmetr qaz hasil edilib. Bu hara gedir? Əgər bunun 25 faizi yanacaq kimi elektrik stansiyalarına verilirsə, qalan 75 faizi haradadır?

Mənə deyirlər ki, Bakı, Sumqayıt, Əli-Bayramlı, Naftalan, Siyəzən qazla təmin olunur. Qalan yerlər qazla təmin edilmir.

**Y e r d ə n s ə s:** Sumqayıt, Bakı şəhərləri qaz ilə tam təmin olunmur.

**H e y d ə r Ə l i y e v:** Bəs bu qaz hara gedir? Deyirlər ki, Gəncə qaz almır. Onda bu qaz haradadır, hara gedir? Şübhəsiz ki, bu mənim işim deyil. Amma mən bu gün bunu etməyə məcburam. Bu qədər böyük sərvətimizə belə münasibət olarmı? [424-425]

Natiq Əliyev, indi sən deyirsən ki, 6 min metr dərinliyi olan quyu qazmalısınız ki, oradan qaz çıxarasınız. O qaz nə qədər çətinliklə çıxır, ona nə qədər vəsait gedir, işçi qüvvəsi sərf olunur. Amma çıxarılan qazın haqq-hesabı yoxdur.

Yenə də deyirəm, hasil edilən təxminən 6 milyard kubmetr qazın 25 faizi elektrik stansiyalarına verilirsə, qalanı hara gedir? Deyirsiniz ki, Bakı, Sumqayıt qazla tam təmin olunmur, Gəncə isə tamamilə qaz almır. Bunlar çox ciddi məsələlərdir.

Mən başa düşürəm ki, bu sənin işin deyil, Dövlət Neft Şirkətinin işi qaz çıxarmaqdır. Qazı paylamaq «Azəriqaz» Səhmdar Cəmiyyətinin işidir. Bu «Azəriqaz» Səhmdar Cəmiyyəti elə bir bədbəxt təşkilatdır ki, onun rəhbərliyi əvvəldən pis işləyibdir. Biz oraya yeni müdir təyin etdik, o da gəlib işi yarıtmadı. İndi həmin səhmdar cəmiyyəti başsız qalıb. Amma hesab edirəm ki, Nazirlər Kabineti bu işlə çox ciddi məşğul olmalıdır. Nazirlər Kabinetində respublikada hasiledilən qazın hər kubmetrinin hesabı getməlidir.

Nazirlər Kabinetində böyük bir şöbə - neft və kimya şöbəsi vardır. Həmin şöbənin müdiri Dadaşov buradadırmı? Mən bir neçə dəfə demişəm, uzun müddətdir ki, orada işləyirsən, mən səni keçmiş zamanlardan tanıyıram. Bu işlərlə niyə məşğul olmursunuz? Əgər siz bu işlərlə məşğul olsanız, rəhbər vəzifəli şəxslər mənim suallarıma dəqiq cavab verə bilərlər.

Mən indi buna vaxt itirmək istəmirəm. Amma eyni zamanda bu məsələni çox ciddi hesab edirəm. Baş nazir Artur Rasizadəyə tapşırıram ki, qısa müddətdə - bir həftə, 10 gün içərisində Azərbaycanın qaz balansını dəqiqləşdirsin. Biz çox dəqiq bilməliyik ki, çıxarılan qaz necə nəql olunur, haraya gedir, ondan harada, necə istifadə edilir. Bizim qonşu respublikalar var ki, onlar 1 milyard kubmetr qaz almaq üçün gedib başqa ölkələrə yalvarırlar. Biz burada ildə 6 milyard kubmetr qaz çıxarırıq. Qazın qiyməti neçəyədir? 1000 kubmetr qazın qiyməti 40-45 dollardır. 1000 [425-426] kubmetr qazın dünya bazarında qiyməti təxminən 80 dollardır. Türkmənistan qazı Ukraynaya, Ermənistana və başqa yerlərə 45 dollara satır. Mən Türkmənistan prezidenti Niyazovla Tehranda görüşərkən bunu bir daha dəqiqləşdirdim. Onlar qazı 45

dollara satırlar. Biz istəyirdik ki, İrandan Naxçıvana qaz kəməri çəkək, onlar qazın qiymətini 80 dollardan aşağı endirmədilər. Amma mən bilirəm ki, Rusiya da Ukraynaya qazı 45 dollara satır.

**A r t u r R a s i z a d ə:** Cənab prezident, mən Rusiya Federasiyasında səfərdə olarkən öyrəndim ki, Rusiya Gürcüstana qazı 60 dollara satır. Rusiya qazın qiymətini qaldırmaq niyyətindədir.

**H e y d ə r Ə l i y e v:** Əlbəttə, qiyməti qaldıracaqlar, çünki dünya bazarında qazın qiyməti 80 dollardır.

Bizim bu cür qiymətli sərvətimiz vardır. Dünya bazarında onun 1000 kubmetrinin qiyməti 80 dollardır. Qonşu respublikalarda onu 45 dollara satırlar. Azərbaycanda qaz hasil edilir, bəs o, hara gedir, ondan neçə istifadə olunur? Bu işi başlı-başına buraxmışıq.

Mən dedim, təkrar etmək istəmirəm. Mən 10 gün vaxt verirəm, bu məsələ ilə ciddi məşğul olmalısan. İndi il qurtarır. Hər ay müəyyən edilməlidir ki, çıxarılan qaz hara gedir və ondan necə istifadə olunur.

**N a t i q Ə l i y e v:** Cənab prezident, Siz bu məsələyə toxundunuz, mən qeyd etmək istəyirəm ki, bu gün qazın hər 1000 kubmetrinin maya dəyəri 85 min 456 manatdır, amma onun satış qiyməti 48 min manatdır. Yəni qaz hasilatı ilə məşğul olan bütün istehsalat birlikləri qeyri-rentabelli işləyir. Bəlkə tapşırıq verəsiniz ki, biz bu məsələyə Nazirlər Kabineti ilə birgə baxaq. Çünki bu məsələnin üzərində işləməyə heç kəsin həvəsi yoxdur. [426-427]

**H e y d ə r Ə l i y e v:** Biz bazar iqtisadiyyatı yolu ilə gedirik. Demək, biz bazar iqtisadiyyatının prinsiplərini, tələblərini iqtisadiyyatın bütün sahələrinə tədricən, ardıcıl olaraq tətbiq etməliyik. Bu, sözsüzdür. Ancaq eyni zamanda respublikamızda mövcud reallığı da nəzərə almaq lazımdır. Dediniz ki, qazı maya dəyərindən iki dəfə aşağı qiymətə satırsınız. Əlbəttə, siz bunun yerini başqa sahələrin, neftin hesabına doldurursunuz. İndi biz bunlara dözməliyik, əlacımız yoxdur. Bunlar hamısı keçid dövrünün problemləridir. Ancaq hesab edirəm ki, məsələnin qoyuluşu düzgündür. Bunu xırda-xırda təmin etmək lazımdır.

**N a t i q Ə l i y e v:** Üzr istəyirəm, mən bir məsələyə də toxunmaq istəyirəm. Bu gün Siz də bunu qeyd etdiniz. Biz təhvil verdiyimiz qazın çox itkisinə yol verilir. Hesablamalar göstərir ki, bizim təkcə bu il «Azəriqaz» Səhmdar Cəmiyyətinə verdiyimiz qazın 82 milyon kubmetri itkiyə getmişdir.

**H e y d ə r Ə l i y e v:** 82 milyon kubmetr? İndi bunu dollara çevir, gör nə qədər olacaq. Demək, 7 milyon dollarlıq məhsul itkisinə yol verilibdir.

**N a t i q Ə l i y e v:** Əgər qaz təsərrüfatı sisteminə bütünlüklə baxsaq, ola bilsin ki, bu rəqəm daha çoxdur. Ona görə də bizim birinci vəzifəmiz o olmalıdır ki, həm respulikadakı, həm də şəhərdəki qaz sistemində Qaradağ qaz emalı zavodunda vəziyyəti araşdırmalı, tədbir görməliyik.

Hörmətli prezident, Dövlət Neft Şirkətində biz qışa hazırlıqla əlaqədar lazımi işlər görmüşük. Biz balansımıza Nazirlər Kabineti ilə birgə bir daha baxmışıq. Belə qərara gəlmişik ki, zavodlar mazut istehsalı sisteminə keçsinlər. Rəqəmlər göstərir ki, dekabrın 22-nə 13 min 200 ton mazut istehsal etmişik. Bu, çox yüksək rəqəmdir.

**H e y d ə r Ə l i y e v:** Bəs, Müslüm İmanov deyirdi ki, balansda nəzərdə tutulan mazut alınmayıb? [427-428]

**N a t i q Ə l i y e v:** Cənab prezident, mən Sizi əmin edirəm ki, lazım olan bütün tədbirləri vaxtında həyata keçirəcəyik.

**H e y d ə r Ə l i y e v:** 1998-ci ildə qaz hasilatı üzrə sizin planınız nə qədərdir?

**N a t i q Ə l i y e v:** Cənab prezident, qaz hasilatında ciddi çətinliklər olsa da biz istehsalı sabitləşdirmişik. Bu il 6 milyard kubmetr qaz hasil etməyi nəzərdə tutmuşuq.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, «Pennzoyl» Şirkəti Neft daşlarında qaz-kompressor stansiyasını istifadəyə verdi, buna böyük xərc qoyuldu. O vaxt siz hamınız mənə məruzə etdiniz ki, görülən bu iş respublikada qaz hasilatını 2 milyard kubmetr artıracaqdır. Elədirmi? İndi həmin 2 milyard kubmetr artıq qaz var?

**N a t i q Ə l i y e v:** Bəli, biz o qədər qazı yığıb sahilə veririk.

**H e y d ə r Ə l i y e v:** Yəni əlavə olaraq 2 milyard kubmetr qaz hasil edilməli idi.

**N a t i q Ə l i y e v:** Bəli, elədir, düzdür.

**A r t u r R a s i z a d ə:** 2 milyard kubmetr deyirdilər.

**N a t i q Ə l i y e v:** Biz 1 milyard 500 milyon kubmetr veririk.

**H e y d ə r Ə l i y e v:** Bəs niyə 2 milyard kubmetr olmadı?

**N a t i q Ə l i y e v:** Yığma sistemində belədir, 1 milyard 500 milyon kubmetr olmalıdır.

**H e y d ə r Ə l i y e v:** Yox, sən də, «Pennzoyl»un prezidenti də mənə demişdiniz ki, bu layihə həyata keçiriləndən sonra «Neft Daşları»ndakı qaz-kompressor stansiyasında havaya gedən qaz yığılıb veriləcəkdir. Bu, təmin olunur, yoxsa yox?

**N a t i q Ə l i y e v:** Qaz-kompressor stansiyası tam gücü ilə işləyir.

**H e y d ə r Ə l i y e v:** Sən mənə de görüm, bu qədər qaz alınır, yoxsa yox? [428-429]

**N a t i q Ə l i y e v:** Cənab prezident, biz ildə oradan sahilə 1 milyard 500 milyon kubmetr qaz göndəririk.

**H e y d ə r  Ə l i y e v:** Bəs yarım milyard harada qaldı?

**N a t i q  Ə l i y e v:** İndi biz yığma sistemini düzəldirik, başqa quyuları da oraya qoşacağıq.

**H e y d ə r  Ə l i y e v:** Axı, bu layihənin özündə 2 milyard kubmetr nəzərdə tutulmuşdur.

Baş nazir, bilirsən, sən özün bu məsələlərə nəzarət et. Bunlar söz verirlər, sonra başqa cür deyirlər.

Natiq Əliyev, sən bilirsən ki, hər şey mənim yadımdadır. Mən səninlə bu barədə neçə dəfə danışmışam. 1993, 1994, 1995-ci illərdə «Pennrzoyl» Şirkətinin prezidenti ilə sənin yanında neçə dəfə danışmışam. Onlar burada Neft daşlarında işləyirdilər. Sonra dediniz ki, qoyun bunlar çıxıb getsinlər, hamısını özümüz istismar edəcəyik. Bunlar hamısı mənim yadımdadır. Bu rəqəm də mənim yadımdadır ki, 2 milyard kubmetr qaz alınmalı idi. O vaxt, 1994-1995-ci illərdə siz bunu mənə deyəndə biz bunsuz 6 milyard kubmetr qaz çıxarırdıq. İndi nə təhər oldu ki, bu 2 milyard kubmetr artan kimi, siz başqa sahələrdə qazı 2 milyard kubmetr azaldınız?

**N a t i q  Ə l i y e v:** Cənab prezident, get-gedə təzyiq azalır.

**H e y d ə r  Ə l i y e v:** Axı, bu qədər azala bilməz, düz deyil. Mən bununla razı deyiləm. Sən başa düşürsən, yoxsa yox?

**A r t u r  R a s i z a d ə:** Cənab prezident, çox düzgün iraddır.

**H e y d ə r  Ə l i y e v:** Bilirsən, bunları buraxmısınız başlı-başına, nə bacarırlar, edirlər, çox vaxt da lazım olan şeyi edə bilmirlər və etmək də istəmirlər. Mən sənə bir neçə dəfə demişəm, yenə də deyirəm. Mən sənə tapşırıram, 1997-ci ildə Dövlət Neft Şirkətinin fəaliyyətini araşdırıb hazırlayın, mənim yanımda müzakirəyə çıxarın. O cümlədən həmin bu məsələni. Çünki mən istəmirəm kimsə hesab etsin ki, məni [429-430] aldatmaq olar. «Pennzoyl»Şirkəti burada uzun müddət işləyib, həmin o qaz-kompressor stansiyasını yaradıbdır. Onun böyük bir fotoşəklinidə gətiriblər, mənim hansısa otağımda var, böyük bir naliyyət kimi mənə hədiyyə veriblər. Həqiqətən mən də hesab edirəm ki, onlar orada çox yaxşı bir qurğu yaradıblar. Ancaq onlar işlədikləri zaman da və qaz-kompressor stansiyasını işə salandan sonra da, - çünki bir müddət onu öz mütəxəssisləri istismar edirdilər. «Pennzoyl» Şirkətinin prezidenti, onunla birlikdə Natiq Əliyev də mənə məlumat veribdir ki, bu layihənin həyata keçirilməsi ilə əlaqədar Azərbaycanda qaz istehsalı 2 milyard kubmetr artdı. Əgər 94-də, 95-də biz 6 milyard kubmetr qaz istehsal edirdiksə və «Pennzoyl» Şirkətinin yaratdığı qurğu əsasında 2 milyad kubmetr də artmalı idisə, deməк, bizdə gərək 8 milyard kubmetr qaz istehsal olunmalı idi. Anlayıram ki, təbii azalma var, amma birdən-birə 2 milyard kubmetr ola bilməz. Əgər belədirsə, siz niyə mənə proqnoz vermirdiniz ki, bir ildən sonra bizdə qaz 2 milyard kubmetr az çıxacaqdır? Bu məsələlər çox ciddi məsələlərdir. Yenə də deyirəm, hesab edirəm, Dövlət Neft Şirkəti bu məsələlərlə çox zəif işləyir və bunlar çoxhallarda nəzarətsiz qalıblar. Bu məsələlərə baxmaq lazımdır.

Sən özün də bil. Mən sənə dediyin sözləri deyirəm.

**N a t i q  Ə l i y e v:** Bir də araşdırarıq.

**H e y d ə r  Ə l i y e v:** Nə araşdıracaqsan, sən bunun üstündə durmalısan, şirkətin prezidentisən. İki il öncə mənə dediyin sözləri yadından çıxarmısan? Bu sözləri sən demisən. Hətta onlar burada daha da çox işləmək istəyirdilər, gəlib dediniz ki, bu, bizə baha oturur, qoy çıxsınlar-getsinlər, bizim mütəxəssislər artıq bu texnologiyanı mənimsəyiblər. Yadındadırmı?

**N a t i q  Ə l i y e v:** Bəli, elədir.

**H e y d ə r  Ə l i y e v:** Yaxşı, bəs nəticə nə oldu? [430-431]

Bir sözlə, 98-ci il üçün nə plan götürüblər, öz yerində, 98-ci ilin planı və 97-ci ilin yekunları, - xüsusən qaz sahəsində, təkcə qaz sahəsində yox, başqa sahələrdə də, - o cümlədən həmin qaz-kompressor stansiyasının işə salınmasından indiyə qədər görülən iş, əldə olunan nəticə, -mən bilirəm ki, oraya çoxmilyardlıq vəsait qoyulubdur, o vəsaitin nəticəsində biz nə əldə etmişik, nə qədər vəsait qoyulub, - bunların hamısını araşdırın, müzakirə edin, mənə məruzə edin.

Natiq Əliyev,  mən sənə də xəbərdarlıq edirəm ki, bu işlərə ciddi yanaşasan. Xüsusən indi mən qaz təchizatı məsələsini və elektrik stansiyalarının məsələsini müzakirə etdiyimə görə sizdən çox şey asılıdır. Qazı siz hasil edirsiniz, elektrik stansiyalarına qaz, mazut verilməsi sizdən asılıdır. Bu məsələlərlə ciddi məşğul olun. Əyləşin.

«Azəriqaz»la indi kim məşğul olur?

**A r t u r  R a s i z a d ə:** Camalov sədri əvəz edir.

**H e y d ə r  Ə l i y e v:** Kimdir o, gəlsin görüm buraya.

Sən orada çoxdan işləyirsən?

**Ə l i h ü s e y n  C a m a l o v:** Dörd ildir müavin işləyirəm. Üç aydır sədr vəzifəsini icra edirəm. 1982-ci ildən qaz sənayesində işləyirəm.

## «AZƏRİQAZ» SƏHMDAR CƏMİYYƏTİNİN SƏDRİ VƏZİFƏSİNİ İCRA EDƏN ƏLİHÜSEYN CAMALOVUN ÇIXIŞI

Möhtərəm prezident!

Hörmətli müşavirə iştirakçıları!

«Azəriqaz» Səhmdar Cəmiyyəti əsasən qazın alınması, saxlanması və əhaliyə paylanması ilə məşğuldur. Hazırda səhmdar cəmiyyətinin balansında 38 min kilometr uzunluğunda aşağı və orta təzyiqli, 4 min kilometrədək yüksək təz[431-432]yiqli qaz kəmərləri vardır. Bunların vasitəsilə biz ildə 25 milyard kubmetr qaz nəql edə bilərik.

«Azəriqaz» Səhmdar Cəmiyyətinin regionda yeganə sayılan Kalmaz və Qaradağ yeraltı qaz anbarları mövcuddur və bunlara 2,3 milyard kubmetr aktiv qaz vurmaq mümkündür. Həmin anbarlara 1996-cı ildə 490 milyon, 1997-ci ildə isə 512 milyon kubmetr qaz vurmuşuq ki, bu da qış aylarında çətin vəziyyətdən çıxmağa kömək edir.

Sədr vəzifəsini icra etdiyim üç ay müddətində səhmdar cəmiyyətində çox böyük problemlərə rast gəlmişik. Ən böyük problemlərimizdən biri odur ki, Xəzər dənizi səviyyəsinin qalxması ilə əlaqədar maye qaz zavodundan mayaka qədər məsafədə 5,3 kilometr uzunluğunda dörd kəmərimiz suyun altında qalmışdır. İndi birini öz qüvvəmiz hesabına dəyişirik, bənd vasitəsilə quruya çıxarmışıq. Üç kəmər isə indi də suyun altındadır.

Mikrorayonları qazla təmin etmək üçün Biləcəridə sıradan çıxmış kəməri oktyabrda işə salmışıq, Binəqədi rayonunu dairəvi kəmərlə təmin etmişik.

Ən böyük çətinlik əmək haqqı məsələsi idi. Qaz alan rayonlarda fevral ayından bəri 6,6 milyard manat əmək haqqı borcu var idi. Qaz verilməyən rayonlar isə, demək olar, 1995-1997-ci illərdə əmək haqqı almamışdı. Biz üç ay ərzində 4,5 milyard manat əmək haqqının verilməsini təmin etmişik. Oktyabradək əmək haqqının 80 faizi verilmişdir. İşçilərin qalan 20 faizinin əmək haqqı isə avqustadək ödənilmişdir. Bu ayın axırınadək 800 milyon manat da ödəniləcəkdir. Bundan sonra 1 milyard manat əmək haqqı borcumuz qalır, onu da tərtib olunmuş cədvəl əsasında yanvarda ödəyəcəyik. Beləliklə, əmək haqqı problemi həll olunacaqdır.

Digər problem Qaradağdan alınan qazın «Şimal» DRES-inə və Bakıya verilməsidir. Bu da, bayaq dediyim kimi, su altında qalan üç kəmərin tamamilə pis vəziyyətdə olması ilə [432-433] əlaqədardır. İndi TASİS proqramı üzrə iş gedir, Qaradağdan Sumqayıta və «Şimal» DRES-inə xətlərin layihələri hazırlanacaqdır. Həmin proqram üzrə əvəzsiz olaraq 1,7 milyon dollar vəsait ayrılmışdır.

Qazın balansı haqqında da danışmaq istərdim. Natiq müəllim 6 milyard kubmetr dedi, bizim planımız 5 milyard 385 milyon kubmetrdir. Bu il 4 milyard 916 milyon kubmetr qaz qəbul ediləcəyi gözlənilir. Onun 28,7 faizini energetiklərə, 34,5 faizini əhaliyə, 17,4 faizini kommunal sahələrə veririk.

**H e y d ə r  Ə l i y e v:** Kimə?

**Ə l i h ü s e y n  C a m a l o v:** Kommunal təsərrüfatına, mehmanxanalar, məktəblər, MİS-lər, hamamlar və s.

**H e y d ə r  Ə l i y e v:** 17 faizi onlara gedir?

**Ə l i h ü s e y n  C a m a l o v:** Bəli. Möhtərəm prezident, aldığımız qazın balansı haqqında məndə rəqəmlər var. Biz gündə 13 milyon kubmetr qaz alırıq. Onun 4 milyonunu energetiklərə veririk. Bakını tam təmin etmək üçün bizə gündə 12,5 milyon kubmetr qaz lazımdır, amma 8,7 milyon kubmetr veririk. Ona görə də şəhərin mərkəzini təmin edirik, ətraf rayonları isə təmin edə bilmirik.

Sumqayıta 597 min, Abşerona 570 min, Əli-Bayramlıya 200 min kubmetr qaz veririk. Salyan, Neftçala, Hacıqabul aşağı təzyiqli qaz kəmərlərindən istifadə edir. Bir də deyirəm, Bakını tam təmin etmək üçün gündə 13 milyon kubmetrə yaxın qaz lazımdır. 1997-ci ildə 5 milyard 350 milyon kubmetr planlaşdırılmışdı, 1998-ci il üçün 5 milyard 250 milyon kubmetr nəzərdə tutulur. 1997-ci ildə isə faktiki 4 milyard 416 milyon kubmetr olmuşdur.

**H e y d ə r  Ə l i y e v:** Yaxşı, bunlar rəqəmlərdir. Həqiqi təchizat nədən ibarətdir, nə cürdür? Məsələn, Natiq Əliyev dedi ki, nə qədər itki var. Sizin şəhər şəbəkələrinizdə nə qədər itkiniz var? [433-434]

**Ə l i h ü s e y n  C a m a l o v:** Bizdə itki 82 milyon kubmetrdir, yəni 8,2 faiz müqabilində 10,3 faizdir. Bunun qarşısını almaq üçün tədbirlər planı hazırlamışıq. Möhtərəm prezident, Bakı şəhərində 1958-1960-cı illərdə çəkilmiş qaz kəmərləri var və onlar, demək olar, lap pis vəziyyətdədir. Belə xətlərin dəyişdirilməsi nəzərdə tutulubdur. 39 min 300 ədəd qaz sayğacı almışıq, bunlar Nəsimi, Binəqədi, Əzizbəyov rayonlarında qoyulmuşdur. Bu, 39,5-39,7 min kubmetr qaza qənaət etmək deməkdir ki, bunun da dəyəri 70 milyon manatdır.

Onu da demək istəyirəm ki, gündə aldığımız 13 milyon kubmetr qazın 40 faizə qədəri aşağı təzyiqlə gəlir. Əgər qazın hamısını 21-25 atmosfer təzyiqlə alsaydıq, onu istədiyimiz yerə çatdıra bilərdik. Qaraçuxurdan gündə 4,2 milyon kubmetr qaz alırıq və onu ancaq ətrafa paylayırıq, Böyükşora, şəhərin mərkəzinə çatdıra bilmirik. Yüksək təzyiqlə əsasən «Pennzoyl» xəttindən (gündə 4,6 milyon və ya ildə 1

milyard 435 milyon kubmetr) və Səngəçaldan (gündə 2 milyon kubmetr) qaz alırıq. Yəni gündə yüksək təzyiqlə 6,6 milyon kubmetr qaz veririk. Qalanı isə aşağı təzyiqlə gəlir və ancaq ətraf rayonları, kəndləri təmin edə bilər.

Müslüm müəllim «Şimal» DRES-in və Sumqayıt istilik-elektrik mərkəzinin yenidən qurulması məsələsini qaldırır. Bu, indi mümkün deyildir. Biz oraya birinci mərhələdə gündə 2,5 milyon kubmetr, ikinci mərhələdə 5 milyon kubmetr qaz verməliyik. Ancaq mövcud qaz kəmərlərinin bugünkü gücü ilə maksimum 1 milyon kubmetr verə bilərik. Stansiyalar yenidən qurulacaq, amma qaz kəmərləri kənarda qalacaqdır.

**A r t u r R a s i z a d ə:** O da nəzərdə tutulub, aydın məsələdir.

**H e y d ə r Ə l i y e v:** Bəs qazın həcmi?

**A r t u r R a s i z a d ə:** Həmin qaz ki, oraya verilir, o veriləcəkdir. [434-435]

**H e y d ə r Ə l i y e v:** O çatacaqdır?

**A r t u r R a s i z a d ə:** Bəli. Biz gələcəyi nəzərdə tuturuq.

**H e y d ə r Ə l i y e v:** Gələcəyi var, biz ən çox qazı «Şahdəniz» yatağından alacağıq. Amma onu hələ neçə il gözləməliyik.

**A r t u r R a s i z a d ə:** Camalovun dediyi kimi, gündə 13 milyon kubmetr qaz alırıq. Gürcüstan 4,5 milyon kubmetr alır.

**H e y d ə r Ə l i y e v:** Gürcüstanın qazı yoxdur axı! Gürcüstan kənardan alır.

**A r t u r R a s i z a d ə:** Qazımız çatmır, ona görə də «Şahdəniz» bizə çox lazımdır.

**H e y d ə r Ə l i y e v:** «Şahdəniz» aydındır. Bəs bizim qazımız olduğu halda o qədər qazdan nə üçün 13 milyon kubmetr gəlir, başa düşə bilmirəm.

**Ə l i h ü s e y n C a m a l o v:** Möhtərəm prezident, bizdə birinci rübdə 12 milyon 250 min kubmetr olub, sonra 13 milyona qalxıb, üçüncü rübdə 14 milyon kubmetrdir. Ancaq dördüncü rübdə15 milyon 250 min kubmetr əvəzinə 13 milyon kubmetr alırıq.

**H e y d ə r Ə l i y e v:** Danış görək, problemlər daha nədən ibarətdir?

**Ə l i h ü s e y n C a m a l o v:** Bu vəziyyətdən çıxmaq üçün ən böyük imkanımız yeraltı qaz anbarlarımızdır. Onları ilkin vəziyyətə gətirmək, modernizə etmək lazımdır. Kalmaz yeraltı qaz anbarı 1974-cü ildə, Qaradağ anbarı 1986-cı ildə tikilibdir. Bu illər ərzində onlar, demək olar, layihə gücünü itiriblər. Bununla əlaqədar TASİS proqramı üzrə əvəzsiz olaraq 1,7 milyon dollar vəsait ayrılıb. «Sofreqaz» şirkəti bu anbarların bütün layihələrinin hazırlanmasını öz üzərinə götürübdür və 1998-ci ilin may-iyununda bizə təhvil verəcəkdir. Bundan sonra biz Kalmaz anbarına 1,3 milyard kubmetr, Qaradağ anbarına 1 milyard kubmetr qaz vura [435-436] bilərik. Gərək 2,3 milyard kubmetr qazımız olsun ki, onlara vurub lazım olanda istifadə edək.

Bakı şəhərini qaz və istiliklə təmin etməklə əlaqədar dekabrın 17-də Abid müəllimin yanında müşavirə keçirildi. Orada plan-qrafik tutmuşuq ki, Bakı şəhərində bütün rayon istilik qazanxanalarını təmin etmək üçün 1998-ci ildə kifayət qədər qaz verilsin. 1997-ci ildə 4 milyon əvəzinə 6,28 milyon kubmetr qaz vermişik.

**H e y d ə r Ə l i y e v:** Sən indi orada əvəzedicisən, şübhəsiz ki, səndən çox şey tələb etmək mümkün deyil. Ancaq eyni zamanda mən hesab edirəm ki,sizin qaz təchizatı idarəsi əvvəllər də yarıtmaz işləyib, indi də yarıtmaz işləyir. Ola bilər bizim öz günahımızdır ki, bu sahəni indiyə qədər lazımi səviyyəyə qaldıra bilməmişik. Mən bu gün bu müzakirədə yenə də belə qənaətə gəlirəm ki, bizim istehsal etdiyimiz qazdan səmərəli istifadə olunması məsələsi çox aşağı səviyyədədir. Ona görə siz gərək indi bütün mövcud imkanlardan istifadə edəsiniz, qazın itkisinə yol verməyəsiniz, daxil olan qazın hamısını təchizata lazım olan yerlərə itkisiz göndərəsiniz.

Ancaq biz bununla bu problemi həll edə bilməyəcəyik. Mən hesab edirəm ki, bu məsələ Nazirlər Kabinetində çox dərindən, ətraflı təhlil olunmalıdır. Burada çıxış edənlər danışdıqca o qədər suallar qalxır, o qədər təəccüb doğuran rəqəmlər gətirilir ki, bunu heç təsəvvür etmək mümkün deyildir. Ona görə bu məsələ gərək Nazirlər Kabinetində xüsusi təhlil edilsin, xüsusi müzakirə olunsun və 1998-ci il üçün konkret tədbirlər görülsün. Biz bundan sonra bu səviyyədə, bu şəkildə iş görülməsinə qətiyyən yol verməməliyik.

Sən də bütün bu danışıqlardan nəticə çıxarmalısan.

Görünür ki, qazın da, elektrik enerjisinin də əksər hissəsi Bakıya gəlir. Ümumiyyətlə Azərbaycanda əhalinin böyük bir [436-437] hissəsi Bakıda yaşayır. Ona görə də icra hakimiyyətinin başçısı Rəfael Allahverdiyev məlumat versin ki, bu məsələlər Bakıda nə vəziyyətdədir.

## BAKI ŞƏHƏR İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI RƏFAEL ALLAHVERDİYEVİN ÇIXIŞI

Möhtərəm prezident!
Hörmətli müşavirə iştirakçıları!

Bakı şəhər elektrik şəbəkələri və şəbəkə müəssisələri istehsalat birliyi iri energetika müəssisələrindən biridir və uzunluğu 2500 kilometr olan yeraltı kabelə, 3000 kilometr hava xəttinə və 3000-dən çox transformatora qulluq edir. Ən kobud hesablamalara görə, həmin avadanlığın hər il 5 faizi dəyişdirilməli, qalanı isə yoxlanıb cari təmir olunmalıdır. Bu o deməkdir ki,hər il 150 transformator, 125 kilometr yeraltı kabel və 150 kilometr hava xətti təzəsi ilə əvəz edilməlidir. Dövlət tərəfindən ayırmalar olmasa, bu qədər avadanlığın dəyişdirilməsi şəhər büdcəsi hesabına heç cür mümkün deyildir.

Son illər qış aylarında qazın və istilik enerjisinin qıtlığı əhalini mənzilləri qızdırmaq üçün elektrik enerjisindən istifadəyə məcbur edir. Təkcə buna görə şəbəkənin yükü bu illərdə 2-3 dəfə artmışdır. Bu da xətlərin və avadanlığın kütləvi surətdə sıradan çıxmasına səbəb olmuşdur. Yükün belə sürətlə artımı və avadanlığın köhnə olması şəbəkədə itkilərin 4-5 dəfə çoxalmasına gətirib çıxarıb və 1996/97-ci ilin payız-qış mövsümündə birliyə, özündən asılı olmayan səbəblərə görə, təxminən 35 milyard manat zərər dəymişdir.

Açığını demək istəyirəm ki, bir çox rəhbər işçilər paytaxtın problemlərinə laqeyd münasibət bəsləyirlər. Şəhərə verilən təbii qazın həcmi ilbəil azalır, burada rəqəmlər dedilər. [437-438] Möhtərəm prezident, Sizin yaxşı yadınızdadır ki, 1980-ci illərdə qış mövsümündə Bakıya gündə 13 milyon kubmetr qaz verirdilər. İndi isə, - o rəqəmləri İmanov da, «Azəriqaz»ın nümayəndəsi də dedi, -cəmi 8,6 milyona düşübdür. Qazın bu qədər az verilməsi, «Azərenerji»nin rayon istilik qazanxanalarının ildən-ilə yarıtmaz işi və ümumiyyətlə şəhərin istilik sisteminin bərbad vəziyyətdə olması əhalini, müəssisə və təşkilatları daha çox elektrik enerjisindən istifadəyə məcbur edir və bunun da acı nəticələri artıq bu gün reallıqdır.

Hörmətli prezident, mən rayon istilik qazanxanaları barədə demək istəyirəm. Vaxtilə hər məhəllənin öz qazanxanası var idi və onu işlədirdi. Təxminən 80-ci illərin axırlarında belə bir məsələ qoyuldu ki, onların hamısı ləğv edilib 8 rayon istilik idarəsi yaradılsın. Deməli, böyük bir rayonu - «Günəşli» ilə 8-ci Kilometr yaşayış sahəsi arasındakı ərazini gərək bir qazanxana təmin edəydi. O vaxt Leninqrad prinsipini götürdülər. Leninqradda ərazi düzəndir, ona görə də qazanxanadan çıxan istilik axırıncı mənzilə çatanadək 80-90 dərəcə temperaturu saxlayır. Amma Bakının ərazisini özünüz yaxşı bilirsiniz, əgər qazanxanadan 80 dərəcə temperaturda istilik veririksə, dağlıq yerlərdə mənzilə, demək olar, 30-40 dərəcə istilik çatır. Yarıtmaz iş deyəndə, mən əsas bu məsələni nəzərdə tuturdum.

Şəhərin istilik təchizatı sisteminin kompleks şəkildə yenidən qurulması və genişləndirilməsi proqramının dövlət səviyyəsində həyata keçirilməsi ən vacib məsələlərdən biridir. Burada İmanov dedi, mən onunla tamamilə razıyam ki, əgər bunu dövlət səviyyəsində etməsək, heç bir nailiyyət qazana bilməyəcəyik. Hörmətli prezident, mən bu gün Bakının bütün sakinləri, şəhərdə məskunlaşmış minlərlə qaçqın və didərgin adından Sizə minnətdaram ki, bu işi öz nəzarətiniz altına götürmüsünüz. [438-439]

Bakı elektrik şəbəkəsindəki acınacaqlı vəziyyəti qismən də olsa aradan qaldırmaq üçün 1997-ci il ərzində Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən Nazirlər Kabinetinə üç dəfə, əvvəlki illərdə isə Maliyyə Nazirliyinə, Milli Məclisə və digər dövlət orqanlarına dəfələrlə müraciət olunmuş, lakin bizim məktublarımıza heç bir əməli cavab verilməmişdir. «Azərenerji» Səhmdar Cəmiyyəti Nazirlər Kabinetinin qərarlarına istinadən, şəhərin ehtiyacları üçün buraxılan elektrik enerjisinin tariflərini bir neçə dəfə dəyişərək elə həddə qaldırmışdır ki, birlik zərərlə işləyən müəssisəyə çevrilmişdir. Bunun nəticəsində 1997-ci ilin qış aylarında birliyə 26,8 milyard manat zərər dəymişdir.

Təkcə onu deyim ki, əhaliyə satılan elektrik enerjisinin tarifi son bir ildə 4 dəfə dəyişərək 1 kilovat - saatın qiyməti 48 manatdan 96 manata çatdırılmışdır. Möhtərəm prezident, mən başa düşürəm, - bu, o biri respublikalara nisbətən azdır. Amma nəzərə almaq lazımdır ki, Bakıda 100 mindən artıq qaçqın məskunlaşıbdır. Enerjini onlara o qiymətlə satmaq mümkün deyildir və hamısını Bakı Şəhər İcra Hakimiyyətinin hesabına ödəyirik.

Bakı Şəhər İcra Hakimiyyəti öz gücü, müəssisə və təşkilatların köməyi ilə Sabunçu, Əzizbəyov, Xətai və Nizami rayonlarında 6 yardımçı stansiya tikib istifadəyə vermiş və 300 kilometrə yaxın elektrikötürmə xətti çəkmişdir. Bu işlərin ümumi dəyəri 8 milyard manatdır. Lakin görülən tədbirlər problemin həlli demək deyildir.

Cənab İmanov burada Səbail rayonu haqqında söhbət açaraq dedi ki, orada yer ayırmamışdıq. Cənab prezident, biz Xaqani küçəsində yer ayırdıq, amma sonra gördük ki, onların istədikləri stansiyanı şəhərin mərkəzində tikmək mümkün deyildir. O, açıq tipli stansiya olmalı idi və şəhərin arxitekturasına tamamilə zidd olacaqdı. Ona görə də biz belə qərara gəldik, Müslüm İmanov ilə bir yerdə getdik, yer [439-440] tapdıq. Qaqarin körpüsünün yanında - profilaktoriyaları köçürdüyümüz yerdə indi həmin açıq tipli stansiyanı tikirik.

Yuxarıda qeyd etdiyim kimi, elektrik enerjisinin topdansatış qiyməti heç bir əsas olmadan o qədər qaldırılmışdır ki, hətta istehlakçıların da sərf etdikləri enerjinin haqqını ödəmək qabiliyyəti ildən-ilə azalıbdır. Hazırda idarələrin, müəssisələrin və əhalinin Bakı energetiklərinə 340 milyard manatdan çox debitor borcu vardır. O cümlədən büdcədən maliyyələşdirilən təşkilatların borcu 110 milyard manatdır. Bunlar müdafiə, daxili işlər, səhiyyə nazirlikləri və digər nazirliklərdir. Dövlət sektoru - sənaye, tikinti, nəqliyyat və s. bizə 140 milyard manat borcludur. Əhalinin isə ümumi borcu cəmi 25 milyard manatdır.

Bu cür çətinliklərin yaranmasının səbəbi şəhər elektrik şəbəkəsinin real vəziyyətinin və onun ən zəruri ehtiyaclarının nəzərə alınmasıdır. Əlbəttə, demək olmaz ki, Bakı Şəhər Elektrik Şəbəkələri İstehsalat Birliyində mənfi hallar yoxdur. Aparılan araşdırmalar göstərir ki, yaranmış acınacaqlı vəziyyət həm də birliyin qeyri-qənaətbəxş fəaliyyəti ilə bağlıdır. Şəhər və rayon əhəmiyyətli yardımçı stansiyaların işinə ciddi nəzarət təşkil olunmamış, elektrik xətlərinə, yüksək gərginlikli kabellərə qanunsuz qoşulmaların qarşısı alınmamışdır. Şəbəkəyə nəzarət və xidmət edən heyrət tərəfindən qanunsuz hərəkətlərə yol verilmişdir. Nəzarətin və tələbkarlığın zəifliyi nəticəsində, hətta nağd pulla işləyən «Azərbaycan» mehmanxanası, Mərkəzi Univermaq və sairə təşkilatlar enerjinin haqqını vaxtında ödəmirlər.

Sizə bircə faktı deyim ki, «Azərbaycan» mehmanxanasının 1997-ci ildə 1 milyard manatdan artıq borcu var. Biz baş nazirin tapşırığı ilə hər dəfə onların işığını kəsirik ki, pulu versinlər. İnanın, Prezident Aparatından Nazirlər Kabinetinədək onlarca zəng olub ki, onların işığını açın. [440-441]

**Heydər Əliyev:** Əgər baş nazir göstəriş verirsə, siz də kəsirsinizsə, onu kim dəyişdirə bilər?

**Rəfael Allahverdiyev:** Doğrudur, baş nazir zəng vurmur.

**Heydər Əliyev:** Bəs kim?

**Rəfael Allahverdiyev:** Müavinlərdən başlayaraq Prezident Aparatınadək...

**Heydər Əliyev:** Kim, de görüm, kim? Kimdir o?

**Rəfael Allahverdiyev:** Abid Şərifov da zəng vurur, Prezident Aparatından da zəng vururlar ki, orada qonaqlarımız var.

**Heydər Əliyev:** Prezident Aparatından kimdir?

**Rəfael Allahverdiyev:** Bir neçə dəfə Fatma Abdullazadə. Mehmanxanada yerləşən səfirliklərin xahişi ilə Ramiz Mehdiyev də zəng vurubdur.

**Heydər Əliyev:** Fatma Abdullazadənin bununla nə işi var?

**Rəfael Allahverdiyev:** Çünki qonaqlar gəlir, orada qalırlar.

**Heydər Əliyev:** Nə olsun qonaqlar var?

**Rəfael Allahverdiyev:** Səfirlər Prezident Aparatına - Ramiz Mehdiyevə müraciət edirlər ki, biz pulumuzu veririk.

**Heydər Əliyev:** Ramiz Mehdiyev də, başqaları da çağırsınlar o otelin direktorunu, desinlər ki, apar bir milyard ver. Onlar orada nə qədər pul qazanırlar, siz bunu görmürsünüz? Orada kazino düzəldiblər. Şərifov da başda olmaqla zəng eləyənlər onu görmürlər? Necə ola bilər ki, otel işıq pulu verməsin? Kasıb bir adam, yaxud yataqxanada yaşayanlar elektrik pulu vermirlər, - bunu müəyyən qədər anlamaq olar.

Kim belə işlərlə məşğul olursa, - mən burada oturanların hamısına xəbərdarlıq edirəm, - əl çəksinlər bu işlərdən. [441-442] Bilirsiniz, dövlətin siyasətini həyata keçirmək lazımdır, ayrı-ayrı adamların maddi maraqlarını yox. Havadarlar tapılıbdır, hərə kiməsə havadarlıq edir. Başa düşürəm, çünki çoxlarınız gedib «Azərbaycan» otelinin restoranında toylarda, nə bilim, yubileylərdə iştirak edirsiniz. Yəqin ona görə, yubileylərin yaxşı keçməsi üçün havadarlıq edirsiniz.

Bilirsən nə var, sən şəhərin icra hakimiyyəti başçısısan, şəhərə sən cavabdehsən. Şəhərin işlərinə qarışmağa heç kəsin ixtiyarı yoxdur. Sənin işlərinə prezident qarışa bilər, baş nazir qarışa bilər. Başqa heç kəsin ixtiyarı yoxdur qarışsın. Mən də səndən tələb edirəm ki, işi apar. Yoxsa izahat verəcəksən ki, Şərifov zəng elədi, filankəs, filankəs zəng elədi. Bu nə cür ola bilər, - bir milyard borcu var, vermir? Üç gün vaxt verirəm. Üç günə qədər o bir milyardı verməsə, onun işıqlarını kəsmək lazımdır. Üç gündən sonra mənə məruzə edərsən. Orada kim olur-olsun, hamısını çıxarıb eşiyə atmaq lazımdır.

**Rəfael Allahverdiyev:** Cənab prezident, şəhərdə təxirəsalınmaz işlər çox görülür. Amma yenə də deyirəm, maliyyə qıtlığı üzündən bizim niyyətimiz hələlik kağız üzərində qalır. Möhtərəm prezident, bir faktı xüsusilə diqqətinizə çatdırmaq istəyirəm ki, 1997-ci ilin büdcə rəqəmlərində icra hakimiyyəti orqanları, təhsil, səhiyyə, sosial təminat, bədən tərbiyəsi, mənzil-kommunal sahələri üzrə elektrik enerjisi üçün nəzərdə tutulmuş vəsaitin məbləği 14,2 milyard manat olmuşdur. Ancaq oktyabrın 1-nə olan məlumata görə bu sahələr üzrə elektrik enerjisi üçün yaranmış borc 76,2 milyard manat olubdur. Ayrılmış 14,2 milyard manatın da bu vaxtacan bizə cəmi 3,6 milyard manatı verilibdir. Bu o deməkdir ki, bizim səhiyyə idarələri, xəstəxanalar, məktəblər hamısı borcludur. Çox xahiş edərdim, Siz burada tapşırıq verəsiniz ki, Maliyyə Nazirliyi ilə birlikdə Nazirlər Kabinetində oturaq, bu məsələləri qarşılıqlı hesablaşmalar vasitəsilə həll edək. [442-443]

Cənab prezident, qar yağması, soyuqların düşməsi ilə əlaqədar doğrudan da çox çətin vəziyyət yaranmışdı. Mən bayaq yerimdən dedim ki, bizim kəndlərdə bir aydan artıqdır, demək olar, qaz yoxdur. İşıq da sönürdü. Kəndlərdə vəziyyət çox çətin idi. Mən Əzizbəyov rayonunun kəndlərinə gedib camaatla söhbət etdim. Dedim ki, yaxşı, dədə-babadan sizin evlərinizdə sobalarınız olub, yandırmısınız, vəziyyətdən birtəhər çıxmaq lazımdır. Bilirsiniz, danışmaq çox çətin olurdu. Bunu burada birinci dəfədir deyirəm: deyəndə də, inanın, prezidentin həyata yenicə gələn nəvəsi iki gündür qaranlıqdadır, prezident o haqda bir dəfə də mənə zəng vurmayıbdır, amma gündə zəng vurub soruşurdu ki, «Günəşli»də, mikrorayonlarda, 8-

ci Kilometrdə niyə işıq yoxdur. Bunları deyəndən sonra, inandırım Sizi, camaat deyirdi ki, hər şeyə dözərik. Əgər prezident bu işlə məşğuldursa, deməli, biz qazla da, işıqla da təmin ediləcəyik.

Mən bu faktı deyərkən bir daha sübut gətirmək istəyirəm ki, heç doğma nəvənizə baba kimi Sizin münasibətiniz adi vətəndaşlarımıza münasibətiniz kimi deyildir. Bunu hamı görür və Sizi inandırıram ki, hər bir çağırışınızla hər şeyə dözərlər. Biz hər şeyə dözürük, camaat da dözür. Qaçqınların arasında oluruq, inanın, Sizin hər bir kəlməniz onlara çatanda bütün çətinlikləri unudurlar. Amma biz vicdan əzabı çəkməliyik ki, Siz gecə-gündüz bu işlərlə məşğul olursunuz. Bu gün dörd saatdan artıqdır ki, bu işləri müzakirə edib vaxtınızı itiririk, özümüzün vəzifə borcumuzu yerinə yetirmirik.

Cənab prezident, bütün bu çətinliklərdən çıxmaqdan ötrü imkanımız var. Mənim təkliflərim var, bizə kömək edəsiniz ki, zədələnmiş, sıradan çıxmış elektrik şəbəkələrinin və xüsusi avadanlığın təcili surətdə bərpası məqsədi ilə Bakı Şəhər İcra Hakimiyyətinə 10 milyard manat pul ayrılsın. Mən demirəm ki, bunu birdəfəlik verəsiniz. Bir neçə dəfə məsələ [443-444] qaldırmışam ki, adi müəssisələr, kommersiya təşkilatları kredit ala bilir, Bakı Şəhər İcra Hakimiyyəti ala bilmir.

**H e y d ə r Ə l i y e v** (Artur Rasizadəyə): Bu məsələni dəfələrlə qaldırır, sən buna baxıb mənə məruzə et - nə istəyir, nədən ötrü, hansı şərtlərlə.

**R ə f a e l A l l a h v e r d i y e v:** Xahiş edirəm mənzil tikintisinə də pul ayırasınız. Sizin razılığınızla bizim Beynəlxalq Bankdan 3,5 milyon dollar kredit götürdük. Avtobuslar alıb gətiririk. Şəhər nəqliyyatında vəziyyət çox pis idi. Sizi inandırım ki, əgər keçən il Sizin razılığınızla kommersiya avtobuslarını şəhərə buraxmasaydıq, şəhərdə sərnişin nəqliyyatı dayanmış olardı. Yaxşı da işləyirlər, beş yüz manata aparırlar, camaat asudə istifadə edir. Sizin verdiyiniz 3,5 milyon dolları iki ay idi ala bilmirdik. Bu yaxınlarda bizə akkreditiv açdılar, nümayəndələrimiz Hollandiyadadır, o avtobusları gətirəcəklər.

**H e y d ə r Ə l i y e v:** Niyə ala bilmirdiniz?

**R ə f a e l A l l a h v e r d i y e v:** Çoxlu maneçilik törədənlər var idi.

**H e y d ə r Ə l i y e v:** Niyə? Axı niyə, de görüm niyə? Mən bilməliyəm, biz bu qərarı qəbul eləyəndən sonra buna kim mane ola bilir?

**R ə f a e l A l l a h v e r d i y e v:** Cənab prezident, Vahid Axundovun məktubu əsasında Siz yazdınız ki, yerli bankların ehtiyatları hesabına bizə bu kredit ayrılsın. Açığını deyirəm, əgər biz o krediti Nazirlər Kabinetinin, dövlətin təminatı ilə Hollandiyadan götürsəydik, 7 faizlə veriləcəkdi və 5 il müddətində qaytarmalı idik. Dedilər ki, yox, yerli ehtiyatlardan istifadə edək. Razılaşdıq. O krediti bizə 14 faizlə verirlər, özü də 2 il müddətinə. Onu da iki ay gecikdirdilər.

**H e y d ə r Ə l i y e v:** De görüm kim gecikdirdi?

**V a h i d A x u n d o v:** Gərək komissiya təşkil olunaydı.

**H e y d ə r Ə l i y e v:** Nə komissiya, kredit vermək üçün? [444-445]

**V a h i d A x u n d o v:** Kreditdən istifadə, gedib avtobusları qəbul edib gətirmək üçün. Həhayət, komissiya təşkil olundu.

**H e y d ə r Ə l i y e v:** Bəs niyə buna iki ay vaxt lazım idi?

**V a h i d A x u n d o v:** Açığını deyim, bu işə heç qarışmırdım.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, sən qarışmadın, onda kim bunu gecikdirib? Utanmayın, danışın görək, mən bilməliyəm axı. Sən özün neçə dəfə mənim yanıma gəldin ki, bu məsələni həll etmək lazımdır, yadındadır? Mən də buna razılıq verdim. Mən razılıq verəndən sonra bu məsələ niyə iki ay geciksin? Nə üçün? Bu kreditin sahibi mənəm, buna razılıq verdim. Ondan sonra kim buna mane olur? De görüm, kim mane olur?

**R ə f a e l A l l a h v e r d i y e v:** Vahid Axundovun məktubunda deyilirdi ki, şəhər icra hakimiyyəti komissiya yaratmalıdır ki, avtobusları alıb burada istifadə etmək məsələsində nəzarət olsun. Belə bir komissiya yaradıldı.

**H e y d ə r Ə l i y e v:** Bəs nə oldu?

**R ə f a e l A l l a h v e r d i y e v:** Sonra dedilər ki, yox, hökumət tərəfindən - Nazirlər Kabinetindən bir adam olmalıdır. Biz Maliyyə Nazirliyindən razılıq alıb bir nəfəri də əlavə etdik. Sonra dedilər ki, «Azəravtonəqliyyat» Konserni var, oradan da bir adam olmalıdır. Mən dedim axı niyə? Bunu Bakı Şəhər İcra Hakimiyyətinə verirlərsə, komissiya, mütəxəssislər işləyir, şəhərlərarası beynəlxalq sərnişin daşımalar parkının baş mühəndisi nə üçün bizim komissiyada işləməlidir? Mən Maliyyə Nazirliyindən, Nazirlər Kabinetindən adamların olduğu hər bir komissiyaya razıyam. Amma paralel struktur olan nəqliyyatdan gəlib komissiyada işləmək, açığını deyirəm, çox çətin olur.

**H e y d ə r Ə l i y e v:** Demək, bundan ötrü gecikibdir?

**R ə f a e l A l l a h v e r d i y e v:** Bəli, ancaq bundan ötrü.

**H e y d ə r Ə l i y e v:** Bəs nə təhər oldu? [445-446]

**R ə f a e l A l l a h v e r d i y e v:** Mən iki dəfə sərəncam verdim. Açığını deyirəm, «Azəravtonəqliyyat»dan verilən nümayəndəyə razı deyildim. Axırda məcbur elədilər, komissiyaya onu da saldım.

**H e y d ə r Ə l i y e v:** Ondan ötrü iki ay gecikdi?

**R ə f a e l A l l a h v e r d i y e v:** Bəli.

**H e y d ə r Ə l i y e v:** Mən indi burada aydınlaşdıra bilmərəm ki, kim doğru hərəkət eləyib, kim eləməyibdir. Ona görə də qəti bir söz demək istəmirəm. Ancaq hesab edirəm ki, bu, yaramaz bir şeydir.

**R ə f a e l A l l a h v e r d i y e v:** Cənab prezident, dərdlərimiz çoxdur. Mən şikayət eləmək istəmirəm. Şəhərin öz imkanları da var. Mən məlumat verdim ki, biz öz gücümüzlə 6 yardımçı stansiya tikib istifadəyə vermişik. Özü də rayon icra hakimiyyətlərinin, müəssisələrin hesabına. Biz vəziyyətdən çıxa bilərik. Bizə maddi cəhətdən bir az kömək lazımdır, yenə deyirəm, büdcə hesabına yox. Kredit verin, iki ilə qaytararıq.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, sən onu dedin,mən Rasizadəyə tapşırdım. Sən burada ədalətli olaraq başqalarını tənqid elədin, günahlandırdın. Amma sizin özünüzün günahınız nədən ibarətdir? Bakı İcra Hakimiyyəti böyük bir təşkilatdır. Bakıda 11 rayon, hər bir rayonda icra hakimiyyəti var, onlar bizim yerli orqanlarımızdır. Bir belə orqanlar, hökumətin, dövlətin bir belə orqanları olan halda bu məsələləri niyə həll eləmək mümkün olmur? Çətinliklər məlumdur, bunları həmişə demək olar. 15 il bundan qabaq, Azərbaycanın lap yaxşı vaxtında da Bakıda bu problemləri mənə deyiblər. Birinci dəfə deyil mən bunları eşidirəm. İndi bəlkə bunlar o vaxta nisbətən daha da çoxalıb, daha da artıbdır. Ancaq Bakıda bir tərəfdən elektrik enerjisi çatmır, - bu aydındır. Amma verilən enerjidən də səmərəli istifadə olunmur. Düzdür, vaxt olmur, çox az olur ki, axşam vaxtları [446-447] mən şəhərə çıxım. Bir də görürəm ki, ayrı-ayrı budkalarda çox böyük elektrik lampaları yanır. Sizin rayon icra hakimiyyəti başçısı axşam rayonun ərazisinə baxa bilər ki, görsün, elektrik lampası harada yanmalıdır, harada yanmamalıdır. Yəqin sən bunları görürsən. Niyə bunlara yol verirsən?

İkincisi, «Azərenerji» Şirkəti Səhmdar Cəmiyyəti olubdur. Mən bu gün dedim, bazar iqtisadiyyatına keçmişik. Kim elektrik enerjisindən, qazdan istifadə edirsə, onun pulunu verməlidir. Sizdə enerjinin, qazın istifadəsi üçün pul yığılmır. Nə yığılır, neçə faiz yığırsınız?

**R ə f a e l A l l a h v e r d i y e v:** 35 faiz.

**H e y d ə r Ə l i y e v:** Bəs qalanını haradan qoyacaqsınız?

**R ə f a e l A l l a h v e r d i y e v:** Mən sizə dedim, büdcə təşkilatlarının heç biri vermir. Zavodların heç biri vermir. İşıqlarını da kəsmişik. Səhiyyə Nazirliyi, Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi - onların təxminən 110 milyard manat borcu var. Onlardan da pul gəlmir. Qarşılıqlı hesablaşma aparıb o pulları bizə vermək lazımdır.

**H e y d ə r Ə l i y e v:** Bəs niyə vermirlər?

**R ə f a e l A l l a h v e r d i y e v:** Yenə də deyirəm, əhalidən cəmi 25 milyard manat yığılmalıdır və biz onu yığacağıq.

**H e y d ə r Ə l i y e v:** Bəs yığın da, niyə yığmırsınız?

**R ə f a e l A l l a h v e r d i y e v:** Dünən biz bu barədə iclas keçirdik. Həmin pulları qarşıdakı iki ay müddətində yığacağıq.

**H e y d ə r Ə l i y e v:** İmanov burada Zaqatala, Balakən, Masallı rayonlarını misal gətirdi ki, həmin rayonlarda icra hakimiyyəti başçıları gəlib bunlarla müqavilə bağlayıb, pulunu yığıb verirlər, elektrik enerjisini də alırlar. İndi keçmiş vaxt deyil, nə elektrik enerjisi, nə qaz, nə su daha pulsuz, müftə verilə bilməz. Bunu anlamaq lazımdır. [447-448]

Biz elektrik enerjisi, qaz, nəqliyyat üçün güzəştləri götürdük. Yadındadır, böyük bir mübahisə gedirdi ki, filan-filan təbəqələrdən bu güzəştləri götürmək olmaz. Onda biz bu güzəştləri niyə götürdük? Götürdük ki, bizdə iqtisadi səmərəlilik artsın. Əgər bu güzəştləri götürmüşüksə, siz güzəşti olandan da, olmayandan da pul almırsınızsa, onda bizim bu tədbirimizin nə əhəmiyyəti var?

Mən hesab edirəm ki, həm siz - Bakı İcra Hakimiyyətinin rəhbərliyi, həm də rayonlarda bu işlərlə qeyri-qənaətbəxş məşğul olursunuz. Belə şey yaramaz. Bakı şəhəri hər şeydə nümunə olmalıdır. Yenə də deyirəm, böyük-böyük rayonlar var, onların hər birində böyük-böyük təşkilatlar yerləşir. Rayon icra hakimiyyətləri nədən ötrüdür? Mən onların başçılarını buraya dəvət etmişəm, onlar bunu bilməlidirlər. Bu vəzifəni niyə, nədən ötrü daşıyırlar? Əgər elektrik, qaz, su təchizatı, nəqliyyat, kommunal xidmətini təmin edə bilmirlərsə, onlar orada nə iş görürlər? Sənaye planı yoxdur ki, deyək, onu yerinə yetirirlər, başqa plan da yoxdur. Onlar nə iş gorürlər?

Mən hesab edirəm ki, çətinlikləriniz, problemləriniz var. Bu problemlər təkcə Bakıda deyil, başqa yerlərdə də var. Ancaq Azərbaycanın hər yerində olduğu kimi, Bakı şəhərində də mövcud imkanlardan lazımi səviyyədə istifadə edilmir. Ona görə də siz bundan lazımi nəticə çıxarın.

**R ə f a e l A l l a h v e r d i y e v:** Cənab prezident, biz iradlarınızın hamısını qəbul edirik. Doğru deyirsiniz, nöqsanlar çoxdur. Mən Sizin vaxtınızı almaq istəmirəm. Bizim aramızda natəmiz adamlar da çoxdur. Gedib evlərdən pulu yığıb cibinə qoyan adamlar da var. Biz bunları bilirik və nəticə çıxarıb tədbirlər görürük.

Bir məsələni də qeyd etmək istəyirəm ki, Siz tamamilə doğru deyirsiniz. Amma bizim haqqımızda olmayan şeyləri bəzən televiziyada da, Milli Məclisdə də deyirlər. Siz [448-449] müəllimlərə güzəştlərin götürülməsindən danışdınız. Bu güzəştlər götürüləndən sonra məlum olub ki, müəllim ailələri elektrik sayğaclarını götürüb satıblar. Təxminən 22 min ailədə belə bir hal baş veribdir. İndi həmin sayğacları al-

mağa bizdə imkan yoxdur. Ona görə də biz kommunal təsərrüfatı idarələrini məcbur edirik ki, gedib enerji pulunu lampa hesabı ilə yığsınlar. Biz bu pulların hamısını yığacağıq.

Doğru buyurdunuz ki, kazinolar, restoranlar gecə-gündüz işləyirlər. İndi biz sərəncam hazırlayırıq ki, yanvarın 1-dən sonra kazinoların, restoranların iş vaxtını məhdudlaşdıraq, heç olmasa qış mövsümündə onların heç biri saat 7-8-dən sonra işləməsin. Yadınızdadırsa, 1994-cü ildə Sizin razılığınızla biz belə bir tədbir görmüşük. Biz bunu edəcəyik.

Möhtərəm prezident, biz Sizin bütün iradlarınızı qəbul edirik. Mən Bakı şəhəri rayonlarının icra hakimiyyəti başçıları adından deyirəm ki, biz yaxın vaxtlarda vəziyyəti düzəldəcəyik.

**H e y d ə r  Ə l i y e v:** Düzəltmək lazımdır, belə işləmək olmaz.

İcra hakimiyyəti başçısı hər şeyə cavabdeh deyil. Bakı böyük şəhərdir, burada 11 rayon və iri təşkilatlar yerləşir. Həmin böyük təşkilatlardan biri də Azərbaycanda çox məşhur olan BAŞEŞ adlı təşkilatdır. Onun müdiri buradadırmı? Gəl bura görüm.

Çoxlu şikayətlər vardır. İndi mən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Rəfael Allahverdiyevə dediyim sözlərin əksəriyyəti sizin təşkilatın və şəxsən sənin öz işində yol verdiyin nöqsanlarla bağlıdır. Belə işləmək olmaz. Mən sənə xəbərdarlıq edirəm. Sən ya öz işində ciddi dönüş yaratmalısan, yaxud da sən belə vəzifədə işləyə bilməzsən.

Biz Azərbaycanın sosial-iqtisadi problemləri haqqında hər dəfə danışarkən yerindən-yurdundan didərgin düşmüş soydaşlarımızın vəziyyətini, xüsusən bu qış mövsümündə [449-450] təbiətin meydana gətirdiyi çətinliklər zamanı qaçqınların, köçkünlərin yaşayışını, onların təchizatını birinci növbədə, xüsusi nəzərə almalıyıq. Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin sədri Qəhrəmanov buradadırmı?

Nə iş görürsünüz, nə edirsiniz, nə kimi tədbirlər həyata keçirirsiniz? Qaçqınlara bu ağır vəziyyətdə hansı əlavə yardımlar edirsiniz?

## QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ GÜLABBAS QƏHRƏMANOVUN ÇIXIŞI

Hörmətli Prezident, mən baş nazirin müavini İzzət Rüstəmovla birlikdə bu yaxınlarda Bərdə, Ağcabədi rayonlarında, Laçının qış yatağı olan Taxtakörpüdə olmuşam. Qaçqınlar bizdən dönə-dönə xahiş ediblər ki, Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il münasibətilə onların təbrikini hörmətli prezidentimizə çatdıraq. Mən onların xahişini Sizə çatdırmağı özüm üçün şərəf bilirəm.

Bizim Gəncə, Ağcabədi, Bərdə bölgələrinə getməkdə əsas məqsədimiz bilavasitə yerlərdə qış mövcümü üçün nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi vəziyyətini öyrənmək idi. Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin ünvanına 1997-ci ilin iyulunda söylədiyiniz iradlardan, eləcə də M.F.Axundov adına Respublika Kitabxanasında qaçqınlar haqqında kitabın təqdimetmə mərasimində bizim işimiz barədə dediyiniz tənqidlərdən nəticə çıxararaq qaçqınların və məcburi köçkünlərin problemlərinin daha dərindən öyrənilməsi və həll edilməsi üçün müəyyən tədbirlər görmüşük. [450-451]

Mən istəyirəm ki, Sizə bu barədə qısa məlumat verim. Qaçqınların qış problemlərinin həlli sahəsində indi komitəmizin üzərinə daha mühüm vəzifələr düşür. Çünki vaxtilə, respublikada islahatlar aparılmamışdan əvvəl kolxozlar və sovxozlar, fabriklər, zavodlar fəaliyyət göstərirdi, qaçqınların problemlərinin həllində onlar da yaxından iştirak edirdilər. Amma indi məsələ elədir ki, bu işləri tamamilə görməyə rayonların imkanı yoxdur. Ona görə də hazırda bütün bu məsələləri respublika Nazirlər Kabinetinin köməyi ilə dövlət büdcəsindən ayrılan vəsait hesabına həll edə bilirik.

Bir məsələni də qeyd etmək istəyirəm ki, hazırda yerlərdə enerji məhdudiyyəti ilə daha tez-tez rastlaşırlar. Gərginliyin artıb-azalması isə transformatorların sıradan çıxmasına səbəb olur. Hörmətli prezident, komitəmiz təkcə bu il rayonlara 40-dan çox transformator vermişdir.

Biz bu yaxınlarda Gəncədə olarkən qaçqınların yaşadığı yataqxanalarda transformatorların sıradan çıxması nəticəsində işığın günlərlə yanmadığının şahidi olduq. Ona görə də Gəncə şəhərinə iki transformator göndərmişik.

Qaçqınların və məcburi köçkunlərin ən çox məskunlaşdığı rayonlardan biri də Bərdədir. Komitəmiz 1997-ci ildə Bərdə rayonuna 14 transformator vermişdir. Biz çalışırıq ki, rayon icra hakimiyyətləri ilə daimi əlaqə saxlayaq və hansı çətinliklərin olduğunu dərhal aşkar edək, onların aradan qaldırılması üçün lazımi tədbirlər görək. Bu çətinliklər əsasən baş nazir səviyyəsində həll olunur.

Mən yerlərdə olarkən çadır şəhərciklərinə elektrik enerjisini vaxtlı-vaxtında verilməməsi barədə şikayətlər eşitdim. Baş nazir Artur Rasizadəyə bu barədə məlumat verəndən sonra «Azərenerji» Səhmdar Cəmiyyətinin prezidenti Müslüm İmanovla bu məsələni müzakirə etdik. Müslüm İmanov yerlərə rəsmi telefonoqramlar göndərdi ki, [451-452] birinci növbədə çadır düşərgələri elektrik enerjisi ilə təmin olunmalıdır.

Biz vəziyyətlə müntəzəm maraqlanırıq. Demək istəyirəm ki, gərginlik müəyyən qədər aradan qaldırılıb. Amma çətinliklər hələ də var. Bilirsiniz ki, Biləsuvardakı çadır şəhərciyində 25 mindən artıq qaçqın və məcburi köçkün yaşayır. Biləsuvar rayonu elektrik enerjisini Salyandan aldığına görə bu problemin həllində bəzən müəyyən çətinliklər yaranır. Biz «Azərenerji» Səhmdar Cəmiyyətinin rəhbərliyi ilə birlikdə bu məsələlərin vaxtında həll edilməsinə çalışırıq.

Hörmətli prezident, Gəncədə də çətinlik çoxdur. Gəncəyə də elektrik enerjisi verilməsində məhdudiyyətlər vardır. Yevlaxdakı Aran qəsəbəsinin də enerji ilə təmin edilməsində tez-tez çətinliklər ortaya çıxır. Biz bu məsələni həll edə bilmişik.

Bu sahədə ən çox çətinlik Bakıdadır. Qaçqınların və məcburi köçkünlərin yaşadığı 134 obyektdə qazdan istifadə edilmədiyinə görə elektrik enerjisi həm də istilik mənbəyidir. Ona görə də Bakıdakı hər hansı bir yataqxanada enerjinin kəsilməsi adamlar tərəfindən fövqəladə vəziyyət kimi qarşılanır. Onları başa düşmək olar. Çünki işıqsız yaşamaq qeyri-mümkündür. Biz bütün bu məsələlərin həll edilməsinə xüsusi fikir veririk.

Mən bir məsələni də qeyd etmək istəyirəm ki, qaçqınlar və məcburi köçkünlər qeyri-standart elektrik cihazlarından istifadə etdiklərinə görə bəzən həm transformatorlar, həm də yeraltı kabellər buna dözmür. Bünların təmir edilməsi işinə də çox vaxt mütləq bizim komitə qarışmalıdır. Amma komitəmiz üçün ayrılan vəsait bütün bu işləri görməyə imkan vermir. Məsələn, Azərbaycan Dövlət Texniki Universitetinin rektoru bu günlərdə mənə müraciət edib ki, qaçqınların yaşadığı yataqxanada böyük gərginlikli kabel xətti sıradan çıxıb və onun dəyişdirilməsinə ehtiyac vardır. Çünki bu işləri görməyə [452-453] Texniki Universitetin vəsaiti çatışmır. Hazırda biz həmin ərazidə kabelin yenisi ilə əvəz edilməsi üçün vəsait axtarırıq.

Cənab prezident, biz çadırlarda, fin evlərində, xüsusən dəmir yolu xətti üzərindəki vaqonlarda yaşayan məcburi köçkünlərin qış təminatına ciddi diqqət yetiririk. Çünki onların vəziyyəti daha ağırdır. Biz respublika hökumətinin köməyi ilə bu il hər ailəyə 30 litr yanacaq paylamışıq. Bundan əvvəl biz beş min soba alıb onlara vermişdik. Belə sobalar nisbətən çox ucuz başa gəlir. Biz bu gün qaçqınlara daha 30 litr yanacaq paylamışıq. Bundan əvvəl biz beş min soba alıb onlara vermişdik. Belə sobalar nisbətən çox ucuz başa gəlir. Biz bu gün qaçqınlara daha 30 litr yanacaq verilməsi üçün rayon icra hakimiyyətlərinin hesabına vəsait köçürmüşük. Demək, qaçqınlar, bu ilin sonuna kimi daha 30 litr yanacaq alacaqlar. Ümumiyyətlə, biz son iki ay ərzində qaçqınların yanacaqla təmin olunmasına 3,9 milyard manat vəsait sərf etmişik. Bu da 1995-1996-cı ilin qış dövrünə nisbətən on dəfə artıqdır. Məlumat üçün bildirim ki, ötən qış mövcümündə bu məqsəd üçün cəmi 400 milyon manat vəsait ayrılmışdır. Halbuki büdcədən ayrılan vəsait əvvəlki kimi qalmışdır.

Cənab prezident, «Qaçqınların və məcburi köçkünlərin statusu haqqında» qanunun 3-cü maddəsində deyilir ki, qaçqınlar və məcburi köçkünlər bütün kommunal xidmətlərinin, o cümlədən enerjinin, suyun, qazın haqqını ödəməkdən azaddırlar. Qaçqınların böyük əksəriyyəti Bakıda, Sumqayıtda məskunlaşıblar. Bir çox zavodların, komitələrin, şirkətlərin rəhbərləri mənə müraciət edirlər ki, qaçqınların istifadə etdikləri həmin enerjinin, suyun, qazın pulunu onlardan heç olmasa vətəndaşlardan tutduqları kimi alsınlar. Halbuki, bütün bunlar onlardan kommersiya qiyməti ilə tutulur. Ona görə də onlar suyu, qazı, elektrik enerjisini kəsəcəkləri barədə tələblər irəli sürürlər. [453-454]

Ümumiyyətlə, belə hallar çox olur. Şəxsən mənim fikrim belədir ki, görünür, respublika hökumətinin bununla əlaqədar qərar qəbul etməsi lazımdır. Biz bu məsələni yoluna qoymalıyıq. Çünki dövlət komitəsinə ayrılan vəsait borcların ödənilməsinə kifayət etmir. Məsələn, hesablamışıq ki, bu məqsəd üçün il ərzində 37 milyard manat vəsait lazımdır. Amma biz büdcənin də çətinliklərini bilirik. Bu məqsəd üçün 9,9 milyard manat vəsait ayrılmışdır Biz bu məsələ ilə əlaqədar respublika hökumətinə müraciət etmişik. Respublika hökuməti bizə yalnız ilin axırında kömək edə bilir.

Cənab prezident, sığınacaq proqramının həyata keçirilməsi çox ciddi məsələlərdən biridir. Çünki əgər çadırlar möhkəmləndirilməsə, qış mövsümünü başa vurmaq mümkün deyildir. Baş nazirin tapşırığı ilə humanitar yardım üzrə respublika komissiyasında bu məsələni üç dəfə müzakirə etmişik. Bu müzakirələrdə beynəlxalq təşkilatların nümayəndələri də iştirak ediblər. Yeri gəlmişkən onu da deyim ki, M.F.Axundov adına kitabxanada keçirilən tədbirdə verdiyiniz tapşırıqlardan sonra həmin təşkilatlar da bu məsələyə daha ciddi yanaşmağa başlayıblar. Onlar sığınacaq proqramı ilə əlaqədar bizə çox kömək ediblər. Məsələn, mən demək istəyirəm ki, ABŞ-ın bir təşkilatı bu il Bakı və Sumqayıt şəhərlərində 70-dən artıq yataqxananı təmir edibdir. Almaniya təşkilatı Bərdədəki «Qızıl ay» şəhərciyində çadırlara taxta döşəmələr vurmaqla məşğuldur. Amerikanın Xilasetmə Komitəsi öz vəsaiti hesabına Ağcabədi rayonunda çadırları əvəz edən evlər tikibdir. Bütün bunlar bizə xeyli köməkdir. Bundan başqa, Tayvanın humanitar təşkilatı 1410 çadırın dəyişdirilməsinə kömək edibdir.

Amma bütün bunlar hələ kifayət deyil. Çünki bu gün çadırlarda 15 min 530 ailə yaşayır. Bu çadırların əksəriyyəti çoxdandır dəyişdirilmir. Ona görə də onların yenisi ilə əvəz edilməsinə ehtiyac vardır. Bu isə çox böyük vəsait tələb edir. [454-455] Dövlət komitəsi bununla əlaqədar respublika hökuməti qarşı-

sında məsələ qaldırıb. Baş nazirin sərəncamı ilə 3,7 milyard manat vəsait ayrılmışdır. Biz yaxın iki ay ərzində 10 min ailəni çadır örtüklərlə təchiz edəcəyik.

**H e y d ə r Ə l i y e v:** Bəs deyirsən ki, çadırlarda 15 mindən çox ailə yaşayır? Qalanlarını kim təmin edəcək?

**G ü l a b b a s Q ə h r ə m a n o v:** Cənab prezident, biz bu il 2 min çadırı dəyişdirmişik. 1410 çadırı isə Tayvan verib. Bərdə və Ağcabədi rayonlarında yaşayan qaçqınlara da xarici humanitar təşkilat müəyyən qədər kömək edib. Hesablamışıq ki, əgər biz 10 min ailəni çadırla təmin etsək, bu məsələni həll edə bilərik.

**İ z z ə t R ü s t ə m o v** (baş nazirin müavini): Cənab prezident, biz bu məsələyə xüsusi diqqət yetiririk. Bunun üçün xeyli vəsait ayrılıb. Burada söhbət tam köhnəlmiş çadırlardan gedir. Biz çadırların kərpic evlərlə əvəz olunmasına xüsusi diqqət yetiririk. Məsələn, Ağcabədidə belə evlər tikilir. Biz imkanlardan istifadə edərək qaçqınların müəyyən hissəsini mümkün qədər belə evlərə köçürürük və bu işi davam etdirəcəyik. Mənə elə gəlir ki, bu bəs edəcək. Azərbaycanda fəaliyyət göstərən xarici neft şirkətlərinin sponsorluğu ilə Mingəçevir şəhərində məskunlaşmış qaçqınlar üçün Amerika texnologiyası əsasında 100 ailəlik çox gözəl, yaraşıqlı binalar tikilib istifadəyə verilmişdir. Yevlaxda yolun kənarında da belə bir təzə binanın tikintisi başa çatdırılmışdır. Norveçin Qaçqınlar şurası 550 ton ağ neft alıb və bu yanacaq Ağcabədi, Bərdə bölgəsində məskunlaşan qaçqınlara paylanacaqdır.

Yəni biz qaçqınların qış qayğıları ilə yaxından məşğul oluruq. Baş nazirin tapşırığı ilə bu məsələləri respublika, Bakı şəhəri və ayrı-ayrı bölgələr səviyyəsində bir neçə dəfə müzakirə etmişik. [455-456]

Möhtərəm prezident, biz Sizin iradlarınızı fəaliyyət proqramı kimi qəbul edirik. Mən söz verirəm ki, işdəki nöqsanları ciddi surətdə aradan qaldıracağıq. Biz sevinirik ki, qarşımızda bizi səfərbər edən belə vəzifələr qoyursunuz.

**H e y d ə r Ə l i y e v:** Buna sevinmək lazım deyil. Çalışmaq lazımdır ki, nöqsanlar olmasın.

**G ü l a b b a s Q ə h r ə m a n o v:** Cənab prezident, bu gün mənə söz verməyiniz qaçqınlara daimi qayğınızın nəticəsidir.

**H e y d ə r Ə l i y e v:** Məsələ söz verməkdə deyil. Sizi bura çağırmışam ki, mənə hesabat verəsiniz. Elə deyil ki, guya siz məndən xahiş etmisiniz, mən sizə söz vermişəm.

**G ü l a b b a s Q ə h r ə m a n o v:** Bəli, bu, məsuliyyətimizi daha da artırır. Mən komitəmizin kollektivi adından Sizi əmin edirəm ki, qarşımızda qoyulan vəzifələrin yerinə yetirilməsi üçün var qüvvəmizi sərf edəcəyik.

**H e y d ə r Ə l i y e v:** Bilirsiniz, mən Qəhrəmanovun və baş nazirin müavini Rüstəmovun qeydlərini nəzərə alıram. Ancaq yenə də indiyə qədər dediyim sözlərin üstündə dururam. Qaçqınlar Komitəsi və bizim Nazirlər Kabinetində bu sahədə olan struktur qaçqınların, köçkünlərin vəziyyəti ilə lazımi səviyyədə məşğul olmurlar. Mən bu işlərdən hələ razı deyiləm. Ola bilər, qaçqınların bəziləri, - bizim xalqımız çox şükür, nemət xalqdır, - bəlkə də sizə deyirlər «çox sağ olun, razıyıq». Amma mən razı deyiləm. Çünki mən dəfələrlə demişəm, görülən işlər onların vəziyyətinin heç olmasa minimum səviyyədə saxlanmasına təminat vermir. İşinizdə çox ciddi başqa nöqsanlar da var, bu barədə sizə dəfələrlə deyilibdir. Bəlkə bu məsələlərə sonra bir də qayıtmalı olacağıq, amma mən bu fürsətdən istifadə edib sizə bir daha xəbərdarlıq edirəm.

Daha kim söz istəyir, kimin sözü var? Rəfael, bizim su təchizatı ilə, xüsusən Bakının su təchizatı ilə kim məşğul olur? Su şirkəti, yoxsa mənzil-kommunal təsərrüfatı komitəsi? İndi [456-457] su təchizatı nə vəziyyətdədir? Yəni camaat su ilə təmin olunurmu?

**R ə f a e l A l l a h v e r d i y e v:** Yeni yaradılmış su şirkəti və onun Bakı Şəhər İdarəsi ilə birlikdə mövcud problemləri aradan qaldırırıq.

**H e y d ə r Ə l i y e v:** Sumqayıt, Gəncə - bir sözünüz var, yoxsa yox?

## SUMQAYIT ŞƏHƏR İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ŞAKİR ABIŞOVUN ÇIXIŞI

Möhtərəm cənab prezident!

Hörmətli müşavirə iştirakçıları!

Müzakirə olunan məsələni təkcə iqtisadi məsələ kimi deyil, həm də əhalinin bütövlükdə əhval-ruhiyyəsinə, yaşayışına təsir edən amil kimi qəbul etsək, onun nə qədər vacib olduğunu yəqin ki, hamımız dərk edirik. Möhtərəm prezident, ona görə də Sizə dərin minnətdarlığımızı bildiririk ki, məsələ bu səviyyədə müzakirə olunur.

Sumqayıt şəhəri enerji, qaz, su təchizatında müəyyən problemlərə malik şəhərdir. «Azərenerji» Səhmdar Cəmiyyətinin rəhbərliyi tərəfindən də qeyd olundu, - biz bütövlükdə keçən il ərzində 325 milyon kilovat-saat, bu ilin on bir ayı ərzində isə 308 milyon kilovat-saat elektrik enerjisi almışıq. Əlbəttə, əgər qaz təchizatında problem olmasaydı, bu enerji Sumqayıta bəs edərdi. Təəssüf ki, Sumqayıt şəhərinin qazla təchizatında böyük problemlər var. Şəhərin altı-yeddi mikrorayonu, demək olar, qaz almır. Sumqayıt on bir ay ərzində 128 milyon kubmetr qaz alıb, bu da şəhərin tələbatını ödəmir. Doğrudur, Sumqayıta gündə

qaz verilir, amma şəhərin girəcəyində qazın təzyiqi 2,4 atmosfer əvəzinə 1,6-1,8 atmosfer olduğuna görə qaz ucqar mikrorayonlara gedib çatmır. Bu problemin həlli üçün biz Nazirlər Kabinetinə [457-458] müraciət etmişik, belə ki, Sumqayıt şəhərində fəaliyyət göstərən 1 və 2 nömrəli istilik-elektrik mərkəzləri on bir ay ərzində 350 milyon kubmetr qaz alıb, bu da bütünlükdə şəhərin aldığından 2,5 dəfə çoxdur. Ayın 17-də mən müəyyən müzakirədən sonra Nazirlər Kabinetinə müraciət etmişəm ki, bu məsələyə bizim, «Azərenerji»nin, «Azəriqaz»ın və «Azərikimya» Dövlət Şirkətinin iştirakı ilə baxılsın.

Sumqayıt şəhərini hər an böyük bir qəza gözləyir. 1995-ci ilin oktyabrında Sumqayıt-2 stansiyasında 15 meqavatlıq transformator qəza nəticəsində sıradan çıxıbdır. Həmin stansiya «Azərenerji» tərəfindən istismar olunur. Mən həmin aydan bu məsələnin həlli üçün Nazirlər Kabinetinə müraciət etmişəm. İki il tamam olub, amma bu məsələ həllini tapa bilmir. Halbuki biz məsələnin həlli üçün müxtəlif variantlar təklif etmişik. Axırıncı dəfə bir il bundan əvvəl variant təklif olundu ki, Sumqayıt kompressorlar zavodunda 25 meqavatlıq transformator var. Ondan əvvəl də 5,6 meqavatlıq transformator sıradan çıxmışdır. Heç olmasa, borc hesabına bu məsələ həll edilsin. Təəssüf ki, həmin məsələ bu günə qədər həll olunmamış qalır.

Bu problemlər var, mən istəmirəm bunlarla vaxtınızı alım. İşimizdə çətinliklər də var. Bunları aradan qaldırmaq üçün biz əlaqələndirmə şurası yaratmışıq. Dünən onun birinci iclası oldu. Bu məsələyə təkcə işıq təchizatı kimi baxmaq lazım deyildir. İşıq təchizatı həm də şəhərin su, istilik təchizatıdır. Sumqayıt şəhərində dörd xəstəxana kompleksindən başqa nə bir bağça, məktəb, nə də yaşayış massivi istilik almır. 21 qazanxana 1994-cü ilin yanvar-fevralında mənim sərəncamımla dayandırılmışdır. Çünki onlara sərf olunan qaz bütövlükdə baş aldatmaq kimi bir şey idi: evlər istilik almır, qazdan məqsədyönlü istifadə edilmirdi. Ona görə də indi şəhər istiliklə təmin olunmur. [458-459]

Cənab prezident, hələ Sizin vaxtınızda - 1981-ci ildə Sumqayıt -3 stansiyasının təməli qoyuldu və o, 1986-cı ildə istifadəyə verilməli idi. Çox təəssüf ki, 1982-ci ildən sonra həmin ötürücü stansiyanın tikintisi ilə məşğul olunmadı. Buna görə də Sumqayıt şəhərində bu problemlər, çətinliklər var.

Mən vaxtınızı almaq istəmirəm, dediyiniz nöqsanlar, Rəfael müəllimə bildirdiyiniz iradlar bizim hamımıza, bütün icra hakimiyyəti başçılarına aiddir. Biz bu məsələlərlə məşğuluq. Demək istəyirəm ki, keçən ilə nisbətən, ödəmələrdə böyük irəliləyiş var, təqribən 5-6 dəfə artım var. Lakin bu, hələ məsələnin həlli deyildir. Belə ki, bütün çətinliklərin, problemlərin həlli üçün çoxlu tədbir görmək, əhali arasında müəyyən iş aparmaq lazımdır ki, adamlar ödəmələrin vacibliyini başa düşsün və borclarını ödəsin. Amma təəssüf edirəm ki, ödəmələrin faizində əhalinin payı cəmi 1,7-1,8 faizdir.

**H e y d ə r Ə l i y e v:** Yəni elektrik enerjisində?

**Ş a k i r A b ı ş o v:** Bəli. Hazırda «Azərenerji» Səhmdar Cəmiyyətinə şəhər elektrik şəbəkəsinin 23 milyard manat borcu var, ondan vur-tut 8 milyon manatı əhalini payına düşür.

**H e y d ə r Ə l i y e v:** Bəs qalanı?

**Ş a k i r A b ı ş o v:** Qalanı respublika və şəhər büdcə təşkilatlarının, sənaye müəssisələrinin, şəhər ərazisindəki yataqxanaların, pansionatların, digər idarələrin payına düşür. Kommersiya strukturlarının borcu isə təqribən 950 milyon manatdır.

**H e y d ə r Ə l i y e v:** Onlar niyə borcludur? Onların ki, pulu çoxdur.

**Ş a k i r A b ı ş o v:** Biz tapşırıq vermişik, şəhər ərazisindəki 100 böyük abonentin siyahısını çıxarırıq. Ödəmələrə nəzarət edilməsə, əyintilər olacaqdır. Ona görə də əlaqələndirmə [459-460] şurası yaratdıq ki, qaz, su və işıqla bağlı olaraq hər ay həmin 100 böyük abonentin ödəmələrinə nəzarət edək.

**H e y d ə r Ə l i y e v:** 100 böyük abonent nə deməkdir?

**Ş a k i r A b ı ş o v:** Məsələn, şəhərin ərazisində böyük restoranlar, univermaqlar var.

**H e y d ə r Ə l i y e v:** Onlar hamısı özəlləşdirilibmi?

**Ş a k i r A b ı ş o v:** Özəlləşdirilən də var, özəlləşdirilməyən də var.

**H e y d ə r Ə l i y e v:** Özəlləşdir də. Onsuz da onlar hamısı gəlirlə işləyir.

**Ş a k i r A b ı ş o v:** Bəli, möhtərəm prezident, biz bu məsələni tam araşdırmışıq. Onlar öz borclarını ödəməlidirlər.

**H e y d ə r Ə l i y e v:** Bəs onlar öz borclarını niyə ödəmirlər?

**Ş a k i r A b ı ş o v:** Söhbət ondan gedir ki, bu işə nəzarət olmayıb. Bizim tərəfimizdən də nəzarət edilməyib.

**H e y d ə r Ə l i y e v:** Bəs niyə nəzarət etməmisən?

**Ş a k i r A b ı ş o v:** Etiraf edirəm.

**H e y d ə r Ə l i y e v:** Deyir, bu işə nəzarət olmayıb. Bəs nəzarəti kim etməlidir?

**Ş a k i r A b ı ş o v:** Mən Sizə açıq deyirəm.

**H e y d ə r Ə l i y e v:** Qəribədir bunlar. Bəs sən orada nədən ötrüsən?

**Ş a k i r A b ı ş o v:** Möhtərəm prezident, mən bu məsələni nəzarətə götürmüşəm.

**H e y d ə r Ə l i y e v:** Sən neçə ildir orada işləyirsən. Neçə dəfə də məsələ qalxıbdır ki, səni işdən çıxarmaq lazımdır. Mən səni indiyədək işdən çıxarmamışam.Sən anlayırsan, yoxsa yox? İndi deyirsən ki,

nəzarət olmayıbdır, bundan sonra nəzarət edəcəyik. Bəs niyə nəzarət etməmisən? Sən özün-özünə quyu qazırsan?

**Ş a k i r  A b ı ş o v:** Başa düşürəm, möhtərəm prezident, mən Sizi aldatmaq istəmirəm. [460-461]

**H e y d ə r  Ə l i y e v:** Yaxşı, işləmək istəmirsənsə, işdən çıxarım, çıx get. Başqası gəlib nəzarət edər.

**Ş a k i r  A b ı ş o v:** Möztərəm prezident, mən problemi başa düşürəm.

**H e y d ə r  Ə l i y e v:** Mən bilirəm, sən bu problemi başa düşürsən. Sən ağılsız adam deyilsən. Amma işləmirsən. Niyə, - mən bunu başa düşmürəm. İzahata ehtiyac yoxdur. Nə qədər izahat versən, vəziyyətini o qədər də ağırlaşdıracaqsan.

## YEKUN NİTQİ

Güman edirəm, siz bügünkü müşavirənin zəruriliyini müzakirə zamanı artıq dərk edə bildiniz. Biz respublikanın sosial-iqtisadi problemlərinə, xüsusən sosial sahəyə, əhalinin ən vacib vasitələrlə təmin olunması məsələsinə indiyədək diqqəti dəfələrlə cəlb etmişik və çox ciddi tələblər irəli sürmüşük. Təəssüflər olsun ki, bu sahədə nöqsanlar var və çoxdur. Müvafiq təşkilatlar, yerli icra hakimiyyəti orqanları bəzi nöqsanların aradan götürülməsi üçün lazımi işlər görməyiblər.

Keçid dövründə respublikamızda problem problemin üstünə gəlir. Biz bir tərəfdən iqtisadi islahatlar keçiririk və həyatın bütün sahələrində bazar iqtisadiyyatı yaradırıq, onu inkişaf etdiririk. İkinci tərəfdən, keçmişdə mövcud olmuş üsul-idarədən, vasitələrdən həmin qaydada, o prinsiplər əsasında indiyə qədər istifadə etmək məcburiyyətindəyik. Gərək hər bir vəzifəli şəxs öz işində mövcud imkanlardan səmərəli istifadə etməyə çalışsın və eyni zamanda yeni addımlar ataraq onun həyata keçirilməsini təmin etsin.

Aydındır ki, biz belə bir şəraitdə ideal vəziyyət haqqında düşünə bilmərik. Bu gün biz əsasən respublikanın və xüsusən əhalinin elektrik enerjisi, qaz, istilik, nəqliyyat vasitələri ilə [461-462] təmin olunması məsələlərini müzakirə edirik. Bu sahələr respublikamızda bir çox illər ərzində yaranıbdır. Çox böyük qürur hissi ilə qeyd etmək olar ki, elektrik enerjisi istehsal etmək üçün Azərbaycanın geniş istehsal potensialı vardır. İndi respublikanı elektrik enerjisi ilə təmin edən istilik, su elektrik stansiyaları 5 min meqavat elektrik enerjisi verməyə qadirdir. Bu, çox böyük imkandır. Fəxr etməliyik ki, vaxtilə biz bu elektrik stansiyalarını yarada bilmişik və onlar bu gün Azərbaycan Respublikasına, xalqımıza xidmət edir. Bizim respublikanı təmin etmək imkanına malik olan neft mədənlərimiz vardır. Yəni bir çox ölkələrlə müqayisədə biz kənardan nə neft, nə də neft məhsulları almaq məcburiyyətində deyilik. Ölkəmizdə hasil olan neft həm Azərbaycanın tələbatını təmin edir, həm də onun bir qismi satılaraq respublikamızın iqtisadiyyatı üçün gəlir gətirir. Bu da müstəqil bir dövlət kimi Azərbaycanın çox böyük potensiala malik olduğunu göstərir.

Əgər biz ildə 6 milyard kubmetr qaz hasil ediriksə, bu da çox böyük bir sərvətdir. Bizim qonşularımız bir il müddətində 1 milyard, yaxud 1 milyard 500 milyon kubmetr qaz almaq üçün başqa ölkələrə müraciət edirlər. Burada deyildiyi kimi, ölkəmizdə 1000 kubmetr qaz 45 dollara satılır. Ancaq 1000 kubmetr qazın dünya bazarında qiyməti 80 dollardan artıqdır. Deməк, bizim belə bir problemimiz yoxdur. Yəni tələbatımızı tam təmin etməsə də, onun böyük bir hissəsini təmin edən qaz ehtiyatımız və qaz hasil etmək imkanlarımız vardır. Bunlar hamısı müstəqil Azərbaycanın, xalqımızın sərvətləridir, eyni zamanda respublikamızda iqtisadiyyatın inkişaf etməsi və insanların yaxşı yaşaması üçün çox böyük əsasdır. Biz bunları qiymətləndirməliyik. Biz respublikamıza bənzər başqa ölkələrlə müqayisədə nə qədər çox üstünlüklərə malik olduğumuzu dərk etməli, unutmamalıyıq. Yenə də deyirəm, qiymətləndirməliyik ki, bizim belə təbii sərvətlərimiz [462-463] var. Qiymətləndirməliyik ki, keçmiş zamanlarda bu təbii sərvətlərdən istifadə etmək üçün böyük istehsal sahələri, qurğular, elektrik stansiyaları, şəbəkələr yaradılıbdır. Bunlar keçmişdə olduğu kimi, indi də Azərbaycan xalqına, Azərbaycan Respublikasına xidmət edir.

Təsəvvür edin, əgər bu sərvətlər olmasaydı indi bizim vəziyyətimiz necə idi? Əgər biz vaxtilə - 1970-1980-ci illərdə bu nəhəng elektrik stansiyalarını qurub-yaratmasaydıq indi vəziyyətimiz necə olardı? Zaqafqaziyanın digər respublikalarındakı vəziyyət sizə məlumdur. Onlar nə qədər əziyyət çəkirlər, amma bu əziyyət içində də yaşayırlar. Onlara nisbətən bizim respublikamızın vəziyyəti qat-qat yaxşıdır və bunu qiymətləndirmək lazımdır. Amma eyni zamanda, bu gün bizi narahat edən odur ki, bu imkanlardan nə qədər səmərəli istifadə edirik. Bu sahədə nöqsanlar, çatışmazlıqlar çoxdur, bir çox orqanlar və həmin orqanlara rəhbərlik edən vəzifəli şəxslər tərəfindən səhlənkarlıq, məsuliyyətsizlik hallarına yol verilir. Bunları aradan qaldırmaq lazımdır.

Biz birinci dəfə deyil ki, belə bir məsələni müzakirə edirik. Keçən zamanlarda da, elə bu il də bu mövzu ilə əlaqədar böyük bir müşavirə keçirmişik. Biz həmin müşavirədə qışa hazırlıq ilə əlaqədar qarşıya tələblər qoymuşduq. Bu gün isə biz qış mövsümündəyik, onun bir hissəsini yaşamışıq. Ancaq qarşıda hələ bir neçə ay var. Bu müddətdə respublikamızın iqtisadiyyatı yaşamalıdır, səmərə verməlidir və insanların həyati tələbatları təmin olunmalıdır. Amma onu da qeyd etmək lazımdır ki, bizim əlimizdə olan böyük iqtisadi, texniki, istehsal potensialı qocalır, köhnəlir. Onlar daim təmir olunmalı, modernləşdirilməlidir,

onların iş keyfiyyəti daim yüksəldilməlidir. Təəssüflər olsun ki, biz bunu istənilən səviyyədə edə bilmirik, beləliklə də bir çox itkilərlə rastlaşırıq.

Bilməlisiniz, bunu bilənlər var ki, biz bu sahədə çox ciddi addımlar atmışıq. Məsələn, siz bilirsiniz ki, biz elektrik enerji[463-464]sini artırmaq üçün Yenikənd Su Elektrik Stansiyasının tikintisinə başlamışıq, Dünya Bankından, Avropa Yenidənqurma və İnkişaf Bankından bunun üçün kredit almışıq. Biz «Şimal» elektrik stansiyasını, Sumqayıt İstilik-Elektrik Mərkəzini, Mingəçevir Su Elektrik Stansiyasını modernləşdirmək üçün danışıqlar aparırıq, kreditlər almaq ərəfəsindəyik. Hazırda bu proseslər gedir.

«Neft Daşları»nda elektrik stansiyasını tam modernləşdirmək üçün də bizim bir çox təşəbbüslərimiz olubdur. Güman edirəm ki, bunlar da öz nəticələrini verəcəkdir. Ancaq bu məsələlər bir gündə, bir ayda, bəzən bir il ərzində həll edilmir. Bunlar Dünya Bankının, böyük ölkələrin kreditləri ilə, iri şirkətlərin gördükləri müştərək işlərlə bağlıdır. Başqa imkanlarımız yoxdur. Biz bunları edirik və edəcəyik. Güman edirəm ki, müəyyən bir müddətdən sonra Azərbaycanın həm elektrik enerjisi, həm qaz və başqa vasitələrlə təminatı xeyli yaxşılaşacaqdır. İndi isə biz müəyyən qədər məhdud olan imkanlardan səmərəli istifadə etməliyik.

Hesab edirəm ki, bu imkanlardan səmərəli istifadə olunmur, israfçılığa, itkilərə yol verilir. Nəzarətsizlik, məsuliyyətsizlik baş alıb gedir. Əgər biz elektrik enerjisi haqqında danışsaq, bu gün burada tam aşkar oldu ki, istehsal edilən enerjinin hamısından səmərəli istifadə edə bilsək, təminat bundan xeyli yaxşı ola bilər.

Təəssüf ki, bizdə elektrik enerjisinin belə qıt olduğu vaxtda suya, qaza, enerjiyə qənaət məsələsi hələ indiyədək öz həllini tapmayıbdır. Biz on illərlə elə bir vəziyyətdə yaşamışıq ki, nə suya, nə qaza, nə elektrik enerjisinə pul vermişik. O vaxtlar da bu, elə bir pul deyildi, qəpiklər idi və onları da çox vaxt vermirdilər, verməyənlər də heç cəzalandırılmırdı. Əgər biz dünya standartları çərçivəsində yaşayırıqsa, həyatımızı bazar iqtisadiyyatı prinsipləri əsasında qurmalıyıqsa, demək, hər bir şeyin qiymətini bilməliyik və onu qiymətləndirməliyik. [464-465]

Dünyanın inkişaf etmiş ölkələrində sudan istifadədə bu qədər israfçılıq ola bilməz. Amma bizdə su hər yerdə axır və bu, yeni bir məsələ deyil. Mən 1970-ci illərdə burada işlədiyim zaman - o vaxtkı qəzetlərdə dərc olunmuş məruzələrimi, nitqlərimi götürüb baxsanız, görərsiniz - o illərdə biz suya qənaət məsələsini dəfələrlə qaldırırdıq, müvafiq qərarlar qəbul edirdik. Ancaq bunlar yerinə yetirilmirdi. Eyni zamanda, o vaxt elə idi ki, su axıb gedəndə elə bir çətinlik yaranmırdı. Amma biz indi buna yol verə bilmərik.

Mənim xatirimdədir, 1970-1980-ci illərdə təkcə Azərbaycanda deyil, o vaxtlar Sovetlər İttifaqının başqa yerlərində də Avropa ölkələrini nümunə gətirirdilər.

Yetmişinci illərdə misal çəkirdilər ki, Avropa ölkələrində o otaqda işıq yanır ki, orada insanlar oturur. Qalan otaqlar hamısı qaranlıqdır. Amma bizdə o vaxtlar da, indi də nə vəziyyətdir? Axşam get, otaqların hamısında elektrik işığı yanır. Kiminsə mənzilində istilik çatmırsa, elektrik cihazından istifadə edirsə, buna söz ola bilməz. Ancaq lampalar niyə artıq yanır? Çünki o, qənaət etmir, ona görə ki, pul vermir. Əgər pulunu versə, şübhəsiz ki, beş-altı otaqda, - bəziləri hərəsində bir lampa yox, çılçıraq yandırırlar, - onları qoymaz yansın.

Axşam şəhərə baxın, görəcəksiniz pəncərələrin hamısından işıq gəlir. Bu otaqların hamısında insanlar oturmurlar ki! Əgər ailənin bir neçə otağı varsa, birində oturur, ikisində oturmur. İnsanlar yatanda yataq otağına gedir, oturanda yemək otağında, yaxud da istirahət otağında oturur.

Bu, yeni bir şey deyildir. Mənim xatirimdədir, bir də qeyd edirəm, 70-ci illərdə, 80-ci illərdə də qərb ölkələrinin təcrübəsini bizdə tətbiq etmək istəyəndə, bunu dəfələrlə mətbuatda da yazıblar, dəfələrlə özümüz də demişik ki, elektrik enerjisinə qənaət olunmalıdır. Mən bu gün dedim, - şəhərə çıxırsan, bir kiçik budkadır, içində iri bir lampa, [465-466] üstündə yekə bir projektor. Şübhəsiz ki, indi bizim şəhərdə yaranmış yeni ticarət şəbəkələri, onların xarici gözəlliyi müsbət qiymətləndirilməlidir. Bu, bizim özəlləşdirmə prosesinin müsbət nəticələridir. Həmin mağazalardır, həmin binalardır, amma tamamilə başqa bir görünüş, başqa bir şəkil alıbdır, özəlləşibdir və onun sahibi də oraya vəsait qoyub gözəlləşdirib, lazımi səviyyəyə gətirib və orada yaxşı ticarət etmək istəyir. Bunlar hamısı çox müsbət qiymətləndirilməlidir.

Ancaq nə üçün o qapalı yerlərdə o qədər elektrik enerjisi yandırılmalı, istifadə olunmalıdır? Ayrı-ayrı budkalarda, ayrı-ayrı yerlərdə o qədər elektrik enerjisi istifadə edilməlidirmi? Çünki onlar pul vermirlər. Burada Allahverdiyev bildirdi, «Azərbaycan» otelinin bir milyard borcu var, nə qədər pul qazanır, əgər borcunu vermirsə o birisinə nə deyəcəksən? Bəs niyə belə olur? Çünki lazımi dövlət, hökumət təşkilatları, orqanları bu məsələ ilə ciddi məşğul olmurlar, öz vəzifələrini layiqincə yerinə yetirmirlər, tələb etmirlər, qanun-qaydanı tətbiq edə bilmirlər. Nəticədə də belə bir hal yaranır - bir tərəfdən israfçılığa yol verilir, o birisi tərəfdən elektrik enerjisi çatışmır.

Qaz təchizatı barədə natiqlər çıxış edərkən mən bildirdim, - bizim istehsal etdiyimiz qazla istifadə etdiyimizin həcmi arasında nə qədər böyük fərq var. Birincisi, qazın istehlakçıya gəlməsi zamanı çox böyük itki verilir, ikincisi də istifadə olunmasında. Bu barədə mən müşavirənin gedişi zamanı öz fikirlərimi bildirdim və baş nazirə göstəriş verdim. Hesab edirəm, biz bu işlərlə ciddi məşğul olmalıyıq. Bizim böyük

sərvətlərimizdən gərək çox qənaətlə, çox səmərəli istifadə edək. Bunlardan bu qədər məsuliyyətsiz, bu qədər israfçılıqla, nəzarətsiz istifadə olunmasına yol vermək olmaz. Bu, dağıtmaq deməkdir.

Biz istərdik, - şübhəsiz, əhalimiz keçmişdən buna öyrənibdir ki, - Azərbaycanda hər yerdə qaz olsun. Xatirinizdədir ki, [466-467] 70-ci illərin sonunda Azərbaycanda nəinki bütün şəhərləri, bütün kəndləri, hətta dağ kəndlərini də qazla təmin etdik, bütün rayonlara, kəndlərə qaz xətləri çəkdik. O vaxt bizim imkanımız var idi. İndi bu imkan yoxdur. Ona görə də olan qazdan səmərəli istifadə edilməlidir. Ancaq eyni zamanda Azərbaycanın əhalisi bilməlidir ki, bizim neft və qaz sənayesi sahəsində apardığımız işlər və imzaladığımız müqavilələrin həyata keçirilməsi, həm neft hasilatını, həm də qaz istehsalını artıracaqdır.

Natiq Əliyev burada məlumat verdi ki, «Çıraq» neft yatağında bir quyudan artıq gündə 150 min kubmetr qaz çıxır. İkinci quyu da bu günlərdə qurtaracaq, oradan da 150 min kubmetr alınacaqdır. Altı quyu qazılacaqdır, onların hərəsindən 150 min kubmetr. Bu, hələ səmt qazıdır, əsas qaz deyildir. Amma bizim başqa müqavilələrimizdə böyük qaz yataqlarının xarici şirkətlərlə müştərək işlənilməsi nəzərdə tutulubdur. Artıq onlar iş prosesindədir. Bir neçə ildən sonra bunlar hamısı öz bəhrəsini verəcəkdir. Mən tam əminəm ki, bir neçə ildən sonra Azərbaycan, keçmiş zamanlarda olduğu kimi, qazla tamamilə təmin ediləcəkdir. Bu, bizim həqiqi gələcəyimizdir. Amma ölkələr var ki, belə imkanı bu gün də yoxdur, beş ildən də sonra olmayacaq, on ildən də sonra olmayacaqdır. Çünki onların belə təbii sərvətləri yoxdur.

Ona görə də, bir də qeyd edirəm, bir tərəfdən bizim indiki imkanlarımızdan səmərəli istifadə etmək lazımdır, ikinci tərəfdən isə bu layihələr üzərində işləyib dözmək lazımdır ki, bir neçə ildən sonra bütün bu çətinliklər aradan qalxacaqdır.

Çətin, ağır keçid dövründə bu məsələləri həll etmək üçün gərək bizim məsul təşkilatlarımız daha da yaxşı işləsinlər. Əgər işlər normal olsaydı, mən bu gün vaxt sərf edib sizi buraya dəvət etməzdim və bu müzakirə olmazdı. Ona görə də bizim nazirliklər, komitələr, konsernlər, şirkətlər və onların başçıları bugünkü müzakirədən çox ciddi nəticələr [467-468] çıxarmalıdırlar. Nazirlər Kabinetinə bir neçə göstəriş verdim və hesab edirəm, bu baxımdan bugünkü müzakirə çox vacib imiş. Müşavirəni çağırarkən mən bunun vacibliyini bəlkə də heç bu dərəcədə bilmirdim. Vacib imiş. Ona görə də mənim verdiyim tapşırıqlar əsasında iş aparılmalı və qarşıda olan qış aylarında, - yanvar, fevral, mart, yaza qədər, - yenə də deyirəm, respublikamızın mövcud imkanlarından səmərəli istifadə edərək əhalinin və iqtisadiyyatımızın qaz, elektrik enerjisi, su və başqa tələbatı maksimum təmin olunmalıdır.

Eyni zamanda qaz, neft istehsalı sahəsində 1998-ci il üçün işlərimizi bir daha tənzimləməliyik və mən bu barədə Nazirlər Kabinetindən konkret təkliflər gözləyəcəyəm.

Hesab edirəm ki, işləri daha da yaxşı qurmaq üçün hər şəhərdə, rayonda, hər bir inzibati bölgədə icra hakimiyyəti orqanları səmərəli işləməlidir. Təəssüflər olsun ki, bizim yerli icra orqanları çox hallarda öz vəzifələrini layiqincə yerinə yetirə bilmirlər. Burada qeyd olundu ki, Zaqatala, Balakən, Masallı rayonlarında elektrik enerjisindən istifadə edilməsi məsələsi tənzimlənibdir. Onlara mütəmadi olaraq elektrik enerjisi verilir və bunun haqlarını vaxtında ödəyirlər. Gəncənin İcra Hakimiyyətinin başçısı Daşdəmirovun verdiyi məlumat da, hesab edirəm, diqqətəlayiqdir, - onlar öz imkanlarını ölçüb-biçəndən sonra qərara alıblar ki, müəyyən vaxtlarda elektrik enerjisi verilməsin, fasilə olsun, ondan sonra lazım olan vaxtda verilsin. Beləliklə, işi daha da yaxşı qurublar. Verilən məlumatdan mən bunu anladım.

Ancaq bunu Sumqayıtın İcra Hakimiyyəti başçısının fəaliyyəti haqqında deyə bilmərəm, çünki burada öz dediklərindən belə göründü ki, o, bu məsələlərə nəzarət etmir.

Bakı şəhəri bu barədə ümumiyyətlə, xüsusi əhəmiyyət kəsb edir. Burada iki milyona qədər əhali, o cümlədən qaçqınlar yaşayırlar. Bakı şəhərində insanlar bu məsələlərə daha çox tələbkardır, nəinki Azərbaycanın başqa bölgələrində. Rəfael [468-469] Allahverdiyev çıxış edərkən mən ona dedim, amma bir də demək istəyirəm: Bakı Şəhər İcra Hakimiyyəti bu məsələlərlə gərək daha da ciddi məşğul olsun. Rəfael Allahverdiyevin beş-altı müavini var, onları buraya dəvət etmişəm. Mən onların işini görmürəm və çoxunu ümumiyyətlə, tanımıram. Apardığım müşahidələrdən onu deyə bilərəm ki, onların işi qənaətbəxş hesab edilə bilməz. Buraxdığı səhvlərə, yaxud işdə olan nöqsanlara görə Rəfael Allahverdiyevə dəfələrlə öz fikirlərimi deyirəm. Amma bilmirəm nə qədər onun müavinlərinə çatır, Bakı Şəhər İcra Hakimiyyətinin idarələri bu nöqsanları aradan götürmək üçün nə qədər lazımi səylər qoyurlar. Məndə belə fikir var ki, onların bir qismi öz vəzifələrini lazımınca yerinə yetirə bilmir, səhlənkarlıq edir.

Bakıda 11 rayon var. Hər bir rayonun icra orqanı, icra hakimiyyəti başçısı var. Hər bir icra hakimiyyəti başçısı məsuliyyət daşıyır. Ancaq mən deyə bilmərəm ki, Bakı şəhəri rayonlarının icra hakimiyyəti başçıları öz rayonlarının işinə həqiqətən tamamilə nəzarət edir və öz işləri ilə lazımi səviyyədə məşğul olurlar. Mən bunu deyə bilmərəm. Demək istəyirəm ki, çox hallarda mən onların işindən narazıyam. Əgər hər bir rayonda icra hakimiyyəti və icra hakimiyyətinin başçısı rayonun bütün işlərinə nəzarət etsə, hesab edirəm ki, problemlərin çoxunu həll etmək olar. Təəssüflər olsun ki, yenə də deyirəm, Bakı şəhəri rayonlarının icra hakimiyyəti başçıları haqqında bunu deyə bilmərəm.

Bir də qeyd etmək istəyirəm, indi icra hakimiyyəti başçılarının funksiyaları çox konkretdir. Keçmiş zamanlarda olduğu kimi, sənaye işi ilə məşğul olmurlar. Ticarət özəlləşib, onunla da məşğul olmurlar. Mənzil-kommunal təsərrüfatı Bakıda çox yerlərdə bərbad vəziyyətdədir, rayonlarda icra haki-

miyyəti başçıları məşğul olmalıdırlar, ancaq lazımi səviyyədə məşğul olmurlar. Rayonların ərazisində çox qüsurlar var, bunları aradan götürmürlər. Bununla yanaşı, [469-470] Bakıda rayon icra hakimiyyəti başçıları çox səhvlər buraxırlar.

İndi Bakıda özəl sektor inkişaf edir, buna şərait yaratmaq lazımdır. Ancaq özəl sektora şərait yaradarkən Bakının arxitektura qanun-qaydasını, şəhərdə tikinti qanun-qaydasını pozmaq olmaz. Təəssüflər olsun ki, bu pozulur. Mən Rəfael Allahverdiyevə bildirmişəm, Bakı şəhərinin və rayonlarının rəhbərləri ilə bu barədə xüsusi müşavirə keçirəcəyəm. Ancaq bu fürsətdən istifadə edərək bu gün bildirmək istəyirəm ki, rayon icra hakimiyyəti başçıları çox özbaşınalıqla məşğuldurlar. Bir də görürsən ki, bir yerdə nəsə bir bina tikilir. Bu, şəhər arxitekturası qanun-qaydasına uyğundur, yoxsa uyğun deyildir? Mən Rəfael Allahverdiyevə dedim, belə qeyri-qanuni yaranmış bəzi binaları sökmək lazımdır. çünki biz imkan verə bilmərik ki, ayrı-ayrı rayon icra hakimiyyəti başçıları, yaxud şəhərin baş arxitektoru Bakı şəhərinin arxitektura gözəlliyini öz şəxsi mənafeləri naminə dağıtsınlar.

Bakını əsrlərlə qurub-yaradan adamlar bunu gözəl bir şəhər kimi yaradıblar. Biz də bir çox illər ərzində Bakı şəhərinin gözəl arxitektura qanun-qaydasında inkişaf etməsində xidmətlər göstərmişik. Mən bu gün imkan verə bilmərəm ki, rayon icra hakimiyyətinin başçısı, nə təhər deyərlər, öz zövqünə, yaxud da şəxsi mənafeyinə görə burada bir şey yaratsın, orada bir şey yaratsın və beləliklə də Bakı şəhəri öz memarlıq gözəlliyini itirsin. Mən bu gün Bakı şəhərinin baş arxitektoruna xüsusi xəbərdarlıq edirəm: Sənin haqqında çox mənfi siqnallar gəlib çatır, onu bilməlisən. Arxitektor elə bir sənətin sahibidir ki, o, gərək öz sənətini hər şeydən üstün tutsun. Şəhərin baş arxitektoru gərək elə bir mövqe tutsun ki, onu heç bir kəs, heç bir şey yerindən tərpədə bilməsin. Çünki onun üçün şəhərin memarlıq gözəlliyi, şəhərin quruluşu hər şeydən üstün olmalıdır. Əgər sən birinin xahişi ilə bunu edəcəksən, o birisinin xahişi ilə onu edəcəksən, [470-471] nə bilim, birinin təsiri ilə bunu edəcəksən, o birisinin təsiri ilə onu edəcəksən - onda bu şəhərdən bir şey qalmaz.

Mən rayon icra hakimiyyəti başçılarını xəbərdar edirəm, şəhər icra hakimiyyətinin başçısını xəbərdar edirəm, şəhərdə bu işlərlə məşğul olan təşkilatları xəbərdar edirəm ki, bu mənfi hallara son qoysunlar. Şəhərdə yeni tikintilər, özəl sektorun inkişafı təmin olunmalıdır. Ancaq bunlar hamısı şəhərin baş planı ilə, şəhərin yaranmış memarlıq qanun-qaydası ilə uyğun olmalıdır. Heç kəsə imkan vermək olmaz ki, öz vəzifəsindən, yaxud pulundan istifadə etsin, gəlib şəhərin memarlıq qanun-qaydasını pozsun.

Yenə də deyirəm, rayon icra hakimiyyəti başçıları öz vəzifələrini layiqincə yerinə yetirməli, rayonda qanun-qaydanı, ictimai asayişi, sanitariyanı təmin etməlidirlər və rayonun ərazisini göz bəbəyi kimi qorumalıdırlar. Bununla yanaşı, şübhəsiz ki, rayonda yaşayan əhalinin bütün qayğılarını təmin etməli, ona baxmalıdırlar, imkan dairəsində kömək etməlidirlər.

Qarşıdan yeni - 1998-ci il gəlir. Hesab edirəm ki, respublikamızda yeni il bayramları layiqli keçiriləcəkdir. İlin əvvəlində gərək ki, üç gün istirahət olacaqdır. Dekabrın 31-i, yanvarın 1-i, 2-si, 3-ü istirahət günləri olacaq, əhali dörd gün istirahət edəcəkdir. Bu, çox yaxşı haldır. Güman edirəm ki, biz sizinlə birlikdə əhalinin istirahət etməsini təmin elməliyik. Bu, sizin borcunuzdur. Ona görə də lazımi işlər görülməlidir ki, bu dörd günü əhali yaxşı istirahət edə bilsin, 1998-ci ilə yaxşı əhval-ruhiyyə ilə başlasın və yaxşı nailiyyətlər əldə edə bilək.

1997-ci il sona çatır. Güman edirəm, bu ilin yekunlarına görə respublikanın iqtisadi göstəriciləri 1996-cı ildən üstün olacaqdır. Aparılan islahatlar, - həm siyasi islahatlar, həm iqtisadi islahatlar, - şəhərlərdə də, kənd yerlərində də öz nəticəsini verir. Hesab edirəm ki, biz 1998-ci ildə islahatların [471-472] daha da güclü aparılması, özəlləşdirmə proqramının daha geniş həyata keçirilməsi üçün yaxşı şərait yaratmışıq. Ona görə də ilin son günlərini,- adətən bu, həmişə belə olubdur, dövlət işində olan adamlar bunu yaxşı bilirlər, - biz daha da gərgin işləməli, üzərimizə düşən bütün vəzifələri yerinə yetirməli və 1998-ci ili layiqincə qarşılamalıyıq.

Ancaq bu müşavirənin əsas məqsədi, əsas vəzifəsi respublikada sosial sahədə, xüsusən əhalinin elektrik enerjisi, qaz, istilik, su, nəqliyyat ilə və başqa sahələrdə təminatını ödəməkdir. Müşavirənin gedişində deyildiyi kimi, bu baxımdan qaçqınların, məcburi köçkünlərin vəziyyətinə xüsusi diqqət yetirilməlidir. Bu, təkcə həmin sahə ilə məşğul olan Qaçqınlar Komitəsinin, yaxud Nazirlər Kabinetində olan strukturun vəzifəsi deyil, bütün hakimiyyət orqanlarının, yerli icra hakimiyyəti orqanlarının vəzifəsidir. Daxili imkanlardan istifadə edən yerli hakimiyyət orqanları çox işlər görürlər və qaçqınların vəziyyətini günü-gündən yaxşılaşdırırlar. Siz bunu etməlisiniz. Sağ olun. [472]

# QEYDLƏR

**1. Azərbaycan Yazıçılar Birliyi (AYB)** – könüllü ictimai təşkilat, Azərbaycan yazıçılarının yaradıcılıq birliyi. 1932-ci ildən 1990-cı ilə kimi Azərbaycan Yazıçılar İttifaqı adı altında fəaliyyət göstərmişdir. AYB-nin 1200 nəfərdən çox üzvü var. AYB müstəqillik, milli-mənəvi azadlıq və sərbəstlik şəraitində fəaliyyət göstərir. AYB-nin ali orqanı qurultaydır. – 7-61,64-137,218, 226.

**2. Anar,** R z a y e v  A n a r  R ə s u l  o ğ l u (d.1938) – Azərbaycan yazıçısı, publisist, dramaturq, ictimai xadim, Azərbaycanın xalq yazıçısı. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatıdır. Azərbaycan SSR Ali Sovetinin və SSRİ xalq deputatı olmuşdur. 1995-ci ildən Milli Məclisin deputatı və Mədəniyyət məsələləri komissiyasının sədridir. 1987-ci ildən Azərbaycan Respublikası Yazıçılar Birliyinin sədridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 7-11,46,50,59,60,64,66-67,70,73,74,75, 78,79,80,103.

**3. Y u s i f  S ə m ə d o ğ l u,** Vəkilov Yusif Səməd oğlu (1935-1998) – Azərbaycan yazıçısı və ictimai xadim. Azərbaycanın xalq yazıçısı. Milli Məclisin deputatı və parlamentdə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komissiyasının sədri, Azərbaycan Yazıçılar Birliyi sədrinin birinci katibi olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 9,24,50,64,70.

**4. «Azərbaycan»** – aylıq ədəbi- bədii və ictimai-siyasi jurnal. 1923-cü ildən Bakıda nəşr olunur. Azərbaycan Yazıçılar Birliyinin orqanıdır. Müxtəlif vaxtlarda «Maarif və mədəniyyət», «İnqilab və mədəniyyət», «Revolyusiya və kultura», «Vətən uğrunda» adı ilə nəşr edilmişdir. 1953-cü ildən «Azərbaycan» adı ilə çıxır. Azərbaycan yazıçılarının yeni əsərlərinin çoxu ilk dəfə bu jurnalda dərc olunur. Jurnal oxucularını klassik Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümunələri ilə müntəzəm tanış edir. Azərbaycan ədəbiyyatının, ədəbi-tənqid və ədəbiyyatşünaslığının inkişafında «Azərbaycan»ın xüsusi xidməti var. – 8,24,50,52,73,75,87,93,126,226.

**5. «Literaturnıy Azerbaydjan»** – rus dilində ədəbi-bədii jurnal. Azərbaycan Yazıçılar Birliyinin orqanı. 1931-ci ildən Bakıda nəşr edilir. 1931-33-cü illərdə «Temp», «Udarnik» adlanmışdır; 1934-cü ildən indiki adı ilə çıxır [473-474] (1941-53-cü illərdə nəşr olunmamışdır). Jurnalda Azərbaycan ədəbiyyatının ən yaxşı nümunələri ilə bərabər, rus və digər xarici ölkə xalqları ədəbiyyatından yazılar dərc edilir. – 8,226.

**6. «Ədəbiyyat qəzeti»** – həftəlik qəzet. 1934-cü ildən çıxır. Azərbaycan Yazıçılar Birliyinin orqanı. 1953-cü ildən «Ədəbiyyat və incəsənət» adı ilə çıxmışdır. Qəzetdə Azərbaycan və xarici ölkə yazıçılarının əsərləri, ədəbiyyat və incəsənət problemlərinə dair məqalələr, publisistik yazılar dərc olunur. – 8,24,50,52,68,73,75,90,226.

**7. «Ulduz»** – Azərbaycan Yazıçılar Birliyinin ədəbi-bədii, ictimai-siyasi aylıq jurnalı. 1967-ci ildən Bakıda nəşr edilir. Jurnal, əsasən, gənc yazıçı, şair və publisistlərin əsərlərini, ədəbi-bədii yazılara rəylər və s. dərc edir. – 8,50,52,68, 73,74,75,76,87,90,111,126,226.

**8. «Qobustan»** – rüblük incəsənət toplusu. 1969-cu ildən Bakıda nəşr edilir. Jurnalda Azərbaycan və dünya incəsənətinin korifeyləri haqqında məqalələr, bədii yazılar, müsahibələr verilir. «Qobustan»da bədii yaradıcılığın müxtəlif sahələri ilə yanaşı, estetika, incəsənət tarixi və nəzəriyyəsi problemləri də əks olunur. – 8,73,75,90,126,226.

**9. Mirvarid Dilbazi,** D i l b a z i  M i r v a r i d  P a ş a  q ı z ı (1912-2001) - Azərbaycanın xalq şairi. Şerlərində müasirlərimizin mənəvi zənginliyi, vətənpərvərlik tərənnüm edilir. Azərbaycan Respublikasının «İstiqlal» opdeni ilə təltif olunmuşdur. – 9,25-30,70,101,125.

**10. Elçin,** Ə f ə n d i y e v  E l ç i n  İ l y a s  o ğ l u (d.1943) – Azərbaycan yazıçısı, ictimai və dövlət xadimi. Azərbaycan Respublikasının xalq yazıçısı. Azərbaycan Yazıçılar Birliyinin katibi, Xaricdə Yaşayan Həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr «Vətən» Cəmiyyətinin sədri, Azərbaycan Ali Sovetinin deputatı olmuşdur. 1993-cü ildən Azərbaycan Respublikası Baş Nazirinin müavinidir.İstanbul Yeditəpə Universitetinin (1993) «Fəxri doktoru» seçilmişdir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 9,45-53,64,65,70,75.

**11. Qabil,** İ m a m v e r d i y e v Q a b i l A l l a h v e r d i o ğ l u (d.1926) – Azərbaycan şairi. Azərbaycan Respublikasının xalq şairi. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur.– 11-13,36,48,70,105.

**12. Müslüm Maqomayev,** M a q o m a y e v M ü s l ü m M ə h ə mm ə d o ğ l u (d.1942) – müğənni. Azərbaycan Respublikasının xalq artisti. Bəstəkar Müslüm Maqomayevin nəvəsi. Azərbaycan Dövlət Milli Musiqi [474-475] Akademiyasını bitirmişdir. SSRİ xalq artisti. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 12.

**13. Nəbi Xəzri,** N ə b i Ə l ə k b ə r o ğ l u B a b a y e v (d.1924) - Azərbaycan şairi, dramaturq, ictimai xadim və Azərbaycan Respublikasının xalq şairi. Əsərlərində müasirlərimizin zəngin mənəvi aləmi, təəssübkeşlik, doğma Vətən təbiətinin gözəllikləri tərənnüm edilir. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatıdır. Azərbaycan Yazıçılar Birliyinin katibi, Azərbaycan Ali Sovetinin deputatı olmuşdur. Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 12,18,70.

**14. Balaş Azəroğlu,** A b i z a d ə B a l a ş A l l a h b a ğ ı ş o ğ l u (d.1921) – şair, ədəbiyyatşünas, Azərbaycanın xalq şairi. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 12,36.

**15. Məmməd Araz,** M ə m m ə d İ n f i l o ğ l u İ b r a h i m o v (d.1933) – Azərbaycanın xalq şairi. Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. Adına «Məmməd Araz» ədəbi mükafatı təsis edilmişdir. – 12,60,70.

**16. Əkrəm Əylisli,** N a i b o v Ə k r ə m N ə c ə f o ğ l u (d.1937) – Azərbaycan yazıçısı və dramaturq. Azərbaycan Respublikasının xalq yazıçısı. Azərbaycan komsomolu və M.F.Axundov mükafatları laureatıdır. Ə.Əylisli Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 14-17,18,23,48,50,70,73,78,306.

**17. Mütəllibov Ayaz** N i y a z i o ğ l u (d.1938) – 1989-90-cı illərdə Azərbaycan SSR Nazirlər Sovetinin sədri, 1990-cı ildə Qorbaçovun təkidi ilə Azərbaycan KP MK-nın birinci katibi seçilmişdir. 1992-ci ildə Azərbaycan Respublikasının prezidenti olmuşdur. Ayaz Mütəllibov işində ciddi səhvlərə yol vermiş, nəticədə Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağdan azərbaycanlı əhalini çıxarmış və ərazini işğal etməyə nail olmuşlar. – 14,43,269.

**18. Füzuli** M ə h ə m m ə d S ü l e y m a n o ğ l u (1494-1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 16,31,82,98,107,110.

**19. Vaqif,** M o l l a P ə n a h V a q i f (1717-1797) –görkəmli Azərbaycan şairi, dövlət xadimi. Vaqif qəzəl, müxəmməs, müstəzad və s. formalarda şerlər yazmışdır. Gözəllərin vəsfi Vaqif lirikasının əsas qayəsidir. [475-476] Vaqif şerindəki realizmə meyl Azərbaycan poeziyasının inkişafına güclü təsir göstərmişdir. Qarabağ hakimi İbrahim xanın (1769-cu il) baş vəziri olmuşdur. – 16,27,82,107,109,303.

**20. Sirus Təbrizli,** T ə b r i z l i S i r u s X u d a d a t o ğ l u (d.1942) – Azərbaycan yazıçısı və publisist. Birinci (1995) və ikinci (2000) çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. Yeni Azərbaycan Partiyasının sədr müavinidir. 1996-2001-ci illərdə Respublika Mətbuat və İnformasiya naziri olmuşdur. – 17-25,265,266,291.

**21. Əbülfəz Elçibəy**, Ə l i y e v Ə b ü l f ə z Q ə d i r q u l u o ğ l u (1938-2000) – 1989-cu ildə yaradılan AXC-nin, sonralar AXCP-nin sədri. 1992-93-cü illərdə Azərbaycan Respublikasının prezidenti olmuşdur. – 18,43,44, 350,365.

**22. Fikrət Qoca,** Qocayev Fikrət Göyüş oğlu (d.1935) – Azərbaycanın xalq şairi. «Qobustan» incəsənət toplusunun baş redaktoru və Azərbaycan Yazıçılar Birliyinin katibidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 18,48,70,73.

**23. Mirzə Cəlil,** M ə m m ə d q u l u z a d ə C ə l i l H ü s e y n q u l u o ğ l u (ədəbi təxəllüsü

Molla Nəsrəddin; 1866-1932) – böyük Azərbaycan yazıçısı, jurnalist, ictimai xadim. Mirzə Cəlilin ictimai-ədəbi fəaliyyəti XIX əsrin 80-ci illərinin axırından XX əsrin 30-cu illərinə qədərki böyük tarixi dövrü əhatə edir. 40 illik yaradıcılığı boyu müxtəlif janrlarda yazdığı əsərləri ilə Mirzə Cəlil Azərbaycan realist ədəbiyyatının yüksək pilləyə qalxmasında müstəsna rol oynamışdır. 1906-cı il aprelin 7-də çıxan «Molla Nəsrəddin» jurnalının nəşrinə başlamaqla Mirzə Cəlil Azərbaycanda, eləcə də Yaxın Şərqdə satirik jurnalistikanın əsasını qoymuşdur. Bu zamandan Mirzə Cəlil Molla Nəsrəddin adı ilə məşhur oldu. – 18,24,82,83,110,169,171,174.

**24. Sabir**, M i r z ə Ə l ə k b ə r Z e y n a l a b d i n o ğ l u T a h i r - z a d ə (1862-1911) – böyük Azərbaycan şairi, mütəfəkkir, ictimai xadim. Sabir Azərbaycan ədəbiyyatı, ictimai və bədii fikrinin ən qabaqcıl simalarındandır. O, Azərbaycan ədəbiyyatında tənqidi realizmin, satirik poeziyanın qüdrətli nümayəndəsidir. – 18,82,83,110.

**25. Səməd Vurğun,** S ə m ə d Y u s i f o ğ l u V ə k i l o v (1906-1956) – görkəmli Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın xalq şairi. S.Vurğunun yaradıcılığı XX əsr Azərbaycan şerinin inkişafında mühüm rol oynamışdır. S.Vurğun Azərbaycan Yazıçılar İttifaqının məsul katibi, sədri, Azərbaycanın Xarici Ölkələrlə Mədəni Əlaqə Cəmiyyətinin sədri, Azərbaycan MEA-nın vitse prezidenti olmuşdur, iki dəfə SSRİ Dövlət mükafatı laureatı adına layiq [476-477] görülmüşdür. – 21, 29, 30, 31, 70, 80, 84, 98, 105, 125, 133, 297, 303.

**26. Mirzə İbrahimov,** İ b r a h i m o v M i r z ə Ə j d ə r o ğ l u (1911-1993) – Azərbaycan yazıçısı, dramaturq, ictimai və dövlət xadimi. Azərbaycanın xalq yazıçısı. Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən olan M.İbrahimov bir sıra hekayə, povest və romanların müəllifidir. Azərbaycan Yazıçılar İttifaqının sədri, birinci katibi, SSRİ Yazıçılar İttifaqının katibi, Azərbaycan Respublikası Ali Sovetinin sədri, Azərbaycan və SSRİ Ali Sovetlərinin deputatı, Asiya və Afrika Ölkələri ilə Sovet Həmrəylik Komitəsinin sədri olmuşdur. M.İbrahimov AMEA-nın akademiki, Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı, Beynəlxalq Nehru mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanıdır. – 22,32,70,85.

**27. «Koroğlu»** – Azərbaycan, Yaxın Şərq və Orta Asiyada geniş yayılmış qəhrəmanlıq eposu. XVII əsr tarixçilərinin verdiyi məlumatda Koroğlunun və onun silahdaşlarının adı çəkilir. Zaman keçdikcə Koroğlu mərdliyinə, şücaətinə görə türk xalqlarının əfsanəvi qəhrəmanına çevrilmişdir. – 22,301,302,303,304.

**28. İsmayıl Şıxlı,** Ş ı x l ı İ s m a y ı l Q ə h r ə m a n o ğ l u (1919-1995) – istedadlı Azərbaycan yazıçısı, ictimai xadim. Azərbaycanın xalq yazıçısı. İsmayıl Şıxlı məşhur «Dəli Kür» romanında psixoloji baxımdan dərin xarakterlər yaratmışdır, İsmayıl Şıxlı Azərbaycan Yazıçılar İttifaqının birinci katibi, SSRİ Yazıçılar İttifaqının katibi olmuşdur. Azərbaycan Respublikası Ali Sovetinin deputatı seçilmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 22,70.

**29. Tarkovski** A n d r e y A r s e n y e v i ç (1932-1986) – böyük rus kinorejissoru. Lenin mükafatı laureatı. – 23.

**30. Bünyadov Ziya Musa oğlu** (1921-1997) – görkəmli Azərbaycan alimi, şərqşünas-tarixçi, ictimai xadim. Böyük Vətən müharibəsi (1941-45) iştirakçısı, Sovet İttifaqı Qəhrəmanı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1989-97-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, 1995-ci ildən Milli Məclisin deputatı olmuşdur. 1997-ci ildə Azərbaycanın dövlətçiliyinə və müstəqilliyinə düşmən olan qüvvələr tərəfindən xaincəsinə qətlə yetirilmişdir. – 24,271.

**31. Bəxtiyar Vahabzadə,** V a h a b z a d ə B ə x t i y a r M a h m u d o ğ l u (d.1925) – Azərbaycanın xalq şairi, dramaturq, ədəbiyyatşünas. Azərbaycan Dövlət mükafatı laureatı, 1991-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Milli EA-nın akademikidir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 24,60,70,104,120,121, [477-478] 125,128,167-175.

**32. Nigar Rəfibəyli,** N i g a r X u d a d a t q ı z ı (1913-1981) – Azərbaycanın xalq şairi. N.Rəfibəyli lirik şerlər müəllifidir. Azərbaycanın gözəl təbiət mənzərələri, Azərbaycan qadınlarının mənəvi zənginliyi, vətənpərvərlik, sülh, demokratiya, azadlıq ideyaları yazdığı şer və poemaların əsas mövzusudur. – 26,70.

**33. Natəvan,** X u r ş u d b a n u M e h d i q u l u x a n ı n q ı z ı (1832-1897) – Azərbaycan şairi.

Mehdiqulu xanın qızı, İbrahimxəlil xanın nəvəsidir. «Xan qızı» adı ilə tanınmışdır. Əsərləri dərin səmimiyyəti, incə lirizmi ilə seçilir. Yüksək sənətkarlıq nümunəsi olan şerlərində təkrir, qoşa qafiyə, rədif, məcaz və s. bədii vasitələri məharətlə işlətmişdir. Natəvan həm də istedadlı rəssam olmuşdur. – 29.

**34. Rəsul Rza,** R ə s u l İ b r a h i m o ğ l u R z a y e v (1910-1981) – görkəmli Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın xalq şairi. O, Azərbaycan poeziyasını yeni forma və üslub keyfiyyətləri, orijinal obrazlarla zənginləşdirmişdir. SSRİ Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı. – 29,32,70,72,80,84,105,125,133.

**35. Süleyman Rüstəm,** S ü l e y m a n Ə l i a b b a s o ğ l u R ü s t ə m- z a d ə ( 1906 – 1989) – görkəmli Azərbaycan şairi, dramaturq, ictimai xadim. Sosialist Əməyi Qəhrəmanı, Azərbaycanın xalq şairi, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı. Müharibə dövrü (1941-1945) yaradıcılığında Cənubi Azərbaycanda xalqın həyat və milli azadlıq uğrunda mübarizəsinə həsr olunmuş əsərlər xüsusi yer tutur. – 29,32,70,84,105,125.

**36. Fadeyev** A l e k s a n d r A l e k s a n d r o v i ç (1901-1956) – rus yazıçısı, ictimai xadim. SSRİ Dövlət mükafatı laureatı. Fadeyev məqalə və çıxışlarında klassik və müasir Azərbaycan ədəbiyyatını, Nizami, Xaqani, M.F.Axundov, M.Ə.Sabir və b.-nın yaradıcılığını yüksək qiymətləndirmişdir. – 30.

**37. Sabir Rüstəmxanlı,** R ü s t ə m x a n l ı S a b i r X u d u o ğ l u (d.1946) – Azərbaycan şairi, publisist, ictimai xadim. Azərbaycan Respublikasının xalq şairi. Milli Məclisin üzvüdür. 1991-95-ci illərdə Azərbaycan Respublikasının Mətbuat və İnformasiya naziri işləyib. Hazırda Vətəndaş Həmrəyliyi Partiyasının sədridir. – 30-45.

**38. Hüseyn Cavid,** H ü s e y n A b d u l l a o ğ l u R ə s i z a d ə (1882 - 1941) – böyük Azərbaycan şairi, dramaturq. Hüseyn Cavid Azərbaycan mütərəqqi romantizminin banilərindən biri olmuşdur. O, lirik şerlərin, lirik-epik, epik poemaların müəllifidir.

Hüseyn Cavid daha çox dramaturq kimi tanınmışdır. Onun fəlsəfi və [478-479] tarixi faciələri forma yeniliyi baxımından Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratmış, milli teatr mədəniyyətinin inkişafına qüvvətli təsir göstərmişdir. Azərbaycanın ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. – 31,74,83,109,125,174.

**39. «Kitabi-Dədə Qorqud»** – Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi. «Kitabi-Dədə Qorqud» dastanının yaranmasından 1300 il keçir. Elm aləminə XIX əsrdən məlum olan bu qəhrəmanlıq dastanlarının hələlik XV-XVI əsrlərdə köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) tapılmışdır. – 31,81,399.

**40. Süleyman Rəhimov,** R ə h i m o v S ü l e y m a n H ü s e y n o ğ l u (1900 - 1983) –görkəmli Azərbaycan yazıçısı, ictimai xadim. Azərbaycanın xalq yazıçısı. Sosialist Əməyi Qəhrəmanı. Onun əsərlərində Azərbaycan xalqının tam birəsrlik tarixi öz əksini tapmışdır. Azərbaycan Yazıçılar Birliyinin sədri olmuşdur. – 32,85, 105,125.

**41. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 62,7 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı Prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 35,55, 56,78,79,93,113,114,118,127,132,134,167,182,192,193,200,250,312-313,413

**42. Almas İldırım,** A l m a s z a d ə A l m a s İ l d ı r ı m Ə b d ü l m ə- h ə m m ə d o ğ l u (1907-1952) – görkəmli Azərbaycan şairi. Şerlərində ifadə etdiyi «millətçilik» fikirlərinə görə sovet hüquqmühafizə orqanları tərəfindən təqib olunmuş və Vətəni tərk etməyə məcbur olmuşdur. Əvvəl İranda, sonra isə Türkiyədə məskunlaşmışdır. Şerlərində Vətən həsrəti əsas yer tutmuşdur. Türkiyənin Əlazıq şəhərində vəfat etmişdir. – 35,36.

**43. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Dövlətdə ən yüksək rəsmi şəxs prezidentdir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 35,36,93, 127,184,309,310,311,312-386,426.

**44. 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi.** Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən Sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili

qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara [479-480] böyük maddi ziyan dəymişdi. 1990-cı ilin Qanlı Yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 39,40,41,72,101,120.

**45. Azərbaycan Xalq Cəbhəsi** (AXC) – ictimai-siyasi təşkilat. 1989-cu ildə təsis konfransı keçirilmiş, Proqram və Nizamnaməsi qəbul olunmuşdur. 1999-cu il iyulun 25-də keçirilmiş qurultayının qərarı ilə Azərbaycan Xalq Cəbhəsi Partiyası adlandırılmışdır. – 39,40,41,42,43,44,266,268,269,279,280,283,284.

**46. Etibar Məmmədov,** Məmmədov Etibar Salidar oğlu (d.1955) – Azərbaycan Milli İstiqlal partiyasının sədri. 1990-95 və 1995-2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. – 39.

**47. Rəhim Qazıyev,** Qazıyev Rəhim Həsən oğlu (d.1943) – texnika elmləri namizədi. Azərbaycan Politexnik İnstitutunun müəllimi, 1992-93-cü illərdə Azərbaycan Respublikasının müdafiə naziri olmuşdur. Ordu quruculuğunda kobud səhvlərə yol vermiş, nəticədə Azərbaycan torpaqlarının bir hissəsi, o cümlədən Şuşa şəhəri ermənilər tərəfindən işğal olunmuşdur. – 40,41.

**48. Vaqif Cəbrayılzadə,** Cəbrayılov Vaqif Ysub oğlu (d.1949) – Azərbaycan şairi. Mirzə Cəlil mükafatı laureatı. – 47.

**49. Çingiz Abdullayev** (d.1959) – Azərbaycan yazıçısı. Hüquq elmləri doktoru. Onlarla detektiv roman və povestlər müəllifidir. Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin katibidir. 1992-ci ildən Azərbaycan Respublikası PEN klubunun vitse prezidentidir. – 47.

**50. Azər Mustafazadə,** Mustafazadə Azər Abdulla oğlu (d.1939) — tərcüməçi və naşir. Rusiya Federasiyasının Əməkdar mədəniyyət işçisi. Hazırda Azərbaycan Dövlət Nəşriyyatının («Azərnəşr») direktorudur (1990-cı ildən). Bədii tərcümə ilə ardıcıl məşğul olur. – 50.

**51. Süleyman Dəmirəl** (d.1924) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. Yeddi dəfə hökumətə başçılıq etmiş, 1993-2000-ci illərdə Türkiyə Respublikasının prezidenti olmuşdur. 1993-cü il mayın 16-dan isə dövlətə rəhbərlik etmiş Süleyman Dəmirəlin siyasi həyatının mənasını Türkiyəni iqtisadi cəhətdən dinamik inkişaf edən, demokratik dəyərlərə əsaslanan, Avropa ilə qovuşan bir dövlətə çevirmək əzmi təşkil etmişdir. Yeni türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi prezident kimi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur. Süleyman Dəmirəl: «Türkiyə həmişə Azərbaycanın yanındadır, Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir, onun inkişaf etməsi üçün əlindən gələn hər bir [480-481] yardımı göstərmişdir və göstərməkdə də davam edəcəkdir» kəlamına əbədi sadiq dövlət xadimidir.

S.Dəmirəl Türkiyə-Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə görə Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 55,113,312-313.

**52. Osmanlı imperiyası** – Sultan Türkiyəsinin rəsmi adı (Osmanlılar sülaləsinin əsasını qoymuş I Osmanın adındandır). XV əsrin 2-ci yarısından Osmanlı dövləti imperiyaya çevrilməyə başlamış, XV-XVI əsrlərdə Asiya, Avropa və Afrikada türk işğalları nəticəsində dünyanın ən böyük dövlətlərindən biri olmuşdur. 1918-ci ildə Birinci dünya müharibəsində məğlubiyyətindən sonra tamamilə dağıldı, 1922-ci ildə Türkiyə sultanlığına da son qoyuldu. –55,113.

**53. Mustafa Kamal Atatürk,** Atatürk Qazi Mustafa Kamal (1881-1938) –Türkiyə dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923-38). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir. 1916-cı ildə ona general rütbəsi və paşa titulu verilmişdir.

Atatürk 1919-cu ildə «kamalçılar hərəkatına» – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soy adı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 56,132.

**54. Sovetlər İttifaqı**, Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) – 1922-1991-ci illərdə keçmiş Rusiya imperiyasının böyük hissəsində mövcud olmuş dövlət. SSRİ-nin yaradılmasına dair Müqaviləyə (dek.1922) əsasən onun tərkibinə Belorusiya (BSSR), Rusiya (RSFSR), Cənubi

Qafqaz respublikaları (ZSFSR; 1936-cı ildən müttəfiq respublikalar – Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR) və Ukrayna SSR, 1925-ci ildə – Özbəkistan SSR, Türkmənistan SSR, 1929-cu ildə Tacikistan SSR, 1936-cı ildə Qazaxıstan SSR, Qırğızıstan SSR, 1940-cı ildə Moldaviya SSR, Latviya SSR, Litva SSR, Estoniya SSR daxil olmuşdular.

1991-ci ilin dekabrında Belorusiya, Rusiya və Ukrayna SSRİ-nin mövcudluğunun dayandırıldığını elan edərək Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılması haqqında Saziş imzaladılar (8 dekabr, Minsk). 1991-ci il dekabrın 21-də Latviya, Litva və Estoniya istisna olmaqla keçmiş SSRİ-nin digər müttəfiq respublikalarının başçıları Alma-Atada Bəyannamə imzalayaraq MDB-nin yaradılması haqqında məqsəd və prinsiplərə qoşulduqlarını bəyan etdilər. 56,83,87,88,90,101,103,105,106,114,119,142,182,220,256,264,326,359,370. [481-482]

**55. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 56,247,253.

**56. «Əsrin müqaviləsi»** – 1994-cü ilin sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının və «Günəşli» yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 57,178,181,206,368.

**57. Naxçıvan Dövlət Universiteti** (NDU) – ali təhsil məktəbi. Naxçıvan MR-in mühüm təhsil, elm və mədəniyyət mərkəzi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 dekabr 1990-cı il qərarı ilə Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu əsasında yaradılmışdır. 32 ixtisas üzrə mütəxəssislər hazırlayan 9 fakültəsi (tarix, filologiya, iqtisad-hüquq, təbiətşünaslıq, tibb, fizika-riyaziyyat, pedaqoji, incəsənət, xarici tələbələr), hazırlıq söbəsi fəaliyyət göstərir. NDU-da 3600-dən çox tələbə təhsil alır. –62-63.

**58 Böyük Oktyabr Sosialist inqilabı** – müasir tarixşünaslıqda Oktyabr çevrilişi də adlanır. 1917-ci il oktyabrın 24-dən 25-nə (noyabrın 6-dan 7-nə) keçən gecə V.İ.Leninin başçılığı ilə bolşeviklər silahlı üsyan edərək Müvəqqəti hökuməti devirdilər. Bunun nəticəsində V.İ.Lenin başda olmaqla Rusiyada Sovet hökuməti - Xalq Komissarları Soveti yarandı. – 65,90,101.

**59. Xudiyev Nizami Manaf oğlu** (d.1949) – filologiya elmləri doktoru, professor. 1996-cı ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri. Azərbaycan Respublikası Milli Məclisinin (1-2-ci çağırış) deputatıdır. – 65.

**60. Vaqif Yusifli,** Yusifov Vaqif Əziz oğlu (d.1948) – tənqidçi, ədəbiyyatşünas, Əməkdar mədəniyyət işçisi. – 66-77.

**61. Sokrat** (e.ə.470/469-399) – qədim yunan filosofu. Sokrat söhbətlərə əsasən həqiqətin üzə çıxarılması kimi anlaşılan fəlsəfi dialektikanın banilərindən biri olmuşdur. Sokrata görə aləmin quruluşu, əşyaların fiziki təbiəti [482-483] dərkedilməzdir. Sokratın fikrincə yaramaz hərəkətlər bilməməzlikdən törəyir və heç kəs bilərəkdən qəddar olmur. – 68.

**62. Səyyad Aran,** Salahlı Səyyad Adil oğlu (d.1952) – filoloq. 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. –68,91.

**63. Fikrət Sadıq,** Sadığov Fikrət Abbas oğlu (d.1930) – Azərbaycanın xalq şairi, Azərbaycan Dövlət mükafatı laureatıdır. –68.

**64. Nizami Cəfərov,** Cəfərov Nizami Qulu oğlu (d.1959) – Azərbaycan tənqidçisi, ədəbiyyatşünas, elmlər doktoru, professor, Azərbaycan Respublikası Milli Məclisinin deputatı. Bakıda yaranmış Atatürk mərkəzinin direktorudur. – 68.

**65. Rafael Hüseynov** (d.1955) – ədəbiyyatşünas, publisist. Azərbaycan Respublikası Milli Məcli-

sinin deputatı, Nizami adına Ədəbiyyat muzeyinin direktorudur. – 68,90.

**66. Xeyrəddin Qoca,** Q o c a y e v X e y r ə d d i n S a y ə d d i n o ğ- l u (d.1950) – Azərbaycan jurnalisti. 1995-2000-ci illərdə Milli Məclisin deputatı, 1997-2002-ci illərdə isə Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının baş konsulu olmuşdur. – 68.

**67. R ü s t ə m B e h r u d i** (d.1957) – Azərbaycan şairi, publisist. «Daha gülə-gülə ağlamaq olmur» publisistik poeması C.Məmmədquluzadəyə, «Qanlı gəlin» məktub poeması milli-azadlıq mübarizəsinə həsr olunmuşdur. – 69,78-80.

**68. Hüseyn Arif,** H ü s e y n C a m a l o ğ l u H ü s e y n z a d ə (1924-1992) – istedadlı Azərbaycan şairi, Azərbaycanın xalq şairi. Gözəl lirik şerlər yazmışdır. Azərbaycan Dövlət mükafatı laureatı. – 70.

**69. İsa Hüseynov,** H ü s e y n o v İ s a M u s t a f a o ğ l u (d.1928) – Azərbaycanın xalq yazıçısı. «Məhşər» tarixi romanı böyük Azərbaycan şairi İ.Nəsimiyə həsr olunmuşdur.Onlarla povest və romanlar müəllifidir. – 70.

**70. Əli Kərim,** Ə l i P a ş a o ğ l u K ə r i m o v (1931-1969) – istedadlı Azərbaycan şairi. Ə.Kərim əsasən, gənc nəslin mənəvi əxlaqi zənginliyini, vətənpərvərliyi tərənnüm etmişdir. – 70.

**71. Hüseyn Abbaszadə,** A b b a s z a d ə H ü s e y n A b b a s o ğ l u (d.1922) – istedadlı Azərbaycan yazıçısı, Azərbaycanın xalq yazıçısı. Azərbaycan Yazıçılar Birliyinin katibi. Azərbaycan Dövlət mükafatı laureatıdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur.– 70,225. [483-484]

**72. Adil Babayev,** B a b a y e v A d i l Q a f a r o ğ l u (1925-1977) – Azərbaycan şairi, dramaturq. Əsasən lirik şerləri, teatr tarixi və səhnə xadimləri haqqında əsərləri ilə məşhurdur. – 70.

**73. Xəlil Rza Ulusoy,** X ə l i l o v X ə l i l R z a o ğ l u (1932-1994) –Azərbaycanın xalq şairi, Azərbaycanda müstəqillik hərəkatının görkəmli öndərlərindən biri. – 70,103,121,125,128,271.

**74. Tofiq Bayram,** B a y r a m o v T o f i q Q u l a m o ğ l u (1934-1991) – Azərbaycan şairi. Tərcümə ilə də məşğul olmuşdur. – 70.

**75. Sabir Əhmədli,** Ə h m ə d l i S a b i r M ə h ə m m ə d o ğ l u (d.1930) – Azərbaycanın xalq yazıçısı, Əməkdar incəsənət xadimi. – 70.

**76. Fərman Kərimzadə,** K ə r i m z a d ə F ə r m a n İ s m a y ı l o ğ l u (1937-1989) – Azərbaycan yazıçısı. – 70.

**77. İsi Məlikzadə,** M ə l i k z a d ə İ s i A b b a s o ğ l u (1934- 1995) – Azərbaycan yazıçısı. – 70,73.

**78. Mikayıl Müşfiq,** İ s m a y ı l z a d ə M i k a y ı l M i r z ə Ə b d ü l- q a d i r o ğ l u (1908-1939) – şair. Poeziyasının əsas qayəsi müasirlik, xəlqilik, humanizm olmuşdur. Onun lirikası forma etibarı ilə novatorluğun ən yaxşı nümunələrindəndir. Azərbaycanın ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. – 70,125.

**79. Məmməd Rahim,** M ə m m ə d R a h i m A b b a s o ğ l u H ü s e y- n o v (1907-1977) – tanınmış Azərbaycan şairi, Azərbaycanın xalq şairi. SSRİ Dövlət mükafatı laureatı. – 70,125.

**80. Osman Sarıvəlli,** O s m a n A b d u l l a o ğ l u Q u r b a n o v (1905-1990) – Azərbaycanın xalq şairi. Əsasən, lirik serlər yazmışdır. Yaradıcılığında Cənubi Azərbaycan haqqında yazdığı lirik şerlər xüsusi yer tutur. – 70,125.

**81. Əbülhəsən,** Ə b ü l h ə s ə n Ə l i b a b a o ğ l u Ə l ə k b ə r z a d ə (1906-1986) – Azərbaycanın xalq yazıçısı. Azərbaycan nəsrinin görkəmli nümayəndələrindəndir. «Müharibə» roman epopeyasında Azərbaycan xalqının Böyük Vətən müharibəsində ön və arxa cəbhələrdə fədakarlığı və vətənpərvərliyi təsvir olunur. – 70,125.

**82. Ənvər Məmmədxanlı,** Məmmədxanlı Ənvər Qafar oğlu (1913-1990) – istedadlı Azərbaycan yazıçısı, nasir, dramaturq. Məmməd[484-485]xanlının hekayələri Azərbaycan ədəbiyyatında lirik - romantik nəsrin inkişafında mühüm rol oynamışdır. Onun ssenariləri əsasında («Bəxtiyar», «Fətəli xan», Mehdi Hüseynlə birlikdə «Məhəbbət dastanı», «Leyli və Məcnun», «Babək») bədii filmlər çəkilmişdir. – 70.

**83. Mehdi Hüseyn,** Hüseynov Mehdi Əli oğlu (1909-1965) – tanınmış Azərbaycan yazıçısı, dramaturq və ictimai xadim. Azərbaycanın xalq yazıçısı. M.Hüseyn həm də gözəl dramaturq olmuşdur. Azərbaycan Yazıçılar İttifaqının katibi və birinci katibi, SSRİ Yazıçılar İttifaqının katibi, SSRİ və Azərbaycan Ali Sovetlərinin deputatı olmuşdur. SSRİ Dövlət mükafatı laureatıdır. –70,84,105,125.

**84. İlyas Əfəndiyev**, Əfəndiyev İlyas Məhəmməd oğlu (1914-1996) – görkəmli Azərbaycan yazıçısı, dramaturq. Azərbaycanın xalq yazıçısı. İ.Əfəndiyevin dram əsərlərinin Azərbaycan Milli Dram Teatrının repertuarının zənginləşməsində müstəsna rolu var. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 70,125.

**85. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar; 1000 nəfərdən artıq adam öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 72.

**86. Qoqol,** Nikolay Vasilyeviç (1809-1852) - məşhur rus yazıçısı, dramaturq. Qoqol rus ədəbiyyatında tənqidi realizmin möhkəmlənməsi və inkişafında müstəsna rol oynamışdır. –73.

**87. Fatma Abdullazadə,** Abdullazadə Fatma Hüseyn qı-zı (d.1948) – elmlər doktoru, professor.Azərbaycan Respublikası Prezident Aparatı hümanitar siyasət şöbəsinin müdiri. 1995-2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. – 74,76,92,441.

**88. Nizami Gəncəvi,** əsl adı İlyas Yusif oğlu (1141-1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. O, bütün əsərlərində elmin fəzilətindən bəhs etmişdir. – 82,98,107,304. [485-486]

**89. Nəsimi,** əsl adı Seyid Əli (1369-1417) – Azərbaycan şairi və mütəfəkkiri. İmadəddin Nəsimi adı ilə də məşhurdur. Əsərlərini Azərbaycan, ərəb, fars dillərində yazmışdır. Hürufiliyi yaydığı üçün Hələbdə həbs olunmuş, «kafir», «dinsiz» elan edilərək ruhanilərin fitvası ilə öldürülmüşdür. – 82,98,107,331.

**90. Mirzə Fətəli Axundov** (1812-1878) – böyük Azərbaycan yazıçısı, materialist filosof. Axundov Azərbaycan ədəbiyyatı tarixində daha çox pyesləri, bədii nəsri və fəlsəfi əsərləri ilə tanınmışdır. 1850-55-ci illərdə yazdığı altı komediya ilə Azərbaycan və bütün Şərq ədəbiyyatında realist dramaturgiyanın əsasını qoymuşdur. – 82,107,108,174.

**91. Cəfər Cabbarlı,** Cabbarlı Cəfər Qafar oğlu (1899-1934) – böyük Azərbaycan yazıçısı, dramaturq. Cabbarlı saysız-hesabsız lirik və satirik şerlərin, hekayə və dram əsərlərinin müəllifidir.

Cabbarlı yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişafına böyük təsir göstərmiş, istedadlı dramaturqlar nəslinin yetişməsində mühüm rol oynamışdır. Cabbarlının zəngin irsi Azərbaycan ədəbiyyatı tarixində layiqli yer tutur. – 83, 125,174.

**92. Rəfibəylilər** – XIX yüzilliyin sonu, XX yüzilliyin əvvəlində Azərbaycanın Gəncə vilayətində yaşamış ziyalı nəsli. Sovet hakimiyyəti dövrunda sürgünlərə, həbslərə, ağır işgəncələrə məruz qalmış bu insanlar həmişə soyadlarının yüksək mənəvi keyfiyyətlərinə sadiq qalmış, maarifçilik və millətin dirçəlişi yolunda çalışmışlar. Onların ən böyük nümayəndəsi Ələkbər bəy Rəfibəyli həqiqi bir vətənpərvər, sadiq bir millətpərəst xalq rəhbəri idi.

Bu nəslin ən dəyərli nümayəndəsi isə – Azərbaycanda milli hökumətin səhiyyə naziri, daha sonra Gəncə valisi, 1920-ci il qanlı Gəncə üsyanının rəhbəri və sevimli şairimiz Nigar xanım Rəfibəylinin atası, xalq yazıçısı Anarın babası Xudadat bəy Rəfibəyli olmuşdur. – 90.

**93. Xaqani Şirvani,** Ə f z ə l ə d d i n İ b r a h i m İ b n Ə l i N ə c c a r Ş i r v a n i (1126-1199)– Azərbaycan şairi, mütəfəkkir. Xaqani Azərbaycan ədəbiyyatının ən görkəmli simalarındandır. Xaqani Şirvaninin ədəbi irsi olduqca zəngindir. Onun epik poeziyanın ilk görkəmli nümunələrindən «Töhfət ül-İraqeyn» adlı məsnəvisi, «Mədain xərabələri» adlı məşhur fəlsəfi qəsidəsi, saf eşqi, məhəbbəti tərənnüm edən qəzəlləri, «Həbsiyyə» adlandırılan qəsidələri və mərsiyələri klassik Şərq ədəbiyyatında ən kamil əsərlərdir. – 98, 107.

**94. Elmira Axundova,** A x u n d o v a E l m i r a H ü s e y n q ı z ı (d.1953) – publisist, «Litaraturnaya qazeta»nın və «Azadlıq» (ABŞ) radiostansiyasının Azərbaycan üzrə xüsusi müxbiri. 1995-ci ildən Azərbaycan Prezidenti yanında əfvetmə komissiyasının üzvüdür. Həsən bəy Zərdabi mükafatı laureatı. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. –102,103. [486-487]

**95. «Literaturnaya qazeta»** – Rusiya Federasiyasında ədəbi, ictimai, siyasi qəzet. 1929-cu ildən Moskvada (fasilələrlə) nəşr edilir. – 102.

**96. Seyid Əzim Şirvani** (1835-1888) – Azərbaycan şairi. O, Azərbaycan və fars dillərində yazmışdır. XIX əsrin 10-cu yarısında ədəbi məktəb yaradan S.Ə.Şirvani lirik və satirik Azərbaycan şerini zənginləşdirmişdir. Yüksək bədii sənətkarlıqla yazılmış lirik şerlərində - qəzəl, qəsidə, tərkibbənd, müxəmməs, müsəddəs, rübai, qitə–məhəbbət, həyat eşqi tərənnüm olunur. Satirik şerlərində «xalqın qanını şişəyə tutan» çar məmurlarını ifşa etmişdir. – 107.

**97. Nəcəfbəy Vəzirov,** V ə z i r o v N ə c ə f b ə y F ə t ə l i b ə y o ğ l u (1854-1926) – Azərbaycan dramaturqu, publisist, teatr xadimi. Nəcəfbəy Vəzirovun humanizmi, yüksək bəşəri idealları tərənnüm edən «Müsibəti Fəxrəddin» Azərbaycan ədəbiyyatında ilk faciədir. Bu əsər Azərbaycan bədii və ictimai fikir tarixində xüsusi yer tutur. – 107.

**98. Üzeyir Hacıbəyov,** H a c ı b ə y o v Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885-1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 107,222,295,297,301,302,303,304,305.

**99. Supsa limanı** – Qara dəniz sahilində liman. 1996-cı il martın 8-də Bakıdan Supsa limanına neft kəmərinin çəkilməsinə dair beynəlxalq saziş imzalanmışdır. 1999-cu il aprelin 17-də Bakı - Supsa ixrac boru kəməri, Supsa yerüstü terminalı istifadəyə verilmişdir. Açılışda Azərbaycan Prezidenti Heydər Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyəti iştirak etmişdi. – 117,187.

**100. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları Saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və xarici sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici işlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; [487-488] Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 116,229,241,245,248,250,251,252,256, 369.

**101. Novorossiysk** – Rusiya Federasiyasının Krasnodar diyarında şəhər. Bakıdan Novorossiyskə neft kəməri çəkilmiş və 1997-ci ildə istifadəyə verilmişdir.– 117,187,313.

**102. Transqafqaz nəqliyyat dəhlizi** (TRASEKA) – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transqafqaz nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 118,194,249,253,254,260.

**103. Qorbaçov,** M i x a i l S e r g e y e v i ç (d.1931) – 1985-91-ci illərdə Sov.İKP MK-nın Baş

katibi, 1990-91-ci illərdə SSRİ-nin ilk və son prezidenti. Qorbaçov «yenidənqurma» adı ilə «aşkarlıq və demokratiya» siyasi xəttini, «humanist, demokratik sosializm» şüarını meydana atdı. Sovet totalitar rejimi ilə uyuşmayan «yenidənqurma» ölkəni dərin siyasi və iqtisadi böhrana saldı. Qorbaçovun milli münaqişələrə səbəb olan siyasəti, xüsusən Azərbaycana qarşı qərəzli, düşmənçilik mövqeyi ilə səciyyələnirdi. Ermənilərin Azərbaycana olan torpaq iddialarını dəstəkləyən Qorbaçov 1990-cı ilin yanvarında Bakıda baş verən Qanlı Yanvar faciəsinin, həmçinin Tbilisi və Vilnusdakı qanlı hadisələrin təşkilatçısı və günahkarıdır. –119,120,121.

**104. ATƏT-in Lissabon zirvə görüşü** — 1996-cı il dekabrın 2-4-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in 54 üzvünün dövlət və hökumət başçılarının iştirakı ilə növbəti Zirvə toplantısı keçirildi. Toplantıda müzakirə olunan məsələlər arasında Azərbaycan Respublikası nümayəndə heyətinin təkidi ilə gündəliyə salınan Ermənistan-Azərbaycan münaqişəsi geniş diskussiyaya səbəb oldu. Azərbaycan Respublikası nümayəndə heyətinin başçısı Prezident Heydər Əliyevin qəti, prinsipial mövqeyi və gərgin səyi nəticəsində yekun sənədə əlavə kimi qəbul edilən ATƏT sədrinin bəyanatında ilk dəfə olaraq ən yüksək səviyyədə münaqişənin həllinin əsası kimi Azərbaycan Respublikasının ərazi bütövlüyü 53 dövlət tərəfindən qətiyyətlə dəstəkləndi və Dağlıq Qarabağın yalnız Azərbaycan Respublikasının tərkibində statusunun müəyyən olunması öz əksini tapdı. – 121,122,123,236,288,309,340,341,378, 383,387.

**105. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də ATƏT-in Minsk qrupu yaradıldı.

1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna [488-489] iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və Fransa həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. –121,122,156,235,285,287,310,313,317,319,329,332,335,341,354,355,362,365, 376,383,387.

**106. Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974-76 və 1986-88-ci illərdə Fransanın Baş naziri, 1977-95-ci illərdə Paris şəhərinin meri olmuşdur. 1974-76-cı illərdə qollistlərin Respublikanın Müdafiəsi naminə Demokratik İttifaqı partiyasının Baş katibi, 1976-cı ildən Respublikanın Müdafiəsi naminə Birlik partiyasının sədridir. 1995-ci ildən Fransa Respublikasının prezidentidir. – 123,286.

**107. Boris Yeltsin,** Boris Nikolayeviç Yeltsin (d.1931) – Rusiyanın siyasi və dövlət xadimi. 1991-2000-ci illərdə Rusiya Federasiyasının ilk prezidenti olmuşdur. – 123,145,286,308,369.

**108. Əli Vəliyev,** Vəliyev Əli Qara oğlu (1901-1983) – Azərbaycanın xalq yazıçısı. M.F.Axundov adına Respublika mükafatı laureatı. Əli Vəliyev, həm də görkəmli jurnalist və publisist olmuşdur. – 125.

**109. Mir Cəlal,** Mir Cəlal Əli oğlu Paşayev (1908-1978)– Azərbaycan yazıçısı, ədəbiyyatşünas. Elmlər doktoru, professor. Əsasən, yumoristik və satirik hekayələr ustasıdır. Ona daha çox şöhrət gətirən tarixi romanı «Bir gəncin manifesti»dir. Mir Cəlal Füzulinin, Cəlil Məmmədquluzadənin, Ə.Haqverdiyevin, habelə XX əsr Azərbaycan ədəbiyyatı tarixinin ən görkəmli tədqiqatçılarındandır. – 125.

**110. Məmməd Səid Ordubadi,** Məmməd Səid Hacağa oğ-lu Ordubadi (1872-1950) – Azərbaycan yazıçısı, şair, dramaturq, publisist, ictimai xadim. M.S.Ordubadi Azərbaycan ədəbiyyatında daha çox 30-40-cı illərdə yazdığı tarixi romanları ilə məşhurdur. O, Azərbaycan ədəbiyyatında tarixi roman janrının əsasını qoymuşdur. – 125,303.

**111. Əhməd Cavad,** Axundzadə Cavad Məmmədəli oğlu (1892-1937) – Azərbaycan şairi. Yaradıcılığında mücərrəd romantizmlə yanaşı, milli istiqlaliyyətə yenidən qovuşmaq arzusundan doğan meyllər mühüm yer tutur. Azərbaycanın ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. – 125.

**112. Yusif Vəzir Çəmənzəminli,** Vəzirov Yusif Mirbaba oğ-lu (1887-1943) – yazıçı. Azərbaycan tənqidi-realist ədəbiyyatının görkəmli [489-490] numayəndəsi. Azərbaycanın ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. – 125.

**113. Rüstəm İbrahimbəyov,** İbrahimbəyov Rüstəm Məm-mədibrahim oğl

u (d.1939) – yazıçı, dramaturq, kino-ssenarist. Azərbaycanın xalq yazıçısı. Azərbaycan, Rusiya və SSRİ Dövlət mükafatları laureatı. 1981-90-cı illərdə Azərbaycan Kinematoqrafçılar İttifaqının birinci katibi, 1990-cı ildən isə sədridir. 1996-cı ildə «Günəşdən usanmışlar» kinofilminin ssenarisinə görə Amerika Kino Akademiyasının «Oskar» mükafatına layiq görülmüşdür. – 127,128.

**114. Eldar Quliyev,** Q u l i y e v  E l d a r  T o f i q  o ğ l u (d.1941) – kino rejissoru. Azərbaycan Respublikasının xalq artisti. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 127.

**115. Şeyxülislam,** P a ş a z a d ə  A l l a h ş ü k ü r  H ü m m ə t  o ğ l u (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. – 146

**116. Şeyx Şamil** (1797-1871) – Dağıstan və Çeçenistanda çar müstəmləkəçilərinə qarşı mübarizənin rəhbəri, imamlığın başçısı. 1835-ci ilin yayında imam seçilmiş və o vaxtdan dağlıların azadlıq mübarizəsinə başçılıq etmişdi.

Təşkilatçılıq bacarığı və iradəsi sayəsində Şamil dağlıları birləşdirə, yerli feodalları özünə tabe edə bilmiş və hərbi teokratik dövlət - imamlıq yaratmışdı.

1870-ci ildə Məkkəyə ziyarətə gedərkən o, Məkkəyə çatmamış Mədinədə vəfat etdi. – 139-149.

**117. Dağıstan Muxtar Respublikası** – Rusiya Federasiyası tərkibində milli -ərazi qurumu, respublika. 1921-ci il yanvarın 20-də təşkil edilmişdir. Sahəsi 50,3 min km$^2$, əhalisi 2094,6 min nəfərdir. 41 inzibati rayonu, 10 şəhəri, 18 şəhər tipli qəsəbəsi var. Paytaxtı Mahaçqala şəhəridir. Dövlət hakimiyyətinin ali orqanı 5 il müddətinə seçilən birpalatalı Dağıstan Respublikasının Ali Sovetidir. – 141-149.

**118. Şevardnadze Eduard Amvrosiyeviç** (d.1928) – Gürcüstanın siyasi və dövlət xadimi. 1972-85-ci illərdə Gürcüstan KP MK-nın birinci katibi,1985-90-cı illərdə SSRİ xarici işlər naziri, 1994-2004-cü illərdə Gürcüstanın prezidenti olmuşdur. – 147.

**119. Heydər Hüseynov,** H ü s e y n o v  H e y d ə r  N ə c ə f  o ğ l u (1908-1950) – Azərbaycan filosofu, ictimai xadim . Azərbaycan Elmlər Akademiyasının akademiki. SSRİ Dövlət mükafatı laureatı. H.Hüseynov [490-491] dialektik və tarixi materializm problemləri, fəlsəfə tarixi və s. mövzularda əsərlər yazmışdır. O, Azərbaycan mədəniyyətinin böyük nümayəndələrinin fəlsəfi irsini öyrənmişdir. Onun ədəbiyyatşünaslığa dair də əsərləri var. – 148.

**120. Axundov adına Azərbaycan Dövlət kitabxanası,** M.F.Axundov adına Azərbaycan Respublikasının Milli kitabxanası – Azərbaycanda ən böyük kitabxana, respublikada çap olunan əsərlərin dövlət kitabsaxlayıcısı, kitabxanaşünaslıq və biblioqrafiya üzrə elmi-metodik mərkəz. Milli kitabxananın əsası 1923-cü il 23 mayda qoyulmuşdur. Kitabxananın indiki binası 1960-cı ildə akademik Mikayıl Hüseynovun layihəsi əsasında tikilmişdir. Kitabxanada 13 oxucu zalı, fondunda isə 430000 kitab var. – 150-157, 216, 450, 454.

**121. Tofiq Quliyev,** Q u l i y e v  T o f i q  Ə l ə k b ə r  o ğ l u (1917-2000) – görkəmli Azərbaycan bəstəkarı. Azərbaycan Respublikasının xalq artisti. Tofiq Quliyev Azərbaycan estrada musiqisinin yaradıcılarındandır. Yaradıcılığında lirik mahnılar əsas yer tutur. 1973-2000-ci illərdə Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin birinci katibi olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 165-166,214-215.

**122. Şekspir,** Vilyam (1564-1616) – dahi ingilis dramaturqu və şairi. Şekspir 37 pyesin - komediyaların, tarixi dramların, faciələrin, poemaların, çoxlu sonetlərin müəllifidir. Dünya dramaturgiyasında faciənəvisliyin inkişafında Şekspirin əsərləri yeni mərhələdir. «Hamlet», «Otello», «Makbet», «Kral Lir», «Antoni və Kleopatra» faciələri dünya mədəniyyəti xəzinəsinə daxil olmuş, bütün xalqların sərvətinə çevrilmiş, müxtəlif dillərə tərcümə olunmuş, milli səhnələrdə təkrar-təkrar tamaşaya qoyulmuş, ekranlaşdırılmışdır. – 173, 175.

**123. Azərbaycan Milli Dram Teatrı** – Azərbaycanın ən qədim dram teatrı. Tarixi 1873-cü ildə Bakıda səhnəyə qoyulmuş M.F.Axundovun «Lənkəran xanının vəziri» və «Hacı Qara» komediyalarının tamaşası ilə başlanır. Bu teatr 1880-90-cı illərdə C.Zeynalovun ev tamaşaları, H.Mahmudbəyovun və H.B.Zərdabinin teatr truppaları əsasında yaradılmışdır.

Azərbaycan SSR XKS-nin 1920-ci il 1 iyul tarixli qərarı ilə Birləşmiş Dövlət Teatrı yaradıldı və buraya bütün teatr truppaları daxil oldu. 1922-ci ildə dram truppası Birləşmiş Dövlət Teatrından ayrıla-

raq müstəqil fəaliyyət göstərməyə başladı. – 167-175.

**124. Kamal Xudaverdiyev,** Xudaverdiyev Kamal Ağahü-seyn oğlu (d.1938) – Azərbaycanın xalq artisti. «Qızıl dərviş» və «Humay» mükafatları laureatı. – 173.

**125. Höte,** İohann Volfranq (1749-1832) – böyük alman şairi, mütəfəkkir və təbiətşünas. Almaniyada Maarifçilik dövrü ədəbiyyatının ən böyük numa[491-492]yəndələrindən, yeni dövr alman ədəbiyyatının banilərindəndir. Höte yaradıcılığının şah əsəri olan «Faust» faciəsində Avropada Maarifçilik ideyalarının inkişafına yekun vurulmuşdur. – 173.

**126. Əziz Şərif,** Şərifzadə Əziz Qurbanəli oğlu (1895-1988) – Azərbaycan ədəbiyyatşünası, tərcüməçi. XIX-XX əsrlər Azərbaycan ədəbiyyatına, ədəbi əlaqələrə, teatra və tərcümə problemlərinə dair əsərlərin, ədəbi-tənqidi məqalələrin müəllifidir. – 174.

**127. Ramiz Rövşən,** Əliyev Ramiz Məmmədəli oğlu (d.1946) — Azərbaycan şairi, kino-dramaturq.– 175.

**128. Görçill,** Uinston Leonard Spenser (1874-1965) – Böyük Britaniyanın görkəmli dövlət, siyasi və hərbi xadimi, 1940-45, 1951-55-ci illərdə Böyük Britaniyanın Baş naziri. Çörçill 2-ci dünya müharibəsi zamanı Britaniya xalqının «mətanət» rəmzi, ABŞ və SSRİ ilə antihitler koalisiyasının təşəbbüsçülərindən biri olmuşdur.

Görçill bir sıra publisistik əsərlərin və memuarların müəllifidir. Ədəbiyyat üzrə Nobel mükafatı laureatıdır. – 179,180.

**129. Kərim Kərimov,** Kərim Abbasəli oğlu Kərimov (1917-2003) – Azərbaycanın görkəmli hərbi xadimi – general-leytenant. 25 il ərzində Kosmik Uçuşlar üzrə Dövlət Komissiyasına başçılıq etmiş K.Kərimovun adı keçmiş SSRİ-də kosmosun öyrənilməsi, bir çox nadir elmi-texniki layihələrin həyata keçirilməsi ilə sıx bağlı olmuşdur. O, Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü, Sosialist Əməyi Qəhrəmanı, Lenin və SSRİ Dövlət mükafatları laureatı adlarına layiq görülmüş, Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir. – 176.

**130. Terri Devid Adamc** (1938) – görkəmli ingilis mühəndis-neftçi, geoloq. Əmək fəaliyyətinə 1963-cü ildə başlamışdır. 1969-cu ildən «Britiş Petroleum» şirkətinin bir çox ölkələrdə nümayəndəsi olmuşdur.

1994-1998-ci illərdə Azərbaycan Beynəlxalq Neft Konsorsiumunun ilk prezidenti olmuşdur.

Azərbaycanda səmərəli fəaliyyətinə görə 1997-ci ildə Britaniya krallığının «Müqəddəs Mixail və Georgi», 1998-ci ildə isə Azərbaycan Respublikasının «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 179,190,197.

**131. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** – Respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 181,182,231,253,417, 426,429,430. [492-493]

**132. ABƏŞ,** Azərbaycan Beynəlxalq Əməliyyat Şirkə-ti – Bakıda fəaliyyət göstərən neft şirkətlərindən biri. 1994-cü ilin axırlarında yaradılmışdır. «Xəzərin Azərbaycan sektorunda neft yataqlarının müştərək işlədilməsi və istifadəyə verilməsi» haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin və dünyanın bir neçə böyük neft şirkətləri ilə imzalanmış müqavilənin payçıları adından onun şərtlərini həyata keçirmək məqsədilə yaradılmış əməliyyat şirkətidir. Buraya 7 ölkəni (B.Britaniya, ABŞ, Yaponiya, Norveç, Rusiya, Türkiyə və Səudiyyə Ərəbistanı) təmsil edən 11 iri neft şirkəti daxildir. – 182,190,197,200.

**133. «Britiş Petroleum»** (Bi-Pi) – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğuldur. Bi-Pi 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 181.

**134. «Neft Daşları»** – Abşeron yarımadasından 42 km cənub-şərqdə, açıq dənizdə, polad dirəklər üzərində salınmış neft «şəhəri». Bu ərazi oradakı daşların (təqr. 20 ədəd) bəzilərində neft-qaz nişanələrinin olması ilə əlaqədar Neft Daşları adlandırılmışdır. Neft Daşları rayonunda geoloji kəşfiyyat işlərinə 1946-cı ildən başlanılmışdır. Çıxarılan neft həm tankerlər, həm də boru kəmərləri vasitəsilə sahələrə nəql edilir. –

183,186,187,417,419,428,429,464.

**135. İpək Yolu,** Böyuk İpək Yolu – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl 2-ci əsrin sonlarından eramızın 16-cı əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mənəvi əlaqələrdə mühüm yer tutmuşdur.

20-ci əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə böyük maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi. TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya-Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 194.

**136. «AMOKO»** – dünyanın ən böyük neft və qaz istehsalçılarından biri. 1989-cu ildə yaradılmışdır. Müxtəlif ölkələrdə 42.000 işçisi var. «AMOKO» Şimali Amerikada ən böyük təbii qaz istehsalçısıdır. Şirkət energetika, neft və qaz emalı, kimya və neft-kimya sahələrində də fəaliyyət göstərir. – 181. [493-494]

**137. «Pennzoyl»** – neft və təbii qaz ehtiyatlarının kəşfiyyatı, istismarı, sürtkü yağlarının istehsalı və satışı ilə məşğul olan şirkət. 1989-cu ildə yaradılmışdır. Mərkəzi ofisi ABŞ-ın Hyüston şəhərindədir. 10 min işçisi var.

«Pennzoyl» şirkəti Azərbaycanda 1992-ci ilin əvvəllərindən fəaliyyət göstərir. – 181,428,429,434.

**138. «Yunokal»** – neft şirkəti. 1980-cı ildə ABŞ-ın Santa-Paula şəhərində «Kaliforniya neft şirkəti» adı ilə yaradılmışdır. «Yunokal» Azərbaycanda fəaliyyət göstərən ilk beynəlxalq neft şirkətlərindəndir. – 181.

**139. «Eksson»** – dünyada ən iri və ən qocaman sənaye müəssisələrindən biri. Mənzil-qərargahı Texas ştatının Dallas şəhərində yerləşir. 1882-ci ildə Con Rokfeller tərəfindən yaradılmışdır. Hazırda dünyanın 90-dan çox ölkəsində fəaliyyət göstərir. Korporasiyada 95 min adam işləyir. 18 ölkədə yerləşən 30 neftayırma müəssisəsinin tam və ya şərikli sahibidir. – 181.

**140. «LUKoyl»** – neft şirkəti. 1993-cü ildə Rusiya Federasiyası hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan «LUKoyl» şirkəti Rusiya, MBD və dünyanın bir çox ölkələrində neft məhsullarının satışı, emalı, hasilatı və kəşfiyyatı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 182.

**141. «Statoyl» şirkəti** – Norveçin «Statoyl» şirkəti 1972-ci ildən fəaliyyət göstərir. Şirkət Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. Hazırda dünyanın 19 ölkəsində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. Şirkət 1994-cü ildən Azərbaycan neft layihələrində fəal iştirak edir. – 182

**142. «İtoçu» şirkəti** – Yaponiyanın «İtoçu» korporasiyası 1958-ci ildə yaradılmışdır. Dünyanın 176 ölkəsində şirkətləri və firmaları var. «İtoçu» 1996-cı ilin avqustundan Bakıda fəaliyyət göstərir. – 182.

**143. «Türk petrolları»,** Türkiyə petrolları A.O. – 1954-cü ildə Türkiyənin neft və qaz sənayesinin inkişafı üçün yaradılmışdır. Karbohidrogen istehsalı və emalı sahəsində Türkiyənin ən böyük şirkətidir. TRAO hazırda MDB, Şimali Afrika və Orta Şərqdə fəaliyyət göstərir. Azərbaycana gələn ilk xarici neft şirkətlərindəndir. – 182.

**144. Ceyhan limanı** – Aralıq dənizi sahilində liman. Uzunluğu 1695 km olacaq Bakı–Tbilisi–Ceyhan neft kəmərinin çəkilməsi nəzərdə tutulmuşdur. 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın energetika naziri Bakı–Tbilisi–Ceyhan [494-495] marşrutunu müdafiə edən «Ankara bəyannaməsi»ni imzalamışlar. Bakı–Tbilisi–Ceyhan neft kəməri 2005-ci ildə istifadəyə veriləcək. – 193,313.

**145. «Şevron»** – dünyanın ən iri neft şirkətlərindən biridir. 1979-cu ildə «Rasifik Kost oyl kompani» adı ilə yaradılmışdır. Korporasiyaya daxil olan şirkətlər ABŞ-da və dünyanın 100-ə qədər

ölkəsində fəaliyyət göstərir. «Şevron»un Bakıdakı nümayəndəliyi 1996-cı ildən fəaliyyət göstərir. – 192.

**146. Nemtsov Boris Yefimoviç** (d.1959) – Rusiya Federasiyasının ictimai və dövlət xadimi. 1997-98-ci illərdə Rusiya Federasiyası baş nazirinin müavini olmuşdur. – 193,200.

**147. Məsud Yılmaz** (d.1947) – Türkiyənin siyasi və dövlət xadimi. 1997-ci ildə Türkiyə Cümhuriyyətinin Baş naziri olmuşdur. Ana Vətən Partiyasının başqanıdır. – 200.

**148. Federiko Penya** (d.1947) –hüquq doktoru. 1993-97-ci illərdə ABŞ-ın nəqliyyat naziri, 1997-2000-ci illərdə isə energetika naziri olmuşdur. – 200.

**149. Əli Nağıyev** (d.1954) – Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziridir (1996). I çağırış Milli Məclisinin deputatı olmuşdur.– 204.

**150. Bülbül,** M u r t u z a M ə ş ə d i R z a o ğ l u M ə m m ə d o v (1897-1961) – Azərbaycan klassik vokal məktəbinin banisi, musiqi folkloru tədqiqatçısı. Bülbülün yaradıcılığı müasir Azərbaycan musiqili teatrı tarixində mühüm bir mərhələ təşkil edir. Bülbül Azərbaycan xalq mahnılarını, təsnifləri böyük sənətkarlıqla ifa etmişdir. Azərbaycan Ali Sovetinin deputatı olmuşdur. SSRİ xalq artisti və SSRİ Dövlət mükafatı laureatıdır. – 212-213, 296-305.

**151. Rəşid Behbudov**, B e h b u d o v R ə ş i d M ə c i d o ğ l u (1915-1989) – görkəmli Azərbaycan müğənnisi. Azərbaycan və SSRİ xalq artisti. Müstəsna gözəl səsə malik olan Rəşid Behbudov Azərbaycan vokal məktəbinin görkəmli nümayəndələrindəndir. SSRİ Dövlət mükafatı laureatı və Sosialist Əməyi Qəhrəmanı idı. – 222.

**152. Niyazi,** T a ğ ı z a d ə – H a c ı b ə y o v Z ü l f ü q a r o ğ l u (1912-1984) – görkəmli Azərbaycan dirijoru, bəstəkar. Azərbaycan milli dirijorluq məktəbinin formalaşması, inkişafı Niyazinin adı ilə bağlıdır. SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, iki dəfə SSRİ Dövlət mükafatı laureatı idi. – 222. [495-496]

**153. Petru Luçinski** (d.1940) – Moldovanın siyasi və dövlət xadimi. 1971-ci ildən 1989-cu ilə qədər dövlət və partiya işlərində müxtəlif vəzifələrdə çalışmışdır. 1997-cı ildən Moldova Respublikasının prezidenti. – 228-261.

**154. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını qorumaq, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə nazirliklərinin müşavirəsi və katiblikdir. Azərbaycan 2001-ci ildən AŞ-nın üzvüdür. 245,259.

**155. Bakı Dövlət Universiteti** (BDU) – Azərbaycanda elmi-pedaqoji kadrlar hazırlayan ən böyük ali təhsil ocağı, elmi-tədqiqat müəssisəsi. 1919-cu ildə yaradılmışdır. İlk vaxtlar tibb və tarix-filologiya fakültələri fəaliyyət göstərmişdir. Hazırda BDU-nun 17 fakültəsi, onlarla kafedrası, elmi-tədqiqat laboratoriyası və s. var. Universitetdə 43 ixtisas üzrə 13 minə yaxın tələbə təhsil alır.– 232-238,239.

**156. Natiq Əliyev,** Ə l i y e v N a t i q A ğ a ə l i o ğ l u (d.1947) – 1993-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidentidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. –253,416-431,467.

**157. Şərifov Abid** Q o c a o ğ l u (d.1940) – inşaatçı. 1995-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavinidir. – 253.

**158. ÇUAM** - Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı ( 10 oktyabr 1997). Sonradan Özbəkistan da bu quruma qoşuldu. – 245,246,247,248,260.

**159. Marşall planı** – İkinci dünya müharibəsindən sonra ABŞ-ın iqtisadi yardımı ilə Avropanın bərpasını və inkişafını nəzərdə tutan proqram. Bu plan ABŞ Dövlət katibi C.K.Marşall tərəfindən irəli

sürüldüyü üçün Marşall planı adlanır. Planın həyata keçirilməsində 17 Avropa dövləti (Qərbi Almaniya da daxil olmaqla) iştirak etmişdir. – 245.

**160. Trumen Harri** (1884-1972) – ABŞ-ın 33-cü prezidenti (1945-53) Xirosima və Naqasakiyə atom bombasının atılması haqqında sərəncam vermişdir. NATO təşkilatının yaradıcılarından biri. – 245. [496-497]

**161. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi-siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatında birləşən 180 min üzvü var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) o vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləmiş mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. – 262-292.

**162. Surət Hüseynov,** H ü s e y n o v S u r ə t D a v u d o ğ l u (d.1959) – 1993-94-cü illərdə Azərbaycan Respublikasının baş naziri olmuşdur. 1994-cü ilin oktyabrında Azərbaycanın müstəqilliyinə, suverenliyinə qarşı yönəlmiş çevriliş cəhdinə rəhbərlik etmişdir. – 280.

**163. Bill Klinton,** U i l y a m C e f e r s o n B l a y d (d.1946) – ABŞ-ın siyasi və dövlət xadimi. ABŞ-ın 41-ci prezidenti (1992-2000). Klinton xarici siyasətində SSRİ dağıldıqdan sonra yeni müstəqillik qazanmış dövlətlərlə, o cümlədən Azərbaycan Respublikası ilə münasibətlərin yaxşılaşdırılmasına mühüm əhəmiyyət vermişdir. – 286,289,290,382.

**164. Polad Bülbüloğlu** (d.1945) – bəstəkar, müğənni, ictimai və dövlət xadimi. Azərbaycan Respublikasının xalq artisti. TÜRKSOY Beynəlxalq Təşkilatının Baş direktorudur. Mahnıları 1960-70-ci illərdə SSRİ məkanında məşhur estrada müğənnilərinin ifasında səslənmişdir. 1988-ci ildən Azərbaycan Respublikasının mədəniyyət naziridir.

Polad Bülbüloğlu 2002-ci ildə MDB ölkələri mədəniyyət nazirlərinin mədəni əməkdaşlıq üzrə Şurasının sədri seçilmiş, «2001-ci ildə Türk dünyasına xidmətlərinə görə» TÜRKSAV mükafatı laureatı olmuşdur. – 296.

**165. Azərbaycan Dövlət Opera və Balet Teatrı –** Respublikanın ən böyük musiqi teatrı. Azərbaycan XKS-nin 1920-ci il 1 iyul tarixli qərarı ilə Birləşmiş Dövlət Teatrı tərkibində opera truppası kimi yaradılmışdı. 1924-cü ildə opera truppası bu teatrdan ayrılaraq müstəqil opera və balet teatrına çevrilmişdir. 1928-ci ildə teatra M.F.Axundovun adı verilmişdir. 1959-cu ildən Akademik Opera və Balet Teatrı adlanır. – 293,303.

**166. İrina Arxipova,** A r x i p o v a İ r i n a K o n s t a n t i n o v n a (d.1925) – rus müğənnisi. SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Beynəlxalq Musiqi Xadimləri İttifaqının prezidenti. Dövlət və Lenin mükafatları laureatı. – 294. [497-498]

**167. Ələsgər Ələkbərov,** Ə l ə k b ə r o v Ə l ə s g ə r H a c a ğ a o ğ l u (1910-1963) – görkəmli Azərbaycan aktyoru. Azərbaycan və SSRİ xalq artisti. 1933-cü ildən ömrünün sonunadək Azərbaycan Milli Dram Teatrında işləmişdir. Ələkbərovun yaradıcılığı Azərbaycan teatrının inkişafında mühüm rol oynamışdır. Ələkbərov həmçinin Azərbaycan kinosunun görkəmli aktyorlarındandır. – 303.

**168. İsmayıl Hidayətzadə,** H i d a y ə t z a d ə İ s m a y ı l H ü s e y n o ğ l u (1901-1951) – Azərbaycan aktyoru, rejissor və teatr xadimi. Azərbaycanın xalq artisti. Hidayətzadə istedadlı aktyor olmaqla yanaşı, həmçinin görkəmli rejissor idi. O, 1937-ci ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş rejissoru vəzifəsində çalışmışdır. – 303.

**169. Rüstəm Mustafayev,** M u s t a f a y e v R ü s t ə m M ə m m ə d o ğ l u (1910-1940) – Azərbaycan teatr rəssamı. Azərbaycan realist teatr-dekorasiya sənətinin yaradıcılarından biri. 1933-38-ci illərdə M.Əzizbəyov adına Azərbaycan Milli Dövlət Dram Teatrının baş rəssamı olmuşdur. – 303.

**170. Firəngiz Əhmədova,** Ə h m ə d o v a F i r ə n g i z Y u s i f q ı z ı (d.1928) – görkəmli Azərbaycan müğənnisi, SSRİ xalq artisti. F.Əhmədova Azərbaycan, rus və Qərbi Avropa bəstəkarlarının operalarında müvəffəqiyyətlə çıxış edir. O, kamera-vokal əsərlər ifaçısı kimi də məşhurdur. – 304.

**171. Rauf Abdullayev,** A b d u l l a y e v R a u f C a n b a x ı ş o ğ l u (d. 1937) – Azərbaycan dirijoru. Rauf Abdullayev Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijorudur. Azərbaycan Respublikasının xalq artistidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 307.

**172. Tehran** – İranın paytaxtı. Ölkənin əsas siyasi, iqtisadi, ticarət-maliyyə və mədəniyyət mərkəzi. Mərkəz ostanının inzibati mərkəzi. Tehranın əsası IX əsrdə Rey şəhərinin yaxınlığında qoyulmuşdur. XIII əsrdə monqollar Reyi dağıtdıqdan sonra Tehran böyüməyə başladı. 1785-ci ildə İranın paytaxtı elan edilmişdir. – 309,312-386,426.

**173. İslam Konfransı Təşkilatı,** İslam Konqresi Təşkilatı – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu və Fələstin Azadlıq Təşkilatını birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir. (Səudiyyə Ərəbistanı) Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. – 309-386. [498-499]

**174. Saparmurad Niyazov,** N i y a z o v S a p a r m u r a d A t a o ğ l u (d.1940) – Türkmənistanın siyasi və dövlət xadimi. 1985-ci ildə Türkmənistan SSR-in Nazirlər Sovetinin sədri, 1985-ci ilin dekabrından 1990-cı ilə qədər Türkmənistan KP MK-nın birinci katibi olmuşdur. 1990-cı ildən Türkmənistan Respublikasının prezidentidir. – 314-315,367,368,426.

**175. Hüsni Mübarək,** S e y i d M ə h ə m m ə d H ü s n i M ü b a r ə k (d.1928) – Misir Ərəb Respublikasının görkəmli siyasi və dövlət xadimi. 1975-81-ci illərdə Misir Ərəb Respublikasının vitse-prezidenti, 1981-ci ilin oktyabrından prezidentidir. – 316,317.

**176. Suxarto** (d.1921) – İndoneziyanın siyasi, hərbi və dövlət xadimi. 1968-98-ci illərdə İndoneziyanın prezidenti olmuşdur. – 318,320.

**177. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial inkişafına kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. –321,464.

**178. İslam İnkişaf Bankı** (İİB) — Beynəlxalq maliyyə institutu. İİB-nin əsası 1973-cü ilin dekabrında Ciddədə keçirilən müsəlman ölkələri maliyyə nazirlərinin konfransında qəbul olunmuş bəyannaməyə əsasən qoyulmuşdur. Bank islam, şəriət qaydalarına riayət edən ölkələrə maliyyə yardımı göstərir. Bankın 55 üzvü var. Azərbaycan Respublikası İslam İnkişaf Bankının 1991-ci ildən üzvüdür. – 321.

**179. Yasir Ərəfat** (d.1929) –1969-cu ildən Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri, 1996-cı ildən Fələstin milli administrasiyasının rəhbəri və Fələstin hərbi qüvvələrinin Baş komandanıdır. Nobel mükafatı laureatıdır. – 326-327.

**180. Hafiz Əsəd,** Ə s ə d H a f i z (1930-2000) - Suriyanın siyasi, hərbi və dövlət xadimi. 1970-71-ci illərdə isə Baş nazir, 1971-2000-ci illərdə isə Suriya Ərəb Respublikasının prezidenti olmuşdur.– 326,331-333,370.

**181. Məhəmməd Xatəmi** (d.1943) – İranın siyasi, ictimai və dövlət xadimi, hiccət-əl-islam, seyid. 1989-92-ci illərdə İranın mədəniyyət və islam orijentasiyası naziri olmuşdur. 1997-ci ildən İran İslam Respublikasının prezidentidir. – 328-330,338,343,344,379,386,388. [499-500]

**182. Brejnev Leonid İliç** (1906-1982) – partiya və dövlət xadimi. 1964-82-ci illərdə Sov. İKP MK-nın Baş katibi, 1977-ci ildən həmçinin SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri olmuşdur. – 347.

**183. Ayətüllah Xamnei,** H ü s e y n X a m n e i S e y i d Ə l i (d.1939) – İranın dini və dövlət xadimi. 1981-89-cu illərdə İranın prezidenti, 1989-cu ildən isə İran İslam Respublikasının dini rəhbəridir. – 358-360,379,386,388.

**184. EKO** – İqtisadi Əməkdaşlıq Təşkilatı. Qərargahı Tehrandadır. 1992-ci ildən Azərbaycan

Respublikası bu beynəlxalq təşkilatın üzvüdür. – 368.

**185. Fəhd ibn Əbdül Əziz Al Səid** (d.1922) – 1982-ci ildən Səudiyyə Ərəbistanının kralıdır. – 378.

**186. Kofi Annan** (d.1938) –1997-ci ildən Birləşmiş Millətlər Təşkilatının Baş katibidir.– 382-384.

**187. Emin Sabitoğlu,** Mahmudov Emin Sabit oğlu (1937-2000) – tanınmış bəstəkar, professor. Azərbaycanın xalq artisti. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 389.

**188. YUNİSEF,** BMT-nin Uşaq Fondu – 1946-cı ildə təsis edilmişdir (1953-cü ildən indiki adı ilə adlanır). BMT-nin müəssisəsi olub uşaqlar üçün proqramlar üzrə fəaliyyəti əlaqələndirir, başlıca olaraq inkişaf etməkdə olan ölkələrə yardım göstərir. Maliyyə təsisatlarının mənbələrini hökumətlərin könüllü üzvlük haqları, ictimai təşkilatların, xüsusi şəxslərin və başqalarının ianələri təşkil edir. Fondun rəhbər orqanında - İdarə heyətində 41 dövlət təmsil olunur. Katibliyi Nyu-Yorkda, şöbələri Avropa üzrə Cenevrədə, regionlar üzrə bir sıra inkişaf etməkdə olan ölkələrdə yerləşir. Nobel sülh mükafatı laureatıdır. – 392.

**189. Mikayıl Abdullayev,** Abdullayev Mikayıl Hüseyn oğ-lu (1921- 2002) – görkəmli Azərbaycan rəssamı. Azərbaycan təsviri sənətinin inkişafında mühüm rol oynamışdır. SSRİ xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü, Azərbaycan Dövlət və Beynəlxalq Nehru mükafatları laureatıdır. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 399-400.

**190. İmaməli Rəhmanov,** Rəhmanov İmaməli Şərif oğlu (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin sədri olmuşdur. 1992-ci ilin noyabrından Tacikistan Respublikasının prezidentidir. – 353-354, 396. [500-501]

**191. Ömər Eldarov,** Eldarov Ömər Həsən oğlu (d.1927) – görkəmli Azərbaycan heykəltəraşı. Azərbaycan MEA-nın həqiqi üzvü. Rəssamlıq Akademiyasının müxbir üzvü. Heykəltəraşlığın müxtəlif janrlarında (monimental abidə, portret, büst, qorelyef və s.) əsərlər yaradır. 1995-ci ildən Milli Məclisin deputatıdır. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 401-402.

**192. Avropa Yenidənqurma və İnkişaf Bankı** – Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 57 üzvü var, həmçinin Avropa İnvestisiya Bankı və Avropa Birliyi ora daxildir. – 409,464.

**193. Rəfael Allahverdiyev,** Allahverdiyev Rəfael Xanəli oğlu (d.1945) – 1993-2001-ci illərdə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. 1995-2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. – 406,409,410,437-450,466,469,470.

**194. Artur Rasizadə,** Rasizadə Artur Tahir oğlu (d.1935) – Azərbaycanın dövlət xadimi. 1986-92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin müavini işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. – 422,423,424,426,429,431,434,435.

**195. Ramiz Mehdiyev,** Mehdiyev Ramiz Ənvər oğlu (d.1938) – Azərbaycanın siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəridir. 1995-2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. – 441. [501]

## Şəxsi adlar göstəricisi


Abbaszadə Hüseyn – 70,225
Abdulla ibn Əbdül Əziz Al Səid – 377-378
Abdullayev Çingiz – 47
Abdullayev Mikayıl – 399-400
Abdullayev Rauf – 307
Abdullayeva Mahirə – 68
Abdullazadə Fatma – 74,76,92,441
Abişov Şakir – 457-461
Adams Terri – 179,190,197
Adil Mirseyid – 67
Adilə xanım – 296
Axundov Mirzə Fətəli – 82,107,108,174
Axundova Elmira – 102,103
Akif Əhmədgil – 69
Akif Səməd – 69
Alatas Əli – 318-320
Allahverdiyev Rəfael – 406,409, 410, 437-450,466, 469,470
Almas İldırım – 35,36
Anar – 7-11,46,50,59,60,64,66-67, 70,73-74,75,78,79,80,103
Annan Kofi – 382-384
Arxipova İrina – 294
Atatürk, Mustafa Kamal – 56,132
Ayaz Vəfalı – 22
Babanlı Vidadi – 70
Babayev Adil – 70
Bağırov Əlabbas – 69
Balaş Azəroğlu – 12,36
Behbudov Rəşid – 222
Behrudi Rüstəm – 69,78-80
Bəbirov Adil – 167
Bəhmənli Vaqif – 69
Brejnev Leonid – 347
Bülbül – 212-213,296-305
Bünyadov Ziya – 24,271
Bünyadzadə Ülvi – 72
Cabbarlı Cəfər – 83,125,174
Cabir Novruz – 70[502-503]
Camalov Əlihüseyn – 431-437
Cavadov Rövşən – 282
Cəbrayılzadə Vaqif – 47
Cəfərli Mübariz – 68
Cəfərov Nizami – 68
Çertsen – 16
Çəmənzəminli Yusif Vəzir – 125
Çörçill Uinston – 179,180
Dəmirəl Süleyman – 55,113,312-313
Dəmirqol Fərman – 282
Dilbazi Mirvarid – 9,25-30,70,101,125
Düfü Jak – 321-322
Elçibəy, Əbülfəz Əliyev – 18,43,44,350,365
Eldarov Ömər – 401-402
Əbülhəsən – 70,125
Əfəndiyev Elçin – 9,45-53,64,65,70,75
Əfəndiyev İlyas – 70,125
Əhməd Cavad – 125
Əhmədli Sabir – 70

Əhmədova Firəngiz – 304
Əhrari İbrahim – 35
Əjdər Ol – 68
Ələkbərov Ələsgər – 303
Əli Kərim – 70
Əliyev Muxu – 144
Əliyev Natiq – 253,416-431,467
Əlisəmid Kür – 78,79
Əlizadə Nuri – 68
Əmir Musa – 316-317
Əmrahoğlu Arif – 69
Əsəd, Hafiz – 326,331-333,370
Əsgərov Surxay – 93,222
Əylisli Əkrəm – 14-17,18,23,48,50,70,73,78, 306
Fedeyev Aleksandr – 30
Fəhd ibn Əbdül Əziz Al Səid – 378
Fərzəliyev Becan – 43
Fikrət Qoca – 18,48,70,73
Fikrət Sadıq – 68
Fikrətoğlu Orxan – 68
Füzuli Məhəmməd – 16,31,82,98,107,110
Hacıbəyov Üzeyir – 107,222,295,297,301,302,303, 304,305
Hacılı Təranə – 76
Hacıyev – 134,136
Hərəvi İlyas – 334-335[503-504]
Haşimi Rəfsəncani Əli Əkbər – 379-381
Həmidov İsgəndər – 267
Həsənova İradə – 175
Həsənova Şəlalə – 68
Həsənzadə Nəriman – 70
Hidayətzadə İsmayıl – 303
Höte – 173
Hüseyn Arif – 70
Hüseyn Cavid – 31,74,83,109,125,174
Hüseynov Heydər – 148
Hüseynov İsa – 70
Hüseynov Rafael – 68,90
Hüseynov Surət – 280
Xaqani Əfzələddin – 98,108
Xamnei Ayətüllah – 358-360,379,386,388
Xanlı Piruz – 219,220,223,224
Xanlı Betti – 219,220,222,223,224
Xatəmi Məhəmməd – 328-330,338,343,344,379,386,388
Xeyrəddin Qoca – 60
Xəlil Rza Ulutürk – 70,103,121,125,128,271
Xəlilov Xəlil – 271
Xudaverdiyev Kamal – 173
Xudiyev Nizami – 65
İbrahimbəyov Rüstəm – 127,128
İbrahimov Mirzə – 22,23,70,85
İmanov Müslüm – 404-416,421,422,423,424
İsmayılov Heydər – 303
İsmayılzadə İsa – 70
İsmət Əbdül Məcid – 355-356
Kələntərli Asif – 43
Kərimov Kərim – 176
Kərimzadə Fərman – 70
Klinton Bill – 286,289,290,382
Kol Gelmut – 19,20
Qabil – 11-13,36,48,70,105

Qamsaxurdia Zviad – 17
Qarayev Mahir – 68
Qazıyev Rəhim – 40,41
Qəhrəmanov Gülabbas – 450-457
Qoqol Nikolay – 73
Qorbaçov Mixail – 119,120,121
Qorki Maksim – 17
Quliyev Eldar – 127
Quliyev Tofiq – 165-166,214-215[504-505]
Laraki İzzəddin – 323-325,338
Luçinski Petru – 228-261
Maqomayev Müslüm – 12
Mamardaşvili Merab – 17-18
Mehdi Hüseyn – 70,84,105,125
Mehdiyev Ramiz – 441
Məhəmmədzadə Yəhya – 381
Məmməd Araz – 12,60,70
Məmməd Aslan – 103
Məmməd Rahim – 70,125
Məmmədxanlı Ənvər – 70
Məmmədquluzadə Cəlil – 18,24,82,83,110,169,171,174
Məmmədov Etibar – 39
Məmmədov Qafar – 43
Məlikzadə İsi – 70,73
Məzahir – 223
Mikayıl Müşfiq – 70,125
Mir Cəlal – 125
Musa Urud – 69
Mustafazadə Azər – 50
Mustafayev Rüstəm – 303
Mustafayeva Laləzar – 175
Mübarək Hüsni – 316,317
Mütəllibov Ayaz – 14,43,269
Nağıyev Əli – 204
Natəvan Xurşidbanu – 29
Nazarbayev Nursultan – 357
Nemtsov Boris – 193,200
Nəbi Xəzri – 12,18,170
Nəsimi İmadəddin – 82,98,107,331
Nəvaz Şərif – 361-362
Nizaməddin Mustafa – 68
Nizami Aydın – 72
Nizami Gəncəvi – 82,98,107,304
Niyazi – 222
Niyazov Saparmurad – 314-315,367,368,426
Novruzov Ramiz – 172
Ordubadi Məmməd Səid – 125,30
Osmanov Bəhram – 167
Penya Federiko – 200
Pənahlı Nemət – 24,39,42
Polad Bülbüloğlu – 296
Rafiq əl-Həqiqi – 375-376[505-506]
Rafiq Tağı – 67
Rasizadə Artur – 422,423,424,426,429,431,434, 435
Ramiz Rövşən – 175
Reyhan Vahid – 347-352
Rəfibəyli Nigar – 26,70
Rəfiq Zəka – 15,103
Rəhimov Süleyman – 32,85,105,125
Rəhman – 35

Rəhmanov İmaməli – 353-354,396
Rəsul Rza – 29,32,70,72,80,84,105,125, 133
RəşidAbdulla əl-Nəimi – 336-337
Roza xanım – 392
Rüstəmxanlı Sabir – 30-45
Rüstəmov İzzət – 154,450
Sabir, Mirzə Ələkbər – 18,82,83,110
Sabitoğlu Emin – 189
Salahzadə Ələkbər – 68,70
Salam Sarvan – 68
Sarıvəlli Osman – 70,125
Səməd Vurğun – 21,29, 30,31,70,80, 84, 98,105, 125, 133,297,303
Səyyad Aran – 68,91
Sokrat – 68
Suxarto – 318,320
Süleyman Rüstəm – 29,32,70,84,105
Şekspir – 173,175
Şevardnadze Eduard – 147
Şeyx Şamil – 139-149
Şeyx Zaid – 336,337
Şeyxülislam Allahşukur Paşazadə – 146
Şəhriyar – 93
Şəkərli Saday – 68
Şərifov Abid – 253
Şıxlı İsmayıl – 22,70
Şirak Jak – 123,286
Şirvani Seyid Əzim – 107
Tarkovski Andrey – 23
Ter-Petrosyan Levon – 248,249,285,374
Təbrizli Sirus – 17-25,265,266,291
Tofiq Bayram – 70
Tofiq Qaraqaya – 78,79
Trumen Harri – 245
Vahadzadə Bəxtiyar – 24,60,70,104,120,121,125,128, 167-175[506-507]
Vaqif Molla Pənah – 16,27,82,107,109,303
Vəkilov İsrafil – 333,335,375
Vəliyev Əli – 125
Vəzirov Nəcəf bəy – 107
Yasir Ərəfat – 326-327
Yeltsin Boris – 123,145,286,308,369
Yəhya əl-Əzizi – 370-371
Yılmaz Məsud – 200
Yusif Səmədoğlu – 9,24,50,64,70
Yusifli Cavanşir – 69
Yusifli Vaqif – 66-77
Yusifov Fikrət – 208[507]

## Coğrafi adlar göstəricisi


Abşeron – 433
Afrika – 55, 252
Ağcəbədi – 450,454,455
Aktay – 192
Almaniya – 35,56,79,93,221,454
Amerika Birləşmiş Ştatları – 93,122,123,136,181,192,200,219,220, 221,223,224,231,235,286,288,289, 290,341,369,372,382,454,455
Ankara – 132
Asiya – 259
Aşqabad – 193
Avropa – 55,118,194,243,244,259,261,322,340
Babək – 43
Bakı – 89,102,118,192,193,203,204,208,228, 229,234,261,267,298,313,351,405,406, 407,409,413,424,432,433,436,438,439, 446,448,449, 453,454,455,456,467,470
Balakən – 407,447,467
Batumi – 192
Belarus – 244
Belçika – 79,250,252
Bərdə – 450,451,454,455
Biləcəri – 432
Biləsuvar – 452
Binəqədi – 432
Birləşmiş Ərəb Əmirlikləri – 336-337,342,396
Bolqarıstan – 193,250,254
Bosniya-Hersoqovina – 339
Böyük Britaniya – 181
Brüssel – 253
Cakarta – 309,318,324,340
Cammi – 339
Ceyhan – 193,313
Cənubi Azərbaycan – 35,36,48
Ciddə –377
Culfa – 43
Çeçenistan – 57
Dağlıq Qarabağ – 101,122,236,241,249,259,285,286,309,341, 354, 365,373,374,383[508-509]
Dağıstan – 124,141-149
Dəməşq – 326
Dunay çayı – 244
Əfqanıstan – 339
Əli Bayramlı – 405,416,424,433
Ərəbistan – 55
Fələstin – 326-327
Fransa – 93,122,136,221,235,286,341,369,372
Gəncə – 350,405,409,412,450,451,452,457,468
Gürcüstan – 17,18,117,147,194,200,231,244,246,249, 254, 260
Hacıqabul – 433
Hələb – 331
Hollandiya – 78,444
Xəzər dənizi – 57,118,178,179,183,184,185,186,187,189, 190, 191,260,317,343,349, 363,364,367
İndoneziya – 318-320
İngiltərə – 93,101,136,221

İran – 35,36,93,127,184,309,310,311,312-386,426
İran körfəzi – 253,413
İslamabad – 361
İstanbul – 108
İsvesrə – 252
İtaliya – 59,250
Kanada – 252
Kasablanka – 309
Kəbə – 27
Kələki – 350
Kərbəla – 27
Kəşmir – 339
Kipr – 167
Kişinyov – 123,230,250,253,285,369,374
Kopenhagen – 310
Krım – 246
Küveyt – 342
Qafqaz – 124,139,140,141,142,143,146,147,149,246, 259,320,354
Qaqauziya – 257,258
Qara dəniz – 117,192,194,244
Qazax – 29,80
Qazaxıstan – 94,118,184,192,244,254,357,364
Qırğızıstan – 244,254
Qroznı – 187[509-510]
Laçın – 285,341,383
Lahor – 361
Leninqrad – 438
Lənkəran – 91,351
Livan – 326,334-335,375-376
Lüksemburq – 250
Mahaçqala – 139
Masallı – 407,447,468
Mədinə – 27,377
Məkkə – 27,377
Mərakeş – 309,324,336,340,345,377,387
Mərkəzi Asiya – 118,190,194
Mingəçevir – 405,455
Misir – 316-317, 326,333
Moldova – 123,228-261
Moskva – 8,18,32,33,37,38,40,41,42,47,50,60,129, 145,173,234,261, 285,347,374
Naftalan – 424
Naxçıvan – 17,23,31,33,37,41,43,44,62,78,87,88,109, 266,267,279, 352,381,426
Neftçala – 433
Niderland – 250
Norveç – 182
Novorossiysk – 117,187,313
Ordubad – 43,79
Özbəkistan – 200,254
Pakistan – 341,361-362
Pridnestrovye (Dnestryanı) – 235,241,246,259
Pirşağı – 25
Poti – 118
Rumıniya – 193,250
Rusiya –55,57,117,121,123,136,140,144,145,146, 147,148,182,184,187,192,193,200,235,247,248,286,340,350,369,372,410,426
Salyan – 433
Sədərək – 80

Səngəçal – 117
Səudiyyə Ərəbistanı – 182,341,377-378
Siyəzən – 424
Somali – 339
Strasburq – 231,260,285,286,374
Sumqayıt – 351,405,424,434,453,457-461
Supsa –117,187[510-511]
Suriya – 331-333,370-371
Şamaxı – 91
Şəki – 144
Şərur – 43
Şimali Qafqaz – 147,148,187
Şuşa – 109,285,300,303,341,383
Tacikistan – 234,253-354,396
Tayvan – 454,455
Tbilisi – 108, 121
Tehran – 309,312-386,426
Təbriz – 352,381
Tərtər – 80
Türkiyə – 35,55,56,78,79,93,113,14,118,127,132,134,167,182,192, 193,200,250,312-313,413
Türkmənbaşı – 118,254
Türkmənistan – 118,184,193,314-315,364,367,368,426
Ukrayna – 193,200,231,244,246,249,254,259,260
Yaponiya – 182
Yunanıstan – 193
Zaqafqaziya – 246,259
Zaqatala – 407,447,468[511]

**Kitabı çapa hazırlayanlar** ***Tofiq Babayev, Kamil Muxtarov***

**Rəssamı** ***Fuad Fərəcov***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompüter tərtibatı** ***Məhəbbət Orucov***

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı 1. Şərti çap vərəqi. Uçot vərəqi. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küs.61. dalan 2/3.
«Qismət» Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.